AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

Sadir MƏMMƏDOV,
Tural MƏMMƏDOV

QARABAĞ

MİF və HƏQİQƏT

DƏRS VƏSAİTİ

Bakı Slavyan Universiteti Elmi Şurasının
29.10.2021-ci il tarixli iclasının qərarı ilə
(pr. № 2) çapa tövsiyə edilmişdir.

Bakı – 2022

Layihənin rəhbəri
Bakı Slavyan Universitetinin rektoru səlahiyyətlərini icra edən, siyasi elmlər üzrə fəlsəfə doktoru
ANAR NAĞIYEV

Elmi məsləhətçi **NİZAMİ MƏMMƏDOV TAĞISOY**
filologiya elmlər doktoru, professor

Redaktorlar: **YAŞAR ALXASOV**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
İBRAHİM QULİYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **HABİL QURBANOV**
hüquq elmləri doktoru, professor
EYNULLA MƏDƏTLİ
tarix elmləri doktoru, professor
ƏSGƏR ƏHMƏD
tarix üzrə fəlsəfə doktoru, dosent (Bakı Slavyan Universiteti)
ŞİRİNBƏY ƏLİYEV
tarix üzrə fəlsəfə doktoru, dosent (Bakı Slavyan Universiteti)

Sadir Məmmədov, Tural Məmmədov.
M52 QARABAĞ: MİF VƏ HƏQİQƏT. ***Dərs vəsaiti.***
Bakı, "Təhsil", 2021, 480 səh.

Kitabda Azərbaycanın əzəli-əbədi ərazisi, Qarabağın tarixi-coğrafi mövqeyi, Qarabağ ərazisində yaşamış tayfalar, onların mədəni-ədəbi abidələri, ermənilərin Qarabağda, eləcə də tarixi Azərbaycan torpağı olan Zəngəzurda məskunlaşması, onların türk torpaqlarında dövlət qurmaq cəhdləri, erməni uydurmalarının ifşası, qədim erməni dili ilə bağlı həqiqəti əks etdirməyən iddiaları, Qarabağda erməni cinayətləri, Qarabağ probleminin həllini əyaniləşdirən Azərbaycan dövlətinin siyasi mövqeyi və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsində qazandığı Şanlı Zəfərimiz şərh edilir.

Kitab universitet tələbələri, magistrantlar, doktorantlar, müəllimlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

M 4502020000 / 053 2022

© Sadir Məmmədov
© Tural Məmmədov

Bizim hamımızın bir böyük dərdi var: Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə, obasına qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və bölgədə sülh yaratmaq!

ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq, çünki bu qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ,
ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV

Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi – biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq.

AZƏRBAYCAN RESPUBLİKASININ
BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA

GİRİŞ

Dünyaya göz açdığı gündən bəşər övladı torpaqla və torpağın ona bəxş etdiyi nemətlərlə vəhdətdə olmuşdur. İbtidai insan təbiətdə baş verən hadisələrin səbəbini anlamadığı üçün onlara hansısa mifik, gözəgörünməz bir qüvvə kimi baxmışdır. İlkin olaraq yaşam üçün zəruri olan su, günəş və torpağa doğma bir ünsür kimi yanaşılmışdır. İnsanlar ibtidai icma quruluşunda zəruri ehtiyaclarını ovçuluqla təmin etmişlər. Sonralar insan bitki mənşəli qidalarla tanış olmuş və bu da onu getdikcə torpağa daha sıx bağlamışdır. Zaman keçdikcə insanlar torpağın onlara bəxş etdiyi nemətləri öz istədikləri yerdə və zamanda yetişdirmək qabiliyyətinə yiyələnmişlər. Bu isə onların torpağa getdikcə daha çox yaxınlaşmasına səbəb olmuşdur. İnsanlar torpağa onlara həyat verən canlı bir qüvvə kimi baxmağa başlamışlar.

İnsan özünü dərk etdiyi gündən torpaq müqəddəs varlıq hesab olunmuş və bu müqəddəslik bu gün də davam etməkdədir. Türk xalqlarında torpaq anlayışı isə hər zaman qeyrət, namus anlayışları ilə sinonim kimi işlənmişdir. Təbii ki, əski türk qəbilələrindən danışarkən onların ətraf torpaqları fəth etməsi və bunun nəticəsində böyük sərvətlər əldə etmələrini inkar etmək olmaz. Bu yolla türk xaqanları misli görünməmiş zənginliklərin sahibi olurdular. Doğrudur, onlar çadırlarda yaşayırdılar. Lakin bu çadırlar adi çadırlar deyildi. Bu çadırlar bir çox saray sahibinin qibtə edəcəyi dərəcədə dəbdəbəli yaşayış yerləri idi. Bu çadırların ümumi görünüşünü biz məşhur Bizans tarixçisi Menandrın Bizans səfirlərinin türk xanı tərəfindən qəbulunun təsvirində görə bilərik: "...bu çadırlar ustalıqla müxtəlif rənglərə boyanmış ipək saplardan hörülmüşdü. Onlar şərab içirdilər. Lakin bu bizim üzümdən sıxılmış şərablarımıza bənzəmirdi. Onların istifadə etdiyi içki nə isə qeyri-adi, təkrarolunmaz dada malik idi. Ertəsi gün onlar başqa çadıra keçirildilər. Müxtəlif qızıl heykəlciklər qoyulmuş çadırda İstəmi xan qızıldan hazırlanmış taxtda əyləşmişdi. Çadırın ortasında qızıl qablar, ətrafda isə qızıl çəlləklər qoyulmuşdu. Burada onlara böyük ziyafət verildi. Ertəsi gün onlar başqa bir çadıra dəvət olundular. Üzəri qızılla örtülmüş taxta dirəklər qoyulmuş çadırın baş tərəfində dörd qızıl tovuz quşu üzərində daha bir qızıl taxt qoyulmuş-

du. Çadırın girişində arabalarda gümüşdən və qızıldan düzəldilmiş çoxlu qab, səbət və müxtəlif heyvan heykəlcikləri mövcud idi. Türk xanlarının dəbdəbəsi bax bundan ibarət idi".

Bütün bu var-dövlət, əlbəttə ki, talan olunmuşdu. Lakin onların qələbələri və dünyanın yarısına sahib olmaları təsadüfi deyildi. Onlar o qədər yüksək idarəçilik sistemi və ordu yaratmışdılar ki, əminliklə demək olar ki, onlar buna layiq idilər (L.Qumilyov).

Böyük Azərbaycan şairi Nizami Gəncəvi, bildiyimiz kimi, öz əsərlərində yeri gəldikcə bu və ya digər xalqların milli xüsusiyyətlərindən söhbət açmışdır. Türklərin böyük imperiyalar yaratmaq məqsədilə ətraf torpaqları fəth etmələrini onlarda olan ədalət həvəsi ilə izah etmişdir. Yəni qədim türklər torpaqları talan etmək məqsədi ilə deyil, həmin xalqların idarə olunmasında hökmranlıq etmək və ədaləti bərqərar etmək məqsədi ilə hərbi yürüşlər etmişlər.

Digər tərəfdən, türklərin bir çox xalqlardan və millətlərdən fərqli olaraq müharibə dönəmində göstərdikləri humanistliyi xüsusilə vurğulamaq yerinə düşərdi. Hətta ələ keçirilən əsirlərin belə öz yaşam tərzlərindən şikayət etmədikləri barədə tarixi məlumatlar vardır. Bu qullar əsasən qadınlardan ibarət olmuşdur. Uğurlu hərbi əməliyyatdan sonra minlərlə qadın qul qismində ölkəyə gətirilirdi. Lakin burada belə bir sual doğur: köçəri həyat tərzi şəraitində qullardan necə istifadə olunurdu? Axı qul hər zaman öz sahibinin atını minib qaça bilər. Bu zaman, atalar sözü ilə desək, qulun astarı üzündən baha başa gələr. Bəzi tədqiqatçılar bunu qulların yaşayış tərzinin heç də ağır olmaması ilə izah edir. Lakin bu da inandırıcı deyil. Qulun yaşam tərzi nə qədər yaxşı olsa da, o quldur və əgər o, quldursa o hər zaman qaçmağa can atacaqdır. O zaman qul anlayışının başqa bir məna ifadə etməsi fərziyyəsi yaranır ki, bunun da sübutunu biz yazılı abidələrdə görürük. Buna görə də N.Y.Biçurin qul sözünü azadlıqdan məhrum olunmuş deyil, müəyyən dərəcədə kiminsə tabeçiliyini qəbul etmiş bir insan kimi tərcümə edir. VI-VIII əsrlərdə qullardan istifadə fərqli şəkildə olmuşdur. Qulları öz torpaqlarına gətirdikdən sonra onları müəyyən ərazidə məskunlaşdırıb onlardan sadəcə olaraq vergi alınırdı. Və ehtimal etmək olar ki, bu şəkildə məskunlaşan

insanlar özlərini bu dövlətin insanları olaraq hiss edirdilər. Çünki onlar eyni zamanda türk əsgərinin himayəsi altına keçmiş olurdular.

Qul kimi torpaqlarımızda yaşayıb, sonradan torpaq iddiasına düşən mənfur erməni xislətini, onların riyakar və həyasız maskalarını elə onların şəxs adları ilə sübut etmək olar. Fikir verin: Allahverdiyan, Tanrıverdiyan, İmamverdiyan və s. Bu şəxs adları sırf Azərbaycan türklərinə aid olan, öz dini etiqadına görə ilahidən umduqları övladlarına verdikləri adlardır. "Verdi" formatı dilimizdə "Allahın verdiyi pay" mənası ilə müxtəlif sözlərə birləşməklə məhsuldar sözdüzəldici morfemə çevrilmişdir. Ermənilər isə qul olduqları üçün, nökərçilik etdikləri yerin adət-ənənələrini, dinini qəbul edərək ("özününküləşdirərək") bu adlardan istifadə etmişlər. Daha başqa bir misal, Dəmirçiyan, Nalbandyan, Mirzəyan və s. erməni qullarının nəsilliklə bizə dəmirçilik, nalbəndlik, mirzəlik etdiklərini əyani şəkildə sübut etmirmi?

Filologiya elmləri doktoru, professor Nizami Məmmədov Tağısoyun son illər ərzində üzərində ardıcıl və intensiv işlədiyi əsərinin "Erməni mədəniyyətində türk-Azərbaycan elementləri" bölməsində müəllif XV əsrdən başlayaraq ermənilər azərbaycanlıları və müsəlmanları nə qədər eybəcər şəkildə təqdim etməyə çalışsalar da, ermənilərin daha əksər hissəsinin xristian yox, islam mentalitetinin daşıyıcıları olduğunu söyləyir. Maraqlıdır ki, müəllif bu fikri gürcü tarixçisi və publisisti Feliks Tsertsvadzenin "Unudulmuş soyqırımı" (Цервадзе Ф. Забытый геноцид. Нью-Йорк, 2005, 132 с.), professor İsrafil Abbaslının "Azərbaycan həqiqətləri" (erməni ədəbi mənbələrində) (Азербайджанские истины (в армянских литературных источниках). Сост., перевод и сбор матер. доктор философских наук, профессор И.Аббаслы. Баку, "Нурлан", 2008, 56 с.), professor Rauf Hüseynzadənin "Qafqaz və ermənilər" (Гусейнзаде Р. Кавказ и армяне. Баку, Печатный дом "Апостроф", 2014, 486 с.), professor Kamran İmanovun "Gəldim, gördüm, ...yiyələndim" (Иманов К. "Пришел, увидел,… присвоил". Баку, Агентство по авторским правам Азербайджанской Республики, 2009, 29 с.), Araz Qurbanovun "Müsəlman ermənilər" Regionda geosiyasi oyunların yeni iştirakçıları (Bakı, "Avropa", 2017, 404 s.) kitablarına söykənərək təsdiqləmişdir.

Nizami Məmmədov Tağısoy erməni quduzluğunun mahiyyətini açmağa cəhd etdiyi bu kitabda təqdim olunmuş, həm ermənilərin

etnik xüsusiyyətləri ilə bağlı erməni nümayəndələrinin, həm də dünya müdriklərinin söylədikləri fikirlər yer alır. Müəllif Əmrəli İsmayılovun "Ermənilik ideologiyası, fəlsəfəsi və cinayətkarlığı və erməni faşizmi" (Исмаилов А. Идеология, философия и преступления армянства и армянского фашизма. Втор., испр. и доп. изд., Баку, Фонд "Знание", 2018, 640 с.) kitabından nümunə gətirib ayrı-ayrı dünya müəlliflərindən iqtibas etdiyi ifadələr sözün həqiqi mənasında tükürpədicidir. Onlardan bir neçəsinə diqqət yetirmək yaxşı olardı. Məsələn, K.Marks: "Dünya qadınlarının əksəriyyəti əxlaqsızlıq, ərinə xəyanət etmə sənətinə erməni qadınları etdiyi kimi yiyələnməyə çalışsa da, bunu ermənilər kimi edə bilməmişlər. Ermənilərin yeniyetmə qızları öz bakirəliyindən çox erkən imtinanı, namusunu qorumamaq yox, sanki üstünün tozunu təmizləyən kimi etmişlər" /К.Маркс (К.Маркс и Ф.Энгельс). Избранные. т.3,с.131/, "Ermənilər öz qadınlarını özləri sağ-salamat qalmaq naminə başqa xalqların altına peşkəş edən birinci millətdir" (К.Маркс и Ф.Энгельс. Избранные, т.3,с.131), "Arximandrit ata, ermənilərin sənədlərinə inanmayın, onlar dələduzdurlar, onlar saxta sənədlər fikirləşib düzəldir, onları peyinin içinə, yaxud yaş, rütubətli yerlərə qoyurlar ki, köhnəlsin, saralsın və rəngi dəyişsin" (Епископ Порфирий Успенский. Книга бытия моего, ч.1,с.597), ermənilər haqqında daha alçaldıcı fikri XX əsr erməni ədəbiyyatının klassiki, repressiyaya məruz qalmış istedadlı şair Yegişe Çarents söyləmişdir: "Riyakarlıq bizdə hələ ana bətnində yaranır", Teymurləng isə ermənilər haqqında aşağıdakıları demişdir: "Tarix mənə iki şeyi bağışlamayacaq: birinci – mən ermənilər bir xalq kimi məhv etmək istəmişəm, ikinci – sözümə əməl etməyib, bunu həyata keçirməmişəm. Düzdür, ermənilərin arasında bəzən yaxşı adamlara da rast gəlmək mümkündür, lakin ümumən götürdükdə əclaf xalqdır. Heç vaxt fikirlərini üzə deməz. Buna görə mədəni görünər. Lakin imkan düşsə, kəsəcəkdir ".

1912-ci ildə nəşr olunmuş "Русское знание" qəzetinin 18-ci sayında aşağıdakı fikirlər vahimə yaradır: "Ermənilər son 40 il ərzində öz simalarını, vicdanlarını, öz mənəvi və əqli görkəmini yaxşı göstərdilər. Bu ən pozğun, ən yalançı, ən quduz və ən cinayətkar xalqlardan biridir". Rus tarixçisi və etnoqrafı V.L.Veliçkonun "Qafqaz. Rus işi və qəbilələrarası məsələlər" kitabında qeyd etdikləri onların iç üzünü daha yaxşı nümayiş etdirir: "Ermənilər imkan düşən kimi özlərinin

"tarixi xidmətlərini" ortaya çəkmə fürsətini əldən vermirlər və guya hazırki ləyaqətlərini parazit üsulu ilə həyata keçirərək, onunla qonşu tarixi daha aydın, şübhəsiz və ləyaqətli olan xalqları gözükölgəli etmə fikrini əldən verən deyillər" (Amirali İslamov, c.6-13).

Torpağın insanları qida ilə təmin etməsi onu mülkiyyət formasına çevirmək zərurətini yaratmışdır. Zaman keçdikcə insanda öz torpağını digər fərdlərin torpaqlarından ayırmaq, daha çox torpaq əldə etmək arzusu oyanmışdır. Daha çox torpaq daha çox qida demək idi. Daha çox qida isə, öz növbəsində, daha çox hakimiyyət anlamı verirdi. Zehinlərdə baş verən bu yanaşma dəyişikliyindən sonra torpaq özünün mifik müqəddəsliyini itirərək, bir növ maddiyyata, maddi varlığın ölçü vahidinə çevrilir. Torpağın qidalandırıcı gücünü kəşf edən insan onun bu kəşfinin gələcəyin müharibələrinin əsas səbəbinə çevriləcəyindən, əlbəttə ki, xəbərsiz idi. Yəni bir anlamda insana həyat verən torpaq bədənin ehtiyaclarını ödəməklə yanaşı, onun bu candan məhrum olmasına da səbəb olmuşdur. Tarixdə yaranmış və süqut etmiş bütün imperiyaların gücü onun fəth etdiyi torpaq sahəsinin həcminə görə müəyyənləşmiş və indi də müəyyənləşməkdədir. Orta əsrlərdə torpaq sözünün həyat, varlıq anlayışı ilə bir növ sinonim təşkil etdiyini söyləmək olar. Lakin bununla yanaşı, torpaq sözünün məna etibarilə həm də müharibə, qan, iztirab məfhumlarına yaxınlaşdığını da iddia etmək olar.

Qeyd etmək lazımdır ki, müasir dövrdə baş verən müharibələrin səbəbini birmənalı olaraq torpaq anlayışı ilə əlaqələndirmək olmaz. Lakin orta əsr təfəkküründən hələ qopa bilməyən və belə təfəkkürün formalaşdırdığı xəstə təxəyyülün ardınca gedib əlavə torpaq sevdasına düşən xalqlar və düşüncələr də yox deyildir. Belə xəstə xülyaların hansı fəsadlarla nəticələndiyini isə biz azərbaycanlılara izah etməyə, düşünürük ki, ehtiyac yoxdur. Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, hər bir tarixi dövrün özünəməxsus müharibə səbəbləri olmuşdur. İlkin dövrlərdə müharibələr bilavasitə qida əldə etmək məqsədi daşımışdırsa, sonrakı dövrlərdə, yəni erkən orta əsrlərdə bu daha çox torpaq ələ keçirmək məqsədi daşımışdır. Hazırda müharibələr, əsasən yeni yanacaq və enerji mənbələri, daha dəqiq desək, neftlə zəngin olan sahələrin ələ keçirilməsi məqsədi ilə aparılır. Orta əsrlər müharibələrindən fərqli olaraq belə müharibələr

həm hərbi yolla, həm də siyasi üsullarla həyata keçirilir. Dünya əhalisinin sürətlə çoxalmasını və içməli su ehtiyatlarının getdikcə azalmasını əsas tutaraq, gələcək yüzillikdə müharibələrin məhz içməli su ehtiyatı bol olan torpaqlar ətrafında baş verəcəyini təxmin etmək olar. Lakin müharibə səbəbləri içərisində daha bir səbəbi də qeyd etmək yerinə düşər. Bu, tarix boyu hər hansı bir ərazidə oturaq həyat tərzi keçirmədən, torpağa, siyasi dövlətə malik olmayan xalqlarla əlaqədardır. Belə xalqlar tarixdəki uğursuzluqlarını hər hansı bir başqa xalqın, millətin ərazisi hesabına bərpa etməyə çalışırlar. Və müşahidələr göstərir ki, belə xalqların ordu birləşmələrində sanki tarixdən, digər insanlardan yox, çox hallarda onlara zamanla qucaq açmış insanlardan xüsusi amansızlıqla qisas almaq istəyi formalaşır. Bəzən bu istək toplu, milli xəstəlik, paranoya səviyyəsinə çata bilir. Belə hallara biz hazırda Türkiyədə baş qaldırmış Kürd Fəhlə Partiyasının: (PKK) dinc insanlara qarşı həyata keçirdikləri terror aktlarını, Beynəlxalq Millətlər Təşkilatının qərarlarına əhəmiyyət vermədən dinc əhaliyə, Fələstin sakinlərinə divan tutan İsraildəki sionist rejimini və nəhayət, hələ XVIII əsrdə I Pyotr tərəfindən əsası qoyulmuş və XX əsrin əvvəllərindən başlayaraq baş qaldırmış erməni xəstəliyini misal göstərə bilərik. Ermənilərin törətdikləri vəhşiliklər, fikrimizcə, tarixi özünütəsdiqə cəhddən başqa bir şey deyildir. Erməni "qışqırdıcılarının" 200 ilə yaxın bir müddət ərzində saxta tarixi faktları kiçik yaşlı uşaqlara aşılaması XX yüzilliyin sonlarında öz iyrənc "bəhrəsini" verdi. İnsan ağlına gəlməyən qətl üsulları düşünüb tapan bu kütlə nümayəndələri tarixən bəslədikləri nifrəti üzə çıxardı. Bu amansızlıqları XII əsrdə Çinin paytaxtı Xanbalık şəhərini aylarla mühasirədə saxlayan Çingiz xanın ordusunun şəhəri aldıqdan sonra həyata keçirdiyi qətllərlə müqayisə etmək olar. Orta əsr tarixçiləri bu dəhşəti təsvir edərkən həftələrlə davam edən bu qırğından sonra hələ uzun müddət Xanbalık şəhərinin küçələrinin insan qanı axması səbəbindən sürüşkən olduğunu yazmışlar. Gah Rusiyanın, gah İngiltərənin və Fransanın əlində oyuncağa çevrilən erməni kütləsi tarix boyu dövlət yarada bilməmə kompleksindən azad olmağa çalışmışdır. Süngüyə taxılan südəmər körpələr, kürəyinə qaynar samovar bağlanan hamilə qadınlar, bədəninin müxtəlif hissələri kəsilən kişilər, qarnı yırtılan hamilə qadınlar, hətta öldükdən sonra ayaqqabılarının

palçıqlarını sildikləri uşaq üzləri – sadaladıqca bitmir və sadaladıqca insanın tükləri biz-biz durur.

Yuxarıda da qeyd etdiyimiz kimi, dövlətçilik ənənəsinin olmaması kompleksi kiçik millətləri belə cinayətlərə sövq edir və onları bədniyyət və bədxah olan böyük millətlərin və dövlətlərin oyuncağına çevirir.

Sadalanan bu müharibə səbəblərinin müxtəlif olmasına baxmayaraq, bunların torpaqla bilavasitə əlaqəli olduğunu qeyd etmək olar. İstər yeni torpaqların ələ keçirilməsi, istər bu torpaqla bağlı olan nemətlərin mənimsənilməsi, istərsə də tarixdəki dövlətsizlik səhvinin aradan qaldırılması məqsədilə aparılan müharibələr insan tələfatı, insanlıq faciəsi ilə nəticələnir.

SSRİ dağıldıqdan sonra Azərbaycanın cəlb olunduğu müharibə yuxarıda sadalanan səbəblərdən üçüncüsü, daha təhlükəlisi ilə bağlıdır. Çünki belə bir əsassız istək nəyə isə nail olmaqdan daha çox, yüzilliklər boyu təbii və ya süni olaraq formalaşdırılmış nifrətin üzə çıxması ilə nəticələnir. Bu istəklə döyüş meydanına girənlər əslində tarix boyu ona və ya onun ulu babasına yönəldilmiş hansısa qondarma ədalətsizliyi bərpa etdiyini düşünür. Bu döyüşdə o nə qədər amansız, qəddar olarsa, bir o qədər çox öz haqlarını bərpa etmiş olacağını düşünür. Bu isə çox təhlükəli tendensiyadır.

Azərbaycan tarixin müxtəlif dövrlərində ədalətsizliklə üzləşmiş, bir çox ərazilərini itirmişdir. Birinci Qarabağ müharibəsində isə torpaqlarımızın 20%-ni itirdik. Bu müharibə hələ bitmədi, 30 ilə yaxın davam etdi. Cəmiyyət bu məğlubiyyətlə barışmadı, hər zaman müharibəyə hazır idi. Çox populyar olan bir misalı söyləmək yerinə düşər: "Sülh istəyirsənsə, müharibəyə hazır ol". Cəmiyyətdə, xüsusən, gənclər arasında müharibə əhvalının davam etməsi çox zəruri idi. Əks təqdirdə biz Dərbənd, Zəngəzur, Borçalı kimi Qarabağ haqqında da yalnız kitablarda, xatirələrdə danışacağıq. Bu isə nəinki bu torpaqların, gələcəkdə digər torpaqların da itirilməsi ilə nəticələnə bilərdi. 2021-ci il sentyabrın 27-dən noyabrın 10-a kimi davam edən 44 günlük müharibə göstərdi ki, 30 il ərzində gənclərin Vətən eşqi, Qələbə əzmi daha da yüksəlmiş və nəticədə Dövlət, Xalq və Ordu birliyi Böyük Zəfər əldə etməyə zəmin yaratmışdır.

Qeyd edək ki, müəlliflərdən biri, I Qarabağ müharibəsinin ilk günlərindən və ən qızğın vaxtlarında əlində silah ön cəbhədə vuruş-

muş, erməni özbaşınalıqlarını və onların törətdikləri qanlı cinayətləri gözləri ilə görmüş müharibə veteranı, polis polkovniki Sadir Məmmədov son illərdə Qarabağ hadisələri barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərir. Onun 2010-cu ildə çapdan çıxmış "Xocalı soyqırımı" və "Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı"adlı kitabları dünyanın 12 dilinə – rus, türk, alman, fransız, Ukrayna, belarus, polyak, çex, bolqar, yunan və ivrit dillərinə tərcümə edilərək beynəlxalq arenada yayılması, eyni zamanda "Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq" adlı dərs vəsaiti Ermənistan-Azərbaycan münaqişəsi mövzusunda 40-dan çox elmi məqalələri, Venesuela, Rusiya, Polşa, Qazaxıstan, Koreya kimi ölkələrdə yayımlanmışdır. Eyni zamanda mütəmadi olaraq müxtəlif ölkələrdə Beynəlxalq elmi-praktiki konfranslarda bir çox KİV-də Qarabağ mövzusunda müvəffəqiyyətlə çıxışlar etmişdir. 2010-cu ildən bu günə qədər Ümummilli lider Heydər Əliyevin anadan olmasına həsr edilmiş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfransların təşkilatçısıdır.

Qeyd etmək yerinə düşərdi ki, S.Məmmədov "Narkotiklərin qanunsuz dövriyyəsində Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarından narkotranzit kimi istifadəsi", "Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə", "Narkotik cinayətkarlıqların təzahürləri və onlara qarşı mübarizələrin problemləri" (Cinayət prosessual aspektlər), "BMT-nin narkotiklər haqqında konvensiyaları və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi" kimi monoqrafiyaları da cəmiyyətdə maraqla qarşılanmışdır.

Bu dərs vəsaitini isə alimin uzun illər həmin sahədə göstərdiyi fəaliyyətin növbəti addımı kimi dəyərləndirmək olar. Dərs vəsaiti gənclərə, Azərbaycana gələn xarici qonaqlara və ümumiyyətlə, beynəlxalq ictimaiyyətə Qarabağ həqiqətləri barədə məlumat vermək məqsədi ilə tərtib edilmişdir. Bu vəsaitin ərsəyə gəlməsində müəlliflər tanınmış tədqiqatçı-alim, Türkiyə prezidentinin baş məsləhətçisi Seyit Sertçelikə dərin minnətdarlığını bildirirlər.

QARABAĞ:
ƏN QƏDİM DÖVRLƏRDƏN
GÜNÜMÜZƏDƏK

Azərbaycan! Bəşəriyyət tarixində bir çox ilklərə adını yazdırmış insanların yaşadığı, tarix boyu yadelli işğalçıların can atdığı bir ərazi! Bu ərazidə əhalinin əsas hissəsini türklər təşkil edir. Tədqiqatlar sübut edir ki, öncədən qəbilə, icma, kiçik dövlətlər halında mövcud olan türklər vahid dövlət və millət kimi V əsrdən etibarən formalaşmışlar. Türk dilinin tarixi isə daha qədim hesab oluna bilər. Bunu əlimizdə olan yazılı abidələr bir daha sübut edir.

Yuxarıda da qeyd etdiyimiz kimi, tarixdə bir çox imperiyalar yaratmış türklər digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük nailiyyətlər əldə etmişlər. Lakin həm orta əsr, həm də yaxın keçmişdə baş vermiş müharibələrdə türk əsgərləri hər zaman öz humanistliyi ilə fərqlənmişlər.

Osmanlı Türkiyəsinin apardığı İstiqlal Savaşı zamanı türk əsgərlərinin onların qarşısında səngərdə dayanan düşmən əsgərlərinə su vermələri o zamankı Atlanta qüvvələrini heyrətə gətirirdi. Necə olur ki, insan qarşısında dayanan və onu öldürməyə can atan düşməninə su təklif edə bilər. Bu xüsusiyyət Allah tərəfindən böyük ürəyə malik olan böyük millətlərə bəxş olunan bir nemətdir. Osmanlı İmperiyası dönəmində fəth edilən xalqların azad şəkildə öz dinlərinə sitayiş etdiklərini, öz dillərində danışmaq, oxumaq imkanı olduğunu xüsusi qeyd etmək olar. Lakin bu sadalanan keyfiyyətlər dövlətçilik ənənəsi olmayan, daim böyük dövlətlərin əlinin altında marionet funksiyasını yerinə yetirən kiçik millətlər üçün anlaşılmaz bir xüsusiyyətdir.

Azərbaycan türklərinin milli xüsusiyyətləri hadisələri Qaf (Qafqaz) dağı ətrafında cərəyan edən, ümumtürk eposu "Kitabi-Dədə Qorqud" dastanlarının mətnlərində aydın şəkildə təsvir olunmuşdur. Bir tədqiqat əsərində bununla bağlı deyilir: "Bu gün biz "Kitabi-Dədə Qorqud" dastanından yalnız ədəbi-bədii dəyərlik kimi danışsaq, əlbəttə ki, çox azdır. Bu sirli əsərin mahiyyətinə vardıqca, onun çoxqatlı dərinliyinə nüfuz etdikcə, görürsən ki, o nəinki mənəvi dünyamızın müəyyənləşib formalaşmasına, həm də, ümumiyyətlə, cəmiyyətin yaranmasına və inkişafına təkan vermişdir. <...>hüquq qanunlarını, yasaq

sistemini əmələ gətirib nizamlamış, qədim insanın cəmiyyət daxilində inkişafı üçün müəyyən, yəni konkret yollar cızmışdır. "Kitabi-Dədə Qorqud" dastanlarında türk insanının dəyanəti, əzmi, mənəvi təmizliyi, vətənə, xalqa sadiqliyi obrazlı şəkildə ifadə olunmuşdur. Buna görə də bu keyfiyyətlərin əks olunduğu mətnlər bu gün də öz tərbiyəvi əhəmiyyətini saxlamaqdadır" [18, s.14].

Azərbaycan xalqı bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermişdir. Xalqımızın bədii yaradıcılığının yüksək səviyyəyə çatmasına ölkənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərmişdir. Zənnimizcə, ölkəmizin müxtəlif mənəvi mədəniyyət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək, Azərbaycan tarixi, incəsənəti, mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Bu mənada Azərbaycan tarixi də ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

Vətən torpağının hər bir qarışı, istər səhralıq, istərsə də füsunkar təbiəti olan yer olsun, eyni dərəcədə əziz və əvəzsizdir. Ölkənin hər bir qarışı bu torpaq üzərində yaşayan, onun nemətlərindən bəhrələnib boya-başa çatan insan üçün müqəddəsdir. Azərbaycanın müqəddəs hesab ediləcək bir hissəsi də məhz hamımıza doğma olan və gec-tez layiq olduğu mükafatı alacaq olan Qarabağdır. Qeyd etmək yerinə düşərdi ki, Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın da ən qədim tarixə malik olan diyarlarından biridir. Bunun bariz nümunələrindən biri isə Qarabağ ərazisində ən qədim insanların yaşayış məskəni sayılan Azıx mağarasının aşkar edilməsidir. Bu yaşayış məskəni Azərbaycanın, o cümlədən Qarabağın, Aralıq dənizi hövzəsi və Şərqi Afrika ilə birlikdə insanlığın ilk yaşayış məskənlərindən biri olduğunu sübut edir. Azıx mağarasının tədqiqatçısı, tanınmış alim M.Hüseynovun fikirləri bu baxımdan maraq doğurur: "Azıxda öyrənilmiş çay daşı alətləri mədəniyyətləri, Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir.

Eyni zamanda, alətlərin hazırlanmasında fərqli cəhətlər də vardır ki, bu da Azıxın alt təbəqələrindən aşkar olunmuş əmək alətlərini Quruçay mədəniyyəti adlandırmaq imkanı vermişdir... Quruçay mədəniyyətinin yaşı isə 1 milyon 200 min ildən də qədimlərə aid edilə bilər". Göründüyü kimi, Qarabağ dünyanın ən qədim yaşayış

məskənlərindən biri kimi də diqqəti cəlb edir. Əlbəttə, qədim insan məskənlərinin bugünkü Azərbaycan ilə və burada məskunlaşan insanlarla əlaqəsindən danışmaq mümkün deyil. Ancaq Qarabağın tarixi və siyasi önəmindən danışdıqda belə vacib xüsusiyyətləri qeyd etməmək olmaz.

Qarabağ xanlığı yaradılarkən onun ərazisi indiki coğrafi ölçülərə nisbətən daha geniş idi. Bir çox tədqiqatçıların yazdığına görə o zaman xanlığın ərazisi cənub tərəfdən Xudafərin körpüsündən "Sınıq körpü"yə (Qırmızı körpü) qədər, şərq tərəfdən Kür çayı ilə Araz çayının birləşdiyi Cavad kəndinə qədər uzanırdı. Qərb tərəfdən isə hündür Qarabağ dağları ilə əhatə olunub, uzunluğu 275 verst, eni isə 200 verst sahəni əhatə edirdi. Şimal tərəfdən isə Qarabağ Gəncə ətrafına, yəni Goran çayına qədər uzanırdı. Bunlardan əlavə Mil və Muğan düzlərinin bir hissəsi də Qarabağ düzənliklərinə qarışırdı. Zəngəzur, Sisyan, Qapan, Naxçıvan sərhədi və Ordubadın Əylis kəndinə qədər geniş sahələr Qarabağın inzibati ərazi bölgüsünə aid idi [16, s.29].

Tarixi mənbələrdə Qarabağ ərazisində yerləşən bir çox qədim şəhərlərin adı çəkilir: Beyləqan, Amaras, Hunan, Tərnöyüd, Qarabağ, Bərdə, Şuşa, Paytakaran və s. Tarixi əhəmiyyətinə görə isə bu şəhərlərdən Bərdə və Şuşanı xüsusi qeyd etmək olar. VIII əsrin başlanğıcında Albaniya uğrunda gedən müharibələr nəticəsində Bizansın Cənubi Qafqazda mövqeyi zəiflədi. Əbdülməlik (685-705) Xilafət ərazisində sürətlə iqtisadi və hərbi islahatlar keçirməklə hakimiyyətini möhkəmləndirdi. Xilafət üçün iqtisadi və strateji cəhətdən əhəmiyyətli olan Albaniyada "qayda-qanun" yaratmağa başladı (Əl-Kufi. Kitab əl-fütuh (Fəthlər kitabı). Bakı, 1995, s. 41; N.M.Vəlixanlı. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993, s.58). Alban hökmdarını hakimiyyətdən kənarlaşdırdı. Xilafətin şimal ərazilərini idarə etmək üçün Bərdəni ərəb canişinlərinin iqamətgahına çevirdi (N.M.Vəlixanlı. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993, s.58; Q.Ə.Hacıyev. Bərdə şəhərinin tarixi (b.e.ə. III-b.e. XVIII əsri), Bakı, 2000) [16, s.9].

V əsrin əvvəllərində Albaniyanın mərkəzi Bərdədə məktəb var idi. Burada çar III Vaçaqanın əmri ilə xüsusi məktəblər açılmış, bütpərəst uşaqlara yazı və xristianlıq ehkamları öyrədilmişdir (M.Kalankatuklu. Albaniya tarixi, k. I, f. 25; Мамедов Т.М. Кавказская

Албания в IV-VII вв. Баку, 1993, с. 100; Hacıyev Q.Ə. Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi. Bakı, 2008) [16, s.8].

Qarabağ bu gün Azərbaycan xalqı üçün sadəcə işğal olunmuş torpaqlar deyil. O, xalqın bir parçasına, onun namusunun simvoluna çevrilmişdir. Bu torpaqların işğaldan azad qalması, Xocalının qisasının alınması xalqın mənliyinin özünə qaytarılması deməkdir.

Qarabağ Azərbaycanın ərazi baxımdan ən gözəl guşələrindən olmaqla yanaşı, mədəniyyətimizin, dilimizin, tariximizin də əvəzsiz simvoludur. Qarabağ sözünün Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlməsi şübhəsizdir. "Qara" və "bağ" sözləri Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. "Qarabağ"ın Azərbaycanın konkret bir vilayətinin, bir bölgəsinin adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir. Çünki Azərbaycan dilində, eləcə də digər türk xalqlarının dilində "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənaları da vardır. Bu baxımdan, "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənalar kəsb etdiyini ehtimal etmək olar. Beləliklə, Qarabağın özü kimi "Qarabağ" sözü də Azərbaycan xalqına məxsusdur.

Qeyd etməliyik ki, Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" adı ilk mənbələrdə hələ 1300 il bundan əvvəl işlənmişdir. Mənbələrə istinadən demək olar ki, Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Yeri gəlmişkən, bu hal Azərbaycan üçün xarakterikdir. Məsələn, Naxçıvan şəhəri – Naxçıvan bölgəsi, Şəki şəhəri – Şəki bölgəsi, Gəncə şəhəri – Gəncə bölgəsi, Lənkəran şəhəri – Lənkəran bölgəsi və s. Görkəmli alim R.Yüzbaşovun qənaətinə görə, Qarabağın da ilk zamanlar şəhər adı olmasıdır. R.Yüzbaşovun fikrincə, Araz çayının qırağında Qarabağ şəhəri olmuşdur. O, yazırdı: "Bu şəhərin XVII əsrin birinci yarısına qədər mövcud olması haqqında dəqiq kartoqrafik məlumat əldə edilmişdir. XVII əsrin birinci yarısında alman səyyahı Adam Olearinin tərtib etdiyi xəritədə Qarabağ yaşayış məntəqəsi 39° şimal en dairəsi ilə 82°20 şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir. Zənn edildiyinə görə, həmin şəhər XVII-XVIII əsrlərdə baş vermiş müharibələr nəticəsində dağılıb məhv olmuşdur" [32, s.92]. Daha

sonra o yazır: “Son zamanlarda Azərbaycan toponimikası sahəsində aparılmış işlər nəticəsində “qara”nın bir neçə mənası müəyyən edilmişdir, onlardan biri də “qalın”, “sıx” deməkdir. Buna əsasən, demək olar ki, Araz çayının qırağındakı Qarabağ şəhəri son dərəcə bağlı-bağatlı olduğundan belə adlandırılmışdır” [29, s.26-30].

Sual və tapşırıqlar:

– Qarabağın Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olduğunu hansı tarixi faktlar sübut edir?

– Qarabağ xanlığı yaradılarkən onun coğrafi ərazisi neçə km² olub və hansı əraziləri əhatə edirdi?

– Qarabağ ərazisində yerləşən qədim şəhərlərin adlarını və yerləşdiyi əraziləri sadalayın.

QARABAĞIN TARİXİ-COĞRAFİ MÖVQEYİ

Dünyanın füsunkar gözəlliklərini özündə əks etdirən Qarabağdan bəhs edərkən belə bir sual yaranır: Qarabağ Azərbaycanın hansı ərazilərini əhatə edir? Həmin sualın cavabı bu gün daha aktualdır və erməni separatçıları tərəfindən törədilmiş "Dağlıq Qarabağ problemi"nin beynəlxalq aləmdə dərk edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Etiraf etmək lazımdır ki, aparılan təbliğatlara baxmayaraq, dünya ictimaiyyətinin bu işğal faktı ilə bağlı kifayət qədər məlumatı yoxdur. Buna görə də bu sahədəki işlərin daim davam etməsi çox vacibdir. Müxtəlif tarixi mənbələr bu torpaqların Azərbaycan adlı tarixi ərazi sərhədləri çərçivəsində olmasını, ermənilərin bura sonradan köçürülməsini sübut edir. Məsələn, vaxtı ilə bu ərazini əhatə edən Azərbaycan dövlətinin – Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşir özünün "Qarabağ tarixi" (1847) əsərində bu məsələdən bəhs edərkən yazırdı: "Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədləri belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər – Araz çayıdır. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (indiki Gəncə) sərhədi Kür çayına qədər – Goran çayıdır və Kür çayı çox yerdən keçərək Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" [25, s.69]. Digər tərəfdən də bizə bu fikri əsaslandırmağa səlahiyyət verən bəzi faktlar da mövcuddur ki, onların izahına ehtiyac vardır. Əvvəla, Rusiya işğalı dövründə Qarabağın ərazisi və sərhədlərinin belə dəqiq təsvir edilməsi onunla izah olunur ki, bu faktı bilavasitə Qarabağın idarəsilə məşğul olan dövlət adamı yazır. Yəni, başqa sözlə, həmin fakt dövlət sənədlərinə əsaslanan rəsmi sözdür, daha doğrusu, Rusiyanın xidmətində olan dövlət adamının rəsmi sözüdür; İkincisi, bu fakt yalnız reallığa, təcrübəyə əsaslanmaqla qalmayıb ilk mənbələrlə də sübut olunur. Fikrimizcə, Mirzə Camalın mövqeyinin doğruluğunu qədim tarix kitabları da təsdiq edir. Belə olan halda belə bir yekdil fikir yaranır ki, siyasi-coğrafi məkan olaraq, tarixdə həmişə "Dağlıq Qarabağ" deyil, bütöv halda, yəni Qarabağın bütün ərazisini – dağlarını, düzənlərini əhatə

edən ümumi bir "Qarabağ" anlayışı olmuşdur (Necə ki, erməni separatçıları özlərinin xarici himayədarlarının dəstəyi ilə qondarma Dağlıq Qarabağ respublikası yaratmağa cəhd göstərərək onu Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağdan təcrid etməyə çalışırlar. – S.M., T.M.). Təbii ki, "Dağlıq Qarabağ" anlayışı çox sonraların "məhsuludur", separatçılıq niyyəti ilə Qarabağın bir hissəsinə verilmiş addır. Adicə məntiq də [35] bunu təsdiqləyir. Deməli, sadalanan faktlar belə bir yekdil fikri əsaslandırmağa imkan verir ki, Qarabağ həmişə, bütün tarixi dövrlərdə bir xalqın – Azərbaycan türklərinin vətəni olmuşdur. Azərbaycan xalqının yüzlərlə çox qədim, çox nadir folklor nümunələri, musiqi inciləri məhz zəngin təbiətə malik Qarabağda yaranmışdır.

Həqiqətən də Qarabağ Azərbaycan təbiətinin nadir gözəlliklərini, Azərbaycan xalqının maddi, mədəni və mənəvi irsini, qədim adət və ənənələrini özündə əks etdirən füsunkar diyardır. Tanınmış tarixçi alim Əsgər Əhməd qeyd edir ki, "hər bir xalqın mədəniyyəti onun tarixinin aynası olub, keçdiyi tarixi inkişaf yolunun müəyyənləşdirilməsində əhəmiyyətli rola malikdir". Daha sonra o yazır ki, "XII-XV əsrlərdə Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətlərini xarakterizə etsək, belə nəticəyə gəlmək olar ki, Azərbaycan mədəniyyəti ümumən yüksələn xətlə inkişaf etmişdir. Baxmayaraq ki, monqol basqınları və talanları (bu sıraya davamlı olaraq Azərbaycanı və onun ta qədimdən ayrılmaz tərkib hissəsi olan Qarabağı tez-tez işğala məruz qoyan erməni quldurlarını və talançılarını da daxil etmək lazımdır. – S.M., T.M.) mədəniyyətə də ağır zərbələr vurmuş"sa da "bu inkişafı şərtləndirən əsas amillərdən biri Azərbaycanda Atabəylər və Şirvanşahlar kimi siyasi təsisatların yaranması..." [12, s.121] və s. amillərlə bağlıdır. Göründüyü kimi, Qarabağın tarixi çox qədimlərə gedib çıxır. Bu mənada deyə bilərik ki, Qarabağ təkcə özünün nadir gözəlliyə malik xalçaları, Midiya dağ atları – Qarabağ atları, Avropaya, Rusiyaya ixrac edilən ipəyi, zərgərlik məmulatı, silahları ilə deyil, həm də nadir təbiəti, müalicəvi suları ilə də məşhurdur. Şiş qayaları olan sərt dağlar, sıx meşələrlə əhatələnən bu diyarın paytaxtı isə qədim Pənahabad – Şuşa şəhəri olmuşdur. Şuşa şəhərinin ərazisi zəngin və şanlı tarixi keçmişə malikdir. Həqiqətən də "Şuşa Azərbaycanın mühüm tarixi, mədəni-iqtisadi mərkəzlərindən biri olan" [33,

s.16-20] analoqu olmayan Azərbaycan şəhərlərindən biridir. Uzaq keçmişdə bura qədim Xocalı-Gədəbəy mədəniyyətinə (e.ə. ikinci minilliyin ikinci yarısı – birinci minilliyin əvvəlləri) daxil olan ən qədim yaşayış yerlərindən birində yaranmış və daimi insan məskəninə çevrilmişdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki, yəni Üçmıx dağında Şuşa mağarası bu yerlərin Azərbaycan ərazisində ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Bir halda ki, Pənahabaddan (Pənahəli xanın adı ilə bağlıdır. – S.M., T.M.) söhbət açılır bu barədə qismən də olsa məlumata ehtiyac vardır.

Sual və tapşırıqlar:

– Qarabağın ərazisini və sərhədlərinin təsvirini necə əsaslandırmaq olar?

– Qarabağ sözünün mənasını və mənşəyini necə əsaslandırardınız və mənasını bilirsinizmi?

– Qarabağın füsunkar təbiətini şərh edərək hansı xalqa məxsus olduğunu təsvir edin.

ERMƏNİLƏRİN QARABAĞDA MƏSKUNLAŞMASI

Tarixi qaynaqlara əsaslanaraq demək olar ki, Pənahəli xanın yeritdiyi düzgün siyasət nəticəsində qonşu xanlıqlar və xanlığın tərkibində olan məliklər Pənahəli xana yaxınlaşmağa başlamışlar. Məhz belə bir vəziyyətin yaranması nəticəsində Urmiyalı Fətəli xan Əfşar, Məhəmmədhəsən xan Qovanlı-Qacar ayrı-ayrı vaxtlarda Qarabağ xanlığına hücum etmişdilər. Sonuncu hücum edən və Şuşanı bir neçə ay mühasirədə saxlayan Fətəli xan Əfşar mühasirənin uzandığını görərək sülh danışığına getmiş, Pəhanəli xanın vəliəhdi İbrahimxəlil ağanı girov alaraq özü ilə Urmiyaya aparmışdı. Bu hadisədən sonra Qarabağ xanlığı bir növ Urmiya xanlığından asılı vəziyyətə düşmüşdür. Bu zaman İran taxt-tacı uğrunda fəal döyüşlər aparan Kərim xan Zəndin ən güclü rəqiblərindən biri də Fətəli xan Əfşar idi. Kərim xan Zənd rəqibinə qalib gəlmək üçün bir çox Azərbaycan xanlarına, o cümlədən Pənahəli xana məktubla müraciət etmişdi ki, Urmiya xanını məğlub etmək üçün qüvvələri birləşdirmək lazımdır. Pənahəli xan böyük oğlu və vəliəhdi İbrahimxəlil ağanı girovluqdan azad etmək üçün Kərim xanın təklifini qəbul etmişdi.

Pənahəli xan öz qoşunu ilə Cənuba – Urmiya xanının üstünə gedərkən xanlığı kiçik oğlu Mehralı bəyə tapşırmışdı.

Döyüşdə Urmiya xanı məğlub olduqdan sonra Kərim xan Zənd hiyləyə əl atır: girovluqdan azad edilmiş İbrahimxəlil ağaya xan titulu verərək Qarabağa göndərir və bu döyüşdə iştirak edən xanlarla yanaşı, Pənahəli xanı da Şiraza qələbəni bayram etməyə aparır. Bir daha Qarabağa qayıda bilməyən Pənahəli xan Vətən həsrəti ilə Şirazda vəfat edir. Xan titulu ilə vətənə dönən İbrahimxəlil xanı qardaşı Mehralı bəy yaxşı qarşılamır, daha doğrusu, hakimiyyəti qardaşına ötürmək istəmir. Buna görə də iki qardaş arasında hakimiyyət uğrunda mübarizə başlayır. Nəticədə İbrahimxəlil xan qalib gəlir. Məğlub olmuş Mehralı bəy Qarabağı tərk etməyə məcbur olur. İbrahimxəlil xan uzun illər – 1805-ci ildə Rusiya ilə Kürəkçay müqaviləsini bağlayana kimi Qarabağ xanlığını idarə edir. İbrahimxəlil xan qətiyyətli, tədbirli hökmdar idi. O, Şuşa qalasının hasarını bərpa etmiş, düşmən hücumlarının qarşısını almaq üçün Əsgəran qalasını

tikdirmişdi. 1806-cı ildə Çar Rusiyasının Qarabağın xanlığının paytaxtı Şuşada oturtduğu nümayəndəsi tərəfindən İbrahimxəlil xan öldürüldü. Məhz bundan sonra Qarabağın qara günləri başlandı. Çar Rusiyası Qarabağda ələ aldığı bir ovuc ermənіyə bel bağladı, nəinki yerli əhaliyə. Çar Rusiyanın üsul-idarəsi, şəriət qanunları ilə idarə olunan Qarabağ xanlığındakı mövcud qayda-qanunla daban-dabana zidd idi. Bu da əhali arasında böyük narazılığa səbəb olurdu. Təbii olaraq belə bir vəziyyət ictimai-siyasi-iqtisadi duruma da təsirsiz ötüşə bilməzdi. Onlara aydınlıq gətirmək üçün həmin dövrün ictimai-iqtisadi vəziyyətinə nəzər yetirmək lazımdır. Əvvəla, Qarabağ Azərbaycanın böyük ərazilərindən idi. Bunu mənbələr də təsdiq edir. Həmin məxəzlərdəki məlumatdan aydın olur ki, qeyd olunan dövrlərdə Qarabağ xanlığı inzibati cəhətdən 22 mahala bölünürdü. Mahallar isə bir neçə kənddən ibarət idi ki, onları da naiblər idarə edirdilər. Hər bir naibin tabeçiliyində darğalar, yüzbaşılar, kəndxudalar və s. vəzifəli şəxslər var idi. Lakin darğa vəzifəsi şəhərdə də var idi. Onlar şəhərdə indiki polis vəzifəsini icra edirdilər, kəndlərdə isə onlar əsasən vergi yığırdılar. Yüzbaşılar və kəndxudalar eyni zamanda kənd ağsaqqalı hesab olunurdular. Qarabağın tarixi araşdırılarkən o da bəlli oldu ki, idarəetmə, mülki, cinayət və s. məsələlər bəşəri qanunlara istinadən tənzimlənmişdir. Başqa xanlıqlarda olduğu kimi, Qarabağ xanlığında da mülki və cinayət işlərinə əsasən şəriət qanunları, adət və ənənələr əsasında baxılırdı. Məhkəmələrdə müxtəlif cəzalarla yanaşı, törədilən cinayət əməlinin səviyyəsindən asılı olaraq ağır cəzalar da verilirdi. Həmin prosesdə ən böyük cəzanı, yəni hakim kimi ölüm hökmünü xanın özü verirdi.

Bəzi statistik məlumatlar Qarabağ xanlığının əhali sayını da müəyyənləşdirməyə imkanı verir. Məsələn, Rusiyanın tərkibinə daxil edilməsi ərəfəsində Şimali Azərbaycanda əhalinin sayına görə Şirvan xanlığından (135.000) sonra Qarabağ xanlığı ikinci yerdə olmuşdur. Həmin dövrdə Qarabağda 3 şəhər (Bərdə, Beyləqan, Şuşa), 638 kənd olmuşdur. Ümumi sayı 90 minə çatan əhali 18.500 təsərrüfatda birləşirdi. Salnaməçilərin qənaətinə görə, xanlıq dövründə əhalinin sayı və sıxlığı təxminən iki dəfə artmışdı. Bu, bir tərəfdən, Qarabağ xanlığının apardığı məqsədyönlü siyasətin nəticəsi idisə, digər tərəfdən Rusiya imperiyasının ermənіləri həmin ərazilərə köçürdərək onların Qarabağ

torpaqlarında məskunlaşdırılması ilə bağlı idi. Bütün bunlara baxmayaraq, Qarabağ xanlığının mövcudluğu ərzində milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, bəşəri dəyərlərə əsaslanan qanunçuluğa uyğun olaraq məhdud sayda olan həmin ərazidə məskunlaşdırılan ermənilərə də eyni imtiyazlar verilmişdi. Nəticədə, iqtisadi inkişaf sahəsində əvvəlki dövrlərə nisbətən xeyli irəliləyiş hiss olunurdu. Bu irəliləyişin ən mühüm amili əkinçilik mədəniyyətinin yüksəlişi ilə bağlıdır. Qaynaqlarda deyildiyi kimi, xanlıq ərazisindəki bütün torpaqlar xanın özü, ağalar, bəylər, rəiyyət və vəqflər üzrə bölünmüşdür. Bu bölgü Qurani-Kərimin məzmunundan irəli gələn şəriət ehkamlarına əsaslanırdı. Quran isə torpaq üzərində xüsusi mülkiyyəti qanuni hesab etmirdi. Həmin prosesdə "Torpaq ancaq onu əkənlərə və becərənlərə məxsusdur" prinsipi əsas götürülürdü.

Göründüyü kimi, ermənilərin Qarabağda məskunlaşdırılması onlara çox şey verdi. Onlar azərbaycanlılardan əkinçilik mədəniyyətini öyrəndilər. Ermənilər xalqımızın tolerantlığını, humanist və bəşəri dəyərlərə məhəbbətini, islam dəyərlərinin nə qədər ədalətli olduğunu gördülər. Sadalananlara baxmayaraq, xislətləri riyakarlıqla yoğrulmuş ermənilər yalanlarla dolu sözlərlə bütün dünyaya car çəkirlər ki, biz ən qədim tarixə və dilə malik xalqlardanıq. Burada istər-istəməz özlərini layiq olmayan yerə aid etməyə çalışan əsli, kökü bilinməyənlərə həsr olunmuş bir məzhəkə yada düşür. Günlərin bir günü görkəmli fransız dramaturqu Molyerin məzəli qəhrəmanlarından birinə – zadəganlıq eşqinə düşmüş Jurdinə bəlli olur ki, sən demə o, ömrü boyu proza ilə danışırmış. Kişi əməlli-başlı təəccüblənir [18, s.3]. Həqiqətən də ermənilərin özlərini ən qədim xalqlardan biri kimi təqdim etmələri gətirdiyimiz misalda Molyerin qəhrəmanlarından birinin iddiasına bənzəyir. Məlum olduğu kimi, "erməni" etnonimi ermənilərə aid deyildir. Onlar özlərini "hay" adlandırırlar. Lakin tarixdən bəllidir ki, müsəlmanlar bütün xristianları – monofizitləri, onların etnik mənsubiyyətinə fikir vermədən, o cümlədən, alban, hay, udin, tat monofozitləri, aysorlar və qədim suriyalıları (arameyləri) bu ad ilə çağırırdılar. Məsələn, Rusiya imperatorunun 11 mart, 1836-cı il tarixli fərmanında "Erməni-Qriqoriyan kilsəsinin patriarxı və bütün haykan (hay) xalqının katolikosu" ifadəsində hazırda "erməni" (hay) və imanının adı (erməni-qriqoriyan) ilə tanınan xalqın etnik mənsu-

biyyəti vurğulanan fakt buna sübutdur (Göründüyü kimi, imperiya maraqlarından qaynaqlanan əvvəlcə məskunlaşdırma siyasəti, sonra isə saxta erməni tarixinin yaradılmasına əlverişli şərait aydın şəkildə təzahür edir. – S.M., T.M.). Onlar bu fürsətdən istifadə edərək erməni dilinin qədimliyi mifini də yaratmağa nail olmuşlar.

Sual və tapşırıqlar:

– Qarabağ xanlığı nə vaxt yaranmışdır və onu yaratma ideyası kimə məxsus idi?

– Qarabağın Azərbaycanın böyük ərazilərindən olduğunu hansı tarixi mənbələrlə təsdiqləyə bilərsiniz və neçə mahaldan ibarət idi?

– Xanlıqda torpaq bölgüsünün aparılması qaydalarını əsaslandırın.

ERMƏNİLƏRİN TÜRK TORPAQLARINDA DÖVLƏT QURMAQ SƏYLƏRİ

RUSİYANIN DÖVLƏT MARAQLARI VƏ ERMƏNİLƏR

1878-ci il Berlin anlaşması ilə beynəlxalq problemə çevrilmiş erməni problemi, bu tarixdən sonra Osmanlı Dövləti üzərində mənfəət hesabları aparan İngiltərə və Rusiya arasında Türkiyəyə qarşı istifadə bir mövzu halına gəlmişdir. Həmin anlaşmadan sonra bu mövzunu İngiltərəyə qapdıran ruslar, bu problemin necə yaradıldığına dair ipucları vermişdilər.

Sankt-Peterburqda olan Rusiya Dövlət Tarix arxivindəki bir sənəddə əvvəlcə bir coğrafiya yaradılmaqla erməni probleminin təməlinin hazırlandığına dair məlumat verilməkdədir. Osmanlı ermənilərı ilə əlaqədar rusların hazırladığı bir hesabatda Berlin Konfransında erməni probleminin gündəmə gətirilməsi və problemin həllinə dair qurulmuş planlarda qərblilərin, Osmanlı Hökumətinin müəyyən qədər oyununa gəldikləri bildirilir. Hesabatda avropalı araşdırmaçıların çoxunun da eyni səhvə yol verdikləri ifadə edilməkdədir. Bu səhv Ermənistanın coğrafi olaraq tərifində yatır. Hesabatda süni bir Ermənistan yaradıldığı bildirilir və coğrafi olaraq "Ermənistan" adlandırılan bölgənin altı vilayəti içinə aldığı qeyd edilir. Halbuki "Ermənistan" olaraq adlandırılan bu altı vilayətin (Bitlis, Diyarbəkir, Ərzurum, Harput, Sivas və Vandır) ərazi baxımından "tarixi Ermənistan" olduğu ifadə edilən bölgədən bir yarım qat daha böyük olduğu diqqəti çəkir.

Bu hesabatda bəhs edilən altı vilayətdə yaşayan ermənilər say baxımından əhalinin əksəriyyətini təşkil etmədikləri kimi, altı vilayətin ermənilərin tarixi qədim vətənləri olmadığı da vurğulanır. Ancaq ermənilərin çoxunun yaşadığı tarixi yurdlarında (Bu yurdun hansı ərazi olduğu bildirilmir) iqtisadi və mədəni baxımdan böyük bir gücə sahib olduqları xüsusi olaraq qeyd edilir [100, s.184].

Bəhs etdiyimiz hesabatda Osmanlı Hökumətinin "Ermənistan" coğrafiyası kimi altı vilayəti qəbul etdiyi irəli sürülməkdədir. Osmanlı Dövlətinin, Qərb dövlətlərini bir şəkildə oyuna gətirməsinin səbəbləri

arasında Ermənistan olduğu deyilən bölgədə azlıq təşkil etdiklərindən bu vilayətlərdə say çoxluğuna malik olmayan ermənilərin avropalıların nəzərində çox da diqqətə alınmayacaqlarının güman edilməsidir. Başqa sözlə, əgər Ermənistan üçün altı vilayətdən daha kiçik bir coğrafiya təyin olsaydı, bəlkə də ermənilər böyük güclərin dəstəyi ilə ilk məqsədlərinə – yəni muxtariyyətə qovuşa biləcəkdilər. Əlbəttə, ermənilər üçün muxtariyyətdən sonrakı addım müstəqil bir erməni dövlətinə qovuşmaq olacaqdı. Digər tərəfdən, qərblilər də Ermənistan kimi altı vilayəti qəbul etməklə, bəlkə də imperiya olaraq sonunun gəldiyini düşündükləri Osmanlı Dövlətindən daha çox torpaq qoparmaq məqsədi güdürdülər.

Eyni zamanda Osmanlı Dövlətinin altı vilayəti Ermənistan kimi qəbul etdiyi barədə hesabatda irəli sürülmüş iddia doğru deyil. Osmanlı Dövləti bu vilayətlərdə yaşayan ermənilər üçün yalnız islahatlar həyata keçirməyə icazə vermişdi.

Qərb dövlətləri və ermənilər tərəfindən coğrafi mənada süni bir Ermənistan necə yaradılmağa çalışıldısa, 1880-ci illərdə erməni problemi də eyni şəkildə süni olaraq yaradılmağa çalışılmışdır. Erməni probleminin siyasi mahiyyət qazanmasında erməni komitələrinin Anadolunun fərqli yerlərində gerçəkləşdirdikləri qiyamçı fəaliyyətləri, terror aktlarının və üsyanların təsiri olmuşdur. Ermənilərin milli duyğuları ilə yanaşı, fərdilik duyğusunun da olduqca inkişaf etmiş olduğunu bilən Avropa dövlətlərinin onlarla bağlı sistemli şəkildə apardıqları gizli siyasət ermənilər arasında qiyamçı fikirlərin yayılmasına təkan vermişdir.

Doğrudan da, Rusiya Qafqaz Ordusu Qərargah Komandanlığından Qafqaz bölgəsinin hərbi məsələlərdən məsul *Namestnik* köməkçisinə 11 (24) dekabr 1915-ci il tarixli və 13378 saylı Baş general Bolhovitinovun imzası ilə yazılan bir hesabatda, erməni probleminin qısa bir tarixçəsi verilir. Hesabatda bu problemin Avropa diplomatiyası tərəfindən Osmanlı Dövləti və Rusiya arasında siyasi bir gərginlik yaratmaq üçün süni olaraq çıxarıldığı ifadə edilir. Bu problemin yaradılmasının digər bir səbəbi isə Osmanlı Dövlətinin daxili işlərinə müdaxilə edə bilmək üçün buna səbəb göstəriləcək uyğun bir mühit yaratmaq olduğu da adı keçən hesabatda açıqca ifadə olunur [67, s.135; 1, s.44-45]. Qərb dövlətlərinin süni bir problem yaradaraq

Osmanlı Dövləti və Rusiya arasında bu problemdən qaynaqlanan bir gərginlik yaratmaq və hətta bunun üçün iki dövlət arasında meydana gələcək anlaşılmazlıq və döyüşlərdən faydalanmağı hədəflədiklərini söyləmək doğru olar.

Yuxarıda bəhs edilən hesabatda Qərb dövlətləri tərəfindən süni bir erməni problemi yaradılmasının son dərəcə xüsusi bir səbəbi olduğu ifadə edilmişdir. Bu xüsusi səbəb XIX əsrin üçüncü rübündə Rusiya ilə Osmanlı Dövlətinin Qərbdəki güclərə qarşı bir ittifaq qurmalarına, bu ittifaq nəticəsində rusların Boğazlara yaxınlaşmalarına və qurulmuş bu cür dostluğun Yaxın Şərqdəki mövcud siyasi balansın dəyişdirməsinə heç bir şəkildə icazə verməmək və türk-rus ittifaqına mane olmaqdır. Qurulan bir türk-rus ittifaqından və bu gücün siyasi balansı dəyişdirəcəyindən narahat olan Qərb diplomatiyası Osmanlı-rus ittifaqına mane olmaq üçün hər yola müraciət edərək bu iki dövlət arasında yeni bir döyüşün başlanması istiqamətində böyük güc sərf etmişdilər.

Rusiyanın Yaxın Şərqdəki xristianlar tarixi himayədarlıq missiyasını həmin ittifaqa mane ola biləcək vasitələrdən biri olduğunu güman edən Qərb diplomatiyası Türkiyədə süni bir erməni problemi yaratmışdır. İkinci bir vasitə kimi isə yaradılacaq problem səbəbindən Osmanlı Dövlətinin öz daxili işləri ilə məşğul olmaqdan göz açа bilməyəcəyi və Rusiyanın zəifləmiş bir dövlətlə ittifaq qurmasının qazanclı olmayacağını anlayaraq, belə bir ittifaqa girməyəcəyi güman edilmişdir [100, s.135-136; 5, s.45]. Yəni Qərb diplomatiyası Osmanlı Dövləti təbəəliyində yaşayan xristian ermənilərlə bağlı bir problem çıxdığında Rusiyanın səssiz qala bilməyəcəyi və ermənilərlə maraqlanacağı, bunun nəticəsində isə Osmanlı Dövlətinin Rusiyanın bu əlaqəsinin öz daxili işlərinə qarışmaq olduğunu bildirəcəyi və sonunda iki dövlətin qarşı-qarşıya gələcəyi fərziyyəsindən hərəkət etmişdir. Ermənilər isə xristianlıq duyğularını hər zaman istifadə etməyə çalışmışlar; xüsusilə xristian olduqları üçün onlara zülm edildiyi iddiasını Qərb dövlətlərinə və Rusiyaya davamlı təkrarlamışlar. Çünki xristian olduqlarına görə bu dövlətlər onları qoruyacaqlarını düşünmüşlər. Rus Qafqaz Ordusu Qərargah Komandanlığının hesabatına görə, Qərbi Avropa siyasətçiləri Osmanlı-Rusiya ittifaqına mane olmaq və Türkiyədə bir erməni problemi yarada bilmək üçün ermənilərin Türkiyədə çox ağır şərtlərdə ya-

şadıqları fikrini onlara yeritdikləri və bu vəziyyətdən Avropanın dəstəyi və öz gücləri ilə çıxa biləcəklərini aşıladıqları göstərilmişdir [100, s. 45].

Ermənilər Qərb dövlətlərinin öz maraqlarını təmin etmək üçün hazırladıqları bu tələyə düşmüş, sülh içərisində yaşadıqları dövlətlərinə qarşı silahlanaraq mübarizə aparmağa başlamışlar. Rus arxiv sənədlərində əks etdirilən erməni probleminin, başda İngiltərə olmaqla Qərb diplomatiyası tərəfindən süni olaraq çıxarıldığını dəstəkləyən başqa rus mənbələr də vardır. Xüsusilə, Rusiyanın Türkiyədəki konsul və zabitlərinin eyni fikirdə olduqları diqqət çəkməkdədir. Məsələn, rus konsulu General Vladimir Teofiloviç Mayevski, Qərbi Avropa siyasətçilərinin öz maraqları naminə ermənilərin milli duyğularını istifadə edərək Türkiyədə süni bir erməni problemi yaratmaq üçün böyük səy göstərdiklərini ifadə etmişdir. Bundan başqa, Mayevski, ermənilər tərəfindən Anadoluda süni bir anarxiya mühitinin yaradıldığına da işarə etmişdir [93, s. 55].

Oxşar fikir Rusiya Ordusunun Anadoluda araşdırma aparmış qərargah kapitanı V.İ.Semyonov tərəfindən də dilə gətirilmişdir. Kapitan Semyonov Berlin anlaşmasından sonra İngiltərə hökumətinin Anadoluya göndərdiyi hərbi konsulların Osmanlı Dövlətinin daxili işlərinə qarışmağı bir vərdiş halına gətirdiklərini, xristianların himayədarlığını boyunlarına götürdüklərini vurğulamışdır. Ermənilərin bu vəziyyətdən istifadə etmək üçün səy göstərdiklərinə diqqət çəkən Kapitan Semyonov, beləcə, erməni probleminin ortaya çıxmasında ingilis konsulluqlarının və onların agentlərinin fəaliyyətlərinin təsirli olduğunun üzərində dayanmışdır. Semyonov bu səylər nəticəsində süni şəkildə erməni probleminin yaradılaraq ölkədə narahatlıqlara, qarışıqlıqlara yol açıldığını ifadə etmişdir [92, s.5].

Rus tədqiqatçısı Veliçko Fransanın İstanbulda çalışan səfiri Cambonun öz hökumətinə təqdim etdiyi bir hesabatında ingilislərin Türkiyədə bir erməni üsyanı törədə bilmək üçün süni şəkildə və güclü bir təbliğat kampaniyası başlatdıqlarına diqqət çəkir. Rus ordusunun polkovniki Qryaznov isə erməni probleminin ingilis maraqlarına xidmət etmək məqsədi ilə, ingilis agentləri tərəfindən yaradılaraq şişirdildiyini və erməni komitələrinin də bir alət kimi istifadə edildiyini vurğulayır. Türkiyədə fəaliyyət göstərmiş rus

zabitlərindən biri olan polkovnik Putyata bu fikri ifadə edərək erməni hadisələrinin iqtisadi, dini və ya etnik əsaslara söykənərək deyil, xarici qaynaqlı təxribatçı hadisələrlə bəsləndiyini göstərir.

Erməni tarixçisi Sarkisyanın yazdığı kimi, İngiltərə süni erməni problemini imperialist məqsədlərini reallaşdıra bilmək üçün Osmanlı Dövlətinə qarşı bir təzyiq vasitəsi kimi istifadə etməkdə idi. V.Xvastov isə 1890-cı illərdə böyük güclərin Osmanlı Dövlətinin daxili işlərinə müdaxilə edə bilmək üçün xristianların qorunması bəhanəsini təkrarən istifadə etməyə başladıqlarını qeyd edir.

Erməni probleminin süni olaraq yaradıldığı düşüncəsi amerikalı missioner Cyrus Hamlin tərəfindən də vurğulanmışdır. Hamlin erməni problemini Avropanın böyük dövlətlərinin yaratdığı süni bir problem kimi səciyyələndirərək problemin meydana gəlməsində xaricdən istiqamətləndirilən erməni qiyamçı komitələrinin roluna işarə etmişdir. Hamlin mülahizələrini ermənilər bu məsələdə oyuna gəldilər deyə açıqlamışdır.

Türkiyədə erməni problemi ilə əlaqədar araşdırmalar aparmış Erdal İlter, "Müsəlmanlığa və müsəlman olduqları üçün də türklərə qarşı işlənən bu din faktoru, Osmanlı İmperatorluğunda süni bir "Erməni məsələsinin ortaya çıxmasında ən böyük rolu oynamışdır... Nəticədə Rusiya ilə İngiltərənin siyasi və iqtisadi nüfuz dairələrini genişləndirmə məqsədləri, başqa bir ifadə ilə, rus-ingilis rəqabəti, mövcud olmayan bir "Erməni məsələsi" doğuracaqdır" [40, s. 160,162] deməklə, Osmanlı Dövlətinə qarşı bu cür problemin yaradılmasının əsas səbəbinin türklərin müsəlman olmalarından qaynaqlandığını ifadə edərək mövzunun ən mühüm nöqtəsinə toxunmuşdur.

Doğrudan da, əgər türklər müsəlman olmasaydılar, Qərbin imperialist güclərinin xristian olduqları üçün Anadoluda erməni mərkəzli bir siyasət həyata keçirmələrini tələb edəcək ən əhəmiyyətli səbəb, bəlkə də, baş verməzdi. Sovet dövrünün məşhur şərqşünas alimi Mixail Pavloviç Veltman "Əgər ərəb istilası əsrlər sonra reallaşmış olsaydı, biz "Şərq məsələsi"nin nə olduğunu bilməzdik, ya da xristian türklərini Avropadan atmağı kimsə ağlına gətirməzdi" [99, s.10-12] deməklə əsl həqiqəti ortaya qoyur. Veltman "Türklər müsəlman olmasaydılar, Şərq məsələsi ortaya çıxmazdı" fərziyyəsindən çıxış edərək, bu vəziyyətdə türklərin Avropa üçün problem olma-

yacaqlarına diqqət çəkir. Eyni zamanda Bilal Şimşirin yazdığı kimi, İngiltərə Baş naziri Gladston, "Müsəlmanlığımıza görə deyil, türklüyümüzə görə bizə düşmən olduğunu açıqlayır. Çünki Gladstonun fikrincə, "Türklər İspaniyadakı Qərb müsəlmanları kimi "mədəni" və Hindistan müsəlmanları kimi "itaətli" deyil və üstəlik, Avropada beş əsr oturmuşlar". Bu ifadələri şərh edən Şimşir "Deməli, mədəni Endülüs müsəlmanları kimi yox edə bilmədikləri üçün bizə düşməndirlər. "Üzüyola" Hindistan müsəlmanları kimi üç yüz il ingilis boyunduruğuna girmədiyimiz üçün düşməndirlər. Avropanın bir hissəsini türk yurdu etdiyimiz üçün düşməndirlər. Digər müsəlmanlardan daha çox, türkə düşmən. Yer kürəsinin gözəl və zəngin bir torpağında oturduğumuz və bu torpağı parçalatmadığımız üçün bizdən alacaqları intiqamları vardır" [46,s.124] deməklə, məsələyə fərqli bir yanaşma gətirir. Türklərin etnik şəxsiyyətləri ilə inanclarının birbirindən ayrıla bilməyəcək dərəcədə inteqrasiya olunduğu bir faktdır. Bu mənada Qərb imperializmi Balkanlarda olduğu kimi, Anadolu torpaqlarında da Osmanlı hakimiyyətinin zəiflədilməsi üçün çarə axtardıqları məlumdur. Qərblilər, Osmanlı Dövlətinin gücünü qıraraq öz milli maraqlarını reallaşdıra bilmək üçün Anadoluda yaşayan xristian ermənilərı bir alət kimi görmüşlər. Bu səbəblə, Türkiyədə bir erməni dövlətin qurulması üçün müəyyən bəzi axtarışlara başlamışlar.

Sual və tapşırıqlar:

– Rusiya imperiyasının Cənubi Qafqazdakı siyasətinin səbəblərini və onun ermənilərə himayədarlıq etməsini necə izah edərdiniz?

– Qərb dövlətləri süni erməni problemi yaratmaqla hansı məqsədləri güdürdü?

– Xanlıq dövründə Qarabağda əhalinin sayını və sıxlığını şərh edin.

ERMƏNİ KOMİTƏLƏRİ

Erməni nizamnaməsinin 1860-cı ildə hazırlanmasından sonra ermənilər arasında təşkilatlanmaya start verildi, cəmiyyətlər yaradılmağa başlandı. Cəmiyyətlərin qurulmasında Avropada təhsil görmüş erməni tələbələr əhəmiyyətli rol oynadılar. İlk dəfə 1862-ci ildə İstanbulda erməni tələbələr tərəfindən gizli olaraq "Ayk i Orion" adlı masson lojası quruldu. Bu təşkilat Mançesterdə olan "Old Fellows" adlı masson lojasının bir şöbəsi idi. Daha sonra Çukurovada "Xeyriyyə Cəmiyyəti" [46, s.128] ilə "Özverililər (Yaddaş) Cəmiyyəti" quruldu. 7 may 1866-cı il tarixində Serobe Aznavur, Srapion Həkimyan, Serobe Taqvoryan, Mikail Alişan, Matevos Mamuryan və Arutyun Svacyan tərəfindən "Grand Orient de France" adlı lojanın şöbəsi kimi İstanbulda "Ser" (Sevgi) adlı ikinci bir masson lojası açıldı. Loja "birlik, sevgi, təhsil, iş və azadlıq" şüarı ilə tərəfdar toplamağa çalışdı [18, s.84-85].

Göründüyü kimi, İstanbulda ermənilər tərəfindən qurulan bu təşkilat ingilis və fransız masson lojaları tərəfindən təşkil edildi.

XIX əsrin son rübünün əvvəlində ermənilər arasında ictimai məqsədli gizli cəmiyyətlər qurulmağa başlandı. "Araratlı", "Şərq", "Kilikiya" adlı təşkilatlar 1880-ci ildə "Erməni Birlik Cəmiyyəti" adı altında birləşdilər. Həmin il Ərzurumda "Silahlılar Cəmiyyəti" ilə "Qadınlar Cəmiyyəti" quruldu. 1872-ci ildə Vanda qurulan "Qurtuluş üçün birlik" və 1882-ci ildə yaradılan "Qara Həcc Cəmiyyəti" ilə 1881-ci ildə Ərzurumda təşkilatlanan "Vətən qoruyucuları" gizli cəmiyyətlər arasında ən məşhurları idi. Xüsusilə "Qara Həcc Cəmiyyəti" ermənilər silahlandıraraq üsyan təşkil etmək üçün fəaliyyət göstərirdi [102, s. 85].

"Silahlılar Cəmiyyəti" 1883-cü ilə qədər fəaliyyətini davam etdirdikdən sonra üzvlərindən bir qisminin həbs olunması ilə dağıldı.

İstanbulda qurulan "Erməni Vətənsevərlər Birliyi" isə Türkiyədə yaşayan ermənilər üçün inzibati islahatlar aparılmasını tələb etməyi və məqsədinə çatmaq üçün hər yola əl atmağı məqsədəuyğun hesab edirdi. İstanbulda qurulmasına baxmayaraq, daha sonra mərkəzini Ərzuruma keçirən təşkilat, partizan dəstələri yaradaraq 400-dən artıq silahlı əsgər yetişdirir. Düzənli şəkildə hərbi təhsil verən təşkilat silah və sursat yığmağa başlayır. 1882-ci ildə Ərzurumdakı rus kon-

sulunun bildirdiyinə görə, bu təşkilatın hədəfi Osmanlı hökumətinə qarşı silahlı bir üsyan təşkil etmək idi [102, s.86].

Bu dövrdə Türkiyədə qurulan cəmiyyətlərdən başqa, xarici ölkələrdə də təşkilatlar yaradılır. 1881-ci ildə Moskvada yaşayan erməni tələbələr tərəfindən "Vətənsevərlər Komitəsi" qurulur [98. s.6]. Ölkə xaricində yaradılan komitələr arasında İngiltərənin imperialist siyasəti məqsədilə qurduğu, gələcəkdə İngiltərə Xarici İşlər naziri olan Edvard Qreyin Administrasiyasının təşkil etdiyi "İngilis-Erməni Birliyi" diqqət çəkir. Birliyin İdarə Heyətində Qreydən başqa, bir çox ingilis siyasətçi də təmsil olunurdu [79, s.26].

Bu ictimai və siyasi xarakterli cəmiyyətlərin xaricində Osmanlı Dövlətinə qarşı separatçı mübarizə aparmaq üçün xarici ölkələrdə ermənilər tərəfindən "partiya" adlandırılan bəzi komitələr yaradılmağa başlandı. Bu məzmunda ilk dəfə 1885-ci ildə Marseldə "Armenakan" komitəsi yaradılmışdır. Komitə təbliğat fəaliyyətləri üçün "Armeniya" (Ermənistan) adlı bir qəzet nəşr etməyə başladı. Komitənin Türkiyədəki mərkəzi Van vilayətində idi. Bundan əlavə, Muş, Bitlis, Trabzon və İstanbulda da şöbələri açıldı. Bu komitənin İran, Amerika Birləşmiş Ştatları və Rusiyada da şöbələri yaradıldı. Komitənin məqsədi qiyam yolu ilə ermənilər öz-özlərini idarə edəcək bir mövqeyə gətirmək, yəni siyasi olaraq müstəqil bir erməni dövləti qurmaq idi. "Armenakan" Komitəsi hədəfinə çata bilmək üçün xalq arasında siyasi şüuru oyandırmaq, xalqa hərbi təhsil vermək, silah və pulla təmin etmək, silahlı birliklər quraraq siyasi mühitin də uyğun olması halında Osmanlı Dövlətinə qarşı mübarizə aparmaq üçün hərəkətə keçdi. Bununla birlikdə, daha sonra qurulan "Qnçak" və "Daşnaksütun" komitələrinin həyata keçirdikləri fəaliyyətlər "Armenakan" komitəsinin ermənilər arasında rəğbət görməsinə mane oldu [90, s.21-22]. Ancaq ermənilərin silahlandırılmasında "Armenakan" komitəsi böyük rol oynadı.

İsveçrənin Cenevrə şəhərində təhsil almış rus əsilli Avetis Nazarbekyan, Maro Nazarbekyan, Ruben Hanzat və yoldaşları 1887-ci ildə "Qnçak" (Can) adında yeni bir komitə qururlar. Komitənin öndərləri ermənilərin sıx yaşadıqları bölgələrdə Osmanlı Dövlətinə qarşı terror aktlarını planlaşdırmağa başlayırlar. Komitə Marksist ideallar istiqamətində sosialist bir təşkilat kimi ortaya çıxır. Qnçak komitəsi minimum və maksimum olmaqla iki proqram hazırlayır. Minimum

proqramın yekun məqsədi olaraq Osmanlı ermənilərinin siyasi müstəqilliyi hədəf qoyulur. Komitə bu hədəfə çata bilmək üçün "qiyam, yəni güc istifadə etməklə Türkiyə Ermənistanında mövcud inzibati quruluşu yıxmağı və üsyan yolu ilə qiyamı həyata keçirməyi" [90, s.22-23, s.104] planlaşdırır. "Armenakan" komitəsindən fərqli bir üsulla fəaliyyət göstərən "Qnçak" komitəsi Rusiyada "Narodnikov (Xalqçılar)" olaraq məşhur olan təşkilatın seçdiyi fərdi terror üsulunu istifadə edirdi [87, s.61].

"Qnçak"çılar Osmanlı dövlətində yaşayan digər millətlərlə də qiyamı təşkil edə bilmək üçün əməkdaşlıq etməyi planlaşdırmışdılar. Osmanlı Dövləti torpaqları xaricində də geniş bir təbliğat kampaniyası başladan komitə xaricdən Türkiyəyə silah və sursat gətirməyə başladı. Komitənin proqramında xalq kütlələrinə Osmanlı Dövlətinə qarşı qiyam fikrini yaymaq üçün terrorun vacibliyinin izah edilməsi xüsusi yer tuturdu. Qnçak komitəsi qurulduqdan bir neçə il sonra Anadoluda geniş şəkildə təşkilatlanmağı bacardı. Həqiqətən, Qnçak mənsublarının səyləri nəticəsində beynəlxalq sosialist konqreslərdə erməni problemi müzakirə edilir, sosialist qəzetlərdə də bu mövzuda yazılar nəşr olunurdu. Hadisələrin bu istiqamətdə inkişaf etməsi ilə beynəlxalq sosialist təşkilatları ermənilərin müdafiəçiləri olduqlarını bəyan etməyə başladılar. Sosialist bir komitə olaraq qurulmasına baxmayaraq, 1905-ci ildə Qnçak komitəsi milliyyətçi, sosial-demokrat kimi tanındı [90,s.22-23, s.104].

Qnçak komitəsinin hazırladığı proqramda erməni əhalisinin üçdə ikisinin Türkiyədə yaşadığını qeyd edildikdən sonra "ana vətən" adlandırılan torpaqların ən böyük hissəsinin Osmanlı Dövləti idarəsində olduğuna diqqət çəkilmişdir. Bundan əlavə, Berlin anlaşmasının 61-ci maddəsinin ermənilərə fayda təmin etdiyi ifadə olunaraq, Osmanlı Dövlətinin siyasi-iqtisadi vəziyyətinin olduqca ağır olduğu vurğulanmışdır. Beləcə, yaxın bir gələcəkdə türk torpaqlarının Avropa dövlətləri tərəfindən bölüşüləcəyi və ermənilərin yaşadığı Şərq vilayətlərinin başqa bir dövlətin rəhbərliyi altına girəcəyi ifadə edilmişdir [90, s.22-23].

Qnçak komitəsinin qurucuları "Qərb (Türkiyə) Ermənistanı qurtarıldıqdan" sonra ermənilərin bütün gücləri ilə "Rusiya və İran Ermənistanı" torpaqlarını da qurtarmaq üçün mübarizə edəcəklərini, məqsədə çatdıqdan sonra bu üç ölkə torpaqlarında "demokratik res-

publika" quracaqlarını planlaşdırırdılar. Hətta qurmağa planlaşdırdıqları "müstəqil Ermənistan Dövlətinin" seçim sistemi, hüquqi strukturu, mətbuat və söz azadlığı, vətəndaşlarının əsgərlik öhdəliyi kimi mövzulara da toxunurdular. Bundan başqa, Qnçak mənsubları suriyani, yezidi, kürd və digər etnik azlıqların da rəğbətlərini qazanmaq üçün çalışacaqlarını da vurğulamaqda idi [90, s.24].

Qnçak komitəsi planlaşdırılan məqsədə çatmaq üçün qiyam, yəni güc istifadə edərək xalqın üsyan etməsini təmin etməyin vacibliyi üzərində dayanırdı. "Türkiyə Ermənistanı"nı qura bilmək üçün təbliğat və terror kimi üsullar üzərində duran Qncaklar proqramlarında fəaliyyət istiqamətlərini bu şəkildə izah edirdilər [90, s.24-25]:

1.Təbliğat: məqsədi xalq və cəmiyyət arasında qiyamın əsas qayəsini yaymaqdır. Sosial islahat və dəyişikliklərin reallaşdırılması üçün müstəqilliyin və ümumi demokratik siyasi azadlığın vacibliyi təbliğatın hədəfidir.

2.Təşviqat: məqsədi hər bəhanə və təzyiqi istifadə edərək, xalqın qırılmış əhvali-ruhiyyəsini yüksəltmək, təzyiq və təqib altında tutulan xalqı düşmən və hökumətə qarşı döyüşə hazırlamaq; uyğun hər hadisəni istifadə edərək hökumətdən islahat tələb etmək, vergi ödəməyi rədd etmək və hökumət əleyhinə nümayiş kimi hadisələri təşkil etməkdir.

3.Terror: Qnçak Partiyası proqramında terrorun vacibliyi sübut edilməsi əhəmiyyətli bir yer tutmaqdadır. Bu faktor (terror) partiyanın praktik fəaliyyətlərində əhəmiyyətli bir yer tutmuşdur. Yuxarıda əvvəldən toxunduğumuz kimi, Qnçak Partiyasının ideoloji qaynaqlarından biri də Rusiyadakı "Xalqçılıq" hərəkatının ideologiyası idi və buna görə də, təbiidir ki, terror siyasəti, onun (partiyanın) proqramında və praktik fəaliyyətlərində əhəmiyyətli bir yer tutur... Proqramda ifadə edilir ki: "Terrorun hədəfi, xalqı təzyiqdən qorumaq, onun ruhunu (əhvalını), qiyam coşqusunu artırmaq, xalqı hökumətə qarşı müharibəyə istiqamətləndirmək, işin (müharibənin) müvəffəqiyyətlə başa çatacağına inandırmaq, hökumətin nüfuz və gücünü qırmaq, ona (hökumətə) qorxu verməkdir. Buna çatmaq üçün ən pis şəxsləri aradan qaldırmaq – türk və erməni, – yüksək inzibati vəzifələrdə olanları, casus və xainləri məhv etmək lazımlıdır" deyilərək, yaxın bir zamanda Qnçak komitəsinin Türkiyədə qanlı hərəkətlərə başlayacağı bildirilirdi. Bundan başqa, Qnçak komitəsi nəzərdə tutulan məqsədə

çata bilmək üçün bu fəaliyyətlərin gerçəkləşdirilməsini vacib hesab edirdi [90, s.25]:

"Yalnız terror aktlarını həyata keçirəcək terror-hərbi təşkilatlanması;

Kəndlilər arasında genişmiqyaslı inqilab hərəkatının təşkil edilməsi;

İşçilər arasında inqilabi təşkilatlanması;

Həm kəndlilər, həm də işçilər arasında inqilabçı-hərbi təşkilatlanma" aparılması planlaşdırılırdı. Bu vaxt Qnçak komitəsi planlaşdırdığı qiyamı reallaşdırmaq üçün ən uyğun zamanın Osmanlı Dövlətinin müharibəyə girdiyi dövr olduğunu hesablamışdı [90, s.131].

Qnçak komitəsinin terror üsulları üzərində geniş dayanmaq lazımdır. Çünki "hiddət, zorakılıq hallarının istifadəsi də daxil olmaqla fövqəladə metodlarla siyasi davranışları dəyişdirməyə istiqamətli simvolik tədbirlər" kimi də müəyyənləşdirilmiş terrorun həyata keçirilməsində məqsəd "xalq kütləsi ilə dövlət arasında bağları zəiflətmək, xalqın mərkəzə olan dəstəyini sarsıtmaqdır. "Bunu edərkən" şəxsin sədaqət mərkəzinin dövlət xaricindəki mərkəzlərə dəyişdirilməsində güc istifadə ediləcəyinə" şübhə yoxdur [50, s.8]. Beləcə, Qnçak komitəsi mənsubları terror yolu ilə ermənilərin dövlətə olan sədaqətlərini sarsıdaraq xalqın özlərinə meyil etməsini təmin etmək məqsədini güdürlər.

Erməni tarixçi Meri Koçar bu proqramı hazırlayan Qnçak komitəsinin məqsədinin Osmanlı Dövlətindən ayrılaraq şərq vilayətlərində "müstəqil Ermənistan Dövləti" qurmaq olduğunu ifadə edir. Həmçinin Qnçak mənsubları məqsədlərinə nail olmaq üçün çevik təşkilatlanma apararaq qısa müddətdə Anadolunun bir çox yerində komitənin şöbələrini açırlar [90, s.25-26].

Türkiyədə fəaliyyət göstərən ingilis kapitanı C.B.Norman Qnçak komitəsinin intizam cəzalarına xüsusi əhəmiyyət verdiyinə işarə etdikdən sonra komitənin qəbul etdiyi cəzalarla bağlı maddəni bu şəkildə izah edir: "Komitə bir baş icraçı təyin edəcək və onun əmrində sədaqətli olmasına görə seçilmiş şəxslər olacaq. Onların vəzifələri isə xəyanəti üzündən ölümə məhkum edilənləri və mübarizə üçün ölümləri vacib olan şəxsləri öldürməkdir. Cəzalar bu şəkildədir: Xəbərdarlıq və pul cəzası, döyülmə və ölüm. Ölüm cəzası bıçaqla, tapança ilə və ya zəhərlə yerinə yetirilir. Bəzən evləri, binaları və

qəsəbələri yandırılmaqla xarabalığa çevrilməsi lazım ola bilər. Bu məqsəd üçün barıt, dinamit və bombalar təmin ediləcəkdir" [54, s.55]. Göründüyü kimi, komitə onlara xəyanət edəcək ermənilər bundan çəkindirmək üçün şiddətli cəzalar tətbiq etməyi lazım bilərək, komitə içərisində həm intizamı təmin etməyi, həm də gizlilik prinsipini qorumaq məqsədini güdür.

XX əsrin əvvəllərində Qnçak komitəsinin rus partiyalarından təsirləndiyi aydın olur. Çünki Meri Koçarın qeyd etdiyi kimi, "Qnçak Partiyasının... yenidən hazırlanmış sonrakı proqramlarında, Rusiya Sosial-Demokrat Partiyası proqramının təsirinin, (partiyanın) bölünməsindən sonra isə Menşeviklərin proqramının təsirinin getdikcə artdığı görünür" [90, s.25]. Bundan başqa, Koçar, Osmanlı Dövlətində erməni komitələrinin sosializmlə birlikdə marksizm ideologiyasını da yaymağa çalışdıqlarını qeyd edir [90, s.6].

1890-cı ildə Tiflisdə "Daşnaksütun-Erməni Federativ İnqilab Partiyası" adında yeni bir komitə yaradılır. Komitənin hədəfi bütün erməni qiyamçılarını öz ətrafında toplayaraq bir birlik yaratmaq idi. Qurulmasından qısa müddət sonra olduqca güclənən komitə öz mərkəzini Cenevrəyə keçirir. Komitənin 1892-ci ildəki ilk konqresində qəbul edilmiş proqramının əsas hədəfi "Üsyan yolu ilə Türkiyə Ermənistanının siyasi və iqtisadi müstəqilliyini" təmin etməkdir. Bu məqsədə çata bilmək üçün digər millətlərlə əməkdaşlıq etməyi də planlaşdıran komitə bir çox mərkəzlər quraraq təşkilatlanır [90, s.26-28]. Daşnaksütun komitəsi Rusiyada fəaliyyətdə olan "Narodnaya Volya" (Xalq İradəsi-xalqçılar) adlı təşkilatla əlaqəli şəkildə hərəkət edir [98, s.6-7]. Ermənistanın ilk Baş naziri Ovanes Kacaznuninin yazdığı kimi, Daşnaksütun quruluşunun ilk dövrlərində bir sui-qəsd (terror) hərəkatı idi [88, s.61-68]. Bu vaxt 1890-cı illərin başında erməni separatizmini həyata keçirənlər silahlı mübarizə və qan ilə hədəflərinə çata biləcəklərini düşünərək yeni bir mərhələyə keçirlər [90, s.29, 69, 255]. Daşnaksütun komitəsinin qurucuları üsyan qaldırmaqla məqsədlərinə çata bilmək üçün hökumətə qarşı döyüşəcək qiyamçı silahlı dəstələr təşkil etməyin lazımlı olduğunu düşünürdülər.

Həmçinin hazırlanmış komitə proqramında hədəfə çatmağı təmin edəcək bu vasitələr nəzərdə tutulurdu: Təbliğat və qiyam fəaliyyətləri ilə mübarizə aparacaq qrupları təşkilatlandırmaq və onları öyrətmək; həm sözlə, həm də hərəkətlərlə xalqın qiyam coşqunluğu-

nu artırmaq; xalqı silahlandırmaq üçün bütün imkanları istifadə etmək; yüksək rütbəli dövlət adamları, xainlər, sələmçilər, xalqı əzənlərə qarşı terror üsulu ilə mübarizə aparmaq; mülki xalqı quldurlardan qorumaq; hökumət təşkilatlarını talan etmək və yıxmaq [90, s.27,28].

"Daşnaksütun" komitəsi Türkiyədə fəaliyyət göstərən bütün erməni qiyamçı qrupları birləşdirməyə çalışaraq, bu qrupların tək məqsədinin Türkiyədə davamlı şəkildə təbliğatı dəstəkləməklə böyük gücləri təcili erməni probleminin həll olunmasına məcbur etmək istiqamətində müraciət etmişdir. Bu hədəfə çatmaq üçün 1897-ci ildə Londonda keçirilmiş komitə konqresində "dağları və yolları işğal edəcək, poçt xidmətlərinə hücumları gerçəkləşdirəcək və hökumətə çətinliklər yaradacaq kiçik şəbəkənin (dəstələrin)" qurulması məqsədi ilə hərəkətə keçilməsi qərara alınmışdır [87, s.65].

Erməni tarixçi Meri Koçarın yazdığı kimi, "Qnçak" komitəsi sosializm prinsipləri adı ilə qurulduğundan "Daşnaksütun" ilə birləşməsi mümkün deyildi. Bu səbəbdən, Türkiyədə fəaliyyətə keçən "Armenakan", "Qnçak" və "Daşnaksütun" komitələrinin hamısı Osmanlı dövlətindən ayrılaraq "müstəqil bir erməni dövləti" qurmaq naminə mübarizə etmələrinə baxmayaraq, birləşmələri mümkün olmur [90, s.21,28].

Rusiyada 1905-ci il inqilabından sonra komitənin Vyanada keçirilən konqresində sosializm prinsipləri qəbul edilərək "Daşnaksütun"un sosialist bir partiya olduğu elan edilir. Ancaq 1917-ci il bolşevik inqilabından sonra Ermənistan və Azərbaycanın Sovetlərin tərkibinə keçməsi üçün çalışan S.Şaumyan "Daşnaksütun"un sosializm prinsipləri ilə uzaqdan-yaxından bir əlaqəsi olmadığını, yalnız lazım olduğu zaman mənfəətləri üçün sosializm ideyalarını istifadə etmək üçün kağız üzərində belə bir qərar alındığını irəli sürür. A.Lalayan isə daşnakların uzun illərdir erməni xalqını milli və ictimai xüsusiyyətli demaqoqluqla aldatdığını qeyd edir. "Daşnaksütun" komitəsi mənsubları yalnız silahlı bir üsyana təşviq etməklə kifayətlənməyib, ermənіləri silahlandırma, rəsmi vəzifəlilərə qarşı terror aktları həyata keçirmə və əsl məqsəd kimi "müstəqil böyük Ermənistan" qurmağı planlaşdırmışdılar. 1908-ci ilin əvvəllərində "Daşnaksütun" komitəsinin 100.000 silahlı hərbi ordusu olduğu və aylıq olaraq hər silahlının 30 rubl maaş aldığı məlum olur. Erməni tarixçi Ağayan daşnakların, xüsusilə fərdi terror üsulunu mənimsəyərək tez-tez

terror aktlarına müraciət etdiklərini, bu səbəblə erməni xalqına böyük zərər verərək ermənilərin varlıqlarını təhlükəyə saldıqlarını bildirir [68, s.16].

Digər tərəfdən, ermənilərlə maraqlanan marksist ideologiyasının liderlərindən F.Engels 23 noyabr 1894-cü il tarixində G.Atabekyana göndərdiyi bir məktubda Ermənistanın türklərdən və ruslardan qurtuluşunun ancaq çarizmin yıxılması ilə mümkün ola biləcəyini irəli sürmüşdür [95, s.270-271]. Osmanlı ermənilərini üsyana qaldıran komitələr Osmanlı Dövlətinin vətəndaşı olmayan şəxslər, xüsusilə də Rusiya ermənilər tərəfindən qurulmuşdur. Bahşi İşxanyan və Leo kimi erməni müəlliflər Osmanlı Dövlətinə qarşı ermənilərin üsyan etmələrini tələb edəcək bir səbəb olmadığını qəbul etmişlər. Rus Ordusunun polkovniki Qryaznov isə erməni komitələrinin ingilis maraqlarına xidmət edən bir vasitə kimi istifadə edildiyini vurğulamışdır [102, s.10-12].

Əslində erməni komitələri ilə böyük güclər qarşılıqlı şəkildə birbirlərindən öz mənfəətləri üçün istifadə etmişlər. Ermənilər üsyanlarla hədəflərinə çatmağa çalışarkən böyük güclər də ermənilərin törətdikləri hadisələri Osmanlı Dövlətinin daxili işlərinə müdaxilə etmək üçün fürsət kimi görmüşlər. Ermənilərin himayəçisi kimi görünmələrinə baxmayaraq, əslində böyük güclər öz maraqlarını güdmüşlər. Erməni tarixçi G.M.Arutyunyan erməni komitələrinin macəraçı rəhbərlərinin terror üsullarından istifadə etdiyini, bununla da erməni hərəkatına böyük zərər verdiklərinə diqqəti çəkir, erməni əsilli rus siyasətçilərindən A.K.Çiveleqov Avropalı ermənilərin komitələr yaratdıqlarını, bu komitələrin Osmanlı ermənilərini silahlandırdıqlarını yazır [82, s.9]. General Mayevski isə gizli erməni komitələrinin əsas vasitələrinin terror olduğunu, komitələrin qərar və istəklərini yerinə yetirməyənləri, qəbul etməyənləri və hətta qınayanları terror üsulu ilə təhdid etdiklərini bildirir. Erməni xalqının öz qiyamçı komitələrinin təzyiqi altında yaşadıqlarını vurğulayan Mayevski ermənilərin bu komitələrin fəaliyyətlərini qınama cəsarəti göstərə bilmədiyinə işarə edir. Komitələrə qarşı ediləcək hər hansı bir tənqidin ölüm cəzası ilə cəzalandırıldığını qeyd edən rus konsulu General Mayevski Vanlı erməni gəncləri qiyam fikrindən uzaq tutmağa çalışan 70 yaşlarındakı Van yepiskopu Bogosun 6 yanvar 1896-cı il tarixində bir komitə mənsubu tərəfindən bıçaqla öldürüldüyünü misal gətirir.

1908-ci ildə "Ramkavar" komitəsi yaradılır. Digər komitələr kimi "Ramkavar" komitəsi də erməni probleminin həllinin Türkiyənin şərq vilayətlərində müstəqil bir erməni dövlətinin qurulmasına bağlı olduğunu bildirir. Komitə mənsubları böyük güclərin diplomatik yollarla dövrəyə girərək və ermənilərə kömək etməklə məqsədlərinə çata biləcəklərini planlaşdırırlar [86, s.59-60].

General Vladimir Teofiloviç Mayevski guya xalqın azadlığı adına mübarizə edən erməni komitələrinin hər şeydən öncə erməni xalqının fərdi azadlığına, fikir bəyan etmə, şikayət etmə və özünü müdafiə haqqına mane olduqlarını ifadə etmişdir. Mayevski komitələrin süni olaraq yaratdıqları anarxiya dövründə ermənilər insan kimi yaşamaq haqlarından məhrum etdiklərini yazmışdır. Hətta Mayevski ən tanınmış erməni ziyalılarının belə komitələrin fikirləri ilə eyni fikri daşımırlarsa, fikirlərini açıq şəkildə bəyan edə bilmədiklərini vurğulamışdır. Göründüyü kimi, erməni komitələri xalq üzərində böyük bir təzyiq yaratmışdılar.

Xalqa təzyiq göstərməklə komitə mənsublarının istəklərinin yerinə yetirilməsinə çalışırdılar. Erməni komitələri Türkiyədə törətdiyi üsyanlar nəticəsində Qərb dövlətlərinin Osmanlı Dövlətinə müdaxilə etməsini və türk hökumətinə qarşı üsyançı ermənilər müdafiə etmək məqsədi güdürdülər. Beləliklə, zamanla bu məqsədlərinə çatan komitəçilər Anadoluda qarışıqlıq salaraq süni bir erməni problemi yaratmaqda baş rolu oynamışdılar.

Sual və tapşırıqlar:

– Erməni gizli təşkilatlarının fəaliyyəti haqqında danışın və bu təşkilatların adlarını sadalayın.

– Erməni məsələsində maraqları olan Qərb ölkələrindən hansılarının adlarını çəkə bilərsiniz?

– Erməni komitələrinin yaradılmasında təşəbbüskar partiyaların adlarını çəkin və onların məqsədlərini izah edin.

ERMƏNİ ÜSYANLARINA DOĞRU

Berlin sazişinin imzalanmasından sonra Osmanlı ermənilərinin öndərləri Qərb dövlətlərinin onlarla maraqlanması üçün üsyan etmələrinin lazım olduğuna inanmağa başlayırlar. Eyni düşüncədə olan erməni patriarxı İngiltərə səfiri ilə apardığı bir danışıqda üsyan etməyin çətin olmadığını ifadə edir. Patrik isə "Erməni Milli Məclisi"ndə etdiyi bir çıxışda müəllimlərin və aktiv gənclərin şərq vilayətlərinə gedərək xalq içində təbliğat aparmalarını məsləhət görür. Bir tərəfdən erməni kilsəsinin bu istiqamətdəki fəaliyyətləri, digər tərəfdən missionerlərin və xarici məktəblərin Anadoludakı işləri ermənilər arasında bir tərpəniş olduğunun işarəsini verirdi. Həqiqətən, Ərzurumdakı İngiltərə konsulu Everett 25 iyun 1880-ci il tarixli bir hesabatında ermənilərin muxtariyyət əldə etmək üçün avropalıların dəstək vermələrini təmin etmək düşüncəsi ilə hərəkətə keçməyə hazırlaşdıqlarını ifadə edirdi. İngilis konsulu İstanbuldan gələn komitəçilərin xalqı qiyama istiqamətləndirdiklərini, ölkə xaricindən silah gətirərək ermənilərin evlərini sanki silah anbarına çevirdiklərini, yaxın bir zamanda ciddi qarışıqlıqlar gözlənildiyini bildirirdi [37, s.102-103].

Bu vaxt 1880-ci ildə İngiltərədə keçirilən seçkilər nəticəsində V.E.Gladston iqtidara gəlir. Bununla da yeni ingilis hökuməti Anadoluda fəaliyyət göstərən hərbi konsullarının geri çağırılması hazırlıqlarına başlayır. Ancaq geri çəkmək birdən həyata keçirilməyərək pilləli şəkildə reallaşdırılacağı və polkovnik Chermside, Mayor Clayton və podpolkovnik Everetin hərbi sahədən ayrılmadan vətəndaş konsul və ya konsul köməkçisi kimi bir müddət vəzifələrini davam etmələrinin lazım olduğu bildirilir. Bu xəbəri alan Podpolkovnik Vilson, 8 noyabr 1881-ci il tarixində hərbi konsulluqlarla bağlı bir hesabat qələmə alaraq İngiltərənin İstanbuldakı yeni səfiri Dufferinə göndərir.

Vilson yazdığı hesabatda bu fikirləri qeyd edirdi:"Anadolu baxımından, hərbi konsulların xüsusi missiyalarını tamamladıqları və gələcəkdə edəcəkləri xidmət, əgər həqiqətən vilayətlərdəki idarəçilər üzərində daha çox təzyiq edə biləcək bir güc toplamamışdırsa, bu yolda xərclənəcək vəsaiti haqlı çıxarmayacağı deyilə bilər... Erməni və kürd problemləri Sivasda hələ yeni başlamaqdadır. Bu şərtlər

altında, qənaətimə görə, Anadoludakı hərbi konsulluqların sayının azaldılmaması, Ermənistan və Kürdüstandakıların sayının isə artırılması üstündə düşünülməsi vacib olan bir mövzudur" [37, s.144-147]. Göründüyü kimi, podpolkovnik Vilson, Anadoluda yaşayan ermənilər və kürdlər arasındakı problemlərin yaxın gələcəkdə artaraq hadisələrə yol açа biləcəyinə diqqət çəkirdi. Yeni İngiltərə Hökumətinin Xarici İşlər naziri Lord Qranvillə, 11 may 1882-ci il tarixində İstanbuldakı səfir Lord Dufferin və podpolkovnik Vilsona göndərdiyi bir təlimatla Anadoludakı hərbi konsulluqlara artıq ehtiyac qalmadığını bildirir. Ancaq Ərzurum, Diyarbəkir və Vanda çalışan hərbi konsullar hələ bir müddət ölkələrinə xidmət etməyə davam edirlər. İngilis hökuməti Berlin Konqresinin əvvəlində rus təhdidi və Osmanlı ermənіləri kartını istifadə etməklə Kiprlə bağlı məqsədini həyata keçirdiyindən, bu dövrdə Anadoluya marağını azaldır. Berlin anlaşmasında ermənilər üçün aparılan islahat bu tarixdən sonra onlar üçün yeni bir dövr açaraq, görülən hazırlıq işlərindən sonra, 1890-cı illərdə Anadolunun bir çox vilayətində münaqişələrə yol açacaq. Armenakan, Qnçak və Daşnaksütun komitələri Anadoluda ermənilərin üsyan etmələrində baş rolu oynayacaqlar.

Sual və tapşırıqlar:

– Erməni üsyanları Türkiyənin hansı əyalətlərində, hansı məqsədlərlə və nə vaxt başlamışdır?

– Erməni üsyanlarını hərtərəfli dəstəkləyən hansı dövlətlər idi?

– Silahlanmağa çalışan ermənilərin Anadoluda gizli planlarını şərh edin.

MUSA BƏY HADİSƏSİ

Komitələrin qurulmasından sonra Anadoluda bəzi erməni çevrələri tərəfindən Osmanlı Dövlətinə qarşı təhrikedici aktlar təşkil edilməsi də nəzərdə tutulur. Bundan əlavə, ermənilər Osmanlı hökumətinə qarşı beynəlxalq siyasi arenada istifadə edə biləcəkləri hadisələri gözləməyə başlayırlar. Belə bir dövrdə erməni qaynaqlarının quldur olaraq xarakterizə etdiyi, Muşda yaşayan Mutki əşirətinin rəisi Musa bəyin bölgədəki ermənilərі narahat edən əməlləri barədə xəbərləri yayılır. Musa bəyin Muş rayonundan olan bir keşişin bacısını qaçıraraq onu zorladığı və müsəlman olmasını tələb etdiyi göstərilir. Ancaq təcavüzə məruz qaldığı deyilən qız qaçaraq ermənilərlə birlikdə İstanbula gəlir [35. s.106]. Bununla da ermənilər Musa bəyin quldurluq etməsi ilə bağlı İstanbulda hökumətə şikayət edirlər. Musa bəy haqqında 1889-cu ildə İstanbulda aparılan məhkəmələrdən hər hansı bir cəza almadan buraxılması ilə erməni təbliğat şəbəkəsi Osmanlı məhkəmələrinə etibar etmədikləri barədə xəbərlər yaymağa başlayırlar [83, s.419].

Yəqin, bu xəbərlərin təsiri olmuşdur ki, Türkiyədəki xarici, xüsusilə də ingilis diplomatlar Musa bəy hadisəsi ilə maraqlanaraq topladıqları məlumatları öz aralarında qiymətləndirdikdən sonra İngiltərə hökumətinə göndərirlər. Ermənilər də Musa bəy haqqında ingilis hökumətinə şikayət edirlər [83, s.612-623]. İstanbuldakı İngilis səfirinin Musa bəyin cəzalandırılması üçün xüsusi səy göstərməsi nəticəsində II Əbdülhəmid Musa bəyi uzaq bir bölgəyə sürgünə göndərir.

Qnçak komitəsi bu hadisəni avropalıların nəzdində Osmanlı dövlətinə qarşı bir təbliğat vasitəsi olaraq istifadə etmək üçün böyük fəaliyyət aparır.

Sual və tapşırıqlar:

– Musa bəy hadisəsi nə vaxt və harada baş vermişdir?

– Musa bəy kim idi və ona qarşı ermənilər hansı ittihamlar irəli sürürdülər?

– Musa bəy hadisəsində ermənilərin Qnçak terror təşkilatının fəaliyyəti haqqında danışın.

ƏRZURUM HADİSƏSİ

Osmanlı Dövlətinə qarşı mübarizə etmək üçün yaradılmış bütün komitələrin hədəfi ermənilər üçün dövlət qurmaq idi. Lakin buna baxmayaraq, Osmanlı hökumətinə qarşı silahlı mübarizə aparmağa hazırlaşan komitələrin mübarizə üsulları bir-birlərindən fərqlənirdi.

"Armenakan" komitəsi hazırlıqları tamamladıqdan sonra silahlı mübarizədən keçərək hərəkət etməyi planlaşdırarkən "Qnçak" və "Daşnaksütun" komitələri ciddi bir hazırlıq etmədən də fəaliyyətə keçməyi seçərək qarşıdurmaya girdilər. Bununla birlikdə, xüsusilə "Daşnaksütun" komitəsi ölkə içərisində geniş şəkildə təşkilatlanaraq yerli təşkilatlarını qurmağa başladı [90, s.29].

General Mayevskinin qeyd etdiyi kimi, qiyamçı erməni komitələrinin ortaya çıxmasında milliyyətçilik, azadlıq və separatizm fikirlərinin doğulması və bu axınların Qərb dövlətləri tərəfindən öz maraqlarına xidmət etmək üçün istifadə etməsinin təsiri olmuşdur.

Komitələrin qurulmasından sonra silahlı bir üsyan törətmək məqsədi ilə ilk silahlı hərəkat 20 iyun 1890-cı il tarixində Ərzurumda başlayır. Ermənilərin Ərzurumda silahlandıqları haqqında xəbərin alınması ilə Osmanlı əsgərlərinin yepiskopluqda axtarış etmək istəmələri ermənilər tərəfindən böyük əks reaksiya ilə qarşılanır. Ermənilər mitinq və nümayişlər təşkil edərək silah axtarışına etirazlarını bildirirlər.

Erməni tarixçisi Y.K.Sarkisyanın qeyd etdiyi kimi, Ərzurum Erməni yepiskopluğu ilə Sanasaryan erməni məktəbində axtarış aparmaq üçün gələn Osmanlı əsgərlərinə açılan atəş nəticəsində 1-i öldürülür, 2-si isə yaralanır. Bu səbəbdən baş vermiş münaqişədə 15 nəfər həyatını itirir, 200-ə yaxın insan isə yaralanır [102, s.102]. Meri Koçar isə münaqişə əsnasında ölən və yaralanan ermənilərin sayının 20 nəfər olduğunu ifadə edir.

Ermənilərin Ərzurumda gerçəkləşdirdikləri silahlı müqavimətdən sonra "Qnçak" qəzeti ermənilər ayağa qaldıran təhrikedici yazılar dərc edir. Ərzurumda qanlı toqquşmaların olduğunu yazan qəzet Eleşkirt, Ərzincan və Vanda oxşar hadisələrin baş verdiyini, ermənilərin üsyan qaldırdıqlarını, artıq həyatlarına yeni bir məna verəcək yeni bir dövrə girdiklərini yazır. Qəzetlərdə nəşr edilmiş

yazılarda bu vəziyyətin erməni xalqını oyanışa çağırdığı üçün onları məmnun etdiyi ifadə olunur [90, s.30]. Ermənilər Ərzurum hadisəsindən sonra Qərb dövlətlərinin işə qarışaraq Osmanlı Dövlətinə qarşı onları qoruyacaqlarına ümid edirlər.

Sual və tapşırıqlar:

– Ərzurum hadisəsi nə vaxt baş vermişdir?

– Ermənilərin Ərzurumda törətdikləri hadisələr və onun səbəbləri nə ilə bağlı idi?

– Bu hadisələrdə Qərb dövlətlərinin ermənilərə dəstəyi ilə bağlı nə bilirsiniz?

– Ermənilərin Ərzurumda törətdikləri terror hadisələrinin ağır nəticələrini və hansı xarici ölkələrin bu hadisələrin baş verməsində maraqlı olub, iştirak etdiyini göstərin.

QUMQAPI MİTİNQİ

15 iyul 1890-cı il tarixində Ərzurumda baş vermiş silahlı qarşıdurmadan qısa bir müddət sonra "Qnçak" komitəsi İstanbulda bir etiraz mitinqi keçirməyi qərara alır. Qumqapı mitinqini idarə edən Artin Cangulyan təşkil ediləcək mitinqdə məqsədini bu şəkildə açıqlayır: "Ərzurum hadisəsinə görə bir əks hərəkət edilməzsə, ermənilər özlərini unutmuş sanacaqdılar. Bunun üçün bir qarışıqlıq hərəkatı lazımdır... Erməni həyəcanı yalnız və tamamilə Ermənistana bağlı qalmış olsaydı, Rusiyanın diqqətini çəkərdi. Rusiya, bundan şübhələnər və günün birində Ermənistanı zəbt edərdi. Əgər hərəkat digər illərdə və xüsusilə mərkəzdə olarsa, o zaman digər dövlətlərin də marağını çəkərdi. Bu surətlə erməni problemini, xüsusilə İngiltərəni Rusiyadan daha çox mübarizəmizə dəstək kimi gördüyümüz üçün milli maraqlar baxımından daha faydalı bir şəklə salmaq mümkün olacaqdı [43, s.461].

Göründüyü kimi, Cangulyan, xüsusilə İngiltərənin ermənilərlə maraqlanması üçün bu hərəkəti həyata keçirəcəklərini qeyd edirdi. Mitinqlərin məqsədinin Ərzurum hadisələrinə etiraz etmək, ermənilərı cəsarətləndirmək, Qərb ölkələrinin səfirlərinin diqqətini erməni probleminə çəkmək və "ermənilərin yaşadıqları vilayətlərə geniş yerli muxtariyyət verilməsini" tələb edən kütləvi ərizələri II Əbdülhəmidə vermək olduğu bildirilir. Bundan başqa, Qnçak komitəsi Horen Aşıkyanın bu ərizəni erməni patriarxı "saray"ına verməsini də qərara alır [90, s.30].

Həqiqətən, Qurban bayramına təsadüf edən 1890-cı il 15 iyul (bazar) günü İstanbul Erməni Patrikliyinin yanındakı Qumqapı erməni kilsəsində ayin zamanı kürsüyə çıxan Artin Cangulyan Qnçak komitəsinin əvvəlcədən hazırladığı bir mətni oxumaq istəyir. Ancaq Erməni Patriarxı Horen Aşıkyan Cangulyana "O kağızı oxumağa zamanı olmadığını" söyləməsi ilə kilsədə olanların bir qisminin "Patriarx, aşağı düş! Horen, aşağı düş!" sözləri ilə qarşılaşır. Erməni Patriarxı Aşıkyan Qnçakların tələbini saraya çatdırmağı rədd etdiyinə görə kilsədə olan qəzəbli ermənilərin hücumuna məruz qalaraq döyülür. Hətta Artin Cangulyan, silahını erməni patriarxı Aşıkyana tuşlayır. Üstünə silah çəkilməsi nəticəsində canından qorxan Patrik

Aşıkyan Qnçak mənsublarının tələblərini yerinə yetirmək istədiyini bildirmək məcburiyyətində qalır [42, s.107].

Qnçak komitəsi liderlərinin istiqamətləndirilməsi ilə təxminən 1500 nəfərdən ibarət olan mitinqçilər Yıldız sarayına doğru gedirlər. Erməni tarixçisi Koçar isə, Qnçak komitəsinin təşkil etdiyi mitinqçilərin sayının təxminən 5.000 olduğunu qeyd edir [62, s.30]. Ancaq mitinqçilərin asayiş gücləri tərəfindən dayandırılmış, dağılmaları xəbərdarlığının edilməsi ilə iki tərəf arasında qarşıdurma yaranır. Erməni tarixçisi Sarkisyan mitinqçilərin silahsız olduqlarını nə qədər iddia etsə də, baş verən toqquşmada ermənilərin bıçaqlar və dəyənəklərlə asayiş keşikçilərinə cavab verdiklərini yazır [102, s.105]. Bununla birlikdə, faktlara nəzər saldıqda ermənilərin hamısının silahsız olduqları iddiası çox da inandırıcı gəlmir. Çünki qarşıdurmanın atəş açan ermənilərin başlatdıqları məlumdur. Həmçinin ermənilərin açdıqları ilk atəş nəticəsində 2 polis həyatını itirmiş, 1 polis isə ağır yaralanmışdır. 9 avqust 1890-cı il tarixli "Tan" qəzeti hadisələrdə ümumən 12 nəfərin öldüyünü, 6 nəfərin isə yaralandığını xəbər verir [51, s.108].

Qarışıqlıq sakitləşdirildikdən sonra mitinqçilərin bəziləri həbsə alınır. Həbsə alınanlar arasında hadisələri başlayanlardan biri olan rus əsilli Aqop Vart-Patrikyan məhkəmədə Qnçak komitəsinin əsl məqsədinin "Qərbi Ermənistanın türk hakimiyyətindən qurtarılması" olduğunu bildirir. Məhkəmə Aqop Vart-Patrikyanın sərbəst buraxılaraq rus konsulluğuna təslim edilməsinə və ölkədən çıxarılmasına qərar verir [102, s.105-106]. Qumqapı mitinqinin əks-sədaları Türkiyəni aşaraq Avropaya da çatır. Bu hadisələrin Avropada geniş əks-səda yaratması ermənilər daha da cəsarətləndirir. Meri Koçar ermənilərin "Sülhsevər mitinqlərlə problemlərinin heç birini həll edə bilməyəcəklərini" anladıqlarını qarşıya qoyaraq, bu tarixdən sonra silahlı mübarizəyə başlayacaqlarını qeyd edir [90, s.30]. Beləcə, Osmanlı Dövlətinə qarşı silaha sarılacaq emənilərin sayı da getdikcə artmağa başlayır.

Sual və tapşırıqlar:

– Qumqapı mitinqi nə vaxt baş vermişdir?

– Mitinqin başlama səbəbləri və erməni terrorçularının məqsədi nədən ibarət idi?

– Bu mitinqdə hansı erməni terror təşkilatları daha fəal idi?

–Erməni problemləri ilə İngiltərənin maraqlarını səciyyələndirin.

ERMƏNİ SİLAHLI DƏSTƏLƏRİNİN TÜRKİYƏYƏ HÜCUMU

Ermənilərin bir qismi, Qərb dövlətlərinin diqqətini özlərinə çəkə bilmək məqsədi ilə Türkiyədə üsyan qaldırmağı planlaşdırmışdılar. Bu məqsədlə ilk təşəbbüs Ərzurumda göstərilmişdi. Bunun ardınca İstanbul şəhərinin Qumqapı bölgəsində bir mitinq təşkil edilmiş və təhlükəsizlik qüvvələri ilə qarşıdurma yaradılmışdı. Ərzurum və Qumqapı hadisələri yalnız Anadoluda əks-səda tapmaqla qalmamışdı. Anadoludan Qafqaza keçən ermənilər, Qafqazda yaşayan soydaşları arasında bu hadisələri şişirdərək danışmışdılar. Beləcə, rus ermənilərinin Türkiyədə yaşayan qardaşlarına kömək etmələri lazım olduğu kimi xəbərlər yaydılar. Bu xəbərlər, Qafqazda yaşayan ermənilər arasında həyəcan yaratdı. Bununla da rus ermənləri pul yığaraq Türkiyədə yaşayan qardaşlarına silah və sursat göndərməyə başladılar. Bundan əlavə, kiçik silahlı qruplar təşkil edən Qafqaz ermənləri Türkiyə sərhədinə doğru hərəkət etdilər. Ancaq hadisələrin Qafqaza keçə biləcəyindən narahat olan çar Rusiyası, ermənilərin Türkiyəyə keçmələrinə mane olmağa çalışdı [102, s.103]. Çünki rus hökumətini haqlı olaraq narahat edəcək səbəblər vardı. Rusiyada çar rejiminə qarşı gizli təşkilatlar yaradılmağa başlamışdı. Qafqazda yaşayan ermənilərin də gizli cəmiyyətlər quracaqlarını anlayan Rusiya onları nəzarət altına aldı.

Qafqazda yaşayan soydaşları Osmanlı ermənilərinə silah və sursat göndərir və pul yardımı edirlər. Bu fəaliyyətlə kifayətlənməyən bəzi Rusiya ermənləri, Türkiyəyə hücum hazırlıqlarına başlayırlar. Sankt-Peterburq universitetlərində oxuyan bir qrup tələbədən ibarət olan və Sərkis Kukunyanın rəhbərlik etdiyi təxminən 100 nəfərlik silahlı bir dəstə, 24 sentyabr 1890-cı il tarixində türk sərhədindən içəri girməyə təşəbbüs edir. Bu səbəbdən yaranan qarşıdurma nəticəsində silahlı erməni dəstəsi Osmanlı əsgərləri tərəfindən dayandırılır. Rusiyaya geri dönmək məcburiyyətində qalan dəstə üzvləri, bu dəfə rus ordusu ilə silahlı qarşıdurmaya girirlər. Ruslar itki versələr də, həmin ermənləri həbs edirlər. Həbs olunan 107 erməni, rus məhkəmələrində mühakimə edilərək, fərqli həbs cəzaları alırlar.

Qəribədir ki, erməni tarixçisi Boryan, ordunun başçısı Kukunyanın və yoldaşlarının fəaliyyətlərinin "hər hansı bir cinayət əməli təşkil edəcək tədbirlər olmamasına baxmayaraq", rus hökumətinin, bu şəxsləri cinayətkar kimi mühakimə etdiklərini iddia etməkdən çəkinmir [79, s.52]. Hər halda, Boryan cinayət və cəza kimi anlayışların etnik quruluşa görə olduqca fərqli şərh oluna biləcəyini zənn etmişdir. Çünki erməni tarixçilər, bu dövrün hadisələrinə davamlı olaraq anlaşılmaz bir məntiqlə ikili standartla yanaşmaqdan çəkinmirlər. Rus konsulu General Vladimir Teofiloviç Mayevski, Kukunyan şəbəkəsinin uğursuz hücumunun gələcəkdə bənzər hərəkətlərə girişəcək ermənilərin təcrübə qazanmaları baxımından yaxşı bir dərs olduğunu söyləmişdir. Əlavə olaraq, bu sərhəd pozuntusu təşəbbüsündən sonra həm Osmanlı, həm də rus hərbi birliklərinin ermənilərin sərhəd pozuntularına mane olmaq üçün daha çox tədbir aldıqlarını da qeyd etmişdir. Mayevskinin yazdığı kimi, bir il sonra ermənilər bu dəfə cəsur və təcrübəli 8-10 nəfərdən ibarət, böyük qruplara görə hərəkət qabiliyyəti daha asan olan qruplarla İran üzərindən türk sərhədini keçərək, hücumlarda iştirak etmişdilər [92, s.56-57].

Erməni silahlı şəbəkələrinin İran üzərindən Türkiyəyə hücum etmələrinin səbəbi bu yolun daha təhlükəsiz olmasından qaynaqlanırdı. Məsafə olaraq, daha uzun yol qət etmələrinə baxmayaraq, erməni dəstələri, bu marşrutu daha güvənli hesab edirdilər. Mayevski Osmanlı-İran sərhədində bir neçə dəfə hərəkət etmək imkanı tapdığını, İran tərəfində sərhəd təhlükəsizliyini təmin edəcək hər hansı bir hərbi birliyin olmadığını ifadə edir [92, s.56-57].

Erməni silahlı dəstələri türk sərhədini keçərək bir müddət erməni kəndlərində dincəldikdən sonra İran sərhədinə 4-5 saatlıq məsafədəki Tokurlu əşirətinə bağlı Boğazkəsən və Azarya kəndlərinə hücum edirlər. 1895-ci ilin sentyabrında Boğazkəsən kəndində nahar etməkdə olan 30 nəfərlik bir kürd qrupuna erməni silahlı dəstələri tərəfindən ani bir hücum təşkil edirlər. Erməni silahlı dəstələri, bir neçə kürdü vurduqdan sonra öldürülən kürdlərin atları ilə birlikdə oradan uzaqlaşaraq dağlarda gizlənirlər. Bu hücumdan sonra qorxuya düşən Tokurlu əşirəti mənsubları kəndlərini tərk edirlər [92, s.137].

Aradan uzun bir müddət keçdikdən sonra 1897-ci ilin avqustunda Van yaxınlığında ortaya çıxan rus əsilli Faramaz adlı dəstə başçısına tabe olan təqribən 30 nəfərlik bir qrup ələ keçirilir [93,s.141].

Erməni silahlı ordularının Rusiya və İrandan Türkiyəyə keçərək müsəlman kəndlərinə hücum etmələrinin məqsədi hökumətə qarşı silahlı bir üsyan hazırlayaraq həyata keçirmək, Türkiyədə yaşayan erməni və müsəlmanları bir-birinə düşmən etmək idi. Bu hücumlardan sonra bölgədə yaşayan müsəlmanların da ermənilərə hücumlarının təşkil edilməsi üçün şəraitin planlaşdırıldığının hədəfləndiyini desək, səhv etmərik. Beləcə, bölgədə yaşayan müsəlman və ermənilər arasına bu şəkildə nifaq toxumları səpilməyə başlanılır [103, s.13].

Erməni silahlı dəstələrinin rus sərhədini keçərək Türkiyəyə hücum etmələrindən sonra Osmanlı hökuməti Rusiya və İran sərhədlərinə qonşu şərq vilayətlərində xidmət edəcək "Həmidiyyə" adı ilə tanınan süvari alaylarını qurur. Professor E.Dillon Osmanlı hökumətinin Rusiya ilə çıxa biləcək bir müharibədə kürdlərdən daha çox faydalana bilmək məqsədi ilə, hətta rus kazaklarına qarşı bir balans olaraq bu alayları yaratdığını vurğulayır [84, s.332]. Dillonun fikirləri nəzərə alındıqda Həmidiyyə alaylarının rus kazaklarının təşkilatına bənzər bir təşkilat olduğu görünür. Çünki Həmidiyyə alayları nizamlı ordudan çox Osmanlı ordusuna köməkçi qüvvələr şəklində təşkilatlanmışdı.

Erməni tarixçilər Həmidiyyə alaylarının yaranma səbəbinin ermənilər üzərində dağıdıcı fəaliyyətlər törətmək olduğunu irəli sürürlər. Rizədəki rus diplomatı Gippiusun da ifadə etdiyi kimi, əslində Həmidiyyə alaylarının yaradılmasının səbəblərindən biri şərq vilayətlərində köçəri kimi yaşadıqları üçün nəzarət altında tutulmaları o dövrdə mümkün olmayan kürdləri oturaq həyat tərzinə keçirərək, məskunlaşmış bir nizama salaraq bölgədə ictimai asayişi təmin etmək idi [102, s.100]. Çünki köçəri kürd tayfalarının bəziləri bölgədə gəzən tacirlərə hücum etdikləri kimi, soyğunçuluq etmək məqsədi ilə xristian yaşayış məntəqələrinə də hücumlar təşkil edirdilər. Oturaq həyata keçdiklərində bu hücumların da qarşısı alına bilinəcəkdi.

Həmidiyyə alaylarının qurulmasının məqsədləri arasında erməni tarixçilərin irəli sürdüyü kimi, erməni cəmiyyətinə qarşı dağıdıcı fəaliyyətlər göstərmək deyil, əksinə, ermənilərə də zərər verən komitəçilərin dağıdıcı fəaliyyətlərinə mane olmaq da vardı.

1890-cı ildə mərkəzi Ərzincanda olan 4-cü Ordu müşiri (marşalı) Damat Mehmet Zəki Paşanın təklifi ilə II Əbdülhəmid tərəfin-

dən qurulan Həmidiyyə alaylarının yaradılmasında məqsəd aşağıdakılardır:

Şərqi Anadolu vilayətlərində dövlət nüfuzunu gücləndirmək;

Əşirətlərdən hərbi qüvvə kimi faydalanaraq Rusiya ilə çıxa biləcək bir döyüşdə əldə hazır güc saxlamaq;

Kürd əşirətlərini düzənli oturaq həyat tərzinə alışdırmaq;

Şərq vilayətlərində başlayan erməni fəaliyyətlərinin qarşısını almaq;

Xarici dövlətdən ola biləcək təhriklərinə qarşı bölgə xalqına sahib çıxaraq dövlətə itaət etmələrini təmin etmək [43. s.462-464; 44. s.199-201].

II Əbdülhəmid müsəlman olmayanların olduğu qədər, müsəlmanların da böyük güclərin təhriklərinə aludə olmamaları üçün şərq vilayətlərində dövlət nüfuzunun təmin edilməsinə böyük səy göstərmişdir. Bu səbəblə Osmanlı Sultanı dövlətə köməkçi birliklər kimi dəstək verən Həmidiyyə alaylarını yaradaraq bir tərəfdən, erməni komitələrinin fəaliyyətlərinin nəzarət altına alınmasını təmin etmiş, digər tərəfdən isə dövlətlə əşirətlər arasında yaxın əlaqə qurularaq dövlət-millət inteqrasiyasını və onların oturaq həyata keçmələrini təmin edəcək bir addım atmışdır. Buna qarşı imperialist Qərb dövlətləri və Rusiya zaman-zaman erməni islahatı mövzusunu gündəmə gətirərək bu məzmunda Həmidiyyə alaylarının paylanması və silahlarının əllərindən alınması üçün Osmanlı hökumətinə təzyiq göstərmişlər.

Sual və tapşırıqlar:

– Ermənilər Türkiyəyə nə vaxt hücum etmişlər?

– Ermənilərin bu hücumda əsas məqsədi nə idi?

– Ermənilərı Rusiya və İranla bağlayan amillər hansılardır?

– Ermənilərin dəstəklənməsində və onlara himayədarlıq edilməsində Rusiya və İran dövlətlərinin məqsədlərini şərh edin.

RUSİYANIN QAFQAZ ERMƏNİLƏRİNƏ TƏSİRİ

Anadolunun bəzi şəhərlərində ermənilərlə müsəlmanlar arasında baş verən toqquşmanın xəbərləri Türkiyədən Qafqaza keçən erməni təbliğatçılar tərəfindən həddindən artıq şişirdilmiş bir şəkildə yayılır. Qafqaz ermənіləri, Türkiyədəki soydaşlarının Osmanlı hakimiyyətindən qurtarılmaları üçün böyük bir siyasi təbliğat kompaniyası aparırlar. Qafqaz ermənіləri Osmanlı ermənіləri üçün maddi yardım kampaniyası da təşkil edirlər. Bundan əlavə, qida, silah və sursat toplanması hazırlığına başlayırlar. Ermənilər arasında Qafqazda könüllü silahlı dəstələr yaradılır və bunlar Türkiyəyə keçməyə çalışırlar. Ancaq rus hərbçilərinin gördükləri tədbirlərlə sərhəddəki türk əsgərləri və bölgədəki müsəlman kəndliləri erməni silahlı dəstələrinə müqavimət göstərmələri nəticəsində ermənilərin türk sərhədindən içəri sızma təşəbbüsləri müvəffəqiyyətsizliklə nəticələnir [101].

Rusiya Ədliyyə nazirinin imzası ilə 9 (22) iyun 1894-cü il tarixli bir hesabatda 1890-cı illərdə Qafqazdakı ermənilərin Osmanlı ermənilərinə kömək etmək adı altında silahlanmalarına və Türkiyəyə sızaraq silahlı əməllər törətmələrinə və buna bənzər fəaliyyətlərinə qarşı Rusiyanın yüksək rütbəli vəzifəlilərinin laqeyd qalmadıqları, bu fəaliyyətlərə mane olmaq üçün səy etdikləri görünür. Rus əsgər və polisinin, bu hazırlıqlarla bağlı ermənіləri ələ keçirmək üçün ciddi çalışdıqları aydın olur. Rusiya məhkəmə orqanlarının isə ələ keçirilən ermənilərin Osmanlı dövlətində yaşayan ermənіləri üsyana qaldırmaq üçün fəaliyyət göstərdikləri səbəbiylə barələrində cinayət işi açılaraq məhkəmədə mühakimə etdikləri və cəzalandırdıqları diqqəti çəkir.

Bu dövrdə Anadoluda baş verən erməni üsyanlarında Rusiyanın rolunun olmadığı Parisdə nəşr edilən "Siecle" qəzetində dərc olunmuş bir yazıda da vurğulanırdı. Qəzetdə, xüsusilə, bu fikirlərə yer verilirdi: "Anadoluda ermənilər tərəfindən çıxarılan münaqişələrdə Rusiyanın hər hansı bir rolunun olmadığı və hətta Rusiya tərəfindən Osmanlı sərhədini keçmək istəyən silahlı ermənilərə icazə verilmədiyi, xeyli rus əsgərinin ermənilər tərəfindən öldürüldüyü və

xüsusilə, erməni qiyamlarının Rusiyaya da sirayət etməsi ehtimalına görə, bu cür hərəkətlərin Osmanlı hökuməti tərəfindən nəzarət altına alınmasının dəstəkləndiyi...” [46, s.40] bildirilirdi.

Doğrudan da, “Rus səlahiyyətliləri, ermənilərin bu fəaliyyətlərinə mane olmaq üçün güc sərf edərkən, həmin fəaliyyətlərin Osmanlı dövlətinə qarşı bir üsyan hazırlamaq məqsədi güddüyünü başa düşmüşdülər. Rusların ermənilərə mane olmalarının təməlində Türkiyədə ermənilər tərəfindən çıxarılacaq bir üsyanın, daha sonra Rusiyaya da yayıla biləcəyi narahatlığı durur. Bu dövrdə Osmanlı dövləti və Rusiya arasında ermənilərə qarşı tətbiq edilən və yazılı olmayan bir razılaşmanın olduğu da deyilə bilər” [103, s.14-15].

Rusiya Xarici İşlər Nazirliyi sistemində şahzadə Kantakuzenin, Əhməd Şakir Paşa ilə keçirdiyi qeyri-rəsmi bir görüşdə ermənilərin siyasi hədəflərinə istiqamətli bəzi narahatlıqların dilə gətirildiyi məlum olur. Şahzadə Kantakuzen “Ermənilərin əsl məqsədinin Rusiya və Osmanlı hökuməti daxilində müstəqil bir Ermənistan dövləti qurmaq olduğunu, ancaq iki dövlətlə də döyüşməyə cəsarət edə bilmədiklərindən Rusiyanın himayəsini qazanıb Osmanlı Dövləti üçün süni problemlər yaradaraq dünyanın diqqətini çəkmək və bunun sayəsində müstəqilliklərini qazandıqdan sonra siyasəti dəyişdirib Rusiyadakı ermənilərı də birliklərinə qatmaq olduğunu” dediyi [55, s.34-36] diqqəti çəkir.

Anadoluda ermənilərin yol açdıqları münaqişələrdə Rusiyanın rolunun olmadığı barədə fikirlər Osmanlı sənədlərində də əks edilmişdir. Osmanlı dövləti Xarici İşlər Nazirliyinin rəsmi yazışmalarında göstərilir ki, 1895-ci ilin yaz aylarında, xüsusilə “Ermənilər tərəfindən Eçmiədzin kilsəsində toplanılan pulun böyük bir qisminin silah almaq üçün İngiltərəyə göndərildiyi, İran və ya Rusiya yolu ilə Tiflisə keçirilə biləcəyi xəbəri verilən bu silahların Tiflisə gəldiyi zaman müsadirə edilməsi barəsində Rusiya hökuməti tərəfindən məmurlara əmr verildiyinə dair məlumat alındığı” bildirilir. Bu yazışmada Eçmiədzin kilsəsi tərəfindən toplanılan pulun 100.000 rubl olduğu, bu pulun yalnız 1.000 rublunun kilsəyə qaldığı, qalan 99.000 rublun isə erməni katolikosu Mkırtç Hırimyan Ayrik tərəfindən Osmanlı dövlətində fəaliyyət göstərən erməni komitələrinə silah almaq üçün İngiltərəyə göndərildiyi diqqət çəkir. Bu vaxt həmin kəş-

fiyyat məlumatının Osmanlı dövlətinin Tiflisdəki səfiri tərəfindən əldə edilərək Xarici İşlər Nazirliyinə teleqrafla bildirildiyi məlum olur.

Göründüyü kimi, çar hökuməti İngiltərədən satın alınacaq silahların Rusiya üzərindən Türkiyəyə keçirilməsinə icazə verilməyəcəyinə dair təhlükəsizlik qurumlarına əmr vermişdir. Bundan əlavə, Qafqaz ermənilərinin yığdığı pulların İngiltərəyə göndərilərək silah satın alınmağa çalışılması da Rusiyanın bu dövrdə erməniləri silahlandırma kimi bir planının olmadığına işarə etməkdədir. Çünki Rusiyanın belə bir fikri olsaydı, ermənilərin əllərindəki hazır pulla İngiltərədən silah təmin etmələrinə mane olmazdı. Digər tərəfdən, ermənilərin silahlandırılmasında İngiltərənin barmağının olduğu da ortaya çıxır.

Bu dövrdə, 11 iyun 1895-ci il tarixli bir Osmanlı sənədində, Rusiyanın İstanbuldakı səfiri ilə Zaptiyə (Jandarm) naziri Nazim Paşa arasında bir görüş keçirildiyi, səfirin "Rusiyanın erməni məsələsinə müdaxilə etməklə məqsədlərinin hər hansı bir siyasi mənfəət əldə etmək olmayıb, ermənilərin məskunlaşdığı vilayətlərdə bəzi islahatlar həyata keçirilərək ingilislərin və komitələrin təhriklərindən xalqın qurtarılmasının təmin etmək olduğunu ifadə etdiyi" [55, s.127-128] məlum olur.

29 sentyabr 1898-ci il tarixli bir Osmanlı sənədində erməni silahlı dəstələrinin Rusiya sərhədini keçərək, Türkiyədə qarışıqlıq salmalarına maneə törədilməsi haqda Rusiya hökuməti tərəfindən Qafqaz Canişininə təlimat verildiyinin xəbər alındığı bildirilir [55, s.198-199].

Bütün bunlara baxmayaraq, çar Rusiyası Osmanlı ermənilərini küsdürərək əlaqələrini tamamilə kəsməmək üçün ermənilərlə bağlı bəzi fəaliyyətlərdən də geri qalmırdı. Osmanlı sənədlərində, 1892-1893-cü illərdə Rusiyanın Ərzurum və Harput konsullarının ermənilərlə yaxın təmasda olduqları və onlara bəzi cəmiyyətlər qurdurduqları, hətta "Rusiya bayrağı asılmış erməni kilsə və monastırlarında çox sayda silah saxlandığının aparılmış araşdırmalarda üzə çıxması" hesabatda qeyd edilmişdi.

Bundan əlavə, 1892-ci ildə Rusiyanın Van konsulluğunda vəzifəli bir diplomatın Ercis, Malazgirt, Hınıs və Muş istiqamətlərinə ermənilərin təhrikedici fəaliyyətlərdə olduğu məlum idi. Digər tərəf-

dən, Osmanlı-Rusiya sərhədində olan bəzi erməni kəndlərində Rusiyanın səlahiyyətliləri tərəfindən xalqa silah paylandığının xəbəri də alınırdı.

Eyni zamanda Türkiyədəki erməni üsyanları nisbətən sakitləşdikdə Rusiyanın ermənilərlə bağlı həyata keçirdiyi tədbirləri də sakitləşdirdiyi aydın olur. Çünki "Osmanlı Xarici İşlər naziri Tofiq" imzası olan 1 aprel 1897-ci il tarixli bir sənəddə "Rusiya hökumətinin ermənilər haqqında tətbiq etdiyi tədbirləri zəiflədərək ermənilər üçün ianə toplanılmasına, ermənilərı təhrik məqsədilə teatrlar təşkil edilməsinə və ermənilərin nəşr etdikləri elanlarda "Ermənistan" təbirindən istifadə olunmasına səbirlə yanaşdıqları" [55, s.171-172] qeyd edilirdi. Aydın olduğu kimi, Rusiya siyasi şəraitə görə ermənilərlə olan əlaqələrini əslində icra etməkdə idi. Amma ermənilərin ingilislər tərəfindən istifadə edildiyini başa düşdükdən sonra ruslar onlara daha məsafəli yaxınlaşmağı məqsədəuyğun hesab edirdilər. Osmanlı Dövlətindəki erməni hərəkatının öz torpaqlarına da sirayət edəcəyi narahatlığını keçirən Rusiya bu fikirdən xilas olduqlarında Türkiyədə yaşayan ermənilərı təhrikedici fəaliyyətlərə girişməkdən çəkinməmişdir.

Sual və tapşırıqlar:

– Ermənilərin Rusiyanın təsiri altına düşməsinin səbəbləri nə ilə bağlı idi?
– Rusiya-erməni birliyinin tarixi köklərini nə ilə izah edərdiniz?
– Ermənilər tərəfindən Eçmiədzin kilsəsində ianələrin hansı məqsədlərlə toplanmasını şərh edin.

MERZİFON VƏ YOZQAT HADİSƏLƏRİ

Qumqapı mitinqindən sonra Qnçak komitəsi mənsubu ermənilər Anadoluda təbliğat fəaliyyətlərini sürətləndirməyə başlayırlar. Bu fəaliyyətlər Merzifon, Amasya, Sivas və Samsun xəttində daha da sıxlaşır. Xüsusilə Merzifon Qnçakların əhəmiyyətli mərkəzlərindən birinə çevrilir. Çünki Merzifonda Qnçaklar "Kiçik Ermənistan Qiyam Komitəsi" kimi məlum olan böyük mərkəzi yaratmışdılar. Bu komitənin başçısı Amerika Kollecinin müəllimi Karabet Tomayan, komitə mərkəzinin katibi isə eyni kollecdə müəllim işləyən Ohannes Qayayan idi. Komitə mərkəzində çalışan müəllimlər London və Afina kimi ölkə xaricindəki şöbələri ilə bərabər, Ərzurum, Bitlis və Vandakı tərəfdaşları ilə də müntəzəm əlaqələr saxlayırdılar.

Amerikalı missionerlər 1852-ci ildə Merzifonda xüsusi bir mərkəz də təşkil etmişdilər. Amerikalıların Merzifonu bir missioner mərkəzi kimi seçmələrinin ən əhəmiyyətli səbəbi burada xeyli erməni və rumlu əhalinin olması ilə bərabər, həm də Merzifonun bölgənin yol qovşağında və Qara dənizə yaxın olmasıdır. Burada amerikalı missionerlər 1865-ci ildə Ruhanilər Məktəbi açmışdılar. 1886-cı ildə isə Merzifonda Amerikan Kolleci (Anadolu Kolleci) fəaliyyətə başlamışdır. Bu məktəbə qəbul edilən şagirdlərin böyük bir qismi ermənilərdən ibarət idi. 1892-1893-cü illərdə məktəbə qəbul edilmiş 123 şagirdin 95-i ermənilər, 23-ü rumlu, 3-ü türk və 2-si də alman idi. Ancaq türk tələbələr bir neçə gün sonra məktəbdən ayrılmışdılar. 1897-ci ildə kollecdə oxuyan 149 tələbədən 109-u erməni, 40-ı rum əsilli idi. 1901-1902-ci illərdə məktəbdə 175 erməni, 75 rumlu şagird təhsil alırdı.

Merzifon Amerika Kolleci yaradıldığı ilk gündən şagirdləri azadlıq fikirləri ilə yetişdirmək və milli duyğularını oyatmaq, müstəqillik düşüncəsini mənimsətmə vəzifəsini həyata keçirirdi. Burada şagirdlərə aşılanan fikirlər nəticəsində Merzifon ermənilər üçün bir fəsad yuvası halına gəlmişdi. Merzifon və ətrafında fəaliyyət göstərən fəal erməni komitəçiləri Amerika Kollecində yetişdirilmişdilər. Hətta bu məktəb erməni qiyamçılarının mərkəzi olmuşdu [44, s. 399, 592].

Türkiyədə fəaliyyət göstərən missionerlər qeyri-müsəlmanları müsəlmanlara görə daha təsirli, güclü və təşəbbüskar bir cəmiyyət halına gətirmək üçün vasitə kimi istifadə etmişlər. Türkiyədə müsəlmanlarla qeyri-müsəlmanların bir-birlərinə qarşı düşmən kütlələr halına gətirməyi məqsəd qoyan missionerlərin məqsədi, ortaya çıxacaq münaqişələrdən faydalanaraq öz milli maraqlarını reallaşdırmaq idi.

Merzifon ətrafında təbliğat aparan Qnçak komitəsinin nümayəndələri protestant və katolik ermənilərı də eyni məqsəd ətrafında birləşdirmək üçün çalışırdılar. Merzifonda keçirdikləri komitə məclisində ermənilərin silahlandırılması, komitə mənsublarının toplayacaqları silah və sursatı öz pulları ilə satın almaları, komitəçilərin bölüklərə ayrılması və "Qnçak" qəzetinə abunə edilməsi işlərinin sürətləndirilməsi kimi qərarlar alınır. Daha sonra hərəkətə keçən komitə nümayəndələri Osmancık poçt əməkdaşlarının yolunu kəsərək poçtalyonlarla əsgərlərə hücum edirlər. Bundan başqa, Yozqata gedən poçtalyon qrupuna da hücum edən erməni silahlı dəstələri poçt qrupunun fayton sürücüsünü və təhlükəsizlik xidməti işçisini öldürürlər; atları, silahları və pulları da ələ keçirirlər. Bununla kifayətlənməyən ermənilər, Çorum-Merzifon arasındakı Dərbənd bölməsinə basqın edərək jandarmları qətlə yetirirlər [52, s.465-466]. Göründüyü kimi, erməni silahlı dəstələri əvvəlcə bu bölgədə yolları kəsərək quldurluqla məşğul olurlar. Ancaq qısa bir müddət sonra polis bölməsinə hücum edəcək qədər cəsarətli addımlar atırlar. Əslində bu dövrdə Qnçak komitəsi bölgənin hər yerində qarışıqlıq və qarşıdurmalar törədərək Osmanlı dövlətini Qərb dövlətləri ilə qarşı-qarşıya gətirmək istəyir. Erməni silahlı dəstələrinin bölgədə müntəzəm hücumlar təşkil edib insanları soyduqları və qətl etdikləri üçün 1893-cü ilin yanvar ayında erməni məktəb və kilsələrində aparılan axtarışlar nəticəsində, hücumların təşkilatçılarının Merzifon Amerika Kolleci müəllimləri Tomayan və Qayayan olduqları ortaya çıxır. Buna görə, təhlükəsizlik qüvvələrinin Merzifonda olan Erməni Protestant Məktəbində axtarış aparmaq qərarını icra edən polislərə amerikalı missionerlərin himayələri altında olan erməni müəllimlər və digər missionerlər qarşı çıxırlar. Erməni tarixçisi Sarkisyan buna görə polisin məktəbi atəşə tutduğunu irəli sürür. Bu hadisədə komitənin təşkilatçıları Tomayan və Qayayan həbs edilirlər.

Həbs olunmuş şəxslərin günahkar olub-olmadıqlarının araşdırılması üçün Amerika Birləşmiş Ştatlarının səfirliyi Baş katib Nevberrini İstanbuldan Sivasa göndərir. Bölgədə araşdırmalar aparan Nevberri, həbs olunan ermənilərin haqlı səbəblərlə mühakimə edildiklərinə dair qələmə aldığı hesabatda Osmanlı hökumətinin ədalətli davrandığını ifadə edir. Bundan əlavə, Tomayanın hadisələrdə günahkar olduğu, Merzifon Amerika Kolleci müdiri ilə İstanbul ABŞ səfirliyi tərəfindən də qəbul edilir və o, məktəbdən çıxarılır.

Bölgədəki hücumlarda təqsirkar qismində tutulan xeyli adam həbs olunaraq Ankara Cəza Məhkəməsinə göndərilir. Ankarada aparılan mühakimə 5 ay sürdükdən sonra 14 iyun 1893-cü il tarixində Tomayan da daxil olmaqla 17 erməni edama, 16 nəfər isə müxtəlif cəzalara məhkum edilir, 14 şəxs isə bəraət alır. Bu zaman ölüm cəzasına məhkum olunmuş 17 ermənidən 5-nin cəzasının reallaşdırılması Avropada böyük əks-səda yaradır. Ölüm cəzası verilənlərin arasında olan Tomayan və Qayayan bağışlanılması üçün İngiltərə protestant ictimaiyyəti hərəkətə keçir. Osmanlı Sultanı II Əbdülhəmidə müraciət edən ingilislər bu ermənilərin əfv edilməsinə nail olurlar.

Osmanlı Hökuməti Tomayan və Qayayanı bir daha ölkəyə dönməmək şərti ilə ölkədən sürgün etmək qərarını verir. Bundan sonra İngiltərəyə gedən Tomayan, orada Qnçak komitəsinin nüfuzlu üzvlərindən birinə çevrilir. Beləcə, Tomayan, İngiltərədə ermənilərlə bağlı təşkil edilən mitinqlərdə Osmanlı Dövlətində zülm görmüş bir erməni kimi tanıdılır.

Digər tərəfdən, 9 sentyabr 1893-cü il tarixində Merzifonda hadisələr başlayır. Hadisələrin başlanmasında Merzifon Amerika Kollecində söylənən "Siz yuxudasınız, oyanın!" şüarı təkanverici rol oynamışdır [55, s.474].

Erməni tarixçisi Sarkisyan ermənilərin üsyan edəcəkləri səbəbiylə Osmanlı qüvvələrinin onlara hücum etdiyini iddia edir. Hətta müsəlman xalqının Osmanlı hərbi qüvvələrinə kömək etdiklərini qeyd edən erməni tarixçisi, bu qarşıdurmalarda təxminən 25 türk əsgər və zabitinə qarşı yalnız 10 ermənin – öldürüldüyünə diqqət çəkməklə ifadə etdiyi fikirlərin nə dərəcədə ziddiyyətli olduğunu meydana qoyur [102, s.107]. Çünki Merzifonun böyük əksəriyyəti müsəlman əhalidən meydana gəlməsinə və Osmanlı qüvvələrinin ermənilərə

hücum etmə iddiasına qarşı, nə hikmətdirsə, ölənlərin böyük əksəriyyətini türklər təşkil edir. Yəqin ki, erməni tarixçisi Sarkisyan, ortaya atdığı yalan və ziddiyyətli ifadələrin fərqini özü də anlamamışdır. Merzifondan sonra hadisələr qış mövsümündə Yozqata keçir. Üsyan edən ermənilər qarışıqlıq törədərək həbsxanaya hücum edirlər.

Bunun arxasınca erməni üsyançılar kilsəyə sığınaraq Osmanlı qüvvələrinə qarşı müqavimət göstərirlər. 1894-cü ilin yanvar ayında ermənilər Yozqatda təkrar üsyan qaldırırlar. Göründüyü kimi, ermənilər, müntəzəm olaraq qarışıqlıq yaratmaqla böyük dövlətlərin hadisələrə müdaxilələrini təmin etməyə çalışmışlar. Osmanlı Dövlətinin Tiflisdəki Baş konsulu Munir Süreyya Bəy, Anadoluda əhəmiyyətsiz kimi görünən kiçik hadisələrin Merzifon və Yozqatda baş vermiş qarşıdurmalara və münaqişəyə səbəb olduğunu, bu hadisələrin də Sasun üsyanının təməlini hazırladığını bildirmişdir [52, s.23]. Göründüyü kimi, Anadoluda ermənilərin törətdiyi hadisələr zəncirinin həlqələri kimi davamlılıq kəsb edən bir mahiyyət aldığı və ölkənin digər bölgələrinə də yayılaraq üsyanların çıxmasına səbəb olduğu meydana çıxır.

Sual və tapşırıqlar:

– Merzifon və Yozqat hadisələri nə vaxt baş vermişdir?

– Bu bölgələrdə ermənilərin törətdikləri hadisələrin digər bölgələrdə baş vermiş hadisələrlə əlaqəsini necə səciyyələndirə bilərsiniz?

– Bu cür təxribat xarakterli hadisələrin səbəblərini necə izah edə bilərsiniz?

– Osmanlı dövründə erməni təxribatlarını və terror hadisələrini təhlil edin.

SASUN ÜSYANI

Ermənilər tərəfindən XIX əsrin sonlarına doğru Türkiyədə bir üsyan etmək, aranı qarışdırmaq istiqamətindəki fəaliyyətlər, öz nəticəsini nəhayət, o dövrdə Bitlis vilayətinə bağlı Sasunda (Hazırda Batman bölgəsindəki Sason rayonu) verir. Burada Daşnaksütun komitəsi silahlı bir üsyan planı hazırlayır. Sasun ermənilər, bacardıqları qədər silahlanırlar. Hətta bir "Hərbi Şura" da yaradırlar [102, s.110]. Təşkilat rəhbərləri üsyan başlayanda avropalı böyük güclərin meydana girərək, Osmanlı dövlətinin daxili işinə qarışacaqlarını və Berlin anlaşmasının 61-ci maddəsinin yerinə yetirilməsi üçün Osmanlı hökumətinə təzyiq edəcəklərini güman edirlər [77, s.25].

Böyük bir üsyan üçün, xüsusilə, Sasunun seçilməsinin bəzi səbəbləri vardı. Sasun dağlıq və yüksək hündürlükdə yerləşən, gedilməsi çətin olan bir bölgədə idi. Bundan başqa, Sasun ermənilərin ən sıx yaşadıqları yerlərdən biri idi. Fransız müəllif Vital Jannetin verdiyi məlumatlara görə, Sasunda 10.370 müsəlman, 8.389 erməni, 970 yezidi və 372 kıpti olmaqla cəmi 20.101 nəfər insan yaşayırdı.

Esat Uras isə Sasun əhalisinin beşdə birinin erməni, öndə gələnlərin kürd olmasının təxmin edildiyinə işarə edir. Bundan əlavə, Sasun ermənilər, kürdlər kimi silah daşıyırdılar. Bu amilləri diqqətə alan qiyamçı daşnak erməni təbliğatçıları, Şərqi Anadoluda "Ölüm, ya da azadlıq!" şüarı ilə hərəkətə keçirlər. Erməni təbliğatçılarından Mihran Damadyan 1893-cü ildə, Hamparsun Boyacıyan isə 1894-cü ildə Sasunda təbliğat işi aparırlar. İki il sürən təbliğat fəaliyyətlərindən sonra bölgədə ermənilər və kürdlər arasında münaqişə başlayır. Damadyan və Boyacıyanın bu fəaliyyətlərindən əvvəl ermənilər və kürdlər Sasunda yan-yana, sülh içində yaşayırdılar.

Mayevskiyə görə, təbliğat fəaliyyətləri olmasaydı, bu xalqlar uzun müddət sakit bir şəkildə yaşamağa davam edəcəkdilər.

Nyu-Yorkda nəşr edilən "Herald" qəzetinə Dr.K.Hamlin tərəfindən 18 dekabr 1894-cü il tarixində göndərilən bir məktubda rusların silahlandırdığı və hazırladığı ermənilərin Sasunda və digər bölgələrdə özlərini müdafiə edəcəkləri ifadə edilmişdir [106, s.323].

Beləliklə, hazırlanmış planları həyata keçirməyə başlayan ermənilər Sasunda üsyan qaldırırlar. Rusiya Qafqaz Ordusu Baş Qərargah

komandanlığının hazırladığı bir hesabatda Sasun hadisələri bu şəkildə izah edilir: 1894-cü ilin avqustunda ermənilər Sasunda baş qaldıraraq əvvəlcə kürdlərə hücum edirlər. Bundan sonra ermənilər, hadisələrə müdaxilə edən Osmanlı hərbi qüvvətlərinə hücum edirlər, bu zaman baş verən silahlı toqquşma nəticəsində Sasunda qan axıdılır. Eyni zamanda rus mənbələrində belə ifadələr diqqəti çəkir: "Qiyamçı Boyacıyan və Damadyan tərəfindən təbliğatla süni bir şəkildə yaradılan silahlı toqquşma, bölgədə bu zamana qədər sülh içərisində birlikdə yaşayan ermənilərlə kürdləri bir-birinə həddindən artıq düşmən salmışdır. Nəhayət, bu hadisələr xarici güclərə Türkiyənin daxili işlərinə qarışmaları üçün bir bəhanə vermişdir" [102, s.154]. General Mayevskinin ifadəsi ilə, ermənilər Sasunda üsyan qaldıraraq hadisələri geniş bir sahəyə yaymağı, bununla da Avropanın hadisələrə müdaxilə etməsini hədəfləyirdilər. Planlaşdırıldığı kimi, "xidməti hazır Avropa mətbuatı uğuldamağa başladı və məqsədə çatdılar".

Sasunda ermənilərin kürdlərə hücumunu həbs edilmiş Zerohi adlı bir ermənin üzərindən çıxan sənədlər də təsdiq edir. Bu sənədlərdən birində bu məzmunda yazı vardı:

"Sason qəhrəmanları silah almağa dəvət olundu.

Və cümlə Asakir-i erməni bayraq altında olar.

Ekrad tələyə düşüb çaşmışdır.

Çünki erməni əsgəri Dərbəndi tutmuşdur [45, s.276].

Amerikalı bir missionerin Sasun hadisələri üzərinə qələmə aldığı əsəri də hadisələrin başlanğıcı ilə əlaqədar bənzər məlumatlar verir. Sasunlu olmayan Damadyanın bölgədə qiyam təbliğatı apardığı, bunu xəbər alan Osmanlı Hökumətinin bölgəyə kürdləri göndərdiyi aydın olur. Hadisələrin başlanmasına səbəb olan ilk qarşıdurmalarda 100 kürdə qarşı 6 ermənin öldüyü görünür. Bu vaxt ermənilərin burada keçid təmin edən bir körpünü uçurduqları məlum olduğu anlaşılmaqdadır.

Erməni tarixçisi Sarkisyanın ifadəsinə görə, ermənilər daha sonra "Spitak Sar" (Ağdağ) adını verdikləri Aydınlıq dağlarına çəkilmək məcburiyyətində qalırlar. Sarkisyan, dağın ətəklərində baş verən qarşıdurmalarda 200 erməni, 1000 müsəlmanın öldüyünü vurğulayır. Bunun arxasınca, Talvorik (Talori) adlı erməni kəndi ətrafındakı qarşıdurmalarda da 600 müsəlman həyatını itirir. Bu toqquşmalara

görə bölgəyə xeyli hərbi qüvvə gətirilir. Bölgədə hərbi birliklərin sövq edilməsindən sonra üsyançı ermənilər dağın zirvələrinə doğru çəkilərək Osmanlı qüvvələrinə itki verdirməyə davam edirlər. Giliguzan kəndi ətrafında baş verən qarşıdurmalarda Osmanlı birliklərinin 800, ermənilərin isə 100 nəfər itki verdikləri ifadə edilir. Daha sonra aralarında uşaq və qadınların da olduğu ətraf kəndlərdən gələnlərlə birlikdə, təxminən, 22.000 nəfərdən ibarət üsyançı erməni silahlı ordusu Anduk dağına çəkilirlər. Qanlı atışmalardan sonra üsyan yatırılır. Göründüyü kimi, yüksək dağların, təpələrin onlara verdiyi imkandan faydalanan və üsyana hazırlıqlı olan silahlı ermənilər, bölgədə yaşayan müsəlmanlara və köməyə gələn Osmanlı qüvvələrinə böyük sayda itki verdirirlər. Beləcə, 1828-1829-cu illərdə atılmış nifaq toxumları artıq cücərməyə başlayır. Qərb dövlətləri ermənilər inqilaba qaldırmaqla məqsədlərinə çataraq Sasunda qanlı bir üsyan çıxmasına səbəb olurlar. Ancaq bu üsyan nəticəsində tökülən qan öz qanları deyil, ermənilərin və müsəlmanların qanı olur.

V. te R. Des Coursons erməni üsyanları haqqında qələmə aldığı əsərində Sasunda üsyançı ermənilərin, müsəlmanları amansızcasına işgəncə edərək öldürdüklərini yazır: "Türklər tərəfindən qadınlara, uşaqlara, qocalara, əlillərə, islami və insani hökmlərə uyğun davranış olmuşdur. Ölən üsyankarlar, təslim olmağı qəbul etməyənlər və ölkənin qanuni hakimiyyətinə qarşı döyüşməyi seçənlər idi" [65, s.475-477] deməklə Sasun hadisələrinə açıqlıq gətirir. Halbuki Sasun üsyanı haqqında Avropa, Amerika və Rusiya mətbuatında "müsəlmanların, xristianları yox etdikləri" kimi olduqca şişirdilmiş və qərəzli fikirlər yayılır. Xristian ictimaiyyətində geniş əks-səda yaradan Sasun üsyanından sonra Osmanlı hökuməti, hadisələrin araşdırılması üçün Sasuna bir araşdırma heyəti göndərmək qərarı alır. Ancaq İngiltərə Xarici İşlər Nazirliyi Osmanlı Hökumətinin göndərəcəyi heyətə etimad göstərmədiyini bəyan edərək araşdırma üçün bölgəyə polkovnik Chermsideını göndərəcəyini açıqlayır. Osmanlı Dövləti bunu ingilislərin Sasun üsyanını araşdırmaq adı altında dövlətin daxili işlərinə müdaxilə etməsi kimi qəbul edərək polkovnik Chermsideının bölgəyə girməsinə icazə verməyəcəyini bildirir. Hadisələrin bu cür inkişafı nəticəsində İngiltərənin İstanbuldakı səfiri Philip (Filip) Currie, Chermsideını Sasuna göndərməkdən imtina edərək Osmanlı

Araşdırma Heyətində bir ingilis təmsilçinin olmasına razılaşmaq məcburiyyətində qalır. Bu vəziyyətdə Osmanlı hökuməti, araşdırma qrupunda bir ingilis təmsilçisinin olmasına icazə verir. Çünki Osmanlı Dövləti, iki ölkə arasında ermənilər üzündən bir gərginlik çıxmasını istəmir. Sasunda araşdırma apararaq heyətdə ingilis təmsilçisinin olacağını xəbər alan Rusiya hökuməti narahatlıq keçirməyə başlayır. Ruslar, heyətdə olacaq ingilis təmsilçinin Rusiyanın maraqlarına zidd qərarlar alınması üçün Osmanlı heyətinə təzyiq edə biləcəyini və Qərb ictimaiyyətində ingilislərin ermənilərin tək hamisi olduqları qənaətini oyandıra biləcəyini düşünürlər. Buna görə Rusiya, Sasunda araşdırma aparacaq heyətdə bir rus və fransız təmsilçinin də olması üçün Fransaya təklif verir. Daha sonra Rusiya və Fransa, İngiltərə Hökuməti ilə təmasa keçərək heyətdə öz təmsilçilərinin də olmasını qəbul etdirirlər. Bu dəyişikliklərin arxasınca 1894-cü ildə İngiltərə, Fransa və Rusiya səfirləri, Osmanlı Dövlətinə ortaq nota verərək Sasun hadisələrinin istintaqı üçün öz təmsilçilərinin də iştirak edəcəyi xüsusi bir komissiya yaradılmasını və ermənilərin yaşadığı vilayətlərdə öz idarələri altında bir islahat aparılmasını istəyirlər. Bununla da Osmanlı Hökuməti həmin ölkə təmsilçilərinin müşahidəçi kimi iştirak edəcəyi bir komissiya yaradır [90, s.19; s.122-125; s.63-64].

Rusiya ordusunun zabiti olmuş diplomat Qryaznov Osmanlı dövlətinin gücünün zəifləməsi səbəbindən öz ölkəsində xarici dövlətlərin araşdırma aparmalarını qəbul etmək məcburiyyətində qaldığını, bunun əvəzində başda İngiltərə olmaqla heç bir Avropa dövlətinin öz ölkəsinə xarici dövlətlərin bənzər bir araşdırma aparmalarına icazə verməyəcəklərini səmimiyyətlə qeyd edir. Göründüyü kimi, Daşnaksütun rəhbərlərinin Sasunda qaldırdıqları üsyanla bağlı böyük güclərin Osmanlı Dövlətinin daxili işlərinə müdaxilə etmə qərarı alacaqları ilə əlaqədar gümanları doğru çıxır. Böyük dövlətlər Sasun üsyanını bəhanə edərək meydana girmələri və Osmanlı Dövlətinin daxili işlərinə qarışmalarının altında öz mənfəətlərini güdməsi yatır. Erməni müəllif Boryan, ermənilərin olduqca sadəlövhcəsinə davrandıqlarını, İngiltərənin əlində küt bir alət olduqlarını və istifadə edildiklərini anlaya bilmədiklərini ifadə etmişdir. Bundan əlavə, erməni rəhbərlərinin Sasunda üsyan törətməklə avropalıların muxtar bir Ermənistan qurulmasına köməkçi olacaqlarına inandıqlarını yazmışdır.

Beləliklə, Sasun hadisələrinin baş verdiyi bölgədə araşdırmalar aparmaq üçün yaradılmış, xarici təmsilçilərin də iştirak etdiyi komissiya üzvləri, 1895-ci ilin yanvar ayından iyul ayına qədər araşdırmalarını sürdürürlər. 107 toplantı keçirən heyət hadisələrə şahid olan 190 adamla görüşür. Komissiya, Sasun üsyanı ilə əlaqədar bir hesabat hazırlayaraq Osmanlı Hökumətinə təqdim edir. İngiltərə, Fransa və Rusiya təmsilçilərinin 20 iyun 1895-ci il tarixində hazırlamış olduqları hesabatda, avqust və sentyabr aylarında Sasun bölgəsində təxminən 900 insanın öldürüldüyü qeyd edilir. Bundan başqa, Sasundan qaçan müəyyən miqdarda qaçqın ermənin də öldürüldüyü bildirilir [78, s.42-43; 102, s.125]. Yuxarıda erməni tarixçilərin əsərlərindən qeyd etdiyimiz iqtibaslarda göstərildiyi kimi, müsəlmanların itkiləri minlərlə olmuşdur. Bu vəziyyətdə komissiya üzvlərinin hazırladıqları hesabatdakı ölənlərin siyahısına müsəlman itkilərinin hamısının daxil edilmədiyi görünür. Ya da erməni tarixçilər, guya ermənilərin qəhrəmancasına mübarizə apardıqlarını göstərmək üçün müsəlmanların verdikləri itkiləri olduğundan çox göstərərək rəqəmləri şişirtmə vərdişlərini bir daha ortaya qoyurlar. Bəzi erməni tarixçilərlə onlara dəstək çıxan qərblilərin, Sasun üsyanını erməni tarixinin qəhrəmanlıq mübarizəsi kimi xarakterizə etməsinə baxmayaraq, onların döyüşdə məğlub olduqlarını və Sasunda 10.000 ermənin həyatını itirdiyini irəli sürürlər. Bundan əlavə, ölkə səviyyəsində çox geniş miqyaslı bir silahlı üsyan hazırlığının da müvəffəqiyyətsizliklə sona çatdığını da etiraf edirlər. Lakin Sasun üsyanından dərhal sonra Osmanlı hərbi qüvvələri və kürdlər tərəfindən öldürülən ermənilərin sayının 6000 adam olduğunu bildirənlər olmaqla birlikdə, ölü sayının 3000 ilə 8000 arasında olduğunu ifadə edənlər də var. Bu vaxt ermənilərin itkilərini olduqca şişirdərək 20000-25000 nəfər arasında olduğunu irəli sürənlərə də rast gəlinir [74, s.232-233].

Bu dövrdə Sasun yaxınlarında olan bir şəxsin yazdığı bir məktubda izah etdiyinə görə, ermənilərin itkiləri 3500-4000 nəfər arasındadır [74, s. 243-244]. Bunun yanında "Fortnightly Reviev" adlı qəzetdə Dezi (Daisy) tərəfindən qələmə alınmış bir yazıda Sasunda həyatını itirənlərin sayının 2000-i keçmədiyi ifadə edilərək, 10000 ermənin olduğu iddialarının mümkün ola bilməyəcəyi, çünki Sasun bölgəsinin ümumi əhalisinin heç bu qədər olmadığı bildirilir [94, s.188].

Digər tərəfdən, ingilis kapitan C.B.Norman və erməni tarixçisi Sarkisyanın həqiqətə daha yaxın olan rəqəmlər verdikləri görünür. Kapitan Norman "bütün öldürülənlərin sayının bizə qəti olaraq deyildiyi kimi 10.000 deyil, 500-dən az olduğu və erməni qadınlarının uşaqlarını Ando dağı yamaclarından aşağı atdıqdan sonra şərəflərini qurtarmaq üçün arxalarından atıldıqlarını əks etdirən təsirli hekayənin tam bir əfsanə olduğu aydın olacaq. Bunu, Sasun Komissiyasındakı üç böyük dövlətdən birinin səfirindən eşidən biri kimi qətiyyətlə söyləyə bilərəm" deməklə, Sasun hadisələri ilə bağlı ermənilər tərəfindən gerçəklərlə əlaqəsi olmayan əfsanəvi söz-söhbətlər ortaya atılaraq "Daily Telegraph", "Fortnightly Reviev" və "Daily Nevs" kimi qəzetlərdə çap edildikdən sonra Qərb ictimaiyyətində həyəcan yaradıldığına diqqət çəkir. Bundan əlavə, Kapitan Norman Sasun üsyanını yatırmağa çalışan Osmanlı əsgərlərinin sayının da mümkün olan qədər şişirdildiyini qeyd edir [54, s.62-64].

Sovet Ermənistanı tarixçilərindən Sarkisyanın verdiyi say da bu rəqəmdən daha azdır. Çünki tarixçi atışmalar zamanı verilən müsəlman itkilərini 2.400 nəfər göstərdiyi halda, ermənilərin yalnız 300 nəfər itkisi olduğunu yazır [102, s.110-112]. Esat Urasın V. te R.Des Coursonsun əsərindən gətirdiyi iqtibasa görə də, üsyançı ermənilərin itkiləri 300 nəfərdən ibarətdir. Onlar təslim olmayaraq, inadla Osmanlı hərbi qüvvələri ilə döyüşmüşdülər.

Digər tərəfdən, bəzi erməni tarixçilərinin iddia etdikləri kimi, ermənilərin itkiləri minlərlə olsaydı, Sasunda daha sonra çıxan üsyanın da olmaması lazım idi. Rus konsulu General Vladimir Teofiloviç Mayevskinin ifadəsi ilə, Daşnaksütun liderləri, yəqin ki, erməni qanının axıdılmasından heç üzülməmiş, narahat olmamışdılar, çünki sonrakı fəaliyyətləri ilə yeni "Sasun"lar yaradırlar. Mayevski daşnakların hipnoz altında olduqları üçün sağlam düşünmə qabiliyyətlərini itirdiklərini, buna görə də səbəb olduqları hadisələri anlamayacaq bir vəziyyətdə olduqlarına diqqəti çəkir. Mayevski Sasunda ermənilərlə kürd və türk birlikləri arasında böyük toqquşmaların olduğunu, ancaq mətbuatda yazıldığı kimi, ermənilərin bütünlüklə yox edildiklərinin heç bir şəkildə doğru olmadığını, çünki Sasunun üsyandan sonra da ermənilərin idarəsində qaldığına işarə edir. Başqa bir rus tədqiqatçısı V.L.Veliçko isə erməni rəhbərlərinin

terrora müraciət etməkdən çəkinmədiklərini və hipnozun təsiri altında olduqlarını ifadə edərək General Mayevskinin fikirlərini təsdiqləyir [80, s.55].

Bu vaxt Sasun bölgəsində yox edilən kəndlərlə əlaqədar verilən rəqəmdə də bir əsassızlıq və şişirtmə olduğu göz qarşısındadır. Həmçinin amerikalı missionerin əsərini hadisələrdən qısa bir müddət sonra adı göstərilməyən bir şəxsdən alınan məlumatla Sasunda 27 kəndin yox edildiyi irəli sürülərkən, eyni əsərin bir başqa adamın dağıdılan kəndlərin sayının 20 olduğunu ifadə etdiyi bildirilir. Buna görə, amerikalı missioner dağıdılan kəndlərin sayının 40 olduğunu yazmışdır [72, s.232-233, 240]. Digər tərəfdən, Rusiya ordusunun erməni əsilli polkovniki Y.D.Lazaryev, Sasun hadisələrindən bəhs edən əsərində, 1894-cü il Sasun hadisələri zamanı 89 kəndin yandırıldığını yazır [91, s.32]. Esat Uras isə erməni qaynaqlarına əsasən, Sasunda 100-dən çox kənd olduğunu ifadə edir. Lazaryevin yazdığı rəqəmin nəzərə alına bilməyəcəyi aşkardır. Çünki digər xarici tədqiqatçıların ortadan qaldırıldığını irəli sürdükləri kəndlərin sayının ən çox 40 olduğu görünür.

Amerikalı bir missioner isə Sasun üsyanını qələmə alan heç bir müəllifin hadisələrə şahid olmadığını ifadə edərək [53, s.229] ortaya atılmış rəqəmlərin şişirdilmiş və qərəzli bir təxmin ola biləcəyini vurğulayır. Dağıdılaraq yox edilmiş kəndlərlə bağlı verilən rəqəmlər 20 ilə 89 arasında dəyişir ki, aradakı fərqin bu qədər böyük olması təəccüb doğurur. Yuxarıdakı rəqəmlər araşdırıldıqda erməni müəllif Lazaryev ilə amerikalı missionerin verdiyi rəqəmlərə inanmağın mümkün olmadığı ortaya çıxmaqdadır.

Sual və tapşırıqlar:

– Sasun üsyanı nə vaxt baş vermişdir?

– Üsyanın keçirilməsi üçün Sasunun seçilməsində ermənilərin məqsədi nədən ibarət idi?

– Üsyançı ermənilərin hansı himayədar dövlətlər tərəfindən silahlandırılmasını şərh edin, üsyan etmək üçün Sasunun seçilmə səbəbini və bu işdə ermənilərə dəstək verənləri müəyyən edin.

BABIALİ MİTİNQİ VƏ ANADOLUDA ERMƏNİ HƏRƏKATLARI

Sasun hadisələrindən sonra ermənilər bir müddət sakitləşirlər. Qnçak komitəsinin liderləri böyük güclərin diqqətlərini yenidən erməni probleminə çəkmək üçün 18 sentyabr 1895-ci il tarixində bu dəfə İstanbul küçələrində ermənilərlə bağlı islahatların həyata keçirilməsi tələbi ilə böyük miqyaslı mitinq təşkil edirlər. Mitinqin başlanğıcında rus səfiri Nelidova məlumat verən komitənin səlahiyyətliləri keçiriləcək mitinqlərin məqsədinin Osmanlı Hökumətini islahatlar keçirməyə məcbur etmək olduğunu qeyd edir. Bundan əlavə, Qnçak komitəsi 16 sentyabr 1895-ci il tarixində yaydığı bir məlumatda keçiriləcək mitinqlərdə polisin müdaxilə etməsi halında çox kədərli hadisələrin yaşana biləcəyini və töküləcək qanın günahkarının ermənilər olmayacağı barədə xəbərdarlıq edir [102, s.129; 87, s.71-72]. Komitə səlahiyyətlilərinin Rusiya səfiri ilə apardıqları danışıqlarla bağlı çap edilmiş məlumatda təşkil olunacaq nümayişdə qan tökülməsi halında özlərinin məsul olmayacaqlarını söyləmələri, ermənilərin silahlı bir münaqişəyə hazırlaşdıqlarını və əsl hədəflərinin qan tökmək olduğunu açıq göstərən Qnçak komitəsinin təşkil etdiyi İstanbuldakı nümayişə təxminən 4.000 erməni qatılır [90, s.34]. Nümayişçilər, erməni patrikliyinin olduğu Qumqapıdakı hökumət binasının yanında və Sultan Mahmudun köhnə türbəsinin olduğu yer olmaqla eyni vaxtda üç ayrı qoldan hərəkətə keçirlər. Nümayişlərə müdaxilə edən polis, onları dayandıra bilmir. Bu əsnada bir polis komissarı öldürülür. Bununla da hadisələr böyüyür. Nümayişçilər arasında olan çox sayda silahlı ermənin atəş açması İstanbul küçələrində böyük bir xaos və anarxiya yaradır. Ermənilərin başlatdığı hücum sonunda polis və hətta jandarm zabitləri öldürülür. Daha sonra geniş bir sahəyə yayılan nümayiş, ertəsi gün, səhərə qədər davam edən qanlı döyüşlərdən sonra sona çatır. İstanbul hadisələrini qiymətləndirən rus tədqiqatçısı Veliçkonun ifadəsi ilə, ermənilər Osmanlı təhlükəsizlik qüvvələrini qızışdıraraq şüurlu şəkildə qan tökülməsinə nail olurlar. Tədqiqatçıya görə, ingilis diplomatları isə hadisələrin daha da yayılması üçün səy göstərirlər [102, s.129; 7, s.88-89; 87, s.72-73].

Bu zaman böyük güclər Anadoluda hərəkətə keçən erməni separatçı hərəkatını hansı dövlətin təhrik etdiyi mövzusunda bir-birlərini ittiham etməkdən çəkinmirlər. İngiltərə və Almaniya hökuməti, bu üsyanların Rusiya təbliğatı nəticəsində ortaya çıxdığını, Rusiyanın Boğazlar və Anadolu üzərində bəslədiyi gizli işğal planları üçün ermənilərin təhrik etdiyini bildirirdilər [70, s. 10].

Nümayişçilər, Babıaliyə doğru qaçarkən yolda qarşılaşdıqları meyvə, ərzaq satan, mebel, dərzi kimi dükanlara və çayxanalara hücum edərək buralarda çalışan xeyli insanı qətlə yetirirlər. Qətl edilənlər arasında Yorgi və Evladiyos adlı rum vətəndaşı da vardı. Ermənilər tərəfindən öldürülənlər arasında Jandarm Alayı Məclis üzvü mayor rütbəli Sərvət bəyin olduğu da məlumdur. Nümayişçilər yolda qarşılaşdıqları insanlara: "Hamınızı ayaq altına alıb məhv edəcəyimiz gün bu gündür!" [45, s.85] deyərək, ətrafa qorxu saçmaqla onları və digər müsəlmanları təhrik etməkdən də çəkinmirlər.

19 sentyabrda ermənilərin patriklik binası ilə Qalata və Peradakı kilsələrdə mövqe tutmaları ilə hərbi birliklər bu binaları mühasirəyə alırlar. Daha çox qan tökülməsinə mane olmaq üçün İstanbulda olan xarici diplomatlar isə Osmanlı hökumətinə vasitəçilik etməyi, ermənilərə də müqavimət göstərməyi buraxaraq əllərində olan silahları təslim etməyi təklif edirlər. Bir neçə gün davam edən danışıqlardan sonra erməni patrikliyindən 550 və Peradakı kilsədən də 1550 olmaqla ümumi 2100 erməni fəalı buradan çıxır [93, s.73].

Erməni tarixçi Meri Koçar Babıali nümayişi ilə başlayan hadisələrdən sonra təxminən 2000 ermənin qətl olunduğunun iddia edilməsinə baxmayaraq [90, s.34], hadisələr zamanı İstanbulda olduğunu bildirən ingilis kapitanı Norman, "qiyamçı partiya" adlandırdığı Qnçak komitəsinin təşviq etdiyi qarışıqlıqlar əsnasında "polislərin, əsgərlərin və xalqla davranışı sakit və nizamlı şəkildə idi", ancaq "dindarlardan və mədrəsə tələbələrindən bir qrup erməni məhəllələrinə hücum etdilər və 150 ilə 200 arasında erməni öldürdülər" deyərək, erməni tarixçi Koçarın verdiyi rəqəmlərin ən azından on dəfə şişirdilmiş olduğunu ortaya qoyur. Kapitan Norman, yazdıqlarının bir fransız zabitinin görüb duyduqları ilə uyğun gəldiyinə də işarə edir [54, s.69].

Babıali nümayişindən ümid etdiklərini əldə edə bilməyən ermənilər, hərəkatlarını Anadoluya keçirməyə qərar verirlər. Üsyançı erməni təbliğatı sistemli bir şəkildə sürətlə yayılaraq Anadoluda ermənilərin yaşadıqları digər vilayətlərdə də qarışıqlıq salmağa nail olurlar.

1895-ci ilin oktyabr ayından 1896-cı ilin payızına qədər Trabzon, Bayburt, Gümüşhanə, Ərzurum, Van, Bitlis, Sivas, Diyarbəkir, Muş, Harput, Urfa, Adana, Malatya və Şam olmaqla az qala hər yerdə ermənilərin başladığı təbliğat və tədbirlər nəticəsində yenə qanlı hadisələr yaşanır. Bu hadisələrin başlanğıcı, qəribədir ki, 6 oktyabr (19 oktyabr) 1895-ci il tarixində ermənilərin yaşadıqları altı vilayətdə islahat keçirilməsi ilə bağlı Osmanlı Sultanının bir fərman imzalaması ilə eyni tarixə düşür [101, s.131-133].

Bu tarixdə Vanın keçmiş valisi Bahri Paşa ilə Trabzon Ordu Komandiri Ferik Hamdi Paşa, Trabzonun mərkəzində iki şəxs tərəfindən silahla vurularaq yaralanmışlar. Rizədə Rusiya konsulunun köməkçisi olan A.Gippiusun ifadə etdiyinə görə, hökumət səlahiyyətliləri hücumu təşkil edənlərin əsgər forması geyinmiş ermənilər olduğunu açıqlamışdır. Rus konsulu General Mayevski də, Bahri Paşa ilə Ferik Hamdi Paşaya təşkil edilmiş hücumun erməni qiyamçıları tərəfindən həyata keçirildiyinə eyham vurmuşdu. Terrorçular yaxalanmamış, amma bir müddət sonra bir neçə erməni şübhəli kimi həbsə alınmışdı [45, s.92; 92, s.74; 10, s. 132].

Bununla Trabzonda da qarışıqlıq başlanmış və erməni tarixçisi Sarkisyan, bu qarışıqlıqda 500-dən çox ermənin həyatını itirdiyini irəli sürmüşdür [102, s.132]. İngilis kapitanı C.B.Norman "İstanbuldakı qiyamlardan sonra bənzər bir qiyam Trabzonda baş verdi və çox erməni öldürüldü. Lakin paytaxtda olduğu kimi, burada da müsəlmanlar bütün rumluları və katolikləri qorudular və hətta qriqoryan qadın və uşaqları da himayələri altına aldılar" [54, s.69] demişdir.

Halbuki Trabzon Vilayəti Polis Komissarlığından İstanbula göndərilən teleqrafda, Trabzonda Osmanlı paşalarına hücumların xaricində ermənilərin mülki müsəlmanlara da atəş açaraq silahlı hücum etdikləri, bundan sonra iki cəmiyyət arasında çıxan qarşıdurmada həyatını itirən ermənilərin sayının 182 nəfər olduğu bildirilir. Müsəlmanların isə 11 itkisinin olduğu, hər iki tərəfdən 45 adamın da yaralandığına diqqət

çəkilir. Bundan başqa, hadisələr əsnasında ermənilərə aid bəzi dükanların yağmalandığı da vurğulanır [45, s.94].

Trabzondan sonra hadisələr Bayburt və Gümüşhanəyə də yayılır. Trabzon, Bayburt və Gümüşhanədə çıxan münaqişədə ermənilərdən savayı digər xristianlara qarşı hər hansı bir hücum edilmir. Noyabr ayında isə qarışıqlıqlar Diyarbəkirə keçdikdən sonra bir müddət sakitləşir. Ancaq dekabr ayının son günlərində təkrar başlayaraq daha üç gün sürür. Erməni tarixçisi Sarkisyan, Əhməd Rəfikin Diyarbəkirdə öldürülən ermənilərin sayını 1.191 kimi verdiyini, ancaq öz rəqəmləri ilə itkilər də daxil olmaqla ölü sayının 30.000 nəfərə çatdığını irəli sürür. Sivasdakı hadisələrdə isə ölənlərin sayının 1.000 nəfəri keçdiyi ortaya atılır [102, s.131-135; 92, s.74-75].

İngilis Kapitan C.B.Norman"Bir çox digər yerlərdə olduğu kimi, Diyarbəkir, Bitlis və Arapkirdə ermənilər, müsəlmanların məscidlərdə olduqları cümə günü müsəlman məhəllələrini yandıraraq qarışıqlıq salmağa başladılar. Diyarbəkirdə 126 və Bitlisdə 84 müsəlman məsciddən qaçmağa çalışarkən öldürüldü" [54, s.70] deməklə, erməni tarixçilərinin hadisələri nə dərəcə dəyişdirdiklərini ortaya qoymuşdur. Erməni tarixçisi A.K.Çivelegov, üsyanlar sayəsində avropalıların diqqətlərinin ermənilər üzərinə çəkildiyini xüsusi vurğulamışdır [82, s.9]. Həqiqətən də avropalılar, fərqli yerlərdə baş verən silahlı erməni üsyanları üzərində öz maraqlarını təmin etmək üçün səy göstərmişdilər [90, s.19].

İngilis admiralı J.E.Commerell Anadoluda baş verən erməni hadisələrində türklərin qəbahətlərinin olmadığına diqqəti çəkir. Commerell, London və Parisdəki qiyamçı ermənilər tərəfindən təşkil edilən üsyanlara İngiltərə hökumətinin dəstək verdiyini etiraf edir [94, s.151-152]. Fransız tədqiqatçısı Albert Vandal isə, türkləri şiddətli tədbirlər almağa məcbur edən səbəblərin erməni komitələrinin fəaliyyətlərindən qaynaqlandığını yazır. Vandal, komitələrin Anadoluda sui-qəsdlər və cinayətlər işləyərək terror törətdiklərini ifadə edir [69, s.7].

General Mayevski isə qanlı hadisələri olduqca mənalı bir şəkildə qiymətləndirərək hər iki tərəfdən də yüzlərlə insanın həyatını itirdiyini, minlərlə ailənin evsiz-eşiksiz qaldığını, tamamilə boş yerə qan töküldüyünü ifadə edərək, axıdılan qanın nə türklərə, nə də ermənilərə

bir faydasının olmadığını yazmışdır. Mayevski türklərin günahlandırılmalarına baxmayaraq, Türkiyənin fərqli şəhərlərində müsəlmanlar və ermənilər arasında baş vermiş qarşıdurmalarda qanlı hadisələrin hər yerdə, xüsusilə, ermənilərin təşəbbüsü ilə başladıldığını vurğulamışdır. Mayevski, türklərin verdikləri itkilərin heç bir zaman nəzərə alınmadığına, halbuki müsəlman itkilərinin böyük rəqəmlərə çatdığına işarə etmişdir [92, s.73-74, 85]. Mayevskinin ifadələrini izah etməyə ehtiyac yoxdur. Bu fikirlər ermənilərin törətdikləri üsyan və münaqişələrin nəticələrini bütün çılpaqlığı ilə ortaya qoyur.

Sual və tapşırıqlar:

– Babıali və Anadoluda erməni hərəkatının nə vaxt baş verməsi ilə bağlı nə deyə bilərsiniz?

– Bölgələrdə ermənilərin törətdikləri üsyan və kütləvi iğtişaşların oxşarlığı nədən ibarət idi?

– 1895-1896-cı illərdə Anadoluda təbliğatla məşğul olan ermənilər nəyə nail oldular?

– Baş vermiş hadisələrin səbəblərini və nəticələrini açıqlayın.

ZEYTUN ÜSYANI

Ermənilərin Anadoluda ən çox üsyan törətdikləri yerlərin başında Zeytun dayanır. Zeytun, indiki Kahramanmaraş rayonuna bağlı Süleymanlı rayonudur. İçində çoxsaylı mağaranın olduğu qayalıqlardan ibarət yüksəkliklərin ətəyində, yetişilməsi çox çətin bir yerdə olması Zeytunda çoxdan bəri xeyli üsyanlara səbəb olmuşdu.

Ermənilərin Zeytunda gerçəkləşdirdikləri üsyanlar, 1545-ci ildən 1908-ci il tarixinə qədər fasilələrlə davam edir. Coğrafi mənada nəzarət edilməsi çox çətin bir yerdə olan Zeytun, İşhan-Şahzadə adı verilən erməni hakim sinfi tərəfindən dörd məhəlləyə bölünmüşdü və hər birini bir İşxan idarə edirdi. Zeytun ətrafında yaşayan türk kəndlilər də işxanlara vergi ödəyirdilər.

Erməni tarixçisi Boryan isə, ermənilərin 1780, 1782, 1808, 1819, 1829, 1832, 1835, 1860-cı illərdə Zeytunda silahlı üsyana cəhd etdiklərini ifadə etmişdir. Boryan, Osmanlı Dövlətinin Zeytunda hakimiyyətin strukturunu tam qurmaqda çətinlik çəkdiyini vurğulayaraq, Zeytun ermənilərinin yarı muxtar, hətta bəzən muxtar olduqlarını bildirmişdir [79, s.219].

1852-ci ildə Çukurovanı gəzən Moldovalı Levon Radoviç qələmə aldığı bir hesabatında Zeytun ermənilərini Qaradağlılara bənzədir. Radoviç, Zeytun ermənilərinin 20.000-30.000 nəfərlik silahlı dəstə çıxara biləcəklərini vurğulayır [76, s.4].

Ancaq 1865-ci il tarixində Zeytun bölgəsinin təxmini əhalisinin 1,647 evdən ibarət olduğu və bölgədə 8.235 nəfərin yaşadığı nəzərə alındıqda 20.000-30.000 nəfərlik silahlı ordunun çıxarıla bilməsi, ancaq bölgədəki kəndlərin əhalisi ilə birlikdə mümkün ola bilər [40, s.80].

Zeytun ermənilərinin miqyas etibarilə diqqət çəkən ilk böyük üsyan təşəbbüsü 1862-ci ildə oldu. Bu üsyan əsnasında ermənilər, III Napoleona bir heyət göndərərək özlərinin qorunmasını istədilər [79, s.219]. 1862-ci ildəki üsyan, Osmanlı Hökumətinin ala bilmədiyi vergiləri yığmaq istəməsi və soyunun Katolik Lusignan xanədanından gəldiyini irəli sürən və son erməni şahzadəsi olduğunu iddia edən Levon adındakı bir macəraçının Fransa hökumətindən kömək istəməsi

və Zeytuna gələrək ermənləri üsyana həvəsləndirməsi ilə başladı [40, s.108].

1862-ci ildə özlərini Zeytun ermənilərinin təmsilçisi kimi təqdim edən bəzi ermənilər gizlicə İstanbula gəldilər. Zeytundan gələn ermənilər üçün keçirilən bir yığıncaqda dövrün tanınmış erməni şairlərindən Beşiktaşlıyan bu şeiri oxuyur:

"Ey nazlı ana, kimin həsrətindəsən,
Gəl buraya, qorxma, yaxın gəl,
Yarasından qan axan yavruna,
Gözyaşları tökməyərək səbirlə bax,
Burax türk anaları ağlasın,
Sən, Zeytuna sevinc xəbəri gətir.
Günəşi doğdu zeytunluların, tez atlara minək,
Silahlar yuxarı, marş irəli yürüyək.
Çəkinənlər, yurd və qucaq düşkünləri bizdən deyil,
Bunca çəkdiyimiz qulluq, məhbusluq artıq yetər.
Acılığı bir az da türkə daddırmağa çalışaq [41, s.15].

Zeytunda 1865, 1873, 1878 və 1884-cü illərdə təkrar üsyanlar baş verir. Bu üsyanlarda çox müsəlmanın qanı tökülür. Zeytundakı erməni üsyanlarının özünəməxsus xüsusiyyətləri vardı. Zeytunda tez-tez üsyan çıxarılmasının bəlkə də ən birinci səbəbi, buranın coğrafi olaraq nəzarət edilməsi çətin olan bir ərazidə yerləşməsidir. Yer etibarilə, İsgəndərun körfəzinin olduqca yaxınında olması da əhəmiyyətli bir faktordur. Çünki Zeytunun coğrafi mövqeyi, böyük güclər tərəfindən dənizdən Zeytun ermənilərinə silah yardımı göstərilməsini asanlaşdırırdı.

1890-cı illərdə Qnçak komitəsi mənsubu olan ermənilər, bütün Çukurova bölgəsində gizli olaraq böyük bir təbliğat fəaliyyəti göstərməyə başlayırlar. Çukurova bölgəsində yayılan elanlarda ermənilərə belə müraciət edilir:

"Kilikiya erməni övladı, ermənilərin başlıca ümid və inamı sizsiniz. Ermənilərin qurtuluşunu sizdən gözləyirik. Onun böyük qüvvəsi sizsiniz və onların davamlılığı sizin əlinizdədir. Əsarətdən xilas olun və siz əziz xidmətinizi göstərərək müstəqillik yolunu tutun.

Kilikiya! Dəyənək və kürək, balta və qəmə, tüfəng və tapancanı qaldır və sizi mühafizə edəcək hər nə var isə, hamısını hazırla... Yaşasın erməni camaatı, yaşasın azadlıq, yaşasın istiqlal, qiyam və üsyan. Yaşasın Ermənistan və Kilikiya! Yaşasın Qnçakyan firqələri!" [45, s.157-158].

Göründüyü kimi, Qnçak komitəsi döyüşərək Osmanlı dövlətində müstəqilliyi qazanmaq üçün hazırlıq içində idi. Bu dövrdə yayılan elanlarda müstəqillik uğrunda ermənilərin ölməyə hazır olduqları da vurğulanırdı.

Digər tərəfdən, ingilislər haqqında "pəri nağılları" anladan erməni üsyançılarının başçısı Ağası, Zeytunda üsyan başladığında ingilis donanmasının onlara yardım etmək üçün İsgəndərun və Mersin limanlarına gələcəyi barədə də təbliğat aparırdı. Bu vaxt Ağası, İngiltərənin Hələbdəki konsulu ilə əlaqə saxlayırdı. Beləcə, Ağası, erməniləri cəsarətləndirməyə çalışırdı. Digər tərəfdən, İsgəndərun və Mersin sahillərində durmuş iki ingilis hərbi gəmisində olduğu xəbər verilən təxminən 1.000 silahlı ermənin Zeytuna keçmək istədikləri, ancaq bölgədəki xolera epidemiyası səbəbindən arzularını reallaşdıra bilmədikləri kimi bir kəşfiyyat məlumatının 4 avqust 1895-ci il tarixində Osmanlı Hökumətinə gəlməsi Ağasının dediklərini təsdiq edirdi [53, s.256].

Bölgədə aparılan təbliğat işləri qismən öz nəticəsini verir. Çünki Maraş Polis Komissarlığının Osmanlı Hökumətinə bildirdiyi kimi, Maraş ətrafındakı ermənilərdən başqa Adana, Antep, Bitlis, Diyarbəkir, Elazığ, Hələb, İsgəndərun, Kayseri, Sivas, Urfa və Vandan Zeytuna gələrək üsyançılara qoşulan ermənilərin olduğu da məlumdur. Bundan başqa, Komissarlıq, üsyana hazırlanan ermənilərin sayının 15.000-ə çatdığını da qeyd edir [45, s.146-147].

Zeytun üsyanını təşkil edən Ağası, xatirələrini qələmə aldığı kitabında üsyan haqqında fikirlərini də qeyd etmişdir. Ağasının verdiyi məlumatlara görə, 1895-ci ilin iyul ayında onunla birlikdə Qnçak komitəsinin fəallarından Qracya, Apah, Mileh, Nişan və Karapet, Zeytuna gələrək fəaliyyətə başlamışlar. 12 (25) oktyabrda Karanlıkdərə mövqeyində Zeytunun fəalları ilə birlikdə bir iclas keçirilərək üsyan planı hazırlanmışdır. Plana görə, iqtisadi və siyasi azadlıq təmin

olunana qədər Osmanlı Dövlətinə qarşı son nəfəsə qədər döyüşmək və iki gün sonra türk kazarmalarına hücum etmək qərara alınmışdı [102, s.139-140;20, s.18-35].

Qaranlıq dərə mövqeyində keçirilən yığıncaqda keşişlər Bartolomeosla Ter Mardiros və Nazaret Yenidünya kəndinin təmsilçiləri də iştirak edirlər. 100 adamın iştirak etdiyi bu yığıncaqda qırmızı bayraq asılır. Hazırlanan plana görə üsyan hər tərəfdə eyni anda başladılaraq xəbərləşməyə maneə törətmək məqsədi ilə teleqraf xətləri kəsiləcək, 4.000 nəfərdən meydana gələcək silahlı üsyançılara silahsız 2.000 nəfərin də iştirakı ilə Zeytunda hökumət binası ilə hərbi kazarmalara hücum ediləcək, kaymakam (dövlətin əyalətlərdəki idarəsinin rəhbəri), zabitlər və əsgərlər əsir alınacaq və hərbi sursat anbarı ələ keçiriləcəkdi [63, s. 256].

Eyni zamanda Qnçak mənsubu ermənilər nəşr etdikləri bir bəyanatla dərhal üsyana başlayırlar. Bəyanatda bu fikirlər yer alırdı:

"Erməni camaatı, ...bütün erməni camaatını sonu olmayan əsarətdən qurtarmaq və birləşdirmək üçün Zeytun sizi dəvət edir. (işarət zəncirini qırmaq üçün Zeytun müharibəyə başladı. Sizi istəyir. Tez yetişin... Ermənistan və Kilikiyanın azadlıq və istiqlalı üçün Zeytun ermənilər Qnçakyan ittifaqına daxil olaraq bu gün müttəfiq şəkildə müharibə meydanına çıxır... Əl-ələ verib irəli gedək və qanımızın son hər qətrəsi tökülənə qədər davam edək. Biz ya Ermənistanın azadlığını görəcəyik, ya da o əziz torpağın üzərində öləcəyik. Yardım..." [41, s.158-159].

Alınan qərarla 15 (28) oktyabr 1895-ci il tarixində ermənilər, Berdusçay ətrafında olan Osmanlı hərbi qüvvələrinə qəflətən hücum edirlər. Ermənilər dörd saata qədər davam edən qarşıdurmada Osmanlı birliklərinə onlarla yaralı və 33 itki verdirmələrinə baxmayaraq, Berdusçay mövqeyini ələ keçirə bilmirlər. Digər tərəfdən, eyni tarixdə gecə ikən 2.000 nəfərlik Zeytun ermənisi ilə ətrafdakı kəndlərə gələn könüllülər, Valilik çadırının olduğu Osmanlı kazarmasını qəflətən mühasirəyə alaraq hücuma keçir. Burada şiddətli toqquşma baş verir. 17 (30) oktyabr tarixində erməni üsyançılarının başçısı olan Ağası, ərazi komandirinə bir məktub yazaraq silahı buraxmalarını və silah, sursatla birlikdə təslim olmalarını istəyir. Erməni qaynaqlarına görə, mühasirəyə alındıqları üçün çarəsiz bir vəziyyətdə qalan Kaymakam

Avni bəy və 75 əsgəri kazarmada İffət bəyin rəhbərliyi altındakı 600 əsgərlə birlikdə qadın və uşaqlardan ibarət olan 100 nəfər üsyançılara təslim olmaq məcburiyyətində qalırlar [102, s.139-141]. Bu hadisələrdən sonra Osmanlı kazarmasının üzərinə qırmızı bir parça asılaraq üzərinə "Müstəqil Zeytun" sözləri yazılır.

Osmanlı birliklərinin təslim olması ilə 2 top, 800 ədəd "Martin" markalı tüfəng, 12000 fişəng, barıt dolu 2 böyük çəlləк, 2 anbar dolusu arpa, 2 anbar dolusu düyü, quru lobya və duz, 20 ton un, 30 vedrə əridilmiş yağ, 200 yun corab, 300 dəst əsgər forması, tibbi ləvazimatlar və xeyli ev alətləri və digər vasitələr ermənilərin əlinə keçmişdir. Erməni üsyançılarının əlinə çoxlu silah və sursatla birlikdə xeyli miqdarda qida məhsullarının keçməsi nəticəsində ermənilər 49 gün Zeytuna göndərilən çoxsaylı Osmanlı birliklərinə qarşı müqavimət göstərə bilmişdilər.

19 oktyabr (1 noyabr) 1895-ci il tarixində Zeytunda ermənilər tərəfindən müvəqqəti bir inqilabi hökumət qurulur və bu hökumətin rəhbəri Ağası seçilir. Bu hadisələrə görə bölgəyə göndərilən Osmanlı hərbi birlikləri Zeytunu mühasirəyə alırlar. Zeytun ermənilərinə və onlarla birlikdə üsyan etmiş ətrafdakı 39 erməni kəndlərinə qarşı şiddətli mübarizə dekabr ayına qədər davam edir. Üsyançı erməni dəstələri və kəndliləri Osmanlı hərbi qüvvələrinin hücumuna dayana bilməyib Fırnıs bölgəsinə qədər geri çəkilirlər. Burada toplanmış 1500 silahlı üsyançıya qarşı Əli Paşanın rəhbərliyi altında olan hərbi birliklər üç gün boyu şiddətlə vuruşurlar. Sursatları azaldıqları üçün silahlı ermənilər sərt qayalıqlara çıxaraq buradan Osmanlı qüvvələrinin üstünə daş və qaya parçaları atsalar da məğlub olurlar. Erməni tarixçisi Sarkisyan Fırnıs bölgəsini ələ keçirildikdən sonra qadın, uşaq və qocalardan ibarət mülki əhalinin də öldürüldüyünü iddia edir. Halbuki, üsyançıların başçısı Ağasının kitabında yazıldığına görə, Fırnısdakı ermənilərin məğlub olmasından sonra buradan və Zeytunun digər yerlərindən qaçqınlar Zeytuna axışırlar. Beləliklə, Sarkisyanın mülki ermənilərin öldürülməsi barədə iddialarının həqiqət olmadığı məlum olur [102, s. 142-143].

Osmanlı hərbi birlikləri Fırnıs bölgəsindən sonra Zeytunu mühasirəyə alırlar. Ağasının yazdığına görə, Zeytunda silahlı ermənilərin sayı 6000 nəfəri keçmirdi. Ancaq bu dönəmdə əhalisi 20000 nəfər

olduğu məlum olan Zeytunda dekabr ayında 50000 nəfərin olduğu bildirilir. Ağası 7 yaşından 70 yaşınadək hər kəsin var gücü ilə Osmanlı birliklərinə qarşı vuruşduğunu qeyd edir. Son dərəcə şiddətli və qanlı döyüşlərdən sonra Osmanlı birlikləri böyük itki verərək bəzi yerlərdə mühasirəni yarırlar. Ancaq dekabrın əvvəllərində atışmalar Sandağ (Savalan dağı ola bilər) ilə Çataklar (Çardaq) və Avakkala mövqelərində şiddətlənir. Ağasının yazdığına görə, buradakı döyüşdə Osmanlı qüvvələrinin üç gündə verdikləri itki 7500-ə, ilk günlərdəki itkiləri isə 2500 nəfərə çatır. Ağası, İzmir Polis idarəsinin rəisi ona, İzmirdən gələn 8000 nəfərlik birlikdən sadəcə 2000 nəfərin yaralı və şikəst halda geri dönə bildiyini yazır. Kilisdən gələn 2000 nəfərdən də ancaq 40 nəfərin geri dönə bildiyini qeyd edir [102, s.143-145].

Əlbəttə, türklərin itkiləri sadəcə əsgərlərdən ibarət deyildi. Çünki Maraş Polis Komissarlığının bildirdiyinə görə, Zeytun bölgəsində erməni silahlı dəstələri tərəfindən yüzlərlə müsəlman kəndində evlər yandırılmış, mal və mülklər yağmalanmışdı [45, s. 146-147].

Erməni tarixçisi Meri Koçar isə dörd ay sürən münaqişədə ermənilərin 3500 itki verdiklərini, Osmanlı birliklərinin itkilərinin isə, 20000 olduğunu irəli sürür [90, s.36]. Mayevskinin göstərdiyinə görə, türklərin 20000 nəfər itki verdikləri "Pour 1-Armenia. Pierre Quillarda" adlı kitabda da bildirilir [92, s.86]. Bu dövrdə Zeytunda aclıq və xəstəliklər də başlayır. Eyni zamanda soyuq və aclıqdan Osmanlı qüvvələri də böyük itkilər verirlər.

Həmin dövrdə Balkanlarda üsyan havası hiss edilməyə başlayır və Selanikdə yaşayan Rumlar Yunanıstanla birləşmək üçün hazırlığa başlayırlar. Osmanlı qüvvələrinin Zeytunu heç cür ələ keçirə bilməməsi Osmanlı Hökumətini narahat edir. Çünki bu üsyan digər millətlərə də nümunə ola bilərdi.

Buna görə Osmanlı Hökuməti İngiltərə, Rusiya, Almaniya, Avstriya-Macarıstan və İtaliyanın vasitəçiliyini qəbul edir. Bu ölkələrin konsulluqları 23 dekabr 1895-ci il tarixində üsyançılara bir teleqram vuraraq barış danışıqlarına başlamaq istədiklərini bildirirlər. Bundan sonra üsyançıların başçısı Ağası, 25 dekabr tarixində konsulların təklifini qəbul etdiklərini bildirir. Bununla İngiltərə, Rusiya, Fransa və İtaliya konsulları Zeytuna gəlirlər və 23 yanvar 1896-cı il tarixində görüşlər başlayır. Ermənilər, Çukurova ermənilərinin böyük

güclər tərəfindən seçiləcək bir xristian işxanının (şahzadəsinin) rəhbərliyində öz-özlərini idarə etmələrini və altı vilayətdə islahat aparılmasını tələb edirlər. Bu tələblərin qarşısında konsullar, Zeytun ermənilərinin Ağası və yaxınlarını təslim etdikləri halda Osmanlı Sultanının bütün zeytunlu ermənilərini bağışlayacağı, üsyançıların başçılarının hərbi tribunalda mühakimə ediləcəklərini bildirərək ermənilərin top, tüfəng və hərbi ləvazimatı təslim etmələri və əllərindəki əsirləri azad buraxmalarını istəyirlər. Konsullar, tövsiyələri qəbul edilməzsə, Zeytunu tərk edəcəklərini də ermənilərə bildirirlər. Erməni üsyançılarının təmsilçiləri Zeytunluların müstəqillik üçün döyüşdüklərini, üç il yetəcək qədər hərbi sursatları və lazımlı qida məhsullarının olduğunu və məqsədlərinə çatana qədər mübarizə edəcəklərini konsulların diqqətinə çatdırırlar.

Erməni üsyançılarının bu münasibətinə görə 24 yanvar 1896-cı il Zeytunda olan birliklərin komandiri Ethem Paşa, konsulluqların vasitəsi ilə daha yumşaq bir təklif paketi təqdim edir. Lakin ermənilərin bu təklifləri də qəbul etmədikdən sonra, Osmanlı Hökuməti geri addım ataraq 13 fevral 1896-cı ildə tarixində altı dövlətin təmsilçiləri ilə birlikdə üsyançı Zeytun ermənilərı ilə bir barış anlaşması imzalayır. Ümumi cəhətləri aşağıdakılardır:

1) üsyançı Zeytun ermənilərinə və dörd başçısına əfv edilərək böyük güclərin nəzarətində xaricə çıxarılma zəmanətinin verilməsi; 2) altı Avropa dövlətinin təsdiqləməsi ilə Zeytuna xristian bir idarəçinin verilməsinin qəbul edilməsi; 3) Zeytun ermənilərindən yaranacaq bir jandarm idarəsinin yaradılması; 4) keçmiş illərdən qalmış və ödənməmiş keçmiş vergi borclarının bağışlanılması; 5) beş il içində Zeytun və ətrafına vergi imtiyazının gətirilməsi; 6) xalqın can və mal toxunulmazlığının, dini və şəxsi azadlığının qəbul edilməsi; 7) Zeytundan Osmanlı hərbi qüvvələrinin çəkilməsi; 8) birliklərin Zeytundan ayrılmasına qədər görüşlər keçirən konsulların Zeytunda qalmaları; 9) anlaşmanın yerinə yetirilməsinə nəzarət etmək üçün Avropa dövlətlərinin Maraş ve Mersində konsulluq açmalarına izn verilməsi; 10) anlaşmanın Zeytunun xaricindəki erməni kəndlərinə də tətbiq edilməsi qərara alınır [102, s.148-149].

Göründüyü kimi, Osmanlı Hökuməti öz ölkəsinin sərhədləri daxilində olan Zeytunu idarə etməkdən əlini çəkəcək qədər nüfuzuna

xələl gətirən anlaşma imzalayır. Bu sözləşmə, Osmanlı Dövlətinin ölkədə erməni üsyançılarına verdiyi ən böyük güzəştlərdən biri olur. Beləliklə, Zeytun yad dövlətlərin nəzarətinə keçir. Üsyanın başçısı Ağası və yaxın tərəfdarları, sözləşmənin imzalandığı gün Zeytundan çıxaraq Mersinə keçirlər. Buradan da 12 mart tarixində ingilislərin himayəsində Marselə doğru yola çıxırlar.

Sual və tapşırıqlar:

– Ermənilərin Zeytun üsyanı nə vaxt baş vermişdir?

– Ermənilərin təşkil etdikləri üsyanların xronologiyasını ardıcıllıqla sadalayın.

– Zeytun üsyanında ermənilərin məğlub olmasına hansı xarici dövlətlərin məyus olma səbəbləri nə idi?

– Həmin dövrdə hadisələrin Azərbaycanda, xüsusilə Qarabağda baş vermiş hadisələrlə oxşarlığını izah edin.

VAN ÜSYANI VƏ İNGİLTƏRƏNİN ERMƏNİ SİYASƏTİNƏ TƏSİRİ

İngiltərənin 1882-ci ildə Misiri işğal etməsi ilə ingilislərin erməni probleminə qarşı maraqları azalmışdı. Hətta ermənilərlə bağlı mövzunun qələmə alındığı "Mavi Kitab"ın nəşri dayandırılmışdı [83, s. 419]. "Mavi Kitab"ın nəşrinin dayandırılması açıq şəkildə göstərir ki, ingilislər bu kitabı Osmanlı Dövlətinə qarşı bir təzyiq vasitəsi kimi istifadə edirdilər. Yəni "Mavi Kitab" ingilis siyasi maraqlarını dəstəkləmək üçün nəşr edilmişdi.

1880-ci ilin yazında keçirilən seçkiləri uduzan Disraeli və Salisburin yerinə yeni İngiltərə hökumətini quran V.E.Gladston və Xarici İşlər naziri Lord Qranvillenin tətbiq etdiyi yeni yanaşmalar İngiltərənin siyasət dəyişikliyində faktor olur. Bu tarixdən sonra İngiltərənin "Osmanlı siyasəti mahiyyətdə olmasa da formaca dəyişəcəkdir". Bu vaxt gələcək tarixlərdə (1885-1886, 1886-1892 və 1895-1902-ci illər) üç dəfə təkrar Baş nazirlik edən Salisburinin həyata keçirdiyi Osmanlı siyasətində də əhəmiyyətli dəyişikliklər olacaq. Çünki 1885-ci ildən etibarən, İngiltərədə iqtidar və müxalifət, artıq Osmanlı Dövlətinin "islah" edilə bilməyəcəyinə razı olacaqdılar [47, s.142-144].

Rus Qafqaz Ordusu qərargah komandirliyinin hazırladığı hesabat və General Mayevskinin əsərində ingilis diplomatiyasının 1895-ci ilin noyabr ayında erməni siyasətini diqqət çəkən bir formada dəyişdirdiyi vurğulanır. Bu hesabat və əsərdən aydın olduğu kimi, ingilis diplomatiyası, erməni hadisələrinin Rusiya və Osmanlı Dövləti arasında bir döyüşə səbəb ola bilməyəcəyini başa düşmüşdülər.

Bu səbəblə ingilislər, Türkiyədə yaşanan qanlı erməni iğtişaşlarını yatırmaq və "boşuna axıdılan qanın dayandırılması üçün tədbir görmək" [93, s.88] məcburiyyətində qalmışlar. Göründüyü kimi, ermənilərin səbəb olduğu hadisələr nəticəsində boş yerə qan axıdıldığının rus hərbi səlahiyyətliləri tərəfindən də vurğulanması ermənilərin açıq bir şəkildə Qərb dövlətlərin oyununa gəldiklərinin bir sübutudur. İngiltərə, ermənilərlə bağlı etdiyi bu ani siyasət dəyişikliyini, Türkiyədə fəaliyyət göstərən bir çox konsulunu dəyişdirməklə həyata keçirir [93, s.139; 4, s.88].

Beləliklə, əvvəllər ingilis konsulların vasitəçiliyi ilə ermənilərə qarşı aparılmış olan təhrikedici ingilis siyasətinin zərbəsi, vəzifədən getmiş konsullara dəymiş olurdu. Ancaq həyatlarını itirmiş erməni və müsəlmanları geri gətirmək, əlbəttə, mümkün olmayacaqdı. İngiltərənin tətbiq etdiyi siyasət dəyişikliyinin erməni hadisələrini bıçaqla kəsər kimi dayandırması, təbii ki, mümkün ola bilməzdi. Çünki erməni təşkilatları ölkənin hər yerinə hadisələrin yayılaraq uzun sürməsini planlaşdırmışdılar. Yaydan çıxan bir oxu geri çevirmək mümkün olmadığı kimi, xarici güclər və erməni təşkilatları tərəfindən Osmanlı Dövlətinə qarşı baş qaldırmağa təhrik edilən erməni komitəçiləri yatırmaq da asan olmayacaqdı. Ermənilər tərəfindən olduqca sevildiyi ifadə edilən ingilislərin Vandakı konsulunun müavini Sir Alvartenin vəzifədən çıxarılmasından sonra ermənilər, ingilis siyasətindəki dəyişikliyin fərqinə varmışdılar. İngilislərlə birlikdə digər avropalı güclərin də təkrar diqqətlərini özlərinə çəkə bilmək məqsədi ilə 1896-cı ilin girməsi ilə birlikdə, qiyamçı erməni hərəkatını dəstəkləyə bilmək üçün hazırlıqlar edilməyə, pul toplanmağa başlandı. Varlı şəxslərə məktublar göndərilməkdə, tələb edilən pulu verməsələr, öləcəkləri bildirilirdi. Bu dövrdə komitəçilər tərəfindən siyasi məqsədli bir neçə cinayət işləndi. Bunlar arasında ən çox diqqətçəkən məqam, qiyamçı ermənilər tənqid etmiş Yepiskop Boğosun bir bayram günü sui-qəsdə məruz qalması oldu [92, s.90-91].

1895-ci ilin sonlarında Vana başqa şəhərlərdən çoxsaylı ermənilər gəlməyə başlayır. Ermənilər, bura Amerika missionerlərin payladığı yardımlardan faydalanmaq bəhanəsi ilə gəldiklərini ifadə edirdilər. Halbuki əsl məqsədləri, Vanda böyük kütlələrin iştirakı ilə bir üsyan təşkil etmək idi [93, s.94]. Digər şəhərlərdən gələn ermənilərin Vana yardımçı olmaq məqsədi ilə gəldiklərini ifadə etmələri, hazırlanmaqda olan üsyanın planlı olduğunu ortaya qoymaqdadır. Bu vaxt Vanda amerikalıların payladıqları yardımlar həqiqətən artmışdı. Çünki ingilislər, hələ də ermənilərə rəğbət bəslədiklərini göstərmək məqsədiylə Amerika missionerlərindən verdikləri maddi dəstəyi artırmışdılar. Bununla birlikdə, ermənilər arasında ingilislərin verdikləri yardımların az olduğunu bildirən belə bir fikir meydana çıxmışdı: "İngilislər erməni qanına Vanın samanından bir funt daha az ödəyirlər" [92,s.94]. Nəhayət, ermənilər 1896-cı ilin iyun ayında bu

dəfə Vanda baş qaldırmışdılar. Üsyan "Armenakan" komitəsinin lideri Mıkrtç Avetisyan, "Daşnaksütun" komitəsinin üzvü Peto və "Qnçak" üzvü Martikin təşkilatçılığı ilə həyata keçirilir. Ermənilər Vanda silahlı dəstələr yaradırlar. Osmanlı birlikləri bölgəyə yetişmədən öncə ətrafdakı kəndlərdə də 15000 ermənin Vana gəlməsi ilə üsyançı ermənilər mövqelərini daha da gücləndirir. İngiltərə konsulunun müavini Mayor Ceyms Vilyamsın Van üsyanı ilə bağlı qələmə aldığı hesabatında, üsyandan əvvəl bir həftə içərisində qiyamçı ermənilərin kürdlərə iki dəfə hücum edərək 6 kürdü öldürdükləri, 2 kürdü də yaraladıqları göstərilir. Bundan başqa, hesabatda ingilis konsulluğunun qarşısında yaşayan tanınmış bir erməni bankirin, erməni silahlı dəstəsi tərəfindən sui-qəsdə məruz qaldığına işarə edilir. Daha sonra fəal bir qiyamçı ermənin, ehtimalla, kürdlər tərəfindən öldürüldüyü ifadə edilən hesabatda, bu hadisələrdən sonra müsəlmanlar və ermənilər arasında gərginliyin artdığı da qeyd olunur. İngiltərə konsulunun müavini, iki cəmiyyət arasındakı düşmənçiliyin artmasında qiyamçı ermənilərin fəaliyyətlərinin səbəb olduğunu ifadə edir.

2 iyun gecəsi şəhərdə gəzən patrul zabitlərinə bir hücum təşkil edilməsi zamanı bir zabit və bir əsgər ağır yaralanır. Ertəsi səhər müsəlmanlarla ermənilərin yaşadıqları məhəllələrin kəsişdiyi yerlərdə qarşılıqlı atışmalar başlayır. İngilis konsulunun müavini Mayor Vilyams, öz hökumətinə təqdim etdiyi hesabatında, 3 iyun səhəri hücumu türk, qaraçı və jandarmaların başlatdığını bildirir. Halbuki, rus konsulu Mayevski, hadisələr hələ davam edərkən konsulluğunda Vilyams ilə keçirdiyi bir görüşdə hadisələri kimin başladığını soruşduğunu qeyd etmişdir. İngilis konsulunun müavini Vilyams isə, "Əlbəttə, bütün cinayətləri bu axmaqlar törədib!" dedikdən sonra, "onlara dəfələrlə xəbərdarlıq etdim... Onların uşaq qiyamından heç bir şey çıxmayacağını dəfələrlə onlara izah etdim! Xeyr, dinləmədilər! Ancaq, indi, hər halda, razılaşdılar"[93, s. 91-101] deyərək, hadisələri başladanların qiyamçı ermənilər olduğunu ifadə etmişdir. Ancaq Vilyams daha sonra hökumətinə təqdim etdiyi hesabatda Mayevskiyə söylədikləri ilə ziddiyyət təşkil edən ifadələr işlətmişdir. Bu misal, ingilis diplomatlarının hökumətlərinə yazdıqları hesabatlarında öz siyasi mənfəətlərini düşünərək hadisələri dəyişdirilmiş şəkildə çatdırdıqlarını desək, səhv etmərik. Bununla da Osmanlı birliklərinin

şəhərə girməsindən sonra iki tərəf arasında 3 iyunda başlayan toqquşmalar 11 iyuna qədər davam edir. Hadisələri sakitləşdirməyə çalışan İngiltərə konsulunun müavini Mayor Vilyamsın həyatını itirmə təhlükəsi ilə qarşılaşdığı və hadisələr nəticəsində 500 erməni ilə 300 müsəlmanın həyatını itirdiyi məlum olur [101, s.139].

Vladimir Mayevski də az qala eyni rəqəmləri verərək, 9 gün davam edən toqquşmalar zamanı 250-300 müsəlman və 500-ə yaxın ermənin olduğunu yazır. Rus konsulu qarşıdurmalarda ölən və yaralanan zabitlərin də olduğunu qeyd edir [92, s.97, 126].

Ancaq erməni tarixçilər toqquşmalarda ermənilərin Osmanlı birliklərinə ağır itki verdirdiklərini ifadə etmişlər. Daha sonra Vana çoxsaylı hərbi birliyin gətirilməsi ilə ermənilər, Osmanlı birlikləri atəşi kəsdikləri zaman özlərinin də qarşıdurmalara son verəcəklərini bildirmişlər. Osmanlı Dövləti isə üsyançıların başçılarının təslim olmasını və yaradılan silahlı birliklərin ləğv olunmasını tələb etmişdir. Bu əsnada İngiltərə konsulunun müavini Vilyams vasitəçilik vəzifəsini üzərinə götürmüşdü. Vilyams, üsyançı erməni başçılarına müraciət edərək təslim olsalar, onlara xarici ölkələrə getmək zəmanətinin veriləcəyi təklifini vermişdir. Üsyançılar, ingilis nümayəndəsinin təklifini qəbul etmişlər, ancaq keçiriləcək görüşə rus və fransız konsullarının da qatılmalarını istəmişlər. Bununla da İngiltərə konsulunun köməkçisindən başqa, bir fransız və rus diplomatı ilə İran konsulunun da danışıqlara vasitəçi olması qəbul edilmişdir. Üsyançı ermənilərin vasitəçilik təklifini qəbul etmələri ilə Mayor Vilyams və amerikalı Dr.Reinold, 6 iyun tarixində üsyançılarla bir görüş keçirirlər. Görüş əsnasında üsyançı ermənilər, 10 gün də mübarizə aparacaqlarını, bu müddət ərzində İrandan onlara kömək gələcəyini bildirirlər. Vilyams, üsyançıların başçıları arasında bir rus, bir bolqar və bir neçə Amerika əsilli ermənin olduğunu dilə gətirir. İngiltərə konsulunun müavini, 600-700 nəfərlik üsyançının 12-15-nin xarici ölkə vətəndaşı olduğunu, üsyançıların liderlərinin rus tüfəngləri ilə təchiz edildiklərini yazır. Vilyams, üsyançı liderlərin silahlarını Van ermənilər tərəfindən İran üzərindən gətirildiyini söylədiklərini bildirir. Mayor Vilyams, "Qnçak", "Droşak" və "Armenakan" komitələrinə bağlı üsyançıların geyimlərinin bir-birlərindən fərqli olduğunu, bunların ailələrini müdafiə edən vətənpərvərlər deyil, əksinə, üsyançı olduqlarını

vurğulayır. Mayor Vilyams, fikirlərinə sübut kimi, erməni üsyançılarının mövqelərinə diqqətsiz bir şəkildə yaxınlaşan silahsız və mülkü geyimdə olan günahsız müsəlmanları olduqca soyuqqanlı şəkildə öldürdüklərini də göstərir.

Mayor Vilyams, 7 iyun tarixində İran və Rusiya konsulları ilə birlikdə üsyançıların başçıları ilə bir dəfə də görüşdüklərini, onlara yeni təklifləri olduqlarını ifadə edir. Bundan əlavə, gecə erməni üsyançılarının mövqe tutduqları evlərdən tez-tez atəş etdiklərini bildirir. Səhər atəş edilən evlərdən birinin əsgərlər tərəfindən yandırıldığını, ancaq üsyançıların qaçmağı bacardıqlarını yazan Mayor Vilyams, daha sonra minlərlə kürdün Van şəhərini mühasirəyə aldığını, Şahbağı kəndində 225 nəfərdən, təxminən 180 nəfərinin qətl edildiyini yazır [93, s.111].

Konsulluq nümayəndələri üsyançılara ortaq bir məktub yazaraq onlara təklif edilən şərtlər daxilində təslim olmağı qəbul etmədikləri təqdirdə, hərbi birliklərin üsyançılara qarşı hücuma keçmək qərarının alınacağını bildirirlər [93, s.111].

Erməni tarixçisi Sarkisyan üsyançıların İngiltərə konsulunun köməkçisinin təklifini qəbul etdiklərini və 200-ü silahlı olmaqla cəmi 800 erməninin Vandan ayrılaraq İran sərhədinə doğru hərəkət etdiklərini yazır. Ancaq Mayevski, xeyli üsyançının hərbi formalarını çıxararaq mülki paltarla xalqa qarışdıqlarını və şəhərdə qaldıqlarına inanıldığını da ifadə edir. Erməni tarixçisi Sarkisyan, Osmanlı birlikləri ilə Hamidiyyə alaylarının şəhərdən ayrılan ermənilərı təqib etdiklərini, baş vermiş qarşıdurmalarda ancaq 30-35 üsyançının canını qurtara bildiyini vurğulayır. Sarkisyan, İngiltərə Konsulunun köməkçisi Vilyamsı günahlandıraraq onun üzündən təxminən 750 ermənin canından olduğunu yazır. Erməni tarixçisi, Van üsyanından sonra Erce, Gevaş və Garckanedə 2500 nəfərin öldürüldüyünü də iddia edir. Bununla birlikdə vanlıların qəhrəmancasına mübarizəsinin Vanda ermənilərı yox olmaqdan xilas etdiyini və şəhərin məhv edilməsinin qarşısını aldığını irəli sürür. Halbuki, Vanlı müsəlmanlar, üsyanın sürdüyü bir həftə boyunca səbirlə dözürlər. Müsəlman əhali, hərbi səlahiyyətlilərin üsyanı yatıracaqları ümidi ilə hadisələrə müdaxilə etmirlər. Hətta üsyançı silahlı ermənilərin, şəhərdən ayrılmalarından sonra da Osmanlı hərbi birlikləri kimi, Vanda yaşayan müsəlmanların

da ermənilərə hücum etməmələri onların sağlam düşüncə ilə hərəkət etdiklərini göstərir. Üsyançılar şəhəri tərk etdikdən sonra sadəcə buradan ayrılan üsyançıların evləri yandırılır. Bu vaxt, Mayevskinin nəql etdiyi kimi, əgər müsəlmanlar ermənilərə hücum etmiş olsaydılar, türk idarəçilər ermənilərı qoruya bilmək üçün müsəlmanları silah gücü ilə dayandıracaqlardı. Rus konsulu General Mayevski, bəzən İngiltərə Konsulunun köməkçisi Mayor Vilyamsın yazdığı hesabatı tənqid etməsinə baxmayaraq, üsyançıların şəhərdən ayrılmasından sonra Vanda ermənilərə hücum edilməməsinin səbəbləri arasında Vilyamsın fədakar fəaliyyətinin də rolu olduğunu ifadə edərək ingilis mayoru tərifləyir. Mayevski Vandakı hadisələr əsnasında və sonrasında Osmanlı idarəçilərinin son dərəcə təmkinli və dözümlü bir rəhbərlik nümunəsi göstərdiklərini vurğulayır [93, s.114, 127-129].

İngilislərin Vandakı konsul köməkçisi Mayor Vilyams, Van və Anadoludakı bütün cinayətlərin törədiciləri ermənilərin özləri olduğunu, Osmanlı Hökumətinin səbrinin tükənməsi ilə hadisələri yatırmaq üçün müdaxilə də olunduğunu ifadə edir. Vilyams xristian vətəndaşlarına Osmanlı Dövlətinin bir cənnət olduğunu da bildirir [102, s.158].

General Mayevski Vandakı hadisələr zamanı ermənilərlə bağlı hər hansı bir qətliamın olmadığını vurğulayır. Ancaq şəhərdəki münaqişələrin, bir çox müəlliflər tərəfindən mümkün olduqca şişirdilərək xəyal məhsulu bir fantastikaya çevrildiyi aydın olur. Bu səbəblə Mayevski, Van hadisələrini bacardıqca dəyişən müəlliflərin bu davranışlarının həyasızlıq kimi səciyyələndirməklə, alman Dr. Lepsiusun "L'Armenie et 'Europe" adlı kitabını, həqiqətlə heç bir əlaqəsi olmayan şişirdilmiş şərhlərə örnək kimi qiymətləndirir. Kitabın 152-ci səhifəsində qırğın törədildiyini göstərmək üçün guya Van hadisələrini gördüyünü ifadə edən birinin dilindən bunlar yazılır: "16 iyun tarixində Vana girərkən, şəhərin küçələrində o qədər çox cəsəd vardı ki, arabamızın təkərləri cəsədlərin üzərindən keçmək məcburiyyətində qalırdı". Mayevski, bu misalda olduğu kimi, xarici mətbuatda erməni hadisələrini vicdanlı bir şəkildə nəql edənlərə rastlanılmadığını bildirir. Rus konsulu Mayevski erməni hadisələri ilə əlaqədar xaricilər

tərəfindən yazılmış məqalələrin tamamilə saxta və yalan olduğunu bildirir [93, s.103-104].

Alman Dr. Lepsius 1896-cı il tarixindəki Van hadisələrinin həqiqi şahidlərini danışdıraraq yazarkən, deyilənlərin tamamilə xəyal məhsulu olduğu yuxarıda Mayevskinin göstərdiyi misalda açıqca aydın olmaqdadır. Bundan başqa, Vandakı münaqişənin 3-11 iyun tarixləri arasında olduğu nəzərə alınanda, Lepsiusun kitabında irəli sürülən 16 iyun tarixində küçələrdə meyitlərdən keçilə bilmədiyi iddiasının doğru olmadığı ortaya çıxır. Çünki hadisələr sona çatdıqdan 5 gün sonra hələ küçələrdən meyitlərin toplanmamış olması çox da ağla batmır.

Bu səbəbdən, Dr. Lepsiusun Birinci Dünya müharibəsi dövrü hadisələrini izah edən yazılarının da bir xəyal məhsulu olduğu, gerçəkləri əks etdirmədiyi böyük bir ehtimaldır. Van Polis Müdirliyinin İstanbula vurduğu şifrəli teleqrafda, Vanda doqquz gün davam edən qarşıdurmalar əsnasında 324 müsəlmanın həyatını itirdiyi, 255 nəfərin də yaralandığı bildirilmişdi. Teleqramda ermənilərin itkilərinin də 356 nəfər olduğu xəbər verilmişdir [45, s.270].

İngilislərin siyasətlərində dəyişiklik etmələrinə baxmayaraq, erməni təbliğatçılar, Anadoluda icra etmiş olduqları fəaliyyətlərini davam etdirərək böyük dövlətlərin yenidən erməni problemi ilə maraqlanmaları üçün toplu ərizə və məktublarla dəfələrlə bütün böyük dövlətlərin hökumətlərinə müraciət edirlər. Ancaq bu təşəbbüs hər hansı bir nəticə vermir [101, s. 46]. Bununla da erməni komitəçilər, İstanbulda hər kəsin diqqətini çəkəcək yeni bir aktın təşkili üçün hazırlığa başlayırlar.

Sual və tapşırıqlar:

– Van üsyanı nə vaxt baş vermişdir?

– Nə üçün İngiltərə hökuməti ermənilərin törətdikləri üsyanı yatırtmağa çalışırdılar?

– İngilislərin üsyanı yatırmaq cəhdlərinin başlıca səbəbləri nədən ibarət idi?

– Vanda baş vermiş üsyanların təşkilatçılarını və onların məqsədlərini necə izah etmək olar?

– Vanda üsyana qalxan ermənilərin məğlubiyyətinin səbəblərini açıqlayın.

OSMANLI BANKINA BASQIN

Böyük dövlətlərin izlədikləri siyasətlər bölümündə toxunulduğu kimi, 1856-cı il tarixində İngiltərə Kralının fərmanı ilə qurulmuş "Osmanlı Bankı", 1863-cü ildə fransız sərmayəsinin də iştirakı ilə "Bankı Osmanı-yi Şahane" (Şahanə Osmanlı bankı) adı altında yeni güc meydana gəlir. Bu tarixdən sonra bank funksional açıdan Osmanlı Dövlətinin mərkəzi bankı kimi fəaliyyət göstərir [58, s.368]. Bununla yanaşı, bankın idarə heyəti ingilis və fransızlardan təşkil edilir. Bu səbəblə banka ediləcək bir hücum, ingilis və fransızları birbaşa maraqlandıracağı üçün ermənilər bu üsulla Qərb dövlətlərinin diqqətlərini üstlərinə çəkməyə qərar verirlər. 14 (27) avqust 1896-cı il tarixində Daşnaksütun komitəsi mənsubları, İstanbuldakı "Osmanlı Bankı" binasına anidən bomba ataraq, ermənilər üçün keçirilməsi planlaşdırılan islahatların dərhal reallaşdırılması üçün avropalı səfirlərin ciddi bir şəkildə ortaya girmələrini istəyirlər. Erməni fəalları, istəkləri yerinə yetirilməzsə, bank binasını içində olan 500 nəfəri, pul və qiymətli sənədlərlə birlikdə dinamit və bombalarla havaya uçuracaqları barədə təhdid edirlər. General Mayevski dinamit hazırlanan ilk bombaların partladılmasını reallaşdıran daşnaklardan başqa bir şey gözlənilmədiyini işarə edir [92, s.132-134].

Osmanlı Bankı basqınından bir gün sonra İstanbul erməni patriarxının Osmanlı hökumətindən bir bəyanat təqdim edir. Bu məlumatda aşağıdakı ifadələr diqqət çəkməkdədir: "Uzun zamandan bəridir ki, burada və xüsusilə Osmanlı Dövləti paytaxtında bu cür cinayətlər işləyən və erməni fitnəkar təşkilatlarına mənsub olduqları aydın olan bir qrup canilər, dünənki çərşənbə günü qiyam məqsədi ilə kənarda, orada-burada bəzi cinayətlər işləmiş olduqlarından böyük bir qrupun Osmanlı bankına hücum edərək bankı qoruyan məmur zabit və əsgərləri, digər bəzi günahsız insanları öldürərək cinayətlərin ən pisini işləmiş olduqları hər kəs tərəfindən nifrətlə qarşılanmışdır" [58, s.515-516]. Patrikliyin bildirişlərindən aydın olduğu kimi, banka hücum edildiyi zaman erməni terroristlər, əsgər və zabitlərdən ibarət olan təhlükəsizlik gücləri ilə bankda olan müştərilərdən və məmurlardan bəzilərini öldürmüşlər. İstanbuldan 17 avqust tarixində Rusiya hərbi orqanlarına vurulan şifrəli bir teleqrafda, Osmanlı Bankına hücum edənlərin sayının 30 nəfər olduğu bildirilir. Bu akt zamanı II

Əbdülhəmid İstanbuldakı rus diplomatlarından vasitəçilik etmələrini istəyir. Bununla da Rusiya səfirliyinin diplomatı Maksimov vasitəsilə terroristlərə təslim olmaları halında ölkə xaricinə getmələrinə icazə veriləcəyi bildirilir. Xaricə getmə zəmanəti verilməsi nəticəsində təslim olan erməni terroristlər xaricilərin qoruması altında bankdan çıxaraq limanda gözləyən bir ingilis gəmisinə aparılırlar. Buradan "Jirondu" adında fransız gəmisi ilə Marselə gedirlər. Marseldə həbs edilən erməni terroristlər ermənilərin etirazları nəticəsində sərbəst buraxılır və sonra Amerikaya keçirlər [105, s. 69].

Halbuki Mayevski 1904-cü ildə nəşr etdirdiyi əsərində erməni terroristlərin xarici ölkədə sərbəst olub olmadıqlarını bilmədiyinə eyham etməklə bərabər, terroristlərin böyük hissəsinin sərbəst dolaşdıqlarına əmin olduğunu vurğulayır. Bundan əlavə, bu hadisədən sonra İstanbulda yüzlərlə adamın qanının axıdılmasına erməni terroristlərini heç narahat etmədiklərinə də əmin olduğunu ifadə edir [92, s.134].

1911-1912-ci illərdə İstanbulda yaşamış, bir illik müşahidələri əsasında "Köhnə Türkiyə və gənc türklər" adlı bir əsər qələmə almış rus müəllif Ariadna Tırkova, Osmanlı Bankına olan hücumdan 15 il sonra bu aktı həyata keçirən terrorçulardan biri olan Pastırmacıyanla görüşdüyünü bildirir. Tırkova, Pastırmacıyanın aradan illər keçdikdən sonra Ərzurum millət vəkili kimi ikinci dəfə Osmanlı Məclisinə girdiyinə işarə edərək, bu insanın əlində bombalarla banka hücumu reallaşdırdığına inana bilmədiyini vurğulayır. Rus müəllif, Pastırmacıyanın bank hücumundan əvvəl İsveçrədə bir universitetdə təhsil aldığını ona dediyini yazır. Pastırmacıyanın ifadə etdiyinə görə, hücum edənlərin sayının yuxarıda ifadə olunduğu kimi 30 nəfər deyil, 15 nəfər olduğu aydın olur. Pastırmacıyan banka hücum aktını avropalıların diqqətlərini ermənilərə çəkmək məqsədi ilə həyata keçirdiklərini bildirmişdir [105, s.69].

Bu terror aktı, ermənilərin İstanbulda nə qədər sistemli bir şəkildə təşkilatlandıqlarını ortaya qoyur. Bu terror təşəbbüsü XX əsrdə və günümüzdə bənzər terror aktlarına bir örnək olması baxımından da əhəmiyyətlidir. Ermənilər arasında şiddət və təcavüz əməlləri o dərəcə mənimsənilmişdir ki, rus sənədlərində, xüsusilə, erməni komitə və qurumları çox zaman "terror" termini ilə eyniləşdirilir. Həmçinin rus konsulu General Mayevski, başda Daşnaksütun olmaqla erməni komitələrinin süni şəkildə yaratdıqları anarxiya nəticəsində,

1894-1896-cı illər arasında Anadolu tarixinin ən qarışıq dövrünü yaşadığını ifadə edir [93, s.34].

Digər tərəfdən 1896-cı ildə erməni komitələri Osmanlı Dövlətinə qarşı apardıqları mübarizədə müvəffəqiyyətsiz olduqlarını görməyə başlamışdılar. Müstəqil bir erməni dövlətinin ancaq döyüş və qanla qurula biləcəyini düşünən ermənilər, uzunmüddətli bir mübarizə apara bilməyəcəklərini də anlamışdılar. Komitəçilər, hər mübarizənin bir yüksəliş, ya da hücum dövrü olduğu kimi, geri çəkilmə zamanının da olduğunu anlamışdılar [90, s.69].

M.Varandyan 6-7 ildir apardıqları mübarizədə ermənilərin məğlub çıxdıqlarına baxmayaraq, Osmanlı Dövlətinin də zəfər qazanmış sayıla bilməyəcəyini ifadə edir. 1899-cu ildə Daşnaksütun komitəsinin idarəçiləri, "Erməni müstəqillik hərəkatının" məğlubiyyətə uğradığı, yaralarını sarımaq, güclərini toplamaq və silahlanmaq üçün nəfəs almaq lazım olduğu nəticəsinə gəlirlər. Müasir erməni tarixçilərindən biri olan Meri Koçar isə ermənilərin nəfəs almasını təmin edəcək mübarizədə fasilənin ermənilərə çox lazımlı olduğunu yazır. Göründüyü kimi, erməni komitəçiləri Osmanlı Dövlətinə qarşı icra etdikləri mübarizədə bir müddət ara vermənin vacibliyini anladıqları üçün yenidən güclərini toplayana qədər hərəkətlərini təxirə salırlar. Çünki Osmanlı Dövlətinə qarşı apardıqları silahlı mübarizədə Anadoluda yaşayan sağlam fikirli ermənilərin dəstəyini ala bilməzdilər. Erməni cəmiyyətinin əhəmiyyətli bir hissəsini dəstəyindən məhrum qaldıqları kimi, Osmanlı Dövlətinə qarşı mübarizə etmək üçün onları təşviq və təhrik edən böyük güclərin köməyindən da zaman-zaman məhrum qalırlar. Buna görə də apardıqları silahlı mübarizəni bir müddət də olsa ara verməkdən başqa çarələri qalmır.

Sual və tapşırıqlar:

– "Osmanlı bankına" basqın nə vaxt baş vermişdir?

– Ermənilərin İstanbuldakı "Osmanlı bankı"na hücum etmələrinin səbəblərini necə səciyyələndirə bilərsiniz?

– Bu cinayətlərin törədilməsində ingilis və fransızların başlıca maraqları nədən ibarət idi?

– "Daşnaksütun"nun başçılığı ilə təşkil olunmuş bu təxribatın nəticələrini şərh edin.

MUŞ HADİSƏLƏRİ VƏ II SASUN ÜSYANI

Rus Qafqaz Ordusu qərargah komandanlığının ermənilərlə bağlı hazırladığı hesabatda, 1896-cı ilin sonundan etibarən, Avropa dövlətlərinin, erməni problemi səbəbi ilə Osmanlı Dövlətinin daxili işlərinə qarışmalarını azaltdıqları və enerjilərini başqa sahələrə yönəltdikləri vurğulanmışdır. Artıq Osmanlı Dövlətinin daxili işlərinə qarışma bəhanəsi kimi Girit üsyanı ilə Makedoniya problemi ortaya çıxmışdır. Həmin hesabatda bu hadisələrə paralel olaraq, Qərb dövlətlərinin dünya siyasətində ortaya çıxan yeni siyasi problemlərə də diqqət yetirdikləri ifadə edilmişdir. Bu problemlər arasında türk-yunan müharibəsi, türk-italyan müharibəsi, Balkan müharibələri və rus-yapon müharibəsi ilə Amerika-İspaniya əlaqələri Qərb dövlətlərinin diqqətlə izlədikləri siyasi dəyişikliklər olmuşdur. Böyük güclər erməni problemini ikinci plana atmışlar və bu mövzuda bir durğunluq dövrü başlamışdır [101, s.43].

Əslində Qərb dövlətləri ilə ermənilər heç bir zaman eyni mövqedə olmamışlar. Qərblilər üçün hər zaman öz maraqları hər şeydən əvvəldə gəlmişdir. Erməni komitəçiləri, Anadolunun fərqli şəhərlərində 1894-1896-cı illərdə həyata keçirdikləri üsyan təşəbbüslərində müvəffəqiyyət əldə edə bilməyincə, 1896-cı ildən sonra Anadolunun ayrı-ayrı yerlərində üsyana cəhd göstərməyin onlara fayda verməyəcəyini, əksinə, güclərini fərqli yerlərə dağıtdıqları zaman gündən-günə zəifləyəcəklərini anlamışdılar. Buna görə, şəbəkənin güclərini birləşdirərək tək bir bölgədə fəaliyyətə keçməyə qərar vermişdilər. Alınan bu qərarla erməni komitələri, Bitlis vilayətinə bağlı olan Sasun və Muş bölgələrini özlərinə mərkəz kimi seçmişdilər. Çünki bölgənin olduqca dağlıq və keçirilməsi çətin olan bir coğrafiyaya sahib olması, erməni komitələrinin buranı seçmələrinə səbəb olmuşdu.

1896-cı ilin sonunda itkilərinin az olması üçün bir yer seçərək, böyük qruplarla hərəkətlərini burada sıxlaşdırır, bölgədə hərəkətə keçirlər. 22 iyun 1897-ci ildə İran sərhədinə yaxın olan Başkala bölgəsinin şərqində İran kürdləri ilə birlikdə hərəkət edən bir erməni silahlı dəstəsi, Merzeki adlı kürd əşirətinə anidən hücum edir. Bu hücum zamanı əşirət rəisi Şərif bəy yaralanır, ancaq kişi, qadın və uşaqlardan ibarət olan, təxminən 150 adam öldürülür və yaralanır. Türkiyədə

yaşayan əşirətlərə edilən bu hücum Hamidiyyə alaylarının dövlətdən yeni silahlar tələb etmələrinə səbəb olur. Bunun üzərinə alaylara yeni silahlar verilir [101, s. 140-141]. Erməni silahlı dəstələrinin kürd əşirətlərinə hücum etməsinin səbəbi, Anadoluda qarışıqlıq çıxarmaqla böyük güclərin təkrar ortaya girmələrinə şərait yaratmaqdır. Rus konsulu General Mayevskiyə görə də erməni fəallarının əldə etmək istədikləri başlıca nəticə, ermənilərin qətlə yetirildiyi haqqında səsküy qopararaq Avropanın müdaxiləsini təmin etməkdir [101, s.155].

General Vladimir Mayevskinin ermənilərin dilindən nəql etdiyinə görə, 1899-cu ilin may ayında Xəlil Bəşirin rəisi olduğu kürd əşirəti, Gitenk adlı erməni kəndinə hücum edib kəndi terror meydanına çevirərək bir çox evi yandırır, sonra Spogank adlı kəndə də hücum edir. Ancaq kəndlilər silahla müqavimət göstərdikdən sonra geri çəkilərək buradan ayrılmaq məcburiyyətində qalır. Bununla əlaqədar, Xəlil Bəşir, Bitlis qarnizonuna Spoqank kəndinin erməni qiyamçılarının yuvasına çevrildiyi barədə şikayət edir. Bu şikayət üzərinə kəndə bir hərbi qüvvə göndərilir. Göndərilən hərbi qüvvəyə Balaq Moqdan və Harzan adlı kürd əşirətləri ilə Elior Silo adlı kürd ağasına bağlı 500 nəfər də qatıldıqdan sonra Spoqank kəndinin mühasirəyə alındığı və burada 200 nəfərin öldürüldüyü bildirilir. Bununla birlikdə, Mayevski ermənilərin yaydıqları bu xəbərlərin, başları bulandırmaq üçün ortaya atıldığını qeyd edir. Əgər erməni mənbələrinə istinadən, yuxarıda izah edilən hücum hadisəsi ilə 200 adamın öldürüldüyü doğrudursa, Spoqank kəndinə hücumlara erməni silahlı dəstələrinin kürd Merzeki əşirətinə qarşı həyata keçirdikləri hücumlar qarşılıqsız qalmamışdır. Bölgədə hakim olan feodal quruluş düzəni ilə kürdlər arasındakı mövcud qan davaları nəzərə alınaraq ermənilərin kürd əşirətlərinə etdikləri hücumların qarşılıqsız qalacağını gözləmək sadəlövhlükdür.

Əslində erməni komitələrinin məqsədi bölgəni terror yuvasına çevirərək erməni xalqına qarşı müsəlmanlar tərəfindən hücumlar edilməsini təmin etmək idi. Beləcə, əsas məqsəd bölgədə yaşayan hər kəsi qorxu içində saxlamaqla dövlətin onları qoruya bilmədiyi düşüncəsini yaradaraq ictimai asayiş və dövlətə inamı sarsıtmaq, sonra da geniş miqyaslı bir üsyan çıxararaq, böyük güclərin köməyi ilə burada ən azından muxtar bir erməni dövləti qura bilmək idi. Erməni komitə-

çilərinin törətdikləri hadisələr, ingilis diplomatiyasının siyasət dəyişikliyinə baxmayaraq dayandırmamışdır. "Erməni qiyamçıları", daha sonra, 1898-1899-cu illərdə fəaliyyətlərini Bitlis vilayətinə bağlı Muş və Sasun istiqamətlərinə keçirmişlər. Bu bölgə, 1898-1899-cu illərdə komitələrdən ayrı, müstəqil şəkildə hərəkət edər Seropa bağlı erməni silahlı dəstələri fəaliyyətə başlamışdı.

1898-1899-cu illərdə Seropa bağlı silahlı ordu bölgədə meydan sulamağa başlayır. Rus konsulu General Mayevski, Seropun heç bir komitə ilə əlaqəsi olmadığı kimi, hər hansı xarici bir dövlətlə də münasibəti olmadığından erməni silahlı qüvvələr arasında ən hörmət duyulan biri olduğunu yazır.

1899-cu ildə erməni komitəçilər, Sasun bölgəsində kürdlərin ağlasığmaz qətliamlar törətdikləri, Osmanlı əsgərlərinin də onlara köməkçi olduqları şəklində bir təbliğat aparmağa başlamışdılar. General Mayevski, ermənilərin bitmək-tükənmək bilməyən yalanları və onlara xidmət edən Avropa mətbuatı sayəsində təkrarən erməni problemini gündəmə gətirmək üçün səy sərf göstərdiklərini ifadə etmişdir. Mayevski, erməni müəlliflərin həqiqətləri təhrif edərək hadisələri inanılmaz ölçülərdə nəql etdiklərini vurğulamışdır. Rus konsulu Mayevski, erməni müəlliflərin bütün səylərinin başqalarının ermənilərə rəğbət türklərə isə nifrət bəsləyəcək şəkildə hərəkət etmələrini təmin etməyə çalışdıqlarına işarə vurmuşdur. Mayevski, Sasunda 1895-1896-cı illərdə olduğu kimi, kürdlərin və türklərin öldürülərək yenidən süni bir anarxiya mühiti yaradılmağa çalışıldığını da qeyd etmişdir [93, s.147-149].

1901-ci ildə Andranikin ordusu hərəkətə keçir. Erməni silahlı qüvvələrinin adını çəkdiyimiz bölgədə reallaşdırdıqları tədbirlər, bölgədəki çöl-kənd həyatını sarsıtmağa xidmət edir. Rusiya Dövlət Hərb Tarixi Arxivində olan sənədlərlə General Mayevskinin verdiyi məlumatlar, müsəlmanlara edilən hücumlar nəticəsində, bu bölgədə əmin-amanlığın qalmadığını göstərir. Bu məlumatlara görə, ermənilərin silahlı qiyamçıları, müstəqil dövlət qurmaq adı altında bölgədə yaşayan erməni kəndlilərin həyatını da dözülməz bir vəziyyətə gətirirlər. Erməni silahlı qüvvələrinin hədəfi, həyata keçirdikləri təhdid və təcavüz hərəkətləri nəticəsində bölgədə asayişi tamamilə pozaraq erməni və müsəlmanları bir-birinə düşmən etmək idi. 1901-ci ildə

Muş yaxınlığında Andranik və ordusu fəaliyyətə keçir. Andranikin ordusu 20 noyabr tarixində Muşun şərqində olan və ermənilər tərəfindən müqəddəs sayılan Arakel monastırını ələ keçirərək, buranı az qala kiçik bir qalaya çevirir. Bununla da həmin yerə Mehmet Əli Paşa komandanlığında Osmanlı hərbi qüvvələri göndərilir. Ancaq monastırda erməni silahlılarından başqa, din adamları, qadın və uşaqlarla birlikdə kəndlilər də olduğundan Osmanlı qüvvələrinin monastıra birbaşa hücum etmələri qadağan edilir. Bununla birlikdə, Osmanlı hərbi birlikləri monastırı mühasirəyə alaraq buraya qida maddələrinin girməsinə mane olmaqla komitəçilərin təslim olmalarını təmin etməyə çalışırlar. Təslim olma çağırışlarını rədd edərək əlindəki sursat və ərzaq bitənə qədər müqavimət göstərən Andranik və dəstəsi, mühasirənin iyirminci günü – yəni 9 dekabr gecəsi, göz-gözü görməyən qar fırtınasından faydalanaraq monastırdan çıxmağı bacarır və ortadan yox olurlar [102, s.151-153].

1902-ci ildə Makedoniyada üsyan baş verəndə, bu vəziyyətdən faydalanmaq istəyən erməni komitəçiləri yenidən hərəkətə keçmək üçün hazırlığa başlayırlar. 1903-ci ildə "Pro Armenia" jurnalının 66-cı nömrəsində "Əgər Avropa ermənilərə qarşı götürdüyü öhdəlikləri rəsmi olaraq yerinə yetirməzsə, fədailərin "müdafiəsiz qardaşlarının ortadan qaldırılmalarına icazə verməyəcəkləri" irəli sürülərək, ermənilərin Sasunda müəyyən qədər döyüşçülərinin olduğu yazılır. Eyni jurnalın başqa nömrəsində də: "Biz davamlı olaraq Avropanın müdaxilə etməsinə ümid edə bilmərik. Biz hər şeydən əvvəl öz qalxanımıza, özümüzə ümid bəsləməliyik. Sinəmizin düşmən güllələrinə sipər etdiyimiz gün, qardaşlarımızın və bacılarımızın maddi və mənəvi yardımlarına dəyər verəcək və hiss edəcəyik... Erməni qardaşlarımız! Baharın gəlməsi ilə birlikdə, qardaşlıq münasibətlərimizin zəfər qazanacağına ümid etməliyik. Etirazımız zülmün sonunu gətirəcək və Avropanı, Berlin sazişinin 3 və 61-ci maddələrini imzalamaqla üzərinə aldığı humanitar missiyasını yerinə yetirməsinə məcbur edəcək... Yaşasın Ermənistan!... Yaşasın Makedoniya!" [93, s.155-156] deyilərək, bir tərəfdən erməni komitələri tərəfindən Sasunda dövlətə qarşı yeni bir hücuma başlanılmasının, digər tərəfdən də böyük güclərin yenidən Osmanlı Dövlətinin daxili işlərinə qarışmasının planlaşdırıldığı aydın olmaqdadır. Erməni silahlı

dəstələrinin Sasunda toplanmaları ilə Osmanlı hərbi qüvvələri, 1904-cü ilin yanvar ayının əvvəlində bu qəzanı mühasirəyə almağa başlayır. Sasundakı ermənilərlə Osmanlı hərbi qüvvələri arasında bəzən atışmalardan sonra Sultan II Əbdülhəmid üsyançılara göndərdiyi məktubda onlardan təslim olmalarını tələb edir. Erməni patriarxı Ormanyan da üsyançıların silahı buraxaraq təslim olmaları üçün bir müraciət məktubu göndərir. Bu tələbləri nəzərə almayan üsyançılar qarşıdurmaya davam edirlər. Üsyançı ermənilərin bir qismi Geliguzan kəndində toplanaraq burada Osmanlı qüvvələrinə qarşı müqavimət göstərməyə çalışırlar. Andranikin başında olduğu ordu isə Talvorik dağına dırmaşaraq Osmanlı ordusuna qarşı müqavimət göstərməyə davam edir. Ancaq üsyançıların getdikcə azaldığını görən Andranik və ordusu bölgədən ayrılaraq Vana doğru hərəkət edir. Van vilayətində olan Akdamar monastırına sığınan Andranik və ordusu ilə Osmanlı ordusu arasındakı qarşıdurma burada da davam edir, ancaq Andranik Akdamar monastırından da qaçmağı bacarır [92, s.214-215]. Bu zaman "Andranikin döyüşləri" adlı əsərdə 1904-cü ildə Sasunda gedən döyüşlərdə Osmanlı ordusunun 1.000 nəfərdən çox itki verməsinə qarşı erməni üsyançıların itkilərinin sadəcə onlarla olduğu irəli sürülür [93, s. 522-523]. Ancaq ermənilərin bu qədər az itkilərinin olduğu bir o qədər də inandırıcı görünmür. Andranik, daha sonra Cənubi Qafqaza keçərək burada Osmanlı dövlətinə qarşı təbliğat fəaliyyətləri aparır. Birinci Dünya müharibəsində yenidən səhnəyə çıxan Andranik, yaradılan erməni könüllü ordularına rəhbərlik edərək şərq vilayətlərini terror meydanına çevirir.

Sual və tapşırıqlar:

– Erməni komitələrinin Sasun və Muş bölgələrini özlərinə mərkəz kimi seçmələrinin səbəbləri nə ilə bağlı idi?

– 1901-ci ildə Andranik ordusunun hərəkətə keçməsinin səbəblərini izah edin.

II ƏBDÜLHƏMİDƏ QARŞI TERROR CƏHDİ

Erməni komitələri, şərq vilayətlərində reallaşdırdıqları hərəkat və üsyanlardan öz mənfur niyyətlərinə çata bilmədiklərindən fəaliyyətlərini qərb bölgələrinə keçirirlər. Qnçak komitəsi mənsubları bir tərəfdən İzmir, Ödemiş və Manisa kimi şəhərlərdə fəaliyyət göstərməyə çalışır, digər tərəfdən, Bolqarıstanı özlərinə mərkəz seçərək, buradan İstanbula terror aktları həyata keçirmək üçün bombalar göndərmək hazırlığına başlayırdılar [49, s.524]. Ermənilər Bolqarıstandan gəmi ilə İstanbula silah və dinamit gətirmişdilər, ancaq aparılan axtarışlar zamanı üç erməni anarxist terrorçusu həbs edilmişdi [45, s.438].

Bundan əlavə, 1904-cü ildə bəzi ermənilərin Bolqarıstandan yelkənli gəmilərlə İstanbula gələrək çaxnaşma salacağı barədə xəbərlərin alınması ilə Osmanlı Hökuməti limanlarda nəzarəti artırır. Bolqarıstandan başqa, Selanikdən də İstanbula dəniz yolu ilə gəlmək istəyən ermənilər vardı. Selanikdə İstanbula tərəf yola çıxan bir gəmi Çanaqqala boğazını keçdikdən sonra dayandırılır. Gəmidəki 125 ermənin İstanbula çıxmasına maneə yaradılır. Görülən bütün tədbirlərə baxmayaraq, ermənilər İstanbulda təşkilatlanmalarını gücləndirirlər. Həmçinin, müəyyən bir intizam qaydalarına tabe olan erməni təşkilatları bir-birlərinə də nəzarət etməyə başlayırlar. Bu hərəkətliliyin səbəbi Daşnaksütun komitəsinin Osmanlı Sultanı II Əbdülhəmidi məhv etmək qərarı verdiklərindən qaynaqlanırdı [49, s.66-67].

II Əbdülhəmidi öldürməyi planlaşdıran erməni komitəçiləri, sultanın gündəlik həyatını təqib edərək saraydan çıxdıqdan sonra getdiyi marşrutu təyin edirlər. Hətta Krispador adlı rus əsilli bir yəhudi, Rusiya səfirliyinin də köməyi ilə sarayda təşkil edilən salamlama mərasimlərini müşahidə edərək, II Əbdülhəmidə sui-qəsd ediləcək yeri müəyyənləşdirməyə çalışır. Erməni komitəçiləri apardıqları araşdırma və müşahidələrdən sonra II Əbdülhəmidi Yıldız və Dolmabaxça sarayları arasındakı yolda öldürməyi qərara alırlar. Ramazan ayının 15-ci günü bu yolda hazır durmuş iki silahlı erməni, II Əbdülhəmidin keçdiyini müşahidə edirlər. Ancaq Sultanın yolunu dəyişdirməsi nəticəsində sui-qəsd reallaşa bilmir.

Krispador adlı yəhudi araşdırmalarına davam edir. Nəhayət, II Əbdülhəmidin Cümə namazını qıldığı Yıldız məscidinin çıxışında bomba ilə öldürülməsinə qərar verilir. Bu məqsədlə seçilmiş bölgədə böyük bir araşdırma aparılır. Hətta Sultanın faytonunun dayandığı yerlə məscid arasındakı uzaqlıq və bu məsafəyə gedib çatma müddəti də hesablanır. Bir faytonun içindəki saatlı bombanın yolda partladılacağı ilə həyata keçirilməsi planlaşdırılan sui-qəsdin müvəffəqiyyətli olması üçün hər tədbir görülür. Bu plandan sonra erməni komitəçiləri Bolqarıstana gedərək saatlı bomba ilə törədiləcək terrorun sınaqlarını dağlarda təcrübədən keçirirlər. Terrorun təşkil ediləcəyi fayton İstanbula gəmi ilə gətirilir. Faytonun 120 kilo partlayıcı maddə və zaman nizamlanması ilə mexaniki sistemlə partladılması planlaşdırılır. Hər şey hazırlandıqdan sonra – 21 iyul 1905-ci il tarixində avtomobil sui-qəsdin həyata keçiriləcəyi yerə gətirilir. Ancaq II Əbdülhəmid Cümə namazından sonra Şeyxülislam ilə bir müddət söhbətə dayanması nəticəsində, saatlı bomba partladıldığında sultanın olduğu yerdən uzaqda olması onun həyatını qurtarır.

Daşnaksütun komitəsi terror cəhdlərinin puça çıxması nəticəsində II Əbdülhəmidə qarşı birlikdə mübarizə etmək üçün "İttihad və Tərəqqi" firqəsinə bir təklif göndərir. Erməni müəllif Sarkisyan, bu təkliflərin qəbul olunduğunu qeyd edərək bu tarixdən sonra ittihadçılarla daşnakların, II Əbdülhəmidi devirmək üçün birlikdə hərəkət etdiklərinə işarə vurur. Sonrakı dövrdə bu iki qrupun bəzi nümayəndələrinin həm ölkə içində, həm də ölkə xaricində zaman-zaman görüşdükləri və əməkdaşlıq etdikləri görünəcəkdir. İttihadçılar və daşnaklar arasındakı münasibət II Əbdülhəmid devrildikdən sonra bir müddət də davam edir. Ancaq ittihadçılar ölkə rəhbərliyinə gəldikdən bir müddət sonra, aralarında anlaşılmazlıqlar ortaya çıxır. Beləliklə, bu iki qrupun bəzi işlərdə ortaq hərəkət etmələri sona çatır.

Sual və tapşırıqlar:

– Nə üçün ermənilər Bolqarıstanda erməni və Qnçak komitələrini yerləşdirirdilər?

– Sultan II Əbdülhəmidin qətlə yetirilməsi ermənilər üçün nə qədər əhəmiyyətli idi?

– Ermənilərin İstanbulda və ətraf şəhərlərdə daha çox təxribatlar törətmələrinin məqsədini öyrənin.

ƏRZURUM VƏ BİTLİS ÜSYANLARI

Rusiyanın 1904-1905-ci illərdə Yaponiya ilə müharibədən məğlub çıxmasından sonra ölkədə böyük qarışıqlıqlar meydana gəlir. Bu dəyişikliklər Rusiyada 1905-ci il inqilabının reallaşmasına səbəb olur. Erməni müəlliflər, bu inqilabın ermənilərə təsir edərək onları yeni üsyanlara həvəsləndirdiyini yazırlar. İstanbuldakı Rusiya səfiri Zinovyev də, Qafqazdakı qiyamçı erməni hərəkatının təsirinin Ərzurum vilayətində göründüyünü ifadə edərək burada "Can verir" adında yeni bir komitənin qurulduğunu bildirir. Erməni tarixçisi Sarkisyanın yazdığı kimi, gərgin bir təbliğat kampaniyası aparan bu komitənin fəaliyyəti nəticəsində Ərzurumda bir qisim türklər və ermənilər birlikdə hərəkət etməyə başlayırlar. 18 (31) mart 1906-cı il tarixində poçtu ələ keçirən bir qrup, 1906-cı ilin əvvəlindən qüvvədə olan şəxsi verginin qaldırılmasını, digər vergilərin azaldılmasını və vali Nazim Paşanın vəzifədən alınmasını tələb edirlər. Müəllifin qeyd etdiyinə görə, müsəlmanlarla ermənilərin birlikdə hərəkət etmələri nəticəsində vali Nazim Paşa vəzifəsindən çıxarılır. Bundan başqa, şəxsi vergi də müvəqqəti olaraq qaldırılır.

Bu hadisədən bir müddət sonra Bitlisdə üsyan qaldıran 5.000 nəfər valinin şəhəri tərk etməsini istəyirlər. Ermənilərin hücumu nəticəsində başından yaralanan Bitlis valisi Fərit Paşa şəhəri tərk etmək məcburiyyətində qalır. Bu hadisələr əsnasında üsyançı ermənilər bir polis komissarını da öldürürlər. Fərit Paşanın vəzifədən çıxarılmasını tələb edən üsyançıların istəkləri yerinə yetirilərək Cəlal Paşa Bitlisə vali təyin edilir. Bitlisə yeni bir valinin təyin edilməsi də üsyançıları dayandıra bilmir. Teleqraf və poçt mərkəzini basan üsyançılar buradakı sənədləri ələ keçirirlər. Bitlisdəki Rusiya konsulunun 25 iyun 1907-ci il tarixində bildirdiyinə görə, Sulukov kəndində bir mayor öldürülür; 105 nəfər əsgərin bir qismi qətl edilir, bir qisim əsgərlər də yaralanırlar. Bununla birlikdə, hadisələr ancaq ilin sonuna yaxın yatırıla bilir [88, s.221]. Göründüyü kimi, istəkləri yerinə yetirilməsinə qarşı üsyançılar hücumlara və qanlı hərəkətlərinə davam edirlər.

Daşnaksütun komitəsi, 1907-ci ildə bir tərəfdən Bitlis bölgəsinə üsyanları təşkil edərkən, digər tərəfdən daşnak liderlərindən biri-

nin etiraf etdiyinə görə, Vana "minlərlə silah və bir milyondan çox fişəng" gətirməyi bacarmışdır. Digər tərəfdən, 1908-ci ilin sonlarında Batumda köhnə Van valisi Əli Rza bəy öldürülmüşdür. Faktlar təsdiq edir ki, erməni komitəçiləri yenidən böyük bir silahlı qarşıdurmaya hazırlaşmağa başlamışdılar.

Sual və tapşırıqlar:

– Osmanlı imperiyasının müxtəlif şəhər və əyalətlərində törətdikləri cinayətlərin əsas səbəbləri nədən ibarətdir?

– Ermənilərin uğursuzluğa uğramalarının əsas səbəblərini izah edin.

ADANA HADİSƏLƏRİ
(14 aprel 1909-cu il)

Əvvəllər diqqətçəkən bir erməni hadisəsinin baş verdiyi Adana və Mersin bölgəsi, xüsusilə Bağdad dəmiryolunun inşa edilməyə başlaması ilə strateji əhəmiyyəti artan bir bölgəyə çevrilməyə başlayır. Çukurova bölgəsi haqqında başda Almaniya olmaqla Fransa və İtaliyanın imperialist məqsədləri olduğu ortaya çıxır.

II Əbdülhəmidin ölkəyə silah idxal etməklə bağlı qoyduğu qadağa II Konstitusiya elan edildikdən sonra qaldırılır [60, s.24]. Bununla da, xristianlar, xüsusilə ermənilər, verilən azadlıqdan istifadə edərək guya ilk mərhələdə, "özlərini müdafiə", daha sonra isə "haqq iddialarını təcavüzkar şəkildə təmin etmək" üçün ölkəyə silah və mərmi gətirirlər. Bundan əlavə, ermənilər, Çukurovada qurmağı xəyal etdikləri bir erməni dövləti üçün böyük həyəcana qapılmağa və müsəlmanları təhrikedici fəaliyyətlərə keçməyə başlayırlar [59, s.28-29].

Həmçinin, o dövrdə İnglitərənin səfiri olmuş Gerard Lovther tərəfindən Xarici İşlər naziri Edvard Qreyə yazılmış gizli bir sənəddə, ermənilərin silahlanmalarının, "Türklərdən intiqam almaq və türk soyunu yer üzündən silmək" üçün fəaliyyətə keçmələrinin türkləri narahat etdiyi qeyd olunur. İngilis səfiri Lovther, ermənilərə silahlandıran erməni yepiskop Muşeqin "Erməni xalqının ehtiraslarını və türklərin qorxularını təhrik etməklə başlıca rolu oynadığına" qeyd edirdi. Bundan başqa, yenə İngiltərə səfirliyi tərəfindən hazırlanmış bir hesabatda, yepiskop Muşeqin Çukurovanı gəzərək "pencəyi olan hər kəsi pencəyini sataraq silah satın almağa" təşviq etdiyi və Adanada bir kilsədə verdiyi vəz (uzun-uzadı danışmaq, qızışdırmaq, beyninə yeritmək.– Red.) əsnasında: "İntiqam; cinayətə qarşı cinayət; silah satın alın. 1895-ci ildəki hər ermənіyə qarşı bir türk!" dediyi vurğulanırdı. Bu vaxt Mersindəki İngiltərə konsulunun köməkçisi Mayor Douqhty Vylie ingilis səfirinə göndərdiyi bir hesabatda II Konstitusiyanın elanından sonra vilayətə 40.000 silah, revolver, tüfəng və tapança gətirildiyinə diqqəti çəkirdi [59, s.30-31].

4 may 1909-cu il tarixində ingilis səfiri Lovther Xarici İşlər naziri Qreyə təqdim etdiyi gizli məktubunda, 1909-cu ilin 14 aprel gecəsi Adanada "Bir erməni arvadını qaçırmağa çalışdıqları iddiası ilə

iki türkü silahla vurur; bundan dərhal sonra bütün şəhər münaqişədə boğulurdu" deyilməklə hadisələrin başlandığı xəbər verilirdi. Bu zaman Adanaya Maraşdan arpa yığmaq məqsədi ilə çoxsaylı ermənin gəldiyinə diqqət çəkilirdi. Adanada başlamış hadisələr Antakya, Bağca, Dördyol, Erzin, Hacı (Saimbeyli), Həmidiyyə, Maraş, Payas və Tarsusa da yayılaraq türklərlə ermənilər arasında ciddi toqquşmalara səbəb olurdu [59, s.32-37]. Adanada başlayan hadisələrin Çukurovanın digər yerlərinə də yayılması ilə ermənilər, Adana valisi Cavad bəy ilə vasitəçi kimi görüşməsi üçün Osman bəy Təkəlizadəyə təklif aparmışlar. Osman bəy Təkəlizadə, ermənilərin silahı dərhal buraxacaqları halda vasitəçilik etməyə hazır olduğunu bildirmişdir. Vali də 18 aprel tarixində ermənilərin silah buraxmasını istəmişdir. Əvvəlcə bu təklifi rədd edən ermənilər, erməni patriarxı ilə Adanadakı İngiltərə konsulluğunun cəhdləri nəticəsində silahlı müqaviməti dayandırmışdılar [102, s.259-260].

Adana hadisələri əsnasında Cəbəl-i Bərəkət (Dördyol) mahalının mutasarrıfı (valisi) Mehmet Asəf bəy, xatirələrində Adanadakı hadisələrin qarşısını almaq üçün şəhərə göndərilən Osmanlı əsgərlərinin şəhərdə "yerləşəcəkləri gün Adanada yatırılmış olan münaqişə yenidən və yenə xüsusilə ermənilər tərəfindən alovlanmış və bombalar atılaraq bütün Adana şəhəri yandırılaraq dağıdılmışdı. Ermənilər Osmanlı əsgərlərinə yaylım atəşləri və bombalarla cavab vermişdilər. Hətta nəsihətə gedən Amerika konsuluna da əlində görüş bayraqları olduğu halda, silah çevirmişdilər" deyə qeyd edir. Bundan başqa, Mehmet Asəf, Dördyoldakı hadisələrdə ermənilərin öldürdükləri müsəlmanların "...başlarını martinlərə (tüfənglərə) taxaraq müsəlmanlara "Bura bizimdir, siz Şama gedin" və bəzən də "Məhəmmədi çağırın, yaşasın Bedros Paşa, yaşasın Ermənistan!" dediklərini yazmışdır [49, s.44, 72].

Bundan başqa, Mehmet Asəfin öz xatirələrində verdiyi bu ifadələr ermənilərin üsyanı əsnasında hadisələrə lazım olduğu zaman müdaxilə etmək cəsarəti göstərə bilməyən yerli Osmanlı idarəçilərinin zəifliklərini ortaya qoyur: "2 aprel 1325-ci (1909) il tarixində Nacarlı xristian camaatı əllərindəki dörd top və mükəmməl silahla qonşu kəndlərə atəş etməyə başlayaraq bir günlük mübarizədən sonra gecə əşyaları ilə birlikdə və 3 aprel 1325-ci il tarixində də səhər minə yaxın

əhali ilə, yollarda 50-yə qədər müsəlmanı öldürüb əllərini kəsərək Dördyola girmişdilər. Xristian xalq, minədək adam silahını ataraq Dördyolda Azizliyə doğru iki sıraya düzülmüş və nümayişlə bunları qarşılamışdılar. Oradakı hökumət məmurları müsəlmanların silah istifadə etmələrinə mane olmuş və hamısı burnu da qanamadan sağ-salamat Dördyola girmişlər. Bu mövzudakı jurnalın surətləri də bağlıdır. Məhz bu gələn altı yüzdən artıq martinli (tüfəngli) şəxs düz kazarmaya girmiş və qapıları açaraq oradan atəş etməyə başlamışdılar"[49, s. 69-70].

Sadalanan fikirlərdən göründüyü kimi, erməni üsyançıların əllərində topların olması, hadisələrin nə dərəcə təşkilatlanmış və öncədən hazırlanmış olduğuna işarə etməkdədir. Digər tərəfdən, Adana hadisələrindən bəhs edən mənbələr üsyan başlayarkən Adana valisi Cavad bəyin ümumi olaraq qərarsız və ehtiyatlı mövqeyinin hadisələrin yayılmasında rol oynadığına işarə edirlər.

Beləliklə, Osmanlı hərbi qüvvələrinin Adanaya girməsi ilə hadisələr yenidən başlamışdı. İngilis səfirinin Xarici İşlər nazirinə bildirdiyinə görə, bir müddət sonra hadisələri önləmək üçün Adanaya gələn Rumeli əsgərlərinə ermənilər tərəfindən atəş açılması ilə 15 əsgər həyatını itirmişdi. Bundan başqa, xarici dövlətlərin ermənilərlə maraqlanmasını təmin etmək üçün hadisələri başladanların hər şeyi gözə alan Qnçak komitəçilərinin olduğu da qeyd edilmişdi. İngilis səfirinə görə, bölgədə meydana gələn hadisələr əsnasında ölənlərin sayının 15.000 ilə 20.000 arasında olduğu ifadə edilərkən, Ədirnədən millət vəkili seçilmiş Akop Babikyanın (Erməni qaynaqları "Panikyan" olaraq bildirirlər.) verdiyi rəqəmlərə əsasən, həyatını itirənlərin sayı 21.001 nəfər, erməni patrikliyinin ortaya atdığı rəqəmlərlə 21.300 nəfər, hadisələrin yatırılmasından sonra Adanaya vali olaraq təyin olunmuş Camal Bəyin verdiyi rəqəmlərə görə isə, 1.850 müsəlman, 17.000 erməni ölmüşdü [59, s.176].

Rus səfiri Zinovyev Adana vilayətində öldürülən xristianların sayının 15.000-ə yaxınlaşdığını bildirir. Həmin dövrdə Rusiya Dumasının erməni əsilli millət vəkili A.K.Çivelegov, 20.000, erməni tarixçisi Sarkisyan isə Çukurovada 30.000 ermənin öldüyünü iddia edirlər. Sarkisyan, ölənlərin çoxunun, xüsusilə də qadın, kişi və qocaların epidemiyadan və aclıqdan həyatını itirdiyini vurğulayır. An-

caq Sərkisyan Hacı, Sis, Cok-Marsevane, Hasanbəyli və Şardersi bölgələrindəki qarşıdurmalarda ermənilərin Osmanlı nizami ordusuna qarşı qəhrəmancasına döyüşərək qalib çıxdıqlarını ifadə edir, lakin türklərin verdikləri itkilərdən heç bəhs etmir.

Adana hadisələrindən sonra günahkarları cəzalandırmaq və hadisələrin səbəbini ortaya çıxarmaq üçün bir araşdırma komissiyası ilə hərbi məhkəmə qurulur. Dörd adamdan ibarət olan komissiyanın iki üzvü ermənilərdən seçilir. Bunlar, Ədirnə millət vəkilləri Akop Panikyan və Manastır vilayətində hakim işləyən Arutyun Mosticyan idi. Komissiyanın türk üzvləri isə kastamonu millət vəkili Yusuf Kamal ilə Dövlət Şurasının Baş katibi Arifbəy idi. Komissiya sədrliyinə də Akop Panikyan təyin edilmişdi. Ancaq Osmanlı Hökumətinin Adanaya göndərdiyi komissiya üzvləri əks reaksiyalarla qarşılaşırlar. Bununla müsəlman və ermənilərdən 3 yeni üzv seçilir, komissiyanın fəxri sədrliyinə isə hadisələrin yatırılmasında rolu olan İngiltərə konsulunun köməkçisi Mayor Vylie gətirilir.

Bu vaxt hadisələrdən məsul tutulan 104 müsəlmanla 89 xristian Adanada həbs olunur. Ancaq suçlu olduğu təsbit edilərək ölüm cəzasına məhkum olunmuş 29 ermənin cəzaları daha sonra ömürlük həbs cəzası ilə əvəz edilir. Digər tərəfdən, Adana valisi Camal bəy, 30 nəfəri Adana və 17 nəfəri Erzin qəsəbəsində olmaqla 47 müsəlmanın edam etdirdiyini, edam olunanlar arasında Bahce qəzası müftisinin də olduğunu, halbuki qanlı hadisələrdə rolu olan və onların görmədikləri edama məhkum edilən yepiskop Muşeqin xarici bir gəmidə İsgəndəriyyəyə qaçdığına görə cəzasının yerinə yetirilə bilmədiyini ifadə edir. Camal bəy, edam edilənlər arasında sadəcə 1 ermənin olduğunu bildirir [53, s.176, 44,50]. Erməni müəllif Sərkisyan isə, ölüm cəzasına çatdırıldıqdan sonra edam edilən şəxslərin sayını 6 nəfərinin erməni olmaqla cəmi 15 nəfər olduğunu yazır [102, s.268]. Ancaq edam edilənlərlə əlaqədar olaraq Adana valisi Camal bəyin verdiyi rəqəmlər həqiqətə daha yaxın olduğu üçün ona inanmaq lazımdır.

İngiltərə Xarici İşlər Nazirliyi səlahiyyətlilərindən R.MakDonell, Adana hadisələrindən 11 il sonra qələmə aldığı bir yazıda, daşnak komitəsinin apardığı təbliğatlar nəticəsində ermənilərin silahlı bir

müqavimətə təhrik edilmələri ilə Adanada qanlı hadisələrin ortaya çıxdığını vurğulamışdır [59, s.39-40].

Erməni tarixçiləri Adanada yaşanan hadisələrin "İttihad və Tərəqqi" Firqəsi tərəfindən təşkil edildiyini iddia edirlər. Halbuki, Adanadakı hadisələrin başlanğıc tarixi, 31 mart (13 aprel 1909) hadisəsi kimi bilinən üsyan təşəbbüsündən bir gün sonraya təsadüf edir. Üsyançıların "İttihad və Tərəqqi" Hökumətinin istefasını istədikləri bir gündə, ittihadçılar başlarının qarışdığı və vəziyyətlərinin qeyri-müəyyənliyi ortadadır. Bu səbəbdən bu dövr iddiaların əsaslı olması inandırıcı görünmür.

Ermənilər, ölkənin vəziyyətinin son dərəcə qeyri-müəyyən olduğu və Osmanlı Sultanı ilə hökumətin gücsüz olduqları bir zamanı seçərək üsyan etməklə Çukurova bölgəsində qurmağı planladıqları erməni dövlətini reallaşdırmağı düşünürdülər. Bundan başqa, Məclisi Məbusanın (Milli Məclisin) yenidən açıldığı, Məclisi Məbusanda "İttihat və Tərəqqi" firqəsinə mənsub erməni əsilli üzvlər olduğu bir dövrdə bu cür hadisənin baş verməsi mümkün deyil. Adana üsyanından sonra həm "Daşnaksütun", həm də "Qnçak" komitəsi ermənilərı silahlandırmaq üçün yenidən hərəkətə keçirlər. Komitələrin bütün bölümlərinə göndərilən təlimatlarda hər bir ermənin silahının olmasının əhəmiyyəti qeyd edilirdi [90, s.188-190]. Artıq ermənilər daha geniş miqyaslı və böyük bir silahlı mübarizəyə hazırlaşmağa qərar verirlər. Bu mübarizə 1914-cü ildə başlayacaq Birinci Dünya müharibəsi olacaqdır.

Sual və tapşırıqlar:

– Adanada baş verən hadisələrin başlanma səbəbi nə idi?

– Adanada başlanmış hadisələr Türkiyənin daha hansı bölgə və şəhərlərinə yayıldı?

– Hadisələr nəticəsində Adana vilayətində nə qədər insan qətlə yetirildi?

ERMƏNİLƏRİN UYDURMA QIRĞIN İDDİALARI

Erməni müəllifləri sanki bir ağızdan 1894-1896-cı illər arasında Anadolunun fərqli vilayətlərində və İstanbulda cərəyan edən hadisələrlə 1909-cu il Adana hadisələri əsnasında təxminən 300.000 ermənin həyatını itirdiyini irəli sürürlər. 1919-cu ildə Paris Konfransında ermənilərı təmsil edən Boğos Nübar Paşa və Avetis Agoronyan da bu rəqəmi ortaya atırlar. Mnatsakanyan da müstəqillik idealının 1885-1914-cü illər arasında 300.000 ermənin həyatını itirməsinə, bir o qədər də ermənin ölkə xaricinə sürgün edilməsinə səbəb olduğunu irəli sürür. Köç edən ermənilərin sayı ilə əlaqədar yazan erməni tarixçisi Sarkisyan, 1895-1896-cı illər arasında Osmanlı Dövlətindən ayrılaraq Rusiyaya, Balkan ölkələrinə, Fransaya, İngiltərəyə və Amerikaya köç edənlərin sayını 100.000 nəfər olduğunu qeyd edir [102, s.154-155].

Rus müəllif A.V.Amfiteatrov isə, kürdlər tərəfindən ermənilərin 10%-nin öldürüldüyünü bildirir. Amfiteatrov Sasunda 300.000 və digər bölgələrdə on minlərlə emənin qətl edildiyini də yazmaqdan çəkinmir. Bundan əlavə, Sultan II Əbdülhəmid Anadoluda az qala yarım milyonluq bir rus qüvvəsini ortadan qaldırdığını bildirir. Amfiteatrov Əbdülhəmidin *"Ermənilərı yox edərkən rus gücünü yox etdiyini"* irəli sürür. Halbuki Rus ordusunun polkovniki Qriyaznov 1895-ci ildə Adana, Bitlis, Diyarbəkir, Ərzurum, Hələb, Sasun, Trabzon və Van vilayətlərində yaşayan erməni sayını 847.041 nəfər olduğunu yazır. Eyni tarixdə rusların İstanbuldakı səfirliyinin tərcüməçisi Maksimov isə, katolik və protestantlar da daxil olmaqla altı vilayətdə yaşayan erməni əhalisinin 886.811 nəfər olduğunu göstərir [102, s.31-32]. Amfiteatrovun irəli sürdüyü rəqəmlər – Sasunda 300.000 ermənin yox edildiyi iddiası qiymətləndirildikdə, bu vilayətlərdə yaşayanların bəlkə də yarısı, hətta yarıdan da çoxu Sasunda yaşamalı idi. Çünki Sasunda yaşayan ermənilərin sonrakı tarixlərdə böyük üsyanlar çıxarmağa davam etdikləri diqqətə alındıqda, bu bölgədə yaşamağa davam edən çoxsaylı ermənin olduğu aydın olur. Bu səbəbdən, Amfiteatrovun verdiyi rəqəmlər həqiqətə uyğun gəlmədiyi kimi, şişirtmə sərhədlərini də dəfələrlə aşmışdır.

1916-cı ildə Moskvada ermənilərin mitinqə başladığı "Армянский вестник (Erməni xəbərləri)" adlı jurnalda isə Türkiyədə bu tarixdən 20 il əvvəlki hadisələr əsnasında 100.000 ermənin öldürüldüyü iddia edilir [72, s. 16]. Halbuki 1896-cı ildə İngiltərə, Fransa, Rusiya, Almaniya, Avstriya-Macarıstan və İtaliya dövlətlərinin Osmanlı hökumətinə verdikləri ortaq notada, 1894-1896-cı illər arasındakı hadisələr əsnasında Ərzurum, Sivas, Harput, Diyarbəkir, Bitlis və Vanda 37.085 xristianın, 938 müsəlmanın öldüyü, 39.749 evin dağıdıldığı ortaya atılmışdır.

Rus müəllifi Y.Baranov, 1915-ci ildə qələmə aldığı kitabında, 1894-1896-cı illər arasında meydana gələn üsyanlarda 40.000 ermənin öldürüldüyünü, 50.000 evin məhv edildiyini və ya yandırıldığını, 8.000 kəndin aradan qaldırıldığını irəli sürmüşdür. Y.Baranovun yandırıldığını iddia etdiyi 8.000 kəndin ümumi əhalisinin müəyyənləşdirmək üçün sadə bir hesabla bir kəndin 100 adamdan meydana gəldiyi nəzərə alındıqda, 800.000 rəqəm ortaya çıxır. Halbuki, erməni kəndlərinin ümumi olaraq böyük kəndlərdən meydana gəldiyi məlumdur. Ortalama olaraq, bir kənd əhalisinin ümumi sayının cəmi 200 nəfərdən ibarət olduğunu nəzərə alsaq, 8.000 kənddə yaşayan əhalinin sayı 1.600.000-ə barabər olacaq ki, bu say da ümumi erməni əhalisinin sayındn çoxdur. Osmanlı dövlətində yaşayan ermənilərin şəhər əhalisi və coğrafi yerləşimləri da nəzərə alındıqda, rus müəllifinin dağıdılan evlər və kəndlərlə bağlı irəli sürdüyü rəqəmin həqiqətə qətiyyən uyğun olmadığı meydana çıxır. Buna görə, rus müəllif Y. Baranovun öldürülmüş ermənilərin sayı ilə bağlı verdiyi rəqəmin da şişirdirildiyi və bir əhəmiyyət kəsb etmədiyi aydın olur. Həmçinin, 1894-1896-cı illərdəki hadisələrdə həm evsiz-eşiksiz qalanlarla, həm də öldürülənlərlə əlaqədar olaraq ermənilərlə onlara arxa çıxanlar, rəqəmləri ən az on dəfə artırdıqları Türkiyədə çalışmış ingilis kapitanı C.B.Normanın yazdıqlarından da aydın olur. Norman, "Evsiz-eşiksiz qalanlarla da əlaqədar eyni şişirtmələr edilməkdədir. Patrik İzmirliyan ən azı 500000 adamın evsiz-eşiksiz qaldığını və 80000 nəfərin də öldürüldüyünü söyləyir. Vestministr Dükü 100000 nəfərin ehtiyac içində olduğunu təxmin edərkən, Filip Currie ehtiyac içində olanları üç ay dəstəkləmək üçün – hökmdarın ac qalan bir ermənini bu müddət içində bəsləyəcəyini qəbul etsək – 50000 və ya 60000 sterlinqə başa

gələcəyi düşünülür. Beləcə, ehtiyac içində olanların sayı 60000 kimi görünər ki, bu da patriarxın təxmin etdiyinin onda biridir!" [54, s.71]. Göründüyü kimi, ingilis dövlət adamlarının ortaya atdıqları rəqəmlərin təxminlərə söykənən rəqəmlər olduğu aydın olmaqdadır. Bu təxmini rəqəmləri isə ya Qərbin qəzet müxbirlərinin verdikləri şişirdilmiş xəbərlərdən, ya da ölkələrinin mənfəətləri istiqamətində çalışan ingilis diplomatlarının təqdim etdikləri tərəfli hesabatlardan əldə etməyə çalışırdı. Halbuki ingilis kapitanı Norman, hadisələrin əhatə etdiyi illərdə Türkiyədə idi. Norman ortaya atılan rəqəmlərin ən az on dəfə daha çox olduğunu öz hesablamaları ilə ortaya qoyur. Çünki ingilis kapitan hadisələrin baş verdiyi şəhər və ya qəsəbələrdə yaşayan ermənilərin əhaliləri ilə öldürüldüyü qarşıya sürgün ədədlərini müqayisə etməklə məqbul rəqəmlərə çatmağa çalışır [54, s.70-71].

Rus tədqiqatçısı V.L.Veliçko da "Qafqaz" adlı əsərində öldürülən ermənilərlə bağlı erməni və ingilis qəzetlərində yazılanların gerçəkləri əks etdirmədiyini, rəqəmlərin şişirdilmiş olduğunu, erməni itkilərinin ən azından on dəfə çox göstərildiyini vurğulayır [80, s.89].

İngilis kapitan C.B.Norman erməni üsyanları nəticəsində ortaya çıxan itkilərin on dəfədən də çox şişirdildiyini bu nümunələrlə ortaya çıxarmışdır: "Yüzlərlə müsəlman və minlərlə erməni həyatlarını itirdilər. Gerçək itki sayını heç bir zaman bilməyəcəyik, lakin İstanbuldakı müxtəlif müxbirlərin rəqəmləri bilərək şişirtdikləri dəqiqdir... Birecikdə də eyni şişirtmə edilməkdədir, 2.000 adamın öldürüldüyü deyilir... Həqiqətdə isə, Birecikdə sadəcə beş nəfər həyatını itirmişdir. Amasyadakı hadisələri bir şərqli sədaqəti ilə izah edən professor Tomayan 800 nəfərin öldürüldüyünü söyləmişdir. Olaylar əsnasında orada olan bir alman və bir erməni tacir isə, ölü sayını 53 nəfər olaraq verirlər" [54, s.70-71].

Oxşar şəkildə, rus konsulu General Vladimir Teofiloviç Mayevski ermənilərin 300.000 itkisinin olduğunu qətiyyətlə qəbul etmədiyini, *"əgər bu saydan sıfırlardan biri silinərsə, eyni fikirdə olaram*" [102, s.79] deyərək, ermənilərin rəqəmləri olduğundan on qat artıq göstərməyə səy etdiklərini ortaya çıxarır. Bu səbəbdən, 1894-1896-cı illər arasında 300.000 ermənin öldürüldüyü iddiasının bir yalan olduğu aydın olmaqdadır. Həmin dövrdə erməni patriarxı İzmirliyanın öldürüldüyün qeyd etdiyi 80.000 [54, s.71] rəqəmindən

çıxış edərək bu rəqəmin də on qat şişirdilmiş olduğu düşünüldükdə, 1894-1896-cı illərdəki üsyanlar nəticəsində həyatını itirən ermənilərin sayı olsa-olsa ancaq 10.000-ə qədərdir. Ancaq erməni tarixçisi Sarkisyanın ifadə etdiyi kimi, bu dövrdə on minlərlə Osmanlı əsgəri ilə Hamidiyyə alaylarından olan kürdlərin də ermənilərin çıxardığı üsyanlar əsnasında həyatlarını itirdikləri unudulmamalıdır [102,s.306]. Bununla birlikdə, Sarkisyanın müsəlmanların itkilərinə dair verdiyi rəqəmin də ermənilərin qəhrəmanlığını göstərə bilmək üçün ortaya atılmış və şişirdilmiş bir rəqəm olduğunu düşünürük.

Bəlkə də bu vəziyyət ermənilərin öz itkiləri ilə əlaqədar şişirdilmiş rəqəm vermə vərdişindən qaynaqlanmaqdadır. 1894-cü ildən sonra Anadoluda artan erməni hadisələrinə dair Qərb ictimaiyyətində yanlış təəssüratların ortaya çıxmasında missionerlərin rolu böyükdür. Qərbli missionerlər erməni hadisələri ilə bağlı "düşüncələrini səlibçi ruhu və imperialist siyasət çərçivəsində" ifadə edərək türklərə qarşı həqiqət sərhədlərini tamamilə aşmış ittihamlar irəli sürürlər [57, s.9].

Erməni tarixçisi Boryan 1894-1896-cı illər arasında cərəyan edən hadisələr zamanı Qərb ictimaiyyətində səslərini yüksəldənlərin "satılmış jurnalistlər, bulvar yazıçıları, avantürist siyasətçilər..." olduqlarını ifadə edərək, birmənalı olaraq hadisələri təhrif edilməklə Avropa ictimaiyyətini səhv məlumatlandırdıqlarını göstərmək istəmişdir. Müəllif, "erməni qanı axıdılması bahasına" bu qruplar tərəfindən qoparılan səs-küy sayəsində, kapitalistlərin şərqdə yeni bazarlar əldə edərək böyük güclərin icra etdikləri imperialist siyasətlərdə söz sahibi bir mövqeyə gəldiklərini vurğulamışdır. Boryan, ingilis imperialistlərinin maraqlarının "Osmanlı İmperatorluğunun əzilən xristianların" üzərində olduğuna diqqəti çəkmişdir [79, s.263-266]. Boryan, ingilis imperialistləri haqqında doğru şərhlər verərkən, Osmanlı Dövlətinin xristian təbəələrinin ölkənin az qala hər yerində iqtisadiyyatı əllərində tutduqlarını, ticarət və sənaye sahələrində söz sahibi olan yeganə qrupların, xüsusilə xristianlar – ümumiyyətlə, rumlu və ermənilər – olduqlarını, bu səbəbdən xristianların kapitalist olduqlarını nədənsə görməməzliyə vurmuşdur.

Rus konsulu general V.T.Mayevski 1896-1897-ci illər arasında Van, Bitlis, Ərzurum və qismən Diyarbəkirlə Mosul vilayətlərini davamlı şəkildə gəzdiyini ifadə edir. Mayevski ingilis hipnozunun

təsiri ilə hərəkət edən daşnaksütun və ona oxşar komitələrin, Anadoludakı bir neçə vilayətdə öz qardaşlarının qanlarını tökmək üçün səy etdiklərini bildirir. Mayevski, ermənicə bilməməsinə baxmayaraq, tərcüməçisindən *"Qan tökmək lazımdır! Və,beləcə, ermənilər arzu etdiklərini alacaqlar"* cümləsini dəfələrlə eşitdiyini ifadə edərək, bu şəkildə həyata keçirilən bir təbliğata şahid olduğunu, bu səbəbdən, bölgədə bir faciə yaşandığına diqqəti çəkir. Mayevski, ermənilərin mümkün qədər daha çox yerdə və ola bildikcə daha çox münaqişə çıxarma cəhdləri sayəsində erməni qanı axıdıldığını bildirir. Rus konsulu, gizli erməni komitələrinin öz qardaşlarına qarşı mərhəmətsiz və qəddarca davrandıqlarını ifadə edərək, bu hadisələri gördükdən sonra komitəçilərin insani duyğulara sahib olduqlarından şübhə etməyə başladığını, əslində gizli komitələrin hər şeydən əvvəl Osmanlı ermənilərinin ən pis düşmənləri olduğunu yazır. Rus konsulu general Mayevski, komitələrin Anadoludakı erməni xalqının baş cəlladları olduğunu da işarə edir.

General Mayevskinin ermənilərdən dəfələrlə duyduğunu ifadə etdiyi "qan tökmək lazımdır!" ifadəsi, ermənilərin qələmə aldıqları şeirlərdə də əks olunmuşdur:

"Erməni həbsdən, ölümdən qorxmaz,
Vətəni üçün daima hərb etmək istər.
Kafidir qardaşlar, əsarətimiz, qan tökək, bizim olsun
Ermənistanımız...
Ararat vadisində cəsur erməni firqəsi,
Tüfəng və fişəng alaraq, vətən üçün hərb edəcəklər ...
Ey qana susamış ermənilər! Ərzurumdakı əsgəri təhrik et,
Ermənin son dəqiqəsidir, türkü əsirgəməyin"[45, s.298].

General Mayevski hipnoz altında olan komitəçilərin erməni qanı axdıqdan sonra Avropa dövlətlərinin dərhal işə qarışaraq ermənilərə yeni bir düzən quracaqlarına inandıqlarını yazır. Mayevskinin ifadəsi ilə, bu səbəblə komitəçilər mümkün olduqca çox yerdə, mümkün qədər çox erməni qanı axıtmağa çalışırlar. Çünki komitəçilər "Ermənilər öldürürlər!" deyə bağıraraq Qərb dövlətlərinin müdaxiləsini təmin etməyə çalışırlar. Mayevski ermənilərin öz-özlərini yox

etməklə məşğul olduqlarını, ancaq "Öldürürlər! Xilas edin!" şəklində bağırdıqlarını vurğulayır. General Vladimir Mayevskinin təsbit etdiyi kimi, erməni komitəçilərinin yaratdıqları anarxiya nəticəsində erməni xalqının vəziyyətinin pisləşməsi komitəçiləri o qədər də narahat etmirdi. Çünki erməni təbliğatçılar ən təbii insani duyğulardan da uzaqlaşmışdılar. Daşnaksütun komitəsinin yaydığı imzalı müraciətlər arasında "Biz öləcəyik! Bunu bilirik. Ancaq erməni millətinin iliklərindən beyninə qədər işləyən qiyam ruhu, bir erməni də sağ qalana qədər Sultanın taxtını təhdid edəcək şəklindəki təhdid və təcavüzkarlığı əks etdirən cümlələr diqqət çəkirdi. Sarkisyan isə, 1894-cü ildən sonra erməni komitələrinin macəraçı və anarxist taktikasını istifadə etdiklərinə işarə edirdi [102, s.307]. Mayevski Balkanlarda xalqların bir çox qəhrəmanları olsa da, ermənilərdə xalq qəhrəmanı olmadığını, çünki müstəqillik adına mübarizə edən döyüşçülərin əslində erməni xalqının cəlladları olduqlarını vurğulayır. Erməni komitələrinin silahlı dəstələri və orduları qarışıqlıq salaraq, qan tökülməsinə səbəb olduqlarını, daha sonra isə silahlarını istifadə edərək geri çəkilərək gizləndiklərini yazır. Mayevski hər cür müstəqilliyin qan tökülmədən əldə edildiyini, ancaq gərəksiz yerə, mənasızca və boşuna tökülən qanın o toplumun sosial vəziyyətini daha da pisləşdirdiyinə işarə edərək erməni komitəçilərini tənqid edir.

Rusiyadakı erməni siyasətçilərindən A.İ.Hatisov Türkiyədə Daşnaksütun və digər komitələrin "dayanılmaz dərəcədə istismarçı türk boyunduruğuna qarşı ermənilərin insan kimi yaşamaq haqları üçün mübarizə etdiklərini" irəli sürür. Hatisovun bu ifadələrini Mayevski, insanı üsyan etdirəcək dərəcədə həqiqəti təhrif etməsi kimi şərh edərək, əslində tam tərsi olduğunu söyləyir. Mayevski, Daşnaksütun və oxşar komitələrin fəaliyyətdə olduqları bölgələrdə süni olaraq qanlı qarşıdurmalar törətdiklərini, bunun nəticəsində də ermənilərin insan kimi yaşamaq hüququndan məhrum edildiklərini bildirir. General Mayevski Anadoluda erməni "fədailərin" meydana çıxmasından öncə Osmanlı ermənilərinin Rusiya sərhədləri daxilində yaşayan soydaşlarından pis şərtlərdə yaşamadıqlarını, hətta 1895-ci ilin yazında Ərzurum və Van vilayətlərini gəzərkən, erməni kəndlilərinin maddi vəziyyətlərinin Qafqaz ermənilərini qısqandıracaq qədər yaxşı olduğuna şahidlik edir. Ancaq aradan bir il keçdikdən

sonra Daşnaksütun və bənzəri komitələrin fəaliyyəti nəticəsində kürdlərin təhrik edilərək süni şəkildə çıxarılan ermənilərə qarşı baş vermiş hadisələrdə kəndlərin məhv edildiyini bildirir. Beləcə, Osmanlı Dövlətinin daxili işlərinə Avropa dövlətlərinin müdaxilə etməsi məqsədinin güdüldüyü ifadə edilir.

Sarkisyan isə XIX əsrin sonu və XX əsrin əvvəlində heç bir Avropa dövlətinin ermənilərin müstəqilliklərini istəmədiklərini, erməni problemini özlərinin siyasi və strateji maraqları üçün istifadə etdiklərini yazır. Ancaq tarixçi Sarkisyanın bu doğru təsbiti günümüzdəki erməni dairələrində qəbul edilmir. Digər tərəfdən, Anadoluda erməni komitəçilərinin öndəri olduqları üsyanlar nəticəsində bölgədə müsəlmanlar və ermənilər arasında etibarsızlıq, narahatlıq və qorxu hakim olmağa başlamışdı. Komitəçilərin hücumları və müsəlmanların qətl edilməsi ilə müsəlmanların özünümüdafiə haqları da qamçılanırdı. "Bu etibarsızlıq mühiti içində çıxan qarşıdurmalar bölgədə dövlət nüfuzunu sarsıtmaqda və beləcə erməni təbliğatçıları, türk dövlətinin bölgədə nüfuzunun təmin edə bilmədiyi mövzusunu ortaya atmaqla Qərb dövlətlərinin müdaxiləsini istəmələrini asanlaşdırmaqda idi" [36, s.16].

Rus konsulu Mayevski "Türk və kürdlərin xristianları öldürdükləri, qadınlarına təcavüz etdikləri, Avropanın qoruyuculuğu olmazsa, Şərq xristianlarının çoxdan yer üzündən silinəcəkləri və xristianların qətl edilməsinin türklərin gizli xəyalları olduğu şəklində bir düşüncənin" yarandığına işarə edərək bu ortaya atılan fikirləri rədd edir. Mayevski türklərin kinli olmadıqlarını bildirir və buna misal olaraq 1897 və 1912-ci illərdə baş vermiş türk-yunan müharibəsini göstərir. Həmin döyüşlərdən sonra türklərin Anadoluda yaşayan rumlulara qarşı düşməncə rəftar edəcəklərinin gözlənildiyini, amma bu cür düşmənçiliyin olmadığını vurğulayır. Hətta iki millət arasında sanki hər hansı bir döyüş olmamış kimi yaşamağa davam etdiklərini bildirir. General Mayevski "əgər türklər qana susamış olsaydılar, niyə türk-yunan müharibəsi əsnasında rumlulara qarşı hər hansı bir qətliam törətməmişlər?" deyə soruşur. "Rumlar türk dövlətinə qarşı bir təhdid ünsürüdürlərsə, qana susamış olduqları iddia edilən türklərin onları öldürməsi üçün daha yaxşı bir bəhanə ola bilərdimi?" deyə qiymətləndirən Mayevski Anadoluda yaşayan rumluların heç bir zərər

görmədiklərini, türk və rumluların birlikdə sülh içərisində yaşadıqlarını qeyd edir. Mayevski Avropa mətbuatının tamamilə yalan ad verdikləri Türkiyədə iki il yarım rumlulara qarşı bir hücum edilmədən yaşandığına inanmaqda çətinlik çəkdiklərini də bəyan edir. General Mayevski Türkiyənin rumlu əhalinin toplu yaşadığı bölgələri tanıdığını, buralarda bir jandarmın, polisin və rəsmi vəzifəlilərin də olmadığını, rumluların sülh içində yaşadıqlarını və türk idarəsinin onları maraqlandırmadığına diqqət çəkmişdir. Mayevski rumluların məntiqli davranaraq milli ideallarını sevgi ilə qoruduqlarını, səs-küy çıxarmadıqlarını, hətta ödəməli olduqları vergiləri zamanından əvvəl ödədiklərini, bunun əvəzində də onlara toxunulmamasını və bu torpaqların (ölkənin) özlərinin olana qədər burada istədikləri kimi yaşamaq istədiklərini nəql etmişdir. Mayevski, bununla birlikdə, hər bir rumlunun İstanbulun gələcəkdə yunan paytaxtı olacağına daim ümid etməkdə olduqlarını da qeyd etmişdir. İngilis kapitanı Norman isə, oxşar ifadələr işlədərək erməni üsyanları zamanı yunanların və katoliklərin zərər görmədiklərini vurğulamışdır. Bununla birlikdə, Anadoluda yaşayan yunanlar, İstanbul və İzmirin işğal edilməsinə qədər olan dövrdə qismən sülh içində yaşamışlar; ancaq işğal sonrası yunanlar da silaha sarılaraq Yunanıstandan gələn soydaşlarına dəstək olmuşlar.

General Mayevski, 1890-cı ilə qədər Türkiyədə bir erməni problemi olmadığını, Osmanlı Dövlətinin hər hansı bir xristian təbəəsinin insan hüquqlarının olmadığından şikayətlənmək üçün bir səbəblərinin olmadığına diqqət çəkir. Mayevski, ermənilərin vəziyyətlərinin yaxşı olmadığına görə, məcburi şəkildə islamiyyəti qəbul etdikləri kimi qəzet xəbərlərinin tamamilə əsassız, şişirdilmiş və böyük güclərin Osmanlı Dövlətinin daxili işlərinə qarışa bilmələri üçün məqsədli olaraq yazıldığını xüsusi qeyd edir. Mayevski Fransanın İstanbuldakı səfiri Cambonun yazdıqlarına istinad edərək, İngiltərədə Gladston hökumətinin Osmanlı Dövləti ilə barışmayan ermənilərı toplayaraq yetişdiklərini və onlara İngilis hökumətinin dəstək verəcəyini bildirdiklərini yazır. Nəhayət, General Mayevski Londonda fanatik ideallarla beyinləri yuyulmuş erməni təbliğatçılar 1890-cı ildə Anadoluda meydana çıxmağa başlayaraq, ermənilər arasında milliyyətçilik və müstəqillik fikirlərini yaymağa başladıqlarını anladır.

İngiltərə hökumətinin 1877-1878-ci illərdəki Osmanlı-Rusiya müharibəsini izləmək üçün Türkiyəyə göndərdiyi Kapitan Norman, İngiltərənin tətbiq etdiyi erməni siyasətini tənqid edərək "Şərq siyasətimiz müvəffəqiyyətsizliyə uğradı, həm də çox acı bir şəkildə. Türkləri özümüzdən soyutduq. Ermənilərə boş ümidlər verdik və ölkəni qanla boğduq. Ortaya çıxardığımız pisliklərin çarəsini tapmaq vəzifəmizdir; lakin təəssüf ki, Anadoluda qiymətli həyatlarını itirmiş on minlərlə insanı Türkiyəyə geri verə bilmərik" [54, s.73] deyərək, həm də ürəklə özünütənqid edir. Beləcə, ingilis kapitanı Norman, Türkiyədə yaşanmış qanlı hadisələrdə ingilis barmağı və məsuliyyəti olduğunu qəbul edir. Bundan əlavə, Norman, Osmanlı Dövləti və İngiltərə arasındakı əlaqələri qiymətləndirərkən, "Verilən tövsiyələrin yanında həmişə təhdid vardır və dostca bir əlaqəyə girmək üçün heç bir səy sərf edilmir. Mətbuatımızda, padşah açıqca soyqırımlara yol açmaq və insanları məhkəməsiz öldürməkdə günahlandırılır. İsbatı qeyri-mümkün olan bu ittihamlar axmaq olduqları qədər də zalımcadır" [54, s.74] deməklə, Osmanlı Sultanı II Əbdülhəmidi günahlandıran ittihamların əsl mahiyyətini aydınlaşdırır.

İstanbuldakı münaqişələrdən sonra hadisələri qiymətləndirən Almaniya Baş naziri Gogenloe, Londondakı qiyamçı anarxist erməni komitələrinin qanlı hadisələrə səbəb olduğunu ifadə edir [102, s.185].

Erməni üsyanları ilə əlaqədar təhlillərinə davam edən Mayevski, Anadolu vilayətlərində yaşanan xaos və anarxiyanın kürdlər və türklər tərəfindən deyil, əksinə, erməni təbliğatçıları tərəfindən yaradıldığına şübhə edilə bilməyəcəyini vurğulayır. General Mayevski mətbuatdakı məqalələrdə "Türklər ermənilər öldürürlər!" şəklində yazıldığını, ancaq hadisələrin kimlər tərəfindən və necə çıxarıldığı mövzusunda heç bir şey yazılmadığını, halbuki qarşıdurmalarda müsəlmanların da böyük itkilərinin olduğunu qeyd edirlər. Mayevski, "Daşnaksütun" və "Qnçak" kimi erməni milliyyətçi komitələrinin varlıqlarını davam etdirmələrinin ermənilərə davamlı olaraq yeni bəlalar gətirəcəyini bildirir. Hətta gələcəkdə erməni xalqına gətirəcəkləri pisliyi təxmin edilə bilməyəcəyini yazmaqla, sanki Birinci Dünya müharibəsində yaşanan acı hadisələri əvvəlcədən xəbər verir. Digər tərəfdən, ermənilərin Anadoluda çıxardıqları üsyanların Rusiyaya da

təsir etdiyi barədə sənədlər mövcuddur. İstanbuldakı Rusiya səfiri Zinovyev, Sankt-Peterburqa göndərdiyi bir teleqramda Türkiyədəki erməni hadisələrinin qısa bir tarixçəsini verdikdən sonra teleqramın yazıldığı tarixdə ermənilərin Anadoludakı fəaliyyətləri haqqında ətraflı məruzə təqdim edir. Zinovyev, Türkiyə ermənilərinin Osmanlı hökumətinə qarşı XIX əsrin sonlarına doğru Anadoluda reallaşdırdıqları üsyan hərəkətlərinin Rusiyada yaşayan ermənilər arasında da milli şüurun inkişafına dəstək təmin etdiyini vurğulayır və Tiflisdə qurulan Daşnaksütun komitəsinin erməni fəaliyyətlərini istiqamətləndirməkdə əhəmiyyətli rolu boynuna götürdüyünü bildirir. Bu komitənin Rusiya və Osmanlı ermənilər arasında xəbərləşmə və əlaqəni təmin etdiyini, həmçinin, 1904-cü ildə Bitlisdə üsyana təşəbbüs edən erməni silahlı dəstələrinə silah göndərdiyinə də diqqəti çəkir [56, s. 22-24].

Erməni üsyanlarının ümumi bir qiymətləndirməsini aparsaq, görərik ki, 1890-1908-ci illər arasında Türkiyənin fərqli vilayətlərində asayişi pozan hadisələr baş vermişdir. Erməni komitəçiləri, törətdikləri üsyanlarla böyük güclərin Osmanlı Dövlətinin daxili işlərinə müdaxilə etmələri üçün şərait yaratmaq məqsədini güdürdülər. Üsyançılar, bir tərəfdən müsəlman və erməni qanı tökərkən, digər tərəfdən Qərb ictimaiyyətinin dəstəyini ala bilmək üçün gerçəkləri tamamilə təhrif edərək, Osmanlı Dövlətinin xristian ermənilərini qətl etdiyi şəklində əks etdirmişlər. Türkiyədə fəaliyyət göstərən Qərb diplomatları və xristian missionerlərlə Avropanın qəzet və jurnallarında qərəzli, birtərəfli yazılar qələmə alan ermənipərəst jurnalistlərin də onların tərəfini tutmaları ilə Türkiyənin üsyançı ermənilərinin asayişi pozan hərəkətləri hədsiz dərəcədə şişirdilərək, təhrif edilərək Qərb ictimaiyyətində "məzlum, zərərçəkmiş xristian erməni və barbar, vəhşilik saçan müsəlman" imici yaradılmışdır.

Həmçinin Osmanlı Məclisinin üzvü və Ayan rəisi Əhməd Rza bəy öz xatirələrində Avropada yaşadığı dövrdə II Əbdülhəmidə qarşı ermənilərlə təması olduğunu ifadə etdikdən sonra "Avropada ictimaiyyət ermənilərin lehinə idi. Çünki birincisi, xristian idilər; ikincisi, pulları vardı; üçüncüsü, çox təbliğat aparırdılar. Amerikalı, ingilis zənginləri, erməni zənginləri onlara çox pul verirdilər... Biz ermənilər daxil olmaqla, ümumiyyətlə, bütün osmanlıların zülm gördüyünü elan

edirdik. Ermənilər isə yalnız özlərinin, həm də türklər tərəfindən zülm gördüklərini hər kəsə yayırdılar. Təbliğatlarına əhəmiyyət verdirmək üçün çox yalan uydurur, şişirdirdilər. "Muxtariyyət istədikləri türklərə qarşı zərrə qədər sevgiləri yox idi" deməklə, ermənilərin hadisələri şişirtməyə meylli olduqlarına və təbliğata verdikləri əhəmiyyətə işarə edir. "Məzlum və zərərçəkmiş erməni" imicinin yaradılmasında Qərb dövlətlərinin aşkar və ya üstüörtülü şəkildə ermənilərə dəstək vermələri də rol oynamışdır. Çünki Qərb müstəmləkəçi güclərlə Rusiya da zaman-zaman Türkiyədə ermənilərin törətdikləri hadisələri bəhanə edərək, Osmanlı Dövlətinin daxili işlərinə qarışmışlar; Erməni problemini bir təzyiq və güzəşt qoparma ünsürü kimi istifadə edib öz milli maraqlarını reallaşdırmağa çalışmışlar. Osmanlı Dövləti isə, ölkə bütünlüyünü təhlükəyə atan üsyanları yatırmaq üçün güc sərf etmiş, ancaq Qərb dövlətlərinə bəzi güzəştlər də vermək məcburiyyətində qalmışdır.

Məsələnin obyektiv təhlili göstərir ki, türk torpaqlarında dövlət qurmaq səylərini fürsət düşərkən reallaşdırmaq məqsədi ilə ermənilər və onlara havadarlıq edən tədqiqatçılar zaman-zaman heç bir halda həqiqəti əks etdirməyən rəqəmlərlə dünya ictimaiyyətində yanlış təsəvvür yaratmışlar, Osmanlı dövlətinə qarşı qarayaxma kampaniyasına rəvac verməklə dünya ictimai fikrini çaşdırmağa çalışmışlar. Eyni zamanda onlar elə görüntü də yaradırdılar ki, guya türklər tərəfindən 1,5 milyon erməni soyqırımına məruz qalmışdır. Lakin mövcud arxiv sənədləri ermənilərin bu iddialarının tamamilə uydurma olduğunu sübut etmişdir.

Elə buradaca qeyd edək ki, vaxtı ilə ABŞ Prezidenti Ronald Reyqan özünün hüquq məsələləri üzrə müşaviri olmuş Bryus Feynə ermənilərin Türkiyədə soyqırımına məruz qalması ilə bağlı təhqiqatlarını aparılması tapşırıqların verir. Bryus Feyn digərləri ilə birlikdə məsələ ilə bağlı Şərqi Avropa və Osmanlı imperiyasının arxivlərində işləməyə başlayır. Nəticədə ermənilərin bu iddialarının bir daha əsassız olduğu ortaya çıxır. Müəyyən edilir ki, "erməni soyqırımı" məsələsi erməni xülyalarından başqa bir şey deyildir. Eyni zamanda Bryus Feyn bunu da təsdiqləyir ki, Osmanlı imperiyasında həmin dövrlərdə türklərin istifadə etdikləri hüquqlardan digər etnik qruplar da istifadə edirdilər.

Və məhz ermənilər Türkiyədə ən yüksək vəzifələrdə çalışırdılar. Bryus Feyn belə bir məsələyə də toxunur ki, Birinci Dünya Müharibəsi dövründə ermənilər ərazısında yaşadığı Türkiyə dövlətinin maraqlarına zidd gedərək, ruslar tərəfə keçərək, Qafqazda türklərə qarşı vuruşmuşlar. Nəhayət komissiya belə bir nəticəyə gəlmişdir ki, arxivlər açılsa, ermənilər bütün dünya qarşısında türklərdən üzr istəməlidirlər. Bu həqiqətləri ermənilərin özləri yetərincə yaxşı bilsələr də, əsassız iddialarından yenə də əl çəkmirlər. Əlbəttə, bu, özünü xalq adlandırmaq iddiasında olan ermənilərin sonsuz bədbəxtliyinə verilmiş fərman kimi başa düşülməlidir.

Sual və tapşırıqlar:

– Bir sıra erməni müəllifləri tərəfindən "erməni soyqırımı" ilə bağlı iddiaların irəli sürülməsində başlıca niyyətləri nədən ibarət idi?

– Ermənilərin bu yalanlarını hansı tarixi faktlarla sübut edərdiniz?

– Bu hadisələrlə bağlı dünya müəlliflərinin (tarixçilərinin) hansı ölkələrdən olduqlarını sadalayın.

– "Daşnaksütun" və "Qnçak" kimi erməni milliyyətçi və terror təşkilatlarının gələcəkdə ermənilər hansı problemlərlə üzləşdirəcəyini öyrənin.

ERMƏNİ UYDURMALARI QƏDİM ERMƏNİ DİLİ HAQQINDA QEYRİ-REAL İDDİALAR

Ermənişünasların həqiqətə uyğun olmayan fikirlərinə görə, qrabar və ya "klassik erməni dili" yazılı mənbələrdə qorunub saxlanılmışdır. Bunu erməni yalanını açan elə ermənilərin tanınmış nümayəndələrindən birinin timsalında diqqətə çatdıraq. X.Abovyan yazırdı: "Mənə, qədim dildən bu qədər seçilən müasir dil məlum deyil, necə ki, yeni erməni dili qədim erməni dilindən seçilir... heç bir dil mənə bu qədər çətin görünməmişdi (söhbət qrabardan gedir)". Bu sözlərin müəllifi altı dili mükəmməl bilən X. Abovyandır. Sonra o, çətinlikləri törədən səbəbləri anladır: "...bütün anlayışlar, sözlərin quruluşu, hətta ayrı-ayrı sözlər müasir ifadə yolu və təfsirinə uyğun deyil" [66].

Qeyd etməliyik ki, ilk dəfə qrabarın tat (orta fars) dilinin 400 fars və türk mənşəli sözlərindən başqa erməni dili ilə heç bir əlaqəsi olmaması haqqında Yerevan Universitetində təhsil alıb qrabarı erməni dili ilə bərabər öyrənən tanınmış azərbaycanlı filoloq, mərhum M.Seyidov da qeyd etmişdir. Lakin o vaxtlar, yəni 1987-ci ildə onun sözləri erməni saxtakarlarına inandırıcı görünmürdü. Belə ki, görkəmli dilçi alim Mirəli Seyidovun haqlı olduğu Zərifə Mirzoyanın "Kommunist" türkmən qəzetinin səhifələrində çap edilmiş məqaləsini oxuduqdan sonra bəlli oldu. Erməni-Azərbaycan münaqişəsinin əvvəlində Azərbaycanı tərk etmiş milliyyəti erməni tatlardan olan Zərifə Mirzoyan yazırdı: "1937-ci ilə qədər məktəblərdə biz o vaxt türk adlanan Azərbaycan və rus dilindən savayı doğma tat dilini öyrənirdik. Məhz bu dili Ermənistanda "qədim erməni dili" hesab edirlər. Lakin 1937-ci ildən sonra Azərbaycan və tat dillərinin tədrisi dayandırıldı və gözəl yiyələnib hər gün danışdığımız dillərin əvəzinə tədrisə yad olan erməni dilini daxil etdilər" [27].

Bəli, məhz tatlar qrabarla yazıb-yaratmışlar. Ermənilərə gəldikdə isə, XX əsrin əvvəllərində ermənilərin inkişafı barədə məlumat verən yazıçı V.Papazyan qeyd edirdi: "Erməni xalqı cahil, savadsız, vəhşi və ilk öncə şüursuz idi. İnsanlar əsasən soyğunçuluq və quldurluqla məşğul olurdu... onlar şimal vəhşiləri kimi ov hesabına yaşayırdı" [27].

Eyni sözləri bir neçə əsr əvvəl Moisey Xorenasi də demişdir: "Qədim əjdadlarımızın bədbin xasiyyətini qınaq edərək xatırlamaya bilmərəm, amma burada onları məzəmmət edəcəyəm. Əgər tarixdə və dastanlarda öz zamanı, tarixin gedişatını yazılı şəkildə əbədiləşdirən çarlar tarixə layiqdirsə, onların ardınca bu tarixə arxivlərdə kitabların yazılması üzərində zəhmət çəkənlər də layiqdir. Onların sayəsində biz yazıları oxuyur, dünyəvi və vətəndaş qanunlarını öyrənirik. Ələlxüsus, xaldeylərin və süryanilərin, misirlilərin, yunanların müdrik çıxışlarını oxuyur və onların bu işə necə əmək göstərmələrinə, düşüncələrinə qibtə edirik. Baxmayaraq ki, biz balaca cərgəyik, sayımız məhduddur, qüvvəmiz azdır. Dəfələrlə başqa dövlətlər tərəfindən ram edilmişik, bununla belə, bizim barəmizdə əlifbamızın olmaması ucbatından yazılarda önəmli bir şey yoxdur... bunu kitablara yazmağın qayğısına qalan olmayıb. Beləliklə, əgər onlar özlərinin xeyri barədə düşünməyib və tarixlərini yazmayıblarsa, onlar günahlandırılmalıdırlar. Onlar deyə bilərlər ki, bunu o vaxt ədəbiyyat və yazının olmaması, bir-birinin ardınca baş vermiş müxtəlif müharibələrin ucbatından edə bilməyiblər. Lakin bu, boş fikirdir. Çünki müharibələrarası boşluq olub və o zamanlarda onlarda əmlak, evlər, icma məhkəmələri və sazişləri, ələlxüsus, ata-baba dövlətinin varisliyi haqqında fars və yunanca yazılan kitablar olub. Mənə elə gəlir ki, indiki və qədim ermənilərin elmə və mahnıların toplanmasına marağı olmayıb. Ona görə, vəhşi, axmaq və şüursuz adamlar haqqında danışmaq əbəsdir" [27]. Göründüyü kimi, erməni dilinin qədim tarixə malik olması iddiasının elə ermənişünaslar tərəfindən uydurma və yalan olduğu tutarlı faktlarla sübuta yetirilir.

Tanınmış tədqiqatçı alimlər Sədi Nuriyev və Rauf Hüseynov ermənilərin saxta etnik mahiyyətinin və tarixi kimsizliyinin erməni şəxs adlarında əks olunduğunu vurğulayaraq qeyd edirlər ki, ermənilər öz soyadlarını əsasən türk, fars, ərəb, Azərbaycan, yəhudi və başqa millətlərin dillərindən mənimsəmişlər. Məsələn: Ağacanyan (türk), Azadyan (fars), Arazyan (Azərbaycan), Çilingəryan (Azərbaycan) [31, s.50-51].

Sual və tapşırıqlar:

– Erməni dilinin qədimliyinin saxtalığını nə ilə izah edə bilərsiniz?

– Həqiqətdən uzaq olan erməni uydurmalarını elə ermənişünasların özləri hansı faktlarla sübuta yetirirlər?

– Erməni dilinin qədimliyinin saxta olduğunu sübuta yetirən erməni müəllifləri kimlərdir və onların mövqeyini açıqlayın.

ERMƏNİLƏRİN BƏD ƏMƏLLƏRİ VƏ MƏKRLİ NİYYƏTLƏRİ TARİXİ MƏNBƏLƏRDƏ

1. a) "Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe olmalıdır" **("Şeypur"a 25.10.1918, № 4).**

b) "Urartu dili və xalqı ilə erməni dili və xalqının heç bir qohumluğu yoxdur. Ermənilər Urartuya eramızdan əvvəl VI əsrdə gəlmişlər. Urartulardan bəhs edən mixi yazılar isə eramızdan əvvəl IX əsrə aiddir. Aydındır ki, bu yazıların ermənilərdən bəhs etdiyini güman edənlər böyük səhvə yol verirlər. Çünki mixi yazılar ermənilərin gəlişindən azı üç əsr əvvəl yazılmışdır və buna görə də onlardan bəhs edilə bilməzdi".

c) "Ermənilər Frigiyadan gəlmədirlər. Onlar tədricən Frigiyadan şərqdə yerləşən yüksəkliklərə yiyələnərək, oradan qədim urartuluları sıxışdırmış, onların adına, dininə, dilinə və rəvayətlərinə yiyələnib, özlərininki ilə əvəz etmişlər" (Fransua Lenorman) **(Çavçavadze İ. Armyanskiye uçenıye i vopiyuşiye kamni. Tiflis, 1902, s.92-98).**

2. F.Lenormana görə, ermənilər urartulu adına nahaq yiyələnmişlər və keçmiş "Böyük Ermənistan"ı nahaq özlərinin əzəli vətəni sayırlar (Henrix Raulinson) **(Çavçavadze İ. Armyanskiye uçenie i vopiyuşie kamni. Tiflis, 1902, s.92-98).**

3. Məhz o mixi yazılar ki, ermənilərin xeyrinə izah edilir, həmin yazılar məşhur Lenorman tərəfindən diqqətlə öyrənilmiş və ermənilərə aid olması qəti rədd edilmişdir **(Çavçavadze İ. Armyanskiye uçenıye i vopiyuşiye kamni. Tiflis, 1902, s.92-98).**

4. Buradan heç də o nəticə çıxarılmamalıdır ki, ermənilər elə güclü imişlər ki, urartuları sıxışdırmışlar. Yox, tarixdən məlumdur ki, e.ə. VII əsrdə Assuriya hökmdarı Sarqon Urartu dövlətini çox ciddi surətdə məğlub edir və hökmdar Russa intihar edərək özünü öldürür. Dağıdılmış bu ölkəyə isə fürsəti əldən verməyən ermənilər sahib olurlar. "Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım" – demişdir atalar. Bu kökəni ermənilər Türkmənçay sülh müqaviləsində də tapdılar. İrəvan və Naxçıvan xanlıqları "Erməni vilayəti adlandırıldı. Yuxarıda deyildiyi kimi, heç bir sosial baza yox idi. Rusiya imperiyası dağıldıqda isə indiki "Ermənistan" yaradıldı.

"Həqiqətən, erməni xalqı tarix səhnəsində yalnız eramızdan əvvəl VII əsrdə Urartu dövlətinin süqutundan sonra görünməyə başlamış... və gəlmə xalqdır" **("Armyanskaya traqediya 1915 qoda". Baku, 1990. s.15).**

5. "Qədim rəvayətə görə İncil cənnəti Ermənistanın ərazisindədir. Başlanğıcını Ermənistandan alan Dəclə və Fərat çayları da Cənnət çaylarıdır" (Xaçatur Abovyan) ***(Azərbaycan Sovet* Ensiklopediyası (ASE), VII cild, s.387).**

6. T.Svyatoxovski müxbirin sualına cavab olaraq demişdir: "Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla, Zaqafqaziyada yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüblər".

7. "Ulu Şahım,... Beynənnəhreyndən (Mesopotamiyadan – Dəclə və Fərat çayları arasından) Van gölü sahillərinə, oradan da Qafa (Qafqaza) oğuz-türk torpaqlarına 5-5,10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürü yaradırdılar ki, bu da istiqbalda nəsillərimizə başağrısı verəcək... Bu işləri Ağkilsə (Eçmiədzin) kəndində əyləşən Dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir. Qarışıq nikahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dışarına. Sənin qulun Rəvan xan". ("İrəvan əyalətinin icmal dəftəri" 1519), (İrəvan qalabəyisi və Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan) **(Əmir Quliyev. Ermənilərin tarixi-coğrafi vətəni haradadır? "Respublika", 25.06.1999).**

8. "Ermənilər "Erməni yaylası" adlanan sahənin Qərbində yaşayırlar" (yəni müasir Ermənistandan xeyli uzaqda) (**Herodotun "Tarix" kitabından**).

9.Məşhur akademiklər İ.Orbeli, S.Yeremyan və digər erməni alimlərinin dəqiq elmi araşdırmaları, Qarabağın erməni əhalisinin dış sisteminin analizi göstərmişdir ki, əsl ermənilər bu ərazidə gəlmədirlər. Əvvəlki Qarabağ ermənilərı isə albanlardan dönmədirlər. İndi yaxşı məlumdur ki, müasir Ermənistan erməni etnosunun vətəni deyil, burada o, qeyd-şərtsiz gəlmə ünsürdür. Qədim erməni xalqı bizim eradan əvvəl I minilliyin I yarısında yuxarı Fərat çayı vadisində

yerləşmişdir. Hələ Herodotun zamanından ermənilər Erməni Yaylası adlanan ərazinin qərb hissəsində məskunlaşmışlar. Ksenofont da Herodotun dediklərini təsdiq edir" ***(İqrar Əliyev).***

10. ..."Əslində Ermənistanda yaşayan azərbaycanlıların torpağı tarixən onların öz qanuni torpağıdır və onlar bir sahib kimi öz erməni "qonaqlarına" yaxşı münasibət göstərmişlər. Lakin Azərbaycanın Zəngəzuru ermənilərə, Qazax rayonunun bir hissəsi isə Gürcüstana verilmişdir" ***(Odri L.Altstadt).***

11. "Ermənilərin əcdadı Çarox çayı hövzəsindən gəlmişlər **(İstoriya drevneqo mira. M. 1979, s. 220)**.

12. "Ermənilərin əcdadı Balkanlardan gəlmişlər" **(Erməni tarixi. İrəvan, 1971, s.965).**

13. Ermənistan Araz çayından çox cənubda – o çayın qolu olan Qaraçayın Qərbində yerləşir və Qafqaza dəxli yoxdur **("Ədəbiyyat və İncəsənət" qəzeti, 15.01.1998, №3. – "İslam ensiklopediyası". Akademik Z.Bünyadovun tərcüməsində).**

14. "Erməni xalqı öz dövlətçiliyindən çox tez – bizim eranın V əsrində məhrum olmuşdur. Həm də Qafqazda yox, Mesopotamiyada" **(Yuriy Pompeyev. "Qarabağ qan içində" ("rusca"). Bakı, 1992, 208 s.).**

15. Seleviki imperiyası b.e.ə. 189-cu ildə dağıldıqdan sonra Ermənistan romalıların ixtiyarına keçdi. Orada sərdarlıq edən fars mənşəli qardaşlar – Artaksiyas və Zariardis Roma senatının himayəsinə keçdi.

Bu vaxtdan Ermənistanda Əhəmənilərin sülaləsi müstəqil dövlətlərinin bərpası mübarizəsi başladı. Fars əsilli II Mitridat (b.e.ə. 123-88-ci illər) idarəçiliyi zamanında müvəffəqiyyət qazandı. O bütün Ermənistanı tutdu və Romadan asılı olan erməni knyazı II Artavazdın oğlu Tiqranı girov götürdü.

Tiqran atasının ölümündən sonra (b.e.ə. 95 və ya 94-cü ildə) baş vermiş tarixi məqamdan (İran və Roma müharibələrinin səngiməsindən) istifadə edərək atasının Mitridat tərəfindən tutulmuş torpaqlarının bir hissəsini qaytardı və orada özünü çar elan etdi (b.e.ə. 95-65-ci illər). Onun hökmdarlığı altında isə müxtəlif xalqlar mövcud idi. Tiqran isə fars əsilli idi Ermənilər adlarına çıxardıqları bu çarlıq 30 il davam etdi. Bundan sonra tarixi-coğrafi ad olan Ermə-

nistan gah İranın, gah da Romanın hökmranlığına keçirildi **(Y.Qazıyev. "Erməni məsələsi. Yalanlar və gerçəklər". Bakı, "Nurlar", 2009, 344 s.).**

16. "Bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü xalq kimi mövcud olmamış, Türkiyə və İran qaçqınları kimi XIX yüzilliyin birinci yarısında görünməyə başlamışlar" **(V.L.Veliçko "Kavkaz: Russkoye delo i mejduplemennıye voprosı", 1954, s.80).**

17. "1908-ci ildə Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu 1828-ci ildən sonra İran və Türkiyədən Qafqaza köçürülənlərdir ***(N.İ.Şavrov).***

18.Onlar əlverişsiz siyasi-coğrafi mövqeyi bəhanə gətirir, dünyaya qapı açmaq üçün Qara dənizə can atır, bununla da kifayətlənməyib Voronejə qədər yiyələnmək istəyirlər ***(V.L.Veliçko).***

19. Ermənilər Qafqazda və dünyada yaranmış vəziyyəti özlərinin "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün əlverişli hesab edərək Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları irəli sürməyə başlamış və Azərbaycan torpaqlarında Naxçıvan, Zəngəzur və Qarabağ qəzalarında etnik təmizləmə və türk-müsəlman soyqırımı siyasəti yeritmişlər **(Dj.K.Makkarti. "Turki i Armeniya").**

20. Əlbəttə, ermənilər Azərbaycan torpaqlarında, hətta indiki Ermənistan Respublikasının torpaqlarında da avtoxton əhali deyillər. X.Hyubşman, Q.Bonfante, E.Benvenist kimi nüfuzlu alimlər, o cümlədən görkəmli erməni alimi, akademik Y. Manandyan belə hesab edirlər ki, ermənilərin ulu babaları və onlara qohum olan frakofrikiya tayfaları hələ e.ə. II minilliyin əvvəllərində Balkan yarımadasında, daha erkən dövrdə isə Qara dənizdən şimala tərəf vilayətlərdə yaşayırdılar **(Ermənilər dünya terror təşkilatlarında – "Respublika" qəzeti 25.09.2002, № 221 (1557)).**

21. Məhz bu tayfalar, qrupu və başqaları da e.ə. XVIII əsrin ortalarında Kiçik Asiyaya soxulmuşlar (İ.M. Dyakonov).

22. Ermənilər Kiçik Asiyada görünəndən sonra onların uzun sürən yerdəyişmələri, müxtəlif tayfalarla qaynayıb qarışması baş verir; e.ə. II minilliyin ortalarından bir qədər sonra və e.ə. I minilliyin ortalarından əvvəl Erməni Yaylası adlanan ərazidə yerləşirlər. Onlar buraya sinifli cəmiyyətdən bixəbər, həm də əkinçiliklə məşğul olan köçəri maldarlar kimi gəlmişlər; dağ təbiəti və erkən sinifli cəmiyyətin

sosial şəraiti ilə hələ o zaman erməni dilinə keçməmiş avtoxtonlar vasitəsilə tanış olmuşlar **(Dyakonov İ.M. Predıstoriya armyanskoqo naroda. Yerevan, 1968, s.a.36.).**

23. "Qədim ermənilər, təxminən bizim eradan əvvəl birinci minillikdə, Fərat çayının yuxarı vadisi zonasında meydana gəlmişdir **(Diyakonov İ.M. Predıstoriya armyanskoqo naroda, Yerevan, 1968, s.a.36, b.l03.c. 117, ç.237.).**

Göründüyü kimi, İ.M.Dyakonovun mülahizələrində ziddiyyətlər vardır. Belə ki, o bir tərəfdən ermənilərin Kiçik Asiyaya gəlmələrini b.e.ə. XVIII əsrin ortalarına aid edir, daha doğrusu b.e.ə. II minilliyin ortalarından sonraya, digər tərəfdən isə ermənilərin Kiçik Asiyada, Fərat çayının yuxarı vadisində e.ə. I minillikdə göründüklərini bildirir. Müfəssəl və dəqiq fakt yoxdur. Görünür, o bu mülahizələri dəqiq faktlara əsaslanmadan irəli sürmüş, bu barədə öz fikrini deməmişdir.

24. Ermənilər şimala doğru hərəkət edərkən də İran, Türkiyə və Qafqazda torpaq iddialarından əl çəkməmişlər. Onların arzu etdikləri "Böyük Ermənistan" Qafqazla birlikdə Şimala doğru Voronejə qədər götürüldükdə Fransanın ərazisindən də çoxdur **(V.Z.Veliçko, Kavkaz: Russkoe delo... s.134).**

25. "Tarixçilərin qeyd etdiyinə görə, tarixən balaca bir ölkə olan Ermənistan Artaks və Zariadrisin, eləcə də onların tərəfdarlarının səyləri nəticəsində böyümüşdür" (Strabon. Coğrafiya. 11-ci kitab. S.123).

26. "Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdır. Bu ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır" (**K.Patkanov.Vanskiye nadpisi... SPb, 1981, s.97).**

27. "Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada, yəni Rusiyadan kənarda yerləşirdi" **(İşxanyan B. Qafqaz xalqları (rusca), Sankt.-Peterburq, 1916, s.18).**

28. "İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonradan erməni feodalları tərəfindən zəbt edilmişdir" **(İ.Orbeli. Seçilmiş əsərləri (rus dilində) s.91).**

29. "Eramızdan əvvəl VII və VI əsrlərdə meydana gələn Hind-Avropa xalqlarından olan ermənilərin gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə yerli Kaldis və Xaldem xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı".

"Ermənistandan şimalda Qafqaz arxasında iki ölkə yerləşirdi. İberiya (indiki Gürcüstan) və Albaniya (indiki Azərbaycan)". "Daha sonralar erməni missionerləri albanların ölkəsini (müasir Azərbaycan) xristianlaşdırmağa başladılar" **(H.Pastırmacyan. Ermənistan tarixi, 95**).

30. Ermənilərin psevoad kimi qəbul etdikləri Ermənistan b.e.ə. VI əsrdə Midiyanın ardınca Əhəmənilərin, daha sonra Makedoniyalı İsgəndərin fəthi nəticəsində Selevki imperiyasına tabe edilmişdir. Həmçinin Ermənistan olan ərazi 300 il parfiyalılara, dörd əsr Sasanilərə tabe olub və bəzən də Sasanilərlə Roma arasında bölüşdürülmüşdür. Sonra ərəblərdən, müəyyən müddət Bizansdan asılı olmuş, XI-XVI əsrlərdə isə səlcuqlar, 100 ilə yaxın Azərbaycan Atabəyləri, monqollar, teymurilər, qaraqoyunlular, ağqoyunlular, səfəvilərə tabe olmuşlar. Sonradan İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarına formal sahib çıxaraq, həmin ərazilərə köç edib 200 il (1828-1991-ci illər) Rusiya hökmranlığında inildəmişlər.

31. "Yeni vətənlərində (Kiçik Asiya) təzəcə məskunlaşan qaliblər (ermənilər) öz növbələrində məğlubiyyətin acısını daddılar" **(Jan-Pyer Alem. "Mən nə bilirəm?" Ermənistan kolleksiyası. RÜF, Paris, 1983, s.9).**

32."...Ermənilər və türklər, gürcülər və albanlar arasında interetnik inteqrasiya prosesində ideoloji və mədəni assimilyasiya getmişdir; albanların bir hissəsi ermənileşmiş, digər hissəsi isə gürcüləşmişdir (**Fəridə Məmmədova. Qafqaz-Alban etnosu, 2005, s. 80).**

33. "Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirəcək aydın və dəqiq dəlillər yoxdur" **(Manuk Abeqyan. Erməni ədəbiyyatı tarixi (erməni dilində). 1975, s. 79).**

34. "Ermənilər, əsasən, müsəlman mülkədarların torpaqlarında yerləşmişlər. ...Bu erməni mühacirləri xəzinəyə heç bir xeyir verməyən bizim Gürcüstandakı tacir ermənilərdən yaxşıdırlar, çünki İrandan gələnlər əksərən sənətkar və kəndlilərdir" **(A. Qriboyedov. Əsərləri, I c., s. 339-344).**

35. ...Erməni inqilabçı təşkilatları Gənc Türklərə rəğbət *bəsləyirdilər* ***(Leninqrad DTA, fond 821, S.139, iş 173, bölmə 96).***

36. ...Çağırışlarda "Türkiyə" sözü "Rusiya" sözü ilə əvəz olunub. Bir neçə il bundan əvvəl olduğu kimi ruslar tərəfindən qəbul olunan ermənilər Türkiyəyə silah və könüllülər aparırdılar, hal-hazırda erməni "fədailəri" rus sərhədini genişləndirməyə girişiblər". (Eçmiədzin sinodunun prokuroru A. Frengein 1907-ci ildə Sankt-Peterburq Müqəddəs sinoduna raportu. (***Leninqrad*** **DTA, fond 821, S.139, iş 173, bölmə 96).**

37. "İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində 1918-ci ildə yaradılıb, qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarix boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi" **(Jorj de Malevil. 1915-ci il Erməni faciəsi).**

38. "Erməni məhəllə məktəblərində şagirdlər Böyük Ermənistanın xəritəsini öyrənirlər ki, onun da ərazisi, demək olar ki, Voronejə qədər çatır və paytaxtı da Tiflisdir" **(V.L. Veliçko. Kavkaz: Russkoye delo i mejduplemennıye voprosı).**

39. "Orta əsrlərin əvvəlindən ermənilər diaspor xalqdır. Əksinə, Azərbaycan türkləri və gürcülər SSRİ xalqları arasında ən az "mühacirdirlər" **(A. Benniqsen. Sovet istilası: Qafqaz detonatoru).**

40. Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb **(Dyakonov İ.M. K predıstorii armyanskoqo yazıka o faktax svidetelstvax i loqike. Yerevan, 1983, s.166).**

41. Fərat çayının yuxarı axarındakı ölkələrə Ermənistan deyirmişlər **(Herodot).**

42. Xəzərsahili xalqlar hunlar, albanlar, kaduslar, mordovlar və başqalarının sıralarında erməni adına rast gəlmədim **(Dinisi).**

43. Erməni çarları qonşu xalqların xeyli torpağını işğal etsələr də orada davam gətirə bilməmişlər **(Strabon).**

44. Ermənilər... firiqlərlə birlikdə Qərbdən e.ə. VI-VII əsrlərdə Şərqə gəlmişlər **(H. Pastırmacyan. Ermənistan tarixi).**

45. Ermənilər işğalçılar kimi gəlmiş və yerli əhalini əsarət altına almışlar **(R. Hovanesyan).**

46. Erməni qul və kənizləri, Korinfdə, Afrodita kənizləri, habelə Hindistanın məbədlərində xidmət edən dini rəqqasələr – ilk fahişələr idi **(F. Engels).**

47. Ermənіləri bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcəklər **(Əmir Teymur).**

48. Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər ***(Aleksandr Düma).***

49.Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları ilə məşhurdurlar. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər **(Adam Mets, İsveçrə şərqşünası).**

50. Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa əlaqədə olmuşlar. Dövlətini və şərəfini çoxdan itirmiş erməni qadınları ilə münasibətdə olan İran əsgərləri, türklər, gürcülər və dağlılar, görünür heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən ermənilərin damarlarından hər cür qan axır (**V.L.Veliçko. Rus şairi, publisist).**

51. Bəşəri təfəkkürün mənəvi xəzinəsi adlanan "Qabusnamə"də yazılır ki: "Yer kürəsindəki mövcud xalqlardan ermənilər ona görə fərqlənirlər ki, onların təbiətində xarakterində murdarlıq var… Ermənilərin eybi: bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüşsöyən, ürəyi xıltlı, ağasına düşmən, xain çıxandır **("Qabusnamə").**

52. Bu xalq (erməni.– Red.) istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır: bunlar daimi romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırlar **(Tasit, Roma tarixçisi**).

53. Erməni gəldi, təzə bəla gətirdi **(Gürcü atalar sözü).**

54. Ermənilərin yoxsulluğu və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadəliyi, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç bir vaxt onlara bağlana bilmədim **(Qraf de Şole. Fransız səyyahı).**

55. Ermənilər Yer üzünün Əhrimәni, insanlığın düşmənidir, düşməni ***(Sədi Şirazi).***

56. Ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar... Heç kəsi bəyənmirlər... Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər... İntriqa yaratmağı sevirlər... **(İngilis Vilson).**

57. Erməni xalqı kimi erməni dili də hibrid (calaq) dildir **(Akademik N.Y.Mar).**

58. Heç bir dil mənim üçün bu qədər çətin olmamışdır **(X. Abovyan).**

59. Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir **(Akademik M. Abeqyan).**

60. İndi olduğu kimi, keçmişdə də qədim "hay"ların (ermənilərin) elmlərə, ağızdan-ağıza keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır **(Movses Xorenatsi, erməni tarixçisi).**

61. İlk erməni sülaləsinin başçısı tarixdə olmayıb **(Haykazyan, "Erməni tarixi", Paris, 1919).**

62. Ermənilər əsasən Dəclə-Fərat bölgələrində yaşamışlar **(erməni tarixçisi Gevorq Aslan "Armeniya i armyane", 1914).**

63. "Başı bəlalar çəkmiş xalqın" ovaxtkı, əslində elə indiki liderinin də beyinlərini qonşu xalqların əraziləri hesabına "Böyük Ermənistan" yaratmaq barədə sərsəm ideyalar, erməni olmayan hər kəsə qarşı nifrət və düşmənçilik hissləri dumanlandırmışdır" **(S.B. İxiilov. Bakıdakı Dağ Yəhudiləri İcmasının sədri).**

64. 1918-ci ilin martında erməni silahlı birləşmələri üç gündə təkcə Bakıda 17 mindən artıq dinc və günahsız sakini qırdı. Biz hələ Naxçıvanda, Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Ağsuda... saysız-hesabsız insanların qətlə yetirildiyini demirik (**Aleksandr. Bakı və Xəzəryanı bölgənin yepiskopu).**

65. Alman alimi Kolmer isə belə demişdir: "Mən bir müsəlmanla iş barəsində şərtləşəndə, yazılı müqavilə bağlamadan da kifayətlənirəm, çünki o, söz verdi, qurtardı. Yunanla yazılı şərt kəsirəm, çünki onlara belə lazımdır və sərfəlidir. Ermənilərlə isə heç yazılı surətdə də iş görmürəm, çünki onların yalançılığı və fitnə-fəsadları, hətta yazılı şərti də poza bilər".

66. K.Marks və Engels yazmışdı: "Bəşəriyyətə ilk fahişəliyi yayan ermənilərdir". Və əlbəttə ki, belə əqidənin və əməlin sahibi olan

xalqın şovinist nümayəndələrindən nə cür mənfur iş desən gözləmək olar (**K.Marks və F.Engels. Seçilmiş əsərləri, III cild, s.275).**

67. Yəhudilərin vətəni olan İsraildə bir nəfər də olsun erməni yaşamır. Niyə?.. Çünki dünyanın başqa ölkələrindən fərqli olaraq bu ölkədə ermənilərin fırıldaqları işləmir **(Xanlar Əliyev. Ermənilər Ermənistan barədə tarixi faktlara nə deyir? – "Azərbaycan", 28.08.2001).**

68. L.Z.Sürməliyan "Xanımlar və cənablar, müraciətim sizədir" – adlı kitabında yazmışdır: "Türklərlə ermənilər arasındakı ziddiyyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin aramsız qəddarlığıdır".

69. Albanların əksəriyyəti Azərbaycan xalqının tərkibinə daxil olaraq islam dinini qəbul etmiş, az bir hissəsi isə (Şəki və Dağlıq Qarabağda) gəlmə ermənilərə qarışıb ermənileşmişlər **(İ.Petruşevski).**

70. Erməni əlifbası təqribən b.e. 405-406-cı illərində Mesrop Maştos tərəfindən qədim yunan, Bizans və Şimali arami yazıları əsasında tərtib edilmişdir **(ASE, IV cild, səh. 81).**

71. ...Ermənilər, həqiqi əsgər olaraq döyüş meydanından qorxaqcasına və alçaqcasına qaçandırlar, əliyalın tək insanlara, qocalara, qadınlara və uşaqlara isə dəstə ilə hücum etməkdə cəsarətli və fədakar igidlərdirlər **(Rus zabiti podpolkovnik N.Y.Tverdoxlebovun memuarlarından).**

72. Məgər ermənilərin hər tərəfə dağılması bizim üçün faydalıdır? Qoy qadir Allah onlara qüvvət, hamısına birləşmək bacarığı versin. Lakin qoy kələk gəlməsinlər, bizi özümüzdən məhrum etməyə çalışmasınlar və bizim adımızı alçaltmaqla, özlərini tərifləyib göyə qaldırmağa və şöhrətləndirməyə cəhd göstərməsinlər. Bizim üçün yaxşı idi, pis idi, biz sizi qəbul etdik, qardaş kimi sığınacaq verdik, heç olmazsa, öz evimizdə bizə düşmən olmayın. Evində yaşayan düşmənin olunca, yolda uzanan şirin olsa yaxşıdır **(İ.Q.Çavçavadze. "Erməni alimləri və fəryad edən daşlar", s.79).**

73. Erməni xalqının tarixi V əsrdə erməni yazısının meydana gəlməsindən və erməni xalqının Avarayarda qəhrəman döyüşündən sonra başlayır **(Erməni katolikosu I Vazgen. 16 avqust 1964-cü il**

müraciətindən // Гюрюн К. Армянское досье. Перевод с турецкого. Б.: Язычы, 1993. 176 с.).

74. Erməni tarixini yazmaq üçün mən sizə hansı ədəbiyyatları tövsiyə edəcəyimi bilmirəm. Çünki bu məsələ barədə çap olunmuş mənbələr mənə məlum deyil. Lakin mənim Paris kitabxanamda elə kitablar vardır ki, onlar Movses Xorenatsidən, Zenoba və digərlərindən də qədim dövrləri əhatə edir. Mən Aninin süqutuna qədər Böyük Ermənistanla bağlı heç bir kitab yada salmıram. Şübhəsiz ki, bu sahədə çoxlu geniş anlayışlara maliksiniz **(J.Morqan. "Erməni tarixçisi A.Çobanyana məktubundan", 19 aprel-26 may 1916, səh.XXXV).**

75. Ermənilərin mənşəyi haqqında Qatteria məlumat verir: "İlk Ari tayfaları Pamir dağlarının ətəklərindən Sind vadisinə, İran dağlarının ətəklərinə doğru hərəkət etdilər, insanların sonradan Qərbə axınına yol açıq oldu və yeni miqrantlar Avropaya getməyi lazım bildilər. Köçərilər tezliklə Qafqaz dağlarına çatdılar və Kiçik Asiyaya yol tapıb, cənuba istiqamət götürdülər. Ermənistan vadisində məskunlaşan bu tayfalar bir-birindən təcrid olunmuş şəkildə yaşamağa və inkişaf etməyə başladılar. Onlardan bir çoxu gücləndilər, digərləri Ermənistana eradan əvvəl 1130-cu ildə yürüş edərək, Nairi, Dəclə və Fərat çaylarının yuxarılarını zəbt etmiş vəziyyətdə tapdıqları Assuriya konfederasiyası ilə birləşdilər.

76. Bütün hallarda bizdə sənəd vardır ki, ermənilərin Kappadokidən Ərzurum dağları ətəklərinə hərəkəti eradan əvvəl VIII, ya da VII əsrdə İsanın anadan olmasından 600 il qabaq olmuşdur **(İ.de Morqan).**

77. Aydındır ki, tarixi vaxtlardan bəri Ermənistan adı daşıyan coğrafi rayonda erməni deyilən xalqın həmişəlik yaşayış yerləri olmamışdır, ölkədə şübhəsiz ki, başqa tayfalar, başqa dildə danışan xalqlar da yaşamışdır. Erməni xalqı haqqında ilk dəfə olaraq b.e.ə. 515-ci ildə Dariya daş salnamələrində söylənilir. Burada Ermənistan haqqında da deyilir ki, o Əhəmənilər imperiyasının bir satrapıdır **(F. Makler).**

78. "Bu həqiqətdir, lakin acı və təəssüf edilməli bir həqiqətdir ki, əcnəbinin qarşısında milləti təmsil edən və həyatının qayəsi yalnız başdan-başa maddi maraqdan ibarət olan erməni taciri kimi bir nümayəndəyə malik olmaq əsl bədbəxtlikdir. Bax, ölkəmizdə bütün

şovinistlər – istər onlar erməni, istər gürcü, istərsə də türk olsun fərqi yoxdur öz millətini hakim millət etmək xəyalına düşənlər ədalətsiz və maymaq olmaqdan başqa, həm də lap gülüncdürlər. Öz qonşularından birini udmaq xəyalına bu üç millətdən yalnız o millət düşə bilər ki, o özünün miskin mədəniyyəti və fiziki qüdrəti barədə həddindən artıq yüksək fikirdə olsun və başqa millətin gücü barədə isə çox cüzi təsəvvürə malik olsun. Millətçilər və şovinistlər, əsrlərdən bəri qonşu olan bu üç milləti bir-birinə salışdırmaqdan əl çəkin! Bunsuz da onların münasibətləri zəhərlənmişdir. Yaxşı bilin ki, qonşuya doğru yönəldilmiş hər bir zərbə qayıdıb zərbə endirənin başına ikiqat qüvvə ilə dəyəcək. Bu tələtümlü zamanda hamı sayıqdır və onlar öz mövcudiyyatlarını son damla qanlarınadək qoruya bilərlər...” (**A.Şirvanzadə. Seçilmiş əsərləri, II cild, Bakı, 1971-ci il, səh. 361 və 377).**

79. Böyük fransız səyyahı və yazıçısı Aleksandr Düma erməni satqınlığı haqqında yazır: “Daniyal bəyin bir erməni katibi varmış. Bu erməni katibi general Şvartsa yazır ki, Daniyal bəy Şamilin tərəfinə keçmək istəyir. Məktub göndərilən yerə çatmaq əvəzinə gəlib çıxır Daniyal bəyin öz əlinə. O öz katibini bir xəncər zərbəsi ilə öldürür”.

80. “Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibi olublar. Öz yaxınlarını sataraq həmişə güclü qonşularına məhəbbətlə qulluq ediblər” **(akademik Geqor Patkanyan).**

81. “Bic və qantökən millət” olan ermənilər yazıq, fağır bir xalq kimi dünyaya təqdim olunur **(Adolf Hitler).**

82. “Ermənilər müxtəlif ünsürlərdən təşkil olunaraq qarışıq bir irqdir. Boyları 163-169 arasında, yastıbaşlı, 85-87 baş ölçüsündə, irqləri hindu, əfqan, aysor və türk irqlərindən yaranmışdır” **(Y. Doniker).**

83. Ermənilərin 1897-ci ildə çıxan “Murc” jurnalında “Qaraçılardan əmələ gələn ermənilər” məqaləsində assimilyasiya olunmuş qaraçı-ermənilərdən söhbət gedir.

84. Ermənilər Pamir yaylalarından gələn Mesopotamiyadan şimala doğru köç edən Sami irqinə mənsub tayfalarının qarışığıdır. Kürdlərlə ermənilər bir-birindən ayırmaq mümkün deyildir. Yaxın qohumdurlar” **(Robert Cans).**

85. N.Kassoviç isə qan qrupları və antropoloji əlaqələr haqqında "erməni irqi təmiz (yekcins) bir irq deyildir" – fikrini yazmışdır.

86. "Ermənilər irq etibarilə iranlı, kürd, bəluc və qaraçılarla qohumdurlar" (U.S. Monroy). "Hind-Avropa qrupuna daxil olan erməni xalqının, Qərbdən izlənərək Balkan və Kiçik Asiyadan keçib, Şərqdə, Urartuda, yaxud ön Ermənistanda başqa qohum hind-Avropa xalqları ilə kimeriylərlə və yaxud frakiyalarla görünməsi bizim eradan əvvəl VII və ya VI əsrə təsadüf edir ki, bu fərziyyə də dünya elmi tərəfindən öz təsdiqini tapmışdır" **(H. Pastırmaçyan).**

87. "Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən!" (**A.S.Puşkin).**

88. "Erməni xalqı kimi erməni dili də hibrid (calaq) dilidir" **(An.N.Y.Marr).**

89. "Əgər yuxuda erməni görübsünüzsə, çox ehtiyatlı olun, bilin ki, sizi aldadacaqlar və yaxud, sizə xəyanət edəcəklər" (**Olqa Smurova, yazıçı).**

90. "Türklərlə iş görəndə sözlə danışmaq kifayətdir, müqavilə bağlamağa da ehtiyac yoxdur… Əgər yunanla iş görmək istəyirsinizsə, mütləq müqavilə bağlayın, erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, sadəcə şərə rast gələcəksiniz. Erməni ilə rastlaşmaq təhlükəlidir, onu yuxuda görmək də xeyir gətirmir..." (**Alferd Kerte, Alman səyyahı).**

91. "XX əsrin sonlarında SSRİ dağılmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda sovet imperiyasını qoruyub saxlamaq məqsədi ilə onun ərazisində rəsmi Moskva dairələri tərəfindən milli münaqişələr qızışdırıldı. Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının yeni mərhələsi də məhz həmin tarixi dövrə təsadüf edir. Bu dəfə də rəsmi Yerevanın təhriki ilə "milli məsələ" pərdəsi adı altında Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. FVDK (Fövqəladə Vəziyyət üzrə Dövlət Komissiyası) tərəfindən 1991-ci ilin avqustunda SSRİ-ni qoruyub saxlamaq cəhdləri isə uğursuzluqla nəticələndi. Sovet İttifaqı süqut etdi. Bundan istifadə edən Ermənistan hərbi intervensiya nəticəsində beynəlxalq ermənipərəst qüvvələrin və bir sıra xristian dairələrinin yardımı ilə Azəbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağı və onunla həmsərhəd olan yeddi (Laçın 1993-cü il 18 may, Kəlbəcər 1993-cü il 2

aprel, Ağdam 1993-cü il 23 iyul, Füzuli 1993-cü il 23 avqust, Cəbrayıl 1993-cü il 23 avqust, Qubadlı 1993-cü il 31 avqust, Zəngilan 1993-cü il 29 oktyabr) rayonu 1992-1994-cü illərdə işğal etdi. Bu işğal Azərbaycana böyük fəlakətlər gətirdi; insan kapitalının və torpaqlarımızın ağır itkisi ilə nəticələndi" (S.M., T.M.)

92. "Ermənilərin zaman-zaman türklərə, xüsusilə Azərbaycan xalqına qarşı törədilən insanlıq əleyhinə cinayətlərinin sayı-hesabı o qədər ölçüyəgəlməzdir ki, onların hamısını artıq, nəşr olunan mənbələrdə belə tam əhatə etmək mümkün deyildir. Nəticədə belə bir vəziyyət yarandı. Xalqımızın həyatında baş verən tarixi faciələrdən hələ də gənc nəsil, eləcə də dünya ictimaiyyəti lazımı səviyyədə məlumatlı deyildir. Etiraf etməliyik ki, ermənilərin Türkiyədə, Azərbaycanda, İranda törətdiyi qanlı cinayətlərindən, terrorçuluq əməllərindən vaxtilə yaşlı adamların qorxa-qorxa söylədiklərini çıxsaq, son dövrlərə qədər müfəssəl məlumatımız olmayıb. Çox təəssüf ki, qaniçən terrorçular barədə tarixçilərimiz onların cəllad obrazlarını arxiv materiallarından, canlı şahidlərin xatirələrindən hərtərəfli istifadə etməklə işıqlandıra bilməmişlər..." (**H.Həmidov**. Xalq qəzeti. – 2018.- 29 mart.- № 69. – S. 10.; 1 aprel.- № 72.- S. 3.).

ERMƏNİSTAN–AZƏRBAYCAN MÜNAQİŞƏSİ MÜASİR MƏRHƏLƏDƏ

Erməni düşmənçiliyi: dünən və bu gün

Ermənilərin zaman-zaman türklərə, xüsusilə Azərbaycan xalqına qarşı törədilən insanlıq əleyhinə cinayətlərinin sayı-hesabı o qədər ölçüyəgəlməzdir ki, onların hamısını artıq nəşr olunan mənbələrdə belə tam əhatə etmək mümkün deyildir. Nəticədə belə bir vəziyyətin yaranması, yəni xalqımızın həyatında baş verən digər tarixi faciələrdən hələ də gənc nəsil, eləcə də dünya ictimaiyyəti lazımi səviyyədə məlumatlı deyildir. Etiraf etməliyik ki, ermənilərin Türkiyədə, Azərbaycanda, İranda qanlı cinayətləri, terrorçuluq əməlləri barədə vaxtilə yaşlı adamların qorxa-qorxa söylədiklərindən başqa, son dövrlərə qədər müfəssəl məlumatımız olmayıb. Çox təəssüf ki, qaniçən terrorçular barədə tarixçilərimiz onların cəllad obrazlarını arxiv materiallarından, canlı şahidlərin xarakterizələrindən hərtərəfli istifadə etməklə işıqlandıra bilməmişlər. Bunun səbəblərindən biri də budur ki, Sovet hakimiyyəti dövründə istər Azərbaycanın əzəli torpaqlarında ermənilərin məskunlaşdırılması ilə imperiyanın təkidi ilə yaradılmış indiki Ermənistanda, istərsə də Moskvada nəşr edilmiş ensiklopediyalarda xalqımızın bu cür qəddar düşmənlərini (erməni terrorçularını. – S.M., T.M.) beynəlmiləl tərbiyə şüarı altında inandırıcı şəkildə ümumilikdə "azərbaycanlıların dostları", "ermənilərinsə milli qəhrəmanı" kimi təqdim etmişlər. Belə mənbələrdən biri "SSRİ-də vətəndaş müharibəsi və hərbi müdaxilə" (1987-ci ildə Moskvada çap olunmuşdur. – S.M., T.M.) adlı ensiklopediyadır. Heç bir əsaslı dəlillər gətirə bilməyən bəzi qondarma erməni tarixçiləri utanıb çəkinmədən Türkiyənin cənub vilayətlərini Qərbi Ermənistanın ərazisi hesab edirlər. İmperiya ambisiyası ilə bir qrup rus alimi də müəyyən məqamlarda onlara tərəfdarlıq edərək həmin əraziləri məhz "Qərbi Ermənistan" adlandırır. Bu tipli çaşdırıcı, qərəzli fikirlərin, yanlış və saxta dəlillərin yer aldığı "elmi" mənbələrin sayı o qədər çoxdur ki, hesablayıb qurtarmaq olmur. Əslində isə bütün üzdəniraq "tarixi" yaymaqların bir məqsədi də gələcəkdə yeni ərazilərə təcavüzkarlıq planlarını gündəmə gətirməkdir və oxucuda yanlış təsəvvürlər yara-

dır. Artıq sovet imperiyası dağıldıqdan sonra açıq-aydın bəlli olmuşdur ki, adları çəkilən mənbələrdə (onlardan biri qeyd etdiyimiz kimi "SSRİ-də vətəndaş müharibəsi və hərbi müdaxilə" adlı mənbədir. – S.M., T.M.) dırnaqarası erməni qəhrəmanlarının Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etməsi fikri də başdan-ayağa iftiradır. Arxiv materiallarından XVI əsrin sonu, XVII əsrin əvvəllərindən başlayaraq İranda, Türkiyədə və digər ərazilərdə pərakəndə halda qaraçı həyat tərzi sürən ermənilər rus imperiyasının himayəsi ilə Azərbaycanın İrəvan, Qarabağ, Naxçıvan və digər bölgələrində məskunlaşdırıldıqdan sonra onların "Böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün Naxçıvanda ağlasığmaz dəhşətli qırğınlar törətdikləri mövcud sənədlərin dili ilə təsdiqini tapmışdır. Onlar Naxçıvanı, Rusiyanın tərkibinə deyil, Ermənistan dövlətinin tərkibinə qatmaq üçün viran qoymuş, əhalisini qırmış, sağ qalanları didərgin salmış, yaşayış evlərini yandıraraq məhv etmişlər. Naxçıvanda erməni quldur dəstələrinin xalqımıza qarşı etdikləri vəhşiliklər Azərbaycanın digər bölgələrində də törədilmişdir. Məhz ermənilərin vəhşiliyi XIX əsrdə Azərbaycan ərazisində məskunlaşdırılmasından sonra daha da artmışdır.

Artıq təkzib olunmaz tarixi faktlar sübut edir ki, XVI əsrdən əvvəllər də ermənilərin Azərbaycanın müxtəlif bölgələrində yerləşdirilməsinə cəhdlər göstərilmişdir. Lakin bu prosesi həyata keçirmək üçün əlverişli məqamlar XVI-XVIII əsrlərdə daha çox olmuşdur (2). Ermənilərin ilkin məqsədlərindən biri Qafqazın füsunkar gözəlliyi və tükənməz təbii sərvətlərinə sahib çıxmaq olmuşdur.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi uzun bir dövrü əhatə edir. Azərbaycanla qonşu dövlətlərin ərazisində ermənilərin pərakəndə və səpələnmiş halda yaşamalarına baxmayaraq, onlar sənətkarlıq və ticarət işlərində fəal idilər. Bu barədə İ.P.Petruşevski özünün tarixi oçerklərinin birində yazır: "Erməni tacirləri Səfəvilər dövlətinin xarici ticarət əlaqələrinin genişlənməsində xüsusi rol oynayırdılar. Şahlığın ərazisində olan erməni kilsələrinə xüsusi güzəştlər verilmişdi. Onlar vergiləri yerli hakimlərə deyil, birbaşa şah xəzinəsinə verirdilər" [4].

Erməni tacirləri I Şah Abbas (ermənilərin xəyanətkarlığını, bunun irsi xəstəlik kimi onların genlərində hopduğunu bilmədiyi üçün

tolerantlıq və insanlıq nümayiş etdirərək. – S.M.,T.M.) haqqında nifrinlər, hədyanlar yağdırsalar da, fakt budur ki, 1605-ci ildə onun fərmanı ilə şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin kompakt yaşamaları üçün xüsusi ərazilər ayrılmışdı. Bu məqsədlə İsfahan şəhərinə yaxın ərazidə Yeni Culfa şəhəri salınmış, burada yaşayan ermənilər üçün kilsə və monastır inşa edilmiş, onların xarici ticarətlə məşğul olmaları üçün geniş imtiyazlar verilmişdi. Hətta Şah Abbas bu tikililər üçün xəzinədən pul ayırmış və bu işi mükafatlandırmışdı. Belə bir imkandan məharətlə istifadə edən ermənilər tezliklə bir sıra Avropa ölkələri ilə, ilk növbədə İtaliya, Fransa, Prussiya ilə ticarət əlaqələri yaratmışdılar. Yeni Culfa tacirləri Hindistanın əksər böyük şəhərlərində kontorlar təşkil etmişdilər [5].

Ziyankarlıq xüsusiyyətlərini genlərində daşıyan erməni tacirləri varlandıqca ermənileşdirilmiş kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahaları daha da güclənirdi. Erməni tədqiqatçısı Ter Mkrtçyan etiraf edir ki, bu işi həyata keçirmək üçün erməni kilsəsi gizli olaraq Avropa ölkələrində özünə himayəçi axtarırdı. Eyni zamanda ermənilər şah sarayına yollar ayırır, şahın etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxırdılar. Erməni tacirləri və din xadimlərinin arzuları tədricən həyata keçirdi. Şah Abbas hətta Səfəvilər dövlətinin xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətlərini özünün müşaviri Xoca Səfər adlı bir ermənіyə etibar etmişdi [6;34] (bu isə azərbaycanlıların məxsusi xoş məramından irəli gələn cəhətdir. – S.M., T.M.).

Digər erməni tədqiqatçısı V.A.Baybutyan isə yazır ki, 1608-ci ildə I Şah Abbas Xoca Səfərin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venetsiya dojuna məktublar göndərmişdi. Toskano hersoqunun qəbulunda olarkən Xoca Səfər şahın məktubundan əlavə ermənilərin Roma papası və digər Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdi [7;37]. XVII əsrin ortalarından rus dövlətinin mövqeyinin möhkəmləndirilməsi ən yaxın xristian ölkəsi kimi erməni kilsəsinin diqqətini daha çox cəlb etməyə başlamışdı. Yaxın Şərqdə maraq dairəsi baxımından ermənilərə ən əlverişli himayəçi Rusiya imperiyası ola bilərdi.

Bir neçə yüzilliklər ərzində Rusiya imperiyasının həyata keçirdiyi ermənilərin bu ərazilərə köçürmə siyasəti, onların himayəsi ilə yaradılan Ermənistan, Rusiyaya həm Qafqazda, həm də tarixdən bəlli olduğu kimi, çox zaman savaşda olduğu Türkiyə sərhəddində forpost vasitəsi oldu.

1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması müxtəlif maneələrə baxmayaraq, Sovet Ittifaqı Kommunist Partiyasının Lenin milli siyasətinin həyata keçirilməsi idi və Sovet dövlət quruculuğu sahəsində Lenin prinsiplərinə tam uyğun idi.

O vaxtdan, Sovet hakimiyyəti illərində Qarabağ torpağının sahibləri olan azərbaycanlılar, ermənilər, ruslar, başqa millətlərin nümayəndələri ilə birlikdə sülh və əmin-amanlıqda yaşamış və daim özlərini təhlükəsiz hiss etmişlər. Ancaq 1987-ci ildən başlayaraq, M.Qorbaçovun üzdəniraq "yenidənqurma" siyasəti nəticəsində millətçi burjuaziya, erməni ziyalılarının bir hissəsi deputat seçildikləri dairələrdə, Ermənistan SSR-nin partiya və dövlət xadimlərinin bir qismi ilə birlikdə süni surətdə "Qarabağ məsələsi" deyilən "məsələ" yaradır və şişirtməyə başlayır.

Bugünkü hadisələrin təhlili üçün keçmişə nəzər yetirmək də zəruridir. Erməni düşmənçiliyinin izlərinə Ermənistanın bir sıra ədəbiyyat və incəsənət əsərlərində geniş rast gəlmək olar. Məsələn, S.Kaputikyanın, L.Quruntsun, B.Ulubabyanın, G.Eminin, H.Şirazın, S.Ayvazyanın əsərlərində, erməni kinematoqrafçıları tərəfindən yaradılmış bir sıra filmlərdə və s. azərbaycanlılara və türklərə nifrət geniş yer alıb. Bu kitablarda, kinofilmlərdə ardıcıl və məqsədyönlü şəkildə erməni xalqının müstəsnalığı, başqa xalqlar üzərində onun intellektual üstünlüyü ideyası təbliğ olunur. Həmin əsərlərdə xəstə təxəyyülün məhsulundan başqa bir şey olmayan "dənizdən dənizə" ideyasını bədii şəkildə əsaslandırmaq cəhdləri də vardır. Bunun da nəticəsi olaraq geniş oxucu kütlələrinə ərazi iddialarının "qanuniliyi" və Ermənistana "ulu ərazilərinin" – Yuxarı Qarabağın və Naxçıvanın qaytarılmasının zəruriliyi haqqında yanlış və zərərli fikirlər təlqin olunur.

Xarici ölkələrdəki erməni icmalarının həyatına həsr olunmuş kitablarda və məqalələrdə daşnakların qanlı əməllərinin təmizə çıxarılmasına cəhdlər edilir. Bu, məsələn, S.Kaputikyanın "Karvanlar hə-

lə yoldadır", "Xəritənin və qəlbin meridianları" əsərlərində özünü göstərir.

S.Kaputikyanın təbliğ etdiyi erməni separatçılığı Asiyada, Avropada, Amerikada və Avstraliyada yaşayan ermənilərin arasında yayılaraq millətçiliyə və hətta nasizmə keçə bilər və xalqlar üçün ən böyük və ağlagəlməz faciəyə dönə bilər (artıq qismən dönmüşdür).

Sovet dövründə erməni müəlliflərinin həyasız və cəfəng fikirlərinin olduğu kitablar və materiallar nəinki yerli, eyni zamanda mərkəzi nəşriyyatlar tərəfindən buraxılırdı. Bu kitab və materiallar ümumittifaq jurnallarında çap olunur, qəzet səhifələrinə daxil olurdu. 1978-ci ilin 13 sentyabrında "Literaturnaya qazeta"da "Tarixdə mühüm hadisə" (Ermənistanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyinə dair) adlı məqalə çap olunmuşdur. Məqalənin müəllifi, yazıçı, tarixçi, azğın millətçilik təbliğatı apardığına görə Azərbaycan Yazıçılar İttifaqının Yuxarı Qarabağ bölməsində məsul vəzifədən qovulmuş Baqrat Ulubabyan təcili surətdə Yerevana köçmüş və burada ona öz ziyanlı fəaliyyətini davam etdirmək üçün ən əlverişli şərait yaradılmışdı. Ulubabyanın bu təxribatçılıq fəaliyyəti onun bir çox çıxışlarında, o cümlədən "Albaniya", "Aqvank" və "Aran" toponimləri haqqında, (Tarixi-filologiya jurnalı, №2; 1971), (8)"Erməni dilinin şimal-şərq hüdudları və Artsax dialekti haqqında", "Ermənistanın Şərq məmləkətinin tarixi oçerkləri (V-VI əsrlər)" kimi, özü də "Böyük Ermənistan" haqqında millətçilik tezisinin təbliğ edildiyi saxta elmi əsərlərin çap olunmasında öz ifadəsini tapmışdır.

"Erməni taleyi" romanının müəllifi Suren Ayvazyan (bu əsər erməni dilində nəşr olunduqdan sonra 1976-cı ildə "Советский писатель" nəşriyyatı tərəfindən rus dilində buraxılmışdır) sübut etməyə çalışırdı ki, nə qədim dövrlərdə, nə də onun təsvir etdiyi XVII-XVIII əsrlərdə Azərbaycan xalqı olmamışdır, Naxçıvanın və Qarabağın həqiqi sahibləri, qədim sakinləri ermənilərdir, bu torpaqlarda müsəlmanlar (azərbaycanlılar) gəlmədirlər. Ermənistanın sərhədləri Bakının və Şamaxının yaxınlığından keçir. Şəki, Qandzak (Gəncə) vilayətləri və başqaları erməni vilayətləridir və s. buna bənzər uydurmalar [9;379]. Romanda Azərbaycanın nəinki ərazisi, eyni zamanda maddi mədəniyyət abidələri mənimsənilir. Şəhərlərin və kəndlərin adları təhrif olunur. Ayvazyanın Azərbaycan xalqının tarixi "reallığını" "inkar

etməsi" təsadüfi deyil. O, tarixi xristianların və müsəlmanların mübarizəsi tarixi kimi nəzərdən keçirir. Ayvazyanın əsərində hər yerdə bütün xristianlar müsəlmanların "əbədi düşmənləridir", bütün müsəlmanlar da xristianların "əbədi düşmənləridir". O, xristianların sakit və azad yaşamaları üçün bütün müsəlmanları "aradan qaldırmaq lazımdır" kimi sərsəm bir ideyanı təbliğ edir.

Rus dilində yazan və uzun müddət Bakıda yaşamış Leonid Qurunts hekayə və oçerklərində, publisistik məqalələrində Qarabağı daim Ermənistanın "ayrılmaz" tarixi ərazisi sırasında xatırladır. Onun əsərləri Qarabağda yaşayan ermənilərin taleyi, qisməti barədə miskin hekayətlərlə doludur. Bu əsərlərdə Azərbaycan SSR və SSRİ-nin DQMV-yə münasibətdə "tarixi səhvlərini" axtarıb tapmağa cəhdlər göstərilir.

V.Petrosyanın "Erməni eskizləri" kitabında başkəsən və Azərbaycan xalqının qəddar düşməni Andranik milli qəhrəman səviyyəsinə yüksəldilir. Həmin o tayqulaq Andranik ki, onu RSFSR-in xarici işlər üzrə xalq komissarı Q.Çiçerin "Antantanın casusu" adlandırmışdır.

Açıq millətçilik motivləri Ermənistanın kino sənətində də özünü göstərir. G.Eminin kitabı əsasında yaradılmış eyni adlı "Ermənistan haqqında yeddi nəğmə" sənədli filmində Cənubi Qafqaz xalqlarının tarixi gerçəklikləri tamamilə təhrif edilir. Bu cür mövqe müəllifi sonda faşizm məntiqinə gətirib çıxarır: məsələn, haradasa Ermənistanın ərazisi qurtarır, orada zülmət, qaranlıq başlanır. Sərhəd məsələsi "Doğulma" kinofilmində də qaldırılır. Film Azərbaycan torpaqlarının da daxil edildiyi "Böyük Ermənistan"ın qədim xəritəsi ilə açılır. Burada belə bir ideya hakimdir: "Ermənistanın torpağı azlıq edir", onun ərazisinin xeyli hissəsi daşlıq-qayalıqdır. "Ermənistanın Cənub-Qərb ərazisi Türkiyənin hakimiyyəti altındadır", "Ermənistana yeni torpaqlar lazımdır" və s. və i.a. Filmdə deyilir ki, Ermənistana Bakıdan nefti dəmir yolu ilə gətirmək lazımdır. Elə buradaca belə bir atmaca eşidilir: "Lakin Gəncədən keçib getmək mümkün deyil". Aydın deyil, nə üçün? Sovet hakimiyyəti qurulmuş Gəncə neftin Ermənistana ötürülməsinə necə mane ola bilərdi?

Vladimir Leninin Azərbaycan, Gürcüstan, Ermənistan respublikalarının kommunistlərinə göndərdiyi 14 aprel 1921-ci il tarixli

məktubunun izahı filmdə təhrif edilmişdir. Nəyə görəsə belə göstərilir ki, V.Leninin məktubu hər şeydən əvvəl Ermənistana aiddir.

"Ermənifilm"in "Mosfilm"lə birlikdə çəkdiyi "Ümid ulduzu" (C.Xanzadyanın "Mxitar Sparapet" romanı üzrə) filmində Qarabağ erməni torpaqları sırasında xatırladılır. Bu filmdə yadelli işğalçılara qarşı erməni xalqının mübarizəsi Zaqafqaziyanın digər xalqlarının mübarizəsi ilə əlaqədən kənarda verilir. Həmin mühüm mövzuya sinfi-tarixi yanaşılma bu mühüm hadisələrin sırf dini şərhi ilə əvəz olunmuşdur. Filmin müsbət qəhrəmanlarından birinin – knyaz Dolqorukinin dili ilə bu sözlər deyilir: "Pyotr Alekseyeviç sağ olsaydı, biz artıq Fəratın sahillərində olardıq. Ermənistan da, Gürcüstan da bizimlə birlikdə olardı, xristianlıq ruhu məhv olmazdı və bizim vicdanımız təmiz olardı". Baş qəhrəman – sərkərdə Mxitara istinadən belə fikir verilir: "Biz türk ordusu ilə Dərbənd arasında qalxan olduq. Lakin qalxan əyilir, xristianlıq qalxanı". Burada filmin müəllifləri ya "unutmuşlar" ki, göstərilən ərazidə azərbaycanlılar yaşayır, ya da qəsdən çalışırlar ki, xristian olmayanları Zaqafqaziya xalqlarının ümumi mübarizəsindən "ayırsınlar".

Bu dövrdə erməni kinematoqrafçılarının köməyilə "Lenfilmdə" "Gəncliyin sahili" filmi yaradılır. Hadisələrin Bakıda cərəyan etdiyinə baxmayaraq, filmdə ötəri olaraq qeyd edilir ki, bu şəhərdə "a"dan (azərbaycanlılar) tutmuş "ya"ya qədər (yaponlar) bütün millətlər yaşayırlar. Filmin müəllifləri bu şəhərdə bir çox xalqların nümayəndələrinə, o cümlədən almanlara yer tapmışlar, lakin filmdə iştirak edən şəxslər arasında bir nəfər də olsun azərbaycanlı millətinin nümayəndəsi yoxdur. Filmin təkcə bir epizodunda azərbaycanlı kimi təqdim olunan və özü də nəyə görə isə türk dilində təkcə bir söz deyən çadralı qadının əksi ani olaraq görünür. Həmçinin izah etmək çətindir ki, nə üçün filmin baş qəhrəmanı olan erməni oğlan uşağının Bakıda bir nəfər də olsun azərbaycanlı dostu olmasın və nəyə görə onun ailəsinə kömək göstərənlər içərisində azərbaycanlılar yoxdur.

"Декоративное искусство СССР" jurnalında N.Voronovun "Ermənistan: qədim torpaqları yeni heykəllər bəzəyir" məqaləsi verilmişdir. Ermənistanda ucaldılmış abidələrdən danışarkən müəllif yazır: "S.Baqdasaryanın işləri içərisində daha qüvvətlisi və ifadəlisi Dağlıq Qarabağ xalqına özünəməxsus abidə olan "Biz – bizim dağla-

rımız" dekorativ abidəsidir" [11;11]. Abidə erməni üz cizgilərinə malik olan, erməni milli paltarında olan kişi və qadın portretindən ibarətdir. Abidə qəsdən pyedestalsız qoyulmuşdur ki, Qarabağın Ermənistandan "ayrılmazlığını" ifadə etsin (adamlar sanki torpaqdan baş qaldırıblar). Əlbəttə, gələcək hadisələrin göstərdiyi kimi bu, məqsədli şəkildə edilmişdir.

"Неделя" qəzetində (№12, 28 iyun – 4 iyul 1976, səh.12-14) "Döyüşçülər və çobanlar kəndi" adlı məqalə dərc olunmuşdur. Məqalənin müəllifi A. Kriçevskidir. Şəkillər Qriqori Dubinskinindir. Çardaxlıdan Moskvaya qayıtmış müxbirlər zirehli tank qoşunları Baş Marşalı A.Babacanyana onların reportajını şərh etmək xahişi ilə müraciət edirlər. Reportajın heç bir yerində həmin kəndin Azərbaycan SSR-in kəndi olması xatırladılmır. Qafqazda olan kənddən danışırlar. Bütün müqayisə Qafqaz miqyasında aparılır. On il bundan əvvəl bütün çardaxlılar birləşərək pul yığırlar və həmkəndliləri olan qəhrəman döyüşçülərə abidə qoyurlar. A.Babacanyanın dilindən aşağıdakıları eşidirik: "Bizi kiçik yaşlarımızdan belə tərbiyə etmişlər: əgər sən kişisənsə, çətinliklərdən şikayətlənməyə haqqın yoxdur. Kişi özünü və başqalarını müdafiə etməyi bacarmalıdır, bu, Çardaxlının yazılmamış qanunlarının əsas bəndlərindən biridir. Və mən onun necə yarandığını asanca izah edə bilərəm: kənd həmişə sərhəddə yerləşmiş, daim düşmən hücumlarına məruz qalmışdır. Belə vaxtlarda çardaxlı çoban çomağını bir tərəfə qoymuş və əlinə tüfəng almışdır...". Soruşula bilər, burada hansı sərhəddən söhbət gedir? Axı, bu kənd Azərbaycan kəndləri və rayonları ilə əhatə olunmuşdur. Deməli, düşmənlər və hücum edənlər azərbaycanlılar imiş?! Oxuculara məlum olsun ki, Çardaxlı kəndi Azərbaycan SSR-in Şamxor (Şəmkir) rayonunun dağ kəndlərindən biri olmuşdur.

Z.Balayanın erməni və rus dillərində yüksək tirajla çap olunmuş "Ocaq" kitabı fitnəkarlıq, qatı millətçilik və düşmənçilik ruhundadır. Bu kitabda özgə əraziləri barədə çoxlu sayda həyasız iddialar verilmişdir. Burada həmçinin əsl həyasızlığa yol verilmişdir.

Buna bənzər çoxlu misallar gətirmək olar.

Erməni mətbuatında, Ermənistan SSR-də nəşr olunan tədris, elmi-populyar ədəbiyyatda çoxlu gerçəklikdən kənar və təhrif olunmuş məqamlar vardır.

V.L.Veliçkonun müşahidə etdiyi kimi, "...bu məktəblərdə (söhbət erməni icma məktəblərindən gedir. – S.M., T.M.) az qala Voronejə qədər, paytaxtı da Tiflisdə olmaqla Böyük Ermənistanın xəritələri də verilmişdir...".

V.L.Veliçko Bakıda kök salmış "neft sənayeçilərindən olan erməni mesenatlarının" özünəməxsus təcavüzkarlığını, onların öz qonşularının hesabına varlanmaq meylini (elə bizim zəmanəmizdə də bir çox erməni müəllifləri məhz belə hərəkət edirlər) qeyd edir. O, belə yazır: "Tarixi-arxeoloji sahədə onlar gürcüləri ən vicdansız şəkildə qarət edirlər: abidələrin üzərindən gürcü yazılarını qaşıyıb tökürlər, kiçik qədim pravoslav kilsələrini, tərk edilmiş kilsələri zəbt edirlər, tarixi mənasızlıqlar quraşdırırlar və hər bir daşın belə gürcü çarlığının keçmişindən xəbər verdiyi vilayətləri qədim erməni vilayətləri kimi göstərirlər".

S.Ağayanın "Erməni xalqının tarixi taleyində Rusiyanın rolu" kitabında da çoxlu antiazərbaycan boşboğazlıqları vardır.

Marşal İ.Baqramyanın xatirələrində minlərlə azərbaycanlıları məhv etmiş Andranik ən məsuliyyətsiz bir şəkildə tərifləmir.

Əksər erməni tarixçilərinin əsərlərində ayrı-ayrı tarixi hadisələrin və faktların qiymətləndirilməsində heç bir elmi təhlil yoxdur. Bu tarixi hadisə və faktlar çox vaxt Ermənistanın əzəmətliyi ideyası naminə təhrif olunur, xalqlararası dialoqun möhkəmləndirilməsinə heç də kömək etməyən xarakteristikalar verilir. "Ermənistan"la termini başqa bir, tamamilə özgə və əslində də keçici bir anlayış – "Böyük Ermənistan" əvəz olunur. Guya "Böyük Ermənistan" bir çox əsrlər müddətində dənizdən (Xəzər dənizindən) dənizə qədər (Qara dənizə qədər) sahəni əhatə etmişdir. Bu əsərlərdən Naxçıvana və Azərbaycanın başqa torpaqlarına olan iddiaları əsaslandırmaq məqsədilə istifadə olunur.

"Erməni xalqının tarixi" adlı kitab da bu baxımdan son dərəcə səciyyəvidir. Bu kitabda da müəlliflər erməni xalqının müstəsnalığı kimi cəfəng ideyadan, bu xalqın tarixini qədimləşdirmək, ona bəzək-düzək vermək meylindən yaxa qurtara bilməmiş, işğalçılıq planlarından əl çəkməmişlər. Özgə torpaqlarının zəbt edilməsi ən vicdansız bir şəkildə ermənidilli vilayətlərin "birləşdirilməsi" kimi qələmə verilir, Qarabağ və Naxçıvan erməni torpaqları adlandırılır və s.

A.Ş.Mnatsakanyan kimi müəlliflərin əsərlərində özbaşınalıq və saxtakarlıq həddini aşmışdır. A.Ş.Mnatsakanyanın "Qafqaz Albaniyasının ədəbiyyatı haqqında" adlı kitabında ərazi məsələlərinə bütövlükdə nə az, nə də çox, düz 50 səhifədən çox, yəni bütün əsərin dörddə biri həsr edilmişdir.

Qondarma "Böyük Ermənistan" xəritələri heç də həmişə "Böyük Ermənistan"a bilavasitə dəxli olan əsərlərə yapışdırılmamışdır. Bu cəhətdən bir erməni yazıçının yubileyi münasibətilə nəşr olunmuş həcmcə kiçik kitablar seriyası səciyyəvidir. Bu kitablara "Ermənistan Mesrop Maştotsun dövründə. 360-440-cı illər" xəritələri yapışdırılmışdır. Axı belə bir Ermənistan, hər halda nə IV əsrin son rübündə, nə də V əsrin birinci yarısında mövcud olmamışdır. "Böyük Sovet ensiklopediyasında" verilmiş "Böyük Ermənistan" adlı məqalədə baxın nə deyilir: "387-ci ildə o (yəni "Böyük Ermənistan" – S.M, T.M.), İran Sasaniləri ilə Bizans arasında bölünmüşdü". Elə eyni fikir "Ermənistan SSR" məqaləsində (Tarixi oçerk; 19-cu əsrə qədər olan bölməni akad. S.T.Yeremyan yazmışdır) təkrarlanır. 1977-ci ildə P.M. Muradyanın "Ermənistanın gürcü epiqrafikası" kitabı nəşr olunmuşdur. Burada da, Ermənistandakı gürcü sənədlərinə həsr olunmuş kitabda yenə də elə həmin "Böyük Ermənistan"ın xəritəsi verilmişdir. Bu sənədlərdən ən qədimi XI əsrə aiddir.

Buna bənzər işlər bu yaxın vaxtlarda Qarabağda da edilmiş və güman ki, elə indi də edilməkdədir. Məgər Eminin, Xudabaşevin, Yeritsovun və başqalarının kitablarında gürcülərin tarixi gürcü torpaqlarına hüquqları inkar edilmirmi?! Məgər erməni elitası keçən əsrdə Senkovskinin vasitəsilə belə şayiələr yaymırdımı ki, guya Gürcüstanda gürcülər olmamışlar, burada ermənilər və başqa xalqlar yaşamışlar? Yaxud belə demirdilərmi ki, Gürcüstanın böyük bir hissəsi Tiflislə birlikdə lap qədimlərdən ermənilərə məxsus olmuşdur?

Böyük gürcü yazıçısı və ictimai xadimi İlya Çavçavadzenin "Erməni müdrikləri və fəryad edən daşlar" əsəri erməni plutokratiyasının yuxarıda qeyd edilmiş xüsusiyyətinə həsr edilmişdir.

Keçən əsrdə erməni alimləri aldatdıqları xaricilərin dili ilə də "Böyük Ermənistan"ın Qafqazda yeganə dövlət olması ideyasını təbliğ etmişlər. Onlardan biri yazmışdı: "... Qafqaz gələcək ermənilə-

rindir; onların (gürcü və tatar-azərbaycanlı) qonşularına isə ermənileşməkdən başqa bir şey qalmır".

Beləliklə, erməni elitasının təcavüzkarlığı nəinki Azərbaycan və azərbaycanlılara, eyni zamanda, Gürcüstana və gürcülərə yönəldilmişdi. Bu, erməni elitasının əsl simasıdır.

Qonşu torpaqlarının hesabına (Zaqafqaziyada bu torpaqlar başlıca olaraq tarixi Albaniyanın torpaqlarıdır), əsasən də erməni tədqiqatçılarının təxəyyülündə yaradılmış "Böyük Ermənistan", şübhəsiz, xeyli dərəcədə uydurmadan ibarətdir.

Bu fitnə-fəsad, yalan dolu kitablarda oxucuya da belə təlqin edilir ki, Qarabağ (Artsax-Xaçen), Naxçıvan, Paytakaran (Bərdə.– Red.) və başqa torpaqlar Ermənistanın tarixi vilayətləri olmuş, *"qədim* erməni torpaqları sayılmış, "Böyük Ermənistan "mərkəzləşdirilmiş dövlətinin" *ayrılmaz* (kursiv bizimdir. – S.M., T.M.) hissəsini təşkil etmişdir".

II Rus-İran müharibəsi dövründə (1826-1828) erməni əsilli X.B.Lazarev çar hökumətinə bir layihə təqdim etmişdi ki, onun da əsas məqsədi Rusiya imperiyası tərkibində erməni çarlığının yaranması idi. Rusiya dövlətinin hakim dairələri üçün bu ideya imperiyanın ucqarında xristian bufer dövləti yaradılması üçün əsas olmuşdur. Rus-İran müharibəsi qurtardıqda I Nikolayın (1828-ci il 21 mart) Fərmanına əsasən, Naxçıvan və İrəvan xanlıqları ləğv edilmiş və onlar "erməni vilayətləri" adı altında bir inzibati vahiddə birləşdirilmişlər. Çar hökumətinin bu tədbirindən qanadlanmış, həvəsə gəlmiş Lazarev və başqa erməni xadimləri Azərbaycanın digər torpaqlarının – Şəki və Şamaxı xanlıqlarının hesabına Erməni vilayətinin ərazisini artırmağı təklif etmişlər.

Şübhəsiz ki, bu torpaqlar *"əsl", "qədim", "ayrılmaz"* erməni torpaqları olmamış və ola da bilməzdi. İş burasındadır ki, bütün bu torpaqlara ermənilər sonradan gəlmişlər. Necə ola bilər ki, erməni ayağı dəyən torpaq qədim erməni torpağı adlansın?!

Məlumdur ki, bir yerdən başqa yerə köçürülmə hələ ən qədim zamanlardan mövcud olmuşdur. Yeni ərazilər fəth etmək məqsədi güdən bu siyasət dinc xarakter daşımışdır. Lakin sovet dövründə belə ermənilər bu siyasəti faciə kimi qələmə vermək üçün hər cür saxtakarlığa əl atmışlar. Məşhur rus rəssamı V.Vereşaginin "Müharibə

apofeozu" adlı rəsm əsərlərindən də öz məqsədləri üçün istifadə etməyə çalışmışlar.

Əsərdə insan kəllələrindən toplanmış təpələr təsvir olunub. Rəssam bu əsəri 1871-ci ildə çəkib, özü isə I Dünya müharibəsindən on il əvvəl dünyasını dəyişib. Rəsm əsərlərinin obyekti heç vaxt ermənilər olmayıb. Ancaq erməni saxtakarlığı burda da öz işini görüb. Rəsm əsərlərin fotoreproduksiyasını çıxararaq altında "1905-1917-ci illər" yazılıb. Guya, bu kəllələr soyqırımına məruz qalmış ermənilərə məxsusdur və s.

"Böyük Ermənistan" haqqında yazmış müəlliflər, məsələn, Pavstos Buzand, Movses Xorenatsi və başqaları erkən orta əsrlər erməni tarixçilərinin əsərlərinə əsaslanırlar və bu zaman son dərəcə mühüm bir cəhəti unudurlar ki, Pavstos Buzandın və ya Movses Xorenatsinin təsvir etdikləri mənzərə real gerçəkliyi deyil, "onların öz ideallarını – zərdüşti İranının təhlükəsinə qarşı duran vahid birləşmiş Ermənistanı ehtiva edib. Şübhəsiz, bu mənzərə gerçəkliyi təhrif edib, çünki IV əsrdə vahid və birləşmiş Ermənistan olmayıb.

Erkən orta əsrlər erməni müəlliflərinin az qala bütün Qafqaz Albaniyasını əhatə etmiş "Böyük Ermənistan"ın əzəməti barədə uydurmalarını, "Ermənistanın Şərq diyarı haqqında", "Şimal-Şərq diyarı haqqında", "Şərq diyarı haqqında", "Qədim Ermənistan haqqında", "Aqvan diyarı haqqında" (erməni tədqiqatçıları suveren alban çarlığını bu cür təqdim edirlər) özünəməxsus böyük "dövlətçilik" şovinist dələduzluqlarını nə qədər məyusedici olsa da, bəzi sovet erməni tarixçiləri şüurlu surətdə müdafiə etmiş və yaymışlar. Sonrakı dövrlərdə erməni ədəbiyyatında "Şərqi Ermənistanın qədim vilayətləri" (yəni Albaniya), "Ermənistanın ayrılmaz hissələri", "Ermənistanın əsl vilayətləri", "Ermənistanın Şərq diyarı" və s. kimi ifadələr getdikcə daha tez-tez müşahidə olunur ki, bu da orta əsrlər erməni tarixçilərinin yalanı üzərində qurulmuş çox böyük və məqsədyönlü piyardan başqa bir şey deyildir. Beləliklə də, tarix təhrif olunub.

Bu ziddiyyətli mənbələr – bəzən təsvir edilən hadisələrin baş verdiyi dövrdə yaşamış antik müəlliflərin məlumatları ilə ziddiyyət təşkil edən bu qaynaqlar – çox vaxt ağ yalanı həqiqət kimi təqdim edir, hətta öz qan qardaşlarının barəsində yalanlar uydururlar.

Qarabağ heç bir zaman erməni mədəniyyətinin mərkəzlərinə aid olmamışdır (İ.P.Petruşevski). Mahiyyət etibarilə Qarabağ abidə-

lərinin ermənilərə məxsusluğuna aid edilən yeganə sübut bu abidələr üzərindəki yazılardır, lakin bu da həmin abidələrin etnik məxsusluğunu sübut etmək işində əsas sayıla bilməz. Şərqin bir çox xalqlarının demək olar ki, bütün orta əsr elmi ədəbiyyatı və digər ədəbiyyatı ərəb və fars dillərində yazılmışdır.

Elə həmin xalqların bütün epiqrafikası, qəbirüstü daşları həmin dillərdə yazılırdı. Demək olar ki, bütün orta əsrlər boyunca Avropa ölkələrində latın dili elmi dil olmuşdur və s. Bundan əlavə məlumdur ki, müasir fransızlar, ingilislər, portuqaliyalılar, misirlilər öz qədim dillərində danışmırlar, lakin buna görə onlar fransız, ingilis və i.a. olmaqlarından çıxmırlar.

Cənubi Qafqaz tarixinin gözəl bilicisi akademik İ.A.Orbelinin mülahizələrindən bəzilərini misal gətirmək yerinə düşərdi. İ.Orbeli yazırdı: "IX əsrdə Albaniyanın mis mədənlərinin olduğu yerlərdə erməni xristian təbliğatının və "maarifçilik" fəaliyyətinin bu qədər güclənməsinin və alban xalqı olmasa da, alban tayfalarının əşyavi, eləcə də ədəbi irsinin kobud şəkildə təhlil edilməsinin, Tatsitdən tutmuş Stefan Orbelinə qədər (XIII əsr) bütün millətlərdən və dinlərdən olan yazıçıların həmin xalqın həqiqi mədəni siması haqqında dolaşıq fikirlər söyləməsinin həqiqi səbəbi Albaniyanın müstəmləkələşdirilməsi və onun əhalisinin milli simasını tam məhv etməklə həmin əraziləri müstəmləkələrə çevrilməsi cəhdi ilə bağlıdır".

Albaniyada da biz həmin mənzərə ilə qarşılaşırıq və öz xalqına nisbətən erməni əyanlarına daha çox bağlı olan alban feodalları gələcək müstəmləkəçilər – erməni feodalları üçün çox əlverişli zəmin hazırlamışdılar; "XII əsrin sonuna doğru Albaniya nəinki özünün adını itirmişdi, eyni zamanda o, hələ əvvəlki əsrlərdə cənubdan – Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin də xeyli hissəsindən məhrum olmuşdu...". "Syuniya kimi əhalisi yarıalban, yarıerməni olan cənub vilayətlərində erməni feodalları xristianlığı zorla yayır, yüksək təbii cazibədarlığa malik olan rayonları "səma himayəçilərinə" təhkim etmək məqsədi ilə fəaliyyətə başlamışdılar". Burada və işğal olunmuş digər vilayətlərdə yeni monastırlar tikilirdi ki, onlar da xəritədə "Allaha xoş olan" yerləri qeydə alırdılar. Albaniyanın keçmiş cənub ucqarlarında olan belə monastırlardan birinin "mis mədənlərindəki Allah vadisi" kimi obrazlı ad alması əbəs deyildi. "...Şimali

Ermənistan, daha doğrusu, indiki Dağlıq Qarabağ erməni feodalları tərəfindən işğal edilmişdi".

S.T.Yeremyan əminliklə yazmışdır: "Xeyli hissəsi ərəblərdən əvvəlki dövrə aid olan xristian abidələrinin çox böyük qismi *qədim Albaniyanın ermənileşdirilmiş hissəsində, qədim alban vilayətləri* olan *Artsax* (Yuxarı Qarabağ və Ermənistan SSR-in Şamşadil və İcevan rayonları da daxil olmaqla Kiçik Qafqazın qonşu şimal-şərq qolları) və hazırda əsas etibarilə erməni əhalisinin yaşadığı Utikin ərazisində saxlanılmışdır (kursiv bizimdir. – S.M., T.M.).

İ.Orbeli və S.Yeremyan kimi akademikləri faktları bilməməkdə və yaxud vətənpərvər olmamaqda təqsirləndirmək olmaz.

Doğrudur, son vaxtlar nəinki alimlər, ümumiyyətlə bütün savadlı adamlar indiki DQMV-nin ərazisinin qədim alban torpağı olması və onun əhalisinin sonradan ermənileşdirilməsi haqqında məlumatlara malikdir. Ancaq bu cür aşkar faktlar müxtəlif ibarələrin köməyi ilə erməni ortodoksları tərəfindən tarixdən tamamilə silinib atılır. Lakin faktları silməklə müvəffəqiyyət əldə etmək mümkün deyil, çünki son arxeoloji tədqiqatlar ermənilərin Qarabağ ərazisinə sonradan gəldiyini sübut edir.

Budur, xüsusi tədqiqatda belə deyilir: "Qeyd etmək maraqlıdır ki, Qarabağın ermənileri üçün... müqayisəli cədvəl üzrə ən yaxın olanları azərbaycanlıların və ləzgilərin iki qrupudur, dış sistemi birbirinə yaxın olanların birinci onluğunda qruplardan üçü – Azərbaycan, kumıklar, ləzgilər, digər üçü isə – Qara dəniz boyu, adıgeylər və yalnız *biri ermənidir* (kursiv bizimdir. – S.M., T.M.)

...Ermənilərin Qarabağ vilayətində məskunlaşdıqları vaxtdan bəri onlar dillərini, mədəniyyətlərini, dinlərini və etnik mənlik şüurunu saxlamışlar. *Ehtimal ki, iki dənizi birləşdirən Zaqafqaziya vadisinin əhalisi ilə qarışaraq ən yaxın etnik qrupları assimilyasiya etmişlər və öz tərkiblərinə daxil etmişlər"* (kursiv bizimdir. – S.M., T.M.).

Sitat gətirilmiş yuxarıdakı məqalənin yer aldığı külliyyatın müəllifləri haqlı olaraq belə güman edirlər ki, dış morfologiyası zəminində insan populyasiyalarının fenocoğrafi tədqiqatları tarixi xarakter məsələlərinin həlli işində mühüm materialdır.

Beləliklə, erkən orta əsr dövründən başlayaraq bizim günlərə qədər erməni tarixçiləri tərəfindən uydurulmuş bu böyük yalan puça çıxır.

Erməni tarixşünaslığında artıq çoxdan belə bir fikir formalaşdırılıb ki, indiki (Sabiq) Yuxarı Qarabağın ərazisi Ermənistanın "ayrılmaz" hissəsidir. Bu cəfəng "baxışların" əsası hələ keçən yüzillikdə erməni elm və mədəniyyətinin xadimləri (M.Çamçyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və b.) tərəfindən qoyulmuş və Y.A.Manandyan və xüsusilə, S.T.Yeremyan tərəfindən "konseptual" cəhətdən işlənib sabitləşdirilmişdir. Bütün erməni şərqşünas tarixçiləri indiyədək məhz həmin uydurma, saxta mövqelərdən çıxış edirlər.

Lakin bir çox "tarix kitabları" da var ki, bunlar faktların başa düşülməməsinə və yaxud təhrif edilməsinə əsaslanan, tamamilə uydurma mühakimələrdən ibarətdir. Lakin bütün bu "tədqiqatları" eyni bir amal birləşdirir, daha doğrusu, onlar bu və ya başqa dərəcədə iki əsas tezisin sübut edilməsinə (bilavasitə və ya dolayısı ilə) xidmət edirlər.

1. Kürün sağ sahilinin (DQMV-nin yerləşdiyi ərazi) az qala 600 il müddətində (b.e.ə. II əsrdən b.e. IV əsrinədək) Ermənistanın tərkibində olması. Həmin dövr ərzində bu regionun qeyri-erməni əhalisi o dərəcədə ermənileşmişdir ki, onları nə etnik və dil cəhətdən, nə də maddi və mənəvi mədəniyyət baxımından ermənilərdən fərqləndirmək mümkün deyil.

2. Kürün sağsahil ərazisində lap qədimdən ermənilər yaşamışdır (əsas etibarilə Artsaxda). Qarabağdakı və başqa vilayətlərdəki yerli əhali hazırkı vaxtacan erməni xalqı ilə etnik-mədəni birliyini saxlamışdır.

Birinci dəlilə müraciət edərkən qeyd etmək zəruridir ki, əgər əvvəllər S.Yeremyanın əsərlərində Kürün sağ sahilində ermənilərdən ibarət olmayan yerli əhalinin – udinlərin olması hələ inkar edilmirdisə, onun sonrakı əsərlərində və bir sıra davamçılarının əsərlərində bu əhalinin mövcudluğu tamamilə inkar edilir.

Lakin erməni olmayan bu əhali haqqında bəzən danışılırdısa da, bu, etinasızcasına edilirdi, ondan tezliklə yaxa qurtarmağa, onu assimilyasiya etməyə, erməni dilinə keçməyə məcbur etməyə çalışırdılar, çünki bu əhali əsas konsepsiyaya çox mane olurdu. Bu meyil A.Mnatsakanyanın, Ş.Smbatyanın, A.Akopyanın və başqalarının əsərlərində daha qabarıq şəkildə özünü göstərmişdir.

Əslində isə Kür və Araz çayları arasında yaşayan etnik birliklərin məskənləri göstərilən müəlliflərin şərhi uyğun gəlmir. Bu regio-

nun əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarilə min illərlə Böyük Qafqazla Araz çayı arasında yaşamış yerli Qafqaz etnik qrupları ilə sıx surətdə bağlı olmuşdur. Burada əsas etnik kütlə Herodota məlum olan utilərdən və bir sıra digər tayfalardan ibarət olmuşdur.

Alban tayfası olan utilər çaylar arasında kifayət qədər böyük ərazisini tutmuşlar və Uti (yunanca Otena, ermənicə Utik) və Artsax əyalətlərinin əsas əhalisini təşkil etmişlər. Hətta "erməni tarixinin atası" Movses Xorenatsiyə görə, albanların əfsanəvi sərkərdəsi Aranın nəsilləri "bizim vətənimizin (yəni Ermənistanın) şimal tərəfində, yəni erməni dilinin sərhəddində" yaşamışlar.

Bu ərazi Aran adlanırdı və elə Kür və Araz çaylarının arasını tuturdu. "Araz çayından başlayaraq Xnarakert qalasına qədər (sonralar – Xunan, Kürün Xrami ilə qovuşduğu yerdə) alban düzənliyini və bu düzənliyin dağlıq hissəsini əhatə edirdi". Xorenatsiyə görə, Aranın əhalisi albanlarla vahid mənşəyə malik olan utilərdən, qarqarlardan və tsodlardan (Artsaxda yaşamış etnik qrup) ibarətdir.

Yuxarıda qeyd olunduğu kimi, əhəmiyyətlidir ki, erməni ənənəsi özü tarixi albanları müasir udinlərlə eyniləşdirir. Utilərin uzaq nəsilləri olan udinlər hazırda da Azərbaycan Respublikasında yaşayırlar. Udinlərin-utilərin dili hind-Avropa erməni dili ilə heç bir ümumi əlaqəsi olmayan İberiya – Qafqaz dil qrupuna aiddir. Bundan əlavə, V əsrin əvvəllərində, məhz qədim udin dilinin dialektlərindən birində – qarqar dilində 52 hərfdən (erməni dilində – 36 hərf) ibarət müstəqil alban yazısı meydana gəlmişdir. Evangeleyə tərcümə edilmiş, sonra isə orijinal alban dünyəvi və kilsə ədəbiyyatı yaranmışdır.

Həmin vaxtdan başlayaraq Uti və Artsax alban çarlığının siyasi, iqtisadi və mədəni həyatının mərkəzləri idilər. Albaniyanın paytaxtı Partav (Bərdə) məhz Utidə yerləşmişdir.

Güman ki, elə həmin qədim udin alban dili ərəb coğrafiyaşünaslarının xəbər verdiklərinə görə, Aranda (Albaniyada) lap X əsrə qədər saxlanmışdır və paytaxtın əhalisi və onun ucqarları bu dildə danışmışdır.

Kürün sağ sahilindəki udin əhalisinin özü isə hələ XIX əsrin sonlarında Seysulan kəndində (indiki Ağdərə ətrafında) saxlanmışdır. Tarixi faktlar sübut edir ki, Utinin və Artsaxın udin (alban) əhalisinin

ermənilik haqqında tezisin Albaniyadakı həqiqi etnik proseslərlə heç bir əlaqəsi yoxdur.

Yuxarı Qarabağın erməni dilli əhalisi (XIX əsrdə buraya köçürülənlərdən başqa) – *ermənilşdirilmiş yerli əhalinin – müxtəlif alban tayfalarının – utilərin, tsodların nəsilləridir* (heç kim yox, erməni müəllifi Moisey Xorenatsi onları albanların ulu əcdadı və hakimi Aranın nəsilləri adlandırır) və b.

Yuxarı Qarabağın əhalisinin etnik tərkibinin pozulmasına və ermənilərə çevrilməsinə gəldikdə, qeyd etmək lazımdır ki, bu, bir neçə mərhələdən keçən və heç bir kəs üçün sirr olmayan tamamilə aşkar səbəblərə malik olan mürəkkəb və çoxəsrlik etnik-siyasi və etnik-mədəni proses olmuşdur.

Birinci mərhələ – çayarasının alban əhalisinin (xüsusilə keçmiş Qarabağın ərazisinin) qriqorianlaşdırılması, güman ki, X-XII əsrlərdən başlamışdır. Bu prosesin daxili kökləri yox idi; bu, alban etnik birliyinin təbii təkamülü deyildi. Bu proses 704-cü ilin məlum kilsə məclisindən sonra avtokefal alban kilsəsi erməni kilsəsinə tabe edildiyi bir vaxtda ərəb xilafətinin və erməni katolikosluğunun Albaniya barəsində yürütdükləri siyasətlə sıx bağlı olmuşdur. Tamamilə aşkar siyasi və başqa səbəblər üzündən qriqorianlaşdırma Albaniya əhalisinin monofizitçiliyə riayət edən hissəsinin ermənileşməsinə səbəb oldu. Eyni zamanda da alban əhalisinin digər hissəsi islamı qəbul edərək müsəlmanlaşır ki, bu da sonralar alban əhalisinin bu hissəsinin türkləşməsi prosesini sürətləndirmişdir. Lakin hər iki halda yerli alban əhalisinin müstəsna olaraq mədəni-ideoloji assimilyasiyasından söhbət gedə bilərdi. Bu, xüsusilə dağ rayonlarına, yəni məhz Qarabağın (Xaçenin, Dizakın, Varandanın) ərazisinə aiddir. Bütün bu proseslər ədəbiyyatda kifayət qədər inandırıcı şəkildə nəzərdən keçirilmişdir.

Qarabağda dini-ideoloji parçalanmadan istifadə edən rus imperiyası xristian albanlarını milli köklərindən ayırıb xristian ermənilərə assimilyasiya etməklə xristian toplumu, erməni dövləti yaratmaq niyyətində idi.

...Erməni mənşəli müəllif A.Xan-Aqov yazır: İrandan gəlmə ermənilər, yerli Qarabağ ermənilərindən (xristian albanlardan – S.M., T.M.) dilləri, hətta geyimləri ilə fərqlənirlər. İran ermənilərı yerli

ermənilərin dilini başa düşmürlər. Lakin gəlmələr tezliklə yerlilərin dilini unutdurdular.

Qarabağın dağ rayonlarının qriqorianlaşdırılmış və xeyli dərəcədə ermənileşdirilmiş əhalisinin etnik cəhətdən assimilyasiyaya uğraması (bu da tam olmayıb!) sonralar baş vermişdir. Yeri gəlmişkən, bu məlum həqiqəti savadlı adamlar hələ XIX əsrdə yaxşı bilmişlər. Yuxarıda adı çəkilmiş V.L.Veliçko yazmışdı: "Qarabağın səhv olaraq erməni adlandırılmış,... erməni-qriqorian dininə etiqad etmiş... və yalnız üç-dörd əsr bundan əvvəl ermənileşmiş sakinləri istisna təşkil edir".

Başqa erməni müəllifi B.İşxanyan yazırdı: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigendirlər, qədim albanların nəsilləridir... bir hissəsi isə Türkiyədən və İrandan qaçıb gələnlərdir. Onlar üçün Azərbaycan torpağı təqiblərdən və təhdidlərdən qorunmaq üçün sığınacaq olmuşdur".

Beləliklə, hadisələrin təhlili tarixi və faktlar göstərir ki, ermənilər tərəfindən bütün proseslər planlı, məqsədyönlü və düşünülmüş şəkildə keçirilmişdir: 1. Cənubi Qafqazda kütləvi şəkildə məskunlaşdırmalar (XIX əsr); 2. İlk etnik inzibati ərazilərin yaradılması; 3. XX əsrin əvvəllərində Cənubi Qafqazın mərkəzi şəhərdə Tiflisdə əhali üstünlüyünə sahib olmaları; 4. Milli zəmində qarşıdurmaların baş verməsinə səbəb olmaları, nəticədə etnik sıxışdırma və təmizləmə yolu ilə ermənilərin yaşadığı vahid etnik tərkibə malik ərazilərin yaradılması (1905-1906-cı illər erməni-Azərbaycan qarşıdurması, 1918-1920-ci illər erməni-Azərbaycan və erməni-gürcü müharibəsi, 1948-1953-cü illər azərbaycanlıların deportasiyası, 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1989-cu ildə Gürcüstandan azərbaycanlıların deportasiyası).

Amma təkzib olunmaz faktlara, qanlı hadisələrə baxmayaraq, ermənilər dünya ictimaiyyətinə çoxəsrlik, erməni saxtakarlığının tərkib hissəsi olan qondarma və uydurma "erməni soyqırımı" mifini məkrli ustalıqla yeridə bilmişlər. "Erməni soyqırımı" əfsanəsi altında başqa xalqlara, xüsusən türklərə və azərbaycanlılara qarşı amansızlığı və qəddarlığı ilə seçilən soyqırımlar törətmişlər.

Şərqə təsir dairəsini genişləndirmək, regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən Çar Rusiyası hələ XVII

əsrin sonu və XVIII əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən məhz "erməni kartı"ndan siyasi alət kimi yararlanmağa çalışmışdır. Kütləvi soyqırım və deportasiyaların qanlı tarixi isə Rusiya ilə İran arasında gedən iki müharibənin (1804-1813 və 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələrindən sonra başlanmışdır.

Həmin müqavilələr xalqımızın tarixində faciəvi rol oynamış, Azərbaycanın parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdur. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir. Türkmənçay müqaviləsindən sonra imperator I Nikolay 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti"nin yaradılması haqqında əmr imzalamışdır. Həmin əmrə əsasən, o zaman 7.331 azərbaycanlının və 2.369 erməninin yaşadığı İrəvan şəhəri də "Erməni vilayəti"nin tərkibinə daxil edilmişdi. Bunun ardınca Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan ermənilərin İrəvan, Qarabağ və Naxçıvana kütləvi şəkildə köçürülməsinə başlanılmışdı.

Tarixi mənbələrə əsasən, təkcə 1828-1830-cu illər ərzində İrandan 40 min, Türkiyədən isə 84 min erməni Cənubi Qafqazda, Azərbaycan ərazisində yerləşdirilmişdir. Çar Rusiyasının himayəsi altında "Erməni vilayəti" adlandırılan süni inzibati bölgənin yaradılması isə azərbaycanlıların əzəli torpaqlarından zorla çıxarılmasının və soyqırımı siyasətinin bünövrəsini qoydu. Qafqaz Arxeologiya Komissiyasının sənədlərində birmənalı qeyd olunur ki, Türkmənçay sülh müqaviləsinə qədər Qarabağ xanlığında 12 min ailənin 2,5 min nəfəri, Şamaxı xanlığında 24 min ailənin 1,5 min nəfəri, Şəki xanlığında isə 15 min ailənin üçdə biri erməni idi. 1828-ci ilin məlumatına görə, İrəvan xanlığı ərazisində torpaqların 96,63 faizi azərbaycanlılara, cəmi 3,37 faizi ermənilərə məxsus idi. 1826-1828-ci illər Rusiya-İran müharibəsində təkcə İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların 420 kəndi yerlə yeksan edilmişdir. 1828-1871-ci illər arasında ermənilər azərbaycanlı əhali yaşayan 146 kəndi zəbt edərək özününküləşdirmişlər.

XIX əsrin ikinci yarısında "Böyük Ermənistan" xülyasına düşən, millətçi-şovinist ideyalarını həyata keçirmək istəyində olan ermənilər təşkilati strukturlar yaratmağa başlamışlar. Əsasən, xaricdə – 1887-ci ildə

Cenevrədə "Qnçak", 1890-cı ildə Tiflisdə "Daşnaksütun" partiyalarını təsis etmiş, 1895-ci ildə Nyu-Yorkda "Erməni Vətənpərvərlər İttifaqı" təşkilatını yaratmışlar. Həmin təşkilatların fəaliyyət proqramında azərbaycanlılara və türklərə qarşı ardıcıl olaraq terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tutmuşdur.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları birinci rus inqilabı dövründə – 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişlər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri və vandallıqları Azərbaycanı və indiki Ermənistan ərazisindəki yaşayış məntəqələrini əhatə etmişdir.

Tarixi qaynaqlar göstərir ki, ermənilər Bakıya XIX əsrin 70-ci illərindən gəlməyə başlamışlar. Bu elə bir dövr idi ki, şəhərin iqtisadiyyatı sürətlə inkişaf edir, Abşeronda illik neft istehsalı 200-300 min puda çatırdı. Həmin illərdə Çar Rusiyasının havadarlığı ilə Bakıya axışan ermənilər neft sənayesi, ticarət və bank işi sahələrində üstünlüyü ələ keçirmiş, qısa vaxtda iri kapitalistlərə çevrilmişdirlər. Bu illərə qədər isə Bakı və onun ətraf kəndlərində ermənilər barmaqla sayılacaq qədər azlıq təşkil edirdilər. 1905-ci il fevralın əvvəllərində Bakı şəhəri və quberniyasında baş vermiş ilk erməni-azərbaycanlı qırğınını tədqiq edən senator Kuzminskinin hesabatına görə, həmin ilin yanvarında Bakı quberniyasında 1.057 min nəfər əhali siyahıya alınmışdır. Onlardan 800 min nəfəri müsəlmanlar, 12 faizi ruslar, 9 faizi ermənilər, 3 faizi isə başqa millətlərin nümayəndələri olmuşdurlar.

1904-1905-ci illərdə "Daşnaksütun" Bakıda sosial-demokrat və sosial-inqilabçı adı altında daşnaksütun yönümlü fəhlə təşkilatları yaratmağa başlamışdır. Onların əsas məramı yerli əhali arasında iğtişaşlar, təxribatlar törətmək, qanlı aksiyalar həyata keçirmək idi. Bu cəhdlər təəssüf ki, nəticəsiz qalmamışdı.

1905-ci il fevralın 6-da Bakıda baş verən dəhşətli hadisə isə şovinist ruhlu erməni millətçilərinin etnik zəmində əvvəlcədən planlaşdırdıqları böyük qırğına yol açmış oldu. Həmin gün şəhərin mərkəzində, erməni kilsəsinin yanında, "Parapet" deyilən yerdə varlı, nüfuzlu, çoxlu qohum-əqrəbası olan karxana sahibi, sabunçulu Ağarza Babayev erməni komitəsinin üzvləri tərəfindən qətlə yetirildi. Əh-

valatdan xəbərdar olan Bakı əhli qətl hadisəsindən çox təsirlənmiş və bundan əvvəl də ermənilər tərəfindən bir sıra cinayətlər törədildiyinə görə xalq arasında böyük iğtişaşlar baş vermişdi.

Mixaylov xəstəxanasının tibbi sənədlərinə görə, qırğın başlanan gün erməni milyonçuları B.Lalayevin, A.Babayantsın, İsay Terosipovun və başqa maqnatların havadarlığı ilə terror qrupu tərəfindən 18 adam öldürülmüş, 33 nəfər yaralanmışdı. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətin nümayəndələri idi.

Fevralın 7-də vəziyyət daha da gərginləşmişdi. Həmin erməni terror təşkilatı bu dəfə yüzədək dinc vətəndaşın həyatına son qoymuş və yaralamışdı. Krasilnikovun, Mayılovun, Korsakovun evlərindən, "Madrid" mehmanxanasından yerli əhali – azərbaycanlılar qəfildən güllə yağışına tutulmuşdu. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdılmış və qarət edilmişdi.

Fevralın 8-də Bakı cəhənnəmə çevrilmişdi. Bir tərəfdən bombaların partlaması, digər tərəfdən isə uca və ali imarətlərin uçub dağılması, neft zavodlarının, budkaların yanğından səmaya qalxan alovları insanları çaşdırmışdı.

Beləliklə, 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətliam" kimi daxil olmuşdur.

1905-ci ilin fevralından 1906-cı ilin payızına qədər erməni-azərbaycanlı münaqişələri nəticəsində 10.000 nəfər öldürülmüş, 7 şəhərin və 252 kəndin əhalisinə ciddi ziyan vurulmuşdu.

Birinci dünya müharibəsindən sonra isə Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd etmişlər. Bakı Kommunası əks-inqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin martından bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planının reallaşdırılmasına başlamışdır.

Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər ərazilərdə həyata keçirilmişdir. Bu torpaqlarda dinc əhali kütləvi şəkildə qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir.

1918-ci ildə türk-müsəlman əhaliyə qarşı törədilən cinayətləri üzə çıxarmaq məqsədilə Azərbaycan Xalq Cümhuriyyətinin ən mü-

hüm qərarlarından biri də həmin il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olmuşdur. 1919-cu il avqustun 27-də komissiya tərəfindən tərtib edilmiş arayışda bildirilirdi ki, ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı 36 cild və 3.500 vərəqdən ibarət sənədlər toplanmışdır.

5 yanvar 1918-ci ildə erməni quldur birləşmələri Acaraca, Danqal, Mulanis, Murcaxet, Radızka, Qavur, Gumriz kəndlərinə basqınlar etmişlər. Onların hamısının sakinləri vəhşicəsinə öldürülmüşdür. 21 may 1918-ci ildə isə rus hərbi həkimi Xoroşenkonun məlumatına görə, "Daşnaksütun" erməni terror təşkilatının peşəkar qatilləri Axalkalakidə və ətraf kəndlərdə yüzlərlə azərbaycanlını süngüyə çəkib doğram-doğram etmişlər. Məlumatda deyilir ki, "XX əsrin sivilizasiyalı ermənilərinin vəhşilikləri bax budur". Daha sonra erməni quldur birləşmələri Gürcüstanın Axalsixi ərazisini ələ keçirmişlər. "Daşnaksütun" erməni terror təşkilatının proqramına görə, bura guya "əzəli erməni ərazisidir". Vəhşicəsinə qətlə yetirilən dinc sakinlərin əksəriyyəti gürcülər idi. Həmişəki kimi, yenə də qadınlar, qocalar və uşaqlar erməni qətliamının qurbanları olmuşlar.

1920-ci il iyunun 19-da Tiflisdə Azərbaycanın görkəmli siyasi və ictimai xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri Fətəli xan Xoyski "Daşnaksütun" erməni terror təşkilatının üzvü tərəfindən qətlə yetirilir. Qətl Tiflisin İrəvan meydanında Fətəli xan Xoyskinin Azərbaycan Xalq Cümhuriyyətinin digər görkəmli xadimi Xəlil bəy Xasməmmədovla birlikdə indiki Paliaşvili adına Opera və Balet Teatrının yanından keçərkən baş vermişdi. "Daşnaksütun" erməni terror təşkilatının üzvləri Aram Erkayanın və M.Qriqoryanın silahlı basqını nəticəsində X.Xasməmmədov ağır yaralanmış, F.Xoyski isə öldürülmüşdü. Fətəli xan Xoyskinin "Daşnaksütun" erməni terror təşkilatı tərəfindən qətlə yetirilməsi bütün Zaqafqaziya regionunun demokratik və mütərəqqi qüvvələrinin hiddətinə səbəb olmuşdu.

1919-20-ci illərdə Qafqazda münaqişə zonasında olmuş ingilis jurnalisti Skotland Liddelin Ermənistan və ermənilər haqqında dediyi fikirlər təkcə həmin dövr üçün deyil, bu gün də öz aktuallığını qoruyub-saxlayıb. O demişdi: "Ermənistan əbədi olaraq toqquşma axtarır, nə vaxt ki, ona nail olur, onu öz təbliğatında "təzyiq aləti"

adlandırır və doğrudan da bu əməlli-başlı cəza alətinə çevrilir. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan lazım olduğu kimi istifadə etmək mümkün olsa, onda o, təbliğat işinə çoxlu fayda gətirə bilər" (Yenə orada).

1922-ci il iyulun 25-də Tiflisdə "Daşnaksütun" erməni terror təşkilatının yaratdığı ixtisaslaşdırılmış "Qisas" birləşməsindən olan erməni terrorçuları Ter-Poqosyan və Məlik-Şahnazaryan görkəmli türk siyasi xadimi, Türkiyənin Suriyadakı 4-cü ordusunun baş komandanı Kamal (Camal) paşanı və müavini Surəyyə bəyi öldürmüşlər. Qətlin təşkilatçısı Artaşes Gevorkyan idi. Terror aktı hətta erməni ziyalılarında da hiddət doğurmuşdu. Buna tədqiqatçı, doktor Lepsiusun məlumatları da sübutdur.

1922-ci ilin avqustunda Buxarada "Daşnaksütun" erməni terror təşkilatının üzvü, Saruxanyan soyadlı birisi məşhur türk siyasi və ictimai xadimi, İttihad və Tərəqqi Partiyasının rəhbərlərindən olan Ənvər paşanı qətlə yetirir. Bu cinayət xronologiyası erməni terrorunun və tarixi nifrətin yalnız cüzi bir hissəsini təşkil edir. 1991-ci ildə Sovetlər Birliyinin çökməsi ilə isə erməni vandallarının Dağlıq Qarabağa və Naxçıvana olan ərazi iddiaları beynəlxalq gündəmi zəbt edir.

Ötən illər ərzində Azərbaycan dövləti bu tarixi gerçəklikləri, xalqımızın iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində xeyli iş görmüşdür. "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun şəkildə öz əksini tapmışdır.

Onu da qeyd edək ki, "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti

tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi."

Prezident İlham Əliyev AMEA-nın 2005-ci ilin dekabrında keçirilmiş 60 illik yubiley mərasimindəki çıxışı zamanı ermənilərin cəfəng iddialarına qarşı elmi-ideoloji mübarizənin gücləndirilməsi zərurətini alimlərimiz qarşısında mühüm vəzifə kimi müəyyənləşdirmişdir.

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı qətliamlar və terror aktları "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında əksini tapmışdır: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başladı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədi ilə" erməni xalqının tarixinin saxtalaşdırıl-

masına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".

70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi "vətəndaş müharibəsi", "əksinqilabi qiyam" kimi saxtalaşdırılan mart hadisələri, əslində, bolşevik-daşnak ittifaqının azərbaycanlılara qarşı yeritdiyi növbəti soyqırımı siyasəti idi. Xalqımız uzun illər boyu bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan

tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. 1918-ci il martın 31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımı aktlarından birinə imza atmışlar.

Bu soyqırımı aktı isə əsl hüquqi-siyasi qiymətini Azərbaycanın dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə – 1998-ci il martın 26-da Ümummilli lider Heydər Əliyevin imzaladığı fərman erməni millətçilərinin hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur (20). Qanun 25 iyun 1998-ci ildə "Azərbaycan" qəzetində dərc edilməklə qüvvəyə minmişdir.

Konvensiyanın müddəalarının icra edilməsi üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Soyqırımı" (Maddə 103), "Soyqırımın törədilməsinə təhrik etmə" (Maddə 104) maddələri daxil edilmişdir.

Azərbaycanın və azərbaycanlıların üzləşdiyi bu faciələr ilk dəfə Heydər Əliyev tərəfindən imzalanmış 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə siyasi qiymətini aldı. Fərmanda qeyd olunur: "...Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımını hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir..."

Beləliklə, ilk dəfə Heydər Əliyevin Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmışdır. "Böyük Ermənistan"

xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş davakar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar dəfələrlə xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanimağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Milli Məclisin müvafiq qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir (27 fevral 2007-ci il).

Sual və tapşırıqlar:

– Ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması hansı böyük dövlətlərin marağındadır?

– Erməni separatçılarının məqsədi və bu fəaliyyətin təbliğatçıları kimlərdir və hansı saxta elmi əsərləri çap edilmişdir?

– Ermənilərin Azərbaycan haqqında boşboğazlıqlarını təbliğ edən ziyalılarının, incəsənət xadimlərinin, kinomatoqrafçılarının, yazıçılarının və onların yazdıqları uydurmalarla dolu əsərlərinin adlarını bilirsinizmi?

– Xalqımızın tarixində faciəvi rol oynamış Gülüstan və Türkmənçay müqavilələri nə ilə nəticələnmişdir?

– Kür və Araz çayları arasında yaşamış tayfa və millətlərin adlarını sadalayın və tarixdə hansı dövrləri əhatə etdiyini şərh edin.

AZƏRBAYCANLILARIN SOYQIRIMI: TARİXİN QANLI SALNAMƏSİ

1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri nəticəsində İrəvan xanlığının ərazisində dağıdılmış kəndlərin siyahısı

I. Qırxbulaq mahalında

Küzəcik, 2. İynədüz, 3. Güllücə, 4. Qaracaörən, 5. Tecrəbək, 6. Bezaklı, 7. Qaraqala, 8. Qatırçay (Heydərgöl), 9. Ərzap, 10. Norinus, 11. Damcılı, 12. Kitikən (Kətiqut) 13. Quyulu, 14. Qızqala, 15. Tezxaraba, 16. Babacur, 17. Damagirməz, 18. Dəlləkli, 19. Kankan, 20. Göykilsə, 21. Yaycı, 22. QızıIqala, 23. Çobangərəkməz, 24. Azaklar, 25. Əkikənd (Muradtəpə), 26. Ərzni

II. Zəngibasar mahalında

1.Həsənağa, 2.Sinnik, 3.Qaracalar, 4.Ozanlar, 5.Dərcan, 6.Noraköy, 7.Cəfərabad.

III.Gərnibasar mahalında

1.Məsimli, 2.Taytan, 3.Bayraməliqışlağı, 4.Qulaqsız, 5.Zöhrablı, 6.Kürdkəndi, 7.Şəfiabad, 8.Kir-Bozavand, 9.Baş Gərni, 10.Mürzük, 11.Heyranıs-Uliya, 12.Burduq, 13.Gerkəc, 14.Gilanar-Sufla, 15.Molla Əhməd, 16.Qaqavuz, 17.Şəhriyar, 18.Heyranıs-Sufla, 19.Şoğayib, 20.Kərpicli, 21.Abdallar, 22.Qurbanqala-Uliya, 23.Qurbanqala-Sufla, 24.Ərtiz, 25.Yappa, 26.Əlimərdan, 27.Əliqırağı, 28.Ellicə, 29.Buralan, 30.Sultantəpə, 31.Əzizli, 32.Əlisorki, 33.Qalakəndi, 34.Qarahacılı, 35.Xıdırlı, 36.Ədətli, 37.Taraşköy, 38.Əliqızıl, 39.Bulaqbaşı, 40.Bayraməlikəndi, 41.Purço, 42.İmamverdiqalası, 43.Tərəkəmələr.

IV. Vedibasar mahalında

1.Reyhanlı, 2.Şirazlı, 3.Qaralar, 4.Saray, 5.Cadqıran, 6.Qarabağlar-Sufla, 7.Qarabağlar-Uliya, 8.Talasavan, 9.Şahablı, 10.Zəncirli, 11 .Pünüt, 12.Şorsu, 13.Daşnov, 14.Həsənqala, 15.Cəfərli, 16.Örtük, 17.Vəlican, 18.Keşağlı, 19.Abbasabad, 20.Əli Qızıl, 21.Muradabad, 22.Əliabad, 23.Əliqırıq, 24.Günlük, 25.Baxcacıq, 26.Xamut, 27.Qızılverən, 28.Zimmi, 29.Musacıq, 30.Hand, 31.Qazançı, 32.Xosrov, 33.Haxıs.

V. Şərur mahalında

1.Hacıqara, 2.Qalacıq, 3.Fərhad Arxı, 4.Boşaqışlağı, 5.Daşarx-Uliya, 6.Örtülü Məzrə, 7.Şaban Məzrə, 8.Kərki-Bayat Məzrə, 9.Yovşan Məzrə, 10.Gabud-Məzrə, 11.Dəhnəkənd (Dəmirçiqışlağı).

VI. Sürməli mahalında

1.Vəlican, 2.Talasavan, 3.Abbasabad, 4.Sərhəngabad, 5.Rəsullu, 6.Zəngan, 7.Hacı Abbas, 8.Saxsalı, 9.Atlıca, 10.Qaraçılı, 11.Mərhava, 12.Çıraxlı, 13. İstinax-Çıraxlı, 14.Urumuş, 15.Ər-göv, 16.Göyumus, 17.Qurğan, 18.Qaraçay, 19.Əli Malik, 20.Zor, 21.Əlikeçən, 22.Quşçu, 23.Karvansaray, 24.Əsmə, 25.Quyuca, 26.Çıraxçı, 27.Sarı Hasar, 28. Muça.

VII. Dərəkənd-Parçenis mahalında

1.Qaraqoyunlu, 2.Kiti, 3.Sürməli, 4.Aşıq Hüseyn, 5.Qarabulaq, 6.Qaraqala, 7.Çaldağ, 8.Qazıqoparan.

VIII. Səədli mahalında

1.Xəlilqışlağı, 2.Erməni kövşəni, 3.Səfilər, 4.Mirzəxan, 5.Baş Qışlağı.

IX. Talın mahalında

1.Aylanlı, 2.Siçanlı, 3.Nadirxanlı, 4.Pirmələk, 5.Sutökülən, 6.Ağakiçik, 7.Məzarcıq, 8.Pirtikən, 9.Qaraqala, 10.Çiçəkli, 11.Püsəgən, 12.Çaltəpə, 13.Mustuqlu, 14.Qoruq, 15.Parakənd, 16.Daşqala, 17.Çoturlu, 18.Bəbirli, 19.Sadıqlı, 2O.Zarınca, 21.Aşağı Dəmirçili, 22.Sabunçular, 23.Kiçik Yataq, 24.Kalaşbəy qulası, 25.Bəhlul kəndi, 26.Böyük Qızılqula, 27.Göyərçin.

X. Sərdarabad mahalında

1.Cəfərxan Rəncbəri, 2.Teymurxan kəndi (Dövlətabad), 3.İtköy, 4.Qatırabad (Əbdülabad), 5.Artaşat (Fətabad), 6.Rəhimabad (Molla Bədəl), 7.Keçili, 8.Xam.

XI. Körpübasar mahalında

1.Teymurxan Kolanısı, 2.Ağdamar, 3.Qaraqışlaq, 4.İnəkli, 5.Çobanı, 6.Arpahəvəsik, 7.Haçabağ, 8.İlançalan, 9.Anberd.

XII. Abaran mahalında

1.Qotur, 2.Tezxaraba, 3.Şabanlı, 4.Xaçbulaq, 5.Köhnə Qəzənfər, 6.Bitli, 7.Əmirli, 8.Yarbaş, 9.Məmişkəndi, 10.Qarabulaq, 11.Hamamlı, 12.Kürd Əli, 13.Cancik, 14.Cili-Göl, 15.Şahquluölən, 16.Porsuxlu, 17.Camışlı, 18.Əyribudaq, 19.Muncuqlu, 20.Pəmbək, 21.Günbəz, 22.Sibitağ.

XIII. Dərəçiçək mahalında

1.Ada, 2.Kiçik Ördəkli, 3.Allahapənah, 4.Barat, 5.Qonaqgirməz, 6.Eşşəkquduran, 7.Çobangölü, 8.Keğaç, 9.Maman, 10.Aydın, 11.Şakirbaşı, 12.Misxana, 13.Sutökülən, 14.Çiçəkli, 15.Pirpalıd, 16.Zeynalağa.

XIV. Göycə mahalında

1.Buğdatəpə, 2.Hacımumuxan, 3.Allahverdibəy, 4.Üçtəpə, 5-6. adları unudulub, 7.Kərimkəndi, 8-11. adları unudulub, 12. Yuxarı Altuntaxt, 13. Aşağı Altuntaxt, 14.Dəmirçi Poğos, 15-19. adları unudulub, 20.Əyricə, 21.Atdaş, 22.Axsaxtovuz, 23.Karvansaray, 24.Adı unudulub, 25.Qasımbaşı, 26.Mədinə, 27-32. adları unudulub, 33.Baş Gözəldərə, 34.Xancığazoğlu, 35-38. adları unudulub, 39.QızıIkilsə, 40-44. adları unudulub, 45.Böyükağa, 46-54. adları unudulub, 55.Ağkilsə, 56-57. adları unudulub, 58.Göyçə, 59.Sultanəli, 60.Sətənağac, 61.Karvansaray, 62.Əyricə, 63-64. adları unudulub, 65.Kərimkəndi, 66.Dəli Harutyun, 67.Qəməsar.

5.6. 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilən azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

Zəngibasar rayonundan

1.Qulucan, 2.Sarıcalar, 3.Reyhanlı, 4.Şura kəndi, 5.Həbilkənd (Kalinin qəs.), 6.Seyid kəndi, 7.Ağcaqışlaq (Gedapnya – 1978), 8.Rəhimabad, 9.Cəfərabad (Avanqard – 1946), 10.Göy-kümbət (Qexanist – 1949), 11.Həsənli, 12.Arbat, 13.Hacıelyəz (İpəkli, Darakert – 1978), 14.Şöllü (Daştavan – 1978), 15.Uluxanlı (Zəngibasar – 1937, Masis – 1950), 16.Xaraba Kolanlı (Şorkənd), 17.Dəmirçi (Şöllü), 18.Ağhamzalı (Marmaraşen – 1967), 19.Cəbəcili (Crahovit – 1960), 20.Xərrətli (Arevabyur – 1978), 21.Yuxarı Çarbax, 22.Çobankərə.

Qarabağlar rayonundan

(Bu rayon 1951-ci il martın 19-da ləğv edilərək ərazisi əsasən Vedi və Qəmərli rayonlarına birləşdirilib)

1. Əzizkənd (xaraba qalıb), 2. Əliqırıx (xaraba qalıb), 3. Əlimərdan (xaraba qalıb), 4.Baxçacıq (xaraba qalıb), 5.Bayburd (xaraba qalıb), 6. Böyük Gilanlar (xaraba qalıb), Z.Gölcığın (xaraba qalıb),

8.Dəhnəz (xaraba qalıb), 9.Daşnov (xaraba qalıb), 10.Zimmi (xaraba qalıb), 11.İmirzik (xaraba qalıb), 12.İnqala (xaraba qalıb), 13.Haxıs (xaraba qalıb), 14.Hand (xaraba qalıb), 15.Hortun (xaraba qalıb), 16.Qaladibi (xaraba qalıb), 17.Qaraqoyunlu (xaraba qalıb), 18.Məngüs (xaraba qalıb), 19.Yellicə (xaraba qalıb), 20.Yeranos (Heyranıs) (xaraba qalıb), 21.Şahablı (xaraba qalıb), 22.Şuğayıb (xaraba qalıb), 23.Çimənkənd (Aşağı Qarabağlar – Urtsadzor – 1978), 24.Cəfərli (xaraba qalıb), 25.Seyid Kotanlı (xaraba qalıb), 26. Kotuz (xaraba qalıb), 27.Kolanlı (xaraba qalıb), 28.Küsüz (xaraba qalıb).

Vedi rayonundan

1.Əlməmməd (xaraba qalıb), 2.Avşar, 3.Aşağı Ərmik (xaraba qalıb), 4.Yuxarı Ərmik (xaraba qalıb), 5.Kiçik Vedi, 6.Böyük Vedi (Vedi – 1946), 7.Goravan (Yenikənd – 1968), 8.Daşdı (Daştakar – 1968), 9.Taytan (Vanaşen – 1978), 10.Şıxlar (Lusarat – 1968), 11.Xalisa (Norakert – 1991), 12.Qaralar (Aralez – 1978), 13.Yengicə (Sisavan – 1991), (Haygeşad – 1950), 14.Şidli (Yexeqnavan – 1991), 15.Şirazlı, 16.Ağkilsə (xaraba qalıb).

Qəmərli rayonundan

1.Məsimli (Haygepat – 1949), 2.Cənnətli (Zovaşen – 1940), 3.Axund Bozavand (Bertik – 1935), 4.Doxquz (Kanaçut – 1945), 5.Torpaxqala (Xnaberd – 1949), 6.Göl Aysoru, 7.Qəmərli (Artşat – 1945), 8.Qaradağlı (Tsaxkaşen – 1945), 9.Qaraqoyunlu (xaraba qalıb), 10.Yamancalı (Desxut – 1967), 11.Novruzlu – xaraba qalıb, 12.Çiləxanlı, 13.Sabınçı (Araksavan – 1978), 14.İmanşahlı (Mxçyan – 1935), 15.Qarahamzalı (Burastan – 1978), 16. Darğalı (Anastasavan – 1949, Haygezard – 1957), 17.Dəllər (Dalar – 1935), 18.Çatmadaş (xaraba qalıb), 19.Muğamlı (Hovtaşen –1945), 20.Muxtarabad (xaraba qalıb), 21.Yuxarı Ağbaş (Abovyan – 1949).

Eçmiədzin (Üçkilsə) rayonundan

1.Aşağı Qarxın, 2.Yuxarı Qarxın (Crarat – 1946), 3.Qarğabazar (Haykaşen – 1965), 4.Molla Dursun (Şaumyan), 5.Yuxarı Kolanlı (Qriboyedov – 1978).

Qurduqulu (Oktemberyan) rayonundan

1.İydəli (Pşatavan – 1947), 2.Xeyirbəyli (Yervandaşad – 1967), 3.Hacıbayram (Baxçalar – 1935, Baqaran – 1968), 4.Şahvarid (Uşakert – 1968), 5.Kərimarxı (Sovetakan – 1935), 6.Quzugüdən.

Əştərək rayonundan

1.Təkiyə (Bazmaxpyur – 1949), 2.Əkərək, 3.Hamamlı, 4.Nəziravan, 5.Uşü, 6.Sarımsəyək, 7.Kürdalı, 8.Cadqıdan (Bazmavan – 1957, Nor-Gexi – 1962), 9.İnəkli (Antarat – 1948).

Ellər (Kotayk-Abovyan) rayonundan

1.Dəlləkli (Zovaşen –1948), 2.Qaraqala (Sevaberd –1948), 3.Quyulu, 4.Nurnus, 5.Qoxt, 6.Kankan (Hatis – 1978), 7.Göykilsə (Kaputan – 1935), 8.Zar.

Axta (Razdan) rayonundan

1.Ağverən, 2.Təkəlik (Ardavaz – 1991), 3.Qorçulu, 4.Qaraqala – xaraba qalıb, 5.Qabaxlı, 6.Paşakənd (Marmarik –1935, 6.Üşəlik, 8.Bjni, 9.Dədəqışlaq (Axundov – 1939), 10.Misxana (Hankavan – 1949).

Kəvər (Nor-Bəyazed-Kamo) rayonundan

1.Ağzıbir (Lcap – 1945), 2.Hacı Muxan (Tsovazard – 1978), 3.Ördəkli (Lcaşen – 1946), 4.Güzəcik (Lancaxpyur – 1950), 5.Başkənd (Qexarkunik –1946), 6.Ağqala.

Martuni (Aşağı Qaranlıq) rayonundan

1.Karvansara, 2.Mollalı, 3.Mədinə, 4.Qızılxaraba, 5.Aşağı Alçalı (Artsvanist – 1968), 6.Qaranlıq (Geğhovit – 1968).

Basarkeçər (Vardenis) rayonundan

1.Zod (Sotk – 1991), 2.Yuxarı Zağalı (Axpradzor – 1978), 3.Çaxırlı (Sovetakert – 1978), 4.Qanlı, 5.Qızılvəng, 6.Kərkibaş, 7.Yarpızlı.

Dilican rayonundan

1.Ağkilsə, 2.Murteyil, 3.Polad (Xaçardzap–1991), 4.Göyərçin, 5.Avanqard kolxozu, 6.Salah (Hankavanik –1991).

Əzizbəyov (Vayk) rayonundan

1.Arınc (xaraba qalıb), 2.Bulaxlı (xaraba qalıb), 3. Zeytə (Zadea – 1991), 4.Zirək (xaraba qalıb), 5.Tarp, 6.Terp (Saravan – 1960), 7.İstisu (Cermuk), 8.Herher, 9.Qabaxlı, 10.Məmmədrza (xaraba qalıb), 11.Çaykənd (Qetik – 1991), 12.Cul (Hartavan– 1950), 13.Köçbəy (Yeğedzor – 1991), 14.Leyliqaçan, 15.Qayalı (xaraba qalıb), 16.Vartenik.

Keşişkənd (Mikoyan –Yeğeqnadzor) rayonundan

1.Ağkənd (Ağncadzor – 1968), 2.Almalı (xaraba qalıb), 3.Ardaraz (xaraba qalıb), 4.Qışlaq (xaraba qalıb), 5.Qovuşuq (Yermon–1991), 6.Qurdqulaq (Boloraberd – 1946), 7.Heşin, 8.Horbadıx, 9.Çivə, 10.Hors, 11.Sallı, 12.Yelpin, 13.Qozluca.

Allahverdi (Tumanyan) rayonundan

1.Böyük Ayrım.

Noyemberyan rayonundan

1.Ləmbəli (Baqrataşen –1972), 2.Aşağı Körpülü (Haxtanaq – 1978).

Abaran rayonundan

1.Kirəşli.

Spitak rayonundan

1.Saral.

Kirovakan (Qarakilsə) rayonundan

1.Yuxarı Kilsə, 2.Aşağı Kilsə (xaraba qalıb), 3. Mollaqışlaq, 4. Haydarlı.

Ağbaba (Amasiya) rayonundan

1.Daşkörpü, 2.Şurabad (Sultanabad), 3.Qızılkənd (xaraba qalıb), 4.Qarabulaq (Şoğiq – 1991).

Kalinino rayonundan

1.Qızıldaş (Aruni – 1991), 2.İlməzli.

Gorus rayonundan

1.Şurnuxu, 2.Ağbulaq, 3.Qurdqulaq, 4.Şahverdilər (Başaracur), 5.Şamsız.

Beriya rayonundan

1.Aşağı Koxa.

1988-1989-CU illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlı yaşayış məntəqələrinin siyahısı

Amasiya (Ağbaba) rayonu

1.Oxçoğlu (Vaxçi – 1991), 2.Güllübulaq (Ardahan – 1991) 3.Çaxmax (Kamxut – 1991), 4.Mağaracıq, 5.Qaraçanta (Əzizbəyov – 1939, Arekdanem – 1990), 6.Daşkörpü, 7.İbiş (Dayrik – 1991), 8.Qoncalı (Zarişat – 1991), 9.İlanlı (Çaybasar – 1946, Aravet – 1991), 10.Düzkənd (Halvar – 1991), 11.Qaranamaz (Yeniyol – 1935, Ağvorik – 1991), 12.Göllü (Vardenis – 1991), 13.Təpəkənd (Daşdavayr – 1990), 14.Sultanabad (Şurabad), 15.Balıqlı, 16.Öksüz (Dalarik – 1991), 17.Güllücə, 18.Ellərkənd, 19.Çivinli (Yeğnacur – 1991), 20.Hozukənd (Quzukənd), 21.Qarabulaq (Şağik – 1991), Qarışıq yaşayış məntəqəsi: 22.Amasiya (Hamasa).

Noyemberyan rayonu

1 .Yuxarı Körpülü.

Qarışıq yaşayış məntəqələri:

2.Debedavan (Baraxlı), 3.Ləmbəli (Baqratașen – 1972), 3.Ayrım sovxoz (Btğavan), 5.Aşağı Körpülü (Haxtanaq – 1978),6.Ayrım (qəsəbə dəmiryol stansiyası).

Ararat (Vedi) rayonu

1.Şidli (Yexeqnavan – 1991).

Qarışıq yaşayış məntəqələri:

2.Xalisa (Noyakert – 1991), 3.Arazdəyən (Yerasx – 1968), 4.Şirazlı (Vosketan – 1991), 5.Qaralar (Aralez – 1978), 6.Yengicə (Sisavan – 1978), 7.Taytan (Vanaşen – 1978), 8.Kiçik Vedi, 9.Şıxlar (Lusarat – 1978), 10.Avşar, 11.Çimənkənd (Urcadzor – 1978), 12.Dəvəli (Ararat şəhəri – 1947), 13.Vedi, 14.Daşdı (Daştakar – 1968), 15.Dəvəli kəndi, 16.Armaş, 17.Çəmbərək (Surenavan).

Krasnoselo (Çəmbərək) rayonu

1.Cil, 2.Ardanış, 3.Şorca, 4.Toxluca (Draxtik – 1991), 5.Ağbulaq (Axperek – 1991), 6.Gölkənd (Ayqut – 1991), 7.Çaykənd (Dprabak – 1991), 8.Əmirxeyir (Kalavan – 1991), 9.Bəryabad (Barepat – 1991), 10.Yanıqpəyə (Meşəkənd – 1978), 11.Cıvıxlı, 12.Qaraqaya (Coravank – 1991).

Qarışıq yaşayış məntəqələri:

13.Çəmbərək (Krasnoselo), 14.Orconikidze.

Tumanyan (Allahverdı) rayonu

1.Böyük Ayrım, 2.Bala Ayrım, 3.Yuxarı Axtala.

Qarışıq yaşayış məntəqələri:

4.Allahverdi (Mədən qəsəbəsi), 5.Şamlıq qəsəbəsi, 6.Aşağı Axtala qəsəbəsi (Gümüşxana), 7.Cılız, 8.Axtala dəmiryol stansiyası.

Mehri rayonu

1.Nüvədi, 2.Aldərə, 3.Lök (Vartanizor).

Qarışıq yaşayış məntəqələri:

4.Maralzəmi, 5.Lehvaz, 6.Mehri, 7.Astazur (Şivanidzor – 1935).

İcevan (Karvansara) rayonu

1. Göyərçin, 2. Mürteyil (Çiçəkbulaq – 1978, Qeğatan – 1991), 3. Haqqıxlı (Vurğun – 1978, Hovk – 1991), 4.Alaçıqqaya (Alaçux), 5.Ağkilsə (Cermakavan – 1991), 6.Polad (Xaçardzap – 1991), 7.Salah (Akanavank – 1991).

Yeğednazor (Keşişkənd-Mikoyan) rayonu

1.Qabaxlı, 2.Ələyəz (Yexeqis – 1991), 3.Qovuşuq (Yermon – 1991), 4.Aysəsi (Qızılgül – 1946, Arates – 1991), 5.Qalaser, 6.Gədikvəng, 7.Qaraqaya, 8.Güldüzü (Vardahovit – 1991).

Qarışıq yaşayış məntəqələri:

Əməğu, 10.Sallı, 11.Hors, 12.Ağkənd (Ağncadzor – 1968), 13.Çivə.

Sisyan (Qarakilsə) rayonu

1.Qızılcıq, 2.Sofulu, 3.Murxuz, 4.Şıxlar, 5.Ağüdü (Aqitu – 1991), 6.Urud (Vorotan – 1968), 7.Ərəfsə (Arevis – 1968), 8.Comərdli (Tanahat – 1991).

Qarışıq yaşayış məntəqələri:

Dəstəkirt, 10.Vağudi, 11.Şəki.

Gorus rayonu

I.Şurnuxu, 2.Ağbulaq, 3.Qurdqalaq.

Kalinino (Vorontsovka) rayonu

1 .Qızıldaş (Aruni – 1991), 2.Sarıyar (Apaven – 1991), 3.EvIi (Coramut – 1991), 4.Cücəkənd (Qızılşəfəq – 1935), 5.Soyuqbulaq (Paqaxpyur – 1991), 6.İlməzli, 7.Qaraqala, 8.Dəmirçilər (Qoqavanm – 1991), 9.Qaraisa (Meqahovit – 1991).

Qarışıq yaşayış məntəqələri:

10.Kalinino qəsəbəsi (Taşir -1991), 11 .Novoselçovo, 12.Saratovka, 13.Privolnı, 14.Kruqloşişka, 15.Medovka, 16.Mixaylovka, 17.Petrovka (Qurdqala), 18.Blaqodarno, 19.Lorsovxoz.

Qukark (Böyük Qarakilsə) rayonu

1.Hallavar, 2.Yuxarı Kilsə, 3.Mollaqışlaq (Güllüdərə – 1978), 4.Xancığaz (Gözəldərə – 1940, Ağnavadzor – 1991), 5.Arçut, 6.Heydərli, 7.Aşağı Kilsə.

Qarışıq yaşayış məntəqələri:

8.Vartanlı (Şaumyan), 9.Fioletovo, 10.Lermontovo.

Vardenis (Basarkeçər) rayonu

1.Hüseynquluağalı (Nərimanlı, Şatavan – 1991), 2.Böyük Qaraqoyunlu (Əzizli – 1935, Norabak – 1991), 3.Aşağı Şorca, 4.Yuxarı Şorca, 5.Daşkənd (Ayrk – 1991), 6.Sarıyaqub (Çax- kadzor – 1991), 7.Qayabaşı (Qeğamabak – 1991), 8.Qoşabulaq (Şadcrek – 1991),

9.ZərzibiI (Zərkənd – 1935, Kut – 1991), 10.Ağkilsə (Azad – 1935), 11.Zod (Cotk – 1991), 12.Babacan (Qızılkənd – 1978), 13.Pəmbək, 14.Dərə (Daranek – 1991), 15.Şişqaya (Qukariç – 1991), 17.Bala Məzrə (Pokr Masrik – 1991), 18.Qaraiman (Sovetkənd – 1978, Kaxank – 1991), 19.Kəsəmən (Bahar – 1978, Arpunk – 1991), 20.İnəkdağı (Yenikənd – 1978, Tretuk – 1991), 21.Qanlı (Qamışlı – 1946), 22.Kərkibaş (Şəfəq – 1967, Vanevan – 1991), 23.Subatan (Qexakar – 1991), 24.Canəhməd (Günəşli – 1969, Kutakan – 1991), 25.Ağyoxuş, 26.Sətənəxaç (Güney – 1935, Arevuni – 1991).

Qarışıq yaşayış məntəqələri:

27.Yuxarı Zağalı (Ağpradzor – 1978), 28.Çaxırlı (Sovetakert – 1978, Kaxakn – 1991), 29.Tüstülü (Lusaqeunk – 1978), 30.Böyük Məzrə (Medz Masrik – 1991), 31.Qızılvəng (Çiçəkli – 1940, Makenis – 1978), 32.Torf.

Masis (Zəngibasar) rayonu

1.Zəhmət (Xaçpar – 1991), 2.Dostluq (Qaraqışlaq, Ayanist – 1991), 3.Dəmirçi (Darbnik – 1991), 4.Sarvanlar (Sis – 1991), 5.Rəncbər, 6.Zəngilər (Zorak – 1991), 7.Kalinin qəsəbəsi (Həbilkənd, Reyhanlı, Seyidkənd – Noramarq – 1991).

Qarışıq yaşayış məntəqələri:

8.Yuxarı Necili (Nizami – 1978), 9.Aşağı Necili (Sayat Nova – 1978), 10.Rəhimabad, 11.Mehmandar (Hovtaşad – 1978), 12.Şöllü (Daşdavan – 1978), 13.Arbat, 14.Uluxanlı (Zəngibasar, Masis – 1950) qəsəbəsi.

Əzizbəyov (Paşalı-Vayk rayonu)

1.Köçbəy (Yeğedzor – 1991), 2.Leyliqaçan, 3.Saravan, 4.Axta, 5.Gomur (Qomk – 1991), 6.Gabud, 7.Gülüstan (Nor Aznaberd – 1991), 8.Zeytə (Zedea – 1991), 9.Terp (Saravan – 1960).

Qarışıq yaşayış məntəqələri:

10.Karmraşen (Kotanlı), 11.Qndevaz, 12.Horadiz (Oradis – 1968).

Spitak (Hamamlı) rayonu

1.Qursalı, 2.Saral.

Qarışıq yaşayış məntəqəsi:

3.Qızılörən (Şenavan – 1946).

Stepanavan (Cəlaloğlu) rayonu

Qarışıq yaşayış məntəqələri:

1.Rus Gərgəri (Puşkino – 1937), 2.Gərgər 3.Kələkürək, 4.Kirov (Xarxar), 5.Çubuqlu (Kuybışev – 1939), 6.Qara Məmməd (Maksim Qorki – 1939).

Artaşat (Qəmərli) rayonu

Qarışıq yaşayış məntəqələri:

1.Yamancalı (Desxut – 1967), 2.Bayburd.

Abovyan (Ellər) rayonu

Qarışıq yaşayış məntəqələri:

1.Göykilsə (Kaputan – 1935), 2.Nurnus.

Hoktemberyan (Qurduqulu) rayonu

Qarışıq yaşayış məntəqəsi:

1.Bağçalar (Baqaran – 1968).

Qafan rayonu

1.Gığı, 2.Kirs, 3.Kurud, 4.Kərd (Kard – 1991), 5.Mahmudlu (Çaykənd), 6.Pəyhan, 7.Acıbac (Adjabac), 8.Həcəti, 9.Kehpəşin, 10.Aşağı Pürülü, 11.Yuxarı Pürülü, 12.Qovşud (Kavçut – 1991), 13.Zeyvə (Davidbek – 1949), 14.Müsəlləm, 15.Yuxarı Girətağ, 16.Aşağı Girətağ, 17.Açağu, 18.Dəvrus, 19.Qaradığa, 20.Xələc, 21.Oxdar, 22.Cıbıllı, 23.Yuxarı Gödəkli, 24.Aşağı Gödəkli, 25.Bəydaş (Xorcor – 1991), 26.Şabadin (Yesex – 1991), 27.Siznək, 28.Qaraçimən (Diçmayri), 29.Baharlı, 30.Aşağı Daşbaşı, 31.Aşağı Davruz, 32.Yuxarı Davruz, 33.Hünüd, 34.Novruzdar, 35.Qatar, 36.Atqız.

Qarışıq yaşayış məntəqələri

37.Qafan, 38.Sarıdərə, 39.Piriman, 40.Sünük sovxozu, 41.Şəhərcik qəsəbəsi.

Razdan (Axta) rayonu

1.Dədəqışlaq (Axundov – 1939), 2.Təkəlik (Hartavaz – 1991), 3.Qorçulu.

Qarışıq yaşayış məntəqələri

4.Misxana (Hankavan – 1949), 5.Çarentsaban.

Azərbaycanlılar yaşamış respublika tabeliyində olan şəhərlər:

1.İrəvan, 2.Kirovakan (Vanadzor-1990), 3.Hrazdan, 4.Stepanavan, 5.Cermuk, 6.Leninakan (Gümrü – 1990).

ERMƏNİLƏR TƏRƏFİNDƏN AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI

Azərbaycan xalqının ümummilli lideri Ulu öndər Heydər Əliyev xüsusi olaraq qeyd etmişdir: "Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".

Bu soyqırımı əsl hüquqi-siyasi qiymətini Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində verilən fərman erməni təcavüzkarlarının terror hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənəddə martın 31-nin azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması təsbitlənmişdir. Fərmanda deyilirdi: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir".

Ötən illər ərzində Azərbaycan dövləti bu tarixi gerçəklikləri, xalqın iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində xeyli iş görmüşdür. Fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun əksini tapmışdır. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni işbirliyinin nəticəsi olmuşdur. Rusiya imperiyası bu yolla Cənubi Qafqazda möhkəmlənmək, ermənilər isə Rusiyanın

havadarlığına arxalanaraq tarixi Azərbaycan torpaqlarını ələ keçirmək, bu torpaqlarda erməni dövləti qurmaq məqsədi güdmüşlər.

XIX əsrin ikinci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış və planlı siyasət kimi aparılmışdır. Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "Böyük Ermənistan" dövləti qurmağa niyyətlənən ermənilər "Daşnaksütun" (1880, Tiflis), "Erməni vətənpərvərləri ittifaqı" (1885, Nyu-York), "Qncak" (1887-ci ildə Cenevrədə yaradılıb), kimi siyasi-terror təşkilatlarını bu istiqamətə yönəltmişdilər. Sözügedən təşkilatların fəaliyyət proqramında azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək məqamı əsas yer tuturdu. 1905-1907-ci illərin Rusiya inqilabı bu təşkilatların fəaliyyəti üçün "geniş imkanlar" açdı. Qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törətmiş, 75 azərbaycanlı kəndini talan etmişlər.

1905-1907-ci il inqilabından sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi davam etdirilmişdir. Bunu Rusiya imperiyasının ovaxtkı statistik məlumatları da təsdiqləyir. 1916-cı ildə nəşr olunan məlumatlara əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq 570 min nəfər təşkil etmişdir. Lakin bunun müqabilində bölgənin azərbaycanlı əhalisinin sayı cəmisi 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılardan ibarət olmuşdur.

1914-cü ildə başlanan Birinci dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratmışdı. 1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başlamışdı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr vermişdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura çox sayda erməni əhalisi də köçüb gəlmişdi. (Bu barədə rəsmi sənədlərə əsaslanan dəqiq məlumatlar növbəti monoqrafiyada ətraflı şəkildə şərh olunacaq. – S.M., T.M.) Rusiya ordusuna arxalanan ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda, Azərbaycanın digər bölgələrində azərbaycanlılara divan tutmuşlar.

1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhalisinə zülm etmişlər. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi tamamilə dağıdılmış və yandırılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlı türkünün bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşlar.

Bu qırğınlara 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. Belə bir vəziyyət S.Şaumyana cənubi Qafqazda sovetləşmə siyasətini həyata keçirmək üçün real imkanlar verirdi. Böyük qırğınlara başlamağa yalnız bəhanə lazım idi: nəhayət, müsəlman əsgərlərin Lənkəranda olan könüllülərə silah göndərmək istəməsi Şaumyana bu bəhanəni verdi. O, Lənkərana silah göndərilməsinin qarşısını almaq əmrini verdi. Başlanan atışmalarda ölən və yaralananlar oldu. Şaumyan bu hadisəni bəhanə edərək ruslarla ermənilər azərbaycanlılara qarşı misli görünməmiş qırğınlar törətməyə sövq etdi.

Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi xarakter aldı. Üç gün ərzində Bakıda 30 min insan qətlə yetirildi. Şaumyanın erməni bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı (onlardan 2560-ı qadın, 1277-si uşaq idi) qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insan həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150

azərbaycanlı kəndini tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişdilər. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 100 min azərbaycanlı qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdular. Təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdü. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunmuş, əhali üzərində heç nəyə məhəl qoymadan qətliam həyata keçirilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində ("Əməkçi" qəzeti, № 231, 2 noyabr 1919-cu il) bildirilir: "Biz erməni təcavüzkarlarına qarşı mübarizəyə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi".

Göründüyü kimi, azərbaycanlılara qarşı aşkar soyqırımı həyata keçirən ermənilər Bakı daxil olmaqla, bütün Azərbaycanı özlərinin ərazisinə çevirmək niyyətində idilər. Xalqımız uzun illər bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Dəhşətli genosidin qurbanı olmuş minlərlə soydaşlarımızın uyuduğu qəbiristanlığın üstünü betonlayaraq üzərində Kirovun heykəli ucaldılmış, ətrafda istirahət parkı salmışdılar. Bu mənada, ümummilli lider Heydər Əliyevin 9 il bundan əvvəl imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətinə qarşı çıxarılan tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərini, tarixi köklərinə, torpağına və vətənə bağlılığı baxımından da çox əhəmiyyətlidir. Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Bunun müqabilində ermənilər ötən illər ərzində özlərinin saxta iddialarını ictimailəşdirməyə "erməni soyqırımı" adlı avantüranı geosiyasi amilə çevirməyə ciddi-cəhdlə çalışmışlar. Lakin tarixi faktlar onu göstərir ki, öz havadarlarına arxalanan ermənilər bu faktları dünya ictimaiyyətindən gizlətsələr də, tarix bu faktları çağdaş zəmanəmizə qədər qoruyub saxlamışdır. Bu mənada azərbaycanlılara qarşı törədilən soyqırımı hadisələrindən bəzi məqamları oxucuların diqqətinə çatdırmağı zəruri hesab edirik. Odur ki arxiv sənədlərinə

əsaslanan bəzi mənbələrə istinadən bir neçə faktik hadisələrə nəzər yetirək.

Məsələn, müvafiq məxəzlərlə tanışlıq zamanı ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar barədə məlumatları oxuduqca insanlıq əleyhinə yönəlmiş vəhşi xislətli həmin əməl sahiblərinə qarşı nifrət birə-min artır. Məsələn, Naxçıvanın Əmovu kəndində törədilən dəhşətli faciələr bu mənfur kütlə tərəfindən xüsusi qəddarlıqla həyata keçirilmiş soyqırımı siyasəti idi. Andranikin quldur dəstəsi Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı edilən vəhşilikləri Naxçıvanda da törətmişdir. Əmovu kəndinin başına açılan müsibətlərin yalnız müəyyən qismini qələmə alan G.Məmmədova yazır: "Daşnaklar kəndin altında nəhəng tonqal qaladılar. Qadınları, kişiləri sürüyüb tonqalın ətrafına gətirirdilər. Dəstələrə bölünmüş daşnaklar kəndin ətrafında, dağlara üz tutan qadınları haqlayır, saçlarından tutaraq sürüyə-sürüyə tonqala gətirir, gücləri çatmayanları elə oradaca baltalayır, doğrayırdılar...". Ürək ağrısıyla qeydə alınan digər bir məqamda isə deyilir: "Saqqallı əsgər yapona (erməni cəlladına verilmiş təxəllüsdür. – H.H.) sözünü qurtarmağa aman vermədi. İti baltanı gəlinin sinəsindən aşağı çəkdi və körpə isti ana bətnindən yumrulanıb yerə düşdü. Saqqallı süngü ilə uşağa diqqətlə baxdı, ucadan hırıldadı:

– Mən düz tapmışam. Yapo, bu əsgər olacaqdı, oğlan uşağıdı.

Saqqallı əti çimçəşmədən yumrunu süngünün ucu ilə götürüb tonqala atdı..."

Qeyd olunan hadisələrə bənzər və onlardan da dəhşətliləri minlərlədir. Sual yarana bilər ki, ermənilər türklərin soyqırımına təhrik edən düşüncə tərzi yaxın illərdəmi formalaşıb? Birmənalı şəkildə demək lazımdır ki, əlbəttə, yox! Ermənilərin soyqırımı siyasəti əsrlərdən bəri formalaşmış, onun ideya daşıyıcıları isə ardıcıl şəkildə təbliğatlarını aparmış və onlar üçün əlverişli məqam yetişdikdə həmin andaca soyqırımı hadisələri törətmişlər. Bu ideyanın daşıyıcılarından və yeri gəldikdə onu real şəkildə həyata keçirənlərdən biri, əvvəldə qeyd olunduğu kimi, məhz S.Şaumyan olmuşdur. Ümumilikdə götürdükdə məskunlaşma dinamikası haqqında tarixi ədəbiyyatlarda kifayət qədər elmi cəhətdən əsaslandırılmış məlumatlar olduğundan bunun geniş təhlilinə ehtiyac duyulmur. Lakin erməni-daşnak

ideologiyasının uydurma fikirlərinə cavab olaraq təkcə onu göstərmək kifayətdir ki, Türkmənçay müqaviləsinə qədər bu şəhərlərdə ermənilər son dərəcə az olmuşlar və onları barmaqla saymaq olardı.

Təbii olaraq türklərin soyqırımını qarşılarına məqsəd kimi qoyan bu cür ideoloqların sayıqlamaları həmin siyasətin həyata keçirilməsində çox zaman ermənilərə vasitə olmuşdur. Hesab edirəm ki, rəsmi sənədlərə əsasən bir məqamı da oxucuların nəzərinə çatdırmaq zəruridir. Məsələn, əlverişli məqamlardan məharətlə istifadə edən erməni şovinistlərinin 1918-ci ilin mart qırğınlarından bəhs edən mənbələrin birində (H.Baykara. "Azərbaycan istiqlal mübarizəsi tarixi") yazılır: "Türklərin mağazaları talan edildi, evlər yandırıldı. Bu barədə mənim üçün yazmaq olduqca ağırdır. Türk qadınları saçsaça bağlanaraq çılpaq gəzdirildikdən sonra müxtəlif şəkildə təcavüzlər, öldürmələr və daha başqa cinayətlər... törədildi. Təcavüzlər bununla bitmədi. Erməni, rus könüllü dəstələri Şamaxı, Salyan, Kürdəmir, Quba və Lənkərana da hücum etdilər, bu yerlərdə də Bakıda olduğu kimi, qırğınlar, talanlar və tarixdə görünməyən cinayətlər törədildi". Bax, həmin soyqırımın təşkilatçıları və onu real şəkildə həyata keçirənlər hadisələr başlamazdan əvvəl, martın 15-də tapşırıq almışdılar. Çünki 1918-ci il martın 15-də etdiyi çıxışında S.Şaumyan guya ölkədəki vəziyyətdən narahatlığını bildirərək demişdi: "Bakı Soveti vətəndaş müharibəsinin Zaqafqaziyada başlıca dayağı və mərkəzi olmalıdır". Çıxışdakı motivlər onu göstərirdi ki, artıq azərbaycanlıların soyqırımına başlamağın vaxtı çatıb. Buna ermənilər tam hazırlıqda görmüşdülər. Planlı şəkildə yerinə yetirilən proses Bakıdan əvvəl, Şamaxıda keçirilmişdir. Tarixi qaynaqlara və arxiv sənədlərinə əsasən demək olar ki, Novruz bayramı ərəfəsində Şamaxı əhalisinə dəhşətli divan tutulmuşdu. 1918-ci ilin ilk aylarından başlayaraq hazırlanan soyqırımı planını yerinə yetirməyi S.Lalayana tapşırmışdılar. Erməni daşnaklarının yekdil fikri bu idi ki, Şamaxının müsəlman əhalisi tamamilə məhv edilməlidir. Şamaxı şəhərində bu qanlı aksiyanı yerinə yetirən Lalayanın terrorçu quldur dəstəsi eyni vəziyyəti kəndlərdə də davam etdirdi və şəhərin 58 kəndi xarabazara çevrildi. Hadisələrlə bağlı 21 oktyabr 1918-ci il tarixli "Azərbaycan" qəzetində ürək ağrısıyla yazılırdı: "...Biz Şamaxı əks inqilabçılarının başına nə gəldiyini bilmirik, amma onu bilirik ki, başda sosialist

"Əmirov və Lalayev" olmaqla qırmızı sosialist dəstəsi Şamaxıdakı bütün müsəlman əhalisini kəsib doğramış, kəndləri dağıtmışdılar. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşiliklər bu müddət ərzində gördüklərimiz bütün dəhşətləri kölgədə qoydu".

Gətirdiyimiz iqtibasdan görünür ki, Şamaxıya göndərilən erməni silahlı dəstələri guya əks-inqilabçıları cəzalandırmağa gəlmişdilər. Lakin onlar, əslində, bu ad altında bütün müsəlman əhalisinə divan tutmuşdular. Ermənilərin belə bir siyasət yeridərək soyqırımı niyyətlərini reallaşdırdıqları barədə sonralar N.Nərimanov yazırdı: "Müsəlman bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir.". Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər".

Statistik rəqəmlər də Şamaxı qırğınlarının hansı qəddarlıqla törədildiyini əks etdirir. Şamaxı kəndlərində azərbaycanlılara qarşı törədilən qırğınların göstəricilərinə bir daha diqqətimizi yönəldək. Cəyirlidə 75, Ərəbqədim kəndində 378, Cəmcəmlidə 26, Qaravəllidə 120, Kürdəmirdə 25, Ovçuluda 27, Bağırlıda 370, Təklədə 922, Dilmanda 585, Sulutda 44, Nuranda 117, Sündüdə 250, Ağsuda 200, Bəklədə 316 nəfər və s. adını çəkmədiyimiz Şamaxının digər kəndlərində minlərlə günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir.

Tarixi sənədlərin araşdırılması göstərir ki, S.Lalayan Şamaxıda törətdiyi qırğınlarla kifayətlənməmiş, ətraf ərazilərdə, o cümlədən Göyçay və Kürdəmir rayonlarında da soyqırımı əməllərini davam etdirmişdir. Kürdəmirdə aparılan istintaq sənədlərində göstərilir ki, Kürdəmiri yandıran və əhalinin əmlakını talan edib dağıdan ermənilər Şamaxı qəzası tərəfindən gəlmişlər. Ermənilər "Daşnaksütun" partiyasının rəhbərliyi altında bolşevizm bayrağı adı ilə milli siyasətlərini həyata keçirirdilər. Ermənilər Kürdəmirə Stepan Lalayan gətirmişdi. O, müsəlmanlara qarşı törətdiyi yanğınların, qətllərin və talanların təşəbbüskarı və təşkilatçısıdır. Kürdəmirdə yaşayan Mövsüm bəy Sadıqbəyov istintaq zamanı ermənilərin vəhşilikləri barədə belə ifadə vermişdir: "Mən bir neçə ildir ki, Kürdəmirdə yaşayıram. Əslən Şamaxıdanam, Şamaxı hadisələrindən üç həftə

əvvəl mən bura köçmüşdüm. Hələ Kürdəmirdə yaşadığım vaxt eşitmişdim ki, ermənilər Bakıdan çoxlu silah daşıyıb gətirmişlər. Müsəlmanlar öz etirazlarını bildirdikdə ermənilər deyirdilər ki, biz özümüzü qorumaq məqsədilə silah toplayırıq... 1918-ci il martın 15-də Meysəri kəndində ermənilərlə müsəlmanlar arasında ilk toqquşma baş verdi. Ertəsi gün ermənilər və müsəlmanlar arasında sülh müqaviləsi bağlandı. Əhalidə belə arxayınçılıq yarandı ki, artıq təhlükə sovuşmuşdur. Lakin martın 18-də Mədrəsə kəndindən Şamaxıya top atəşi açıldı. Tezliklə malakanlar da müsəlmanlara qarşı çıxış etdilər... şəhər bütünlüklə dağıdılmışdı. Bütün bu qırğınların başlıca təşkilatçısı və təşəbbüskarı Stepan Lalayan, Mixail Arzumanov, Qaraoğlanov olmuşlar".

Son illərdə respublikamız bu sahədə fəaliyyətini gücləndirmiş, rəsmi sənədlərə əsasən ermənilərə qarşı ədalətli effektiv fəaliyyətə başlamışdır. Ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı bu işlərin vahid və sistemli surətdə aparılmasına imkan yaratmışdır. Bu sərəncam uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açmış, xalqımızın qan yaddaşını təzələmişdir.

Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də qətiyyətlə davam etdirilir. Dövlət başçısının soyqırımı ilə bağlı xalqa müraciətində vurğuladığı kimi: "Biz yalnız tarixi ədalətin və həqiqətin bərpa edilməsini, işğal və soyqırımı siyasətini yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında ittiham olunmasını istəyirik. Əminəm ki, xalqımızın vətənpərvərliyi, milli birliyi və məqsədyönlü fəaliyyəti ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları dünya ictimaiyyətinə çatdırılması prosesində önəmli rol oynayacaqdır".

Tövsiyə olunmuş müraciətin nəticəsidir ki, Heydər Əliyev Fondu soyqırımı ilə bağlı 100-dək materialın xaricdə sərgisini təşkil etmişdir. Fondun həyata keçirdiyi "Qarabağ həqiqətləri" silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunmuş kitab və bukletlər xaricdə yayımlanmışdır.

Eyni zamanda 2009-cu ilin fevralında İslam Konfransı Təşkilatının Gənclər Fondunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələn-

diricisi Leyla xanim Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya ədalət" kompaniyası ötən bir il ərzində uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulmuşdur.

Göründüyü kimi, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı düşünülmüş plan əsasında mərhələlərlə həyata keçirilmiş, xalqların dinc, yanaşı yaşamaq prinsipinə daim sadiq qalan soydaşlarımız isə bu cür faciələrin heç vaxt baş verməməsinə inanaraq bəşər tarixində görünməyən fəlakətlərə düçar olmuşlar. Bu gün dünya ictimaiyyətinin hər bir üzvü, xüsusilə hər bir Azərbaycan vətəndaşı xalqımızın başına gətirilən bu faciələrdən xəbərdar olmalı və tarixdən ibrət dərsi götürməyi bacarmalıdır. Bəşəriyyət əleyhinə cinayətlərdən sayılan ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı hadisələrinə veriləcək qiymət isə bu problemin tarixi faktlara əsasən dünya ictimaiyyətinə çatdırmağımızdan, onun doğru-düzgün təbliğindən asılıdır.

Sual və tapşırıqlar:

– Ermənilərin Türkiyədən Azərbaycanın tarixi ərazilərinə köçürülməsini hansı səbəblərlə izah edərsiniz?

– Erməni-daşnak ideologiyasının əsas məqsədi nə idi?

– Statistik məlumatlarda Azərbaycanda erməni bolşevik birliyinin törətdikləri qırğınları öyrənin.

ERMƏNİSTAN-AZƏRBAYCAN QARŞIDURMASININ TARİXİ (Tarixi və hüquqi kontekstdə)

Neçə yüz illərdir ki, "Böyük Ermənistan" ideyasını reallaşdırmağa cəhd edən və bunun üçün hər vasitəyə əl atan ermənilər arzularının hələ də xəyal olaraq qalması ilə heç cür razılaşa bilmirlər. Onlar bu arzularını həyata keçirmək üçün özlərinin çoxdankı niyyətlərindən – bir sıra torpaqları, o cümlədən Azərbaycanın tarixi əraziləri olan Dağlıq Qarabağı və Naxçıvanı ələ keçirmək planlarından hələ də əl çəkməyiblər.

Sovet dövründə də ermənilər bir sıra Azərbaycan torpaqlarını Ermənistana birləşdirmək məqsədilə müxtəlif tədbirlərə əl atdılar. Bu sahədə onlar bəzi "nailiyyətlər" də əldə etdilər. Məsələn: 1922-ci ildə Dərələyəz, 1929-cu ildə Meğri (Mehri), 1938-ci ildə Sədərək və Kərki kəndlərinin bir hissəsi, 1969-cu ildə Laçın rayonunun Qaragül yaylası, Qubadlı rayonunun Çayzəmi əraziləri, Qazax rayonunun Kəmərli kənd ərazisi, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi, 1982-ci ildə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli və Qaymaqlı kəndləri ərazilərinin bəzi hissələri, 1986-cı ildə isə Qazax rayonunun daha 2500 hektarlıq ərazisi Azərbaycandan alınaraq Ermənistana birləşdirilmişdi. Bununla yanaşı, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri bir nəticə vermədi, lakin onlar öz işğalçılıq niyyətlərindən də əl çəkmək fikrində deyildilər.

Ermənilərin Qarabağla bağlı əldə etdikləri ən böyük "uğur" SSRİ-nin yarandığı ilk illərə təsadüf edir. Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdlərinin boşa çıxdığını başa düşən ermənilər 1923-cü ildə ona muxtariyyət statusu verilməsinə nail oldular.

Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş 1 dekabr 1920-ci il tarixli iclasında N.Nərimanovun bəyan etdiyi Azərbaycan İnqilab Komitəsinin Bəyannaməsi Yuxarı Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratlarını tam təyin etmək hüququ verdi (1, 42-51). Siyasi Büro və AK(b)PMK Təşkilat Bürosunun 27 iyun 1921-ci il tarixli iclasında "Azərbaycanın və Ermənistanın sərhədləri məsələsi" müzakirə olundu. İclasın qərarında

məsələnin "Yuxarı Qarabağın Azərbaycana meylli olması"nı nəzərə almaqla həll edilməli olduğu göstərilirdi və bununla əlaqədar olaraq "inzibati və iqtisadi məqsədəuyğunluq baxımından" ərazinin milli göstəricilərə əsasən bölünməsinin mümkünsüzlüyü qeyd edilirdi. Məsələyə 1921-ci il iyulun 4-5-də RK(b)PMK-nın Qafqaz Bürosu plenumunun iclasında əsaslı şəkildə baxıldı. RK(b)PMK Qafqaz Bürosu müsəlmanlar və ermənilər arasında milli barışığın, həmçinin Aşağı və Yuxarı Qarabağın iqtisadi cəhətdən bir-biri ilə bağlı olması və onun Azərbaycanla sabit əlaqələrindən çıxış edərək Qarabağın dağlıq ərazisinə muxtariyyət verməklə onu Azərbaycan SSR-nin tərkibində saxlamaq qərarı verdi. Buna uyğun olaraq Azərbaycan K(b)P MK-ya Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərini və onun əhatə edəcəyi əraziləri müəyyənləşdirərək öz mülahizələrini RK(b)P MK Qafqaz Bürosuna təqdim etmək tapşırıldı.

1921-ci il avqustun 1-də Şuşa qəzasının 2-ci sahə Sovetinin növbədənkənar qurultayında bir daha qeyri-rəsmi şəkildə Dağlıq Qarabağ məsələsinə baxıldı. Qurultayda iştirak edən Xalq Komissarları Sovetinin sədri L.İ.Mirzoyan bildirdi: "Qarabağın iqtisadi, mənəvi, siyasi və milli nöqteyi-nəzərdən Azərbaycanın mərkəzi (Bakı) ilə bağlı olması faktı artıq Qarabağın hansı siyasi quruma aid edilməli olduğunu həll edir".

1923-cü il iyulun 7-də isə Azərbaycan MİK tərəfindən DQMV-nin yaradılmasını göstərən və onun əsas statusunu müəyyənləşdirən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret qəbul edildi. Dekret "milli zülmün və sosial bərabərsizliyin" aradan qaldırılmasını Sovet hökumətinin qarşısında əsas məqsəd kimi qoyurdu və məsələni həll etmək məqsədilə Azərbaycan MİK mərkəzi Xankəndi olmaqla Qarabağın ermənilər yaşayan hissəsində muxtar vilayət yaratmaq qərarı verdi. Qeyd etmək lazımıdır ki, Siyasi Büro və AK(b)P MK-nın 1921-ci il 27 iyun tarixli iclasında ərazinin milli göstəricilərə görə bölünməsinin mümkünsüzlüyü göstərilsə də, Azərbaycan MİK-in 1923-cü il iyulun 7-də keçirilən iclasında Yuxarı Qarabağın ermənilər yaşayan hissəsində muxtar vilayət yaradılması qərarı verilərkən həmin göstərişə əməl olunmamış, DQMV-nin ərazisi ermənilərin sayca üstün olduğu ayrı-ayrı əraziləri birləşdirməklə təşkil olunmuşdur. Muxtar vilayəti yaradanda Kəlbəcərə aid Ağdaban, Füzuliyə aid Yuxarı Veysəlli kəndləri onun sərhədləri daxilinə salınmışdı (2, 32).

DQMV yaratmaq məqsədi ilə 1923-cü ilin avqust ayında Qarabağın dağlıq ərazisində yaşayan əhali arasında referendum keçirildi və yerli kəndlilər (xüsusilə də erməni kəndlilər) yekdilliklə muxtar vilayətin Azərbaycanın tərkibində qalmasına səs verdilər. 1923-cü il oktyabrın 12-də AK(b)P MK-da referendumun nəticələri haqqında məlumat verən Qarabağ Vilayət Komitəsinin partiya katibi Sero Manutsyan da muxtariyyət aktlarının kəndlilər tərəfindən yekdilliklə qarşılandığını təsdiq etmişdi. 1923-cü ilin noyabr ayında isə Azərbaycan SSR III Sovetlər qurultayında vilayət MİK Sədri A.M. Qaragözov qeyd etmişdi: "...Azərbaycanın zəhmətkeş kütləsi Oktyabr inqilabının böyük məqsədlərini, millətin öz müqəddəratını təyin etməsinin böyük prinsiplərini həyata keçirərək muxtariyyət elan etdi...". Azərbaycan MİK Rəyasət Heyəti 1924-cü ilin noyabr ayında "DQMV haqqında əsasnaməni" təsdiq etdi. Sənəddə DQMV-nin Azərbaycanın tərkib hissəsi olduğu qeyd edilirdi. Azərbaycan K(b)P MK-nın Rəyasət heyətinin həmin ilin 16 iyul tarixli iclasının qərarı ilə Şuşa şəhəri DQMV-nin tərkibinə daxil edildi və AK(b)P-nin 5 may 1924-cü ildə keçirilmiş VI qurultayında Dağlıq Qarabağa tam muxtariyyət verildi.

1985-ci ildə M.Qorbaçovun siyasi hakimiyyətə gəlməsi və onun "yenidənqurma" adlanan siyasi-iqtisadi islahatlara başlaması ilə ictimai-siyasi proseslərin yeni mərhələsi başlandı. Məhz XX əsrin həmin illəri SSRİ-də millətlərarası münaqişələrin, o cümlədən ermənilərin Azərbaycana qarşı yönəlmiş yeni təcavüzünün başlanğıcı oldu.

1987-ci ildən başlayaraq ermənilər Moskvaya Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini tələb edən ardı-arası kəsilməyən məktublar göndərirdilər. Həmin ilin avqust ayında Ermənistan Elmlər Akademiyası tərəfindən hazırlanmış və yüzlərlə ermənin imzaladığı ərizədə isə onlar Dağlıq Qarabağla yanaşı, Naxçıvanın da Ermənistan SSR-ə verilməsini istəyirdilər. Noyabr ayının ortalarında Sov.İKP-nin baş katibi və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi olan erməni Abel Aqanbekyan Fransanın "Yumanite" qəzetinə müsahibəsində bildirmişdi ki: "Dağlıq Qarabağ Muxtar Vilayəti tezliklə Ermənistana verilməlidir".

Rəsmi Moskva da öz növbəsində olanlara "xüsusi" reaksiya verirdi ki, bu da münaqişənin daha da qızışmasına gətirib çıxarırdı.

2005-ci ildə Ermənistanın Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan ölkə parlamentində çıxışı zamanı etiraf etdi ki, kommunist partiyasının mərkəzi komitəsi 1987-ci ildə Ermənistana, Dağlıq Qarabağa və Azərbaycana bir-birinə zidd impulslar göndərirdi. Bir tərəfdən ermənilər Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratlarını demokratik "təyin etməsi"nin yollarını axtarmağa ruhlandırırdı, digər tərəfdən isə Azərbaycana bildirilirdi ki, Dağlıq Qarabağın statusunun dəyişdirilməsi onun ərazi bütövlüyünün pozulması və daxili işlərinə qarışmaq deməkdir (3).

Tanınmış ukraynalı ekspert, Lvov Linqvistik Universitetinin professoru, hüquq elmləri doktoru A.A. Merejko "Dağlıq Qarabağ problemi və beynəlxalq hüquq" adlı monoqrafiyasında qeyd edir ki, xalqların öz müqəddəratını müəyyən etmə prinsipi beynəlxalq hüququn əsas prinsipləri iyerarxiyasında yalnız 6-cı yeri tutur və daha əsas prinsiplərlə kolliziya yarandıqda (ərazi bütövlüyü, suverenitet və s.) yerini onlara verməli və arxa plana çəkilməlidir.

Xəyanətkar ermənilərin Dağlıq Qarabağ uğrunda apardıqları separatçılıq siyasəti 1988-ci ildən Ermənistan və Azərbaycan arasında açıq münaqişəyə çevrildi.

Qərarda SSRİ Ali Sovetindən bu məsələyə baxmaq xahiş olunurdu. Lakin SSRİ rəhbərliyi ermənilərin qərarlarını rəsmən dəstəkləmədi və SSRİ Ali Soveti Rəyasət Heyəti 23 mart 1988-ci il tarixdə DQMV-nin Ermənistan SSR-ə verilməsi təklifini rədd edən qərar qəbul etdi.

Ermənistan SSR Ali Soveti 15 iyun 1988-ci il tarixdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-ə birləşdirmək, DQMV-nin yerli soveti isə 12 iyul 1988-ci il tarixdə Azərbaycanın tərkibindən çıxmaq (4, 134) haqda qərar verdi. Buna cavab olaraq Azərbaycan Respublikasının Ali Soveti 17 iyun 1988-ci il tarixdə həmin qərarın Konstitusiyaya zidd olduğunu və DQMV-nin Ermənistan SSR-yə verilməsinin qeyri-mümkün olduğunu göstərən qərar qəbul etdi. SSRİ Ali Soveti Rəyasəti heyəti də bunlarla əlaqədar həmin ilin 18 iyulunda qərar qəbul edərək SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikaların öz razılıqları olmadan ərazilərinin dəyişdirilməsinin mümkün olmadığını əsas götürərək, DQMV-nin Azərbaycan ərazisi olmasını bir daha təsdiq etdi (4, 134).

1989-cu il avqustun 16-da "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı" keçirildi. Həmin qurultayda Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etdiyi bəyan edildi və Azərbaycan SSR-in Konstitusiyasının həmin ərazidə qüvvədən düşdüyü bildirildi. Bu zaman ermənilər öz hərəkətlərinə haqq qazandırmaq üçün "Azərbaycan SSR-in DQMV-də xüsusi idarə formasının tətbiqi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin 12 yanvar 1989-cu il tarixli qərarına istinad etdilər. Ermənilər həmin qərara uyğun olaraq Dağlıq Qarabağın Müttəfiq Respublika ərazisindən SSRİ ərazisinə çevrildiyini və bununla da "müttəfiq respublika" statusu qazandığını iddia etməyə başladılar.

Həmin qərar Dağlıq Qarabağda baş verən prosesləri Azərbaycanın nəzarətindən çıxarsa da, muxtar vilayətə müstəqillik statusu vermirdi. Qərarda qeyd edilirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində muxtar vilayət statusunu saxlamaqla, DQMV-də müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin.

Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etməsinə dair 1989-cu il 16 avqust qərarına gəldikdə isə, bu qanun heç bir hüquqi qüvvəyə malik deyildi. Çünki SSRİ Konstitusiyasının 71-ci maddəsinə əsasən, Azərbaycan SSR müttəfiq respublika, 87-ci maddəsinə əsasən isə Dağlıq Qarabağ Azərbaycan SSR-in daxilində muxtar vilayət idi. 86-cı maddəyə əsasən isə muxtar vilayət haqqında qanun muxtar vilayətin Xalq Deputatları Sovetinin təqdimatı ilə müttəfiq respublikanın Ali Soveti tərəfindən qəbul edilirdi. Bununla yanaşı, SSRİ Konstitusiyasının 148-ci maddəsinə görə, Yerli Xalq Deputatları Sovetləri SSRİ, müttəfiq və muxtar respublika qanunvericiliyi ilə onlara verilmiş səlahiyyət daxilində qərar qəbul edə bilərdilər. DQMV-yə muxtariyyəti ləğv etmək, ayrılmaq və s. bu kimi səlahiyyətlər verilməmişdi. DQMV-də Azərbaycan Respublikasının Ali Sovetinə statusunun dəyişdirilməsi ilə bağlı müraciət etməmişdi. Azərbaycan Respublikasının Ali Soveti də öz növbəsində statusu ləğv edən bir qərar qəbul etməmişdi.

Bundan başqa, SSRİ Konstitusiyası heç bir muxtar vilayətə müstəqillik hüququ vermirdi, əksinə 78-ci maddəyə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi, 79-cu maddəyə əsasən isə, müttəfiq respublika özünün ölkə, vilayət, mahal,

rayon bölgəsini müəyyənləşdirirdi (5). Bundan başqa, SSRİ Konstitusiyasının 141-ci maddəsi müttəfiq respublikanın Nazirlər Sovetinə muxtar vilayətlərin Xalq Deputatları Sovetləri İcraiyyə Komitəsinin qərar və sərəncamlarını ləğv etmək hüququ verirdi (Yenə orada).

27 avqust 1989-cu il tarixində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti də bu hüququndan istifadə edərək "DQMV əhalisinin səlahiyyətli nümayəndələri qurultayının" qərarlarının qeyri-qanuni olduğunu göstərən qətnamə qəbul etdi.

Tədqiqatçı və hüquq müdafiəçisi T.Çaladze fundamental "Xocalı faciəsi" monoqrafiyasında yazır: "O dövrün Azərbaycan rəhbərləri, Bağırov və Vəzirov, ali partiya "zərurəti" pərdəsi altında gizlənərək qorxacaq bir mütilik nümayiş etdirirdilər" (21).

Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması üçün göstərilən bu cidd-cəhdlər Ermənistan və Dağlıq Qarabağın birləşdirilməsi planının bir hissəsini təşkil edirdi.

1988-ci il 13 sentyabr tarixində "Amerikanın səsi" radiosunun Ermənistan redaksiyası "Qarabağ" komitəsinin Dağlıq Qarabağla Ermənistanı birləşdirmək planı haqqında məlumat vermişdi. Həmin plana əsasən, Qarabağ ermənіləri çalışıb SSRİ-nin tərkibindən çıxmalı, sonra Ermənistan SSR-in tərkibinə daxil olmaq şərtilə, yenidən SSRİ-nin tərkibinə daxil edilmələri təklifilə müraciət etməli idilər. Yox, əgər Dağlıq Qarabağın Konstitusiyaya görə "öz müqəddəratını təyinetmə" hüququ olmadığı üçün bu plan baş tutmazdısa, onda Ermənistan Respublikası bu hüquqa malik olduğu üçün özü Dağlıq Qarabağın tərkibinə daxil olmasını elan etməli idi. Beləliklə, paytaxtı Stepanakert olmaqla yeni "Arsax" erməni respublikasının yaradılması nəzərdə tutulurdu.

23 avqust 1990-cı il tarixində Ermənistan Respublikası müstəqillik haqqında Bəyannamə qəbul etdi. Bəyannamədə Ermənistan və "Dağlıq Qarabağ Respublikası"nın birlikdə müstəqil olduğu göstərilirdi. Bəyannamədə qeyd edilmiş həmin fakt sübut edir ki, Azərbaycan ərazilərinin parçalanmasında, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsində Ermənistan Respublikasının birbaşa əli olmuşdur. Lakin bu özbaşına və hüquq normalarına zidd olan bu qərar heç bir səlahiyyətli orqan tərəfindən dəstəklənmədiyi və tanın-

madığı üçün Ermənistanı və Dağlıq Qarabağı heç bir yolla birləşdirə bilməyəcəklərini başa düşən ermənilər bu dəfə "müstəqil" "Dağlıq Qarabağ Respublikası" yaratmaq fikrinə düşdülər. Ermənilər DQMV-dən başqa həm də onunla həmsərhəd olan Ağcakənd (həmin vaxt Şaumyan) rayonuna da iddialı idilər. Buna görə də Ermənistan Respublikasının tərkibində DQMV ilə Şaumyan (Ağcakənd) rayonu olmaqla "Dağlıq Qarabağ respublikası"nın ayrı-ayrılıqda müstəqilliyini elan etmək qərarı verdilər. Ssenari üzrə ilk əvvəl DQMV ermənilər 2 sentyabr 1991-ci il tarixdə "Dağlıq Qarabağ respublikası"nın yaranmasını elan etdilər. Ermənistan Respublikası isə 21 sentyabr 1991-ci il tarixində ümumxalq referendumu keçirərək 23 avqust 1990-cı il tarixli "Müstəqillik Bəyannaməsi"nin məhz özünə aid hissəsini bir daha təsdiq etdi. Bunun ardınca Ermənistan həmin il oktyabr ayının 16-da prezident seçkiləri keçirdi. Ermənilər iddia edirlər ki, həm referendum, həm də prezident seçkiləri təkcə Ermənistan ərazisində keçirildiyi üçün Ermənistan Respublikası ilə DQMV-nin birləşməsi haqqında qərarlar öz etibarını itirir. Həmin qərarların isə onsuz da heç bir hüquqi əsası yox idi və onlar heç bir halda hüquqi qüvvəyə malik ola bilməzdi.

17-21 sentyabr 1991-ci il tarixində Yerevan şəhərində "Millətlərarası münaqişələrin tənzimlənməsinin hüquqi, siyasi və mənəvi aspektləri" adlı Beynəlxalq Konqres keçirildi. Konqresin "Dağlıq Qarabağ Respublikası"nın tanınmasına dair Qətnaməsində göstərilir ki, "Dağlıq Qarabağ Respublikası"nın elan edilməsi beynəlxalq hüquqi aktlarla əks olunmuş xalqların "öz müqəddəratını təyinetmə"si hüququna əsaslanır. Beynəlxalq hüquqi sənədlər kimi 1) 10 dekabr 1948-ci il tarixli insan haqları Bəyannaməsinin 1-ci maddəsi; 2) ATƏM üzv dövlət nümayəndələrinin 1989-cu il tarixli Vyana görüşünün yekun sənədinin 4-cü bəndi; 3) 1945-ci il BMT Nizamnaməsinə uyğun olaraq "Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannamə göstərilir (6).

İnsan haqları Bəyannaməsinin yalnız birinci maddəsini oxumağa hövsələsi çatmış ermənilər onu öz istəklərinə uyğun şərh ediblər. Əks təqdirdə Bəyannaməyə uyğun olaraq onlar "öz dərrakə və vicdan"larından istifadə edərək Dağlıq Qarabağ da daxil olmaqla işğal etdikləri digər ərazilərdə yaşayan azərbaycanlı əhalinin də "öz hüquq

və haqları" olduğunu anlamağa borclu idilər. Sənədin sonuncu, 30-cu maddəsində qeyd edilir: Bəyannamədə göstərilənlər hər hansı dövlətə, insanlar qrupuna, yaxud ayrı-ayrı şəxslərə bu sənəddə əksini tapmış hüquq və azadlıqların məhvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud əməliyyatlar həyata keçirmək hüququ verməsi kimi dərk edilə bilməz.

"Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannaməyə gəldikdə isə, BMT Baş Məclisi tərəfindən əvvəllər qəbul olunmuş bütün sənədlərdən fərqli olaraq, 24 oktyabr 1970-ci il tarixində qəbul edilmiş (2625 XXV) həmin Bəyannamədə göstərilir ki, öz müqəddəratını "xarici" təyinetmə hüququna yalnız müstəmləkə, yaxud asılı vəziyyətdə olan xalqlar malikdirlər. Bəyannamədə, həmçinin qeyd edilir: "Göstərilən bəndlərin heç biri xalqların "bərabərhüquqlu olması" və "öz müqəddəratını (daxili. – S.M., T.M.) təyinetmə" prinsiplərinə əməl edən, ərazisində yaşayan xalqların irqindən, dinindən, dərisinin rəngindən asılı olmayan hökumətə malik müstəqil və suveren dövlətin ərazi bütövlüyü və siyasi birliyinin parçalanmasına, qismən, yaxud tam pozulmasına gətirib çıxaran hər hansı hərəkətə icazə verməkvə ruhlandırmaq kimi yozulmamalıdır".

2003-cü il may ayının əvvəlində Ermənistanın "DeFakto" xəbər agentliyinin suallarına cavab verən "Dağlıq Qarabağ Respublikasının Təhlükəsizlik Şurasının katibi" Karen Baburyan bildirmişdi ki, "Azərbaycan özünün SSRİ-nin tərkibindən çıxmasını qanun çərçivəsində elan etmişdir və "Dağlıq Qarabağ" da həmin qanuna əsaslanaraq adekvat addım atmışdır".

Ermənilər Dağlıq Qarabağın muxtar vilayət, Ağcakənd rayonunun isə ermənilərin kompakt yaşadığı ərazi olduğu üçün "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun onlara Azərbaycanın tərkibindən çıxaraq "müstəqil" "Dağlıq Qarabağ respublikası" yaratmaq imkanı verdiyini iddia edirlər.

Ermənilərin əsas gətirdikləri digər "fakt" isə odur ki, Azərbaycan özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməklə Sovet dövründə malik olduğu sərhədlərini itirir, bununla da 1918-20-ci illər AXC-nin sərhədlərinə yiyələnir və Dağlıq Qarabağ

AXC-nin tərkib hissəsi olmadığı üçün o, müasir Azərbaycanın da sərhədlərindən kənarda qalmalıdır. Beynəlxalq hüquqa görə, dövlət özünü hansısa dövlətin varisi elan edirsə etsin, bunu yalnız özünü varis elan etdiyi anda malik olduğu sərhədlər çərçivəsində etmək hüququna malikdir. Azərbaycan da müasir sərhədləri çərçivəsində Xalq Cümhuriyyətinin varisi olmuşdur.

Bundan başqa, 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yarandığı vaxt Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində qalmışdı. Bu da həmin ərazilərin əvvəllər də Azərbaycana məxsus olduğunu və buna görə də onun tərkibində qaldığını göstərir, əks təqdirdə, Dağlıq Qarabağın Azərbaycana verildiyi göstərilərdi.

Cümhuriyyət dövründə Qarabağ və bir sıra digər ərazilər ermənilər və azərbaycanlılar arasında "mübahisəli" sayıldığı üçün 1919-cu ilin avqust ayının 26-da Qarabağ ermənilərinin VII qurultayında "Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılığı" qəbul edilmişdi. Razılığa görə, məsələnin Paris sülh konfransında həllinədək Dağlıq Qarabağ da tərkibində olmaqla bütün Qarabağ həm ərazi muxtariyyəti, həm də onun erməni əhalisinin milli-mədəni muxtariyyəti əsasında Azərbaycanın tərkib hissəsi hesab edilirdi.

Həmin vaxt (1919-cu il) Parisdə olan Azərbaycan nümayəndələrinə göndərilən məlumatda deyilirdi: "Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi... 7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar".

Həmin illərdə erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan yerlərdə sərhədlər məsələsini həll etmək mümkün olmadığını bəhanə gətirərək, sərhədlərin müəyyən edilməsi məsələsini Avropada müttəfiqlərin köməyilə həll etmək lazım olduğunu bildirirdi. 1920-ci ilin aprel ayında San-Remo şəhərində keçiriləcək konfransda Transqafqaz respublikalarının sərhədləri məsələsinin müzakirə edilməsi nəzərdə tutulurdu. Aprelin 18-20-də Antanta Ali Şurası San-Remo konfransında sərhədlər məsələsinə baxdı. İngiltərənin Baş naziri Lloyd Corc Ermənistanın Azərbaycanla və Gürcüstanla sərhədlərinin qarşılıqlı saziş əsasında həmin respublikaların özləri tərəfindən həll

edilməli olduğunu bildirdi. Ermənilərin əsassız ərazi iddiaları ucbatından San-Remo konfransında da heç bir razılıq əldə edilmədi. Erməni məsələsi, bununla əlaqədar olaraq həm də sərhədlər məsələsi yenə də öz həllini tapmadı (23, 362).

10 iyul 1920-ci il tarixində Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov, RK(b)P-nın Qafqaz Bürosunun üzvü Mdivani, AKP MK-nın üzvləri Mikoyan, Naneyşvili, XI Qızıl Ordunun Hərbi İnqilab Şurasının üzvləri Vesnik, Levandovski və Mixaylovun RK(b)P MK-nın adına göndərdikləri məlumatda da Qarabağın Musavat hökuməti zamanında bütünlüklə Azərbaycanın tərkibində olduğu göstərilir.

BMT Baş Katibinin köçkünlər üzrə nümayəndəsi F.Denq Azərbaycanda köçkünlük təcrübəsinə həsr etdiyi məruzəsində göstərir: "Həm Azərbaycan, həm Ermənistan iddia edirlər ki, onları Dağlıq Qarabağla uzunəsrlik bağlar birləşdirir. Lakin hazırki münaqişənin başlanğıcı XX əsrin əvvəllərinə təsadüf edir. Oktyabr inqilabından sonra yeni müstəqil dövlət olmuş Azərbaycan və Ermənistan Dağlıq Qarabağ ərazisi uğrunda mübarizə edirdilər. Paris sülh konfransı 1919-cu ildə Azərbaycanın həmin əraziyə olan iddialarını tanıdı. Azərbaycan və Ermənistan Sovet İttifaqına birləşdirildikdən sonra Dağlıq Qarabağla bağlı bu mövqe bir daha möhkəmləndirildi. Həmin vaxt Azərbaycanı onun qərb rayonu Naxçıvanla birləşdirən Zəngəzur rayonu Ermənistana verildi".

SSRİ dövründə həmin məsələyə baxılmış və Dağlıq Qarabağ əhalisinin istəyinə uyğun olaraq, Ermənistan və Azərbaycan respublikalarının razılıqlarına əsasən Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində saxlanılması (məhz saxlanılması!) qərarı verilmişdi.

XX əsrin əvvəllərində ermənilərin bir sıra ərazilərə, o cümlədən Dağlıq Qarabağa iddiaları ucbatından sərhədlər məsələsi mübahisəli sayıldığı üçün Millətlər Liqası Azərbaycanın təşkilata üzvlüyünü qəbul etməmişdisə, əsrin sonlarında Millətlər Liqasının varisi və dünyanın bir nömrəli beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı artıq Azərbaycanı tərəddüd etmədən müəyyənləşmiş sərhədləri çərçivəsində öz sırasına qəbul etdi. Azərbaycan Respublikası BMT-yə üzv qəbul edilərkən tərtib və təsdiq edilən xəritədə də Dağlıq Qarabağ Azərbaycan ərazisi olaraq göstərilir.

Bundan başqa, əvvəldə də qeyd etdiyimiz kimi, ermənilər Ağcakənd rayonunu da "Dağlıq Qarabağ Respublikası"nın bir hissəsi olaraq görürdülər. Hazırda Ağcakənd rayonu Azərbaycanın nəzarəti altında olduğu üçün ermənilər 1992-ci il 12 iyun tarixində Azərbaycan qoşunlarının səyləri nəticəsində "Dağlıq Qarabağ respublikasının bir hissəsi" olan Şaumyan rayonunun bütünlüklə, Mardakert (Ağdərə) və Əsgəran rayonlarının isə bir hissəsinin Azərbaycan tərəfindən işğal edildiyini bildirirdilər.

2006-cı il oktyabr ayının 9-da Dağlıq Qarabağ və Azərbaycanın digər əraziləri arasında sərhəd zonalarda ATƏT-in ekoloji vəziyyəti qiymətləndirən missiyası ilə görüşən "Dağlıq Qarabağ"ın "xarici işlər naziri" Masis Mailyan da hazırda "Dağlıq Qarabağ" ərazisinin 15%-nin – Martuni (Xocavənd) rayonunun şərq, Mardakert (Ağdərə) rayonunun şimal-şərq hissəsi və Şaumyan (Ağcakənd) rayonunun bütünlükdə Azərbaycanın "işğalı" altında olduğunu bildirmişdir.

Ermənilər Dağlıq Qarabağın Azərbaycan Respublikasından ayrılmasını və orada referendum keçirilməsini "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun muxtar vilayətə verdiyi səlahiyyətlərlə əsaslandırırlarsa, Şaumyan (Ağcakənd) rayonunun da ermənilərin kompakt yaşadıqları rayon olduğunu iddia edərək həmin qanunun 3-cü maddəsinin ona da öz statusunu müəyyənləşdirmək imkanı verdiyini əsas gətirirlər.

Erməni özbaşınalığına son qoymaq və baş verən qanunsuzluqların qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının Milli Şurası 1991-ci il 26 noyabr tarixində Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinin 3-cü hissəsini, 104-cü maddəsinin 2-ci bəndini, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsini əsas tutaraq Azərbaycan Respublikasının DQMV-ni milli ərazi qurumu kimi ləğv etdi.

Dekabr ayının 10-da isə Dağlıq Qarabağ ermənilər "Dağlıq Qarabağ Respublikasının müstəqilliyinə dair referendum" keçirdilər.

Azərbaycan və Ermənistan Respublikalarının öz müstəqilliyini elan etməsi ilə Dağlıq Qarabağın Azərbaycan ərazisindən SSRİ ərazisinə çevrildiyini və "müttəfiq respublika" statusu qazandığını iddia edən ermənilər Dağlıq Qarabağ "əhalisi" arasında "Siz, Dağlıq Qara-

bağın SSRİ tərkibində respublika olmasına razısız?" sualını referenduma çıxarmaq niyyətində idilər. Lakin SSRİ-nin sonunun çatdığını gördükdə sualda dəyişiklik edərək onu "Siz, elan edilmiş Dağlıq Qarabağ Respublikasının digər dövlətlər və birliklərlə əməkdaşlıq formalarını müstəqil müəyyənləşdirən müstəqil dövlət olmasına razısız" sualı ilə əvəz etdilər. "Referendum"un "nəticələrinə" əsasən "Dağlıq Qarabağ respublikası"nın Ali Soveti 6 yanvar 1992-ci ildə "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyi haqqında Bəyannamə qəbul etdi (10).

"Dağlıq Qarabağ"da "müstəqillik referendumu" keçirilməsi və onun müstəqilliyini elan etməsi digər qanunlarla yanaşı, "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununa da zidd idi. Müttəfiq respublika ilə birgə muxtar qurumlara və milli azlıqlara öz statuslarını təyin etmək hüququ verən 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu həmin qərarların həyata keçirilməsini bir neçə mərhələdə nəzərdə tuturdu.

Qanunun 1-ci maddəsində göstərilirdi ki, SSRİ Konstitusiyasının 72-ci maddəsinə uyğun olaraq müttəfiq respublikanın SSRİ-dən çıxması ilə bağlı məsələlərin həlli yolları bu qərara əsasən həyata keçirilir.

Qanunun 2-ci maddəsinə əsasən, müttəfiq respublikanın SSRİ-dən çıxması yalnız referendum yolu ilə mümkün ola bilərdi və həmin qərar müttəfiq respublikanın Ali Sovetinin öz təşəbbüsü ilə, yaxud Respublika ərazisində daimi yaşayan əhalinin $^{1}/_{10}$-nin imzaladığı tələbnamə əsasında qəbul edilə bilərdi. Referendum qərar qəbul edildikdən altı həftədən tez və doqquz aydan gec olmayaraq gizli səsvermə yolu ilə keçirilə bilərdi və referendumda ayrılması nəzərdə tutulan ərazidə həmin qərar qəbul edilənədək yaşayan və SSRİ qanunvericiliyinə əsasən səs vermək hüququ olan SSRİ vətəndaşları iştirak edə bilərdi.

Qanunun 3-cü maddəsi müttəfiq respublika ilə yanaşı, muxtar respublika, vilayət və dairələrə də seçim edərək SSRİ-nin, yaxud müttəfiq respublikanın tərkibində qalmaq, ya da öz istəyinə görə dövlət-hüququ statusu məsələsini qaldırmaq imkanı verirdi. Bundan başqa həmin maddəyə əsasən müttəfiq respublikanın ərazisində milli azlıqların kompakt şəkildə yaşadığı yerlər mövcuddursa, onda həmin ərə-

zilər üçün referendumun nəticələrinin ayrı hesablanması nəzərdə tutulurdu.

4-cü maddəyə əsasən, referendumun təşkili, onun keçirilməsi və nəticələrinin müəyyənləşdirilməsi üçün müttəfiq respublikanın Ali Soveti maraqlı tərəfin nümayəndələrinin iştirakı ilə komissiya yaratmalı idi.

6-cı maddə muxtar qurumlar və milli qrupların kompakt yaşadığı yerlərdə keçirilən referendumun nəticələrini müttəfiq respublikanın Ali Soveti tərəfindən, muxtar respublikanın Ali Soveti, yaxud müvafiq Xalq Deputatları Sovetlərinin iştirakı ilə araşdırmanı nəzərdə tuturdu.

9-cu maddəyə əsasən, referendumun nəticələri SSRİ Xalq Deputatları Qurultayında araşdırılmalı və müttəfiq respublikanın Ali Soveti ilə razılaşdırılmış SSRİ Ali Sovetinin təqdimatına əsasən SSRİ Xalq Deputatları Qurultayı beş ildən çox olmayan bir müddətdə keçid dövrü müəyyənləşdirməli idi. Həmin müddət ərzində müttəfiq respublikanın SSRİ tərkibindən çıxması ilə meydana gəlmiş məsələlər öz həllini tapmalı idi. Keçid dövrü ərzində həmin ərazidə SSRİ Konstitusiyası və Qanunlarının qüvvədə olması nəzərdə tutulurdu.

13-cü maddədə (İttifaqı) tərk edən respublikanın beynəlxalq hüququn ümumqəbuledilmiş prinsip və normalarına, həmçinin SSRİ-nin iştirakçısı olduğu beynəlxalq müqavilələrdə öz əksini tapmış insan haqları və azadlıqlarına riayət etməli olduğu göstərilirdi (Yenə orada).

Nəhayət, 20-ci maddəyə əsasən, keçid dövrünün başa çatması, yaxud qanunda göstərilən qarşıya çıxan məsələlərin vaxtından əvvəl tənzimlənməsi ilə bir tərəfdən (İttifaqı) tərk edən respublikanın, digər tərəfdən isə SSRİ-nin, o cümlədən muxtar respublika və qurumların, həmçinin milli qrupların iddialarının təmin edilməsi və maraqların uyğunlaşdırılmasına dair prosesin başa çatdığını təsdiq edən qərar qəbul etmək məqsədilə SSRİ Ali Soveti SSRİ Xalq Deputatları Qurultayı çağırmalı idi. Həmin Qurultayın müvafiq qərar qəbul etdiyi vaxtdan müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxması baş tutmuş sayıla bilərdi.

"Dağlıq Qarabağ Respublikası"nda keçirilən 10 dekabr "referendum"u 23 sentyabr 1989-cu il tarixli "Azərbaycan SSRİ-in Suverenliyi haqqında Konstitusiya Qanunu", 1991-ci il 30 avqust tarixli

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannaməsi və 1991-ci il 18 oktyabr tarixli "Dövlət müstəqilliyi haqqında Konstitusiya Akt"ı qəbul edildikdən, "SSRİ-nin qorunub-saxlanmasına dair" 17 mart 1991-ci il tarixli referendum keçirildikdən, Azərbaycan Respublikasının Dağlıq Qarabağın muxtariyyət statusunu ləğv edən 26 noyabr 1991-ci il tarixli qərarından və SSRİ-nin süqutunu təsdiq edən 8 dekabr 1991-ci il tarixli Belovejsk sazişindən sonra keçirilmişdi. Ermənilərin 10 dekabr "referendum"u milli və beynəlxalq hüquqa zidd olduğundan hüquqi qüvvəyə malik deyildi və onun nəticələri heç bir səlahiyyətli orqan tərəfindən tanınmadı. Bunlardan başqa, keçirilmiş həmin qanunsuz referendumda yalnız erməni əhalisi iştirak etmişdi, çünki həmin ərazinin azərbaycanlı əhalisi öz daimi yaşayış yerlərindən didərgin salınmışdı. Erməni politoloqu Stepan Qriqoryan bildirir ki, referendum keçirilən vaxt Dağlıq Qarabağda azərbaycanlıların sayının az olduğu üçün onların iştirakı onsuz da referendumun nəticələrini dəyişməyəcəkdi. Milli azlıqların kompakt yaşamasına gəldikdə isə qeyd etmək lazımdır ki, ermənilər Dağlıq Qarabağda azərbaycanlı əhali ilə qarışıq yaşayırdılar.

Dağlıq Qarabağda referendumun keçirilməsinin özü qanunsuz olduğu və onun "müstəqil" elan edilməsi yolunda atılmış bütün addımlar başlanğıcdan qanun pozuntusu ilə müşayiət edildiyi üçün "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun da bütün maddələrinə zidd şəkildə həyata keçirilmişdi.

Referendumun qanunsuz keçirildiyini və onun nəticələrinin heç bir hüquqi əsası olmadığını göstərən amillərdən biri də məhz ermənilərin əllərində bayraq etdikləri həmin 03.04.1990-cı il tarixli SSRİ Qanununun özüdür. Qanuna əsasən, referendum yalnız müttəfiq respublikanın Ali Sovetinin qərarı ilə və müttəfiq respublikanın bütün ərazisində keçirilə bilərdi. Azərbaycan Respublikasının Ali Soveti isə belə bir qərar verməmişdi. Həmçinin referendumun nəticələri də SSRİ Xalq Deputatları Soveti tərəfindən araşdırılmamış və "Dağlıq Qarabağ Respublikası"nın müstəqil olmasına dair müvafiq qərar verilməmişdi.

Ermənistan isə Müttəfiq Respublika (burada: Azərbaycan Respublikası) və SSRİ Xalq Deputatları Qurultayının səlahiyyətində olan

vəzifəni özü icra edərək Dağlıq Qarabağın və Ağcakənd rayonunun əhalisi adından onun "müstəqilliyini" elan edib və bunun "Dağlıq Qarabağ Respublikası" ermənilərinin öz qərarı olduğunu, həmçinin onların vəziyyətə uyğun bir addım atdıqlarını iddia edir.

Referenduma gəldikdə isə o, 17 mart 1991-ci il tarixində SSRİ Xalq deputatları Qurultayının 24 dekabr 1990-cı il tarixli qərarına əsasən və "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanuna uyğun şəkildə SSRİ-nin bir çox ərazilərində keçirilmiş və əhalinin çox hissəsi (76,4%) SSRİ-nin qorunub-saxlanmasına səs vermişdi. Həmin referendumda Ermənistan Respublikasından fərqli olaraq, Azərbaycan Respublikası iştirak etmişdi. 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu isə, müttəfiq respublikanın SSRİ-dən çıxmaq istədiyi halda referendum keçirilməsini nəzərdə tuturdu. Azərbaycan isə, məlum olduğu kimi, SSRİ-dən çıxmaq üçün müraciət etməməli idi.

"Dağlıq Qarabağ Respublikası" və ona oxşar digər qondarma qurumlardan (Cənubi Osetiya, Abxaziya Respublikası, Dnestryanı Respublika) fərqli olaraq Azərbaycanın və digər müttəfiq respublikaların müstəqillik əldə etməsi isə təbii bir proses nəticəsində baş vermişdi.

SSRİ Konstitusiyasının 72-ci maddəsinə əsasən, müttəfiq respublikaların SSRİ-dən azad surətdə çıxmaq hüququ saxlanılırdı və bununla yanaşı, SSRİ Xalq Deputatları Sovetinin 24 dekabr 1990-cı il tarixli qərarına əsasən, SSRİ artıq bərabərhüquqlu suveren respublikalar federasiyasına çevrilmişdi. Azərbaycan da digər müttəfiq respublikalar kimi mövcud qanunlara uyğun olaraq və yaranmış şəraitdən istifadə edərək öz müstəqilliyini elan etmişdi.

Yeni müstəqil dövlətlər isə – Sovet dövründən əvvəlki vaxta dönə bilməzdilər. Lakin dönmək mümkün olsa belə, Dağlıq Qarabağ elə əvvəlki dövrdə də Azərbaycanın tarixi əraziləri olaraq onun tərkibində idi. Bundan başqa, 21 dekabr 1991-ci il tarixində Müstəqil Dövlətlər Birliyi yaranmasına dair Alma-Ata Bəyannaməsi imzalandı. Bəyannaməni imzalayan dövlətlər, o cümlədən Ermənistan Respublikası da Sovet İttifaqının müqavilələri üzrə beynəlxalq öhdəlikləri yerinə yetirəcəklərini təsdiq etmişdilər.

1991-ci il avqustun 19-21-də dövlət çevrilişi cəhdindən (Fövqəladə Hallar üzrə Dövlət Komitəsi) sonra elə həmin ilin sentyabr ayı-

nın 5-də qəbul edilmiş "Keçid dövründə SSRİ-nin dövlət hakimiyyəti və idarəçilik orqanları haqqında" Qanuna əsasən SSRİ Xalq Deputatları Qurultayı səlahiyyətlərini ölkə Başçıları Sovetinə verərək öz fəaliyyətini dayandırdı. Qanunvericilikdə edilmiş çoxsaylı dəyişikliklər nəticəsində SSRİ Konstitusiyası öz hüquqi qüvvəsini itirdi və göstərilən qanuna əsasən SSRİ Ali Sovetinin qərarları Respublika Konstitusiyasına zidd olduğu halda, Respublikalar həmin qanunun fəaliyyətini dayandırmaq hüququ əldə etdilər. Respublikaların ümumi maraqlarını əks etdirən daxili və xarici siyasətə dair məsələlərlə bağlı qərar vermək məqsədi ilə, formal olaraq, SSRİ Dövlət Soveti yaradıldı. Bura yeni SSRİ prezidenti və müttəfiq respublikaların ən yüksək vəzifəli şəxsləri daxil idi. Əslində isə bütün səlahiyyətlər respublika hakimiyyətlərinin əlində cəmlənmişdi.

1991-ci il avqust ayının 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar iclasında Azərbaycan xalqının öz müqəddəratını sərbəst təyin etmək hüququ və xalqın iradəsi əsas götürülərək "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə, həmin ilin oktyabr ayının 18-də isə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilmişdi. Bu iclasda müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin qanunverici orqan və nazirlər kabinetinə müraciət edildi. Müraciətdə yenidən dünya birliyinin bərabərhüquqlu üzvü olmaq istəyən Azərbaycan dövləti hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərinə tərəfdar olduğunu qeyd edərək bütün dövlətləri, onların parlamentlərini və hökumətlərini Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında 30 avqust 1991-ci il tarixli Bəyannaməni nəzərə alaraq, Azərbaycan Respublikasını müstəqil, suveren dövlət kimi tanımağa çağırdı.

"Müstəqillik haqqında Konstitusiya Aktı"nı təsdiq etmək məqsədilə Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1991-ci il dekabrın 29-da "Müstəqillik haqqında" referendum keçirildi (15, 76). İkinci dəfə müstəqillik yoluna qədəm qoyan və müstəqilliyi dünya dövlətləri tərəfindən tanınan Azərbaycan Respublikası da digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrildi və müstəqil daxili və xarici siyasət yürütməyə başladı.

Yuxarıda göstərilən bütün proseslər Dağlıq Qarabağda qanlı toqquşmalarla müşayiət olunurdu. Həmin toqquşmalar 1988-ci il fev-

ralın 22-də – ermənilər tərəfdən iki azərbaycanlı gəncin – Əli Hacıyevin və Bəxtiyar Quliyevin öldürülməsi və 19 nəfərin yaralanması ilə başlanmışdı. Həmin vaxt Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri H.Həsənov "Zil -130" markalı avtomobilin üzərinə çıxaraq və Ağdam rayon Xalq Deputatları Sovetinin sədri Xuraman Abbasova öz yaylığını kütlənin qarşısına ataraq Ağdam sakinlərindən dayanmağı xahiş etmiş və bununla da baş verə biləcək toqquşmanın qarşısının alınmasına çalışmışdılar. Lakin bundan sonra toqquşmalar nəinki dayandı, hətta get-gedə daha da kəskin xarakter almağa başladı.

Həmin il fevralın 23-dən isə Qafan rayonundan azərbaycanlıların çıxarılması ilə Ermənistandan azərbaycanlı əhalinin qovulması prosesi başlandı.

Sumqayıt şəhərində mərkəzin dəstəyi ilə ermənilərin özləri tərəfindən təşkil edilmiş 28-29 fevral 1988-ci il hadisələri və bundan sonra baş vermiş bütün digər hadisələr münaqişəni daha da kəskinləşdirdi. Üstündən uzun illər keçəndən sonra 2005-ci ilin mart ayının 30-da Ermənistan parlamentində çıxış edən, həmin vaxt Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan 1988-ci il Sumqayıt və 1990-cı il Bakı hadisələrinin SSRİ rəhbərlərinin göstərişinə əsasən baş verdiyini bildirdi. Bu, ermənilər tərəfindən ilk qanlı terror təxribatı deyildi. Ermənilər, ümumiyyətlə, münaqişə törədib sonra onu qarşı tərəfin üzərinə atmağa və baş verənlərdən öz xeyirlərinə istifadə etməyə adət ediblər. Məsələn: 1919-cu il iyun ayının 4 və 5-də erməni Milli Şurasının təhrikilə Qarabağda erməni və müsəlman icmaları arasında qarşıdurma yaranmışdı. Məqsəd ermənilərin azərbaycanlılar tərəfindən öldürüldüyünü və yaşayış yerlərindən qovulduğunu Versaldakı ANTANTA müttəfiqlərinə göstərmək, bununla da Qarabağı Ermənistana birləşdirməyə nail olmaq idi. Lakin ingilis komandanlığı əsl səbəbi öyrəndikdən sonra erməni Milli Şurasını Qarabağdan uzaqlaşdırmağa nail olmuşdu.

Bu baxımdan, 2004-cü il fevralın 19-da Budapeştdə azərbaycanlı zabit Ramil Səfərov tərəfindən Azərbaycan bayrağını və zabitin şəxsiyyətini təhqir etdiyi üçün qətlə yetirilmiş erməni zabit Qurgen Markaryan və 2007-ci il yanvarın 19-da İstanbulda qətlə yetirilmiş erməni liberal yazar Qrant Dink də ermənilər üçün xüsusilə qiymətlidir. Bu, ermənilərin bir daha bütün dünyaya car çəkib əzabkeş mil-

lət olduğunu və hər yerdə təcavüzə məruz qaldığını nümayiş etdirmək üçün əllərinə göydən düşmüş bir fürsətdir. Onlar hadisələrin baş vermə səbəblərini isə özləri istədikləri kimi çatdırır və öldürülmüş ermənilərı Milli qəhrəman kimi təqdim edirlər. Qeyd edək ki, "Proqress" adlı erməni partiyasının sədri Ramil Səfərovun başına 125 min dollar qiymət təyin etmişdir.

SSRİ-nin süqutundan sonra milli ordunun yaradılmasında da Ermənistan Azərbaycandan cəld tərpəndi. 1991-ci ilin aprelində Ermənistanda milli orduya çağırış başlandı və Ermənistan özünün milli ordusunu yaratdı.

Azərbaycan Respublikası isə həmin il avqust ayının 30-da öz dövlət müstəqilliyini bərpa etməklə yanaşı, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 5 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı.

SSRİ siyasi rəhbərliyi ermənipərəst mövqe tutsa da, öz qərarlarında Ermənistan SSR-in hərəkətlərinin qanunazidd və qızışdırıcı olduğunu açıq-aşkar bildirirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin "Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1 dekabr 1989-cu il və 9 yanvar 1990-cı il tarixli Dağlıq Qarabağa dair aktlarının SSRİ Konstitusiyasına uyğun olmadığına dair" 10 yanvar 1990-cı il tarixli qərarında və SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda və bir neçə digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" 15 yanvar 1990-cı il tarixli əmrində Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair qəbul etdiyi SSRİ Konstitusiyasına uyğun olmayan aktların millətlərarası münasibətlərin gərginləşməsinə gətirib çıxardığı göstərilmişdi.

Müttəfiq respublikalar da SSRİ çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün müəyyən cəhdlər edirdilər. Rusiya və Qazaxıstan respublikalarının rəhbərlərinin Azərbaycan və Ermənistan tərəfinin razılığı ilə birgə vasitəçilik missiyaları bu istiqamətdə atılmış ilk addım kimi qiymətləndirilir. 1991-ci ildə Rusiya Prezidenti B.Yeltsinin və Qazaxıstan Prezidenti N.Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası Bakı, Gəncə, Xankəndi (Stepanakert) və Yerevanda səfərdə oldu. Vasitəçilik missiyasının iştirakı

ilə 23 sentyabrda Şimali Qafqazın Jeleznovodsk şəhərində Azərbaycan və Ermənistan respublikaları Prezidentlərinin görüşü keçirildi. Görüşdə münaqişənin mərhələli nizamlanmasına dair bəzi məsələlər müzakirə edildi və nəticədə Rusiya tərəfdən B.Yeltsin, Qazaxıstan tərəfdən N.Nazarbayev, Azərbaycan tərəfindən A.Mütəllibov, Ermənistan tərəfdən L.Ter-Petrosyanın imzaladığı birgə kommunike qəbul edildi.

Kommunikedə tərəflər – atəşin dayandırılmasını; Azərbaycan və Ermənistanın DQMV-yə dair bütün qeyri-konstitusiya aktlarının ləğv edilməsini; qanuni hakimiyyət orqanlarının səlahiyyətlərinin tanınmasını; SSRİ DİN-ə məxsus Daxili Qoşunların və SSRİ Müdafiə Nazirliyinin hissələri istisna olmaqla, münaqişə bölgəsindən bütün silahlı dəstələrin çıxarılmasını, münaqişənin 1992-ci il yanvarın 1-dək nizamlanmasını zəruri və məcburi şərtlər kimi qəbul edirdilər. Həmin müddət bitdikdə isə bütün silahlı qruplaşmaların və onların fəaliyyətlərinin qeyri-qanuni hesab edilməsi və onların qarşısının SSRİ DİN-in daxili qoşunları tərəfindən alınması, silahlı dəstələrin iştirakçılarının isə qanunauyğun şəkildə məsuliyyətə cəlb edilməsi nəzərdə tutulurdu.

Bu sənəddə aşağıdakı müddəalar öz əksini tapmışdı: Razılaşdırılmış tədbirlərin icrası məqsədilə Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələrindən ibarət müvəqqəti işçi qrup yaradılır və onların 1991-ci il oktyabrın 1-dək fəaliyyətə başlayacağı nəzərdə tutulurdu. Bundan sonra Azərbaycan və Ermənistan Respublikaları deportasiya olunmuş əhalinin öz yerlərinə qaytarılmasına başlamalı və tərəflər daimi yaşayış yerlərində onların təhlükəsizliyini təmin etməli idilər. Münaqişəyə cəlb edilmiş tərəflər vasitəçilərin nəzarəti altında girovların azad edilməsinə başlamalı; İttifaq orqanları ilə birgə dəmir yol nəqliyyatı, hava əlaqəsi, rabitə və kommunikasiya sistemlərinin normal fəaliyyətini təmin etməli; vasitəçilərin iştirakı ilə avtomobil yollarının azad və səmərəli istismarını təmin etmək məqsədilə danışıqlara başlamalı idilər. Tərəflər, həmçinin münaqişə haqqında obyektiv məlumat əldə etmək məqsədilə RF və Qazaxıstan nümayəndələrindən ibarət səlahiyyətli qrup yaratmaq qərarına gəldilər. Bunlarla yanaşı, Azərbaycanın və Ermənistanın ali orqanları ikitərəfli danışıqlar prosesinə başlamaq üçün səlahiyyətli nümayəndə heyətləri təyin

etməli idilər. Lakin Kommunike qəbul edildikdən sonra baş vermiş hadisələr sənəddə nəzərdə tutulanların həyata keçirilməsinə imkan vermədi.

Münaqişə Ermənistan və Azərbaycan respublikaları SSRİ-nin tərkibində müttəfiq respublika olduğu vaxtdan başlandığı üçün hər hansı digər dövlət, yaxud təşkilat ona müdaxilə etmirdi. Bu, son zamanlar mövqeyinin zəifləməsinə baxmayaraq, hələ də dünyanın iki fövqəl dövlətindən və qüvvələr balansını tənzimləyən iki qütbdən biri olan SSRİ-nin daxili işlərinə qarışmaq kimi qiymətləndirilə bilərdi.

Məsələn, 1991-ci ilin 9 noyabr tarixində Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyini tanıdığını bəyan edəndə, SSRİ hələ mövcud olduğu üçün, ABŞ bu hərəkətin dünyada gərginliyin artmasına səbəb ola biləcəyindən ehtiyat edərək ona tələsməməyi məsləhət görmüşdü. Buna cavab olaraq Türkiyə SSRİ ilə münasibətlərini qarşılıqlı hörmət əsasında qurduğunu, Azərbaycanın istiqlaliyyətini tanımaq haqqında Türkiyə hökumətinin qərarının isə türk xalqının iradəsini ifadə etdiyini bildirmişdi. 1991-ci il noyabrın 11-də Türkiyə xarici işlər naziri Səfa Səray Türkiyə Cümhuriyyətinin hökuməti adından Azərbaycan Respublikasının müstəqilliyinin tanındığına dair bəyanatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdi.

1991-ci ilin sonunda respublikalar tam müstəqillik əldə etdikdən sonra münaqişənin həlli prosesinə qonşu dövlətlər və beynəlxalq təşkilatlar da qoşulmağa cəhd etdilər.

2 mart 1992-ci il tarixdə Azərbaycan BMT-yə üzv qəbul edildikdən sonra Ermənistanın təcavüzünün açıq-aşkar güclənməsi ilə bağlı BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının Sədrinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünün, beynəlxalq hüquq normalarının və BMT Nizamnaməsinin açıq şəkildə pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi yolla nizamlanmasına yardım göstərməyə çağırdı.

Bu dövrdə Ermənistan-Azərbaycan münaqişəsinə qarışmamağa çalışan rəsmi Ankara onun dinc yolla həllinə nail olmaq üçün beynəlxalq təşkilatlara müraciət etmişdi. 1992-ci ilin 11 mart tarixində Türkiyə Böyük Millət Məclisinin İnsan Haqları Komissiyasının üzvləri dünya mətbuatı nümayəndələri üçün təşkil etdikləri mətbuat konfransında Qarabağda müharibə yox, qətliam (soyqırımı) baş verdiyini bildirmişdilər.

İran da münaqişə tərəfləri arasında vasitəçilik etmək istəyən dövlətlərdən idi. 1991-ci ilin mart ayında İran İslam Respublikasının xarici işlər naziri Azərbaycana və Ermənistana səfəri zamanı hər iki dövlət arasında ikitərəfli münasibətlərin inkişaf yolları və münaqişənin həllində vasitəçilik etmək istəyini bildirmişdi. Bunun nəticəsi olaraq, 7 may 1992-ci il tarixində Azərbaycan və Ermənistan Respublikası müstəqil olduqdan sonra – İİR Prezidenti Ə.Haşimi-Rəfsəncaninin vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Y.Məmmədov və Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan arasında Tehran Bəyannaməsi imzalandı (18, 87). Bəyannaməyə əsasən, atəşkəsin əldə edilməsi və iqtisadi tələbatı ödəmək üçün bütün kommunikasiya yollarının açılacağı nəzərdə tutulurdu. Əldə edilmiş razılıq həyata keçiriləcəyi təqdirdə İİR-in müşahidəçiləri ilə yanaşı, ATƏM müşahidəçilərinin də bu prosesə cəlb ediləcəyi qərara alınmışdı. Lakin bu vasitəçilik səyləri uğursuzluqla nəticələndi.

Tehran Bəyannaməsinin ardınca 8 may 1992-ci ildə Şuşa şəhəri, 18 may 1992-ci ildə isə Laçın rayonu ermənilər tərəfindən işğal edildi. 1992-ci il avqust ayının 27-də Qazaxıstan Prezidenti N.Nazarbayevin təklifi ilə Azərbaycan və Ermənistan Respublikalarının xarici işlər nazirləri Qazaxıstanın ovaxtkı paytaxtı Alma-Ata şəhərində görüşdülər. Tərəflər 1992-ci il sentyabrın 1-dən başlayaraq 60 gün ərzində hərbi əməliyyatları dayandırmaq haqqında sənəd imzaladılar. Lakin bu razılığa da əməl edilmədi və həmişə olduğu kimi, bu dəfə də tərəflər razılığın pozulmasında bir-birlərini günahlandırdılar.

Azərbaycan xalqının SSRİ respublikalarından birinə xəyanət etmiş Qorbaçovdan qəti üz döndərməsinə amansız Qarabağ girdabı, Bakıda Qanlı Yanvar və bir sıra başqa hadisələr artıqlaması ilə əsas verirdi. Buradan irəli gələn bütün nəticələr də öz yerində: öz taleyini müstəqil həll etmək, dövlət müstəqilliyi qazanmaq, təbii sərvətlərinə sahib olmaq, demokratiyanı inkişaf etdirmək. Buna birinci siqnal o oldu ki, 1990-cı ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının Ali Soveti SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul etdi.

ABŞ Konqresi 1992-ci il 24 oktyabr tarixində müstəqillik əldə etmiş keçmiş sovet dövlətlərinə yardım haqqında "Rusiyada azadlığın, Avrasiyada demokratiyanın, azad bazar münasibətlərinin müda-

fiəsi haqqında akt" adlanan qanunvericilik aktı qəbul etdi. Akt çərçivəsində ABŞ hökumətinin həyata keçirdiyi proqramlar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılırdı:

– ABŞ hökumətinin MDB-də işgüzar fəaliyyətə, idxal və ixracın inkişafına yardım proqramları;

– ABŞ hökumətinin maliyyələşdirilmə proqramları;

– Texniki yardım proqramları.

Həmin ilin dekabrında isə qısaca "Azadlığın müdafiə aktı" adlanan həmin akta Massaçusets ştatını təmsil edən Con Kerri adlı senatorun (daha sonra ABŞ dövlət katibi) təşəbbüsü ilə Azərbaycana verilən yardımı məhdudlaşdıran 907-ci düzəliş qəbul edildi. Bu düzəliş başqa dövləti mühasirədə saxlayan dövlətə yardımı qadağan edir və Azərbaycan Ermənistanı blokadada saxladığı üçün ona yardım edilməsi qadağan olunurdu. Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadaları və hərbi gücdən istifadəni ləğv etməsini ABŞ prezidenti müəyyən edib bu haqda konqresə məlumat verməyincə, Azərbaycan hökumətinə yardım göstərilməyəcəyi bildirildi. 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror hadisələrindən sonra 2001-ci ilin oktyabr ayında Senat Corc Buşa 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün səlahiyyət verdi. Senatın qəbul etdiyi həmin qərar Konqresin hər iki palatasının nümayəndələrindən ibarət razılaşdırıcı komitənin müsbət rəyini aldıqdan sonra 2002-ci il yanvar ayının 25-də ABŞ prezidenti C.Buş–oğul həmin səlahiyyətdən istifadə edərək beynəlxalq antiterror koalisiyasının üzvü olan Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənəd imzaladı. Amerika erməni Assambleyasının başçısı Van Qriqoryan buna etiraz edərək, ABŞ-Azərbaycan əməkdaşlığından qorxmaq üçün Ermənistanın ciddi əsasları olacağını və bu əməkdaşlığın onların "qədim" vətənlərinə ziyan vuracağını bildirdi. Buna baxmayaraq, düzəlişin qüvvəsi dayandırıldı. Lakin 907-ci düzəliş hələ də tamamilə ləğv edilməmişdir.

Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanın fikrincə, münaqişənin ilk illərində Ermənistan bir sıra sahələrdə uğurlar əldə etmişdi ki, bunlardan biri də onun Azərbaycanı aqressor-ölkə kimi təqdim edə bilməsidir. D.Şahnazaryan qeyd edir

ki, ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi 907-ci düzəliş Azərbaycanın aqressor-ölkə olduğunu sübut edir.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 2006-cı il aprelin 26-da Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında görüşü zamanı isə ABŞ-ın sabiq prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft Ermənistanın apardığı hərbi əməliyyat və təcavüzün müqabilində ABŞ-ın sanksiyalarının Ermənistana deyil, Azərbaycana tətbiq edildiyini qeyd etmişdi. Bunun cavabında dövlət başçısı İ.Əliyev bildirmişdi ki, sanksiyanın tətbiq edilməsi müstəqilliyin ilk illərində Azərbaycanda diplomatiyanın zəif olması və ABŞ-ın Azərbaycanı ümumiyyətlə tanımaması səbəbindən baş vermişdi. Həmin vaxt ermənilər Konqresi və digər təsisatları Azərbaycanın təcavüzkar olmasına inandıra bilmişdilər. 2007-ci il aprel ayının əvvəlində AzərTac-ın müxbirinə müsahibə verən Minsk Qrupunun amerikalı həmsədri və sabiq ABŞ səfiri M.Brayza isə bu düzəlişin səmərəsiz qanun olduğunu və Dağlıq Qarabağ münaqişəsində bitərəf vasitəçi kimi çıxış etməyə imkan vermədiyini bildirmişdir.

1993-cü il münaqişənin artıq Dağlıq Qarabağ sərhədləri çərçivəsindən çıxdığı bir vaxtda Azərbaycan hökuməti beynəlxalq birliyin üzvü olan dövlətlərə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzkarlığının dayandırılması üçün onlardan yardım istədi. Həmin ilin aprel ayında Turqut Özalın Bakıya səfəri zamanı Türkiyə və Azərbaycan arasında müştərək müdafiə müqaviləsi bağlanacağı gözlənilirdi. Lakin Azərbaycan münaqişənin ATƏM çərçivəsində həllini dəstəklədiyi üçün onun beynəlxalq ictimaiyyətin köməyi ilə həllinə üstünlük verdi və Türkiyə də hərbi müdaxilənin münaqişəni daha da gücləndirəcəyindən ehtiyat etdiyi üçün belə bir müqavilə bağlanmadı. Elə həmin il Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər BMT TŞ-ya Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı olaraq hər iki dövlət arasında BMT-nin sülhməramlı qoşunlarının yerləşdirilməsi məqsədilə müraciət etməyi təklif etmişdi. Türkiyənin Azərbaycandakı səfirliyi bəyanat verərək Ermənistanın Azərbaycana qarşı təcavüzü və müstəqil Azərbaycanın ərazi bütövlüyünün pozulması hallarının yalnız Azərbaycanın daxili işi olmadığını, bütün beynəlxalq qanunları və hüququ pozan, həmçinin

dünya miqyasında təhlükəli bir məsələ olduğunu bildirmişdi. Lakin Azərbaycan öz razılığını vermədiyi səbəbindən Türkiyə BMT-yə müraciət etməmişdi. Göstərilən ilin 27 iyulunda Türkiyə Cümhuriyyətinin yeni Prezidenti Süleyman Dəmirəl Fransa Prezidenti Fransua Mitteranla danışaraq, Rusiya Prezidenti B.Yeltsinə isə məktub göndərərək onlardan Ermənistan üzərində olan nüfuzlarından istifadə edərək onun beynəlxalq hüquq normalarına hörmət etməsini və işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməsini təmin etmələrini xahiş etmişdi. O, həmçinin BMT və ATƏM çərçivəsində həmin dövlətlərlə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdi.

Türkiyə isə Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatları gücləndirməsi və Kəlbəcərin işğalı ilə əlaqədar olaraq Ermənistana yardımı dayandırdı və öz hava yollarını Ermənistana və Ermənistandan uçan bütün təyyarələr üçün bağlı elan etdi.

Artıq münaqişənin Dağlıq Qarabağın hüdudlarından çıxdığını və onun ətrafındakı Azərbaycanın digər rayonlarının da işğal edildiyini görən BMT TŞ məsələyə münasibət bildirmək qərarına gəldi. 1993-cü il aprel ayının 3-də Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı ilə əlaqədar olaraq aprel ayının 6-da BMT Təhlükəsizlik Şurasının sədri Azərbaycanın Kəlbəcər rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalını ittiham edərək bu ərazilərin dərhal azad edilməsini və ordunun oradan çıxarılmasını tələb edən bəyanatla çıxış etdi, BMT TŞ isə bununla bağlı 30.04.1993-cü il tarixli 3205-ci iclasında 822 saylı qətnamə qəbul etdi. Lakin həm BMT TŞ-nın sədrinin bəyanatında, həm də TŞ-nın qətnaməsində Kəlbəcərin yerli erməni qüvvələri tərəfindən təcavüzə məruz qaldığı göstərilirdi. Bununla yanaşı, bəyanat və qətnamədə işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın 1993-1994-cü illərdə işğal edilmiş digər rayonlarından dərhal çıxarılmasını tələb edilməklə təcavüzkar qüvvənin yerli deyil, kənar qüvvə olmasının faktı bütün dünya birliyinə yaxşı bəllidir. Yoxsa həmin qüvvələrin göstərilən ərazilərdən çıxarılması deyil, onlardan öz hərəkətlərinə son qoymaq tələb edilərdi. Bundan başqa, BMT TŞ-nin 29.07.1993-cü il tarixli 3259-cu iclasında münaqişədə iştirak edən erməni işğalçılarının tez bir zamanda hərbi əməliyyatları dayandırması, Ağdam və başqa zəbt olunmuş rayonların ərazisindən çıxarılmasını qəti surətdə tələb edən 853 saylı, 14.10.1993-cü il tarixli 3292-ci icla-

sında bir daha erməni qüvvələrinin zəbt olunmuş ərazilərdən çıxarılmasını tələb edən 874 saylı və 11.11.1993-cü il tarixdə 3313-cü iclasında Dağlıq Qarabağ ermənilərinin Azərbaycan Respublikasının Zəngilan rayonu, Horadiz şəhəri və digər zəbt olunmuş əraziləri azad etməyə çağıran 884 saylı qətnamələri də mövcuddur.

Ermənilər BMT TŞ-nın qətnamələrini tam fərqli izah edirlər. "Dağlıq Qarabağ Respublikası"nın "Təhlükəsizlik Şurası"nın katibi K.Baburyan həmin qətnamələrin dolayı yolla "Dağlıq Qarabağ respublikası"nı tanıdığını hesab edir. O bunu onunla izah edir ki, əgər qətnamədə ərazinin yerli erməni qüvvələri tərəfindən tutulduğu göstərilirsə, bu artıq respublikanın tanınması anlamını verir. Bundan başqa, ermənilər bildirirlər ki, BMT qətnamələri fəal hərbi əməliyyatlar aparıldığı və "Qarabağ" ordusunun keçmiş DQMV ilə həmsərhəd rayonlarının bir hissəsini "azad" etdiyi bir vaxtda qəbul edilmişdi ki, həmin rayonlar hələ RK(b)P Qafqaz bürosunun qərarı ilə DQMV-nin tərkibinə daxil edilməli idilər. Bununla bərabər göstərirlər ki, qətnamələrdə Ermənistan Respublikasının ünvanına heç bir ittiham irəli sürülmür və BMT TŞ-nin 882 №-li qətnaməsində Kəlbəcərin işğalının yerli, yəni Qarabağın erməni qüvvələri tərəfindən həyata keçirildiyini göstərməyi vacib sayıb. Ermənistan, ümumiyyətlə, münaqişənin başlandığı gündən onun Dağlıq Qarabağa olan ərazi iddialarına qarşı çıxarılan qərarların heç birinə məhəl qoymamışdır. Qeyd etmək lazımdır ki, hələ 1992-ci ildə Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Azərbaycanın tərkibində olduğu göstərilən heç bir sənədi tanımayacağı haqda qərar qəbul etmişdi.

Minsk Qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov isə 2004-cü ilin iyul ayında Bakıya səfəri zamanı həmin qətnamələrə münasibətini belə bildirdi: "BMT TŞ-nin qətnamələri başqa geosiyasi şəraitdə qəbul edilib və onlar bu gün yerinə yetirilməyə bilər (?!). Göstərilən tələblərin yerinə yetirilmə müddəti keçib və yeni nizamlama variantı axtarmaq lazımdır". Necə deyərlər, şərhə ehtiyac yoxdur!

BMT-nin qətnamələrində silahlı qüvvələrin kimə məxsus olduğunu göstərmək münaqişənin ölkədaxili, yaxud ölkələrarası münaqişə olmasını müəyyənləşdirməyə kömək edir. Adı çəkilən münaqişə, əgər təcavüzkar qüvvələrin yerli erməni qüvvələri olduğu göstərilirsə, onda ölkədaxili, Ermənistan silahlı qüvvələri olduğu göstərilərsə və

bu hüquqi cəhətdən təsdiq olunarsa, ölkələrarası və beynəlxalq münaqişə kimi qiymətləndirilməlidir. BMT TŞ-nin sənədlərində silahlı qüvvələrin yerli ermənilərə məxsus olduğu göstərilsə də, münaqişənin Ermənistanla Azərbaycan arasında baş verdiyi qəbul edilib və o, beynəlxalq münaqişələr sırasına daxil edilib. Eyni zamanda Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycan ərazilərini işğal altında saxlayaraq və həmin ərazilərdə beynəlxalq hüquqa zidd olaraq, beynəlxalq ictimaiyyətin iradəsinə məhəl qoymadan məskunlaşdırma siyasəti aparmışdır.

Bütün görüşlərdə – həm 1991-ci il 20-23 sentyabr Jeleznovodsk şəhərində, həm 1992-ci il may ayının 7-də İranda, həm də həmin il 1 sentyabr tarixində Alma-Ata (Almatı) şəhərində keçirilən görüşlər zamanı danışıqlar münaqişə tərəfi olaraq Ermənistan və Azərbaycan tərəfləri arasında aparılmışdı, sənədləri də münaqişə tərəfi olaraq həmin respublikaların nümayəndələri imzalamışdılar. Danışıqlar prosesi ATƏT çərçivəsinə keçdikdən sonra Ermənistanın təhriki ilə "Dağlıq Qarabağ"ın münaqişə tərəfi kimi ortaya atılması meydana çıxdı.

Ümumilikdə isə, münaqişə ilə 1992-ci ildən ATƏM-in Minsk Qrupunun məşğul olduğu və 1994-cü ildən isə münaqişənin həllinə dair bütün səlahiyyətlər ATƏT çərçivəsinə (Budapeşt sammiti) keçdiyi üçün BMT daxil olmaqla bütün digər təşkilatlar və dövlətlər onun ATƏT çərçivəsində həllinə üstünlük verirlər ki, bu amil də münaqişənin tənzimlənməsinə BMT-nin effektli təsir gücünü azaldır.

Sual və tapşırıqlar:

– Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında nəyi bilirsiniz?

– Muxtar Vilayətin (Dağlıq Qarabağ) yaradılmasının hüquqi əsaslarının qanunauyğunluğu nə qədər real idi?

– Belə bir Muxtar Vilayətin yaradılmasında ermənilərı himayə edən dövlətlərin məkrli məqsədləri nədən ibarət idi?

– Qarabağın dağlıq ərazisində Muxtar Vilayətin yaradılmasının mövcud qanunvericiliyə zidd olduğunu öyrənin və şərh edin.

QARABAĞ MÜNAQİŞƏSİNİN SİYASİ HƏLL YOLLARI

90-cı illərin ortalarından başlayaraq Qərbin, xüsusilə ABŞ-ın Dağlıq Qarabağ münaqişəsini dinc, siyasi vasitələrlə nizamlanmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğurmuşdur.

1992-ci ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı. ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə edilərək, münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul edildi. Qərara alındı ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi. Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

Azərbaycanda ictimai-siyasi sabitik yalnız 1993-cü ilin iyun ayında xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə bərqərar oldu. Tarixi öncəgörmə istedadına və diplomatiya məharətinə malik olan bu müdrik dövlət və siyasi xadim

qarşıya qoyulmuş məqsədə – müstəqil Azərbaycan dövləti yaratmaq hədəfinə doğru möhkəm və qətiyyətlə, addım-addım irəliləməyə qadir olan Heydər Əliyev xalqı və ölkəni dərin siyasi və iqtisadi böhrandan xilas etdi.

Uzaqgörən, təcrübəli siyasətçilər həmişə öz məqsədlərinə ən dəqiq və ya ağrısız üsulla nail olmağa çalışırlar. Məsələn, münaqişəni həll edən siyasətçinin əsas vəzifəsi minimal itkilər hesabına uğur qazanmaqdır.

Ermənilərin təcavüzünə cavab olaraq Heydər Əliyevin "neft diplomatiyası" regionda qüvvələr balansını kökündən dəyişdi, Azərbaycanı firavan, sürətlə inkişaf edən dövlətə çevirdi, dünyanın güc sahiblərini onun maraq və məqsədləriylə hesablaşmağa məcbur etdi.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və onu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər birinin xeyli dərəcədə Rusiya-Qərb qarşıdurmasının xarakterindən asılı olduğunu görərik. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğururdu. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Öz məqsədlərinə nail olmaq üçün Rusiya Azərbaycana təzyiq göstərərək, qoşunlarını "sülhməramlı qüvvələr" adı altında münaqişə bölgəsinə gətirmək niyyətində idi. Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistanda (Gümrükdəki 102-ci bazada) qoşunlarının sayını bir qədər də artırmış, onu gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin işğal olunmasına dəstək vermişdir.

Bununla yanaşı, Qarabağ müharibəsində Ermənistanın aldığı xarici dəstək ona üstünlük qazandırır, Azərbaycanın bütün resurslarının bu istiqamətə cəmləşdirilməsini vacib edirdi. Təbii ki, bu da öz növbəsində digər sahələrdə çatışmazlıqların və narazılıqların yaranmasına gətirib çıxarırdı. Qeyd edək ki, 1991-1993-cü illərdə Azərbaycanın daxilində baş vermiş siyasi böhranlar və tez-tez baş verən hakimiyyət dəyişikliklərinin bir çoxu da bu problemdən qaynaqlanır-

dı. Belə ekstremal vəziyyətdə buraxılan siyasi səhvləri, lider qıtlığı və kadr səriştəsizliyi kimi amilləri də nəzərdən qaçırmaq olmaz.

SSRİ-nin zəifləməsindən və mərkəzi aparatda bir sıra dairələrin yardımından faydalanan erməni millətçiləri Ermənistan ərazisindən bütün azərbaycanlıları (240000 nəfər) deportasiya etdikdən sonra Dağlıq Qarabağda separatçılıq hərəkətlərini qızışdıraraq aktiv fəaliyyətə keçdilər. Onlar Ermənistan və Rusiya hərbiçilərinin (Xankəndindəki 366-cı alay) birbaşa müdaxiləsi ilə, bir-birinin ardınca Azərbaycan kəndlərini zəbt edərək yandırırdılar. Erməni separatçılar 1991-cı il sentyabrın 2-də qeyri-qanuni olaraq Goranboy rayonu daxil edilməklə DQMV-ni müstəqil respublika elan etdilər. Cavab tədbirlərinə əl atan Azərbaycan tərəfi ilk olaraq DQMV-nin statusunu ləğv etdi. Milli Silahlı Qüvvələrin yaradılmasına başlandı. Azərbaycan parlamenti (Ali Sovet) "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi (9 oktyabr 1991). Həmin ilin noyabr ayında özünü müdafiə dəstələrinin yaradılması haqqında sərəncam verdi.

Lakin qüvvələr qeyri-bərabər idi. Böyük beynəlxalq dəstəyə güvənən erməni separatçıları fəaliyyətlərini genişləndirərək Qarabağın Kərkicahan, Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndlərini ələ keçirdilər. Xocalı və Şuşanı mühasirəyə aldılar. 1992-ci il fevralın 25-də gecə erməni hərbi birləşmələri 366-cı rus alayının, xarici ölkələrdən gətirilmiş muzdlu əsgərlərin və saqqallı dəstələrin köməyi ilə Xocalı soyqırımını törətdilər, həmin ilin mayında Şuşa şəhərini, ardından isə Laçın rayonunu işğal etdilər. Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımlarından biri oldu.

Bu hadisələr ölkədəki siyasi böhranı daha da dərinləşdirdi.

Hakimiyyətə yiyələnmiş Azərbaycan Xalq Cəbhəsi (AXC) hökumətinin istər xarici, istərsə də daxili siyasəti iflasa uğradı, ölkədə ictimai-siyasi vəziyyət gərginləşdi və ölkədə hərbi-siyasi böhran yarandı. Respublikanın müxtəlif bölgələrində siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi başlandı. Gəncə, Qazax, Lənkəran, Masallı, Astara, Cəlilabad bölgələrində və digər yerlərdə silahlı dəstələr hakimiyyəti ələ keçirməyə cəhd göstərirdilər. Başda Rusiya olmaq etibarı ilə Azərbaycanın ərazisində "Ləzgistan dövləti" və "Talış Muğan Respublikası" kimi qurumlar yaradılmasına cəhd göstərirdilər.

Hələ 1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların

verilməsi haqqında faktlar üzə çıxan zaman məlum oldu ki, Rusiya bu silahları 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir zamanda göndərməyə başlamış və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə münbit şərait yaratmışdır. Ermənistanın silahlandırılması prosesi atəşkəs elan ediləndən sonra da davam etdirilmişdir.

Azərbaycan xalqının təkidi ilə Heydər Əliyevin 1993-cü ilin 15 iyun tarixində hakimiyyətə qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidentləri ilə birbaşa danışıqlarda göstərdiyi ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində prioritet yer tutmuşdur.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq sahəsində təxirəsalınmaz vəzifələrindən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı qəti addımlar atmaqdan ibarət olmuşdur.

Bu məqsədlə Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüz məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə məhz Prezident Heydər Əliyevin qətiyyəti və gərgin fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də Bişkek şəhərində atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən zirvə toplantısında beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və

münaqişə bölgəsinə göndərilməsi qərara alındı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi.

Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhyaratma" istəyinin qarşısının alınması idi.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik səriştəsi sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir bəyanat qəbul edildi. Bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair 3 təkliflə çıxış etmişlər.

Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan Prezidenti həmin planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini qəbul

etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı.

1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd olan, həmçinin Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya təcrübəsində mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşmanın göstəricisi idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də ölkə prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı.

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı (Yenə orada, 727).

Bu addım hamıdan çox Ermənistanın özünə lazımdır: 1. Üzücü, total iqtisadi-siyasi iflas vəd edən izolyasiyadan çıxıb regiona inteqrasiya eləmək, dünyaya açılmaq üçün; 2. Rusiyanın İŞİD-sayağı girovluğundan qurtulmaq, ərazi iddiası olan qonşularla münasibətləri qaydaya salıb rahat "nəfəs almaq"dan ötrü.

İldən-ilə daha da boşalan, iri regional layihələrdən (hələ hamısı reallaşmayıb, TANAP, "Cənub qaz dəhlizi" var) kənarda qalaraq dilənçi kökə düşən Ermənistanın rəhbərliyi üçün artıq elə bir dönəm başlayıb ki, o, 26 illik səmərəsiz danışıqların qeyd edilən əsas nəticəsini bütün ciddiliyi ilə nəzərə almaq zorundadır. Başqa sözlə, rəsmi

İrəvan Dağlıq Qarabağ məsələsinin heç vaxt onun istəyinə uyğun şəkildə – "paket həll" ("tanınma əvəzinə torpaq") variantının mümkün olmadığını birdəfəlik dərk etməlidir.

L.Ter-Petrosyan problemin mərhələli həll variantına razılıq vermiş, erməni xalqına da qərarını belə izah eləmişdi: "Bu gün bizə təklif olunanları götürməsək, sabah yalvaracağıq, çünki Ermənistan ildən-ilə zəifləyəcək, Azərbaycan isə güclənəcək.

Lakin münaqişə tərəfləri üçün ən optimal variant qismində görünən həll modelinə "Müharibə partiyası" ("Qarabağ klanı") imkan vermədi. Rusiyanın dəstəyi ilə Petrosyan hökuməti devrildi. Ancaq Petrosyanın proqnozu doğruldu – Ermənistan daha betər günə düşdü, Köçəryan-Sərkisyan tandemi isə 26 ildə problemin həllini bir santimetr belə irəliyə apara, saxta qurumun müstəqilliyini dünyaya tanıda bilmədi.

30 ilə yaxındır ki, Ermənistanda "Qarabağ klanı" və iqtidar partiyası olan "Müharibə partiyası" artıq onu da ciddiyə almaq zorundadır ki, Ukraynadakı hadisələr fonunda ölkələrin ərazi bütövlüyü prinsipi bir az da aktuallaşıb və Krım, Donbas, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə məsələsində bu prinsipə sayğını Rusiyadan tələb edən Qərb Dağlıq Qarabağ məsələsində eyni şeyi Ermənistandan tələb etməyə sadəcə, borcludur və öz təməl yanaşması əleyhinə getməyəcək – əgər Azərbaycan könüllü şəkildə özü Dağlıq Qarabağdan imtina eləməsə...

Ötən müddətdə Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, NATO Parlament Assambleyası, İslam Əməkdaşlıq Konfransı kimi nüfuzlu beynəlxalq təşkilatlar BMT-nin ardınca Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanı işğalçı kimi damğalayan qətnamələr qəbul etdilər...

İzolyasiyada olan Ermənistan üçün belə qapalı, ümidsiz, tam perspektivsiz bir dönəmdə Türkiyənin baş naziri Əhməd Davudoğlunun İstanbulda ölkənin qeyri-müsəlman icmalarının liderləri ilə görüşlərindən birində söylədiyi, təklif gözünü tor tutmuş erməni liderləri və isteblişmenti (ali rəhbərlik) üçün ayıldıcı təsirdə olmalıdır, bizcə: baş nazir həmin görüşdə bildirib ki, Ermənistan Azərbaycanın işğal altındakı rayonlarından hətta birini boşaltsa, o zaman onunla sərhədlər açıla, diplomatik münasibətlər qurula bilər.

Əks halda, yəni sərhədlərin qeyd-şərtsiz açılması Türkiyə tərəfdən 23 illik bağlı qapı siyasətinin səhv olduğunun etirafı anlamına gələrdi. Təbii ki, Ankara ona heç zaman getməyəcək, İrəvanın "qeyd-şərtsiz diplomatik münasibətlər" şərtini uydurma "soyqırımın" 100 illiyini belə qəbul etməyəcəkdi ki, belə də oldu.

Doğrudur, erməni toplumuna hərbi qələbəni siyasi qələbəyə çevirəcəyini vəd etmiş "müharibə partiyası" üçün Davudoğlunun variantına getmək psixoloji cəhətdən çətindir, az qala siyasi intihara bərabərdir. Üstəlik, Rusiya amili, Kreml xofu var. Ancaq regionun, ilk öncə də Ermənistanın inkişafında ən böyük əngəl olan bir açar münaqişənin dinc həllini "dalan"dan çıxarmağın ayrı yolu da qalmayıb.

Belə bir varianta gedərsə, şübhəsiz, Qərb erməni tərəfini onun ağır fəsadlarından qorumağa, Kremlin kontur tədbirlərini neytrallaşdırmağa çalışacaq. Sərhədlərin açılması Qərbin bölgəyə yönəlik uzunmüddətli strateji maraqları çərçivəsindədir və o, çoxdan Ermənistanı Rusiyanın ağuşundan çıxarmağı, Qarabağ konfliktinin həllinə daha münbit zəmin yaratmağı hədəf götürüb.

Erməni tərəfi Ukrayna böhranı fonunda onu da nəzərə almaq zorundadır ki, "soyuq müharibə" səbəbindən ABŞ və Avropa ilə Rusiya arasında postsovet məkanında münaqişələrin, o cümlədən Qarabağ probleminin həlli müstəvisində əvvəlki anlaşma nöqtələri faktiki olaraq qalmayıb. İrəvan müstəqil qərar verib, konflikti Qərbin (Türkiyənin) dominant olduğu daha realist həll müstəvisinə keçməyə səy göstərməlidir.

Digər tərəfdən, Rusiya Qərblə sonu bilinməyən yeni "soyuq savaş" dövrünə girib. Qərbin sanksiyaları altında sıxılan rəsmi Moskva üçün isə Türkiyə olduqca əhəmiyyətli, iqtisad-ticarət, energetik tərəfdaşa çevrilib. İki ölkənin təkcə energetik sahədə (mavi qazın nəqli, "Türkiyəyə axını", qardaş ölkədə tikiləcək AES tikintisi və s.) on milyardlarla dollarla ölçülən anlaşmaları var. Qarabağ probleminin həll olunmamış qalması ilə müharibə risklərini aybaay artırır. Öz növbəsində yeni Qarabağ müharibəsi Rusiya ilə Türkiyənin üz-üzə gəlməsi, Kremlin Ankaranı həmişəlik itirməsi demək olacaq. Azərbaycan da onun kimi...

Belə perspektivi beynəlxalq analitiklər də görür və dəyərləndirir. "Ermənistanın bu münaqişədə vaxtın ona işlədiyini düşünməsi

səhvdir. Vaxt heç kimə işləmir. Hər keçən gün Ermənistan iqtisadiyyatının ziyanınadır. Üstəlik, hər hansı münaqişə uzun müddət həll edilməyincə, onu sonda nizamlamaq bir o qədər çətin olur".

Bunu ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri, Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayza deyib. Xüsusi diqqətçəkicidir ki, Brayza ərazi bütövlüyü prinsipinin "Qarabağ kimi münaqişələrin nizamlanmasında daha təsirli konsepsiya" olduğunu söyləyib ki, bu da Ukrayna prosesləri fonunda Qərbin tutduğu mövqe ilə tam səsləşir.

Ukrayna böhranı fonunda Bakının bu şərti ciddi korrektə etməsi inandırıcı görünmür. Ona görə ki, Rusiyanın postsovet məkanındakı münaqişələrə təsir imkanları 6-7 öncəki illərlə müqayisədə zəifləyib. Hələ də Ermənistana real təsir rıçaqları dəyişməz qalır. Amma bu məsələni də unutmaq olmaz ki, Rusiya postsovet məkanına nəzarəti müstəsna olaraq özünün müəllifi olduğu etnik-ərazi münaqişələri vasitəsilə həyata keçirməyə çalışır. Artıq bir neçə ildir Ukraynada yaşananların başlıca motivi də elə budur – həmsərhəd, keçmiş sərhəd respublikalarında separatçılığı qızışdırmaqla bu ölkələrin daxili işlərinə real təzyiq rıçaqları qazanmaq, onları zorla SSRİ-nin yeni formatı olacaq Avrasiya Birliyinə, Gömrük İttifaqına qoşmaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Ağlabatan kompromis mümkündür: Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət – biz münaqişənin nizamlanmasını belə görürük. Bu, bizim hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə həmahəngdir. Lakin münaqişənin nizamlana bilməməsinin əsas səbəbi odur ki, Ermənistan artıq 30 ilə yaxındır, Minsk Qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa, irəliləməsinə müxtəlif yollarla mane olur... Azərbaycanla münasibətlər normallaşdırılmadan bu regionda inkişaf ola bilməz, onlar daim müəyyən təzyiq altında yaşayacaqlar, fikirləşəcəklər ki, birdən nə isə ola bilər".

Dağlıq Qarabağ problemi Putin hakimiyyəti üçün ilk növbədə bu kontekstdə önəm daşıyır. Moskva həm də tələsir. Çünki Avrasiya layihəsinin gerçəklənməsi uzanarsa, onun indiki üzvlərlə effekti böyük olmayacaq və günün birində Qazaxıstanla Belarus da onu tərk edə bilər. Ukrayna onsuz da əldən çıxmış kimidir.

Bu xüsusda Avrasiya Birliyinə dolğunluq gətirəcək yeganə ölkə Azərbaycandır. Müşahidələr göstərir ki, Kreml Bakını öz "caynağına" keçirmək üçün səylərini heç vaxt dayandırmayıb, tam əksinə, Ukrayna uğursuzluqları fonunda gücləndirib.

Kreml Avrasiya layihələrini xilas eləmək üçün son həmlə hazırlıqları içində görünür. Bir daha aydın olur ki, Rusiya Azərbaycanı da Ermənistan kimi öz yanında görməklə, onu da özünün Avrasiya layihələrinə qoşmaqla Qarabağ məsələsinə hansısa həll vəd edir. Ayrı sözlərlə, hansısa məxfi danışıqlar gedirsə də, bu, böyük ehtimalla Putinin köməkçisinin cızdığı kontekstdədir.

Bir çox analitiklərə görə, Azərbaycanın Moskva önündə ən böyük "Avrasiya şərti" nin biri də – öncə ərazilər, sonra birliyə üzvlük.

Ancaq məsələ ondadır ki, Rusiya Qarabağ probleminin həllini əsasən Moskvanın dominant olduğu Avrasiya İqtisadi Birliyi çərçivəsində görür. Yəni faktiki surətdə söhbət köhnə SSRİ formatında "həll"dən, daha doğrusu, münaqişəni naməlum müddətdə dondurmaqdan gedir.

Bəzi analitiklər görə, Qərbin Qarabağ təşəbbüskarlığını nə vaxtsa bütünlüklə öz əlinə alacağından ehtiyatlanan Rusiya, hər halda, tələsməyə və təbii ki, öz maraqları da ciddiyə alınmaqla konfliktin hansısa formada həllinə məcbur duruma gəlib. Çünki heç kim bilmir ki, bir neçə ay sonra postsovet məkanındakı münaqişələrə hansı güc mərkəzinin təsiri daha güclü olacaq – Rusiyanın, yoxsa ABŞ və Avropanın? Moskva emissarlarının Bakıya artan səfərləri və bəzi Rusiya rəsmilərinin son açıqlamaları bu qənaəti möhkəmləndirir.

Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin həlli yönündə razılığa gələ bilmələri üçün hazırda bir sıra məsələlər üzərində iş gedir. Siyasi ekspertlər ümid edirlər ki, hər iki tərəf üçün olduqca ağrılı olan konfliktin optimal həll yolu tapılacaq.

Sual və tapşırıqlar:

– Azərbaycan SSR qanunvericiliyində SSRİ Konstitutsiyası hansı məhdudiyyətləri qoymuşdu?

– Ermənistanın Azərbaycan Respublikasının tarixi torpaqlarında "Dağlıq Qarabağ Respublikası" ("Arsax") adlı uydurma respublika yaratmasının səbəbləri nə idi?

– Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsi və onun həlli yollarının mərhələli təşkilini necə öyrənmisiniz və bu istiqamətdə hansı tədbirlər görülmüşdür?

– 1991-1993-cü illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşməsi və ölkədə hərbi siyasi böhranın yaranma səbəblərini nə ilə izah edə bilərsiniz?

ATƏT-in Minsk qrupunun (ABŞ, Rusiya, Fransa) həmsədr dövlətlərin son təklifindən Azərbaycanın imtina etməsinin səbəbləri nə ilə bağlı idi?

– Ermənilərin "Dağlıq Qarabağ"da "müstəqillik referendumu" keçirməklə dövrün qanunlarına zidd olduğunu öyrənin.

– Azərbaycanın BMT-yə üzv (2.03-1992-ci il) qəbul edildikdən sonra Ermənistanın təcavüzünün gücləndirilməsi və onların qeyri-konstruktiv hərəkətlərinə qarşı ölkəmizin həyata keçirdiyi tədbirləri öyrənin. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınmasında Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasətindəki əsas prioritetləri izah edin.

ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ TÖRƏDİLMİŞ CİNAYƏTLƏR

Qafqaz regionunu daim gərginlikdə saxlamaq məqsədilə ermənilərin beyninə "Böyük dövlət" yaratmaq ideyası sindromunu həmişə müəyyən dövlətlərin örtülü siyasəti olmuşdur. Odur ki, erməni terroru bu gün də həmin maraqların, "ikili standartların" latent ifadəsinə çevrilmişdir.

Rus tarixçisi Nikolay Şavrov "Zaqafqaziyada Rusiya işlərinə yeni təhlükə" adlı kitabında qeyd edir ki, 1864-cü ildə Qafqaz idarələrində çoxluq təşkil edən erməni və gürcülərdə millətçilik fəaliyyəti oyandı. Erməni və gürcü çarlıqlarını yenidən dirçəltmək ideyası Londonda onların rəhbər şəxslərinin beyninə yeridildi. Bu, əslində tarixi torpaqlara malik olmayan ermənilərin Zaqafqaziyada mümkün qədər daha çox ərazi ilhaqına həvəsləndirilməsi idi.

Sonralar isə "dənizdən-dənizə Ermənistan" yaratmaq ideyası "Daşnaksütun" partiyasının əsas ideyasına çevrildi.

1890-cı ildə Tiflisdə erməni millətçi partiyası kimi yaradılan "Daşnaksütun" Türkiyə ermənilərinin azad edilməsi, Rusiya və Türkiyə ermənilərinin "Vahid, ümumi "vətəni" – "Böyük Ermənistan"" yaradılması kimi avantürist ideya irəli sürərək, təbliğata başlamışlar.

Görkəmli tarixçilər T.İ.Dyakonov, V.Piotrovski və başqaları zorla qədim tarix yaratmaq istəyən saxtakar erməni alimlərini dəfələrlə ifşa etmişdilər.

Lakin Z.Balayan, S.Xanzadyan, S.Ayvazyan və başqa millətçi erməni yazarları Azərbaycanı, Türkiyənin xeyli hissəsini, İranın və Gürcüstanın bir hissəsini (Tiflislə birlikdə), Quzey Qafqazı, Rostovu və Voronejə qədər əraziləri öz tarixi torpaqları kimi qələmə verirlər.

Z.Balayan 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyində çıxışını da bu istiqamətdə qurmuşdur.

Erməni müəlliflərindən biri Bakunts Ananikyan öz əsərində "Daşnaksütun" terrorçu təşkilatının əsl mahiyyətini açmışdır. Onun ""Daşnaksütun" partiyasının ideya-siyasi iflası" adlı kitabı rus dilində İrəvanın "Haystan" nəşriyyatı tərəfindən 1979-cu ildə nəşr edil-

mişdir. Kitabda bildirilir ki, "Daşnaksütun" nəinki başqa xalqlara, hətta ermənilərin özünə də ziyan vurmuşdur. 1890-1920-ci illər ərzində çoxlu qanlı fitnələr törətmişdir.

Erməni tarixçisi A.Lalayan "Əksinqilabçı "Daşnaksütun" və 1914-1918-ci illərin imperialist müharibəsi" adlı məqaləsində qeyd edir ki; "Bu partiya sadəcə olaraq çarizmin avantürasıdır."

Erməni jurnalisti Q.Kotoyan 1986-cı ildə "Arqumenti i faktı" qəzetində çap olunmuş "Qonaqsevərlik qanunlarını pozaraq" adlı məqaləsində qeyd etmişdir ki, 1957-ci ildən başlayaraq İrəvanda oxumağa gələn (20 ölkədən 700 nəfər) tələbələr arasında daşnak təbliğatı aparılır. Burada xalqların dostluq və qardaşlığına böhtan atırlar, tarixi saxtalaşdırırlar və ərazi iddiaları irəli sürürlər. Çoxsaylı tarixi faktlar, məhkəmə materialları Ermənistanın terrorçu dövlət olduğunu sübut edir.

Məsələn: Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 50 nəfər insanın yaralanması ilə nəticələnən terror aktına görə erməni Varosyan və Qarabedyan həbs edilmişdir.

Məşhur terrorçu, "ASALA-nın inqilabi hərəkatı" qruplaşmasının rəhbəri 1981-ci ildə Türkiyənin Romadakı səfirinə sui-qəsd etdiyinə görə erməni Monte-Melkolyan həbs edilmişdir.

Həmin il, yəni 1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazgen Sislyan 1992-ci ildə İrəvandan Xankəndinə göndərilmişdir. Robert Köçəryan isə ona "Qarabağ müharibəsinin qəhrəmanı" adını vermişdir.

Erməni terror təşkilatlarının adlarına və fəaliyyətinə nəzər salaq:

– "Armenakan" partiyası: 1885-ci ildə yarandı. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda terror aktları törətməklə yanaşı, İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edirdilər.

– "Qnçak" partiyası 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus və İran Ermənistanları" adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" yaratmaq olmuşdur.

– "Erməni "soyqırımı"nın intiqamçıları" qrupu 1973-cü ildə yaradılıb. Bu terror qrupu 1980-1982-ci illər ərzində Avstriya, Danimarka, Portuqaliyada türk diplomatlarını qətlə yetirib.

– "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu – (ASALA)" 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşirdi. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Qarabağın dağlıq ərazisində "Böyük Ermənistan" qurmaqdır.

– ASALA 1980-ci ilin aprelində Liviyada PKK ilə birgə terror aksiyalarının keçirilməsinə dair razılığa gəlmişdir.

– "Geqaron" 2001-ci ildə ASALA tərəfindən yaradılmışdır. Məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktları keçirməkdir.

– "Orli Qrupu" 1981-ci ildə Fransada, "Erməni birliyi" 1988-ci ildə Moskvada yaradılmışdır.

– "Demokratik cəbhə" ABŞ, Kanada və Qərbi Avropada yaradıldı. Məqsədi Türkiyəni parçalamaqdan ibarət olub.

– "Apostal" 2001-ci il aprel ayının 29-da Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

Erməni terrorçuları tarixdə ən böyük cinayətləri məhz Azərbaycan xalqına qarşı törədiblər. Nəticədə minlərlə həmvətənlərimiz həlak olub, əlil olub, əsir düşüblər. Onlar terror hadisələrini əsasən avtobuslarda, yük və sərnişin qatarlarında, hava yollarında, Bakı metropolitenində mülki şəxslərə və hərbiçilərə, mülki və Dövlət obyektlərinə qarşı törətmişlər.

1988-1993-cü illər ərzində ermənilər tərəfindən azərbaycanlılara qarşı 354 terror aktı törədilmişdir. Nəticədə 1427 nəfər azərbaycanlı həlak olmuşdur, 3137 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Həmin dövrdə həyata keçirilmiş terror hadisələrindən 10-u sərnişin avtobuslarında (68-132), 10-u dəmir yolu nəqliyyatlarında (74-125), 3-ü hava nəqliyyatında (34-104), 2-si Bakı metropolitenində (14-49), 1-i isə su nəqliyyatında (25-88) törədilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, Dağlıq Qarabağ müharibəsi dövründə (1988-1994) Azərbaycanın 20% (17 min km^2) torpaqları işğal olunmuşdur. 20 mindən çox vətəndaşımız qətlə yetirilmişdir. 50 mindən çox azərbaycanlı yaralanmışdır. Minlərlə azərbaycanlı hələ də itkindir. Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulmuşdur.

1991-ci ildə Azərbaycan tərəfindən ləğv edilmiş (7 iyul 1923-cü ildə heç bir sosial-iqtisadi əsası olmadan yaradılmış) Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan), eyni zamanda Qazax, Ağstafa, Tovuz və Gədəbəy rayonlarının Ermənistanla həmsərhəd əraziləri və Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarının ərazisi də işğal olunmuşdur.

Nəticədə işğal olunmuş ərazilərdə 6 şəhər, 12 şəhər tipli qəsəbə, 830 əyalət, 700 xəstəxana və tibb müəssisəsi, 4366 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər təhsil müəssisəsi, 4 səhiyyə mərkəzi, 927 kitabxana, 4,6 milyon kitab və əlyazma nüsxəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 6000 sənaye və k/t müəssisəsi, 1200 km suvarma sistemi, 244 min qoyun və 69 min iribuynuzlu mal-qara, 35.000 abonentlik telefon stansiyası, 2500 transformator yarımstansiyası və 15.000 km elektrik xətti talan edilmişdir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın yay otlaqlarının 70%-i işğal olunmuş ərazilərdə yerləşir. Eyni zamanda 1993-cü ildə 206,6 min kubmetr qiymətli ağac növü Ermənistana daşınmışdır. Erməni terroru nəticəsində xalqımıza dəyən ziyanı sadalamaqla qurtarmaz".

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı təcavüzü nəticəsində xalqımızın verdiyi qurbanların, itkilərin sayı və xarakteri barədə dünya ictimaiyyəti hələ də tam təsəvvürə malik deyil.

Artıq lokal qarşıdurma miqyasından çoxdan çıxmış bu münaqişə uzun müddətli və qanlı hərbi, etnik münaqişəyə çevrilmişdir. Münaqişənin əsasında konfessional yox, etnik amillər durur. Konfliktin qaynaqları Ermənistanın siyasi müstəmləkəçiliyi və ərazi işğalları ilə bağlı olub, başlıca məqsədi hərbi güc tətbiq edilməsi yolu ilə digər müttəfiq respublikanın – Azərbaycanın ərazisinin bir hissəsinin ələ keçirilməsinə yönəlmişdir. Ermənistanın bu qara niyyətləri faktiki olaraq keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstəklənirdi. Məhz həmin rəhbərliyin ermənipərəst mövqeyi və dəstəyindən istifadə edən DQMV icra strukturları antikonstitusiya xarakterli aktlar qəbul etmişdilər ki, bunlar Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi aksiyalara başlamasının başlıca səbəbləri olmuşdur.

Münaqişə başlayarkən Azərbaycan və Ermənistan Sovetlər İttifaqının tərkibində olduğu üçün onu SSRİ çərçivəsində həll etməyə çalışırdılar. 1989-cu il yanvarın 12-də SSRİ ali Soveti Rəyasət Heyəti

DQMV-də milli münaqişənin gərgin olaraq qalması ilə əlaqədar və münaqişənin daha da kəskin xarakter almaması və regionda vəziyyəti stabilləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan ərazisində muxtar vilayət statusunu saxlamaq şərtilə DQMV-də A.Volskinin sədrliyi ilə xüsusi idarə Komitəsinin yaradılmasına qərar vermişdi. Komitə birbaşa SSRİ-nin ali orqanlarına tabe idi. Yerli dövlət orqanlarını və DQMV-ni idarə etmək Komitəyə tapşırılmışdı və vilayət xalq deputatları Şurası komitəsinin icra aparatı onun işçi orqanı vəzifəsini yerinə yetirirdi. Bu qərar münaqişənin həllini yaxınlaşdırmaqdansa, DQMV-də baş verən proseslərin Azərbaycanın nəzarətindən çıxmasına start verdi. Həmin dövrdə mən (müəllif Sadir Məmmədov) Şuşa rayon Daxili İşlər Şöbəsinin rəisi vəzifəsində xidmət edirdim. A.Volski açıq-aşkar öz ermənipərəstliyini gizlətmədən DQMK-nin ərazisində yaşayan azərbaycanlıların deportasiyasını təşkil edirdi. Bundan məlumatlı olan Azərbaycan hökuməti isə bu prosesin qarşısını almaqda aciz idi.

Qatı millətçilik və duşmənçilik xəstəliyinə yoluxmuş yerli ermənilər də artıq sözeşitməz, idarəolunmaz hala gəlmişdilər. Onlara havadarlıq edən rus hərbçiləri hadisələri bir az da qızışdırırdılar. Xüsusi İdarənin rəhbəri A.Volskinin açıq-aşkar ermənipərəstliyi, Yerevana yarınması və Moskvaya xidmət etməsi hamıya məlum idi.

Xankəndində mitinqlər Yerevandan gələn emissarlar tərəfindən bir ssenari üzrə təşkil olunurdu. Mitinqçilərə yemək-içmək verilir, isti qış geyimləri paylanılırdı. H.Poqosyan, Z.Balayan, S.Kaputikyan, R.Köçəryan, V.Dadamyan, S.Manuçarov və başqaları ekstrimist çıxışlar edirdilər. "Dağlıq Qarabağ Ermənistanla birləşməlidir!", "Ana Ermənistan, Arsax sənlə birləşməlidir" kimi separatçı şüarlar səsləndirilirdi.

Mitinqlərin ilk günlərindən SSRİ Ali Sovetinin sədr müavini Demiçev və MK-nin katibi Razumovskinin rəhbərliyi ilə Xankəndinə (Stepanakert) ezam olunmuş nümayəndə heyəti erməni ekstrimistlərinin bu antikonstitusion fəaliyyətlərinə seyrçi mövqedən yanaşır və mitinqçilərin təhlükəsizliyinin təmin olunmasını hüquq mühafizə orqanlarından tələb edirdilər.

1989-cu il oktyabrın 4-də Şuşanın Qala dərəsi erməni kəndinin ərazisində Bərdədən taksi ilə gələn 4 nəfər azərbaycanlı qətlə yetirilmişdi.

Moskvadan, Yerevandan Qarabağa, Xankəndinə çağırılmamış "qonağın" biri gəlir, biri gedirdi. Vəziyyəti ekstremist çıxışları ilə qızışdıran Q.Starovoytovanı və Z.Balayanı vilayətdən çıxartmaq tələb olunsa da, onlar sərbəst gəzib dolaşırdılar.

Stepanakertdə Vilayət Xalq Deputatları Sovetinin orqanı "Sovetskiy Karabax" qəzeti yalnız erməni və rus dillərində çıxırdı. Qəzet antiazərbaycan, antitürk təbliğat ruporuna çevrilmişdi, şovinist ruhlu məqalələr çap olunurdu.

Qarabağ hadisələri başlanandan ermənipərəstliyi ilə seçilən Rusiya mətbuatı da Azərbaycan əleyhinə sistemli, ardıcıl şəkildə məqalələr çap edir, azərbaycanlıların düşmən obrazını yaratmağa çalışırdı.

DQMV Dİİ-də Daşnaksütunun hökmü keçirdi.

"Krunq" təşkilatı da fəallaşmışdı. Kim onlara qarşı çıxırdısa, erməni, rus, azərbaycanlı fərqi qoyulmurdu – aradan götürülürdü.

Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsi süpürgəçisindən, katibəsindən tutmuş rəisinə, serjantına qədər ermənilərdən ibarət idi.

Dağlıq Qarabağa erməni milislərinin himayəsi altında separatçılar üçün gecə-gündüz silah-sursat, partlayıcı maddələr daşınırdı.

Həsənabadda həbsxanada xüsusi kameralara salınan erməni quldurlar az sonra SSRİ Daxili İşlər Nazirliyinin mühafizəsinə verilirdi. Hətta onların Azərbaycanın əməliyyat işçiləri tərəfindən dindirilməsinə icazə verilmirdi.

Erməni ekstremistlərinə qarşı "əməliyyat tədbirləri keçirməyə rus hərbiçiləri açıq-aşkar mane olurdular. Onların gözu qabağında "Miatsum" birliyinin lideri İ.Muradyan Dağlıq Qarabağa bir vertolyot silah gətirir – "görmürdülər". Hadrutda iri silah-sursat anbarı yaradılır – ermənilərdən haqq-hesab sorulmurdu. Vilayət ərazisində silah istehsalı üçün kənardan şübhə doğurmayacaq müəssisələr seçmişdilər. Məsələn, qumbara istehsalı Xankəndindəki asfalt zavodunda təşkil edilirdi.

1988-ci ilin dekabrında Spitakda zəlzələdən sonra guya ziyan görmüş əhaliyə kömək adı ilə Ermənistana çoxlu silah gətirildi. Livandan, Suriyadan İrəvana gələn təyyarələrdə yüngül və ağır silahlar daşınırdı. Ermənistan ərazisində formalaşdırılan hərbi dəstələr Azərbaycana qarşı silahlı terrora qoşulurdular. Məsələn, 1989-cu ildə Dağlıq Qarabağda 80 diversiya-terror qrupu fəaliyyət göstərirdi.

Kosalar, Xocalı, Meşəli, Kərkicahan, Həsənabad və digər kəndlərin ətraf aləmlə bütün əlaqələri erməni təxribatçı-terror qruplarının nəzarəti altına alınmışdı. Yalnız 1989-cu ilin doqquz ayı ərzində həmin kəndlərə 46 dəfə hücum etmişdilər.

Erməni cinayətkarlar həbs olunanda girov götürülmüş azərbaycanlılarla dəyişdirilirdi. Azadlığa buraxılmış cinayətkar yenidən separatçıların, yaraqlıların sırasına qatılır, daha dəhşətli və qanlı cinayətlər törədirdi" [19, 123].

Həmin dövrün qısa qanlı salnaməsi dediyimizin təsdiqi ola bilir:

8 aprel 1991-ci il SSRİ DİN Daxili Qoşunlar İdarəsi rəisinin müavini, polkovnik V.Blaxotin, batalyon komandiri O.Larionov pusquya düşüb erməni saqqallıları tərəfindən öldürüldülər.

Şuşa–Ağdam yolu ilə gediş-gəliş qorxulu olmuşdu. Şəhərə gəlib gedənləri Şuşa milisi müşayiət etməli olurdu.

26 yanvar 1990-cı il. Ağdamdan Şuşaya gələn maşın karvanı gülləbaran edildi. Maşınlardan biri yandırıldı, 3 azərbaycanlı isə yaralandı.

Elə həmin gün daha 6 avtomaşına quldur basqını oldu.

Laçın–Şuşa yolu da ən qorxulu, təhlükəli nöqtələrdən biri idi. Erməni kəndlərinin əhalisi yolboyu talanla-qarətlə məşğul olur, qanlı qətllər törədirdilər. Jurnalist Salatın xanım Əsgərova burada – Laçın–Şuşa yolunda xaincəsinə qətlə yetirildi.

7 yanvar 1990-cı ildə Kərkicahana hücum zamanı ermənilər geri otuzdurulur. Bu döyüşdə rəis başda olmaqla Şuşa milis şöbəsinin şəxsi heyəti şücaət və fədakarlıq göstərdilər.

15 yanvar 1990-cı ildə ermənilər tərəfindən Kərkicahanda üç azərbaycanlı qətlə yetirilir. Terrorçulara qarşı əməliyyat planı hazırlanır. Atışma zamanı 6 erməni terrorçusu məhv edilir, 8 nəfəri isə yaralanır. Bütün bu əməliyyatlara o zaman Şuşa milis şöbəsinin rəisi olmuş, oxuculara təqdim etdiyimiz kitabın müəlliflərindən biri olan Sadir Məmmədov özü başçılıq edirdi. Ona görə də o ermənilər tərəfindən mütəmadi təqib olunurdu.

1991-ci il sentyabrın 25-də Əsgəran rayonunda Ağbulaq kəndi atəşə məruz qalır. Milis əməkdaşlarından Mehdiyev şəhid olur, Qarayev isə ağır yaralanır.

Xankəndi ərazisində sərnişin avtobusu atəşə tutulur, sürücü Zeynalov həlak olur, ikinci sürücü A.Əliyev yaralanır, vilayət proku-

rorluğunun müstəntiqi S.Səfərov aldığı yaradan yerindəcə dünyasını dəyişir.

Şuşa rayon daxili işlər şöbəsi mövcud vəziyyətlə əlaqədar funksiyasını dəyişmişdi. Şuşa milisi bilavasitə şəhərdə, rayonda asayişi, qanunçuluğu qorumurdu, əldə silah döyüşmək, girovların azad edilməsi, ekstremist, separatçı ünsürlərin tutulub həbs olunması da şöbənin işinə daxil idi.

Əməliyyat qrupunun, şəxsi heyətinin hər bir üzvü hər gün bir döyüşçü kimi işə çıxırdı. Dəfələrlə mühasirəyə də düşmüşdülər, girov götürülmək təhlükəsi ilə üzləşmişdilər, polkovnikin peşəkarlığı və tədbirli olması nəticəsində sağ-salamat qurtulmuşdular. Elə mənim özümü də dəfələrlə girov götürməyə cəhd etmişdilər (müəllif S.M.).

Meşəli kəndinin ətraf kəndlərlə, şəhərlə əlaqəsi tamam kəsilmişdi. Təpədən dırnağa qədər silahlanmış erməni kəndlərinin əhatəsində, mühasirədə qalmışdı. Silahsız kənd camaatı qorxu-təlaş içində yatıb dururdu.

Xankəndində yaşayan azərbaycanlılar sıxışdırılır, kütləvi surət də işdən qovulurdu. Bu işlərin başında duranlardan biri və birincisi, təşkilatçısı və ilhamçısı, Stepanakert ipək kombinatının direktoru R.Köçəryan idi (sonralar Ermənistan prezidenti oldu).

Dağlıq Qarabağda azərbaycanlıların sayı azalmışdı. Onların yerinə kənardan ermənilər kənd təsərrüfatı işlərində kömək adı ilə gətizdirilir, pasport qeydiyyatına alınırdı. Ermənistan vətəndaşı olan ekstrimistlərin, "boyevik"lərin hesabına əhalinin sayı süni surətdə artırılırdı.

Göstərilən dövrdən etibarən Ermənistan hərbi birləşmələri mütəmadi olaraq Azərbaycanın ərazisinə daxil olmağa başlamış, burada hərbi poliqon yaratmaq üçün böyük miqdarda silah və sursat göndərilməyə başlamışdı. Bunlarla eyni vaxtda Azərbaycanın ərazisindəki ermənilər silahlandırılır, azərbaycanlı əhaliyə qarşı terror aktları törədilir, onların evləri yandırılır, özləri, ailələri, qoca və uşaqlar fiziki cəhətdən məhv edilir, Ermənistanla sərhəddə olan Azərbaycan kəndləri, qəsəbə və rayonları müntəzəm olaraq Ermənistanın ərazisindən atəşə tutulurdu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin qızışdırılmasına SSRİ dövlətinin siyasi rəhbərliyinin imperiya siya-

səti də meydan açırdı. Belə ki, Azərbaycanda genişlənməkdə olan milli-azadlıq hərəkatına divan tutmaq üçün "qayda-qanun yaratmaq" adı altında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış sovet qoşun hissələri Bakıya və Azərbaycanın digər rayonlarına yeridildi, hərbi cinayətlər görünməmiş miqyas aldı. "Qorbaçov" hərbi hissələrinin respublikamıza yeridilməsi nəticəsində müxtəlif millətlərə və dillərə mənsub olan yüzlərlə Azərbaycan vətəndaşı güllələndi, tankların tırtılları altında əzildi. Azərbaycanın dinc sakinlərinə qanlı divan tutulması "respublikada hakimiyyəti ələ keçirməyə çalışan islam fundamentalistlərinə qarşı mübarizə" adı altında həyata keçirilirdi. SSRİ prezidenti M.Qorbaçov sovet xalqına müraciətdə demişdi ki, Azərbaycanda islam quruluşu yaradılmağa cəhd göstərildiyinə görə, Bakıya hərbi qüvvələr yeridilməsinə şəxsən göstəriş vermişdir. Bu proses nəticəsində günahsız adamlar öldürülmüş, respublikamızın iqtisadiyyatına böyük ziyan dəymişdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə zonasında iri miqyaslı hərbi əməliyyatlar 1991-ci ilin sonlarına təsadüf edir. Məhz həmin dövrdən etibarən müasir silahlarla silahlanmış Ermənistan hərbi qüvvələri və erməni hərbi birləşmələri bütün Ermənistan-Azərbaycan sərhədi boyu və Dağlıq Qarabağda Azərbaycana qarşı hərbi əməliyyatlara başlamışdılar. Ermənistan silahlı qüvvələrinə həlledici dəstəyi rus ordusunun 366-cı motoatıcı alayı göstərdi, onun köməyi ilə Azərbaycana məxsus bir sıra yaşayış məskənləri tutuldu, 1992-ci il fevralın 25-26-da Xocalı şəhəri vəhşicəsinə yerlə yeksan edildi, əhalisinə qanlı divan tutuldu, min nəfərdən yuxarı dinc əhali öldürüldü. Az sonra – həmin ilin mayında Ermənistan Respublikasının silahlı qüvvələri Şuşa rayonunu işğal etdilər, on minlərlə azərbaycanlı öz yurd-yuvasından qovuldu, bununla da Dağlıq Qarabağ ərazisinin etnik təmizlənməsi başa çatdı. 1992-ci ilin mayından 1993-cü ilin oktyabrınadək Ermənistan silahlı qüvvələrinin fəal iştirakı ilə Azərbaycanın daha yeddi rayonu işğal olundu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğalı və azərbaycanlı əhalinin qovulması nəticəsində Azərbaycan–İran sərhədinin 161 km-lik hissəsi Ermənistanın əlinə keçdi və nəzarətsiz zonaya çevrildi.

Ermənistan Respublikasının beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymaması, 1949-cu il Cenevrə konvensiyasını, 1975-ci il Helsinki Yekun Aktının tələb və şərtlərini kobud şəkildə pozması nəticəsində müasir dünyanın təhlükəsizlik arxitekturasına ciddi zərər dəymiş, BMT Nizamnaməsinin müddəalarına, ATƏT-in "Bəyannamə prinsiplərinə" məhəl qoyulmaması nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, Qarabağın azərbaycanlı əhalisi Ermənistanın sistemli şəkildə respublikamıza qarşı yeritdiyi genosid siyasəti nəticəsində fiziki cəhətdən məhv edilmiş, torpaqlarının 20 faizi işğal olunmuş, 1 mln nəfərdən yuxarı vətəndaş və soydaşımız öz vətənində qaçqına, didərginə çevrilmişdir.

Kəlbəcərli azərbaycanlılar – öz ata-babalarının məzarını ziyarət edərkən işğalçı erməni qüvvələri tərəfindən girov götürülən (üçüncü soydaşımız Həsən Həsənov öldürülüb) Dilqəm Əsgərov və Şahbaz Quliyevin məsələsi qaranlıq qalmaqdaydı. İstər ABŞ rəsmilərinin (dövlət katibinin müavini V. Nuland, C. Psaki, amerikalı həmsədr C. Uorlik), istərsə də Rusiyanın (xarici işlər naziri S. Lavrov, digər XİN yetkililərinin) onları ya azad, ya da mübadilə eləmək barədə çağırışlarına erməni tərəfi məhəl qoymamaqla, bu çağırışları isterika ilə qarşılamışlar. Lakin 44 günlük müharibədən sonra, Azərbaycanın şanlı ordusunun qələbəsi nəticəsində D.Əsgərov və Ş.Quliyev əsirlikdən azad olunmuşdur.

Paralel surətdə saxta "DQR"-in PR reklamı üçün soydaşlarımız üzərində "məhkəmə" oyunu israrla davam etdirilir. Hətta fevralın 26-da – Xocalı soyqırımının ildönümündə girovlarımızın "apellyasiya şikayəti"nə baxılıb. Guya 2001-ci ildə separatçı qurum "hərbi əsir", "hərbi cinayətkarlar" və s. kimi istilahları özündə əks etdirən müxtəlif beynəlxalq konvensiyalara qoşulub. Əslində isə Qarabağ separatçıları heç bir halda bu konvensiyalara qoşula bilməzlər, çünki özfəaliyyət kimi elan elədikləri "DQR" beynəlxalq hüququn subyekti deyil. Onu heç İrəvan da tanımayıb. Halbuki, beynəlxalq normalara görə, Əsgərov və Quliyevin əməlləri Azərbaycan Respublikasının ərazisində baş verib və onların əməllərində cinayət tərkibinin olub-olmadığına da Azərbaycanın səlahiyyətli orqanları tərəfindən qiymət verilməlidir, əlbəttə ki, əgər belə əməllər varsa". (44 günlük müharibədən sonra düşmənə layiqli qiymət verildi!).

Təbii ki, yaranmış şəraitin özü hüquqa ziddir, çünki dünya birliyinin gözü qarşısında 1945-ci il BMT Nizamnaməsinin prinsipləri pozulur, regionda qeyri-sabitliyi şərtləndirən real təhlükə ocağı yaranıb.

Həqiqətdə, bununla BMT Baş Məclisinin münaqişələrin qarşısının alınması ilə bağlı rolu və əhəmiyyəti azalır, Təhlükəsizlik Şurasının bu sahədə fəaliyyəti heçə endirilirdi. BMT Nizamnaməsində xüsusi olaraq qeyd edilir ki, Təhlükəsizlik Şurası, Şuranın üzvü olmayan ölkələrdə potensial münaqişəli vəziyyətlərlə məşğul olmağı daim diqqət mərkəzində saxlamalı, Baş Məclisin üzvü olan dövlətlər isə silahlı münaqişələrin qarşısının alınması məsələlərilə bağlı öz mövqelərini bildirməlidirlər.

Son dövrdə BMT Təhlükəsizlik Şurasının transparentlik səviyyəsinin yüksəldilməsinə, iş metodlarının təkmilləşdirilməsinə baxmayaraq, müasir beynəlxalq münasibətlərin reallıqları sübut edir ki, (xüsusilə Mərkəzi Qafqaz regionunda) yalnız zorakılığın kütləvi xarakter daşıdığı böhranlı və fövqəladə şəraitlərdə Təhlükəsizlik Şurası hadisələrə aktiv müdaxilə edir. Bununla əlaqədar, belə hesab etmək olar ki, dünya birliyinin yeni metod və vasitələr axtarması məqsədilə Təhlükəsizlik Şurasının preventiv tədbirlərə əl atması beynəlxalq hüquq qaydalarına uyğundur. Belə vasitələrə misal olaraq BMT Baş Katibinə beynəlxalq sülhə və təhlükəsizliyə başlıca təhlükə olan münaqişələrə dair məruzələri, habelə preventiv xəbərdarlıq tədbirlərini aid etmək olar. Belə məruzələr, əsasən, regional münaqişələrə və sərhəd məsələlərinə (qeyri-qanuni silah daşınması, qaçqınlar problemi, insan alveri, muzdluların göndərilməsi və s.) aid ola bilər, çünki bunlar müəyyən regionda sülh və təhlükəsizliyə potensial təhlükə mənbələri sırasındadır.

Etnik konfliktlərin qarşısının alınmasının digər yolu və ya üsulu BMT Təhlükəsizlik Şurasının missiyaları hesab edilə bilər, bu missiyalar zamanı hərbi münaqişələrə dair faktlar dəqiq müəyyənləşdirilir ki, onların vasitəsilə preventiv tədbirləri görmək mümkün olur. Belə təcrübə öz tarixçəsini Kosovo münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurasının 1244 (1999) saylı qətnaməsinin reallaşdırılmağa başladığı vaxtdan götürür. Bu, BMT missiyasına imkan verdi ki, müəyyənləşdirilmiş faktlara əsasən, potensial münaqişə rayonuna müvafiq pre-

ventiv strateji konsepsiyanın işlənib hazırlanması üçün ekspertlər qrupunun göndərilməsini həyata keçirsin.

Məsələ hərbi və etnik münaqişələrin qarşısının alınması ilə bağlı məsələlərin müzakirəsi üçün yeni mexanizmlərin yaradılması imkanlarının müəyyənləşdirilməsindən ibarətdir. Belə mexanizmlər daimi xarakterli qeyri-rəsmi işçi qrupu və ya köməkçi orqandan, habelə qeyri-rəsmi texniki mexanizmdən ibarət ola bilər. Bu alətin köməyi ilə istənilən şəraitdəki hər hansı mübahisəni təhqiq etmək və müəyyənləşdirilmiş faktlardan istifadə edərək mübahisənin münaqişəyə çevrilməsinin qarşısını almaq nəzəri cəhətdən mümkündür.

Mərkəzi Qafqazdakı dövlətlərarası münasibətlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc və siyasi yollarla nizama salınması mühüm yer tutur. Yaddan çıxarmaq olmaz ki, Azərbaycan xalqının tarixi dəyərləri və milli ibadətgahları içərisində Qarabağın aran və ya dağlıq hissəsi yox, Qarabağ ərazisi bütünlüklə tarixi-mədəni, geoiqtisadi, təbii-təsərrüfat regionu olmaq baxımından, həmişə prioritet əhəmiyyətə malik olmuş və indi də belədir. Çünki Qarabağ Azərbaycan xalqının etnogenezisinin, Azərbaycanın siyasi tarixinin mühüm tarixi ocaqlarından biridir. Qarabağda Azərbaycanın milli dövlətçiliyinin, etnik identikliyinin qorunması və möhkəmlənməsinin qədim tarixi kökləri mövcuddur.

Bu səbəbdən, təsadüfi deyildir ki, müasir Azərbaycan dövlətinin milli siyasətinin başlıca müddəalarından birini təşkil edən bu vəzifənin icrası ölkəmiz üçün həyati-strateji əhəmiyyətə malikdir. Lakin reallıq belədir ki, Qarabağ erməni təcavüzünün və separatçılığının qurbanıdır. Təşəbbüskarının Ermənistan olduğu və "Böyük Ermənistan" xülyası ilə bağlı olan bu müharibənin qurbanları azərbaycanlılardır – evindən, yurdundan qovulan, öz vətənində qaçqına çevrilən bir milyon nəfərdən yuxarı həmvətənimiz çadırlarda ağır həyat sürür, işğal olunmuş Azərbaycan torpaqları ətrafında siyasi alver gedir, ATƏT-in "insan ölçüləri" və "Bəyannamə prinsipləri"nin tələbləri kobud şəkildə pozulur. Halbuki belə münaqişələrin qarşısı beynəlxalq təşkilatların və dünya birliyinin səyləri ilə vaxtında alınmazsa, onların yaratdığı potensial təhlükə nəinki regional, həm də bütün beynəlxalq təhlükəsizlik arxitekturasına olduqca böyük təhlükə törədə bilər.

Bu tipli konfliktlərlə bağlı yaranmış problemlər, nəinki Cənubi Qafqaz respublikaları üçün, bütövlükdə götürüldükdə MDB dövlətləri üçün də ümumidir. Qarşılıqlı bağlılıqda və asılılıqda olan dünyamızda yalnız birgə səy göstərilməsi və həmrəylik yolu ilə, bütün maraqlı tərəfləri cəlb etməklə regionun xalqlarını bu münaqişə ilə bağlı sonu olmayan qeyri-müəyyənlikdən qurtarmaq olar. Bu münaqişədə Rusiyanın rolu sözün həqiqi mənasında əhəmiyyətli dərəcədə böyükdür, Rusiya öz maraqları daxilində bütün Qafqaz regionu xalqlarını regional münaqişələrin məhrumiyyətlərindən dinc yollarla qurtarmaq imkanlarına malikdir. Doğrudur, regionda çox şey Rusiyanın yeritdiyi strateji xəttin ardıcıllığından, həm ərazi bütövlüyünün, həm də bütün postsovet məkanında yerləşən dövlətlərin ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar siyasi xəttindən də asılıdır. Azərbaycan xalqının taleyüklü məsələsi olan bu problemin nizamlanması yolunda Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs haqqında Bişkek sazişinin imzalanması müsbət addımdır. 1994-cü il mayın 12-də Bişkekdə qüvvəyə minmiş (baxmayaraq ki, ermənilər tərəfindən bu qaydalar mütəmadi olaraq pozulur) bu sazişə artıq 25 ildir ki, əməl edilmirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizamlanması, fəaliyyətlərin əlaqələndirilməsi, problemin aradan qaldırılması üçün beynəlxalq vasitəçiliyi ATƏT-in Minsk Qrupu həyata keçirirdi.

1992-ci ilin martından fəaliyyət göstərən Minsk Qrupu yeganə orqandır ki, münaqişənin nizamlanması ilə bağlı hamılıqla qəbul ediləcək tənzimlənmə modelinin hazırlanması imkanlarına malikdir.

Təəssüf ki, "başda BMT olmaqla Azərbaycan-Ermənistan müharibəsinə son qoymaq, iki ölkə arasında daimi sülh yaratmaq məqsədilə – ABŞ, Rusiya və Fransa dövlətlərinin təmsilçilərindən ibarət "Minsk Qrupu" "fəaliyyət" göstərdikləri müddət ərzində "turist hobbisi" ilə məşğul olmuşdur. Azərbaycanın işğal olunmuş torpaqlarının sülh yolu ilə azad edilməsi prosesi süni surətdə ləngidilərək, ermənilərin işğal olunmuş şəhər və rayonlarımızın talan olunmasına, onların müharibəyə hazırlaşmasına şərait yaratmışdır.

44 günlük müharibəyə qədər, BMT Təhlükəsizlik Şurasının ATƏT-in sülhməramlı tədbirlərinə dəstəyinə baxmayaraq, Ermə-

nistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tamhəcmli, iriformatlı danışıqların sülh müqaviləsinin imzalanması ilə nəticələnməsi və ya Minsk konfransının çağırılması və yaxud da ATƏT-in çoxmilli, sülhməramlı kontingentinin regiona yerləşdirilməsi erməni tərəfinin destruktiv mövqeyi üzündən mümkün olmamışdır.

Tənzimlənmə tədbirlərinin reallaşdırılması yalnız müasir beynəlxalq hüququn, dövlətlərin suverenliyi, münaqişədə olan tərəflərin ərazi bütövlüyü, habelə hələ Minsk Qrupu tərəfindən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrlə bağlı hazırladığı təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi "Xəritəsinin" dəstəklənməsi şəraitində mümkündür. Bu baxımdan Avropa Şurası Parlament Assambleyasının "ATƏT-in Minsk konfransının nizama salınması ilə məşğul olduğu Dağlıq Qarabağ regionunda münaqişə" haqqında 1416 saylı, 25 yanvar 2005-ci il tarixli qətnaməsi də mühüm tarixi-geopolitik əhəmiyyətə malikdir.

BMT-nin keçmiş Baş Katibi Butros Qalinin dediyi kimi, zərurət yarandıqda ATƏT-in başçılıq etdiyi, məqsədi münaqişənin hərtərəfli nizamlanmasına nail olmaqdan ibarət təşəbbüsü də əhəmiyyətli beynəlxalq-hüquqi vasitələrdəndir.

Danışıqlar prosesinin başlıca mərhələləri kimi aşağıdakıları göstərmək mümkündür: ATƏT Şurasının Helsinki Əlavə görüşü (24 mart 1992-ci il); ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon, 1999 İstanbul və 2010-cu il Astana sammitləri. 1994-cü il Budapeşt zirvə görüşünün qərarına əsasən Minsk Qrupunun həmsədrləri adlı vasitəçilik institutu yaradıldı. Onun başlıca tarixi missiyası çoxtərəfli və müntəzəm danışıqlar yolu ilə tərəflər arasında hərbi münaqişənin başa çatmasına dair siyasi Sazişin (Böyük Sülh Sazişi) imzalanmasına və buna əsasən, hərbi münaqişənin nəticələrinin aradan qaldırılmasına və nəhayət, Minsk konfransının çağırılmasına nail olmaq idi. Hərbi-siyasi münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə nizamlanması yolunda ATƏT-in Lissabon zirvə görüşü (1996) daha böyük və praktiki əhəmiyyətə malikdir.

Sammitdə ATƏT-in fəaliyyətdə olan sədri F.Kottinin adından qəbul edilmiş Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin nizamlanmasının üç prinsipi öz əksini tapmışdı: 1) Ermənistan və Azərbaycan Respublikasının ərazi bütövlüyü;

2) Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyənləşən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu; 3) Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyinin təmin olunması.

Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Azərbaycan ərazilərinin zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmamışdır. Azərbaycan xalqına qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti Azərbaycan türklərinin tarixinə, mədəni, dini abidələrinə və etnik-mədəni dəyərlərinə də ağır zərbələr vurmuşdur.

İstənilən müharibə həm də bəşər övladının zəkasının və istedadının çoxəsrlik bəhrələrinin dağıdılması deməkdir. Qarabağdakı müharibə, həm də insanın yaddaşı əleyhinə olan müharibədir. Erməni rəhbərlərinin Qarabağda Azərbaycan türklərini xatırlada biləcək hər şeyi məhv etmək cəhdi tarixi abidələrin, mədəni dəyərlərin terroruna çevrildi. Bəşər tarixinin ilk dövrləri üçün səciyyəvi olan belə təzahürlərin qarşısının alınması XXI yüzilliyin əvvəllərində beynəlxalq ictimaiyyətin qarşısında dayanan ən vacib məsələlərdən biri olmaqda qalmaqdadır.

Qarabağ torpağı tarixi kökləri ilə ən qədim dövrlərə bağlıdır, belə ki, Kür-Araz çayları arasındakı ərazi sivilizasiyanın ən qədim ocaqlarından biri sayılır. Məhz Qarabağda, Füzuli rayonunun ərazisində 1 (bir) mln 200 min il bundan əvvəl Azıx mağarasında ilk insan yaşayışının izləri aşkar edilmişdir. Azıx mağarası Azərbaycan tarixinin, həm də bütün Yaxın və Orta Şərq tarixinin öyrənilməsi üçün böyük etnoqrafik və arxeoloji əhəmiyyətə malikdir. Eyni fikirləri bəşər tarixinin öyrənilməsi üçün dəyərli material verən və dünya miqyasında böyük əhəmiyyətə malik olan Xantəpə, Kültəpə, Şomutəpə və bir çox digər arxeoloji abidələr haqqında da söyləmək mümkündür.

Bundan əlavə, işğal edilmiş Qarabağ torpaqlarında Azərbaycanın alban tarixi dövrünə məxsus olan böyük sayda abidələr qalmışdır: Vəngzəsər xristian məbədi (Ağdərə şəhərinin yaxınlığında), Qara

Böyük xanım sarayı (Şuşa), Atoğlan monastırı (Xaçın rayonu), Əsgəran qalası, Amaras monastırı (Xocavənd rayonu) və s.

1992-1994-cü illərdəki hərbi kampaniya nəticəsində böyük bir zona, Azərbaycan ərazisinin demək olar ki, 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Dörd il (1988-1993) davam edən hərbi əməliyyatlar nəticəsində minlərlə insan öldürülmüş, yüzlərlə Azərbaycan vətəndaşları girov götürülmüşdür ki, onların da əksəriyyətini qocalar, qadınlar və uşaqlar təşkil etmişdir, 1 milyondan artıq insan daimi yaşayış yerini tərk etməyə məcbur olmuş, öz tarixi torpaqlarında qaçqına çevrilmişdir. Bütün bu əməliyyatlar nəticəsində dünya mədəni irsinə Azərbaycan xalqının verdiyi çox qiymətli daşınan və daşınmaz abidələr, mədəni dəyərlər talan edilmiş, dağılmış və ya məhv edilmişdir. Bu müharibə Azərbaycanın mədəni irsinə və son nəticədə isə bütün bəşəriyyətə çox böyük tarixi və mədəni zərər vurmuşdur.

Hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən işğal olunmuş rayonlarda 500-dən çox tarixi-memarlıq və 100-dən çox arxeoloji abidə, 9 tarixi saray, 22 muzey, 4 rəsm qalereyası dağıdılmışdır ki, onların da fondlarında 40 mindən artıq qiymətli əşyalar toplanmışdı. Məsələn, bizim eramızdan əvvəl III minilliyin tarixini əks etdirən qızıl və gümüş məmulatlardan ibarət nadir eksponatlar Kəlbəcər tarix muzeyinin, qədim sikkələrin nadir kolleksiyasına malik olan Xaçın tarix muzeyinin, Şuşa tarix muzeyinin və Qarabağ tarix muzeyinin, Ağdam çörək muzeyinin (dünyada ikinci belə muzey yoxdur), Zəngilan rayonundakı daş monumentlər muzeyi və digərlərinin taleyi məlum deyildir. Şuşadakı nadir ikiminarəli məscid və digər işğal olunmuş rayonlardakı məscidlər dağıdılmışdır. Etik normaların əksinə olaraq və silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqda 1954-cü ilin Haaqa konvensiyasının qərarını kobud şəkildə pozaraq erməni separatçıları bu məscidləri anbarlara və yardımçı binalara çevirmiş, XVIII əsr dahi Azərbaycan şairi və mütəfəkkiri Molla Pənah Vaqifin məqbərəsini məhv etmişlər.

Hərbi əməliyyatların getdiyi rayonlarda Azərbaycanın mədəniyyəti və incəsənəti üçün böyük əhəmiyyətə malik olan teatrlar, mədəniyyət evləri, klublar, kitabxanalar, uşaq musiqi məktəbləri qarət edilmiş və sistemli şəkildə dağıdılmışdır. Qarət edilmiş və yandırılmış 927 kitabxanada 4,5 mln. kitab və çox qiymətli əlyazmalar məhv

edilmişdir. Mədəniyyət və incəsənət müəssisələri, o cümlədən 6 dövlət teatr və konsert kompleksi, 386 klub və 85 musiqi məktəbi də qarət edilmiş və dağıdılmışdır. Teatr rekvizitlərinin, səhnə kostyumlarının, texniki vəsaitlərin, musiqi alətlərinin, dərs vəsaitlərinin, həmçinin avadanlıqların köçürülməsinə belə erməni işğalçıları tərəfindən imkan verilməmişdir.

Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi, "Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirmişlər. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik "böyük Ermənistan" yaratmaq məqsədi ilə Azərbaycan və türk xalqları onillər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışlar. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz, toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir..."

Ermənistan Respublikası beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq bütün dünyanın gözü qarşısında Azərbaycanın islam irsinə aid olan mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

Azərbaycan tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyası və memarlığı Azərbaycan xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biridir.

Düzdür, BMT-nin Toplantılarında Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında bir sıra qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid dini-tarixi abidələrin, xüsusən məscidlərin, məbədlərin, qədim məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qisminin dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhv edilməsi faktlarına diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev informasiya və əks-təbliğat işinin qurulmasında bu ermənipərəstlik amilinin nəzərə alınmasına, dünya ictimaiyyətinin və siyasi dairələrin diqqətini

cəlb etmək üçün daha genişmiqyaslı və müntəzəm tədbirlərin həyata keçirilməsinə çağırmışdır. Bu, yalnız Azərbaycan xalqının müdafiəsi naminə deyil, bütövlükdə saxta erməni təbliğatını ifşa etmək vəzifəsi olaraq ortaya qoyulmuşdur (bax: "Ədəbiyyat qəzeti", 26 aprel 2013).

Onu da qeyd edək ki, ilk qətnamə İslam Konfransı Təşkilatı Xarici İşlər nazirlərinin 1999-cu ildə Uaqaduquda keçirilmiş XXVI Toplantısında qəbul edilmiş və o vaxtdan etibarən cüzi dəyişikliklərlə İKT Xarici İşlər nazirlərinin 2000-ci ildə Kuala-Lumpurda keçirilmiş XXVII Toplantısında, İKT Dövlət və Hökumət başçılarının 2000-ci ildə Dohada keçirilmiş IX Zirvə konfransında, İKT Xarici İşlər nazirlərinin 2001-ci ildə Bamakoda keçirilmiş XXVIII Toplantısında və İKT Xarici İşlər nazirlərinin 2002-ci ildə Xartumda keçirilmiş XXIX toplantısında, 2003-cü ildə Tehranda keçirilmiş XXX Toplantısında qəbul edilmişdir.

Müxtəlif beynəlxalq təşkilatlar, ictimai-siyasi qurumlar (UNESCO, ISESCO) da Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləmiş, ona son qoyulmasını tələb etmişlər.

Bu qətnamələrdə Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və islama aid olan digər müqəddəs yerlərin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğu bəyan edilir, işğal altındakı ərazilərdə Azərbaycanın mədəni irsinə, tarixi, dini abidələrinə qarşı törədilən əməllər qeyri-insani hərəkətlər kimi pislənilmişdir.

İƏT (İslam Əməkdaşlıq Təşkilatı) xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konauridə keçirilmiş XXIII konfransları Ermənistan respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında" adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişməz qalmışdır.

Bütün qətnamələrdə erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri kəskin və ciddi surətdə pislənilir.

Onu da qeyd edək ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Putraçayadab (Malayziya) keçirilmiş X konfranslarında qəbul edilmiş qətnamələrdə İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycanın ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür.

İKT toplantılarında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsi tələb edilir.

14 may 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Konvensiyanın müvafiq olaraq, birinci maddəsinə əsasən, mənşəyindən və sahibindən asılı olmayaraq aşağıdakılar "mədəni dəyərlər" və ya "mədəni mülkiyyət" sayılır:

hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan dini və ya dünyəvi memarlıq, incəsənət abidələri, yaxud tarixi abidələr, arxeoloji qazıntı yerləri, tarixi, yaxud bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları, incəsənət əsərləri, əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyətli digər əşyalar, həmçinin elmi kolleksiyalar, yaxud yuxarıda göstərilən dəyərlərin reproduksiyası kimi daşınar və daşınmaz dəyərlər;

başlıca və əsl təyinatı 1-ci bənddə göstərilən daşınmaz mədəni mülkiyyətin saxlanılması və ya nümayiş etdirilməsi olan muzeylər, iri kitabxanalar, arxiv xəzinələri kimi binalar, həmçinin silahlı münaqişə baş verdikdə 1-ci bənddə göstərilən daşınmaz mədəni dəyərləri (mülkiyyəti) qorumaq üçün nəzərdə tutulan sığınacaqlar;

1-ci və 2-ci bəndlərdə göstərilən çox sayda mədəni dəyərlər olan "mədəni dəyərlərin cəmlənmə mərkəzi" adlandırılan mərkəzlər.

Mədəni mülkiyyətin beynəlxalq səviyyədə mühafizəsi məsələləri ilə əlaqədar olaraq ilk dəfə 1899-cu və 1907-ci ildə Haaqada keçirilən Sülh Konfranslarında müzakirələr aparılmışdı. Həmin vaxt mədəni mülkiyyətin universal anlayışı hazırlanmamışdı. Ona görə də Konfranslarda quru müharibəsinin adət və qanunlarının müzakirəsi

aspektində ayrı-ayrı dövlətlər əmlakın mühafizəsi sistemini normalaşdırmağa cəhd göstərirdilər. 1907-ci il Haaqa Əsasnaməsinin 27-ci maddəsində göstərilir ki, mühasirə və bombardman zamanı imkan dairəsində ibadətgahlar, elm, incəsənət və xeyriyyəçiliyə xidmət edən binalara, tarixi abidələrə ziyan vurulmaması üçün bütün zəruri tədbirlər görülməlidir.

Mədəni mülkiyyətin silahlı münaqişələr zamanı mühafizəsi barədə növbəti və məhz bu məsələyə həsr olunmuş ilk beynəlxalq hüquqi sənəd 1935-ci il aprelin 15-də Vaşinqtonda bağlanmış "Elm və incəsənətə xidmət edən müəssisələrin, həmçinin tarixi abidələrin mühafizəsi haqqında" müqavilədir. Bu müqavilə təşəbbüskarın – rəssam, yazıçı və ictimai xadim Nikolay Rerixin adı ilə "Rerix Paktı" da adlandırılır. Lakin Rerix paktı mədəni mülkiyyətin mühafizəsi ilə bağlı bir çox zəruri normalar müəyyən etsə də, bu sənəd universal xarakter daşımırdı. Yəni ancaq Amerika qitəsi dövlətləri üçün nəzərdə tutulmuş regional müqavilə idi.

II Dünya müharibəsi zamanı külli miqdarda mədəni mülkiyyətin dağıdılması və mənsub olduqları dövlətdən aparılması faktı dünya birliyini tezliklə silahlı münaqişələr zamanı mədəni dəyərlərin və obyektlərin mühafizəsi ilə əlaqədar sistem yaradılması zərurəti qarşısında qoydu. Bolqarıstanla Millətlər Birliyi arasında 28 oktyabr 1944-cü ildə bağlanmış müqavilənin 2-ci maddəsi və 28 Fevral 1947-ci il Paris sülh müqaviləsinin 22-ci maddəsi restitusiya (pozulmuş hüququ bərpa etmə və zərərini ödəmə) prinsiplərini qəti sürətdə təsbit edirdi.

Mədəni mülkiyyətin həm dinc dövrdə, həm də müharibə zamanı mühafizəsi məsələlərində 1945-ci ildə Nizamnaməsi qəbul edilmiş BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) rolu böyükdür. Təşkilatın nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində onun vəzifələrindən biri kimi bəşəriyyətin ümumdünya irsinin – kitabların, incəsənət əsərlərinin və tarixi elmi əhəmiyyətli abidələrin qorunub saxlanılmasının və mühafizəsinin qayğısına qalmaq göstərilmişdir. UNESCO-nun himayəsi altında qəbul edilmiş 14 may 1954-cü il tarixli Haaqa konvensiyasının 28-ci maddəsinə əsasən, iştirakçı dövlətlər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından asılı olmayaraq bu Konvensiyanı pozmuş və ya pozmağı əmr etmiş şəxslərin üzə çıxarılıb barəsində cinayət və ya inzibati sanksiyalar tətbiq edilməsi

üçün lazımi tədbirlərin görülməsini öz üzərinə götürürlər. Müvafiq olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116.0.8 maddəsində bu öhdəlik yerinə yetirildiyindən işğal olunmuş ərazilərimizdə bu tip cinayəti törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün əsas yaradır.

Sözügedən Konvensiyaya əlavə Protokolda iştirakçı dövlətlərin Konvensiyanın 1-ci maddəsində müəyyən edilmiş mədəni dəyərlərin münaqişə vaxtı işğal olunmuş ərazidən çıxarılmasının qarşısını almaq öhdəliyi də öz əksini tapmışdır.

UNESCO-nun dəstəyi ilə qəbul olunmuş "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 14 noyabr 1970-ci il Konvensiyasının 2-ci maddəsi mədəni mülkiyyətin bununla bağlı bütün təhlükələrdən mühafizə olunmasını təmin edən ən təsirli hüquqi sənəd olduğunu qeyd etmək yerinə düşür.

26 mart 1999-cu ildə "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına 2-ci protokol qəbul edilmişdir. Bu protokol Konvensiyanın normalarını iki istiqamətə – silahlı münaqişə zamanı mədəni mülkiyyətin mühafizəsinin gücləndirilməsi və dövlətlərin bu sahədə beynəlxalq öhdəliklərinin daha səmərəli yerinə yetirilməsini təmin etməyə yönəlmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisi bu sənədi ratifikasiya etmiş və sənəd 2004-cü il mart ayının 9-dan qüvvəyə minmişdir.

Aldığı külli miqdarda zərərlərə görə Azərbaycanın müvafiq kompensasiya almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

"Hərbi münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müddəalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində səyləri dəstəklənilir.

Azərbaycan xalqının mədəni irsinin yüzillər boyunca ermənilər tərəfindən "Gəldim, gördüm, mənimsədim" sxemi üzrə oğurlanması onların torpaqlarımıza olan ərazi iddiaları ilə sıx bağlıdır.

"Böyük Ermənistan" haqqında mifin reanimatorlarının niyyətləri kifayət qədər aydındır: gəlmə etnos olan ermənilər onlara məxsus olmayan torpaqlara aid ərazi iddialarının "əsaslandırılmasını" həmin torpaqların həqiqi sakinlərinə məxsus maddi və qeyri-maddi irsin mənimsənilməsi və ermənileşdirilməsi ilə əlaqələndirirdilər.

İşğalda olmuş Azərbaycan ərazilərindəki Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi təşkilatının müxtəlif dövlətlərə, beynəlxalq təşkilatlara, Azərbaycanın səlahiyyətli dövlət qurumlarına, ictimai təşkilatlara, siyasi partiyalara, ölkə vətəndaşlarına müraciətlər ünvanlanmış, onları dünya sivilizasiyasına xas olan nümunələrin Azərbaycanın işğal altında olan ərazilərindəki tarix və mədəniyyət abidələrinin işğalçı Ermənistan dövlətinin dağıtmasının qarşısını almaqda, bu abidələr üzərində beynəlxalq təşkilatların iştirakı ilə müşahidə tədbirləri keçirilməsi ilə bağlı müraciətləri yayılmışdır. Həmin təşkilatlar aşağıdakı tədbirləri həyata keçirirdilər:

Xaricdə Azərbaycan tarixinin saxtalaşdırılmasının qarşısını almaq;

Azərbaycan mədəniyyətinə məxsus mədəniyyət, incəsənət nümunələrinin xaricdə alqı-satqısının qarşısını almaq;

Azərbaycan torpaqlarının işğalı zamanı qarət edilmiş mədəniyyət, incəsənət nümunələrinin geri qaytarılmasını gerçəkləşdirmək;

Azərbaycanın işğal altındakı ərazilərində olan abidələr üzərində beynəlxalq miqyaslı nəzarətin həyata keçirilməsinə nail olmaq və s.

– Azərbaycanın işğal altındakı ərazilərində mövcud olan tarix, mədəniyyət, incəsənət abidələrinin məhvi istiqamətində aparılan vandalizm hərəkətlərinin beynəlxalq miqyasda ifşa edilməsi ISESCO xətti ilə də həyata keçirilirdi.

ISESCO-nun baş direktoru Bakıda çıxışında təşkilatın mövqeyini bir daha bəyan edib, işğala və mədəni təxribata son qoyulmasını tələbini irəli sürürdü: "Beynəlxalq ictimaiyyət Ermənistanı ciddi şəkildə məcbur etməlidir ki, Azərbaycanın işğal edilmiş rayonlarında xalqa məxsus dini və mədəni abidələr mühafizə olunsun. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsi yerinə yetirilməlidir.

Ermənistanın səlahiyyətli nümayəndələri beynəlxalq təşkilat nümayəndələrinə həmin yerlərə getməyə və Azərbaycan mədəniyyət

abidələrinə vurulan zərbələrin, təcavüzün miqyasını görməyə icazə vermirlər. İstərdim ki, beynəlxalq təşkilatlar bu məsələyə cəlb olunsunlar, bununla bağlı Ermənistana qarşı addımlar atılsın. Çünki bu abidələr həm də bəşəriyyətə məxsusdur və buna görə dünya birliyi baş verənlərə laqeyd yanaşmamalıdır" ("525-ci qəzet", 11 iyun 2013-ci il).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hər iki ölkənin xalqlarına saysız-hesabsız bəlalar, fəlakətlər gətirmişdir. Lakin heç kəs üçün sirr deyil ki, Ermənistanda hakimiyyətin başında duranlar erməni xalqının özünün maraqlarına zidd hərəkət edirlər. Bu səbəbdən münaqişənin əvvəlindən Ermənistan vətəndaşları öz ölkəsini sürətlə tərk edir, total məhrumiyyətlər və qeyri-müəyyənlik, qeyri-sabitlik şəraitində qalmaq istəmirlər.

Əsrlər boyu Ermənistanın Azərbaycana qarşı törətdikləri hərbi təxribatlar xalqımızı düşmənə qarşı daha tələbkar olmağa məcbur edir. Daima olduğu kimi bu dəfə də ermənilər bizi təxribat yolu ilə döyüşməyə, azğınlaşmış düşmənə layiqli cavab verməyə sövq edir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilib. Nəticədə ermənilərə məxsus 6 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən yüzdən çox hərbi qulluqçusu ölüb və yaralanıb. Azərbaycanın isə 12 hərbi qulluqçusu şəhid olub. Döyüş nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi erməni qüvvələrindən tam təmizləndi. Horadiz şəhərinin erməni təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən

strateji əhəmiyyətli “Lələ təpə” adlandırılan yüksəklik də Azərbaycan qüvvələrinin nəzarətinə keçdi.

2016-cı il 2 aprel tarixlərində beynəlxalq qurumların təkidli müraciətləri və Azərbaycan dövlətinin sülhsevər siyasət yürütməsinin nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini saat 15:00-dan başlayaraq birtərəfli qaydada dayandırmaq barədə qərar qəbul edir. Azərbaycan tərəfinin razılığa əməl etməsindən istifadə edən qarşı tərəf, Ermənistandan işğal altında olan ərazilərə əlavə hərbi qüvvə cəmləşdirməklə işğaldan azad edilən mövqelərin, ərazilərin geri qaytarılmasına cəhd göstərilib və nəticədə düşmənin 10-a yaxın tankı, həmçinin canlı qüvvəsi sıradan çıxarılıb.

Qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsi Ermənistan Silahlı Qüvvələrindən tam azad olundu.

Aprelin 3-dən başlayaraq Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində birtərəfli qaydada düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini dayandırdığını elan edib. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi.

Azərbaycan Silahlı Qüvvələrinin düşmənə qarşı əks-həmlə əməliyyatının və cavab tədbirlərinin dayandırılmasına baxmayaraq, Ermənistan tərəfi vəziyyəti gərginləşdirməkdə davam edib. Düşmən tərəfi itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edib və təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tutub. Aprelin 3 və 4-nə keçən gecə ərzində aparılan döyüşlərdə ermənilər canlı qüvvə və hərbi texnika sarıdan çoxsaylı itkilərə məruz qalıb. Düşmənlə döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin 3 hərbi qulluqçusu şəhid olub.

Aprelin 4-də axşam saatlarında və aprelin 5-nə keçən gecə ərzində bütün cəbhə boyu vəziyyət gərgin olaraq qalıb. Cəbhə xəttinin Xocavənd-Füzuli və Ağdərə-Tərtər istiqamətlərində itirilmiş mövqelərinin geri alınması üçün Ermənistan tərəfi qoşunların təmas xəttinə

yaxın yaşayış məntəqələrini atəşə tutmaqda davam edib. Bu istiqamətdə düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahı dəqiq zərbələrlə dağıdılıb.

Aprelin 4-də axşam saatlarında Ermənistanın 3 ədəd döyüş tankı heyətlə birlikdə atəş gücü vasitəsilə məhv edilib, cəbhənin Xocavənd-Füzuli istiqamətində isə Ermənistanın 2 ədəd tankını heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikasını sıradan çıxarıblar. Ümumilikdə aprelin 4-ü gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində ermənilər daha 70 nəfərədək canlı qüvvə sarıdan itkiyə məruz qalıb, 20-dək hərbi texnika tam sıradan çıxarılıb. Aprelin 5-ə olan məlumata görə, bütün cəbhə boyu son iki gün ərzində döyüşlərdə vuruşan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularından 16 nəfəri şəhid olub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aprelin 19-da yayımladığı məlumata əsasən cəbhə bölgəsində Azərbaycan ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" tipli pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən məhv edilib. Növbəti gün, aprelin 20-də yayımlanmış məlumatlarda isə qeyd edilir ki, yenə Azərbaycan ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus kvadrokopter tipli "DJI PHANTOM" pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən xüsusi üsulla endirilərək ələ keçirilib.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilib. Azərbaycan Ordusunun Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirib.

Aprelin 5-də saat 12.10-dan başlayaraq aprelin 6-sı saat 12.56-dək sutka ərzində Azərbaycan-Ermənistan dövlət sərhədində Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Mehri, Sisian və Cermuk rayonları ərazisindəki mövqe-

lərdən iriçaplı silahlar və qumbaraatanlardan atəşə məruz qalıb. Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun həmin istiqamətlərdə yerləşən bölmələrinin dəqiq cavab atəşi ilə düşmən susdurulub. Ordubad rayonu istiqamətində yerləşən Azərbaycan ordusunun bölmələri cavab tədbirləri nəticəsində düşmənin qarşı tərəfdəki atəş nöqtəsi və mühəndis-istehkam qurğusu dağıdılıb.

Ermənistan ordusunun bölmələri tərəfindən həmçinin aprelin 6-da Goranboy rayonunun Tapqaraqoyunlu yaşayış məntəqəsi yaxınlığındakı Azərbaycan ordusunun mövqelərini 60, 82 və 120 millimetrlik minaatanlardan intensiv olaraq atəşə tutub. Aprelin 29-da Ermənistanda üç yüksək rütbəli hərbi və müdafiə rəsmiləri Dördgünlük müharibədə uğursuzluğa görə işdən qovulmuşdur.

Döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənilərə məxsus 14 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən 100-dən çox hərbi qulluqçusu ölüb və yaralanıb. İlk döyüşlərdə Azərbaycanın 12 hərbi qulluqçusu şəhid olub. Erməni mövqelərinə aviasiya zərbələri zamanı əməliyyata cəlb olunan 1 ədəd Mi-24 helikopteri Ermənistan tərəfindən vurulub və 1 ədəd tank mina partlayışı zamanı sıradan çıxıb.

Aprelin 4-də erməni silahlı bölmələri Xocavənd-Füzuli istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma cəhd göstəriblər. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurub. Əks hücum zamanı Ermənistan Silahlı Qüvvələrinin 3 tankı və 30-dək hərbi qulluqçusu məhv edilib. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin vurduğu dəqiq cavab atəşi ilə düşmənin bir batareyası darmadağın edilib. Azərbaycan Silahlı Qüvvələri cəbhəboyu əməliyyat şəraitini tam nəzarət altında saxlayıb. Həmçinin, ermənilərin işğal olunmuş ərazilərdəki komanda-qərargah məntəqəsi darmadağın edilib.

Dağlıq Qarabağ münaqişəsi zonasında 2016-cı il aprelin 2-dən 6-dək davam edən hərbi əməliyyatlarda qarşılıqlı razılıq əsasında növbəti atəşkəs əldə olundu. Belə görünür, bunda ən çox düşmən tərəf maraqlı idi. Hər halda, erməni KİV-ki bədbin ab-havadan bunu sezmək çətin deyildi. Çünki işğalçı tərəf hər gün daha ağır itkilərlə üzləşməkdə idi.

Bununla belə, 4 günlük müharibənin ölkəmiz üçün əsas pozitiv nəticəsi, bizcə, budur ki, Azərbaycan 22 illik atəşkəs dövründə ilk dəfə hərbi gücə əl ataraq ağır itkilər bahasına da olsa, dünyaya, işğalçıya, onun havadarlarına, xüsusən də Rusiyaya nümayiş etdirdi ki, dövlət, millət olaraq öz ərazilərinin, Qarabağın işğalı ilə barışmayıb, heç vaxt barışmayacaq və bu yolda qələbə əzmini də saxlamaqdadır.

Bu günlər həmçinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyi məsələsi kifayət qədər ciddiliyi ilə beynəlxalq ictimaiyyətin gündəminə gəldi. Əksər ölkələr (Türkiyə, İran, Pakistan, Ukrayna, Belarus, Gürcüstan, bir çox Avropa ölkələri) və nüfuzlu qurumlar ərazi bütövlüyümüzə sayğı nümayiş etdirən bəyanatlar yaydılar, sərhədlərin zorla dəyişdirilməsinə qarşı öz etiraz səslərini qaldırdılar.

İkinci mühüm nəticə Azərbaycan Ordusunun işğalçı ordu üzərində hərbi-texniki, hazırlıq və başqa göstəricilərə görə üstünlüyünün təsdiqlənməsi idi – bunu bir sıra Qərb və rusiyalı hərbi ekspertlər döyüş əməliyyatlarının gedişində qeyd etmişdilər. Bu da ilk növbədə Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı sayəsində mümkün olmuşdur və bu əməkdaşlıq, sözsüz ki, indi daha da dərinləşəcək və genişlənəcəkdir.

Azərbaycan özünün blits-zəfəri ilə, həmçinin işğalçı ölkənin arxayınçılığına son qoymuş oldu, "yumşaq güc" nümayişi ilə ona və onun siyasi havadarlarına mesaj və dərs verdi ki, növbəti və daha əlverişli regional şərtlər yetişən kimi, ona daha sarsıdıcı və sonuncu həlledici zərbəni endirəcək. Özü də bu zərbə uzaq tarixə qalmayacaq – çox şey blits-müharibədən öncəliklə Minsk Qrupu həmsədrlərinin hansı nəticə çıxaracağından asılı olacaq.

Əgər onlar ənənəvi şəkildə işğalçı ilə işğala məruz qalan tərəfə eyni gözlə baxaraq, BMT TŞ-nin, Avropa Şurası və Avropa Parlamentinin, NATO Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, digər mötəbər təşkilatların Dağlıq Qarabağa dair dünya birliyinin iradəsini əks etdirən qətnamələrini qulaqardı edəcəksə, o zaman həlledici savaş özünü çox gözlətməyəcək. Azərbaycanın milli maraqları üçün bir qiymətli mesaj da bundan ibarətdir.

Məsələ ondadır ki, kimin, hansı qüvvənin rəvac verməsindən asılı olmayaraq, Azərbaycanın 4 gündə düşmənə endirdiyi sarsıdıcı

zərbə həm də danışıqlar prosesində status-kvonu xeyrimizə dəyişməyə yönəlmişdi və əslində bu hədəfə də müəyyən mənada nail olundu. Bu da blits-zəfərin başqa bir uduşu sayıla bilər. Hər halda, bundan sonra Azərbaycanın əsas probleminə beynəlxalq birliyin, vasitəçi dövlətlərin daha həssas yanaşmasını gözləməyə dəyər.

Məhz atəşkəs günündə Rusiya xarici işlər nazirinin Bakı səfəri Ermənistan KİV-lərinin əsas mövzusu olmuş, "Aykakan Jamanak" qəzetinin yazdığına görə, Qarabağ konflikti ətrafında artıq yeni pərdəarxası proses başlanmışdır.

"Söhbət Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun Azərbaycana qaytarılmasından gedir. Hakimiyyətə yaxın mənbənin iddiasına görə, Rusiya bundan ötrü Ermənistanı dilə tutmağa çalışır, əvəzində isə Azərbaycanın Avrasiya Birliyinə qoşulacağına ümid edir," – deyə nəşr qeyd etmişdir.

4 günlük müharibə uzun illər milləti içəridən yeyən "məğlubiyyət sindromu"ndan, nəhayət ki, onun böyük ölçüdə çıxmasını təmin etdi, toplumu qısa zamanda toparlayıb bir araya gətirməklə, onda qəti qələbəyə inamı və əzmi birə-on möhkəmlətdi, millətin belini və başını dikəltdi, gələcəkdə Qarabağın işğaldan azad olunmasına zəmin yaratdı.

Eyni zamanda düşməndə məğlubedilməzlik mifini dağıtdı. Xocalı canisi Serj Sərkisyanın "kompromislərə hazırıq" deməsi, sözsüz ki, ən əvvəl bunun təzahürü idi.

Bu savaşın başqa pozitiv yekunu kimi, bölgəyə, Azərbaycana "sülhməramlı" bəhanəsi ilə hərbi qüvvə yerləşdirmək üçün əldən gedən bir sıra dövlətlərə bəhanə verilməməsi də nəzərdən qaçırılmamalıdır. Çünki sonuncu eskalasiyanın arxasında xarici amilin olması haqda da ciddi dəlillər vardır.

Rusiyanın Azərbaycanda öz hərbi mövcudluğunun bərpası isə, nəinki Dağlıq Qarabağın, bütövlükdə Azərbaycanın suverenliyinin itirilməsinə gətirərdi. Hələ ki bunların heç biri baş verməyib və yenə son söz Azərbaycan xalqının olaraq qalır. Blits-savaşın daha bir mühüm yekunu da bu tezisdən ibarətdir.

Azərbaycan ordusunun aprel döyüşlərində Ermənistanın işğalçı qüvvələrinə vurduğu sarsıdıcı zərbələrdən sonra Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni mərhələnin yarandığı artıq çoxlarında şübhə doğurmur. Gerçəklik bundan ibarətdir ki, uzunmüddətli fa-

silədən sonra ordumuzun uğurlu əməliyyatlari nəticəsində rəsmi Bakı Qarabağ danışıqlarında diktə edən tərəfə çevrilmişdir. Artıq erməni generallarından tutmuş, prezident Sərkisyana qədər Ermənistanda hər kəs Azərbaycanın hərbi üstünlüyünü etiraf edir. Elə Azərbaycanın üstün mövqedə olması səbəbindən də ATƏT-in Minsk Qrupunun həmsədrləri budəfəki səfərlərdə neqativ-məchul danışmadılar, daha korrekt davrandılar (3).

Amerikalı həmsədr C.Uorlik də qeyd etdi ki, hərtərəfli həllin yolu orduların işğal olunmuş ərazilərdən çıxarılması, torpaqların Azərbaycana qaytarılmasından keçir: "Amma Qarabağın statusunun da müəyyənləşməsi lazımdır. Hərtərəfli həllə çox məsələ daxildir, tərəflər buna bütöv məsələ kimi baxmalıdırlar".

Qeyd edək ki, həmsədrlər Bakıdan sonra Xankəndinə, separatçı rejimin rəhbərliyi ilə görüşə yollanıb.

Rusiya XİN başçısı Sergey Lavrov isə 7 aprel tarixində Azərbaycanda bir sıra maraqlı açıqlamaları ilə diqqət çəkdi. Azərbaycan Prezidenti, Xarici İşlər və Müdafiə nazirləri ilə görüşən rusiyalı diplomat atəşkəsin əldə olunmasını "böyük məmnuniyyətlə" qarşıladıqlarını deyib. "Biz düşünürük ki, cəbhədə baş verən vəziyyət bizi təmas xəttindəki duruma daha diqqətlə yanaşmağa sövq edir", – S.Lavrov deyib. Bununla Azərbaycan ordusunun Moskvanı da təəccübləndirdiyini dolayısı ilə etiraf edib.

Ancaq bunun ardınca diplomatın "Biz Dağlıq Qarabağ danışıqlarının həllinə çox yaxınıq" deməsi suallar doğurur. Hətta bununla XİN başçısının "7 rayonun qaytarılması layihəsinə" işarə vurduğunu təxmin edənlər də var.

Qeyd edək ki, son yarım ildə S.Lavrovun 7 rayonun qaytarılması təklifi ilə Ermənistan hakimiyyətinə müraciət etdiyi, lakin razılıq ala bilmədiyi barədə iddialar səslənib. Hətta Ermənistan mətbuatında da bu iddialara geniş yer ayrılmışdır.

"V.Putin münaqişənin həllində hamıdan çox maraqlıdır" – bu fikir də S.Lavrova məxsusdur. Maraqlısı odur ki, Rusiya prezidenti ciddi toqquşmaların baş verdiyi günlərdə tərəflərə telefon belə açmadı. Lakin ABŞ-ın vitse-prezidenti Co Bayden şəxsən Azərbaycan prezidenti ilə telefonla danışdı. Hətta Belarus prezidenti də Bakıya zəng edib, narahatlığını bildirdiyi halda,V.Putin susmağa üstünlük verdi.

Lakin V.Putinin illik ümumrusiya Valday Klubunun işində və hesabat-mətbuat konfransında Dağlıq Qarabağ mövzusuna dəfələrlə toxunması siyasətşünaslar tərəfindən pozitiv qiymətləndirilir.

"Dağlıq Qarabağdakı böhranın aradan qaldırılması üçün bütün komponentlər praktiki olaraq mövcuddur". Bunu isə S.Lavrov Azərbaycan, İran və Rusiya xarici işlər nazirlərinin Bakıdakı görüşündən sonra təşkil olunmuş birgə mətbuat konfransında deyib. Rus diplomat əlavə edib: "Biz Qarabağ məsələsini müzakirə etdik və Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş hazırki atəşkəs bizi sakitləşdirməməlidir. Münaqişənin siyasi həlli üçün yollar tapılmalıdır". Xatırladaq ki, Lavrov Azərbaycan prezidenti ilə görüşdə də ermənilərin atəş açmayacağına zəmanət vermişdi. Lakin elə atəşkəs razılaşması əldə olunan gün düşmən yaşayış məntəqələrimizi atəşə tutdu.

Azərbaycanın Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri aprelin 6-dan 7-nə keçən gecə də cəbhənin müxtəlif istiqamətlərində 60, 82 və 120 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 119 dəfə pozdu.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində hərbi əməliyyatların dayandırılması barədə tərəflərin əldə etdiyi razılaşmadan dərhal sonra Azərbaycan-Ermənistan dövlət sərhədində silahlı qüvvələrimizin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri düşmən tərəfindən atəşə tutuldu.

Göründüyü kimi, Ermənistan Rusiyanı və KTMT-ni (Kollektiv Təhlükəsizlik və Müdafiə Təşkilatı) münaqişəyə cəlb etmək üçün özünün bütün sərhədləri boyunca atəşkəs rejimini pozur. Deməli, rəsmi Moskvanın zəmanət hələ ki, söz olaraq qalır.

Üstəlik, işğal olunmuş ərazilərə yeni hərbi texnika və qüvvənin daşındığı barədə məlumatlar yayıldı. Ərazini qorumaq üçün əsgər çatışmazlığı ilə üzləşən işğalçı ölkə bölgəyə kürd terrorçularını daşımağa başlayıb. Türkiyənin "Yeni Şafak" qəzetinin yaydığı məlumata görə, PKK terror təşkilatı Ermənistana kömək üçün 400 döyüşçüsünü Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə göndərmişdir.

Məlumatda Kandil və Kamışlıdan gələn terrorçuların Ağrı dağından Ermənistana keçdiyi, daha sonra Göyçə gölü istiqamətindən

Qarabağın qaynar nöqtələrinə getdiyi qeyd olunub. Nəşr PKK yaraqlılarının Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Cəbrayıl, Zəngilan və Füzulidəki erməni mövqelərinə səpələndiklərini yazıb. Türkiyə saytlarının yaydığı xəbərlərdə də terrorçuların İraq və Suriya düşərgələrindən gəlib Ağrı dağı vasitəsilə Ermənistana keçdiyi qeyd edilir.

Məlumatlara görə, PKK-nın Ermənistana hərbçi göndərmə planı Kürdüstan Cəmiyyətlər Birliyinin (KCK) həmsədri Bese Hozat tərəfindən həyata keçirilir. Onun İrəvanla gizli danışıqlar apardığı bildirilir.

Bundan başqa, PKK-nın Suriya qanadı olan PYD-nin tərkibindən 150 erməni əsilli terrorçu da Qarabağa göndərilmişdir ki, bu fakt da rəsmi Bakı və Ankara tərəfindən sinxron addımların atılmasını tələb edir.

Bakıda keçirilən Azərbaycan, Rusiya, İran XİN başçılarının görüşündə də Qarabağ mövzusu aparıcı mövzulardan biri olur.

Azərbaycan XİN rəhbəri E.Məmmədyarov görüşdən sonra deyib ki, Dağlıq Qarabağ münaqişəsində "status-kvonu" uzun müddət ərzində saxlamaq olmaz.

E.Məmmədyarov bildirir ki, Dağlıq Qarabağ münaqişəsi məsələsi Rusiya və İranla da müzakirə olunub: "Konkret təkliflər var, biz ideya və düşüncələrimizi bölüşdük. Problemi tez həll etmək lazımdır, çünki insanlar məhv olur. Münaqişənin həlli ilə birbaşa məşğul olmaq lazımdır və hərbçilər kazarmalara qayıtmalıdır"(9).

Bakıda səfərdə olan İran XİN başçısı M.Cavad Zərif də baş verənlərə münasibət bildirib. "Atəşkəs rejimi Dağlıq Qarabağ münaqişəsi siyasi yolla həll olunana qədər qüvvədə olmalıdır".

İranın xarici işlər naziri M.Cavad Zərif bildirib ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır: "İran tərəfi olaraq hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar beynəlxalq hüquq və BMT prinsiplərinə əsasən aparılmalıdır".

S.Lavrovun "Böhranın aradan qaldırılması üçün bütün komponentlər praktiki olaraq mövcuddur" fikirləri isə suallar doğurur. Qısa müddətdə bu komponentlər necə hazırlandı?

Rəsmi Moskvanın zəmanəti ilə əldə olunan razılaşma perspektiv üçün nə vəd edirdi? Politoloqun qənaətincə, danışıqlarda irəliləmə

yiş olmayana qədər atəşkəs daima pozulacaqdı: ”Ona görə də Moskvada razılaşdırılan atəşkəsin ömrünün çox olacağını düşünmürəm. Əsas odur ki, 22 illik tilsimi sındırdıq. Düşmən hakimiyyəti anladı ki, Azərbaycan əbədiyyətə qədər mənasız danışıqlarda maraqlı deyil. Məncə, Rusiya hakimiyyəti Azərbaycan ordusunun cəbhə bölgəsindəki uğurlarını genişləndirə biləcəyindən ehtiyatlanaraq tələsik atəşkəsə nail oldu. Bunun müqabilində Azərbaycan hakimiyyəti, siyasi dairələri və cəmiyyəti Moskvanın İrəvana təsir edəcəyini gözləyir. Ancaq bunun məhz belə olacağını söyləmək çətindir. Hər halda, Ermənistanın Rusiyadan narazılığı artmışdır. Bu faktı Yerevanda Rusiya Federasiyası səfirliyi qarşısında aprelin 15-də keçirilmiş etiraz mitinqi də təsdiq edir.

Bu fikir bu gün Azərbaycan cəmiyyətində Qarabağ problemi ilə bağlı ictimaiyyətdə ən geniş yayılmış mövqe kimi də dəyərləndirilə bilərdi.

Bütün yuxarıda söylənilənlərə rəğmən, 2016-cı il 25-27 aprel tarixində Bakıda keçirilmiş BMT-nin VII Qlobal-Humanitar Forumunun işində iştirak etmiş Azərbaycan dövlət rəsmiləri, başda Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları və Birinci Vitse-Prezident Mehriban xanım Əliyeva olmaqla, Azərbaycan dövlətinin sülhpərvər bir kurs yürüdərək multikultural dəyərlər və Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla Qarabağ münaqişəsinin dinc, siyasi yollarla həllinə sadiq olduqlarını bir daha bəyan etmişlər.

Avropa Şurasında yayılan sənədlərə “Dağlıq Qarabağda zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi” və “Dağlıq Qarabağda ekoloji vəziyyət haqqında” iki mühüm rəsmi sənəd əlavə olunmuşdur. Hər iki sənəddə erməni separatçılarının məkrli siyasəti, xalqımızın mədəniyyət incilərinin vəhşicəsinə dağıdılması faktı inandırıcı dəlil və sübutlarla ifşa olunur. Bizcə, bu, tarixi hadisədir. Çünki ilk dəfə olaraq Azərbaycan xalqının, ümumiyyətlə, mədəniyyət abidələrinə humanist mövqeyi dünyanın 43 ölkəsinin təmsil edildiyi bu nüfuzlu təşkilat tərəfindən rəsmi sənəd kimi yayılmışdır. Məhz İlham Əliyevin qətiyyətli mövqeyinin nəticəsidir ki, siyasi komitə Parlament Assambleyasının növbəti sessiyalarının birində Dağlıq Qarabağ probleminin müzakirəyə çıxarılmasını təklif etmiş və nəzərdən keçirtmişdi.

Qarabağda törədilən ən qanlı faciə Xocalı qətliamıdır. Bu dərs vəsaitinin müəlliflərindən biri Sadir Məmmədovun məqalələrinin birində faciəni belə təsvir edir: "Həmin gecə saat 23.00-da ermənilər üç istiqamətdə Xocalı şəhərinə hücum etdi. Bu hücumda Ermənistan Respublikası silahlı qüvvələrinin qoşunları, muzdlu əsgərlər, özünü Artsax Xalq Ordusu adlandıran Dağlıq Qarabağın erməni bölmələri və Xankəndində yerləşmiş 366-cı motoatıcı alayın hərbi texnikası, onların ardınca isə rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldur (əksəriyyəti saqqallı) daha çox fəallıq göstərirdilər.

Ermənilərin strateji planına uyğun olaraq, əvvəlcə 366-cı alayın ağır texnikalarının vasitəsilə piyada qüvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə Xocalıdakı özünümüdafiə dəstələrinin qərargahlarını dağıtmaqla hər tərəfdən hücuma keçmişlər. Şəhərin müdafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüşdülər. Onların bir neçəsi kamikadze şücaəti göstərərək bədənlərinə partlayıcı qurğu bağlayaraq özlərini düşmən texnikasına çırpmışlar. Sonuncu müdafiə məntəqəsi səhər saat 7-də susdurulmuşdur. Döyüş zamanı Xocalıda bir gecədə cəmi səkkiz saat müddətində yüzlərlə günahsız dinc əhalini qəddarcasına məhv ediblər. Ermənilər 613 nəfəri, onlardan 106-sı qadın, 63 uşaq və 70 nəfər qocanı qətlə yetiriblər, 8 ailə tamamilə məhv edilmişdir, 27 ailənin yalnız 1 üzvü qalıb, 56 insan işgəncə ilə öldürülmüşdür, 25 uşaq hər iki valideynini itirmişdir, 130 uşaq valideynlərindən birini itirmişdir, 230 ailə öz başçısını itirmişdir, 487 nəfər şikəst olub, onlardan 76-sı həddi-buluğa çatmışlardır. 1275 azərbaycanlı erməni əsirliyinin dəhşətlərini yaşayıb. 1165 nəfər girovluqdan azad edilmişdir. 150 nəfər isə itkin düşüb. 5679 nəfər deportasiya olunmuşdur. Xocalı isə yerlə-yeksan edilib. Xocalıya 145 mln manat və ya 170 mln ABŞ dolları miqdarında zərər vurulmuşdur.

Ağdama tərəf müxtəlif istiqamətlərdə hərəkət edən dinc əhali yolda erməni silahlı qüvvələri tərəfindən tutularaq girov götürülmüş, dəhşətli işgəncələrə məruz qalmışlar. Ermənistan hərbi birləşmələri qətlə yetirdikləri azərbaycanlıların üzərində xüsusi əməliyyat apararaq onların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, adamları diri-diri torpağa basdırmış və yandırmışlar".

Erməni vəhşiliklərinin qurbanı olmuş yaralananlar və öldürülənlərlə bağlı Baş Məhkəmə Tibbi Ekspertizasının rəyindən bəzi məqamları oxucuların diqqətinə çatdırmaq çox vacibdir. Tibbi ekspert R.Yusifovun verdiyi rəylərin birində bildirilir: "Müayinə olunmuş meyitlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni başın dərisinin soyulması, qadınlarda döşlərinin kəsilməsi, burun və qulaq qığırdaqlarının kəsilməsi, silahdan atəş açılması əlamətləri aşkar edilmişdir. Eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət orqanlarının kəsilməsi müşahidə olunmuşdur. Müayinə olunmuş 31 meyitdə isə kombinə olunmuş, yəni bədənin müxtəlif nahiyələrinin güllə yarası və küt alətlə, kəsici-deşici alətlə yetirilmiş xəsarət olmuşdur".

Xocalı faciəsindən 29 ildən çox keçməsinə baxmayaraq, qətliamın səbəbkarları və günahkarları hələ də azadlıqda gəzirlər. Öz murdar əllərini Azərbaycan türklərinin qanına batırmış R.Köçəryan və S.Sərkisyan kimi cəlladlar Ermənistanda hakimiyyətə gəldilər. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "...əslində, Xocalı soyqırımı XX yüzilliyin ən böyük insan faciələrindən biridir. Xocalıdakı insan qırğınının yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətlərini dünya ictimaiyyətinə hərtərəfli çatdırmalıyıq".

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə beynəlxalq hüquqa zidd əməllər mütəmadi olaraq davam etmişdir. Nəzarətsiz qalan həmin ərazilər terror, insan alveri, narkomaniya yuvası olmaqda davam edir. Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 3 dekabr tarixində "Narkotiklərə nəzarət üzrə regional əməkdaşlığa dair Anlaşma Memorandumu"nun üzv tərəflərinin beşinci görüşünün iştirakçılarına göndərdiyi müraciətdə deyilir: "İşğalçı rejimlər beynəlxalq hüququn prinsip və normalarını, demokratik dəyərləri və insan hüquqlarını kobudcasına pozaraq yalnız öz əhalisi üçün deyil, həm də beynəlxalq sülhə və əmin-amanlığa real təhlükə yaratmaqdadırlar. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəmizin Dağlıq Qarabağ bölgəsində yaradılmış terrorçu rejim buna əyani sübutdur".

Sual və tapşırıqlar:

– Erməni müəlliflərinin (Z.Balayan, A.Lalayan və b.) kino rejissorlarının əsərlərindəki, ekstremist əhvali-ruhiyyəsinin təbliğ edilməsində himayədar dövlətlərin rolu nədən ibarətdir?

– Erməni terror təşkilatları və onların törətdikləri cinayət hadisələrini sadalayın.

– Azərbaycanlıların DQMV-dən deportasiya edilməsində A.Volskinin ermənipərəst siyasəti və ona dəstək olan himayədar ölkəsi haqqında nə bilirsiniz?

– Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları hansı məqsədləri güdürdülər?

– Xocalı soyqırımını törətməkdə erməni qəsbkarlarına hansı quldur dəstələri köməklik etmişdilər?

– Erməni təxribatçıları və bundan istifadə edən mərkəzin (Moskva) Bakıya və Azərbaycanın digər bölgələrinə qanunsuz hərbi birləşmələrinin yeridilməsinin səbəblərini və 1991-ci il 20 yanvar faciəsinin nəticələrini izah edin.

CƏNUBİ QAFQAZDA AZƏRBAYCANIN GEOSİYASİ MÖVQEYİ

Azərbaycan Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi, mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin qovuşduğu əhəmiyyətli bir geosiyasi, geoiqtisadi və geostrateji məkanda yerləşir. Bu amil regionda mövcud olan milli dövlətlər, regionun və dünyanın aparıcı dövlətləri arasında balanslaşdırılmış siyasət yürütməyi, kəsişən və üst-üstə düşən maraqları nəzərə almağı tələb edir. Əhəmiyyətli ərazi (məkan), geostrateji (təhlükəsizlik) və geoiqtisadi (karbohidrogen ehtiyatları və s.) üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasət kursumuzun və milli təhlükəsizliyimizin əsas vəzifələrindəndir.

Azərbaycan Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin, Avrasiyanın və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyət kəsb edən bir bölgəsində yerləşir. Odur ki, bir dövlət olaraq onun milli maraqları, milli təhlükəsizliyi region və qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz. Azərbaycanın, Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin və bütövlükdə Avrasiyanın təhlükəsizlik problemlərinə müxtəlif yanaşmalar, qlobal, regional və milli maraqlar, onlar arasındakı üst-üstə düşən və düşməyən məqamlar hazırda geniş müzakirə olunan mövzulardandır. Azərbaycanın təhlükəsizlik problemi, onun təmin olunması yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması və region dövlətlərinin təhlükəsizlik siyasəti ölkənin ictimai fikrini də ciddi düşündürməkdədir.

XX əsrin sonlarına doğru dünya inkişafında formalaşan qloballaşma meylləri beynəlxalq münasibətlər sisteminin və dünyanın siyasi quruluşunun dəyişikliklərə məruz qalmasına səbəb oldu. Dünyada gedən geosiyasi və iqtisadi proseslərdə qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq özünü daha qabarıq göstərməyə başladı.

Şərqi Avropada 1989-cu il hadisələri, kommunist sisteminin iflası sosialist blokunun və Varşava Paktının məhvi ilə nəticələndi. Ən mühüm qlobal hadisə isə SSRİ-nin süqutu oldu. Bununla "soyuq müharibə" erası faktiki olaraq başa çatdı. 25 dekabr 1991-ci il tarixdə SSRİ prezidenti M.Qorbaçovun televiziya ilə canlı efir zamanı Ali Baş

Komandanın səlahiyyətlərinin ləğv edilməsinə dair qərar (N УП-3162) imzalaması və 26 dekabr tarixdə qəbul edilmiş son qərarlar SSRİ-nin tam süqutunu, bununla da uzun illərdən bəri davam etmiş "soyuq müharibə"nin tamamilə başa çatdığını bir daha təsdiq etdi. Şərqlə Qərb arasında münasibətlərin yeni dövrü başlanmış oldu.

SSRİ-nin çökməsi nə qədər giper qlobal, yəni dünya əhəmiyyətli bir hadisə olsa da, özlüyündə dünyanın qloballaşmasına deyil, onun lokallaşmasına bir işarə idi.

"Soyuq müharibə" zamanı "böyük dövlətlər birliyi" kimi formalaşan kapitalizm və sosializm düşərgələrinin, yaxud həmin düşərgələrin başında duran ABŞ və SSRİ kimi fövqəl dövlətlərin ideoloji mücadiləsi daha çox qlobal xarakter daşıyırdı. İndi isə ideoloji mübarizənin bitməsi dünyanın daha kiçik qəlpələrə – milli mənzillərə ayrılmasına səbəb oldu. İki qütbdən birinin güc mərkəzi olaraq siyasi arenanı tərk etməsi isə heç də bir qütbün yeganə güc mərkəzi olaraq qalması ilə nəticələnmədi, əksinə nüfuz uğrunda mübarizə aparan və güc mərkəzinə çevrilməkdə olan bir neçə yeni qütb mərkəzləri meydana çıxdı. Böyük dövlətlərlə yanaşı, universal beynəlxalq təşkilatlar da nüfuz uğrunda mübarizəyə qoşuldular.

Hazırda dünyada gedən bütün siyasi proseslərə ABŞ daha çox təsir etmək potensialına malik olsa da, Avropa İttifaqı, Rusiya, İslam dünyası, Çin dövləti də bu proseslərdə həlledici rola malik olmağa iddialıdırlar.

Ümumiyyətlə, qloballaşma bu gün böyük ziddiyyətlərlə müşayiət olunur:

– bütün dövlətlər bir-birinə inteqrasiya edir, milli dövlətlərə maraq azalır, digər tərəfdən, milli və etnik azlıqların maraqları daha çox qabardılır;

– qloballaşma kiçik millətlərin böyük millətlərlə özü arasında eynilik axtarması və bir soy-kökə malik kiçik millətlərin birləşmə meylləri, digər tərəfdən xalqların və s. daha kiçik millətlərə ayrılmaq, öz fərdi mədəniyyətlərini qabartmaq və inkişaf etdirmək istəyi ön plana keçir;

– dövlətdaxili qayda-qanunlar, digər tərəfdən beynəlxalq münasibətlərə, dünya və Avropa standartlarına uyğunlaşma meylləri ön plana çəkilir.

Bu baxımdan yeniləşən dünyada bir sıra amillərin – milli dövlətlərin rolunun azalmasına, qeyri-dövlət faktorlarının artmasına və yeni beynəlxalq institutların yaranmasına baxmayaraq, süqut etmiş sosialist ölkələrində birgə yaşayan müxtəlif xalqlar da "öz müqəddəratlarını təyinetmə" hüququndan istifadə etməklə öz müstəqil dövlətlərini qurmaq imkanını əldən vermədilər. Eyni zamanda, qanunauyğun şəkildə müstəqillik əldə etmiş dövlətlərlə bərabər, digər ölkələrin ərazisi hesabına öz suveren dövlətlərini yaratmaq arzusunda olan bəzi kiçik millətlər və milli azlıqlar da dünyaya inteqrasiya prosesinə öz dövlətlərinə malik olaraq qoşulmaq və qloballaşan dünyada öz yerlərini bir dövlət olaraq tutmaq məqsədi güdməyə başladılar.

XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə 70 il ərzində Sovet hökumətinin yeritdiyi siyasət nəticəsində bütün dünyadan və öz milli maraqlarından ayrı düşmüş dövlətlər üçün də həm qlobal, həm də milli maraqlardan doğan inteqrasiya gücləndi və əməkdaşlıq üçün əlverişli şərait yarandı. Müstəqillik əldə etmiş yeni suveren dövlətlərin, o cümlədən Cənubi Qafqaz dövlətlərinin qarşısında yeni imkanlar açıldı. Bütün digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrilmiş həmin dövlətlər də öz aralarında, digər ölkələrlə və müxtəlif beynəlxalq institutlarla müstəqil əlaqələr qurmağa və müstəqil siyasət yürütməyə başladılar.

"Soyuq müharibə"nin bitməsi ilə hərbi-siyasi bloklar arasında bir sıra ziddiyyət və münaqişələr öz həllini tapsa da, digər yeni münaqişələr meydana çıxdı. Bu münaqişələrin çoxu milli zəmində yarandı. Ermənistan Respublikasının ərazi iddialarına əsaslanan məqsədyönlü xarici siyasəti nəticəsində və kənar qüvvələrin bilavasitə dəstəyi ilə suveren Azərbaycan Respublikasının tərkib hissəsi olan, azərbaycanlı və erməni əhalinin birgə yaşadığı Dağlıq Qarabağ ərazisində süni yaradılmış və postsovet məkanında mövcud münaqişələrin ən mürəkkəbi sayılan Ermənistan-Azərbaycan münaqişəsinə də milli don geyindirilirdi.

XX əsrin sonlarında SSRİ-nin süqutu ilə regionun nəzarətdən çıxması onu yenidən ABŞ, Rusiya, İran, Türkiyə və Qərbi Avropanın böyük dövlətlərinin uzunmüddətli maraqlarının toqquşduğu məkana çevirdi.

Qafqaz regionunun Xəzər bölgəsi həm iqtisadi, həm də strateji baxımdan dünya dövlətlərinin diqqətini daha çox cəlb edir. Fövqəl güclərin və böyük dövlətlərin hər biri Xəzərin neft və karbohidrogen ehtiyatlarına sahib olmaq və regionun enerji ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətini özü müəyyənləşdirməyə cəhd edir.

2002-ci ilin may ayında Moskva görüşü zamanı ABŞ və Rusiya prezidentləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını özlərinin ümumi maraq zonası elan ediblər.

Bununla da öz enerji tələbatını Xəzərin enerji ehtiyatları hesabına ödəyən ölkələri də öz təsir dairəsinə salmaq imkanı əldə edirdilər. Eyni zamanda Qərb postsovet məkanında hələ də nüfuz sahibi olan Rusiyanın mövqeyini zəiflətmək şansı qazanır. Digər bir səbəb isə İranın nüvə məsələsi ilə bağlıdır ki, bu məsələdə ABŞ-la Rusiyanın mövqelərində ciddi fərqlər qalmaqdadır.

2013-cü ildə Rusiya Federasiyasının Prezidenti V.Putin bu mövqeyi Yerevana rəsmi səfəri zamanı bir daha xüsusi olaraq vurğulamışdır.

Region dövləti və münaqişə tərəfi olaraq, Azərbaycan və Ermənistan öz mövqelərinə görə dünyada baş verən siyasi proseslər üçün müxtəlif səbəblərdən əhəmiyyətlidirlər.

Azərbaycanı daha maraqlı edən cəhətlərindən biri odur ki, Qafqaz məhz onun vasitəsilə türk dünyasının qovuşduğu bir məkana çevrilir. 1990-cı illərin əvvəllərində türkçülüyün Azərbaycan vasitəsilə Cənubi Qafqaza, buradan isə Şimali Qafqaza, Volqaboyuna, Mərkəzi Asiyaya, Altaya və s. yayılacağından ehtiyat edən Rusiya, İran və digər qüvvələr hansı yolla olursa olsun buna mane olmağa çalışırdılar. Ermənistan türkçülüyün yayılmasının qarşısını almaq üçün ən əlverişli vasitə idi.

SSRİ-nin mövcud olduğu son illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaradılmış münaqişə Cənubi Qafqaz regionunda öz mövqeyini möhkəmlətmək niyyəti olan hər bir dövlətin əlində bir vasitəyə çevrildi. Ermənistan-Azərbaycan münaqişəsinin regionun iki dövləti arasında baş verməsi onu daha da gərginləşdirərək həllinə mane olsa da, öz siyasi məqsədlərini həyata keçirmək istəyən böyük dövlətlərə ondan dünya siyasətində öz maraqlarına uyğun şəkildə istifadə etmək imkanı verir. Münaqişələrin mövcudluğu

regionu və ya münaqişə tərəfləri olan dövlətləri öz təsiri altına salmaq istəyən dövlətlər üçün geniş imkanlar açmaqla yanaşı, təhlükəsizliyə təhdid sayılır. Ermənistan-Azərbaycan münaqişəsi isə təkcə Cənubi Qafqaz regionu və qonşu dövlətlərin təhlükəsizliyinə təhdid deyil, həm də Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsi ilə Avropaya və ümumiyyətlə, dünyaya buradan nəql olunduğu üçün beynəlxalq təhlükəsizliyə və iqtisadi maraqlara qarşı yönəlmiş bir təhdiddir. Dövlətlər münaqişənin nizamlanması prosesində və regionun, o cümlədən boru kəmərləri ərazilərindən keçən ölkələrin təhlükəsizliyinin təmin edilməsində iştirak etməklə həmin ərazilərdə öz mövqelərini möhkəmlətməyə çalışırlar. Cənubi Qafqaz regionunun hər üç dövlətinə təsir etmək üçün münaqişələr mövcuddur. Ermənistan-Azərbaycan münaqişəsi regionun iki dövlətinə təsir etmək imkanı verir. Gürcüstanın da öz ərazisində münaqişələr mövcuddur.

Azərbaycanın tarixi ərazisi olan Yuxarı Qarabağ ətrafında Ermənistan və onun himayədarları tərəfindən yaradılmış gərginlik müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının dünyaya inteqrasiyasına və onun müstəqil daxili və xarici siyasət yürütməsinə ciddi problem yaradırdı.

Ümummilli lider H.Əliyevin 1993-cü ildə xalqımızın təkidi və tələbi ilə hakimiyyətə gəlməsi, onun möhtəşəm daxili və xarici siyasəti ölkəmizi bu vəziyyətdən qurtardı.

Belə ki, beynəlxalq təşkilatlarla və müstəqil dövlətlərlə geniş əməkdaşlıq etməklə dünya birliyinin tam hüquqlu üzvünə çevrilən Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və bunun nəticəsində yaranmış Dağlıq Qarabağ probleminə yönəldə bildi.

Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və respublikanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həlli Azərbaycanın xarici siyasət idarəsi qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə dair beynəlxalq birlik qarşısında öhdəlik götürdüyü üçün onun həlli yalnız Azərbaycandan asılı deyildir. Bu səbəbdən də Azərbaycan özünün beynəlxalq təşkilatlar və suveren dövlətlərlə qarşılıqlı münasibətlərində bir nömrəli problem sayılan Ermənistan-Azərbaycan münaqişəsini daim gündəlikdə saxlayır.

XX əsrin əvvəllərində xarici qüvvələrin böyük himayədarlığı ilə zor gücünə Azərbaycan ərazisi zəbt edilməklə yaradılan Ermənistan Respublikası tərəfindən yürüdülən terror siyasəti, beynəlxalq hüquqa zidd əməl nəticəsində 1988-ci ildən başlayaraq ölkəmizin əraziləri yenidən işğala məruz qalmışdır. Nəticədə torpaqlarımızın 20 faizi düşmən əlinə keçmişdir. Müstəqilliyimizin bərpasından sonra yəni, 1991-ci il oktyabrın 18-dən, xüsusilə H.Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu məsələ problem kimi beynəlxalq münasibətlərin və beynəlxalq hüququn müzakirə obyektinə çevrilmişdir. Həmin proses beynəlxalq münasibətlər çərçivəsində aşağıdakı istiqamətlərdə həyata keçirilməyə başlandı:

– Azərbaycanın beynəlxalq və regional inteqrasiya proseslərinə qoşulması;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair beynəlxalq səylər;

– Azərbaycanın "neft diplomatiyası" və onun nəticələrinin problemin həllinə mümkün təsiri:

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi; münaqişənin sülh yolu ilə həll edilməsində beynəlxalq təşkilatların rolu;

– ATƏT-in Minsk Prosesi;

– BMT çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli;

– İslam ölkələri konfransı təşkilatı ilə (İKT) Azərbaycan arasında əməkdaşlıq;

– Yaxın Şərq və Afrika region ölkələrinin beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanla əməkdaşlığı;

– Orta Şərq və Cənubi Asiya region ölkələrinin beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanla əməkdaşlığı və s. istiqamətləri misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatlar arasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra daxil olduğu ilk beynəlxalq qurum İslam Əməkdaşlıq Təşkilatı (İƏT), (İslam Konfransı Təşkilatı – İKT) olmuşdur. İƏT ilk gündən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Ermənistandan işğal etdiyi Azərbaycan ərazilərini boşaltmağı tələb edən qətnamələr qəbul etmiş və oxşar sənədlər təşkila-

tın müxtəlif toplantılarında bu gün də qəbul olunmaqdadır, yəni İƏT Baş katibliyi bu məsələdə Azərbaycan Respublikasına birmənalı şəkildə dəstək verən yeganə qurum olaraq qalır. İƏT tərəfindən Xocalı cinayəti soyqırımı kimi tanınmışdır.

Məsələyə bu günün reallıqları baxımından yanaşaraq, deyə bilərik ki, hazırki dövrdə də həmin problemin həlli istiqamətində səylər beynəlxalq münasibətlər və beynəlxalq hüquq müstəvisində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem yalnız Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmur, həm də keçən 25 ildən artıq bir dövrdə regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi həm Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə bütün dünyada həllini gözləyən ən çətin və mürəkkəb münaqişələrdən biri hesab olunur.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən məsələlərindən biri də malik olduğu təbii sərvətlərini, karbohidrogen ehtiyatlarını xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi daxili və xarici tərəfdaşlarla işləmək, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına yönəltməkdən ibarətdir.

Hər bir dövlət xarici müdaxilə olmadan öz daxili həyatını qurmaq və idarə etmək, daxili sabitliyi qorumaq, ölkənin strateji inkişafını, konstitusiya quruluşunu təmin etmək vəzifəsini həyata keçirir. Bu mənada mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan özü-

nün müəyyən etdiyi demokratik cəmiyyət, hüquqi və dünyəvi dövlət, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya xəttini reallaşdırmaq üçün regionun və dünyanın güc mərkəzləri ilə münasibətlərə dair xüsusi düşünülmüş, ardıcıl həyata keçirilən milli təhlükəsizlik konsepsiyasına malik olmalıdır. Bu konsepsiya dövlətin həm daxili, həm də xarici vəziyyətini və vəzifələrini, onu reallaşdırmanın əsaslı yollarını və vasitələrini dəqiq müəyyən edən milli proqrama əsaslanmalıdır.

Azərbaycanın regional təhlükəsizlik məsələsinə yanaşması birmənalıdır: Qafqaz regionunun müxtəlif güc blokları arasında bölünməsinin qarşısını almaq. Azərbaycan bu mövqeyini 1993-cü ildən başlayaraq ardıcıl şəkildə həyata keçirmiş, bölgə ölkələrinin ərazisində xarici orduların və hərbi bazaların yerləşdirilməsinin, Qafqazın hərbiləşdirilməsinin əleyhinə çıxış etmiş və öz mövqeyini 1999-cu ildə ATƏT-in İstanbul sammitinin yüksək tribunasından bəyan etmişdir. Tədbirdə iştirak edən Prezident H.Əliyev regionda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılması təşəbbüsü ilə də çıxış etmişdi. Bu təşəbbüsə görə, Təhlükəsizlik Paktını Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya, Türkiyə və ABŞ imzalamalı idi. Azərbaycanın bu təklifi Rusiya, Ermənistan və İranda müəyyən qədər narazılıqla qarşılandı. Regiondan kənar dövlət olan ABŞ-ın bölgədəki proseslərə müdaxiləsini yolverilməz hesab edən Rusiya və regional təhlükəsizlik sisteminin formalaşdırılmasından kənarda qalan İran bu təşəbbüsü birmənalı şəkildə qəbul etmədilər.

Azərbaycanın regional təhlükəsizliyə dair daha bir təşəbbüsü isə 4 il sonra – 2002-ci ildə diqqət mərkəzinə gəldi. Həmin ilin aprelində Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Trabzon razılaşması" imzalandı. Regionun enerji təhlükəsizliyi və müstəqilliyini təmin etmək üçün 3 ölkənin daxili işlər nazirlərinin imzaladığı bu sənəd terrorizm və aqressiv separatizmə qarşı mübarizədən tutmuş, çirkli pulların yuyulması və neft-qaz borularının birgə mühafizəsinədək kifayət qədər geniş bir spektri əhatə edirdi. Bu saziş, həm də regionun üç dövlətinin strateji tərəfdaşlığını rəsmiləşdirən sənəd hesab olunur. Qeyd edək ki, bundan əvvəl 1996-cı ildə Azərbaycan və Gürcüstan arasında "Trabzon razılaşmasına" oxşar "Tbilisi bəyannaməsi" adlanan sənəd imzalanmış

və bu sənəd bütün region ölkələrinin daxil olması üçün açıq elan edilmişdir. Lakin regionun heç də bütün dövlətləri Azərbaycanın təklif etdiyi bu tip təhlükəsizlik mexanizmini qəbul etmir. Burada söhbət ilk növbədə Rusiya və İrandan gedir.

Rusiyanın regional təhlükəsizlik siyasətinin kökündə Qərbin, ilk ABŞ-ın bölgədə mövqelərinin möhkəmlənməsinə yol verməmək üçün region ölkələrinin beynəlxalq təhlükəsizlik sisteminə çıxışını, Qərblə hərbi inteqrasiyasını, bu sahədə sərbəst siyasət yeritməsini əngəlləmək cəhdi dayanır. Lakin Rusiyanın bu planları regionda təmsil olunan yalnız 2 dövlət – İran və Ermənistan tərəfindən razılıqla qarşılanır. Bu isə Moskvanın bölgədəki siyasətinin effektli olması üçün kifayət etmir. Rusiyanın ənənəvi olaraq regionda təsir imkanlarını qoruyub saxlamaq üçün daxili münaqişələrə üstünlük verməsi, separatizmi dəstəkləməsi Azərbaycanla Gürcüstanı regiona yeni geosiyasi oyunçuları və güc mərkəzlərini cəlb etməyə sövq edir. Bu gün Qərbin regiondakı mövqelərinin möhkəmlənməsinin əsas səbəblərindən biri və birincisi də məhz budur.

Rusiya isə bölgəyə yeni güc mərkəzlərinin gəlişinin qarşısını almaq üçün Kollektiv Təhlükəsizlik Müqaviləsini (KTM) genişləndirmək kursunu tutub.

1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkə – Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın yaratdığı bu quruma sonradan Azərbaycan (24 sentyabr 1993-cü il), Gürcüstan (9 dekabr 1993-cü il) və Belarus (31 dekabr 1993-cü il) müşahidəçi qismində qoşuldular. Lakin KTM-nin prinsipləri və şərtləri Bakı və Tbilisini qane etmədiyindən, ilk iki ölkə təşkilata üzvlükdən imtina etdi və 1999-cu ildə müşahidəçi qismində iştirakı da dayandırdı. Eyni addımı Özbəkistan da atdı. Qeyd edək ki, əvvəllər daha çox deklarativ xarakter daşıyan Kollektiv Təhlükəsizlik Müqaviləsi 2003-cü ilin oktyabrından konkret hərbi-siyasi bloka çevrilib. Oktyabrın 7-də MDB-nin Kişinyov sammitində Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentləri Kollektiv Təhlükəsizlik Təşkilatının (KTT) yaradılması haqda müqaviləimzalayıb. Rusiyalı politoloqlar fəaliyyət göstərdiyi 25 il ərzində effektiv struktura çevrilə bilməmiş KTM-in KTT ilə əvəz olunmasını "Avrasiya hərbi-siyasi blokunun yaradılması" kimi təqdim edirlər.

Təbii ki, Cənubi Qafqaz ölkələrindən yalnız Ermənistanın bu blokda təmsil olunması Rusiyanın regional təhlükəsizlik siyasətini qeyri-effektli edir. Buna görə də, rəsmi Moskva Azərbaycanla Gürcüstanın da bu blokda təmsil olunmasına çalışır. Azərbaycanın bu təşkilata qoşulması üçün sonuncu cəhd 2004-cü ilin payızında, MDB dövlət başçılarının Astanada keçirilən sammitinə təsadüf edir. Lakin rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər özünün regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində dəyişiklik etməyə əsas olmadığını bildirərək, KTT-na qoşulmaqdan imtina edir.

Gürcüstan da bu hərbi-siyasi bloka üzv olmaq niyyətində olmadığını bildirərək, əksinə, öz ərazisindəki Rusiya hərbi bazalarının ölkədən çıxarılması tələbi ilə çıxış etmişdir. Bütün bunların müqabilində Kreml hər iki respublikaya qarşı açıq və dolayı təzyiqləri artırır. Əgər Gürcüstana yanaşmada bu təzyiqlər Abxaziya və Cənubi Osetiya separatçılarının 2008-ci ildə tanınması, Rusiya ilə faktiki olaraq ikitərəfli əlaqələr qurması şəklində öz əksini tapırsa, Azərbaycana qarşı təzyiqlər daha çox iqtisadi xarakterlidir. Təsadüfi deyil ki, sözügedən Astana sammitindən sonra Rusiya tərəfi Azərbaycanla sərhəddə nəzarət-keçid rejimini sərtləşdirdi, Azərbaycandan bu ölkəyə aparılan kənd təsərrüfatı mallarının sərhəddən buraxılmasını süni şəkildə əngəlləməyə başladı və s. Yalnız rəsmi Bakının diplomatik səyləri nəticəsində bu məhdudiyyətlər müəyyən qədər aradan götürüldü.

Azərbaycanın Kollektiv Təhlükəsizlik Təşkilatına qoşulması ölkənin geosiyasi maraqları ilə yanaşı, həm də işğalçı Ermənistanın bu qurumda təmsil olunması ilə bağlıdır. Üstəlik, sözügedən təşkilat Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün effektli mexanizmə malik deyildi. Çünki KTT yarandığı gündən üzv ölkələr bəyan edir ki, bu təşkilat daxili münaqişələrin həllinə yox, xaricdən yarana biləcək təhlükələrə qarşı tədbir görəcək. Belə olan halda Azərbaycanın bu quruma üzvlüyü ölkəmizə ciddi bir siyasi və ya hərbi divident vəd etmir. Əksinə, Qafqazda xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinə qarşı çıxan və tam neytral mövqe nümayiş etdirən, Qafqazın Sinqapur modelinə iddialı olan və bunu sübut etməkdə olan Azərbaycanın Qərblə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərə bilər.

Hadisələrin inkişafı da göstərir ki, regional təhlükəsizlik məsələsində Azərbaycan ən optimal variantı seçib. Belə ki, artıq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Kəmərinin işə salınması, Qərb kapitalının regiona axını və s. Rusiyanı özünün Qafqaz siyasətində ABŞ və Qərb faktoru ilə hesablaşmağa məcbur edir. Amma bununla belə, Rusiya regionda təhlükəsizlik problemlərinin həllində əsas və həlledici rol oynayır və bu rolu heç kimə güzəştə getmək fikrində deyil. Bölgədə münaqişə ocaqlarının hələ də mövcud olması, Cənubi Qafqaz və Orta Asiya ölkələrindən Rusiyaya kütləvi miqrasiyanın mövcudluğu, region ölkələri ilə vahid iqtisadi sistemin qorunub saxlanması və s. Moskvanın regiona təsir göstərmək imkanlarını xeyli artırır.

Ukrayna hadisələri fonunda Rusiyanın regional siyasətində müəyyən dəyişikliklər hiss olunmaqdadır. Qeyd edək ki, Rusiyada indiyədək dəfələrlə sınaqdan keçirilmiş "etnik münaqişələr" taktikasına yanaşmada dəyişikliklər hələ 1994-cü ildə Çeçenistan münaqişəsi alovlanan zaman hiss olunmağa başlayıb. Həmin il Rusiya Prezidenti B.Yeltsin Federasiya Şurasındakı çıxışında verdiyi "Rusiya sərhədləri yaxınlığındakı münaqişə ocaqları, MDB ölkələrindəki iqtisadi və dövlətçilik böhranları Rusiya üçün real təhlükədir" bəyanatı da bundan xəbər verir. Doğrudur, belə bir mövqe Rusiyaya 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən dərhal sonra Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanımağa mane olmamışdır.

Rusiyanın regional proseslərə və Qafqazın təhlükəsizlik probleminə yanaşması əsrlər boyu Kremldə formalaşmış siyasi strategiyadan kənara çıxmır. Rəsmi Moskva Cənubi Qafqazdakı prosesləri tarixi rəqibləri olan İran və Türkiyə, həmçinin yeni rəqibləri olan ABŞ və Avropa İttifaqının iştirakı olmadan təkbaşına həll etmək iddiasındadır. Təsadüfi deyil ki, Rusiya regional problemlərin "3+1"formulu, yəni üç *Cənubi Qafqaz ölkəsi* + *Rusiya formulu* əsasında həll etməyə çalışır. *"Qafqaz dördlüyü"*adlandırılan bu format daxilində indiyədək həm prezidentlər, həm təhlükəsizlik şurası sədrləri, həm dini liderlər səviyyəsində müxtəlif görüşlər və məsləhətləşmələr aparılmışdır. Amma bu birlik hələ ki, məsləhətləşmələr formatından kənara çıxa bilmir.

Bölgədə təhlükəsizlik problemlərinin həllinə mane olan əsas amillərdən biri Rusiyada Vaşinqtona və Qərbə münasibətdə birmənalı və də-

qiq kursun mövcud olmaması ilə bağlıdır. Moskvada ABŞ-ı beynəlxalq terrorizm, etnik münaqişə və müasir dini ekstremizm təhlükələrilə mübarizədə bərabərhüquqlu müttəfiq qismində görənlərlə bərabər, bölgədə hərbi-siyasi cəhətdən möhkəmlənməyə can atan və Ukrayna vasitəsilə Rusiyaya təzyiq göstərmək istəyən rəqib kimi baxanların sayı daha çoxdur. Bu isə geosiyasi mövqelərin qarşıdurmasını daha da gücləndirir. Özü də artıq burada Rusiya *(İran, Ermənistan)* – ABŞ *(Azərbaycan, Türkiyə, Gürcüstan)* bloklaşması da proqnozlaşdırılır. Son illərdə baş verən proseslər, Ukraynanın regiondakı proseslərə daha fəal müdaxilə etməsi isə Rusiya-İran-Ermənistan blokuna qarşı Qərbin dəstək verdiyi Türkiyə-Ukrayna-Azərbaycan-Gürcüstan blokunun formalaşmasını şərtləndirir. Bu gün Bakı-Tbilisi-Ceyhan layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin strateji müttəfiqliyini şərtləndirən əsas amillərdən birinə çevrilib. Bununla paralel olaraq, Kiyevin 2014-cü il Avromaydan hadisələrindən sonra ifrat ABŞ meylli mövqe tutması, Avropa bazarlarına çıxmaq uğrunda göstərdiyi səylər, Ukraynanın ifrat antirusiya mövqeyi, Krım və Donbas prosesləri Mərkəzi Avropa uğrunda Qərb mücadiləsinin hələ uzun müddət davam edəcəyindən də xəbər verir.

Ərazisi və əhalisinin sayına görə Avropanın böyük dövlətlərindən biri olan Ukrayna öz təhlükəsizlik siyasətinin prioritetini hələ 1998-ci ildə müəyyənləşdirib. Prezident L.Kuçmanın həmin ilin noyabrında təsdiq etdiyi Ukrayna-NATO əməkdaşlığına dair dövlət proqramında rəsmi Kiyev Şimali Atlantika Alyansını "Avropada kollektiv təhlükəsizliyin ən effektli strukturu" adlandırıb. Bu gün Ukraynada birmənalı şəkildə amerikapərəst hakimiyyətin formalaşdığını nəzərə alsaq, Kiyevin də Cənubi Qafqazdakı siyasətini Qərbin maraqları kontekstindən şərh etmək mümkündür.

Hazırda Ukrayna ilə ABŞ-ın əksər məsələlərə yanaşması eynidir. Regionda yeni geosiyasi vəziyyətin formalaşdırılması, Avropa təhlükəsizlik sisteminin A.Yasenyuk hökuməti hesabına Avropaya doğru genişləndirilməsi, Xəzər neftinin nəqli üçün istifadə olunan dəhlizlər və geosiyasi oriyentasiya məsələlərində Ukraynanın mövqeyi Qərblə üst-üstə düşür. Qərb ölkələri Rusiyanı bölgədən təcrid etmək üçün Ukraynaya təsirli vasitə və ciddi amil kimi yanaşır. Bu baxımdan, Ukraynanın Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə müdaxiləsi,

həm də Rusiyanın bu regiondakı ənənəvi təsirini zəiflətmək məqsədi güdür.

Rəsmi Moskva öz növbəsində Kiyevin Rusiyanın enerji daşıyıcılarından asılı olması, "Donbas və Luqansk Xalq Respublikaları" faktından bu ölkəyə kimi istifadə edir. Bu gün Ukraynanın Qafqazda və bütövlükdə Avrasiyada müstəqil geosiyasi faktor kimi çıxış etməsinə mane olan əsas amil də məhz onun Rusiyadan enerji asılılığı hesab olunur. Buna görə də Ukrayna bu asılılığı aradan qaldırmaq üçün Qafqaz və Mərkəzi Asiyada öz mövqelərini möhkəmləndirməyə çalışır və bu zaman əsas diqqət Azərbaycan, Gürcüstan və Qazaxıstana yönəlir.

Ukraynanın Cənubi Qafqazdakı maraqları, ilk növbədə, enerjinəqliyyat layihələri ilə bağlıdır. Bu layihələr, artıq qeyd edildiyi kimi, Ukraynanın əsrlər boyu birlikdə olduğu Rusiyadan enerji asılılığına son qoymaq üçün yeganə çıxış yolu hesab edilir. Ukraynanın Cənubi Qafqazda Rusiyaya qarşı alternativ kimi çıxış etməsi, ilk növbədə, rəsmi Moskvanın bölgədəki münaqişələrə yanaşmasından narazı olan Azərbaycan və Gürcüstan üçün cəlbedici görünür. Ukraynanın regional təhlükəsizlik məsələsinə yanaşması da birmənalı şəkildə bu dövlətlərin maraqlarına uyğundur. Çünki rəsmi Kiyev Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya münaqişələrinin bu dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

Ukrayna regiondakı münaqişə ocaqlarının söndürülməsi üçün ciddi səy göstərir. Bunun üçün rəsmi Kiyev GUAM daxilində müvafiq mexanizm yaradılmasının ardıcıl tərəfdarı kimi çıxış edir. Vaxtilə bu ideyanı da məhz Ukraynanın eks-prezidenti L.Kuçma irəli sürmüşdür. Onun fikrincə, yaradılacaq sülhməramlı qüvvələr münaqişəli zonalarda sülh yarada bilər. GUAM-a üzv olan 4 ölkədən 4-ü də daxili münaqişələrlə üzləşdiyinə görə, Ukraynanın bu təşəbbüsü Azərbaycan, Gürcüstan və Moldovada aktiv dəstəklənir və rəsmi Kiyevin bölgədə ciddi güc mərkəzinə və Qərbin müttəfiqinə çevrilmək perspektivini yaradır, lakin bu zaman rəsmi Kremlin beynəlxalq iqtisadi sanksiyalar fonunda əks zərbələri və Krım, habelə Cənub-Şərqdə separatist meyllər də diqqət mərkəzində saxlanılmalıdır.

Cənubi Qafqazdakı münaqişələr Ukraynanın da geosiyasi planlarına ciddi təhlükədir. Çünki Ukrayna üçün strateji əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri məhz Azərbaycan və Gürcüstan ərazisindən keçir. Ona görə də Kiyev bu ölkələrin ərazisində hərbi-siyasi sabitliyin bərqərar olmasında maraqlıdır. Hələlik Kiyevin bu münaqişələrin həllində vasitəçilik üçün real təsir mexanizmləri yoxdur. Səbəb isə münaqişə ocaqlarında separatçı qüvvələrin bu vasitəçiliyə mənfi yanaşmasıdır.

Ukrayna Türkiyə, Azərbaycan və Gürcüstanla hərbi və təhlükəsizlik sahəsində birgə əməkdaşlığın formalaşması üçün öz səylərini davam etdirir və Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulmayan bu ölkələrlə, o cümlədən NATO üzvü olan Türkiyə ilə təhlükəsizlik sahəsində əməkdaşlığa xüsusi önəm verir.

Hələlik rəsmi Kiyevin Cənubi Qafqazda ciddi geosiyasi oyunçu qismində çıxış etmək imkanı olmasa da, Qərb ölkələrinin verdiyi dəstək onun perspektivləri haqqında nikbin fikirlər söyləməyə əsas yaradır. İndiyədək region ölkələri tərəfindən Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşdırılmasına dair irəli sürülən təklif və sxemlərin heç birində Ukraynanın iştirakı nəzərdə tutulmayıb. Regionun hər bir ölkəsi Qafqazın təhlükəsizliyi ilə bağlı fərqli təklif və sxemlərlə çıxış edir. Hətta, regional proseslərə yanaşmada müəyyən ortaq mövqe nümayiş etdirən İranla Rusiyanın da təklifləri bir-birindən xeyli fərqlənir.

"Regiondan kənar qüvvələr"ə yanaşmadakı eynilik geostrateji maraqlarla yanaşı, həm də tarixi köklərə malikdir. Bugünkü müstəqil Azərbaycan dövləti Rusiya ilə İran arasında əsrlər boyu mövcud olan sərhədləri pozub və onların strateji maraqlarına maneçilik törədib. SSRİ dağılandan sonra artıq Rusiyanın İranla birbaşa quru sərhədi yoxdur və bu, iki ölkənin birgə geosiyasi planlarının reallaşmasını çətinləşdirir. Üstəlik, Qərbin Azərbaycanda möhkəmlənməsi, bu ərazidə İranla Rusiya arasında üçüncü qüvvənin yerləşdirilməsi deməkdir. Bu gün Tehranla Moskvanın regiona kənar qüvvələrin müdaxiləsinə qarşı ciddi müqavimət göstərməsinin kökündə də, əsasən, bu amil dayanır.

İranın bölgədə təhlükəsizlik problemlərinə öz tarixi yanaşması var və bu dövlətin mövqeyində yeni şəraitdə, 2015-ci il 15 iyun Vya-

nada altılıq ölkələri ilə İslam Respublikasının nüvə proqramı ilə bağlı razılaşması istisna edilməklə, Yaxın Şərq və konkret olaraq Suriya böhranında hər hansı bir dəyişiklik müşahidə olunmur. İran bölgədə qeyri-sabitliyin yaranmasını "regiondan kənar" qüvvələrin (ABŞ və Avropa İttifaqı) mövqelərinin möhkəmlənməsi kimi qəbul edir. Çünki istənilən münaqişə regiona kənar qüvvələrin müdaxiləsinə yol açır (Balkanlar buna sübutdur). Məhz buna görə, İran dəfələrlə istər Xəzər hövzəsindəki ölkələrə, istərsə də Cənubi Qafqaz respublikalarına bölgədəki təhlükəsizliyin qorunması üçün birgə kompleks tədbirlər təklif edib və "regiondan kənar" qüvvələrin proseslərə müdaxiləsini yolverilməz sayıb. Lakin bu mövqe rəsmi Tehrana özünün nüvə və raket proqramı ilə bağlı 2015-ci ilin iyununda Vyanada 6-lıq ölkələri ilə razılaşma sənədi imzalamağa mane olmadı.

İranın bununla bağlı ilk təşəbbüsü Cənubi Qafqazda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı olub. Bunun üçün rəsmi Tehran region ölkələrinə 3+2 formulu (üç Cənubi Qafqaz respublikası + Rusiya və İran) təklif edib. Bu sistem təhlükəsizlik və xarici siyasət sahəsində adıçəkilən ölkələrin səylərini birləşdirməsini, birgə əməkdaşlığını nəzərdə tuturdu. Maraqlıdır ki, 3+2 formulunu təklif etməklə regiondakı əsas geosiyasi oyunçulardan biri olan Türkiyəni bu sistemdən kənarda qoymağı düşünən İran yalnız öz tarixi rəqibini deyil, həm də Ankaranın üzvü olduğu NATO-nu və müttəfiqi olduğu ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini gizlətmirdi.

Tehranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Məsələn, rəsmi Bakı öz təhlükəsizlik problemlərini ikitərəfli və çoxtərəfli əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq formasında həll etməyə üstünlük verdiyini bildirdi.

Bundan sonra İran rəhbərliyi regional təhlükəsizlik sisteminə dair yeni formul – 3+3 sxemini irəli sürdü. Burada artıq söhbət 3 Cənubi Qafqaz respublikaları + Rusiya, İran, Türkiyə formulundan gedirdi. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun müttəfiqi və Tehranın əsrlər boyu regiondakı rəqibi olan Türkiyə ilə də əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi. Rəsmi Tehran bu sistem daxilində 6 dövlətin təhlükəsizlik şuralarının katibləri, parlament sədrləri, həmçinin iqtisadiyyat və maliyyə nazirləri səviyyə-

sində ayrı-ayrı görüşlərin keçirilməsini və ümumi baxışların formalaşdırılmasını təklif edirdi.

İranın regional təhlükəsizlik sisteminə dair daha bir təklifi 2003-cü ilin aprelində gündəmə gətirildi. O dövrdə İranın xarici işlər naziri Kamal Xərrazinin regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü yenə də bölgə dövlətlərinin dəstəyini qazanmadı.

Beləliklə, İran regiondakı geostrateji məqsədlərini aşağıdakı qaydada formalaşdırır:

– Kənar qüvvələrin (ABŞ və Avropa İttifaqı) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;

– Regional problemləri yalnız bölgədəki dövlətlərin birgə səyi ilə həll etmək;

– Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;

– Qərbyönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə quraraq, onlara təsir mexanizmlərini müəyyənləşdirmək;

– Geostrateji maraqları İranla üst-üstə düşən regional ölkələrlə əməkdaşlığı daha da möhkəmləndirmək.

İranın Cənubi Qafqazda yürütdüyü region dövlətləri ilə hərtərəfli əlaqələr yaradaraq onları təsir altında saxlamaq siyasəti Azərbaycanla münasibətlərinin timsalında açıq-aydın görünür. Son bir neçə il ərzində İranın Dağlıq Qarabağ probleminə yanaşmasında köklü dəyişiklik hiss olunur. İran bütün beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxır, ölkəmizin ərazi bütövlüyünü tanıdığını müxtəlif tribunalardan elan edir, uzun illər mübahisə obyekti olan Təbrizdə konsulluğun açılması məsələsinə razılıq verir və s.

Bu bir faktdır ki, İranın regiondakı geosiyasi duruma təsir göstərmək imkanı getdikcə azalır. Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması, bölgədəki bütün layihələrin Qərbin dəstəyi və iştirakı ilə həyata keçirilməsi, İranın bölgədəki proseslərdən təcrid olunması ilə nəticələnib. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ artıq prosesə start vermişdir. İranla sərhədyanı ölkələrin əksəriyyətində –

Türkiyə, Pakistan, Əfqanıstan və İraq, həmçinin Fars körfəzinin sahilyanı ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilib (2014-cü ildə ABŞ ordusu İraqı tərk etmişdir). Birləşmiş Ştatların hərbi iştirakı olmayan yeganə həmsərhəd dövlətlər Azərbaycanla Türkmənistandır. Bu amil Azərbaycanın İran üçün əhəmiyyətini daha da artırır. İraq müharibəsindən sonra Tehranın Bakı ilə münasibətlərə daha çox diqqət yetirməsi təsadüfi deyil. Siyasi ekspertlər hesab edir ki, hadisələrin bu istiqamətdə inkişaf edəcəyi təqdirdə, iki dövlət arasında həllini tapmayan Xəzərin statusu məsələsi ilə bağlı danışıqlar da müsbət sonluqla nəticələnə bilər. Ancaq istənilən halda, regional təhlükəsizlik məsələsinə yanaşmada Bakı ilə Tehran arasındakı prinsipial fikir ayrılıqları altılıq ölkələri ilə razılaşma imzalandıqdan sonra da qalmaqdadır.

Azərbaycanla yanaşı, bölgənin digər dövləti – Gürcüstan da regional təhlükəsizliyin təmin olunmasına "kənar qüvvələr"in – ATƏT, Avropa İttifaqı və NATO-nun cəlb edilməsinə tərəfdardır. Bu ölkədə 2003-cü ildə hakimiyyət dəyişikliyindən sonra rəsmi Tbilisinin birmənalı olaraq ABŞ meylli kurs tutduğunu nəzərə alsaq, Gürcüstan indi İranın 3+3 təklifini ümumiyyətlə, aktual saymır. Digər tərəfdən, Gürcüstanın qərbyönümlü siyasi kursu yalnız bu ölkədəki hakimiyyət dəyişikliyi ilə bağlı deyil. Əslində, bu siyasət hələ 1997-ci ildən başlayıb. Həmin il ölkə parlamenti Gürcüstanın suverenliyi və təhlükəsizliyinin, ərazi bütövlüyünün bərpası və sabitliyin möhkəmlənməsi konsepsiyasını qəbul edib. Sənədin əsasında ölkənin Avropa oriyentasiyası durur. Konsepsiyanın müəllifləri NATO-nun Avropada təhlükəsizliyin təmin olunmasındakı rolunu nəzərə alaraq, Şimali Atlantika Alyansının genişlənməsini Gürcüstanın milli maraqları baxımından təqdirəlayiq sayırlar. Sonrakı illərdə Gürcüstanın Qərblə, xüsusilə də ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlənib. NATO-nun assosiativ üzvü olan Gürcüstan, yalnız 1999-cu ildə NATO ilə əməkdaşlıq çərçivəsində onlarla tədbir, o cümlədən Rusiyanın narazılıqla qarşıladığı genişmiqyaslı hərbi-dəniz təlimləri keçirib, 2013-cü ildə isə ATƏT-in Vilnüs sammitində Aİ (Avropa İttifaqı) ilə assosiativ müqavilə və azad ticarət sazişi bağladı.

Gürcüstan bu gün regionumuzda Azərbaycanın ən yaxın strateji tərəfdaşlarından biri sayılır. Bakı ilə Tbilisi arasında strateji əmək-

daşlıq bir sıra obyektiv amillərlə bağlıdır. SSRİ dağılandan sonra hər iki ölkə eyni problemlərlə üzləşib – iqtisadi böhran, vətəndaş qarşıdurması və aqressiv separatizm təhlükəsi. Buna görə də hər iki ölkənin həm regionda, həm də beynəlxalq aləmdə eyni mövqedən çıxış etməsi təbiidir. Azərbaycanla Gürcüstanın xarici siyasi prioritetləri də eynidir:

– Dünya birliyinin aqressiv separatizm probleminə diqqətinin artırılmasına və dövlətlərin sərhəd toxunulmazlığı prinsipinin bərpasına nail olmaq;

– Müxtəlif güc mərkəzlərinin geosiyasi maraqlarının kəsişdiyi Qafqazda bütün maraqlı tərəflər üçün cəlbedici faktora çevrilmək, güc mərkəzlərinin geosiyasi ziddiyyətlərindən istifadə edərək öz dövlətini möhkəmləndirmək;

– Ərazilərdəki etnik münaqişələri dinc yolla həll etmək, ərazi bütövlüyünü bərpa etmək;

– Rusiyadan asılılığı azaltmaq üçün Qərbin siyasi və iqtisadi strukturlarına inteqrasiyaya üstünlük vermək;

– Neft və qaz yataqları ilə zəngin olan regionda əsas tranzit ölkəyə çevrilmək, birgə enerji və nəqliyyat layihələrində iştirak edərək Qərbə çıxış üçün alternativ yollar tapmaq və s.

Lakin məqsədlər eyni olsa da, ölkələrdəki şərait, ictimai-siyasi və iqtisadi vəziyyət fərqlidir. Azərbaycandan fərqli olaraq, Gürcüstan ciddi təbii resurslara malik deyil və Rusiyadan daha çox asılıdır. Bu isə Azərbaycanın Gürcüstan üçün strateji əhəmiyyətini bir qədər də artırır. Çünki yaranmış vəziyyətdə Gürcüstanın əsas ümidi ölkənin coğrafi vəziyyəti və transsərhəd imkanlarından maksimum bəhrələnməkdir ki, bu da Azərbaycanla əməkdaşlıq etmədən qeyri-mümkündür.

2005-ci ilin iyulunda Gürcüstan parlamenti ölkənin Milli Təhlükəsizlik Konsepsiyasını qəbul edib. Ölkənin milli maraqları, xarici siyasətin prioritetləri və digər dəyərləri əks etdirən sənədə görə, Gürcüstanın xarici siyasi tərəfdaşlığının prioritetləri aşağıdakı kimi qeyd olunub:

1. Strateji tərəfdaşlıq – ABŞ, Ukrayna, Türkiyə və Azərbaycan
2. Tərəfdaşlıq – Rusiya
3. Praqmatik əməkdaşlıq – Ermənistan

Konsepsiyadan da göründüyü kimi, Azərbaycan Gürcüstanın 4 əsas strateji tərəfdaşından biridir.

Bütün bunlar Bakı ilə Tbilisinin strateji tərəfdaşlığını şərtləndirən və iki ölkəni birləşdirən amillərdir. Ancaq bir sıra prinsipial fərqlər də var və bu, ilk növbədə, özünü xarici siyasi kursunda göstərir. Azərbaycan bölgədə marağı və nüfuzu olan bütün ölkələrlə dostluq və tərəfdaşlıq əlaqələri saxlamaqla bu prosesi ağrısız keçmək yolunu tutduğu halda, Gürcüstan rəhbərliyi yalnız Qərblə inteqrasiya kursunu dəstəkləyən dövlətlərlə əməkdaşlığa üstünlük verir. Birtərəfli siyasət yeridən Gürcüstan bölgədəki əsas güc mərkəzlərindən olan Rusiya ilə münasibətlərdə ciddi gərginlik yaşayır və bu, regionda təhlükəsizlik üçün ciddi problemlər yarada bilər. Çünki Gürcüstanın regional təhlükəsizlik proseslərində Rusiyanın kənarda qalmasına yönəlmiş siyasəti, nəticə etibarilə hər iki ölkə arasında münasibətləri daha da gərginləşdirir. Bu zaman isə Rusiyada məskunlaşmış yüz minlərlə gürcünün mümkün deportasiyası, Cənubi Osetiya və Abxaziyanın birdəfəlik itirilməsi, Cavaxetiyada isə potensial münaqişələrin daha da qabardılmasının şahidi ola bilərik.

Gürcüstandan fərqli olaraq, Rusiya ilə münasibətlərində problemi olmayan Ermənistan Cənubi Qafqazda formal təhlükəsizlik siyasəti yürüdür. Əslində, onun bütün məsələlərə yanaşması digər bölgə ölkələrindən geridə qalmamaq üçün təbliğat xarakteri daşıyan "müstəqil dövlət" imitasiyasından başqa bir şey deyil. Rusiyanın hərbi bazalarını öz ərazisində yerləşdirən, Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının tələblərindən çıxa bilməyən Ermənistanın müstəqil təhlükəsizlik siyasəti yürütməsi, sadəcə olaraq, mümkün deyil.

Rəsmi İrəvan ABŞ və Avropa İttifaqının regiondakı proseslərdə iştirakını məqbul saysa da, bu güc mərkəzlərinə regional dövlətlərlə eyni statusun verilməsinin əleyhinədir. İranın təklif etdiyi 3+3 formuluna cavab olaraq, rəsmi İrəvan alternativ təklif – "3+3+2" formulunu irəli sürüb. Bu təklif *üç Cənubi Qafqaz ölkəsi + Türkiyə, Rusiya, İran + ABŞ və Avropa İttifaqı"* sxemini nəzərdə tutur. Göründüyü kimi, bu sxemdə ABŞ və Avropa İttifaqı regiondakı dövlətlərlə eyni statusda yox, daha çox, köməkçi elementlər kimi göstərilib.

Ermənistanın bu mövqeyi izah olunandır. Artıq qeyd edildiyi kimi, bu ölkənin geosiyasi maraqları, təhlükəsizliyi və iqtisadi vəziyyəti yalnız bir dövlətdən – Rusiya Federasiyasından asılıdır. İki ölkə arasında hərbi, siyasi və iqtisadi əlaqələr kifayət qədər möhkəmdir. İndiyədək ölkələr arasında 160-dan çox beynəlxalq hüquqi sənəd imzalanıb. Bunların arasında bəziləri strateji əhəmiyyət daşıyır və Ermənistanın Rusiyadan tam asılılığını rəsmən təsdiqləyir. 1997-ci il avqustun 29-da imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqda" müqavilə, 2001-ci il sentyabrın 15-də imzalanmış "2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlığa dair" müqavilə, XXI əsrdə Rusiya ilə Ermənistan arasında müttəfiqliyə dair bəyannamə və digər sənədlər Ermənistanın Rusiyadan siyasi, hərbi və iqtisadi cəhətdən tam asılılığını sübuta yetirir.

Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji müttəfiqi (forpostu) hesab edir.

Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakını istisna edir və Rusiya ilə eyni mövqedən çıxış etməyə vadar edir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə zamini hesab edir. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə Rusiyanın inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, İran və Türkiyə ilə sərhədini də rus hərbiçiləri qoruyur. İki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsi 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsinlə Levon Ter-Petrosyanın imzaladığı Ermənistan ərazisindəki Rusiya Hərbi Qüvvələrinin hüquqi statusuna dair müqavilə ilə qoyulub. 1995-ci ilin martında isə prezidentlər Moskvada Ermənistan ərazisindəki hərbi bazaya dair 25 illik müqavilə imzalayıb. Sənəd Ermənistandakı 102-ci hərbi bazanın 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bundan başqa, Rusiya-Ermənistan birgə hərbi qruplaşması yaradılıb, Ermənistan MDB-nin havadan vahid müdafiə sisteminə qoşulub, Kollektiv Təhlükəsizlik Müqaviləsinin, Avrozesin və Vahid Gömrük Birliyinin fəal üzvüdür, Rusiya Ermənistana silah və hərbi texnikanı, qazı güzəştli qiymətlə satır və s. Bütün bu faktlar, xüsusilə 2015-ci il 24 noyabr tarixində Türkiyə səmasında Rusiyanın

"SU 24" qırıcısının vurulmasından sonra pisləşən Moskva-Ankara münasibətləri, regiondakı geosiyasi vəziyyəti ifrat dərəcədə gərginləşdirən, bölgədəki qüvvələr nisbətinin dəyişməsinə səbəb olan və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir.

Problemin həllinə mane olan digər amil Ermənistanın İranla münasibətləridir. Rusiya ilə Ermənistanın strateji müttəfiqliyini və Moskva-Tehran əlaqələrini nəzərə alsaq, söhbət artıq Rusiya-İran-Ermənistan xəttinin formalaşmasından gedir. Xarici ekspertlər hesab edirlər ki, bu gün artıq bu "üçlər" bloku de-fakto mövcuddur. Üstəlik, İran öz geosiyasi maraqları naminə irəli sürdüyü əsas prinsipdən – regiondan kənar dövlətlərin bölgədəki proseslərə müdaxiləsinin yolverilməzliyi prinsipindən də imtina etməyə və bu bloka daha bir üzv "qəbul etməyə" hazırdır. Buna bariz nümunə İranla Ermənistanın, Yunanıstanın regionda aktivləşməsinə yönəlmiş addımlarını göstərmək olar. 1997-ci ildə Afinada İran, Yunanıstan və Ermənistan arasında "Qarşılıqlı anlaşma və əməkdaşlıq haqda" memorandum imzalanıb. Düzdür, hələlik rəsmi Afinanın iqtisadi çətinliklər baxımından regionda aktivliyi hiss olunmur və sözügedən sənəd bölgədə qüvvələr nisbəti və geosiyasi vəziyyəti dəyişməyib. Üstəlik, son illər Yunanıstan-Türkiyə münasibətlərində gərginliyin nisbətən aradan qalxması da nəzərdən qaçmamalıdır. Amma hər halda, bu sənəd gələcəkdə yarana biləcək müəyyən tendensiyaların göstəricisi sayıla bilər.

Ötən il daha bir hadisə Yunanıstan-Türkiyə münasibətlərinə soyuqluq gətirdi. Belə ki, Afina məhkəməsinin 15 sentyabr 2017-ci ildə dövlət çevrilişində təqsirləndirilən fetoçuları Ankaraya verməməsi iki ölkə arasında münasibətləri bir az da gərginləşdirdi.

İran, Rusiya və Ermənistanın müttəfiqliyini şərtləndirən daha bir amil Türkiyə amilidir. Türkiyə ilə tarixi və strateji ədavəti olan hər üç dövlət Ankaranın bölgədə möhkəmlənməsinin qarşısını almaq üçün səylərini birləşdirir. Onlar Türkiyənin regiondakı türkdilli və qərbyönümlü xalqları öz ətrafında birləşdirəcəyi ehtimalından ehtiyatlanır və bu perspektivin onların regiondakı mövqelərinə ciddi zərbə ola biləcəyini dərk edirlər. Etiraf etmək lazımdır ki, Türkiyənin regional siyasətində bu faktor xüsusi çəkiyə malikdir. Bu gün doğrudan da Ankarada türkdilli xalqlar və demokratik inkişaf yolu tutmuş Xəzər-

Qara dəniz hövzəsi ölkələrinin iştirakı ilə yeni geosiyasi məkanın formalaşdırılması ideyası aktualdır. Elə Türkiyənin Xarici İşlər Nazirliyinin nəzdində bu proseslə məşğul olan xüsusi strukturun yaradılması da Ankarada bu ideyaya ən yüksək səviyyədə önəm verildiyini göstərir.

Ermənistana gəldikdə, dövlət siyasəti kimi qondarma "soyqırımı" iddiasından əl çəkməyən rəsmi İrəvan açıq şəkildə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür və bu dövlətə "tarixi düşmən" kimi yanaşır. Belə olan halda, Türkiyənin mövqelərinin möhkəmlənməsinə imkan verməmək niyyəti Rusiya, Yunanıstan və Ermənistanı eyni geosiyasi məkanın iştirakçısı olmağa vadar edir. Qafqaz, Orta Asiya və Xəzər hövzəsi regionunun ən qədim geosiyasi oyunçularından olan Türkiyə regiondakı mövqelərini günü-gündən möhkəmləndirməkdədir. Sovet İttifaqı dövründə bölgədəki prosesləri yalnız öz maraqları deyil, həm də NATO-nun mənafeyi baxımından uzlaşdıran Türkiyə, hazırda, xüsusilə 2002-ci ildə AKP partiyası siyasi hakimiyyətə gəldikdən sonra Şimali Atlantika Alyansının maraqlarının müdafiəçisi rolundan bir qədər uzaqlaşaraq, daha çox öz geosiyasi mənafelərinə diqqət yetirməyə başlamışdır. Qərbin təzyiqlərinə baxmayaraq, Türkiyənin hələ də Ermənistanla münasibətlər qurmaması da bu müstəqil siyasətin göstəricisidir. Bununla yanaşı, ABŞ-ın Cənubi Qafqaz, Xəzər və Orta Asiyada aktivləşməsi və bölgədə hərbi iştiraka nail olması Türkiyənin strateji maraqlarına tam cavab verir. Çünki Ankara Birləşmiş Ştatların bu geosiyasi məkandakı maraqlarının reallaşması yolunda əsas müttəfiq roluna iddialıdır. Düzdür, Qərbdə Türkiyəyə münasibət birmənalı deyil. Amma bu ölkənin mühüm dəniz yollarına nəzarət etməsi, Rusiyanın Qafqazdakı təsirini xeyli azaltması və radikal islam fundamentalizminin (xüsusilə İŞİD) qarşısında sipər rolunu oynaması Ankaranın Qərb üçün əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir. Politoloq Zbiqnev Bjezinski açıq şəkildə bildirir ki, bu gün Türkiyə Rusiyanın cənub sərhədlərində Almaniyanın ABŞ üçün vaxtilə Orta və Şərqi Avropada oynadığı rolu oynamalıdır (3).

Türkiyə-Suriya sərhədində Rusiyaya məxsus təyyarənin vurulması, Rusiyanın Ankaradakı səfiri A.Karlovun öldürülməsi Rusiya-Türkiyə münasibətlərini zədələsə də, sonradan münasibətlər bərpa olundu.

Politoloq Türkiyənin regionda önəmini qısa olaraq aşağıdakı amillərlə əsaslandırır:

– Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;

– Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;

– Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;

– İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;

– NATO-nun cənubdakı əsas dayağıdır və s.

Sonuncu məqam – NATO faktoru Türkiyə üçün, xüsusilə 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra daha vacib təsir mexanizminə çevrilmişdir. Rəsmi Ankara bu alyans daxilindəki rolunu artırmağa çalışır və bunun, avtomatik olaraq Türkiyənin regiondakı nüfuzunun artmasına da təsir göstərəcəyini anlayır. Məsələn, bir neçə il əvvəl Türkiyə rəhbərliyi İstanbulda NATO-nun Çevik Qüvvələr Qərargahının yaradılması təşəbbüsü ilə çıxış edib. Rəsmi Ankara Balkanlar, Qafqaz və Orta Asiya kimi geostrateji məkanı yeni yaradılacaq qərargahın təsir zonasına daxil etməyi təklif edib.

Bu gün Türkiyə ABŞ-ın Qafqazdakı mövqelərinin möhkəmlənməsində də mühüm rol oynayır. Vaşinqton təhlükəsizlik və enerji sahəsində öz regional siyasətini məhz Türkiyə vasitəsilə həyata keçirir. Məsələn, ABŞ-ın regiondakı bütün hərbi və enerji layihələri birbaşa Ankaranın iştirakı ilə gerçəkləşib. Bu gün Gürcüstan silahlı qüvvələri, əsasən, Türkiyənin yardımı əsasında formalaşdırılır. Amma təbii ki, Türkiyənin bölgədəki geosiyasi perspektivi birbaşa Azərbaycanla bağlıdır. Ümummilli lider Heydər Əliyevin "bir millət – iki dövlət" adlandırdığı Azərbaycanla Türkiyə bu gün bütün məsələlərdə ən sadiq müttəfiq və tərəfdaşdırlar.

Bu iki dövlət bölgədə birgə iqtisadi, enerji və nəqliyyat layihələri reallaşdırır, beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Ərzurum, TRASEKA layihəsi, Qars-Tbilisi-Bakı dəmiryolu və digər layihələr Türkiyənin bölgədəki mövqelərini xeyli möhkəmləndirib. Çünki bu qlobal layihələrin hamısında Türkiyə mühüm tranzit ölkə funksiyasını yerinə yetirir. Bu isə əslində regionda aparıcı dövlət statusu qazanmaq deməkdir.

Türkiyənin Qafqazda və Xəzər-Qara dəniz hövzəsində əsas müttəfiqi Azərbaycan olsa da, Qafqazda möhkəmlənmək üçün onun

Gürcüstanla münasibətləri də xüsusi önəm kəsb edir. Birbaşa Azərbaycanla sərhədi olmayan (təcrid edilmiş Naxçıvan istisna olmaqla) Türkiyə yalnız Gürcüstan vasitəsilə Qafqaza daxil olmaq imkanına malikdir.

Türkiyə region ölkələri ilə iqtisadi-ticarət baxımından, Rusiyanı sıxışdırmağı bacarsa da, Ermənistanla münasibətlərdəki problemlər və Dağlıq Qarabağ münaqişəsi, İŞİD və PKK problemləri Ankaraya regiona nəzarət uğrunda açıq və ciddi mübarizə aparmağa imkan vermir. 24 noyabr 2015-ci il tarixində türk səmasında rus SU-24 qırıcısının vurulmasından sonra isə pozulmuş rus-türk münasibətləri Dağlıq Qarabağ münaqişəsinin siyasi tənzimlənməsi istiqamətində Ankaranın fəaliyyətini bir qədər də məhdudlaşdırır.

Türkiyənin Cənubi Qafqazın üç ölkəsindən biri ilə diplomatik, iqtisadi və siyasi əlaqələrə malik olmaması onun ümumilikdə regionda manevr imkanlarını məhdudlaşdırsa da, sonradan münasibətlər tənzimlənmişdir. Ermənistanla diplomatik əlaqələr qurmaq və Kəlbəcərin 1993-cü ildə işğalından sonra sərhədləri açmaqdan imtina edən Türkiyə Avropa İttifaqının da iradları ilə üzləşir. Bütün bunları nəzərə alaraq söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və bunun əsasında Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan əlaqələrinin qurulması Türkiyənin Cənubi Qafqazda və Avropadakı mövqelərini xeyli gücləndirəcək amillər sırasındadır.

Beləliklə, bu gün Qafqaz müxtəlif hərbi, siyasi və təhlükəsizlik maraqlarını və güc mərkəzlərini özünə cəlb edən strateji məkana çevrilib. Regionun geosiyasi perspektivləri və bölgədəki ölkələrin inkişaf səviyyəsi, ilk növbədə, regional təhlükəsizlik probleminin həllindən və bölgədəki sabitlikdən asılıdır. Bu mənada, Qafqazdakı münaqişə ocaqları bütün regionun inkişafı yolunda bir əngəldir.

Bu gün Qafqazdakı postsovet ölkələrinin dördü də etnik separatizm zəminində daxili münaqişələrə cəlb olunub. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Şimali Qafqaz münaqişələri regiondakı nisbi sabitliyi hər an poza biləcək faktorlara çevrilib. Ona görə müasir dünyada, Avropada və bölgədə son zamanlar daha təkidlə Qafqazın Regional Təhlükəsizlik Sisteminin prinsiplərinin müəyyən edilməsi və yaradılmasına dair təkliflər səslənir.

Bu prosesdə yalnız region ölkələri deyil, bölgədə marağı olan güc mərkəzləri də yaxından iştirak edirlər. Çünki Qafqazda sülh və

sabitlik yalnız region ölkələrinin marağı və bu ərazinin tarixi geostrateji əhəmiyyəti ilə deyil, həm də regiondan keçən enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyi baxımından zəruridir. Bir də nəzərə almaq lazımdır ki, Cənubi Qafqazda "oyun qaydaları"nı, ilk növbədə, region dövlətləri yox, beynəlxalq güc mərkəzləri təyin edirlər.

Bir sıra ekspertlər hesab edirlər ki, ümumiyyətlə, beynəlxalq birliyin, Qərbin diqqətinin daha çox başqa problemlərə, Ukrayna ilə yanaşı, Yaxın Şərq məsələlərinə (İŞİD, İraq, Suriya və s.) yönəlməsi Qarabağ problematikasını qeyri-müəyyən müddətə arxa, bəlkə də uzaq plana itələyir...

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Siyasi Məsələlərə dair Komitəsinin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Volter martın 12-13-də Azərbaycanda səfərdə oldu. Səfər çərçivəsində onun Azərbaycan prezidenti, Milli Məclisin sədri, xarici işlər, ədliyyə, müdafiə nazirləri ilə görüşləri baş tutmuş, R.Volterin eyni zamanda, qaçqın və məcburi köçkünlər, eləcə də vətəndaş cəmiyyəti təmsilçiləri ilə görüşləri oldu. R.Volter səfərinin yekunları əsasında Dağlıq Qarabağ münaqişəsinə dair hesabat hazırlandı.

Bu müddətdə Azərbaycanın işğal altındakı torpaqlarından bir qarış belə azad edilməyib. Bunun da əsas səbəbi vasitəçi dövlətlərin işğala məruz qalan tərəflə işğalçıya eyni gözlə baxması, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair məlum qətnamələrini qulaqardı eləməsidir.

ATƏT-dən fərqli olaraq AŞPA-nın erməni işğalı ilə bağlı xüsusi qətnaməsi var. Qətnamədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmaq tələb edilir. Amma AŞPA da Rusiya kimi, Ermənistana qarşı da işğalçı dövlət olaraq sanksiyaların tətbiqi (səsvermə hüququndan məhrumetmə və s.) məsələsini indiyədək gündəmə gətirməyib.

Avropa Birliyi müasir dünyada qüvvələrin geosiyasi durumuna böyük təsir göstərən əsas faktorlardan biridir. Avropa Birliyi (digər adları – Avrobirlik, AB, Avropa İttifaqı, Aİ) 27 Avropa dövlətini birləşdirən iqtisadi və siyasi birlikdir. Regional inteqrasiyaya yönəlmiş bu ittifaq "Maastrix müqaviləsi" ilə 1993-cü ildə Avropa Birliyi prinsipləri əsasında qurulmuşdur.

Beş yüz milyon sakini olan Avropa Birliyinin payı 2009-cu ildə dünya ümumdaxili məhsulda nominal üzrə 28% və alıcılıq qabiliyyəti

pariteti üzrə 21% təşkil edirdi. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, Avropa Birliyinin iqtisadiyyatı təkcə 2009-cu ildə alıcılıq qabiliyyəti pariteti üzrə 16,523 trln ABŞ dolları məbləğində dünya ümumdaxili məhsulu istehsal etmişdir. Mahiyyətcə Avropa Birliyi vahid bir bazar təşkil edir və Ümumdünya Ticarət Təşkilatında (ÜTT) vahid qurum qismində təqdim olunur.

Bu faktı da qeyd etmək lazımdır ki, Avropa Birliyi ənənəvi beynəlxalq dövlətlərarası təşkilat anlayışı çərçivəsini aşan mürəkkəb universal-regional inteqrasiya birliyidir. Bəzi hüquqşünas alimlər hesab edirlər ki, Avropa Birliyində eyni zamanda həm beynəlxalq təşkilatın, həm konfederasiyanın, həm də federasiyanın elementlərini görmək olar.

Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında münasibətlərin hüquqi əsasını tərəfdaşlıq və əməkdaşlıq sazişi (TƏS) qoymuşdur. Bu sənəd 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə minmişdir.

TƏS əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında münasibətlərə yeni təkan vermişdir. Azərbaycan Respublikasını Avropa "Qonşuluq Siyasəti"nə (AQS) daxil etmək haqqında Avropa Birliyi Şurasının 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli əməkdaşlıqda irəliyə doğru mühüm addım olmuşdur. Avropa Birliyi ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur.

AQS Strategiya Sənədinə əsasən, Avropa Birliyinin tərəfdaş ölkələrlə münasibətlərini yaxın gələcək üçün tənzimləyən əsas sənəd Fəaliyyət Planıdır. 3-5 illik müddət üçün nəzərdə tutulan bu sənəd hər bir ölkənin ehtiyac və imkanları, o cümlədən qarşılıqlı dəyər və maraqları nəzərə alınaraq hazırlanmışdır.

Azərbaycan Respublikası – Avropa Birliyi Fəaliyət Planı 14 noyabr 2006-cı il tarixində Brüsseldə Azərbaycan Respublikası – Avropa Birliyi Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. Beləliklə, daha əvvəl TƏS ilə tənzimlənən Azərbaycan Respublikası – Avropa Birliyi münasibətlərinin gələcək inkişafının istiqamətləri

AQS çərçivəsində Azərbaycan Respublikası – Avropa Birliyi Fəaliyyət Planı ilə müəyyən olunmuşdur. Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında əməkdaşlığın əsas istiqamətlərindən birini enerji dialoqu təşkil edir. 1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Avropa Birliyi Azərbaycan iqtisadiyyatına yardım göstərən əsas donorlardan biri olmuşdur. Bu müddət ərzində Avropa Birliyi ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TASİS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRASEKA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (İNOGATE), "humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir.

2007-ci ilin 1 yanvar tarixindən etibarən TASİS proqramı "Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA)" ilə əvəz olunmuşdur. Daha geniş mandat və əhatə dairəsinə malik olan AQTA AQS Fəaliyyət Planının həyata keçirilməsi üçün əsas maliyyə alətidir. AQTA çərçivəsində 2007-2013-cü illər üçün nəzərdə tutulmuş "Azərbaycan üzrə Strategiya Sənədi Avropa Birliyinin yardım məqsədlərini və siyasət məsuliyyətini əks etdirərək prioritet olan əməkdaşlıq sahələrini dəqiqləşdirir. Bu prioritetlər Azərbaycanın bazar iqtisadiyyatına və demokratik idarəetmənin təşviqinə yardım, fəaliyyət planının həyata keçirilməsi və təhlükəsizlik məsələlərini əhatə edir.

"Yeni İpək Yolu" adlandırılan TRASEKA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən bir proqramdır. TRASEKA (Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi) Brüsseldə 3 may 1993-cü il tarixində keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi, iqtisadi müstəqilliyini dəstəkləməklə, onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya, əks istiqamətdən ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. 8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan prezidentlərinin təşəbbüsü və Avropa Birliyinin TRASEKA proqramının dəstəyi ilə "Tarixi İpək Yolunun bərpası" adlı Beynəlxalq Konfrans keçirildi. 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri bu konfransda iştirak etdi. Konf-

ransın ən mühüm nailiyyəti "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş" (Əsas Saziş) və onun Texniki Əlavələri oldu.

İNOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Avropa Birliyinin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan Respublikası da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi İNOGATE-nin hüquqi bünövrəsini təşkil edir. İNOGATE çərçivəsində həyata keçirilən texniki əməkdaşlığa əlavə olaraq, Avropa Birliyi zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin enerji təminatının və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətində AQS-yə daxil olan ölkələr bütün maraqlı partnyorların dəstəyi ilə enerji əməkdaşlığı prosesini genişləndirmək barədə yekdil qərar qəbul etmişlər.

Bu əməkdaşlıq "Bakı Prosesi" təşəbbüsü ilə güclənmişdir. "Bakı Prosesi" (və ya Bakı Təşəbbüsü) 13 noyabr 2004-cü ildə Bakıda enerji nazirliklərinin Konfransında Avropa Birliyi, Qara Dəniz və Xəzər dənizi hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başlamışdır.

Avropa Birliyi tərəfindən Şərq Tərəfdaşlığı (Şərqi Partnyorluq) layihəsi yaradılması xüsusilə qeyd edilməlidir. Bu layihə 26 may 2008-ci ildə ümumi məsələlər və xarici əlaqələr üzrə Avropa Birliyinin Şurasında İsveçin iştirakı ilə Polşanın xarici işlər naziri tərəfindən irəli sürülmüşdür, yəni Şərq Tərəfdaşlığı proqramının təşəbbüskarları qismində Polşa və İsveç çıxış edirdilər. 2008-ci ilin iyun ayında Brüsseldə 2 günlük görüş zamanı Avropa Birliyinə üzv olan 27 ölkənin liderləri Şərq Tərəfdaşlığı layihəsini bəyəndilər. Şərqi AQS ölkələri üçün vahid formatın təsis edilməsini nəzərdə tutan sözügedən təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarusu əhatə edir. 2008-ci il 3 dekabr tarixində Şərq Partnyorluq təşəbbüsü üzrə Məlumat Sənədi və onu müşayiət edən İşçi Sənəd AK (Avropa Komissiyası) tərəfindən Avropa Parlamentinə və Avropa Birliyinin dövlət və hökumət Başçılarının Şurasına təqdim olunmuşdur. Bu iki sənəd Şərqi Partnyorluğa dair Avropa Komissiyasının mövqe-

yini və təkliflərini əks etdirərək, AQS çərçivəsində Avropa Birliyinin Şərq tərəfdaş ölkələri ilə gələcək əməkdaşlıq istiqamətlərini müəyyən etmişdir.

2009-cu ilin 7 may tarixində Çexiyanın paytaxtı Praqada "Şərq tərəfdaşlığı" proqramı üzrə zirvə görüşü keçirilmişdir. Bu görüşdə sözügedən təşəbbüsün əsas məqsədləri və prinsipləri, həmçinin gələcək əməkdaşlıq prosesinin ümumi cizgilərini müəyyən edən Avropa Birliyinə üzv olan 27 dövlət və bu proqrama qoşulmuş altı ölkə tərəfindən imzalanmış birgə bəyannamə qəbul edilmiş və bununla da ŞP-yə (Şərq Partnyorluğu) yüksək rəsmi səviyyədə başlanğıc verilmişdir. Bu layihənin əsas məqsədi – Avropa Birliyinin keçmiş SSRİ-nin 6 ölkəsi – Azərbaycan, Ukrayna, Gürcüstan, Moldova, Ermənistan və Belarus ilə yaxınlaşmaqdır.

Şərq tərəfdaşlığı layihəsi Avropa Birliyi və Şərq tərəfdaş ölkələri arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tutur. Belə ki, Avropa Birliyi və hər bir tərəfdaş ölkə arasında daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri əvəzinə yeni, Assosiasiya Sazişlərinin imzalanması, tərəfdaş ölkənin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olduğu təqdirdə, onunla dərin və müfəssəl azad ticarət zonasının yaradılması, həmçinin vizaların tədricən liberallaşdırılması, tərəfdaş ölkələrin və Avropa Birliyinin enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha dərin əməkdaşlığın həyata keçirilməsi və s. planlaşdırılır. Şərq Partnyorluğu, həmçinin Avropa Birliyi və Şərq tərəfdaş ölkələri arasında münasibətlərə yeni format əlavə etmişdir. Çoxtərəfli format tərəfdaş ölkələr arasında əlaqələri təşviq edərək, islahatlar sahəsində tərəfdaş ölkələrin həyata keçirdikləri tədbirlər üzrə məlumat və təcrübə mübadiləsinin və Şərq tərəfdaşlığının gələcək inkişafına dair müzakirələrin aparılması üçün forum kimi nəzərdə tutulur. Bu format çərçivəsində ŞP-yə daxil olan ölkələrin dövlət və hökumət başçılarının hər iki ildən bir görüşünün, hər il Avropa Birliyinə üzv dövlətlərinin və Şərq tərəfdaş ölkələrinin xarici işlər nazirlərinin illik iclasının keçirilməsi nəzərdə tutulur. Əməkdaşlığın əsas sahələrinə uyğun olaraq dörd tematik platforma (demokratiya, yaxşı idarəçilik və

sabitlik; iqtisadi inteqrasiya və Avropa Birliyi siyasətlərinə yaxınlaşma; enerji təhlükəsizliyi; insanlar arasında təmaslar) yaradılmışdır. Ümumiyyətlə, Şərq tərəfdaşlığı ona qoşulmuş dövlətlərin Avropaya inteqrasiya olunmasına və islahatlar aparmasına kömək etməlidir. O cümlədən bu sənəddə viza rejiminin sadələşdirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsi təklif olunub. "Şərq Partnyorluğu" layihəsi ümumi maraqlar və qəbul edilən dəyərlər üzərində qurulub. Məhz bu dəyərlər Avropa Birliyi ilə uzunmüddətli münasibətlər və əməkdaşlıq üçün çərçivələrdir. Bütövlükdə isə "Şərq Partnyorluğu" layihəsi ona qoşulmuş ölkələrin siyasi, iqtisadi və sosial sahələrdə Avropa Birliyinin standartlarına yaxınlaşdırılmasına, onların daha mobil olmasına, onların ticarətin dövriyyəsinin artmasına və son olaraq xalqın rifahının daha da yaxşılaşdırılmasına xidmət etməlidir. Faktiki olaraq, Avropa Birliyi tərəfindən tərtib və qəbul olunmuş Şərq Partnyorluğu proqramı 6 postsovet ölkəsinin Avropa Birliyinə tədricən inteqrasiya olunmasını nəzərdə tutur. Faktiki olaraq, Şərq Partnyorluğu proqramı bu ölkələrin Avropa Birliyinə qəbul etmədən həmin təşkilatla siyasi və iqtisadi sahələrdə daha sıx tərəfdaşlığını nəzərdə tutur. Lakin bir daha qeyd etmək yerinə düşər ki, bu prosesdə rəsmi Bakının mövqeyi rəsmi Moskvanı özündən uzaqlaşdırmamağa və onun maraqlarını da nəzərə almağa istiqamətlənmişdir.

Şərq tərəfdaşlığı çərçivəsində Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın nümunəsi kimi Azərbaycan hökuməti və Avropa Birliyinin "Hərtərəfli institusional quruluş" proqramına fəal hazırlığına başlanmasını göstərmək olar. Şərq Partnyorluğu təşəbbüsünün nəticəsi olan Avropa Birliyi tərəfindən maliyyələşdirilən bu proqram artıq həyata keçmişdir. Proqramın məqsədi gələcəkdə planlaşdırılan Avropa Birliyi və Azərbaycan Respublikası arasında assosiasiya haqqında sazişə dair danışıqların aparılması və həm də bunun yerinə yetirilməsi üçün müvafiq hökumət strukturlarının möhkəmləndirilməsidir. Avropa Birliyi ölkələrinin xarici işlər nazirləri 14 sentyabr 2010-cu ildə Avrokomissiyaya Avropa Birliyinin Azərbaycanla, Gürcüstanla və Ermənistanla assosiasiyası haqqında ikitərəfli sazişlərin bağlanmasına dair danışıqlara mandat verdilər. Assosiasiya haqqında Saziş, Avropa Birliyi və Cənubi Qafqaz ölkələri arasında münasibətlərdə ikitərəfli əməliyyat planlarını əvəz edəcək yeni

praktiki alətdir. Artıq "Şərq Partnyorluğu" proqramı çərçivəsində Avropa Birliyi Assosiasiya sazişləri haqqında Gürcüstanla (daha öncə), Azərbaycanla (daha sonra, 2010-cu ilin iyul ayının 16-da) və Ermənistanla (2010-cu ilin iyul ayının 19-da) rəsmi danışıqlara başlamışdır. Avropa Birliyinin xarici əlaqələr üzrə komissarı Benita Ferrero-Valdnerin mətbuat katibi xanım Kristian Xomanın sözlərinə görə: "Avropa Birliyi ilə assosiasiya haqqında Sazişin daha tez bir zamanda imzalanması Cənubi Qafqaz ölkələrinin hər birinin özündən asılı olacaqdır. Hər bir dövlət ilə Saziş fərqlidir və bir-birindən asılı deyil. Hər bir dövlətlə danışıqlar fərqli surətlə aparılacaq və hər şey hər bir dövlətdə olan vəziyyətdən asılı olacaqdır. Buna müvafiq olaraq, danışıqlar müxtəlif vaxtda yekunlaşa bilər. Bu, həm də dövlətin islahatlar aparmasından və ya əvvəlki tək hazırlıq mərhələsində qalmasından asılıdır. Bu sazişlər hər bir ölkənin inkişafının səviyyəsinə uyğun bağlanmalıdır. Azərbaycanda, Gürcüstanda və Ermənistanda inkişafın səviyyəsi eyni deyil. Bu dövlətlərdən bəziləri "daha irəli gedib", digərləri isə "daha çox işləməli olacaqlar". Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyi ilə azad ticarət haqqında sazişin imzalanması üçün ÜTT üzv olunması şərti zəruridir. Gürcüstan 14 iyun 2000-ci il, Ermənistan isə 05 fevral 2003-cü ildən ÜTT üzvüdür. Azərbaycan 1997-ci ildən ÜTT-də müşahidəçidir və bu təşkilata üzv olunması üçün fəal danışıqlar aparır, lakin bu təşkilatla rəsmi Bakının Azərbaycanın milli maraqları baxımından uzlaşmayan və fərqli maraqları da mövcuddur.

Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında həlledici rolu Avropa Birliyi oynamalıdır. Avropa Birliyinin əsas orqanlarından biri olan Avropa Parlamenti Bolqarıstandan olan deputat Yevqeniy Kirilovun məruzəsinə əsasən, 20 may 2010-cu ildə 2216 saylı "Cənubi Qafqazda Avropa Birliyi strategiyasının tərtib edilməsi zərurəti haqqında" qətnamə qəbul etmişdir. Bu qətnamə çoxqütblü dünyada əsas təsir mərkəzlərindən biri olan çox nüfuzlu Avropa siyasi strukturun mövqeyini əks etdirir. Bu qətnamədə Dağlıq Qarabağ probleminə ayrıca bir bölmə həsr edilib. Avropa Parlamenti öz qərarında Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi prinsiplərinə əsaslanaraq, yada salır ki, "Şərqi Partnyorluq" proqramı prinsiplərindən

biri partnyor ölkələrin dövlətçiliyinə və ərazi bütövlüyünə real dəstək verilməsidir. Bununla yanaşı, Avropa Parlamenti Cənubi Qafqaz regionu ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsinə dair hər hansı bir şərtin irəli sürülməsini yolverilməz hesab edir. 2216 nömrəli qətnamənin ən mühüm müddəalarından biri öz əksini qətnamənin 8-ci bəndində tapmışdır. Bu bənddə Avropa Parlamenti Dağlıq Qarabağ münaqişəsi zamanı və ya bu münaqişə ilə bağlı öz doğma evlərini tərk etmiş yüz minlərlə qaçqın və məcburi köçkünün mövcudluğu faktından və bununla bərabər, onların geri qayıtma hüququ, mülkiyyət hüququ, şəxsi təhlükəsizlik hüququ daxil olmaqla, onların hüquqlarının inkar edilməsindən öz ciddi narahatlığını bildirdi və tərəfləri birmənalı şəkildə, heç bir qeyd-şərt olmadan bu hüquqların tanınmasına çağırdı. Avropa Parlamenti beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsi zərurətindən çıxış edərək erməni qüvvələrini Azərbaycanın bütün işğal olunmuş ərazilərindən çıxardılmasını tələb etdi. Avropa Birliyi və Azərbaycan arasında assosiasiya haqqında saziş siyasət, təhlükəsizlik, iqtisadiyyat, ticarət, qanunun aliliyi, demokratiya, insan hüquqlarına hörmət, bazar iqtisadiyyatının genişlənməsi sahəsində əməkdaşlığı əhatə edir.

Sual və tapşırıqlar:

– Dünya dövlətlərinin diqqətinin Xəzər bölgəsinə yönəlmə səbəbləri nə ilə əlaqədardır?

– Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra daxil olduğu ilk beynəlxalq qurum və işğal olunmuş ərazilərin boşaldılması üçün qətnamələr hansılardır?

– Türkiyə-Ukrayna-Azərbaycan-Gürcüstan blokunun formalaşmasını şərtləndirən səbəblər hansılardır?

– Bakı-Tbilisi-Ceyhan layihəsinin əhəmiyyəti və onu şərtləndirən amillərin iqtisadiyyata təsirini öyrənmək çox önəmlidir.

AVROPA BİRLİYİ VƏ AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞU

Hüquqi dövlət quruculuğu, sosialyönümlü bazar iqtisadiyyatı, demokratik institutların təkmilləşdirilməsi və inkişafı kimi siyasi prinsiplərə üstünlük verməsi Azərbaycan Prezidentinin liberal baxışlı lider imicini formalaşdırmışdır. Sağlam cəmiyyətin varlığı onun üzvlərinin siyasi və iqtisadi baxımdan azad olması dərəcəsi və dövlət siyasətinin öz vətəndaşlarının maraqları ilə üst-üstə düşməsi ilə şərtlənir.

Prezident İlham Əliyevin dövlətçilik məsələlərinə konseptual yanaşması sosial rifahın təmin olunmasına istiqamətlənmiş iqtisadiyyatın dirçəldilməsinə, enerji sektorunun inkişafına, aqrar və özəl sahələrin genişləndirilib inkişaf etdirilməsinə, bu gün iqtisadi siyasətin ağrılı sahəsi olan vergi sisteminin yenidən qurulmasına xidmət edir. Başlıca məsələ bundadır ki, dövlətçilikdə kadr potensialından səmərəli istifadə olunsun. Həqiqətən də, əgər bu prinsipə riayət olunmazsa, nəinki partiya intizamı və məsuliyyət hissi pozular, daha acınacaqlısı, hər hansı bir rasional ideyanın inkişafına təkan verən təşəbbüskarlıq boğula bilər. Əlbəttə, İlham Əliyev inanır ki, islahatçılıq ideyalarını dəstəkləyən sağlam qüvvələr mükəmməl iqtisadi biliklərini Azərbaycanın demokratikləşməsi işində bacarıqla tətbiq edəcək, müasir səviyyəli iqtisadçılar Azərbaycan cəmiyyətinə fayda verməyə səy göstərəcəklər.

Cəmiyyət və onun sosial institutları inkişaf etdikcə, dövlətçilik də möhkəmlənir. Bəşəri dəyərlərin daşıyıcıları olan nəsillər dövr keçdikcə öz yerlərini gənclərə həvalə edir. Bunsuz cəmiyyət inkişaf edə bilməz. Biz gerçəkliyimizdə bu reallıqla hesablaşmalı, varislik prinsipinin obyektiv gedişini izləməli və nəzərə almalıyıq ki, gənclərə yol verməklə biz həyatımızın bütün sahələrinə, xüsusilə siyasi-iqtisadi sferaya yenilikçilik ruhu gətirmiş, ümumi inkişafımıza dinamik impuls vermiş oluruq.

Siyasətin sosial əhəmiyyətli funksiyaları dövlətin, sosial qrupların və cəmiyyətin digər təbəqələrinin həyatı və siyasi əhəmiyyət kəsb edən mənafelərini ifadə edib müdafiə etmək, cəmiyyətin siyasi təşkilini strukturlaşdırmaq, konkret siyasi subyektlərin və bütövlükdə millətin konkret maraqları naminə sosial-siyasi prosesləri idarə etməkdir. Özünün ardıcıl fəaliyyətində siyasət adamlarının cəmiyyətdə

siyasi münasibətlərini təşkil etmək, əhalinin müxtəlif təbəqələrinin inteqrasiyasına nail olmaq, vətəndaşların siyasi inkişafında, eləcə də siyasi subyektlər arasında varisliyi təmin etməkdir. Bizim siyasət anlayışına müraciət etməyimizdə məqsəd bununla izah olunur: bizə elə siyasət lazımdır ki, mədəniyyətlər arasında dialoqun möhkəmliyi, xüsusilə keçid dövrlərində siyasi qərarlar qəbul edilərkən plüralizm ilə yanaşı, tolerantlıq prinsipi də nəzərə alınsın.

Təbii ki, siyasətin başlıca vəzifəsi siyasi hakimiyyətin funksional fəaliyyətini tənzimləmək, həmin prosesdə siyasət subyektlərinin yeri və rolunu öyrənməkdir. Bu isə o deməkdir ki, siyasət bütövlükdə çoxcəhətli tellərlə ictimai həyatın bütün sferaları ilə bağlıdır, burada cərəyan edən proseslərlə şərtlənir. Ona görə də zaman dəyişdikcə, siyasətin xarakteri və mahiyyəti də dəyişir.

Artıq siyasi düşüncələrdə belə bir mülahizə hakimdir ki, siyasət həm elmdir, həm də sənətdir. İnsanlara ictimai inkişaf qanunlarının sirləri bəlli olandan sonra aydın olmuşdur ki, Yer üzünün sakinləri, o cümlədən siyasət subyektləri öz fəaliyyətlərini həmin qanunlara uyğun qurmalıdırlar. Yalnız belə olduqda onlar sosial proseslərə təsir göstərə bilərlər. Tarixi təcrübə göstərir ki, siyasəti elm kimi öyrənməmək sosial-iqtisadi inkişafın zəifləməsinə, durğunluq hadisələrinin baş verməsinə, cəmiyyətin tənəzzülünə gətirib çıxarır.

Siyasət özlüyündə bir peşə fəaliyyəti, bir sənətdir. Bu o deməkdir ki, o, sosial proseslərin subyektiv tərəfi ilə məşğul olur. Həyat göstərir ki, siyasi subyektlərin, fərdlərin və birliklərin hərəkətlərini öncədən heç də həmişə başa düşmək olmur. Siyasətçinin bacarığı da məhz bundadır ki, konkret siyasi məqsədə nail olmaq üçün fərdin, sosial ümumiliyin, sosial-siyasi institutun potensial imkanlarını maksimum nəzərə alsın, özünün nəzəri biliklərindən, məntiqi mülahizələrindən, lazım gəldikdə ilhamından, təxəyyülündən, intuisiyasından istifadə etsin, cəsarət və fantaziya nümayiş etdirə bilsin. Siyasətçinin qabiliyyəti bundadır ki, siyasi məqsədlərin, metodların və vasitələrin optimal nisbətini təmin edə bilir.

Siyasət düşünən insanların canlı fəaliyyətində təzahür edir, deməli, o, cəmiyyətin siyasətlə bağlı bütün sferalarına nüfuz edir. Siyasət nə qədər humanist məzmun kəsb etsə də, müxtəlif psixologiyaların və əqidələrin daşıyıcısı olan insanlarla iş görür, bənzərsiz sosial-psixoloji faktorlarla üzləşməli olur, özü də bu proseslərdə yeni

məzmun çalarları kəsb edir, müəyyən təshihlərə, dəyişikliklərə məruz qalır.

Son illərin təcrübəsi göstərir ki, qeyri-zorakılıq, transparentlik, tolerantlıq və siyasi mədəniyyət özünün həyatda təcəssümünü çox çətinliklə tapır. İnsanların əksəriyyəti məhz tolerantlıq mədəniyyətini çox çətin başa düşür və bu sosial mədəni dəyərin insanlararası münasibətlərdə əhəmiyyəti olduqca az nəzərə alınır, başqalarının taleyinə biganə qalmaq hələ də üstünlük təşkil edir. Bizim anlamımızda tolerantlıq başqalarının fikrinə, etiqadlarına dözümlü münasibəti, eynilə belə münasibəti rəqiblərdən gözləməyi nəzərdə tutur.

Siyasətdə tolerantlıq başqalarının siyasi baxışlarına, ideoloji görüşlərinə, konsepsiyalarına dözümlü və təmkinli yanaşmaq deməkdir. Bir siyasi termin kimi tolerantlıq anlayışı XX əsrin ikinci yarısında bu və ya digər siyasi qüvvələrin, hakimiyyət subyektlərinin başqa cürə düşünməsinə, ideoloji, siyasi müxalifət mühitində irəli sürülən mülahizələrə və qiymətləndirmələrə dialoq mədəniyyəti çərçivəsində dözümlü olmağı bildirir. Belə halda istər hakimiyyət, istərsə də hakimiyyətdənkənar qüvvələr bir-birlərinə münasibət bildirərkən, vətəndaş cəmiyyətində müxtəlif sosial qruplardakı siyasi iqlimə təsir göstərərkən, konstitusiya çərçivəsində hərəkət etməli, qanunvericilik normalarına riayət etməlidirlər.

Ayrıca siyasi xadimin həyatında tolerantlıq öz təzahürünü siyasi rəqiblərinin fikirlərinə qulaq asmaq qabiliyyətində, buna hazır olmaqda, onların fikirlərinin qismən, yaxud tam haqlı olmasını, öz səhvlərini etiraf etməkdə tapır. Xüsusilə qeyd edilməlidir ki, müəyyən məsələdə yanlış hərəkətlərini səmimi etiraf etmək, hər şeydən əvvəl, siyasətçinin yüksək siyasi mədəniyyətindən xəbər verir. Siyasi tolerantlıq vətəndaş cəmiyyətinin formalaşmasında, siyasi kompromislərin əldə olunmasında, eləcə də konsensus yolu ilə kollektiv qərarların qəbul edilməsində ən mühüm ilkin şərtdir. Bu gün politoloji tədqiqatlarda belə bir mühüm ideya dəstəklənir ki, tolerantlıq siyasi hakimiyyətin ən mühüm prinsiplərindən biridir. Bir sözlə, cəmiyyətdə tolerantlığın rolu və əhəmiyyəti onun öz mahiyyəti ilə izah olunur. Odur ki, bir çox sosioloji və politoloji tədqiqatlarda sosiumun tolerantlıq səviyyəsi, dialoq mədəniyyətinin dərəcəsi cəmiyyətin mənəvi-əxlaqi, sosial-siyasi dövlətçiliyin inkişafının aparıcı meyarı kimi qəbul

edilir. Bu səbəbdən real siyasi praktikada, dövlət idarəçiliyində tolerantlığın önəmli yer tutmasına həmişə mühüm yer ayrılmışdır.

Hazırda dünya sivilizasiyasının iqtisadi, sosial, mənəvi-etik parametrlərə görə parçalanması, bununla əlaqədar olaraq dözümsüzlüyün, dini ekstremizmin artması, millətlərarası münasibətlərin gərginləşməsi, lokal müharibələrin baş verməsi ilə qaçqınçılığın artması, əxlaqi dəyərlərin aşınmaya məruz qalması tolerantlıq mədəniyyətinin həyat normasına çevrilməsini xeyli aktuallaşdırmışdır. Təsadüfi deyil ki, 1995-ci il noyabrın 16-da Parisdə UNESCO-nun 185 üzv dövləti tolerantlıq haqqında bəyannamə qəbul etmişdir.

Bu sahədə uğur qazanmaq üçün Azərbaycan cəmiyyətində tolerantlıq mədəniyyətinin tərəqqisi vacib amillərdəndir. İlham Əliyevin Prezidentliyi dövründə (2003-2018) cəmiyyətimizdə siyasi mədəniyyətin səviyyəsi bir qədər də təkmilləşmiş, ictimai-siyasi həyatda tolerantlığın, dözümlülüyün təmin olunması prioritet məsələlərdən birinə çevrilmişdir. Müasir Azərbaycan cəmiyyətində belə bir həqiqət qəbul edilməlidir ki, qlobal beynəlxalq, qruplararası və şəxsiyyətlərarası əlaqələr şəbəkəsinin yüksək dərəcədə sıxlaşması hadisələrə biganə qalmağa, prinsipial məsələlərdə neytral mövqe tutmağa imkan vermir. Bir sıra qarşılıqlı münasibətlərdə düşmənçilik və birbaşa toqquşmalar cəmiyyətdə təhlükə yaradır. Bunun qarşısını almağa yalnız yüksək tolerantlıq mədəniyyətinə və vərdişlərinə yiyələnməklə nail olmaq mümkündür. Buna dövlət və onun hər bir vətəndaşı hazır olmalıdır.

Azərbaycan əsl müstəqilliyini (XX əsrin sonlarında) əldə edəndən sonra "Ulu Öndər Heydər Əliyev ölkəni qorumaq, onu canlı orqanizm kimi geri dönməz inkişaf yoluna qoymaq tarixi missiyanı yerinə yetirən əvəzsiz şəxsiyyət oldu. Multikultural və tolerant dəyərlərin Azərbaycan kimi kiçik, amma dərin tarixə, milli-mənəvi ənənələrə malik qürurlu bir ölkə üçün son dərəcə vacib həyati şərtlər olduğunu Ulu öndər yaxşı bilirdi. Və o bu dəyərləri yaşatmaq naminə Azərbaycan multikulturalizminin siyasi əsaslarını sistemli şəkildə əzmlə qurdu və qəbul edilmiş siyasi bəyanat və sənədlərdə, fərman və sərəncamlarda, konstitusiya bəndlərində bunu addım-addım, geridönməz şəkildə həyata keçirməyə başladı. Zəngin mənəvi xəzinənin sistemli, özündə aydın perspektivlər ehtiva edən siyasi bünövrəsi belə yarandı.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edərkən məhz xalqımızın tarixi kökündə formalaşan və bu gün də yaşayan möhtəşəm mənəvi, elmi və siyasi qaynaqlara əsaslanır. Bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini adekvat göstərən zəngin mənbədir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev öz ulu siyasi sələfinin yolunu ləyaqətlə davam etdirərək bütün dünyaya bəyan edir: "Azərbaycanda multikulturalizm dövlət siyasətidir və onun alternativi yoxdur" (9).

Multikulturalizm Azərbaycan cəmiyyətində mühüm aktuallıq kəsb edən məsələdir.

Elə fikir, düşüncə tərzini ortaya qoymaq lazımdır ki, belə halda insan bütün dünyanı öz "mən"ində əhatə etməsin, özünü dünya birliyinin bir hissəsi kimi hiss etsin. İctimai-siyasi həyat özündə çoxlu müxtəlif, bir-biri ilə qarşılıqlı əlaqədə olan, eyni zamanda sərbəst sosial-siyasi qrupları, partiyaları, təşkilatları ehtiva edir. Onların proqramlarının və konsepsiyalarının müqayisə edilməsi əsasında yarış, rəqabət mübarizəsi, ictimai şüura təsir imkanları təmin olunur. Belə mübarizə sivilizasiyalı ölkələrdə həmişə konsepsiya və doktrinaların inkişafı üçün stimul olmuşdur. Azərbaycan dövlətinin dəstəklədiyi siyasi plüralizm bu mənada demokratik diskussiya şəraitində sosial subyektlərin mənafelərinin, baxışların, fikirlərin, ideyaların müqayisə edilməsi vasitəsilə ümummilli məqsədlərə nail olmaq üçün kompromis qərarların qəbul edilməsini nəzərdə tutur. Belə yanaşma partiya və hərəkatlara sağlam düşüncə siyasəti yeritməyə geniş imkanlar açır. Bu, öz növbəsində, həm siyasi mədəniyyətin inkişafını, həm də geniş dünyagörüşü, ictimai inkişaf problemlərinin qarşılıqlı anlaşma, tolerantlıq şəraitində çoxvariantlı texnologiyaların tətbiqi ilə həll etməyə hazır olan siyasi liderlərin fəaliyyətini tələb edir. Müasir demokratikləşmə prosesi imkan yaradır ki, ictimai-siyasi həyatda siyasi realizm daha da dərinləşsin, dövlətin, siyasi sistemin tərəqqisinə, modernləşməsinə təkan verən vacib amillərdən birinə çevrilsin.

Ölkədə təşəkkül tapmış sosial münasibətləri, baş verən siyasi hadisələrin və təzahürlərin mahiyyətini dərk etmək, əsas dövləti qurumların, partiya və ictimai-siyasi təşkilatların mahiyyətini düzgün başa düşmək lazımdır. Siyasi normalar və prosedurlar, vətəndaşların

ictimai-siyasi həyatda, cəmiyyətin və dövlətin idarəçiliyində iştirakı cəmiyyətin siyasi mədəniyyətinin inkişafına kömək edir, cəmiyyət üzvlərində dialoq mədəniyyətinə və tolerantlığa meyli artırır. Partiyalar öz üzvlərinin siyasi mədəniyyətini inkişaf etdirməklə, bütövlükdə cəmiyyətin demokratikləşməsi prosesinə pozitiv təsir göstərir.

Dövlətlə yanaşı, siyasi partiyaların da mühüm vəzifəsi ölkədə mənəvi-ideoloji, siyasi maarifçilik və multikulturalizm siyasətinin formalaşdırılmasına öz töhfələrini verməkdir. Bu mənada tolerantlıq mədəniyyətinin formalaşma prosesinə vurulan ən böyük ziyan bəzi müxalifət partiyalarının xəstəliyinə çevrilmiş ifrat populizmdir. Hər bir siyasi partiyanın fəaliyyətində populizm bu və digər dərəcədə öz təsirini göstərir. Həqiqətən də, populizm cəmiyyətin bəzi təbəqələrinin sosial-psixoloji gözləmələrini əks etdirən ideya və siyasi fenomendir. Sosial-siyasi hadisə olan populizmin mahiyyət və məzmununu dərk etmək lazımdır.

Mövcud politoloji ədəbiyyatda populizm deyilərkən, kütlələr içərisində heç bir əsası olmayan vədlər vermək, demaqoji şüarlar hesabına şöhrət qazanmaq fəaliyyəti başa düşülür. Demaqogiya isə, əsasən, faktları bilərəkdən təhrif etmək, az şüurlu əhali içərisində siyasi məqsədə nail olmaq üçün riyakarlıq formalarına əl atmaq cəhdi kimi təsnif edilir. Göründüyü kimi, populizm və demaqogiya əslində antonim anlayışlar kimi təqdim olunur. Müxtəlif ictimai, iqtisadi inkişaf konsepsiyalarında oxşar vədlər həm əsaslandırılmış, həm də əsaslandırılmamış olur. Heç bir faktı hər hansı konseptual sxemə aid etməklə şərh etmək mümkün deyildir.

Paradiqmaların çoxcəhətliyini və rəqabətini, çoxlu həyat layihələrinin, sosial münasibətlərin yanaşı yaşamasını nəzərə alaraq, populizm və demaqogiya anlayışlarından imtina etmək lazımıdır. Deməli, bu anlayışlar elmi anlayışlar deyil. Fransız politoloqu P.Burdye haqlı olaraq yazır ki, "siyasi məkan hakimiyyət uğrunda rəqabət mübarizəsi aparır. Həmin mübarizə hadisələrdən xəbərdar olmayanlar naminə rəqabət vasitəsilə həyata keçirilmir. Bir nəfərin dilində məsuliyyətsiz səslənən ifadə başqasının çıxışında əsaslandırılmış uzaqgörənlik kimi səslənir". Məsələn, müxalif liderlərdən biri "hakimiyyətə gələrəmsə, maaşları on dəfə artıraram" deyərkən əhalinin eyforiyaya qapılan, sağlam düşüncədən uzaq hissəsi təbii olaraq, ona

inanmalı olur. Sözsüz ki, ölkənin iqtisadi durumunu yaxşı bilən siyasi lider heç vaxt belə məsuliyyətsiz vədlər vermir.

Tolerantlıq mədəniyyətini formalaşdıran mühüm sosial mexanizmlərdən biri də ictimai rəydir. XX əsr İspan filosofu Orteqa-Qasset haqlı olaraq göstərir ki, "əgər siyasi hakimiyyət ictimai rəyin dəstəyindən məhrumdursa, deməli, o bir partiya kimi mövcud deyil". Məhz bu "mənliyini itirmiş" partiyalar hər cür populist və demaqoji hərəkətlərə yol verərək, rəqiblərinin real mövqelərinə dözümsüzlük nümayiş etdirir, hətta kompromat və qara piar müharibəsi aparırlar, son nəticədə ictimai rəylə manipulyasiya edirlər.

Tolerantlıq öz dünyagörüşünü genişləndirməkdə tənqidi dialoqdur. Cəmiyyətin sosial-mədəni təcrübəsi göstərir ki, hər bir mədəniyyət, dəyər və idrak sistemi nəinki digər dünyagörüşü sistemləri ilə mübarizə aparır, habelə özü də digər sistemin təcrübəsini mənimsəyərək, özünün intellektual potensialını daha da yüksəldir. Bu, mədəniyyətin və idrak tarixinin danılmaz sosial faktıdır. İctimai fikir tarixində ən maraqlı ideyalar müxtəlif milli dəyərlərin bir-biri ilə təmasda olması və tənqidi qavranılması sayəsində meydana gəlmişdir.

Bütün sivilizasiyalar və bütün xalqlar iftixar hissi duymalıdırlar ki, bugünkü dünyamızın zənginləşməsinə öz layiqli töhfələrini vermişlər. Lakin sülh fəlsəfəsinə ehtiram edənlər dünyanın etnomədəni və multikultural dəyərlərini qorumağı ön plana çəkməlidirlər. Bunun üçün bir həqiqət dərk edilməlidir ki, dialoq, plüralizm və tolerantlıq strateji zərurətdir.

Azərbaycan rəhbərliyi 1994-cü ilin sentyabrında dünyaya səs salan və düşmənlərimizə gözdağı olan "Əsrin müqaviləsi"ni imzaladı. Bu sənədin böyük tarixi əhəmiyyəti vardır. Müqavilə nəticəsində Azərbaycanın zəngin neft-qaz potensialından ölkənin rifahı üçün istifadə edilməsinin əsası qoyuldu. Bizim bu problemlərə toxunmağımızın öz məntiqi vardır: əgər Azərbaycan sabitliyi təmin edən bu tədbirləri həyata keçirməsəydi, yəqin Avropa Şurasına qəbul olunmazdı.

Azərbaycan üçün strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi- Ceyhan əsas ixrac neft kəməri və Transxəzər qaz kəməri barədə imzalanmış sənədlər dünyanın müxtəlif siyasi-diplomatik dairələrində ölkəmizə ciddi maraq oyatmış, müstəqil respublikamızın imicini xeyli artırmışdır.

1995-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın daimi nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İ.Əliyevin Strasburqda diplomatik fəaliyyətinin ən önəmli məqamlarından biri Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırması olmuşdur. Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasında bu təşkilatın həqiqi üzvü kimi ilk dəfə 2001-ci il aprelin 24-də iştirak etmişdir. Aradan heç bir il də keçməmiş, artıq qısa müddətdə İ.Əliyevin başçılıq etdiyi nümayəndə heyəti orada böyük işlər görmüş, ilk iclaslarda xalqımızın taleyüklü problemlərini gündəliyə çıxara bilmişdir. Daha önəmli hal isə budur ki, bütün Avropa yeni təfəkkürlü və dərin intellektli siyasi lideri dinləmişdir. Assambleyanın iclasında Avropada mütəşəkkil cinayətkarlığa, sərhəd transmilli və iqtisadi cinayətkarlıq hallarına qarşı mübarizə problemi müzakirə olunarkən nümayəndə heyətimizin rəhbəri Azərbaycanın nəzarətindən çıxmış Dağlıq Qarabağda və onun ətrafında narkotik bitkilərin yetişdirilməsi, onların satışından qazanılan çirkli pullar hesabına terrorçular hazırlanması kimi qlobal problemləri xüsusi qabartmışdır. O, Avropanın müvafiq qurumlarının diqqətini belə bir məsələyə cəlb etmişdir ki, işğalçıların torpaqlarımızdan tezliklə çıxması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, eləcə də bir milyon qaçqının öz el-obalarına qayıtması naminə onlar Ermənistana ciddi təsir göstərməlidirlər.

Strasburqdakı diplomatik fəaliyyətdə olduqca mühüm məqamlardan biri budur ki, Azərbaycan və Türkiyə nümayəndə heyətləri vacib məsləhətləşmələr keçirərək, vahid proqramla çıxış etmişlər. Avropa Şurasında Azərbaycan 6, Türkiyə 12 yerlə təmsil olunur. Bu o deməkdir ki, həmin nüfuzlu beynəlxalq qurumda bizim 18 yerimiz vardır. Bizcə, bu tarixi dövrün ən önəmli məqamlarından biri də odur ki, Azərbaycanın milli mənafelərini hər şeydən yüksək tutan nümayəndə heyətimiz Strasburqda vahid proqramla çıxış etmişdir. 2002-ci il aprel sessiyası Assambleyada İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətimiz üçün ilk təcrübə olsa da, xalqımızın elçiləri çox fəal və səmərəli işlər görmüşlər. Bəzi məsələlər üzrə hazırlanan rəsmi sənədlər obyektiv faktlara əsaslandığından və maraq doğurduğundan bir sıra ölkələrdən olan nümayəndələr bu sənədlərə imzalarını atmışlar.

2003-2015-ci illəri əhatə edərək qətiyyətlə demək olar ki, bu gərgin diplomatik fəaliyyət, aparılan səmərəli iş nəticəsində Parlament Assambleyasında ictimai rəy Azərbaycanın xeyrinə dəyişmişdir. Bu, həm də Heydər Əliyevin xarici siyasətinin davam etdirilməsində, Azərbaycanın müsbət imicinin möhkəmləndirilməsi istiqamətində atılan ciddi və ardıcıl addımlardır.

Avropa Şurası birbaşa təhlükəsizlik problemləri ilə məşğul olmasa da, o, silahlı münaqişələrin tənzimlənməsinə təsir göstərmək imkanına malikdir və Avropa ictimaiyyətində müvafiq rəyin formalaşdırılmasında aparıcı rol oynayır. Avropa Şurasının səlahiyyətli kürsüsündən erməni təcavüzü nəticəsində bütün insani hüquqları tapdalanmış bir milyona qədər qaçqın və məcburi köçkünləri olan ölkəmizin haqq səsini ucaltması, Avropa ictimaiyyətinin nəzərini bu taleyüklü problemimizə yönəltməsi təqdirəlayiqdir.

Dünyanın bu burulğanlı dövründə heç bir, hətta ən iri dövlət belə özünü tam təhlükəsiz hiss edə bilməz. Terroristin milləti, vətəni olmasa da, hər halda, o, sosial hadisə kimi mövcuddur və siyasi terrorizmin bütün formalarına qarşı amansız mübarizə aparmaq üçün bütün ölkələr öz həmrəylik səylərini birləşdirməlidir.

Siyasət çox zaman paradoksallıqla dialoqa girməli olur və diplomatiyanın sınaq "kart"ı paradoksallıqla mübarizədə öz rolunu oynayır. 2003-cü il yanvarın 24-də Strasburqda AŞPA-nın iclasında "Terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət" mövzusunda müzakirələr aparılarkən, Azərbaycanda siyasi məhbusların olması haqqında əsassız mülahizələr söylənilmişdir. Əslində, Azərbaycanda siyasi məhbuslar yoxdur, cinayətkarlıq əməllərinə görə haqlı cəza çəkənlər var. İkincisi, dünya hüquq ədəbiyyatında "siyasi məhbus" kateqoriyalarının müəyyənləşmədiyi, bu sahədə mübahisələrin, fikir ayrılığının səngimədiyi bir zamanda hansısa ölkədə "siyasi məhbus"ların olması haqqında Avropa qitəsinin siyasi mərkəzlərinin birində yüksək kürsüdən konkret bir dövləti, məsələn, Azərbaycan Respublikasını günahlandırmaq nə dərəcədə məntiqi səslənir? İlk diplomatik addımlarından biri olaraq, İlham Əliyev AŞPA-nın yeni seçilmiş prezidenti Piter Şrüderlə görüşündə (qeyd edək ki, bu görüş AŞPA-nın yeni prezidentinin xahişi ilə keçirilmişdir) müsahibini Azərbaycanın həqiqətlərinə inandırmağa çalışmış, müstəqil Azərbaycanın diplomatik, hüquqi dövlət quruculuğu ilə məşğul olduğu və

təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması barədə onu məlumatlandırmışdır. Şübhəsiz ki, müsahibinin toxunduğu problemləri tutarlı dəlillərlə əsaslandırması, Avropa inteqrasiyası proseslərində Azərbaycanın yeri və rolu barədə analitik mülahizələri, mühüm siyasi problemlərə insan hüquqları prizmasından yanaşması P.Şrüderdə belə bir qənaət yaratmışdır ki, qarşısındakı gənc ölkənin milli mənafelərini hər şeydən üstün tutan və bu ideal naminə əzmkarlıqla mübarizə aparan hadisələrə planetin taleyi prizmasından yanaşan bir siyasətçidir.

Azərbaycanın dünya problemlərinin həllində iştirakının vacibliyini bir daha vurğulayan İlham Əliyev çıxışında beynəlxalq terrorizmi pisləyərək, öz ölkəsinin də erməni terrorizminə məruz qaldığını Avropa ictimaiyyətinə bir daha çatdırmış, bu şər qüvvəsinə qarşı bütün sülhsevər dövlətlərin birgə fəaliyyətini və mübarizəsini ön plana çəkmişdir. O, çıxışında haqlı olaraq belə bir problemə toxunmuşdur ki, terrorizmə qarşı ən səmərəli mübarizə formalarından biri "qanunsuz zonaların ləğv edilməsidir". Lakin təəssüf ki, AŞPA-nın bir çox üzv dövlətləri hələ də xəbərsizdir ki, ölkəmizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisi ermənilərin işğal zonası olandan bəri ondan müxtəlif terrorçu təşkilatlar tərəfindən qanunsuz silah satışı, narkotik xassəli bitkilərin becərilməsi və daşınması üçün istifadə olunur.

Belə bir deyim mövcuddur ki, diplomatiya ədalətsizliklə mübarizədə daha da bərkiyir. Nə qədər ağır olsa da, deməliyik ki, dünya birliyinin birmənalı şəkildə pislədiyi terrorizmə məruz qalan ölkəmizin nümayəndə heyəti AŞPA-da gözləmədiyimiz bir ədalətsizliklə üzləşdi. C.Klerfaytın "Azərbaycanda siyasi məhbuslarla bağlı" məruzəsi və onun ətrafındakı müzakirələrdə ədalətsiz mövqe tutan bəzi nümayəndələrin əsassız çıxışları nümayəndə heyətimizin haqlı etirazına səbəb olmuşdur. Nümayəndə heyətinin rəhbəri İlham Əliyev yüksək kürsüdən qətiyyətlə bildirmişdir ki, Azərbaycan tərəfi məsələnin gündəlikdə "Azərbaycanda siyasi məhbuslar" adı ilə saxlanılmasının qəti əleyhinədir. Ölkəmiz bu mötəbər beynəlxalq təşkilata daxil olarkən insan hüquqlarının müdafiəsi barədə öhdəlik götürmüş və buna əməl etməkdədir.

Mübaliğəsiz demək olar ki, Şərq-Qərb enerji dəhlizinin təməl sütunlarını təşkil edən Türkiyə və Azərbaycanın baş nazirlərinin yüksək səviyyədə keçən, maraqla izlənilən görüşü hər iki ölkənin sar-

sılmaz əməkdaşlığında yeni səhifə açdı. Bu səfərin Türkiyə Cümhuriyyətinin qurulmasının 80 illiyinin qeyd olunmasına hazırlıq getdiyi bir dövrdə planlaşdırılması da böyük rəmzi məna daşıyır.

İlham Əliyev yeni informasiya lideri kimi cəmiyyətin müasir inkişaf problemlərinə, onların nəzəri-praktik həllinə də diqqət yetirir.

2003-cü il dekabrın 10-da Cenevrənin Paleksio sarayında İnformasiya cəmiyyəti üzrə Dünya sammiti öz işinə başlayır. Son on ildə inkişaf etməkdə olan cəmiyyətin məhsuldar qüvvəsinə çevrilmiş kommunikasiya texnologiyaları, qlobal rabitənin imkanları dünyanın mənzərəsini kökündən dəyişmiş, insanları və ölkələri bir-birinə daha da yaxınlaşdırmış, sanki planetimizin nə qədər kiçik olduğunu aşkar etmiş, planet miqyasında informasiyanı hamı üçün əlçatan etmişdir. Prezident İlham Əliyevin sammitdə söylədiyi nitqində bir çox qlobal problemlərə toxunmuş, bugünkü gənc nəsli informasiya cəmiyyəti yaradan nəsil adlandırmışdır. Göründüyü kimi, İlham Əliyev dahi Heydər Əliyevin gənclər siyasətini davam etdirərək, belə bir məqamı xüsusilə vurğulamışdır ki, bizim ölkənin əhalisinin 70 faizinin yaşı 35-dən aşağıdır. "Azərbaycanın gənc nəsli fəal surətdə informasiya və kompüter texnologiyaları layihələrini həyata keçirməkdədir. Bu işdə bizə BMT-nin İnkişaf Proqramı yaxından yardım edir".

Bu gün Heydər Əliyevin sosial-siyasi sabitlik konsepsiyasını əzmlə həyata keçirən İlham Əliyev bu fikirdədir ki, son on illər irimiqyaslı milli inkişaf proqramının həyata keçirilməsi üçün imkanlar məhz sabitlik sayəsində yaranmışdır. Məhz bunun sayəsində ölkəmizdə demokratikləşmə prosesi dərinləşir, sosial-siyasi islahatlar uğurla aparılır, iqtisadi artım hiss olunur. Təkcə bunu demək kifayətdir ki, 2003-2013-cü illər Azərbaycanda ümumdaxili məhsulun illik artımı 100 faiz təşkil etmişdir. Bu, demokratiya yolunu seçmiş ölkə üçün onun indiki inkişaf mərhələsində önəmli göstəricidir. Azərbaycanda ümumi daxili məhsulun 70 faizinin özəl sektorun payına düşməsi faktı isə bir daha dünya ictimaiyyətinə belə bir informasiyanın çatdırılması deməkdir ki, Azərbaycanda sosial-iqtisadi islahatlar uğurla həyata keçirilir. Bu gün Qərbdə Azərbaycanı nəhəng enerji layihələrini həyata keçirən, dünya əmək bölgüsündə fəal iştirak edən ölkə kimi tanıyırlar. Lakin hazırda ölkəmizin imicini daha da artıran mühüm amillərdən biri Azərbaycanda informasiya texnologiyalarının yaradılmasına, informasiya cəmiyyətinə yaxınlaşdıran infrastrukturun,

idman arenalarının qurulmasına Azərbaycan Prezidentinin xüsusi diqqət yetirməsidir. İlham Əliyev dünya sammitlərində reallıqlarımıza tam uyğun gələn belə bir mülahizə söyləmişdir ki, "Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndə dünyada aparıcı ölkələrdən birinə çevrilsin".

2012-ci ildə Bakıda keçirilən Avroviziya yarışının və 2015-ci il I Avropa Oyunlarının, İslam oyunlarının ən yüksək səviyyədə təşkili və həyata keçirilməsi Azərbaycan dövlətinin ciddi potensiala malik olması ilə yanaşı, dövlətimizin beynəlxalq arenada mövqelərinin də gücləndirilməsinə öz töhfəsini verdi. Təsadüfi deyil ki, dünyanın bir çox mətbuat orqanlarının diqqət mərkəzində olan 2015-ci ilin yekununa dair nəticələr iyunun 12-18-dək Bakıda keçirilən I Avropa Oyunları bədxah siyasi dairələrdə geniş antiazərbaycan ritorikasına səbəb olmaqla yanaşı, Avropa İttifaqı və ABŞ Dövlət Departamentinin də rəsmi Bakıya qarşı növbəti kompaniyasına start vermiş oldu. Möhtəşəm I Avropa Oyunları bir daha Azərbaycanın güclü, qüdrətli bir dövlətə çevrildiyini, müstəqil daxili və xarici siyasət xəttinə malik olduğunu, milli və bəşəri keyfiyyətləri özündə sintez etməyi bacaran bir güc mərkəzinə çevrildiyini bütün mütərəqqi dünya birliyinə nümayiş etdirə bildi. Azərbaycan dövlətinin uğurunu, Prezident İ.Əliyevin dinamik inkişaf strategiyasını həzm edə bilməyən xarici dairələr Azərbaycanda insan hüquqlarının pozulması bəhanəsilə öz rəsmi nümayəndələrini I Avropa Oyunlarının açılış mərasiminə göndərməkdən imtina etdilər.

12-22 may 2017-ci il tarixində Bakıda keçirilmiş IV İslam Həmrəylik Oyunları Azərbaycanın ciddi beynəlxalq nüfuzunu bütün islam məkanında bir daha təsbit etmiş, Dağlıq Qarabağ probleminin həllinin zəruriliyi isə növbəti dəfə 20 sentyabr 2017-ci il tarixində BMT-nin 72-ci sessiyası çərçivəsində cənab Prezident İlham Əliyev tərəfindən əminliklə qeyd edilmişdir.

Qərb dövlətlərinin Azərbaycan ilə münasibətlərinin soyumasının əsas səbəbləri təbii ki, yuxarıda sadalanan uydurma səbəblər deyildir. Əsas səbəb 2013-2015-ci illər ərzində Aİ-nın Vilnüs və Riqa sammitlərində Azərbaycan dövlətinin Aİ-nın təklif etdiyi Assosiativ üzvlük Müqaviləsini və Azad Ticarət Sazişini imzalamaması, rəsmi Moskva ilə münasibətləri pozmaqdan imtina etməsi idi.

2015-ci il 1 noyabr Milli Məclis seçkilərinə ATƏT-in öz nüma-

yəndələrini göndərməkdən imtina etməsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçkiləri faktiki boykot etməsi təbii ki, Bakı-Qərb münasibətlərini bir qədər də soyutmuşdur.

2015-ci il 19 dekabr tarixində İsveçrənin Bern şəhərində Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə növbəti görüşü də nəticəsiz başa çatdıqdan sonra münaqişənin siyasi müstəvidən hərbi-siyasi müstəviyə transfer olunacağı faktı isə artıq bir çox ekspert və beynəlxalq beyin mərkəzləri tərəfindən öz təsdiqini tapmaqdadır (7).

BMT çərçivəsində 2016-cı il 25-27 aprel tarixli Bakıda keçirilmiş VII Qlobal Forum bir daha Azərbaycan dövlətinin sülhpərvər, multikultural dəyərlərə sadiq olduğunu bütün dünya birliyinin nəzərinə çatdırmış oldu (8).

Azərbaycan və Ermənistan prezidentlərinin 2016-cı il 16 may tarixli Vyana görüşü bir daha konfliktin qaldığını açıq-aşkar nümayiş etdirmiş oldu. Eyni zamanda, qeyd etməliyik ki, münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində xalq diplomatiyasının müəyyən elementlərinin gələcəkdə tətbiqi də yalnız münaqişə öz siyasi həllini tapdıqdan sonra mümkündür.

Azərbaycan Respublikasında 2016-cı il 26 sentyabr tarixində keçirilmiş Referendum bir daha cənab Prezident İlham Əliyevin dövlət quruculuğu sferasında atdığı addımların Azərbaycan xalqı tərəfindən tam dəstəklənməsinin beynəlxalq ictimaiyyətə mesajı da sayıla bilər. Referendumun nəticələrinə uyğun olaraq dövlət idarəetməsinin təkmilləşdirilməsi və gələcək idarəetmə islahatları Azərbaycan dövlətinin beynəlxalq siyasi arenada mövqelərinin gələcəkdə bir daha güclənməsi üçün tarixi-geosiyasi mühiti formalaşdırmış olur.

Sual və tapşırıqlar:

– "Əsrin müqaviləsi" sənədinin Azərbaycan üçün strateji əhəmiyyəti nədən ibarətdir?

– Avropa Şurasının silahlı münaqişələrə təsir etmə mexanizmi sizi qane edirmi?

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi fəaliyyətinin əhəmiyyətini öyrənin.

“BİZ ÖZ TARİXİ TOPRAQLARIMIZA QAYIDACAĞIQ”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 fevral 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının VI qurultayında Azərbaycan torpaqlarının azadlığı istiqamətində səylərin bundan sonra daha qətiyyətlə davam etdiriləcəyini bildirib. O, deyib: “İndi hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır. Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi uğurla davam etdirəcəyik. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı – bütün bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər. Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt tanımayacaq. Tarixi əsaslar da bizim mövqeyimizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri həm hüquqi, həm siyasi əsasları möhkəmləndirir. Xüsusilə indiki şəraitdə münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz üstünlük təşkil edir. Dünyanın müxtəlif yerlərində, eyni zamanda, Avropada separatizm meyilləri artır. Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz isə təcavüzkar separatizmlə üzləşmişik. Ona görə də bütövlükdə münaqişələrlə bağlı dünyada gedən proseslər, yanaşma bizim mövqeyimizi daha da möhkəmləndirir”.

Prezident separatizmin qarşısının alınmasında ilk şərt kimi münaqişə ocaqlarının söndürülməsinin vacibliyini vurğulayıb. Artıq addımların bu istiqamətdə atıldığını və bir çox uğurlu nəticələrin əldə edildiyini bildirib: “Təsadüfi deyil ki, keçən ilin noyabrında Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvəsində qəbul edilmiş qətnamə Şərq Tərəfdaşlığına üzv ölkələrin suverenliyini, ərazi bütövlüyünü,

müstəqilliyini birmənalı şəkildə dəstəkləmişdir. Deyə bilərəm ki, ilk dəfə olaraq, bax, bu formada qətnamə qəbul edilmişdir. Bu, Ermənistan üçün növbəti zərbə, onların növbəti məğlubiyyəti idi və bizim növbəti qələbəmiz idi. Əslində, bu, haqq-ədalətin növbəti qələbəsi idi. Ona görə bu müsbət meyillər güclənəcək. Biz, sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq, aparacağıq. Ermənistanı daha da sıxışdırmalıyıq, sıxışdıracağıq və öz həqiqətlərimizi dünya birliyinə çatdırmalıyıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Biz, sadəcə olaraq, öz səylərimizi daha da artırmalıyıq və artırırıq. Əminəm ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək".

Prezident İlham Əliyev qurultayda erməni separatçılarının bütün zamanlarda Azərbaycan torpaqlarına göz dikdiklərini, ümumiyyətlə, indiki Ermənistanın Azərbaycan ərazisində yaradıldığını da xatırladıb. O deyib: "Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

Ölkə başçısı işğalçılıq siyasətinin hamıdan çox Ermənistana ziyan vurduğunu bildirərək onun məhz bu siyasətin girovuna, qurbanına çevrildiyini deyib. "Biz onları demək olar ki, bütün beynəlxalq layihələrdən təcrid etmişik, bütün enerji və nəqliyyat xətləri onlardan yan keçir və bunu biz etmişik. Baxmayaraq ki, bu, o qədər də asan

məsələ deyildi. Əfsuslar olsun ki, dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi və erməni pullarına satılmış bəzi siyasətçilər daim çalışırlar ki, Ermənistanı da bizim təşəbbüsçüsü olduğumuz layihələrin tərkibinə daxil etsinlər. Biz həmişə buna çox ciddi etiraz etmişik, təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal-Cənub Nəqliyyat Dəhlizi də onlardan yan keçəcəkdir. Biz bunu gizlətmirik. Baxmayaraq, bəziləri çalışırlar bizi ittiham etsinlər ki, biz onları təcriddə saxlayırıq. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur. Çünki, birincisi, orada hakimiyyəti zəbt etmiş kriminal, korrupsioner, qaniçən rejim imkan vermir ki, sərmayə qoyulsun, əvvəllər qoyulan və ianə şəklində verilən bütün pullar rejim tərəfindən oğurlanmışdır. Digər tərəfdən, bazarın məhdudluğu və azalan bazar imkan vermir ki, ciddi investor oraya gəlsin və ixrac imkanları da çox məhduddur. Çünki ixrac üçün yollar olmalıdır, yollar olsa da, yenə də tam investisiya cəlb edilməsi üçün şərait yaratmır. Əlbəttə ki, bunu böyük dərəcədə edən məhz biz olmuşuq və bu siyasəti davam etdirəcəyik. Onların özlərinin son statistik məlumatlarına görə, keçən il ölkəni 40 mindən çox insan həmişəlik tərk edib və bu tendensiya hər il gedir və gedəcəkdir. Beləliklə, orada demoqrafik böhran yaşanır. Bizim səylərimiz nəticəsində Ermənistan siyasi, iqtisadi, enerji, nəqliyyat dalanına çevrilib və əlbəttə ki, bu ölkənin gələcək inkişafı çox qaranlıqdır. Biz isə öz siyasətimizi davam etdirəcəyik və bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hərbi gücümüzdən istifadə edib məsələni həll etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə də bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, nə üçün hərbi quruculuğuna, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük. Həyat göstərdi ki, biz nə qədər

düzgün siyasət aparırıq. Onu da qeyd etməliyəm ki, dünyanın aparıcı ölkələri də daim silahlanırlar və bu proses bir çox ölkələr üçün də xasdır. Biz isə son illər ərzində güclü ordu yaratmışıq. İndi bütün beynəlxalq reytinqlər də ordumuzun gücünü əks etdirir. Bu güc bizə imkan verir ki, istənilən vəzifəni icra edək. 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bizim güclü iqtisadi imkanlarımız var. Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu günə qədər 300 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik, bunu qısa müddət ərzində edə bilərik. Bir daha bütün dünya əyani şəkildə görür ki, Azərbaycan xalqı, köçkünlər bir amalla yaşayırlar – tezliklə öz doğma torpaqlarına qayıtmaq arzuları ilə. Hətta köçkün şəraitində doğulmuş, heç vaxt öz torpağını görməmiş uşaqlar, gənclər də bu arzu ilə yaşayırlar. Bu gün onların bir hissəsi artıq Cocuq Mərcanlıda, öz dədə-baba torpağında məskunlaşıb. Bu da Azərbaycan xalqının yenilməz ruhunu bir daha bütün dünyaya göstərir.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son iki il ərzində daha fəal və daha səmərəli islahatlar aparılmışdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar

mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru, sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı da gücləndirir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər – qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektoru 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu, hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz Cənub Qaz Dəhlizini vaxtında təhvil verməliyik, bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib,

həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olmuşdur, onlar da aradan götürüldü. Çünki Cənub Qaz Dəhlizi həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni – 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. "Şahdəniz-2" layihəsindən yaxın zamanlarda ilk qaz çıxarılacaq. Onu da deməliyəm ki, Cənub Qaz Dəhlizi, yəni, qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Prezident daha sonra əlavə edib: "Qeyd etdiyim kimi, "Azəri-Çıraq" yatağı ilə bağlı kontraktın uzadılması haqqında da tarixi qərar qəbul edilib. Ona görə bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcək. Ancaq yenə də deyirəm, gələcək fəaliyyətimiz üçün bu, bizdə bir rahatlıq hissi yaratmamalıdır. Biz fəal işləməliyik, qeyd etdiyim kimi, bu, sadəcə olaraq, bizim üçün əlavə maliyyə və siyasi resursdur.

Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma, eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi onabuna dilənsəydik, onda əlbəttə ki, biz müstəqil siyasət aparmaq imkanında olmaya bilərdik, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə Azərbaycan – açıq dənizlərə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Biz siyasətimiz, qətiyyətimiz, düzgün xarici siyasətimiz nəticəsində bunu da edəcəyik. Çünki xarici siyasət, ilk növbədə, daxili problemlərin həllinə yönəlib. Xarici siyasət daxili siyasətin davamıdır. Biz uğurlu xarici siyasəti təkcə ona görə aparmırıq ki, dünyada bizə olan rəğbət artsın. Bu, real işlərə çevrilir. Uğurlu xarici siyasət bu beynəlxalq layihələri də həll etməyə şərait yaradır. Çünki tranzit ölkə olmaq üçün sən mütləq qonşularla işləməlisən. Qonşular olmadan heç bir ölkə tranzit ölkə ola

bilməz. Bütün bunlar bir-birinə bağlı olan məsələlərdir. Bizim gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var – bütün sahələrdə, ictimai xidmət sahələrində, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində, bütün istiqamətlər üzrə. Sadəcə olaraq, bir çıxışda bütün istiqamətlər haqqında geniş danışmaq mümkün deyil. Ancaq mən əminəm ki, Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək. Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi Ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu".

Ölkə Prezidenti bu uğurlu siyasətin Dağlıq Qarabağ konfliktinin həllində müsbət rolunun istisnasız olduğunu bildirərək Azərbaycanın müstəqilliyinin ərazi bütövlüyü çərçivəsində dönməz, daimi olacağını əminliklə vurğulayıb.

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI qurultayında (8 fevral 2018-ci il) çıxışının mahiyyəti nədən ibarət idi?

– Məcburi köçkünlərin həyat tərzinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlərin əhəmiyyətini nə ilə izah edə bilərsiniz?

– Prezident İlham Əliyevin Dağlıq Qarabağ konfliktinin həllində (beynəlxalq kontekstdə) həyata keçirdiyi tədbirləri öyrənin.

DAĞLIQ QARABAĞ PROBLEMİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ

XIX əsrin əvvəllərində Cənubi Qafqazın ruslar tərəfindən işğal olunmasının azərbaycanlılar üçün bir sıra faciəvi nəticələri (Azərbaycan torpaqlarının ikiyə bölünməsi nəticəsində xalqımız ikiyə parçalandı, Azərbaycan dövlətçilik ənənələrinə güclü zərbə vuruldu, Azərbaycanın hakim elitasının yox edilməsi ilə bağlı cəhdlər, milli və dini ayrı-seçkilik və s.) oldu. Bu faciəvi sonluqlardan biri də İranda və Türkiyədə yaşayan ermənilərin kütləvi şəkildə azərbaycanlıların yaşadıqları tarixi ərazilərə, o cümlədən Yuxarı Qarabağa köçürülməsi ilə bağlı idi. Rus tədqiqatçısı N.N.Şavrov XX əsrin əvvəllərində (1908-ci il rəqəmlərinə söykənərək) yazırdı ki, hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyil. Onları buraya biz (ruslar. – S.M.) köçürmüşük [88, s.63]. O, həmçinin tarixi faktlara istinad edərək qeyd edirdi ki, təkcə 1828-1830-cu illərdə Qarabağın dağlıq hissəsinə rəsmən 124 min, qeyri-rəsmi olaraq isə xeyli çox – 200 min nəfər erməni köçürülmüşdür [84, s.63]. Göründüyü kimi, ermənilər davamlı olaraq Çar Rusiyasının səyləri ilə müsəlman türklərinin yaşadıqları tarixi ərazilərə köçürülmüş və demoqrafik vəziyyət onların xeyrinə dəyişdirilməyə çalışılmışdır.

1827-ci ildə erməni köçürmələrinin təşkilatçılarından biri olan erməni əsilli rus zabiti, polkovnik Q.Lazarev ermənilərə rus və erməni dillərində ünvanladığı şirnikləndirici müraciətində qeyd edirdi ki, onların İrəvan, Naxçıvan və Qarabağ torpaqlarında istədikləri yerə köçmələrinə icazə verilib və onlar üçün gəldikləri yerdə hər cür şərait yaradılacaq və köçərkən onlara hərtərəfli köməklik göstəriləcəkdir. Doğrudan da, Lazarevin dediyi kimi, Çar Rusiyası Azərbaycan müsəlman türklərinin yaşadığı torpaqlara ermənilərı köçürməklə onlara hər cür şərait yaratdı. Əlbəttə, çarizmin xristian ermənilərini bu bölgəyə köçürməkdə başlıca məqsədi onlardan öz çıxarları naminə istifadə etmək niyyətləri ilə bağlı idi. Bu niyyətlər öz yerində, ancaq ermənilər bu bölgəyə kütləvi şəkildə köçürüldükdən sonra qonşu dövlətlər və Cənubi Qafqaz xalqları üçün həmişə problemlər və

gərginlik yaradan bir qüvvəyə çevrildilər. Bu mənada Çar Rusiyası tərəfindən Azərbaycanın tarixi ərazilərinə köçürülən və birmənalı şəkildə dəstəklənən ermənilər sonradan azərbaycanlılar üçün də ciddi problemlər yaratdı. Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda ermənilərin köçürülməsinin acı nəticələri xatırlanaraq qeyd edilirdi ki, "1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi".

XX əsrin əvvəllərindən etibarən dünyada və bölgədə baş verən bir sıra hadisələrin fonunda imperialist güclərə alət olan ermənilərin fəallaşmasının şahidi oluruq. Onlar çarizmin təhriki ilə milli zəmində azərbaycanlılarla münaqişələrə cəlb olunaraq, Azərbaycan ərazilərindəki yaşayış məntəqələrinə basqınlar düzəldir, qətllər törədir, əhalinin əmlakını, yaşayış məskənlərini dağıdaraq onlara böyük miqdarda maddi zərər vururdular. Bu cür əməllərin törədildiyi məkanlardan biri də Qarabağın dağlıq bölgəsi idi. 1918-ci ilin mayında Ermənistan daşnak hökumətinin yaranması ilə ermənilərin ərazi iddiaları və təxribatları daha sistemləşmiş və təşkilatlanmış şəkildə həyata keçirilməyə başladı. Daşnak hökumətinin göz tikdiyi ərazilərdən biri də Zəngəzur və Qarabağın dağlıq hissəsi idi. 1918-ci ilin iyulunda Ermənistan hakimiyyətinin birbaşa təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsində yaşayan erməni əhalisinin bir qismi Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan imtina edərək öz müstəqilliklərini elan etdilər. Eyni zamanda Ermənistan hökuməti öz işğalçılıq planlarını həyata keçirmək üçün oraya silahlı qüvvələr göndərdi. Lakin Azərbaycan hökumətinin qəti addımları sayəsində erməni qoşunları məğlub edilərək geriyə oturduldu və X.P.Sultanovun rəhbərliyi ilə mərkəzi Şuşa şəhəri olmaqla Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradıldı. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun fəaliyyəti nəticəsində erməni basqınlarının, qırğın-

ların qarşısı böyük ölçüdə alınsa da, ermənilərin torpaq iddiaları və təxribatları davam etməkdə idi. AXC-nin süqutundan sonra, bolşevik Rusiyasının müdaxiləsi ilə Azərbaycanda sovetlər hakimiyyətinin qurulması ermənilərin işinə yaradı desək, yanılmarıq. Məhz Bolşevik Rusiyasının təhriki və sovet Azərbaycanının rəhbərliyinə soxulmuş ermənilər və onları müdafiə edən qüvvələr sayəsində Azərbaycandan 9 min kv. km.-dən çox ərazi alınaraq Ermənistan Sovet Respublikasının ərazilərinə qatıldı. Qarabağın dağlıq hissəsindəki ərazilərin Ermənistana birləşdirilməsi mümkün olmadıqda, onlar başqa varianta əl ataraq, Qarabağın dağlıq hissəsində ermənilərin yaşadığı bölgəyə muxtar vilayət statusu verilməsi ilə bağlı fəaliyyətə başladılar. Nəticədə mərkəzin təhriki və Azərbaycan rəhbərliyinin razılığı ilə 1923-cü ildə DQMV yaradıldı. Sonralar Ə.Həsənov bu hadisələri təhlil edərək yazırdı: "Sovetləşmənin ilk illərində Azərbaycana münasibətində Sovet Rusiyasının mövqeyindəki bu meyil daha çox Dağlıq Qarabağ məsələsinə dair özünü göstərirdi. Məhz elə bunun nəticəsi idi ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilərə 1923-cü ildə muxtar vilayət statusu verildi. Məlumdur ki, bu siyasət məhz Sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə həyata keçirildi. Azərbaycanın tərkibində DQMV-nin yaradılması, heç şübhəsiz, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından və düşmənçiliyindən istifadə edən Sovet Rusiyasının uzaqgörən və məqsədyönlü siyasətinin nəticəsi idi. Sonrakı tarix göstərdi ki, bu, ermənilərin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin və vasitə imiş" [13, s.101]. Həqiqətən də ermənilərə Qarabağın dağlıq bölgəsində muxtar vilayət statusunun verilməsi sonrakı ərazi iddiaları üçün zəmin hazırlamaqla yanaşı, bu iddiaların gerçəkləşməsi üçün plasdarm rolunu oynadı.

Ermənilər sovet hakimiyyəti qurulduqdan sonra da heç vaxt ərazi iddialarından əl çəkmədilər və zaman-zaman bu iddiaları dövrün tələblərinə uyğun olaraq gündəmə gətirdilər. Belə cəhdlərdən biri 1945-ci il noyabr ayında baş vermişdi. Həmin vaxt Ermənistan KP MK-nın birinci katibi kimi çalışan Q.Arutinov İ.Stalinə müraciət ünvanlayaraq, Dağlıq Qarabağın Ermənistan SSR-lə həmsərhəd olduğunu, iqtisadiyyatı ilə guya sıx bağlılığını əsas gətirərək, onun Ermənistan SSR-ə birləşdirilməsi məsələsini irəli sürdü. Həmin

müraciət məktubunu İ.Stalin K.Malenkova ünvanlayır. O isə, öz növbəsində, cavab üçün sənədi Azərbaycan SSR rəhbərliyinə göndərir. Dağlıq Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğu haqqında geniş məlumat verən M.C.Bağırov cavab məktubunun sonunda bildirir ki, Şuşa rayonunu çıxmaq şərti ilə Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycana qaytarılsın.

Ötən əsrin 60-cı illərinin sonu–70-ci illərinin əvvəllərində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə birləşdirilməsi məsələsi hətta Kremlin özündə və Siyasi Büroda müzakirə edilən məsələlərdən birinə çevrilmişdi [90]. Belə iddiaların gerçəkləşməsinin qarşısının alınmasında 50 ildən artıq Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan şəxs kimi H.Əliyev cənablarının da böyük xidmətləri olmuşdur. Çıxışlarının birində o özü bu məsələyə toxunaraq söyləyirdi: "30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam" [92]. Belə iddialardan biri də Ulu öndərin Azərbaycanda dövlət rəhbəri olduğu zaman 1977-ci ildə yeni Konstitusiya layihəsinin hazırlandığı zaman baş vermişdi. H.Əliyev sonralar çıxışlarının birində bu hadisəni xatırlayaraq deyirdi: "Ermənilər Konstitusiya layihəsi hazırlandığı bir il ərzində komissiyanın ünvanına gələn çoxlu sayda məktublarda tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycandan alınıb Ermənistan SSR-ə verilsin. Hətta bu məsələni komissiyanın müzakirəsinə çıxarmaq cəhdləri də olmuşdu. Olan hadisələri danışıram, məni düz başa düşün. O vaxt bunun qarşısını ala bildim. Nə qədər çətin olsa da, öz iradəmin, inadımın köməyi ilə Azərbaycan xalqının başının üstünü almış bu fəlakəti dəf edə bildim. Buna baxmayaraq, Dağlıq Qarabağda məsələni yenə də qızışdırdılar. Ona görə də mən respublikanın rəhbəri seçiləndən sonra, etiraf edim ki, Dağlıq Qarabağın inkişafı üçün daha münasib ab-hava yaradır, onun iqtisadiyyatının inkişaf etdirilməsinə diqqət yetirirdik" [6, s.128].

Tarixi gedişatın müxtəlif mərhələlərində baş verən böhranlı vəziyyətlərdən, kataklizmlərdən öz xeyirlərinə bacarıqla istifadə etməyi bacaran ermənilər XX əsrin 80-ci illərinin ortalarından etibarən başlanan SSRİ kimi nəhəng bir gücün tarixi səhnədən çıxması ilə sonuclanan hadisələrdən də öz xeyirlərinə faydalana bildilər. Belə ki, onlar mərkəzi sovet hakimiyyətinin zəifləməsindən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddiaları yeniləyərək onu böyük bir hərəkata çevirə bildilər. Bu işdə Mixail Qorbaçov başda olmaqla o dövrdə ki, SSRİ rəhbərliyinin də özünəməxsus "xidmətləri" olmuşdur. Hərəkata start Mixail Qorbaçova yaxınlığı ilə seçilən akademik Abel Aqanbekyanın 1987-ci ilin noyabrında Fransada "Humanite" qəzetinə Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu haqqında danışması ilə başladı. Abel Aqanbekyanın Qarabağ haqqında bəyanatı ani olaraq bir çox xarici erməni qəzet və jurnallarının, Parisdəki "Ayb" radio stansiyasının, "Azadlıq" və "Amerikanın səsi" radiolarının erməni redaksiyalarının mərkəzi mövzusuna çevrildi. Var-dövlətinə görə ikinci diasporun çoxsaylı siyasi təşkilatları hərəkətə gəldi: "İnqilabçı daşnaklar", "İnqilabçı ermənilər ittifaqı", "Kəndli azadlığı", "Birləşmiş Ştatların Şərq erməniləri", "Kilikiya", "Jirair", "Ermənistanın müdafiəçisi" və "Gənc erməni daşnakları" partiyaları [92, s.11]. Daxildə də (SSRİ miqyasında. – S.M., T.M.) geniş təbliğat kompaniyasına başlayan ermənilər Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı Moskvaya 10 minlərlə müraciətlər göndərirdilər. Qorbaçovun köməkçiləri işləyən erməni əsilli Şahnazarov və Brutensin səyləri ilə erməni nümayəndələrinin ölkə rəhbərliyi ilə görüşləri təşkil olunur, mərkəzi KİV-də xüsusilə də radio və televiziya ilə erməni millətçilərinin davamlı olaraq çıxışları təşkil edilirdi. Bütün bu addımları ilə ermənilər beynəlxalq və ümumittifaq miqyasında ictimai rəyi öz xeyrinə dəyişərək, problemin mahiyyətindən xəbərdar olmayan milyonlarla insanda Dağlıq Qarabağın ermənilərə məxsusluğu təsəvvürünü yarada bildilər. Bu işdə o zamankı SSRİ və Azərbaycan rəhbərliyinin adekvat addımlar ata bilməməsi, qətiyyətsizliyi, eləcə də ermənilərin separatçı hərəkətlərini gücləndirə biləcək fəaliyyətlərə rəvac vermələri və s. öz rolunu oynamış oldu. Bu dövrlərdə Moskvada yaşamaq zorunda qalan və təzyiqlərlə üzləşən H.Əliyev cənablarını

baş verən proseslər çox ciddi narahat edirdi. O Sov. İKP MK-nın baş katibi Mixail Qorbaçovla, onunla mümkün olmadıqda Yeqor Liqaçovla, Viktor Çebrikovla, Sergey Kryuçkovla görüşüb Qarabağ məsələsinin həll edilməsi barəsində danışmaq istəmişdi. Sonralar bu məsələləri xatırlayaraq deyirdi: "Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır – deyirdim. Onların mənə cavabı isə bu idi: "Biz Qarabağda erməni – azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik". H.Əliyev 1990-cı ildə yanvar hadisələri ilə bağlı Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki tarixi çıxışında da Qarabağ məsələsinə toxunaraq, bu problemin böyüməsində çəkinmədən ölkə rəhbərliyini günahkar hesab edirdi: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya, siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmazdı" [74, s.267].

Problemin ictimailəşməsində və SSRİ hakimiyyətinin zirvəsində olan bir sıra şəxslərin ermənipərəst mövqe tutmasında, mərkəzi hakimiyyətin (SSRİ) müxtəlif strukturlarında yerləşmiş erməni lobbisinin nümayəndələri Abel Aqanbekyan (M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri), Şahnazarov, Brutens (Baş katibin köməkçiləri), Sitaryan, Xaçaturov (Baş nazir Rıjkovun yaxın adamları) və başqaları mühüm rol oynadılar [90, s.11].

Qarabağ münaqişəsinin alovlanaraq geniş vüsət almasında M.Qorbaçov başda olmaqla keçmiş SSRİ rəhbərliyinin ermənipərəst mövqe tutmaları ayrıca qeyd edilməlidir. Hələ, 1987-ci ildə Parisdə olarkən Abel Aqanbekyan daşnak elitası ilə söhbətlərində etiraf etmişdi ki, bu məsələ (Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu – S.M.) Mixail Qorbaçovla razılaşdırılmışdır. Digər tərəfdən Sovet İttifaqının mərkəzi hakimiyyət orqanları tərəfindən problemin böyüməməsi və vaxtında qarşısının alınması ilə bağlı qəti tədbirlərin görülməməsi də, bu məsələdə ermənilərlə qabaqcadan sövdələşmə ilə bağlı fikirlərin yaranmasına imkan verir. Heydər Əliyev sonralar həmin hadisələri xatırlayaraq deyirdi: "Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbeqyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" – demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmış-

dı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm" [95].

Təbii ki, ciddi müqavimətlə rastlaşmayan ermənilər bu yöndə ki, fəaliyyətlərini get-gedə intensivləşdirməyə başladılar. SSRİ miqyasında KİV-də ermənilərin əzabkeş, azərbaycanlıların qəddar, vəhşi obrazı formalaşdırılmağa başlandı. Eyni zamanda vilayətdə yaradılmış "Kurunk", "Qarabağın Birləşdirilməsinin Təşkilat Komitəsi" ("Qarabağ" komitəsi) və s. kimi qurumların təşkilatçılığı ilə geniş təbliğat kampaniyası ilə yanaşı əhalinin silahlandırılmasına da başladı. Ermənistandan, digər respublika və dövlətlərdən ermənilər, xüsusilə də kriminal aləmlə əlaqəsi olanlar bu proseslərə cəlb olunurdu. Onlara xüsusi təlimlər keçirilir və onlar müxtəlif yollarla gətirilmiş silahlarla silahlandırılırdılar. Görkəmli yazıçı Y.Pompeyev Qarabağa həsr etdiyi kitabda emissarlarla bağlı məsələlini belə şərh edirdi: "Yerevanın elçiləri bütün 1987-ci il ərzində Qarabağa gedərək müəssisələrdə və erməni kəndlərində yığıncaqlar təşkil edir, muxtar vilayətin statusunu dəyişmək qətnamələrinin altına imzalar toplayırdılar. Mərkəz ermənilərin bu fəaliyyətlərinin qarşısını almaq əvəzinə, Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda növbəti addımlarını atmağa başladı. Belə addımlardan biri "Azərbaycanın SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il yanvarın 12-də qəbul etdiyi qərar idi. Həmin qərara əsasən ermənipərəst mövqeyi ilə tanınan Arkadi Volskinin rəhbərliyi ilə Muxtar vilayətdə Xüsusi İdarəetmə forması yaradılır və DQMV-nin ərazisində yerləşən bütün müəssisələr, idarələr və təşkilatlar, onların filialları və digər struktur bölmələri, Azərbaycan SSR Nazirlər Soveti-nin rəyini nəzərə almaqla, SSRİ Nazirlər Sovetinin müəyyən etdiyi məsələlər üzrə komitənin tabeliyinə verilirdi. Əslində bu Azərbaycan Konstitusiyasının tələblərinin kobud surətdə pozulması və DQMV-nin faktiki olaraq Azərbaycandan qoparılması demək idi. Komitənin yaradılması ilə Azərbaycan SSR-in bütün dövlət və ictimai orqanlarının DQMV-dəki səlahiyyətləri dayandırıldı. Ulu öndər bu qərarı haqlı olaraq "Azərbaycan Respublikasının, Azərbaycan xalqının, necə deyərlər, kürəyinə süngü sancmaq" kimi dəyərləndirirdi.

A.Volskinin hakimiyyətə başladığı vaxtdan az sonra DQMV-nin 55 yaşayış məntəqəsindən azərbaycanlıların silahları yığıldı. Laçın-Gorus yolu ilə Ermənistandan gətirilən silahlar isə ermənilərə paylandı. A.Volskinin hakimiyyəti dövründə Xankəndi şəhərindən 12 min azərbaycanlı qovuldu, 3 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirliklərinin və idarələrinin tabeliyinə verildi. Bu, SSRİ Nazirlər Sovetinin 6 may 1989-cu il tarixli qərarı ilə həyata keçirilirdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bayrağı, gerbi, blankı və s. ləğv edildi. DQMV-nin ərazisində Ermənistanın bayrağı və gerbi qaldırıldı [97, s.110]. Məhz Bakıda və Azərbaycanın digər bölgələrində Mərkəzin bu addımına qarşı yüz minlərlə insanın iştirakı ilə baş verən etiraz dalğaları və Azərbaycan ictimaiyyətinin təkidi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda XİK-i ləğv etdi.

Ermənilərin Qarabağı Azərbaycandan ayırmaq yönündəki addımlarının müəyyən mənada uğurları, həm də o vaxtlar Azərbaycanda hakimiyyətdə olanların ermənilərin separatçılıq və quldurluq fəaliyyətləri qarşısında acizlik nümayiş etdirməsi və yenə də mərkəzin tapşırıqlarını danışıqsız yerinə yetirmələri ilə bağlı idi. Bircə faktı qeyd edək ki, Qarabağ məsələlərinin alovlandığı və geniş vüsət aldığı 1987–1990-cı illər arasında "Dağlıq Qarabağ məsələsi"nə Azərbaycan SSR Ali Sovetinin sessiyasında, nə də başqa hakimiyyət orqanlarında bir ümummilli məsələ kimi ciddi və hərtərəfli müzakirə edilməmiş, təsirli tədbirlər görülməmişdi. H.Əliyev 1991-ci il Azərbaycan SSR Ali Sovetinin fevral sessiyasındakı məşhur çıxışında respublika rəhbərliyini Dağlıq Qarabağ məsələsində göstərdikləri fəaliyyətsizliyə görə ciddi tənqid atəşinə tutaraq deyirdi: "Burada Viktor Polyaniçko deyir ki, Dağlıq Qarabağın əldən getməsinə Qorbaçov yol verir. Düzdür, mən də bu fikirdəyəm. Ölkənin rəhbəri Qorbaçovun bu barədə Azərbaycana xəyanət mövqeyi açılıb göstərilsin və tariximizə yazılsın... Ancaq baş vermiş təhlükəli məsələnin qarşısını alıb Ermənistanı Ermənistan kimi, Azərbaycanı da Azərbaycan kimi saxlamaq olardı. Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik adam edə bilərdi. Ancaq Qorbaçovda bu müdriklik çatmadı və Azərbaycan rəhbərlərində də cürət, qeyrət, cəsarət çatmadı ki, öz xalqının mənafeyini, öz xalqının namusunu qorusunlar..." [90, s.297].

Arxasında əvvəllər SSRİ rəhbərliyi dayanan, sonradan isə yeni yaranmış Rusiya Federasiyası rəhbərliyinin dəstəyini qazanan ermənilər getdikcə azğınlaşaraq Dağlıq Qarabağda olan azərbaycanlıların məskunlaşdığı yaşayış yerlərinə basqınlar edərək, qırğınlar törədir, əhalini didərgin vəziyyətinə salırdılar. Cəzasızlıq yeni-yeni cinayətlərin törədilməsinə rəvac verirdi. 1992-ci ilin fevralında erməni separatçıları 366-cı sovet alayının qüvvələrindən istifadə etməklə körpə uşaqların, qocaların, qadınların da qətlə yetirildiyi XX əsrin dəhşətli faciəvi hadisələrindən olan Xocalı soyqırımını törətdilər. Maraqlı məsələlərdən biri ondan ibarətdir ki, o vaxtlar dünyanın bir çox dövlət başçıları bu faciə ilə bağlı xalqımıza başsağlığı verdiyi və ermənilərin qəddar hərəkətlərini pislədiyi halda, Rusiya Federasiyasının rəhbəri B.Yeltsin cinayətkarcasına susdu və heç olmasa respublikanın dinc əhalisi arasında olan kütləvi qırğınla bağlı adi başsağlığı da vermədi.

1992-1993-cü ildə erməni separatçıları DQMV-nin ərazisindəki azərbaycanlıların yaşadığı bütün yaşayış məntəqələrini silahlı müdaxilə yolu ilə ələ keçirdilər. Üstəlik DQMV-nin ətrafında yerləşən 7 rayon da işğala məruz qaldı. İnsanların evləri yandırılaraq, əmlakları qəsb edildi. 100 minlərlə insan respublikanın müxtəlif bölgələrində köçkün həyatı yaşamaq zorunda qaldı. Digər tərəfdən Ermənistanla aparılan müharibənin doğurduğu ağır nəticələr, iqtisadi tənəzzül, sosial gərginlik, yeni separatçılıq meylləri, xüsusilə də 1993-cü ilin iyun ayının əvvəllərində S.Hüseynovun rəhbərliyi ilə baş vermiş insan itkiləri və Qarabağ cəbhəsində vəziyyətin ermənilərin xeyrinə dəyişməsi ilə sonuclanan hərbi qiyam və s. ölkədə onsuzda gərgin olan vəziyyəti daha da ağırlaşdırdı. Ölkə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə bir ağır vaxtda xilaskar axtarışında olan xalq əvvəllərdən də yaxşı tanıdığı və güvənə biləcəyi lideri – H.Əliyevi hakimiyyətə gətirilməsi uğrunda mübarizəyə başladı. Nəticədə xalqın güclü təzyiqi ilə o vaxt hakimiyyətdə olan qüvvələr H.Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldılar. Ölkədəki ağır vəziyyəti dəyərləndirən və xalqın ona olan böyük ehtiramını və etimadını nəzərə alaraq, o, Gəncə qiyamı da daxil olmaqla problemlərin həlli ilə ciddi şəkildə məşğul olmağa başladı. Tezliklə xalq kütlələrinin təkidi və təzyiqi öz nəticələrini verməyə başladı. Xalqın onu hakimiyyətdə görmək istəyi gerçəkləşdi və iyunun

15-də H.Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Sonra Bakını tərk edən ovaxtkı prezidentin səlahiyyətlərini icra etməyə başladı və nəhayət 1993-cü ilin oktyabr ayının 3-də ölkə prezidenti seçildi. O, oktyabrın 10-da andiçmə mərasimində söylədiyi nitqində üzərinə düşən məsuliyyəti və tarixi missiyanı dəyərləndirərək, xalqına onun ümidlərini doğrultmaq sözü verirdi: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm" [48].

Hər bir xalqın həyatında baş verən böhranlı vəziyyətlərdən və tarixi burulğanlardan uğurla çıxa bilməsi xeyli dərəcədə onun qismətinə düşən siyasi liderdən asılıdır. Onların fəaliyyətindən asılı olaraq xalqlar faciəyə də düçar ola bilər, uğur da qazana bilərlər. Öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı və digər üstün şəxsi keyfiyyətləri ilə fərqlənən, toplumu motivasiya edərək, ardınca apara, onların gücünü və enerjisini toparlayaraq ağrılı problemlərin həlli istiqamətinə yönəldə bilən liderlər bir qayda olaraq öz xalqını müxtəlif xarakterli təlatümlərdən xilas edə bilmiş və onu uğura qovuşdura bilmişdir. H.Əliyev də belə liderlərdən olmuş və öz xalqı üçün dəyişikliyin, praqmatizmin, rasional düşüncənin və inkişafın rəmzinə çevrilmişdir. H.Əliyevin həyat təcrübəsi və üstün şəxsi keyfiyyətləri ona imkan verirdi ki, mövcud hadisə və proseslərin mahiyyətinə vara bilsin və ondan öz xalqının çıxarlarına uyğun faydalansın. Qazaxıstanın prezidenti görkəmli siyasi xadim Nursultan Nazarbayev onu qorxmaz, problemlərin üzərinə gedən, situasiyanı düzəltməyə qadir şəxs kimi qiymətləndirərək yazırdı: "Düşmənlərin hədə-qorxusuna, dostların ehtiyatlı davranma məsləhətinə baxmayaraq, baş verən hadisələrdən kənarda qalıb seyrçi rolunu oynaya bilmədi və vətənə döndü. Bir vətəndaş və vətənpərvər kimi xalqı ilə birgə həmin çətinlikləri yaşamaq istədi. O, təkcə bununla kifayətlənmədi, öz nüfuzundan və təcrübəsindən istifadə edərək situasiyanı düzəltməyə qalxdı [9, s.527].

Bakıya döndükdən və Respublika rəhbərinin səlahiyyətlərini icra etdiyi ilk günlərdən etibarən Qarabağ probleminin həlli məsələ-

ləri H.Əliyevin gündəmində dayanan ən başlıca məsələlərdən biri idi. Prezident seçildikdən sonra ilk çıxışlarından birində o vurğulayırdı: "Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı – bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır" [90, s.203].

Ölkə rəhbəri olduqdan sonra, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində H.Əliyevin atdığı addımlar çoxşaxəli olub, fərqli tərəfləri ilə diqqəti cəlb edirdi. Bu ilk növbədə ölkənin ağır durumunda Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması istiqamətində təxirəsalınmaz addımların atılması ilə bağlı idi. Vəziyyət çox gərgin idi, ermənilərin işğalçı hücumları davam edirdi. Əsas istiqamətlərdən biri kimi H.Əliyev aktiv diplomatik fəaliyyət yürütməklə Azərbaycana olan təcavüzün qarşısının alınması üçün Ermənistana beynəlxalq təzyiqlərin gücləndirilməsinə çalışırdı. Xatırladaq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra bu problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməmişdi. Bunun başlıca səbəbi ondan ibarət idi ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki bu problem SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi çıxış edirdi və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi. Digər tərəfdən xaricdəki erməni lobbisinin həm separatçılara göstərdiyi birbaşa dəstək və dünyanın aparıcı KİV-lərindəki çıxışları ilə antiazərbaycan mövqeyinin formalaşdırılması, eləcə də Azərbaycan ətrafında yaradılan informasiya blokadası və Azərbaycanın beynəlxalq imicinin zədələnməsi kimi amillər də prosesə ciddi təsir edirdi. H.Əliyev ölkə rəhbəri kimi yenidən fəaliyyətə başladığı ilk vaxtlardan xarici ölkə rəhbərləri və beynəlxalq qurumların liderləri ilə tez-tez görüşlər keçirir və bu görüşlərdə əsas diqqəti münaqişəyə yönəldərək Ermənistanın işğalçılıq siyasətinin həqiqi mahiyyətini açmağa çalışırdı. O dövrün müasirlərinin yaxşı yadında olar, Ulu öndər hər dəfə xarici ölkələrə səfər edəndə və ölkə rəhbərləri ilə

görüşlərində özü ilə apardığı Dağlıq Qarabağın tarixən Azərbaycan torpağı olmasını sübut edən müxtəlif xəritələri nümayiş etdirir, bir müəllim, ustad kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəblərini və mahiyyətini onlara izah edirdi. O bəyanatlarında bildirirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ermənilərin beynəlxalq ictimaiyyətə təqdim etdiyi kimi milli münaqişə zəminində baş verməyib, əslində bu Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü torpaq iddialarından başqa bir şey deyil. Ona görə də o münaqişənin Dağlıq Qarabağla deyil, Ermənistanla, onun ərazi iddiaları və təcavüzü ilə birbaşa olduğunu irəli sürərək deyirdi: "Biz deyirik – bu formulu insanların beyninə mən yeritmişəm – Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: Amma qalanları nə deyir – Dağlıq Qarabağ münaqişəsi. Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır. Mən dəfələrlə demişəm, əgər belədirsə, qoy Ermənistan kənara çəkilsin. Biz Dağlıq Qarabağla nə danışıqlar apararıq, nə edə bilərik, öz işimizdir. Biz bunu çox tez müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermənistan bir ölkədir. Artıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kəs tanımaq istəmir" [90]. Bircə faktı qeyd edək ki, Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir və bu görüşlərin demək olar ki, hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur [99, s.133]. Bundan başqa 1993-2003-cü illər ərzində Azərbaycan prezidenti Ermənistan prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk Qrupunun nümayəndələri ilə isə 140-a qədər görüş keçirmişdir [100].

H.Əliyevin beynəlxalq səviyyəli görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair irəli sürdüyü əsas müddəaları, əsasən aşağıdakı kimi qruplaşdıra bilərik:

– Ermənistanın ölkəmizə qarşı açıq-aşkar təcavüzü bütün beynəlxalq hüquq norma və prinsiplərinə ziddir, aqressor cilovlanmalı və cəzalandırılmalıdır;

– Azərbaycan Respublikasının Prezidenti münaqişənin siyasi yollarla həllinə və münaqişəni dinc vasitələrlə nizama salmağın tərəfdardır. Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də bu

yöndə (münaqişəni dinc vasitələrlə nizama salmağın) fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşır;

– Dağlıq Qarabağın müstəqilliyi ilə bağlı irəli sürülən iddialar qeyri-qanuni olub, beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır və ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir;

– Dağlıq Qarabağ bölgəsinin ermənilər, digər ölkələrdə yaşayan ermənilər kimi Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər;

– Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

– Azərbaycan dövləti tərəfindən Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilir;

– Ermənistan Avropada və bütün dünyada təhlükəsizliyin, sülhün bərqərar olunması, əməkdaşlığın inkişafı yolunda böyük bir maneədir.

H.Əliyev problemin həllində beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin ikili standartları və aqressorla bizi eyni gözdə görmələri, bəzən hətta Ermənistanın mövqeyinin müdafiə edilməsi və s. kimi hallarla üzləşsə də yorulmadan, ardıcıl və davamlı olaraq bu münasibətlərin dəyişilməsinə çalışırdı. Bəzən o çəkinmədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında beynəlxalq təşkilatların vaxtilə yaranmış imkanlardan lazımınca yararlana bilməmələrini həmsöhbətinin diqqətinə çatdıraraq, onları kəskin tənqid atəşinə tuturdu: "Əslində bu məsələnin həllində mürəkkəb bir şey yoxdur, onu sadəcə olaraq həyata keçirmək lazımdır və həmin prinsiplərdən heç vaxt geri çəkilmək olmaz. Lakin təəccüblü burasıdır ki, beynəlxalq təşkilatlar, böyük dövlətlər, bu məsələlərdə vasitəçilik edən qüvvələr bu sadə, elementar, eyni zamanda tamamilə əsaslı olan prinsipləri vaxtilə nədənsə kənara qoyublar. Əgər belə olmasaydı, məsələ çoxdan həll edilərdi. Beynəlxalq təşkilatlar, bu məsələnin həllində iştirak edən böyük dövlətlər, vasitəçilik edən qüvvələr Ermənistana və Dağlıq Qarabağdan olan adamlara gərək açıq surətdə bildirəydilər ki, Dağlıq Qarabağ heç vaxt müstəqillik əldə edə bilməz, Azərbaycanın tərkibindən çıxıb Ermənistana qoşula

bilməz. Əgər bütün bunlar onlara və onları dəstəkləyən qüvvələrə vaxtında kəskinliyi ilə deyilsəydi, başa düşərdilər ki, apardıqları müharibə nəticəsiz qalacaqdır. Təəssüf ki, belə olmayıb" [100].

Sonda onu qeyd edək ki, H.Əliyevin fəaliyyəti və böyük zəhməti öz bəhrəsini verməyə başladı. Onun yenidən hakimiyyətdə olduğu 10 ildə ölkə xaos və qarşıdurmadan xilas oldu, arzulanan sabitlik mühiti yaradıldı, iqtisadiyyat dirçəldi və inkişaf etməyə başladı, 1994-cü ildə ölkə üçün vacib sülh sazişi imzalandı, beynəlxalq qurumlar tərəfindən Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul olundu. Azərbaycanın beynəlxalq nüfuzu artdı, Azərbaycanın səsi daha tez-tez nüfuzlu beynəlxalq kürsülərdən eşidilməyə başladı.

Sual və tapşırıqlar:

– Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı fərmanının tarixi əhəmiyyəti nədən ibarətdir?

– Ulu öndər Heydər Əliyevin dəfələrlə ermənilərin Dağlıq Qarabağı Ermənistanın tərkibinə verilməsi iddialarının qarşısının alınmasında hansı tədbirlər həyata keçirirdi?

– Qarabağ hadisələrinin alovlanmasında mərkəzin (Moskva) M.Qorbaçovun və onun ətrafındakıların ermənipərəst mövqelərini nə ilə izah edərdiniz?

– Heydər Əliyevin beynəlxalq aləmdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair əsas müddəalarını, diplomatik fəaliyyətini öyrənin.

QARABAĞ ATLARI

Söhbət Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixindən gedirsə, dünyada məşhur olan Qarabağ atlarından danışmamaq olmaz. Tarixi faktlara istinadən demək olar ki, Qarabağ atı qədim Azərbaycan atlarının bir cinsidir. Hələ qaynaqlarda ərəb atları haqqında heç bir məlumat olmadığı qədim dövrdə Azərbaycan atları, o cümlədən də Qarabağ atı tanınmış, şöhrət qazanmış və bir çox Şərq ölkələrində geniş yayılaraq, ən qiymətli atlardan sayılmışdır. Bu sahədə aparılan araşdırmalara istinad edərək qeyd etmək olar ki, Qarabağ atları Manna, Midiya, Atropatena və Albaniya atlarının nəsillərindəndir. Qarabağ atları əsrlər boyu roma, sasani, ərəb, səlcuq, monqol və s. atların qarşılıqlı təsiri nəticəsində müəyyən dəyişikliyə uğrasa da, öz əsli-kökünü saxlaya bilmişdir. XVIII-XIX əsrlərdə Qarabağ atlarının cinsi xeyli yaxşılaşdırılmışdır. Qarabağ atları Türkiyə, İran, Gürcüstan, Şimali Qafqaz, Rusiya, Qazaxıstan, eləcə də Qərbi Avropa atçılığına böyük təsir göstərmişdir.

1843-cü ildə Rusiyada nəşr olunan "Konnozavodstvo i oxota" jurnalında Qarabağ xanlığında çox yaxşı cins yetişdirildiyi yazılıb. Jurnal Qərbdə ingilis atları kimi Şərqdə Qarabağ atlarının məşhur olduğunu da qeyd edib. Deməli, tarixin yaddaşında Qarabağ atlarının şöhrətinin bütün Yaxın Şərqə kimi yayıldığı bildirilirsə, onun şərhinə ehtiyac qalmır. Lakin araşdırdığımız problemlə bağlı olaraq fikirlərimizi əsaslandırmaq üçün digər mənbələrə də istinadən söyləmək olar ki, hətta məşhur təmiz qanlı qaçağan at cinsinə malik olan ingilislər də Qarabağ atı ilə daima maraqlanırdılar. Hətta bu atların gözəlliyi Şuşaya gələn səyyahların da diqqətini çəkmişdir. 1865-ci ildə Şuşada olan görkəmli rus rəssamı Vasili Vereşşagin belə yazırdı: "Şuşanın yaxınlığında Mehdiqulu xanın qızının böyük, qədimi evi vardı və bayram tədbirlərinə xüsusi təmtəraq bəxş edən ən bahalı, əzəmətli və görkəmli atlar ona məxsus idi. Qeyd edim ki, Qafqazda hərbi qulluqda olan rus general və məmurları da Qarabağ atlarından faydalanırdılar" [97, s.46].

Qarabağ atlarının dünya şöhrəti qazanmasına bir sıra amillər də səbəb olmuşdur. Məsələn, il ərzində iki dəfə Cıdır düzündə atçaparlar arasında yarışlar keçirilir, qaliblərə qiymətli hədiyyələr verilərdi.

İbrahim xanın atlarına dünya bazarında tələbat çox böyük idi. Xurşidbanu Natəvan da atçılıqla fəal məşğul olurdu və onun bütün ölkədə məşhur olan ilxısı vardı. Şairənin Qarabağ atları 1867-ci ildə Parisdə, Moskvada və Tiflisdə ümumdünya kənd təsərrüfatı sərgilərində iştirak edir və hər dəfə də qalib gələrək, qızıl medallarla mükafatlandırılmışdı. Məhz bu səbəbdəndir ki, Tiflis quberniyasının Sıqnaq və Telov qəzalarında 200-ə qədər Qarabağ atı var idi. Zaqafqaziyada məşhur baytar həkimi Hanni 1854-cü ildə yazır ki, Zaqafqaziyada məşhur və dövlətli adamların hamısı Qarabağ atı saxlamağa çalışarmışlar. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Qarabağ atları XIX əsrin ortalarından başlayaraq artıq ümumdünya at sərgilərində iştirak edib. 1866, 1868, 1872-ci illərdə Moskvada, 1867-ci ildə Parisdə ümumdünya at sərgilərindən mükafat və medallarla qayıdıb. Hətta iştirakçı atların şəkilləri Fransa və Vyanada çap olunan jurnallarda yer alıb. Bu söylədiklərimizdən açıq-aydın görünür ki, Qarabağ at zavodu Rusiyanın və bəzi Avropa dövlətlərinin atçılığına az xidmət göstərməyib. Qeyd olunduğu kimi, ən məşhur at cinslərinə malik ingilislər belə Qarabağ atlarına maraq göstəriblər. Məhz həmin maraqların nəticəsi idi ki, 1823-cü ildə ingilislər Mehdiqulu xanın zavodundan 60 baş ən sağlam madyan alıb aparıblarmış. Deyilənə görə, bu, zavodu tənəzzülə sürükləyib. 1826-cı ildə İran qəsbkarlarının xeyli Qarabağ atını ələ keçirməsi də Qarabağ atçılığına böyük zərbə vurub. Təbii ki, belə hallar tez-tez təcavüzə məruz qalan Azərbaycanın Qarabağ bölgəsində vaxtaşırı baş vermişdir. İstər-istəməz buradan belə bir sual yaranır. Qarabağ haqqında sadalanan sanballı tarixi faktlar içərisində ibtidai mənşəyi, dini-məzhəbi, kökü, qondarma dili olan ermənilərin mövcudluğu və xidmətləri barədə hansısa məlumata rast gəlinirmi? Əlbəttə ki, yox. Çünki bunu təsdiq edən heç bir sənəd yoxdur.

Sual və tapşırıqlar:

– Qarabağ atlarının qədimliyini və onların hansı cinsdən olduğunu faktlarla necə göstərə bilərsiniz?

– Xarici ölkə müəlliflərinin Qarabağ atları ilə bağlı hansı fikirlərini bilirsiniz?

– Dünyada şöhrət qazanmış Qarabağ atları və bu atlar haqda tarixi şəxsiyyətlərin söylədikləri fikirlərdən danışın.

QARABAĞ ƏDƏBİYYATI

Qarabağ ərazisində məskunlaşdırılmış ermənilərin bu torpaqlarla heç bir aidiyyatının olmadığını sübuta yetirmək üçün Qarabağ ədəbiyyatına da diqqət yetirməyi zəruri hesab edirik. Azərbaycan-türk mədəniyyətində, əbədiyyatında bir sıra faktların ilkinliyi, özülü və təməli etibarilə Qarabağ ədəbi mühiti ilə bağlı olduğunu aydın şəkildə müşahidə etmək olar. Qarabağ ədəbi mühitində, yazılı ədəbiyyatda bir fakt kimi hələlik elmə məlum olan ilk qarabağlı şairin adı VII əsrdə yaşayıb-yaratmış Davdağın adıdır. Onun bu günə gəlib çatan yeganə şeiri Alban-Partav-Bərdə çarı Cavanşirin qətlinə yazdığı və bizə tərcümədə gəlib çatmış ağı janrında kamil şeir mətnidir. Bu mətnin məzmunu, ideya-estetik xətti və üslubu onun Cavanşir kimi bir sərkərdəyə, hökmdara ağı, şeir həsr etməsi sübut edir ki, Davdağ dövrünün qüdrətli, tanınmış söz sənətkarı olmuşdur.

Sonrakı dövrləri araşdırdığımız zaman da bəlli olur ki, XII əsr Azərbaycan poeziyasının ən qüdrətli simalarından biri qarabağlı Mücirəddin Beyləqani olmuşdur. Daha sonra XIV əsrdə Tuti Abdulla Qarabağı adlı çox istedadlı bir şair fəaliyyət göstərmişdir. Əsərlərindən hələlik əldə olmasa da, "Həqiqətül-şüəra"da və başqa mənbələrdə onun adı hörmətlə çəkilir. Qarabağ ədəbiyyatının digər bir nümayəndəsi – XV əsrdə Qarabağlı şeyx İbrahim ibn Məhəmməd Şəhabəddin Bərdəyi dövrünün Şeyx tituluna yüksəlmiş və "Gülşəni" təxəllüsü ilə ədəbiyyat aləmində olduqca məşhur olmuşdur [16].

Qarabağ tarixinin qədimliyini sübut edən digər məqamlara diqqət yetirsək, görərik ki, XVI əsrdə yaşayıb-yaratmış Şah İsmayıl Xətai sarayının doğmalarından olan, ustadlar ustadı Aşıq Qurbani, XVIII əsrdə yaşamış Mirmöhsün Ləmbərani Asəf, Aşıq Əli, Aşıq Səməd, Aşıq Valeh, Aşıq Qənbər, Ziyadi Qarabağı və Molla Pənah Vaqifin adları çox mətləblərdən xəbər verir. Beləliklə, Qarabağ ədəbi mühiti XVIII əsrdən başlayaraq, Azərbaycan ədəbiyyatında ilk olaraq realist şeirinin əsasını qoymuş, XIX əsrdə realizm ədəbi metodunun yaranmasına və inkişafına təkan vermişdir. Deməliyik ki, ilk Azərbaycan professional qadın aşığını da Qarabağ yetişdirmişdir və XIX əsrdə yazıb-yaratmış Aşıq Pəri şəxsiyyəti buna əyani bir sübutdur. Lakin bu yazılı ədəbiyyatla folklorun qovuşuğunun kamil bir mərhələsində baş vermişdir. Bu dövrdə xeyli sayda musiqi və şeir

məclisləri yaradılırdı. "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinə Şuşada Xan qızı Xurşidbanu Natəvan və Mir Möhsün Nəvvab başçılıq edirdilər. Bu məclislərdə 40-a qədər şair fəaliyyət göstərir, Gəncədə, Şamaxıda, Bakıda, Şəkidə olan ədəbi məclislərdə bir yerə toplaşırdılar. Yenə bir sual yaranır: sadalanan tanınmış simalar içərisində bir nəfər də olsun erməni adı çəkilirmi? Əlbəttə ki, belə bir məlumata heç bir mənbədə rast gəlinmir.

Odur ki, əminliklə deyə bilərik ki, elə faktlar vardır ki, onu təkcə qarabağlılar yox, ümumilikdə hamımız bilməli və təbliğ etməliyik. Məsələn: Molla Pənah Vaqifin ilk realist şeirin banisi, Qasım bəy Zakirin Azərbaycan satirasının bünövrə daşını qoyan bir sənətkar olduğunu, Azərbaycanda maarifçi realizmin banilərindən olmasını; Xurşidbanu Natəvanın Məhsəti Gəncəvidən sonra Azərbaycanın qüdrətli qadın şairəsi olmasını, Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi ilə Azərbaycan ədəbiyyatında ilk tragediyanın, Həsən bəy Zərdabi ilə ilk professional Azərbaycan teatrının əsasını qoyanlardan olmasını, Əbdürrəhim bəy Haqverdiyevin isə ədəbiyyatımızda görkəmli yazıçı və dramaturq, ilk Azərbaycan operasının dirijoru, tərcüməçi, pedaqoq, diplomat, "Yeyərsən qaz ətini, görərsən ləzzətini" dramının və "Dağılan tifaq" "Bəxtsiz cavan" və "Pəri-cadu" faciələrinin, "Marallarım", "Xortdanın cəhənnəmə məktubları", "Şeyx Şaban", "Xəyalət", "Ac həriflər" və sair əsərlərin müəllifi olduğunu hər bir azərbaycanlı bilməyə borcludur. Qarabağda böyüyüb boyabaşa çatmış, Azərbaycan və dünya mədəniyyətinə əvəzsiz töhfələr verən dünya musiqisinin əvəzolunmaz şəxsiyyətlərindən biri də Üzeyir bəy Hacıbəylidir. Dahi bəstəkar Üzeyir Hacıbəyli Şərqdə ilk operanın banisi, böyük dramaturq, ilk libretto müəllifi, musiqili komediya janrının yaradıcısı, qəzetçi, qüdrətli publisist, lüğətçi, pedaqoq, Azərbaycan himninin müəllifi, "Çağırış", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və s. vətənpərvər ruhlu mahnıların, eləcə də xalq çalğı alətləri orkestri üçün "Cəngi" (1941) pyesinin, "Vətən və cəbhə" (1942) kantatasının, "Sənsiz" və "Sevgili canan" (1943) romanslarının, "Koroğlu" operasının, "Arşın mal alan" musiqili komediyasının, "Azərbaycan xalq musiqisinin əsasları" (1945) fundamental tədqiqat əsərinin və bir çox digər dəyərli əsərlərin müəllifidir. Bu sırada dayanan, Qarabağ torpağının yetirmələri olan, şöhrət və böyük hörmətə layiq digər şəxsiyyətlərin də adlarının

çəkilməsini zəruri hesab edirik. Yəni onların bəzilərinin adları və fəaliyyətləri ilə bağlı bir neçə məqamı diqqətə çatdırmağı özümüzə borc bilirik.

– Yusif Vəzir Çəmənzəminli – "İki od arasında", "Qızlar bulağı", "Studentlər" kimi tarixi romanların müəllifi, yazıçı, etnoqraf, folklorşünas, diplomat;

– Ceyhun bəy Hacıbəyli – yazıçı, publisist, diplomat, folklorşünas (Parisdə ilk dəfə "Qarabağ folkloru" kitabını fransızca və orijinal mətnlərlə çap edib);

– Əhməd bəy Ağayev – Azərbaycan dövlətçiliyinin ideoloqlarından biri, yazıçı-publisist, alim, qəzetçi, erməni terrorizminə qarşı döyüşən ilk türk "Difai" milli təşkilatının yaradıcısı;

– Firudin bəy Köçərli – ilk ədəbiyyat tarixçisi, maarifçisi, Qori və Qazax müəllimlər seminariyasının müdiri olmuşdur;

– Süleyman Sani Axundov – yazıçı-pedaqoq, uşaq ədəbiyyatının yaradıcılarından biri, "Çərxi-fələk", "Laçın yuvası", "Tamahkar" və s. dramların, "Qorxulu nağıllar", "Qaraca qız", "Ümid çırağı", "Mister Qreyin köpəyi" və b. kitabların müəllifidir;

– Haşım bəy Vəzirov – görkəmli yazıçı-publisist, mühərrir. Şekspirin "Otello" faciəsinin ilk tərcüməçisi.

Azərbaycanın qədim tarixə malik Qarabağ bölgəsindən olan dünya mədəniyyətinə və incəsənətinə misilsiz töhfələr verən görkəmli şəxsiyyətlərin adlarının siyahısını genişləndirmək də olar. Lakin düşünürük ki, bu sadalananlar fikirlərimizi əsaslandırmağa kifayət edər.

Sual və tapşırıqlar:

– Azərbaycan və türk ədəbiyyatında məlum olan ilk şairin adı və yaradıcılığı haqqında nə bilirsiniz?

– Qarabağın və onun ədəbiyyatının qədimliyini təsdiq edən sənətkarların adları və onların fəaliyyəti haqqında nə bilirsiniz?

– Azərbaycan və türk ədəbiyyatında elmə məlum olan ilk şairin adından və yaradıcılığından danışın.

– Qarabağın yetişdirdiyi dahi ziyalılar, mədəniyyət və incəsənət xadimləri kimlərdir?

– Qarabağın qədim və müasir dövrlərdə yetişdirdiyi görkəmli dövlət xadimlərinin yaradıcılığını, onların dünya mədəniyyətinə, incəsənətinə misilsiz töhfələr verən şəxsiyyətlərin adlarını sadalayın.

AZƏRBAYCANIN KONSERVATORİYASI VƏ TƏSVİRİ SƏNƏT BEŞİYİ

Zəngin mədəni irsə malik olan Qarabağ bölgəsi musiqi, muğam diyarı kimi də məşhurdur. Azərbaycan musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Qarabağ musiqisinin çoxəsrlik ənənələri vardır. Bu barədə akademik Teymur Bünyadovun tutarlı dəlillərə söykənərək ərsəyə gətirdiyi "Əsrlərdən gələn səslər" kitabını oxumaq kifayətdir. (Akademik Teymur Bünyadov Azərbaycanın müstəqilliyini, dövlət və dövlətçiliyini hər şeydən uca tutan elm fədaisidir. Olduqca ədalətli insandır, onda müdriklik, yüksək ziyalılıq keyfiyyəti vardır. Teymur Bünyadov Azərbaycan etnoqrafiya elminin banilərindən biri, tələbkar elm təşkilatçısı, zəngin mənəviyyatlı, geniş dünyagörüşü ilə ad-san qazanan nurlu şəxsiyyətlərimizdəndir.–S.M.). Onun Azərbaycan bölgələrinin tarixi və etnoqrafiyası ilə bağlı çoxsaylı elmi əsərləri vardır. "Şuşanın dağları başı dumanlı" adlı məqaləsində o, Qarabağın, xüsusi ilə Şuşanın təsvirini rəssam dəqiqliyi ilə yarada bilmişdir. O, yazır ki, Şuşa Qarabağın sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Şəhərdə müxtəlif sənət sahələrinin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, mənəvi mədəniyyətin yüksəlməsi, onun geniş ərazidə şöhrətlənməsinə şərait yaratmışdır. Şuşanın çeşid-çeşid mallarının sorağı Təbriz, Tehran, İsfahan, İstanbul, Moskva, Novqorod və başqa şəhərlərdən gəlmişdir (*"Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir" mövzusunda keçirilən Elmi konfransın materialları, 31 may 2002-ci il*). Əlbəttə ki, belə bir göstərici qədim tarixə malik olan xalqa məxsus ola bilər. Qarabağ musiqi sənətində muğamlar, xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur. Qarabağ milli musiqisinin əsasını muğamlar təşkil edir. Cabbar Qaryağdıoğlu (1861-1944) XIX əsrin II yarısında yetişən və musiqi tariximizdə ən görkəmli sənətkarlardan biridir. Onun "Orta mahur"u, "Şahnaz"ı, "Qatar"ı, "Heyratı"sı musiqi xəzinəmizin ən qiymətli incilərindəndir. Burada Qarabağın digər tanınmış muğam ustadlarının da adlarını çəkməmək olmaz. Onlardan Seyid Şuşinski, Xan Şuşinski, Keçəçi oğlu Məhəmməd, Segah İslam və başqalarını həmişə hörmət və ehtiramla xatırlamağa borcluyuq.

Azərbaycan xalq mahnılarının əvəzsiz ifaçılarından biri də Bül-

322

büldür. Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül – adı qeyri-adi dərəcədə gözəl, lirik-dramatik tenor səsinə görə ona verilmişdir. – S.M.) Azərbaycan opera müğənnisi, mahir təsnif ifaçısı, musiqi folklorunun tədqiqatçısı, Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatıdır. 1920-ci ildən Birləşmiş Dövlət Teatrı opera truppasının (1924-cü ildən) solisti olmuş, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", Z.Hacıbəyovun "Aşıq Qərib" operalarında İbn Səlam, Kərəm və Qərib rollarında çıxış etmiş ilk peşəkar sənət fədaisi olmuşdur. Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Koroğlu rolunun ilk və əvəzolunmaz ifaçısı da Bülbül olmuşdur.

Qarabağ Azərbaycanın musiqi konservatoriyası olmaqla bərabər, həm də dünya xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi də məşhurdur. Müxtəlif dövrlərdə Qarabağ xalçaçılıq məktəbində toxunmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur.

Digər mühüm cəhətlərdən biri kimi, xüsusi olaraq vurğulamaq lazımdır ki, öz kökləri ilə qədim dövrlərə gedib çıxan Qarabağ təsviri sənət ənənələri özündə neçə-neçə nəsillərin bədii təcrübəsini qoruyub saxlamışdır. Buraya Kəlbəcər, Ağdam, Laçın rayonlarındakı qayaüstü rəsmlər, zəngin bəzəyə malik əmək alətləri, zərgərlik əşyaları və s. daxildir. Həmçinin öz nəfisliyi və zərifliyi ilə seçilən memarlıq abidələrini – məscidləri, məqbərələri, sarayları və kaşı naxışlarını da xatırlamamaq mümkün deyildir. Bütün bunlar Azərbaycan xalqının mədəniyyətinin özünəməxsus "genofond"unu yaratmış, onun zəngin irsini təşkil etmişdir.

Sual və tapşırıqlar:

– Azərbaycan xalçaçılıq sənətinin inkişafında Qarabağ xalçaçılıq sənətinin rolu haqqında nə deyə bilərsiniz?

– Qarabağ xalçaçılıq sənətinin spesifik xüsusiyyətləri nədən ibarətdir?

– Qarabağın maddi mədəniyyətinin səciyyəvi cəhətləri hansılardır?

323

ÇAYLAR, BULAQLAR VƏ YAYLAQLAR

Füsunkar təbiətə malik olan Qarabağ torpağının canlı təbiət abidələrini, saysız çaylarını, göllərini, mühüm müalicə xassəli xüsusiyyəti olan bulaqlarını və kəhrizlərini qeyd etmək yerinə düşər. Bunlardan Tərtər çayı, Qarqar çayı, Köndələnçay, Quruçay, Qozluçay, Xonaşen çayı, Zəligöl, Qaragöl, Qamışgöl, Köndələngöl, Çallıgöl, İsa bulağı, Səkili bulaq, Navlı bulağı, Damcı bulaq, Bəylik bulağı, Qaraməmmədli bulağı, Hacı Bayram kəhrizi, Dədəli kəhrizi, Təpə kəhriz, Məşədi Şərif kəhrizi, Hacı Kərim kəhrizi və s. göstərmək olar.

Turşsu yaylaqları, Səkili bulağı, Şəmilin bulağı, əfsanəvi "Cıdır düzü" yerli camaatın və oraya təşrif buyuran qonaqların ən sevimli yeri idi.

Sual və tapşırıqlar:

– Qarabağın çaylarını, bulaqlarını, yaylaqlarını, kəhrizlərini sadalayın və onların zənginliyi ilə bağlı məlumat verin.

– Qarabağ torpağının füsunkarlığı ilə yaxından tanış olun.

QARABAĞIN MƏŞHUR TAYFALARI

Qarabağla bağlı olan bir çox tarixi mənbələrdə müxtəlif tayfa, el-oba adlarına da rast gəlmək mümkündür. Bunlardan Boyat, Bayandur, Əfşar, Qacar, Qarxun, Cavanşir tayfaları, Otuzikilər, Kəngərlilər(obaları – Pirhəsənlilər, Ramazanlılar, Şirvanlılar, Qaraağaclılar, Salahlı, Qızıllı), Kəbirlilər, Qaraçorlular, Kolanılar, Dəmirçihəsənlilər, Cəbrayıllı elləri, Əhmədli, Dilağarda, Mərzili, Mərcanlı, Qərvənd obaları və s. göstərmək olar. Məsələn, "Qarabağnamələr" əsərində Cavanşirlər sülaləsinin Sarıcalı oymağından bəhs olunur: "Qarabağ xanlığının əsasını Cavanşirlər sülaləsinin Sarıcalı oymağından olan Pənah Əli xan qoydu [24, 6-102; 5, 36].

Bəzi tədqiqatçılar Cavanşir tayfalarının mənşəyini aydınlaşdırarkən Rzaqulu xan Hidayətin "Rövzətüs səfa" əsərinə istinad edirlər. Bu əsərdə deyilir ki, Oşirxan Oğuz xanın dördüncü oğlu Yıldız xanın oğludur. Bunlar Ovşar və Əfşarlar adlanırlar. Cavanşir tayfası Hülakü xanın 120 minlik ordusunun tərkibinə daxil olmuşdur. Onlar Əmir Teymurun hökmranlığı dövründə ikinci dəfə Rumdan geri qayıdaraq Türküstan, Qəndəhar, Kabil və İrana dağılırlar. Bu tayfanın bir qolu Səfəvilər dövründə (I Şah Abbas) İbrahimxəlil ağanın başçılığı ilə Qarabağda və Aranda qalmışdı. Nadir şahın hökmranlığı (1736-1747) dövründə bu qolun başçısı İbrahimxəlil xan idi. Şah onları Sərəxsə köçürmüşdü. Nadirin qətlindən sonra Cavanşir tayfasının bir hissəsi Sərəxsdən Qarabağa qayıtmışdı [26, s.112]. O dövrdə Qarabağda Cavanşir tayfasından başqa Otuzikilər, Kəbirli və Əfşar tayfaları da mövcud idi [25, s.29].

Sual və tapşırıqlar:

– Qarabağ xanlığının əsasını qoyan tarixi şəxsiyyət və onun davamçısı kimlər olub?

– Qarabağ xanlığının tarixini öyrənin.

– Qarabağda məşhur tayfaların adlarını sadalayın.

AZIX MAĞARASI

Qarabağın tarixi Azərbaycan tarix elminə öyrənilməli bir çox məqamlar bəxş edib. Onlardan biri də Azıx mağarasıdır. Araşdırmamızın əvvəlində ümumi kontekstdə onun adını çəksək də, əvvəllər Qarabağda heç zaman yaşamayan ermənilərə və onların saxta tarixinə dırnaqarası inam bəsləyənlərə qismən də olsa məlumat verməyə ehtiyac vardır. Azıx mağarası – Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarının cənub-şərq yamacında yerləşən, Quruçay çayının sol sahilində mağaradır. Mağara Azərbaycanın Füzuli rayonunun ərazisindədir. Təəssüflə qeyd etmək lazımdır ki, vaxtilə dünyanın ən qədim insanlarının yaşadığı bu mağaranın yerləşdiyi Azərbaycan torpağı 1993-cü ildən etibarən erməni işğalı altında olmuşdur. Hazırda Azıx mağarasının işğaldan sonrakı vəziyyəti haqqında müfəssəl məlumat 44 günlük müharibədən sonra əldə edilmişdir. Özgə torpaqlarını təcavüz yolu ilə işğal etməkdə, sonra isə həmin xalqlara məxsus tarixi abidələri özününkiləşdirməkdə hiyləgərliyi ilə mahir olan erməni vandalları mağaranı da dağıtmışlar. Bugün həmin ərazidə bərpa işləri davam edir. Azıx mağarasının sahəsi 800 m^2-dir. Burada uzunluğu 600 metrə qədər uzanan 8 dəhliz vardır. Dəhlizlərin bəzilərinin hündürlüyü 20-25 metrə qədərdir. Azıx mağarası Qafqazda indiyə qədər aşkar edilmiş mağaralardan ən böyüyü kimi də diqqəti cəlb edir. Çoxsaylı tarixi mənbələrə istinad edərək, məsələyə fikir bildirən S.Qaracayev haqlı olaraq qeyd edir ki, ümumilikdə, Qarabağ mədəniyyətinin timsalında Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Həqiqətən də uzun və mürəkkəb inkişaf yolu keçmiş teatr, kino, musiqi və xalq sənətinin müxtəlif növlərinin tədqiqi Azərbaycan xalqının yüksək mədəni irsə malik olmasını sübut edir. Azərbaycan muğamının UNESCO tərəfindən bəşəriyyətin mədəni irsi siyahısına daxil edilməsi və ümumiyyətlə, müxtəlif zamanlarda el sənətkarlarının düzəltdiyi əl işlərinin və toxuduğu xalçaların dünyanın məşhur muzeylərində mühafizə olunması buna əyani sübutdur. XIX əsrdən Qarabağ ərazisində məskunlaşmağa başlamış olan ermənilərin isə bu mədəni dəyərlərin əldə edilməsində hər hansı bir xidməti ilə bağlı tarixi mənbələrdə heç bir məlumat yoxdur.

Sual və tapşırıqlar:

– Azıx mağarasında hansı tarixi-arxeoloji tapıntı aşkarlanmışdır?

– Azıx mağarasının tarixi və onun ilk insan məskənlərindən biri olduğunu hansı tarixi faktlarla izah edə bilərsiniz?

– Mağaranın yerləşmə arealını və quruluşunu izah edin.

– Azərbaycan xalqının yüksək mədəni irsə malik olmasının nümunələrindən biri olan Azıx mağarasının əhəmiyyətini izah edin.

TARİXİ AZƏRBAYCAN TORPAĞI ZƏNGƏZUR

SSRİ rəhbərliyi Zəngəzuru Ermənistana niyə "hədiyyə" etdi? Bölgə 7 min kv.km ərazini əhatə edir. Dağ silsiləsi və Qarabağ yaylası arasında yerləşir. Tarixən qədim türk tayfalarının yaşadığı ərazi olub. Zəngəzur sözündəki "zəngi" sözü qədim türk tayfasının adıdır. Mahmud Kaşğari, Rəşidəddin, Abasqulu ağa Bakıxanovun əsərlərində zəngi tayfasının adı çəkilir. "Zur" sözü "sur" sözünün fonetik dəyişikliyə uğramış formasıdır. Dağlıq, daşlıq, qayalıq yer, hasar, qala, "bürc" deməkdir. Zəngəzur "zəngilərin yaşadığı dağlıq yer" mənasına gəlir. Zəngəzur Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzlərindən olub. Səlcuq hökmranlığı dövründə ərazidə türk-islam nüfuzu daha da artıb.

Zəngəzur monqol-tatarların, Əmir Teymurun işğalına məruz qalıb. Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilərin ərazisi olub. XVIII əsrdə Zəngəzur Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının tərkibində olub. 1868-ci ildə Zəngəzur Şuşa qəzasından ayrılır və müstəqil qəzaya çevrilir. 5 il sonra Yelizavetpol quberniyasına daxil edilir. Zəngəzur əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. 326 kənddən 154-də azərbaycanlılar, 91-də kürdlər, 81-də isə buraya köçürülmüş ermənilər yaşayırdı. XX əsrin əvvəllərində Zəngəzur mahalında 240 azərbaycanlı kəndi var idi. İran və Türkiyə ərazisindən buraya çoxlu sayda erməni köçürülsə də, Zəngəzurda erməni kəndləri müsəlman kəndlərindən 5 dəfə az idi. Tarixi Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə, Mehri, Zəngilan, Qubadlı, Laçın rayonlarını əhatə edir. 1908-ci ildə siyahıyaalınma sənədlərində Zəngəzurda 197 min müsəlman , 97 min xristian olduğu göstərilir.

Bəs ermənilər bu torpaqlara ilk dəfə nə zaman gəlib? 1828-ci ildə Rusiya və İran arasında imzalanmış Türkmənçay, bir il sonra Rusiya və Osmanlı arasında imzalanan Ədirnə müqavilələrindən sonra Qafqaza 150 min erməni köçürülür. Bu tarixlərə qədər Zəngəzurda erməni adına rast gəlinməyib. Ermənilərin köçü Krım savaşından, rus-osmanlı müharibələrində, Osmanlıda qaldırdıqları qiyamlardan sonra da davam edib. 1905-1907-ci və 1914-20-ci illərdə erməni quldur dəstələri Zəngəzur mahalında böyük qətliamlar törədir, 115 min müsəlman kəndi yer üzündən silinir, minlərlə qadın və uşaq

vəhşicəsinə qətlə yetirilir. 1918-ci ilin may-avqust aylarında müsəlman əhaliyə qarşı qırğınlar daha da artır. Onların arasında erməni cəllad Andranikin qəddarlığı xüsusilə seçilirdi. Türkiyənin arxiv sənədlərində Andranikin qoşunlarının Zəngəzurda 12 kəndi xarabaya çevirdiyi, əhalisini məhv etdiyi, o cümlədən Qubadlının 9 km-də yerləşən Qurban kəndində ermənilərin 200-dən çox müsəlman əhalini qırması yazılıb. AXC hökuməti bu qırğınların qarşısını almaq üçün 1919-cu il yanvarın 13-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzasının da daxil olduğu Qarabağ general-qubernatorluğunu yaradır. Ancaq bu qırğınlar səngimir. Zəngəzurdan qaçqın düşmüş 50 min türk-müsəlman əhali Cəbrayıl, Şuşa, Cavanşir qəzalarında sığınacaq tapır. 3257 kişi, 2276 qadın və 2196 uşağın öldürüldüyü qeydə alınsa da, öldürülənlər daha çox idi. Çünki 1917-ci ildə Zəngəzurda 123085 nəfər müsəlman var idisə, 1926-cı ilin siyahıyaalınmasında bu rəqəm heç 5 min deyildi.

Həmin ərəfədə Azərbaycandan qoparılaraq Ermənistana veriləcək torpaqların sərhədini ingilislər təyin edirdi. İlk olaraq, Qarsdan Gəncəyədək olan ərazilər, sonra isə dənizdən-dənizə "Böyük Ermənistan"... Böyük Britaniya qoşunlarının komandanı Uilyam Tomson 1919-cu il martın 28-də İrəvanda Ermənistan hökumətinin iclasında deyir: "Zəngəzur erməni Milli Şurası tərəfindən idarə ediləcək. Qarabağın da idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir. Erməni qoşunları Qars və Naxçıvan, Şərur-Dərələyəz-Sürməlini tuta bilər". Tomson Ermənistan hökumətinə 5 milyon ədəd patron və pul da verir. İngilislərin bölgədəki hakimliyi 1920-ci ilin aprelində bolşeviklər hakimiyyətə gələnə kimi davam edir. Amma onların hakimiyyəti də tarixi Zəngəzur üçün böyük faciə ilə nəticələnir. 1920-ci ilin aprelin 30-da Azərbaycan hökuməti müvəqqəti inqilab komitəsinin notasında Ermənistandan Zəngəzur və Qarabağdan qoşunlarını çıxarmağı tələb etsə də, bu tələb cavabsız qalır. Bolşevik Rusiyası Azərbaycandan sonra, daşnakların idarə etdiyi Ermənistanı sovetləşdirmək istəyirdi. Azərbaycan torpaqlarından pay verməklə Ermənistanı şirnikləndirməyə çalışırlar. Mikoyan və digər erməni liderləri o vaxt bolşeviklərin lideri Lenini inandırmağa çalışırdılar ki, Zəngəzurun, eləcə də Naxçıvanın və Qarabağın Ermənistana verilməsi erməni xalqının sovet hakimiyyətinə inamını artıra bilər.

1920-ci il avqustun 10-da Rusiya KBP-nin Qafqaz bürosu Azərbaycan bolşevik rəhbərliyinin xəbəri olmadan, Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar qəbul edir. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazi" elan edilir. Azərbaycan müvəqqəti inqilab komitəsinin sədri Nəriman Nərimanov Leninə məktub yazaraq bildirir ki, "bütün bunlar Azərbaycan əhalisinin sovet hökumətinə inamını sarsıdır. Zəngəzur və Qarabağın daşnaklara verilməsi xəyanət sayılacaqdır". Ancaq bu narazılıqlar heç bir nəticə vermir.

1920-ci ilin noyabrın 30-da AKBP MK-nin siyasi və təşkilat bürolarının birgə iclasında Zəngəzurun Ermənistana verilməsi ilə bağlı qərar qəbul edilir. Bu qərar barədə bəyanat hazırlayıb elan etmək isə Nərimanova tapşırılır. Nəriman Nərimanov dekabrın 1-də Serqo Orconikidzenin təkidi ilə bu bəyanatı elan edir: "Zəngəzur və Naxçıvan qəzaları sovet Ermənistanın ərazisidir. Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanın qoşunları buradan çıxarılır". Zəngəzurun Ermənistana verilməsi rəsmən təsdiqlənsə də, əhali arasındakı narazılıqlar bu prosesi ləngidir.

Azərbaycan KP MK-nin siyasi və təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında Zəngəzur bölgəsinin iki yerə: Şərqi və Qərbi Zəngəzura bölünməsi təklif edilir. 1921-ci il 3 iyunda Stalinin iştirakı ilə iclas keçirilir və Zəngəzurun qərb hissəsinin Ermənistana birləşdirilməsi barədə qərar çıxarılır. Bu iclasda bir nəfər də azərbaycanlı, müsəlman yox idi. Əsas məqsəd Azərbaycanla Türkiyəni bir-birindən ayırmaq idi. Zəngəzurun Ermənistana verilən hissəsində Qafan, Gorus, Qarakilsə, Mehri rayonları yaradılır. Nəticədə Naxçıvan Azərbaycan torpaqlarından ayrı salınır.

Zəngəzurun şərq hissəsində isə 1933-cü ildə Zəngilan, Qubadlı və Laçın rayonları yaradılır. Tarixi Zəngəzur əhalisi isə bu xəyanətkar əməllərin ən böyük qurbanı olur. Ermənilər Zəngəzuru "Sünik" adlandırıb özününküləşdirmək istəsələr də, "Sünik" toponimi türkdilli sak tayfaların adı ilə bağlıdır.

Zəngəzurun Rusiya dövlət arxivlərində saxlanılan xəritələrindən bəhs edərkən rusiyalı ekspert Oleq Kuznetsov qeyd edirdi: "1924-cü ildə müxtəlif yaşayış məntəqələrinin Zaqafqaziya Federasiyasının inzibati ərazi vahidlərinə aid edilməsi baş verdi. Daha

sonra yaşayış məntəqələri mahallar arasında bölündü, inzibati sərhədləri müəyyənləşdirən topoqrafik komissiyalar yaradıldı. Arxivdə olan 1925-ci ilin xəritəsi, eyni zamanda həmin dövrə aid kartoqrafik arxiv sənədlər toplusu və onların yazılı izahları Zaqafqaziya Sosialist Sovet Federativ Respublikasının dövlət suverenliyinin formalaşmasının həmin dövrdə təsdiqidir. Ona görə də hesab edirəm ki, 1925-ci ilin xəritəsi və Cənubi Qafqazda sərhədləri müəyyən edən yeganə sənəd olan və beynəlxalq hüquq tərəfindən tanınan 1921-ci ildə imzalanan "Qars" müqaviləsi Azərbaycanla Ermənistan arasında hazırda dövlət sərhədlərinin delimitasiyası üçün başlanğıc nöqtə ola bilər".

1992-1993-cü illərdə Şərqi Zəngəzurun hər üç rayonu da Ermənistan tərəfindən işğal edilir. Amma rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən Müharibəsi zamanı Zəngilan, Qubadlı və Laçını işğaldan azad edir. Beləliklə, Şərqi Zəngəzur azadlığa qovuşur. 2021-ci il iyulun 7-də prezident İlham Əliyevin fərmanı ilə Şərqi Zəngəzur iqtisadı rayonu yaradılmış. İqtisadı rayona Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl və Zəngilan rayonları daxildir.

İlham Əliyev öz çıxışında demişdir: "Şərqi Zəngəzur bizim tarixi torpağımızdır. Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri baxsınlar. Sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verdi. Qərbi Zəngəzur var və bizim dədə-baba torpağımızdır və demişəm ki, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz".

2021-ci ilin oktyabrın 26-da Füzuli Hava Limanının açılışı üçün Füzuliyə gələn Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Azərbaycan Prezidenti İlham Əliyev Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, yəni Zəngəzur dəhlizinin təməlini qoyub.

Sual və tapşırıqlar:

– Zəngəzur Azərbaycanın tarixi torpağı kimi hansı əraziləri əhatə edir?

– Zəngəzuru Qarabağ münaqişəsinin həllində mühüm amil kimi səciyyələndirin.

ERMƏNİ CİNAYƏTLƏRİ VƏ AZƏRBAYCANLILARIN DEPORTASİYASI

Tarixi faktlar da bir daha onu deməyə əsas verir ki, ermənilər xarici qüvvələrin məskunlaşdırma siyasətindən əvvəl heç vaxt Qarabağda yaşamamışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin prosesi tarixi faktlarla dəqiq əsaslandırır. O, qeyd edir ki, "XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura, İrandan və Osmanlı imperiyasından çoxlu sayda erməni ailələrinin köçürülməsi, 1905-ci, 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdikləri kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan Respublikası ərazisindəki dədə-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi ilə aparılan müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – "bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir" [S.M., T.M.]. Dünyanın ən tolerant, bəşəri dəyərlərə əsaslanan insani keyfiyyətlərə malik xalqlarından olan azərbaycanlıların himayəsi və köməkliyi nəticəsində yaxşı həyat tərzi sürən nankor ermənilər sonda onlara sığınacaq, isti ocaq və çörək verən xalqımıza qarşı ərazi iddialarına başladılar. Beləliklə, erməni separatçılarının növbəti mərhələsi, yəni azərbaycanlılara qarşı soyqırımları başlandı.

Sual və tapşırıqlar:

– XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında hansı tarixi faktları bilirsiniz?

– Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyaların səbəblərini öyrənin.

QANLI CİNAYƏTLƏRİN CANLI ŞAHİDİ

Bu kitabın müəlliflərindən biri kimi mən 1988-ci il hadisələrinin canlı şahidlərindən və erməni quldurlarına qarşı vuruşan bir döyüşçü kimi bəzi məqamları da oxucuların diqqətinə çatdırmağı la-zım bilirəm. Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının təcrübəli zabiti, Qarabağ müharibəsinin veteranı kimi deyə bilərəm ki, polis əməkdaşları ermənilərin torpaqlarımıza təcavüz etdikləri ilk andan düşmənə qarşı döyüşlərdə cəbhənin ən ağır mövqelərində şücaətlə vuruşmuşlar. Yəni polisin əsas vəzifəsinin ölkəmizin daxili sabitliyini qorumaq, asayişin keşiyində dayanmaq və həyati əhəmiyyətli obyektləri mühafizə etmək kimi funksiyaları yerinə yetirmək olmasına baxmayaraq, vətən təcavüzə məruz qalarkən onlar silaha sarılaraq erməni quldur dəstələrinə, terrorçulara qarşı həmişə ön cəbhədə döyüşmüşlər. Doğrusu, heç bir vaxt fikrimə belə gətirməzdim ki, müxtəlif illərdə Azərbaycan xalqının dədə-baba torpaqlarında xüsusi maraqları olan imperiyalar tərəfindən məskunlaşdırılan ermənilər çörəyimizi yeyib, müqəddəs torpağımızda ayaq tutub yeridikdən, ərsəyə yetdikdən sonra bizə qarşı belə nankorluq edə bilər. Lakin mənim tərəddüdlərimə baxmayaraq, bu faktiki olaraq baş verdi. Doğrusu, ermənilərin nə vaxtsa belə bir antibəşəri əməllər törədəcəyinə tərəddüdlərimin bir səbəbi də o idi ki, birinci ali təhsilimi başa vurduqdan sonra məktəbdə tarix müəllimi kimi çalışarkən tarixi mənbələrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı soyqırımlarının törədilməsi, repressiyaların, deportasiyaların həyata keçirilməsi barədə heç bir məlumat yox idi. Bütün bunlar isə rəsmi sənədlərin araşdırılması nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bəlli oldu. Yəni, mən Moskva Ali Polis Akademiyasını əla qiymətlərlə bitirib polis zabiti kimi fəaliyyətə başladıqdan, dövlət arxivləri açıldıqdan, mənə orada tədqiqat aparmaq imkanı verildikdən və Qarabağda çalışdığım dövrdən sonra bütün bunların real şahidi oldum (S.M.).

Qarabağda polis orqanlarında xidmətə başladığım dövrdən bugünkü faciələrimizin ilkin motivləri məni çox narahat edirdi. Xankəndindəki separatçılıq, terror və s. hadisələr gələcək faciələrimizin görüntüləri idi. Yəni, biz Qarabağa, Xankəndinə ezamiyyətə

göndərilərkən sonradan baş verənlərin ilkin təzahürləri aydın görünürdü.

Məsələn, 1988-ci ilin fevralın 11-də işə gələndə DİN CAŞ-ın rəis müavini, milis polkovniki Xəlil Quliyev (artıq Ə.Piriyev işini dəyişmişdi) İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı Yaqub Mahmudovla Xankəndinə getməli olduğumuzu söylədi. Ermənilər torpaq iddiası ilə mitinq etmək istəyirdilər.

Həmin gün axşam Xankəndinə çatdıq. 500-600 ermənin mitinq keçirdiklərinin şahidi olduq. Vilayət Daxili İşlər İdarəsinə gəldik. İdarənin rəisi Armen İshakulovla görüşdük. Xəbər gəldi ki, Xocavənddə toqquşma baş verib. Azərbaycanlılar Ağdam Rayon Partiya Komitəsi binasının qarşısına toplaşıb, ermənilərin bu quldurluq hərəkətlərinin qarşısının alınmasını tələb edirdilər. İshakulov Xocavəndə, mən isə Ağdama getdim. Rayon Partiya Komitəsinin birinci katibi Sadıq Murtuzayev camaatla söhbət edib sakitləşməyi və hamının öz evinə qayıtmasını məsləhət gördü.

Geriyə dönüb, Xankəndində "Qarabağ" mehmanxanasında yerləşdik. Hər gün mitinqçilərin arasında olurdum. Onlara yemək-içmək də verirdilər. Onda başa düşdüm ki, bu süni şəkildə qabardılmış bir məsələdir. Nəticənin ağır və acınacaqlı olacağı gözlənilirdi. Mitinqdə belə şüarlar səslənirdi "Ana Ermənistan, Artsax sənindir!", "Ermənistanla Azərbaycan qardaşdır və qardaş olaraq qalacaqlar!", "Dağlıq Qarabağ Ermənistana birləşməlidir".

Bu şüarları eşidəndən sonra özümə yer tapa bilmirdim. Mən dərhal Xankəndinə – Daxili İşlər idarəsinə gəldim və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə təfsilatı ilə VÇ-telefon vasitəsilə məlumat verdim. Bu artıq 13 fevral 1988-ci il idi ki, müntəzəm olaraq hər gün ora məlumat verirdim. Erməni milis işçiləri arasında kəşfiyyat xarakterli işlər aparır və əldə etdiyim məlumatları Ağdam rayon milis şöbəsinə gələrək Bakıya teletayp vasitəsilə göndərirdim.

1988-ci il fevralın 13-də Daxili İşlər Nazirinin müavini, təcrübəli əməliyyatçı, yüksək rütbəli polis zabiti general-mayor Kamil Əlioğlu Məmmədov Xankəndinə gəldi. Bütün məlumatların Bakıya çatdırılmasını mənə tapşırdı. Çox ciddi məsələ olduğuna görə səhvə yol vermək olmazdı. Mitinqlər dalğası bütün vilayəti bürümüşdü.

Mitinq iştirakçılarından məqsədlərini soruşduqda deyirdilər ki, bizi mitinqə çıxmağa məcbur edirlər. Ermənilər artıq tətillərə də başlamışdılar. Ermənilər arasında güclü təşkilatlanma gedirdi.

Ermənilərin ən qatı ekstremist təşkilatçıları – H.Poqosyan, A.Manuçarov, B.Dadamyan, R.Köçəryan, M.Mirzoyan və başqaları idi. Məlumatlar mərkəzə çatdırılsa da, onlar haqqında heç bir tədbir görülmürdü. Bütün bunların arxasında isə sovet imperiyasının dayandığı hamımız üçün açıq-aydın bəlli idi. Çünki erməni separatçılarının arxası-dayağı olmasaydı, onlar beynəlxalq hüquqa zidd əməllər və insanlıq əleyhinə bu cür qatı cinayətlər törətməzdilər. Bütün bunların nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olundu və bir milyona yaxın soydaşımız qaçqın, məcburi köçkün vəziyyətinə düşdü. Fikrimizi əsaslandırmaqdan ötrü faktlara müraciət edək.

Sual və tapşırıqlar:

– Dağlıq Qarabağ münaqişəsinin başlanması və həmin ərazilərdə ilk törədilən cinayətlər haqda nə deyə bilərsiniz?

– Həmin dövrdə Azərbaycanın polis əməkdaşlarının fəaliyyətini necə qiymətləndirilirdi?

– Ermənilərin növbəti dəfə başladıqları ekstremist iğtişaşların mahiyyətini öyrənin.

TARİXİN QARA SƏHİFƏLƏRİ

Xocavənd rayonu. Ərazisi 1458 km^2 olan Xocavənd rayonunda 1 şəhər, 2 qəsəbə, 81 kənd olub. 1991-ci il oktyabrın 30-da rayonun azərbaycanlılar yaşayan qədim Tuğ və Salakətin kəndləri, noyabrın 19-da Xocavənd kəndi, 1992-ci il yanvarın 9-da Axullu kəndi işğal edilib. 1992-ci il fevralın 17-də ermənilər rayonun Qaradağlı kəndində misli görünməmiş vəhşiliklər törədib, kənd əhalisinin böyük bir qismini xüsusi amansızlıqla qətlə yetirərək soyqırımı həyata keçiriblər. 1992-ci il oktyabrın 2-də rayonun Əmirallar, Muğanlı və Kuropatkin kəndləri, 1993-cü il iyulun 23-də Günəşli, avqustun 20-də Xətai kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırılıb. Öz ata-baba torpaqları uğrunda düşmənə qarşı mərdliklə vuruşan xocavəndlilərdən 145 nəfər şəhid olub. 123 nəfər ayrı-ayrı vaxtlarda girov götürülüb. Onlardan 57 nəfər işgəncələrlə öldürülüb, 63 sakin əlil olub.

Ağdərə rayonu. İşğaldan əvvəl Ağdərənin ərazisi 1705 km^2, əhalisi 44,4 min nəfər olub. Ağdərənin rayon tipli iki qəsəbəsi, 57 kəndi, 67 klubu, 51 kitabxanası, 30 orta məktəbi, 27 məktəbəqədər tərbiyə müəssisəsi, 7 xəstəxanası, 1 texniki peşə məktəbi işğal altında qalıb. Əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan Ağdərə faydalı qazıntılarla – polimetal yatağı, əhəngdaşı və gipslə zəngindir. Əsas çayları Tərtər və Xaçındır.

Xankəndi. Xankəndi Azərbaycanın Qarabağ regionundakı mərkəzi şəhəridir. Azərbaycanın 5-ci böyük şəhəri sayılan Xankəndinin sahəsi 8,8 km^2-dir. 4.794 nəfər əhalisi var idi (Xankəndinin işğalı (2 dekabr 1991-ci il) zamanı öldürülən, girov götürülən və məcburi köçkün vəziyyətinə salınan minlərlə azərbaycanlıların Ermənistan silahlı qüvvələri tərəfindən etnik təmizləməyə məruz qalması nəticəsində əhalinin say tərkibi dəyişmişdir. – S.M.). Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə, şəhər XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı başçılarının – xanların istirahəti üçün yaşayış məskəni kimi salınır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində,

nisbətən dağ ətəyində salınır. Bu zaman onun xanlığın digər vacib şəhər və kəndlərinə, Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Belə ki, yeni yaşayış məntəqəsi kimi digər yaşayış məntəqələrində də ancaq yerli əhali, azərbaycanlılar yaşayırdı. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınır. Qısa bir müddətdən sonra qəsəbə Xankəndi adını alır. Qarabağ xanlığı dönəmində şəhər çox inkişaf etmişdir. Əsas səbəb isə şəhərin mərkəzdə və paytaxta yaxın olması, ticarət yollarının buradan keçməsi, xanların iqamətgahı olması, əlverişli mövqedə yerləşməsi, zəngin təbiətinin olması göstərilir. Azərbaycanın Xankəndi şəhəri hazırda Rusiya sülhməramlılarının nəzarəti altındadır.

Sual və tapşırıqlar:

– Xocavənd rayonu neçənci ildə işğal edilmişdir və onun hansı kəndlərinin adlarını bilirsiniz?

– Ağdərə rayonu hansı təbii faydalı sərvətlərlə zəngindir?

– Xankəndi hansı coğrafi üstünlüyü ilə əlverişli mövqedə yerləşmişdir və nə üçün bu məkan Xankəndi adlandırılmışdır?

– Xankəndinin ərazisinin neçə km^3 olmasını, azərbaycanlı əhalisinin sayını, işğal tarixini öyrənin.

ERMƏNİSTAN RESPUBLİKASININ HƏRBİ TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ

AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİ

Cəbhə xəttinin uzunluğu — 246 km

Dağlıq Qarabağ (1989)	O cümlədən: Şuşa rayonu
Ərazi – 4 388 kv.km Əhali – 189 085 Ermənilər – 145 450 (76.9 %) Azərbaycanlılar – 40 688 (21.5 %) Sair – 2 947 (1.6 %) Sərhədin uzunluğu – 485 km	Ərazi – 312 kv.km Əhali – 20 579 Azərbaycanlılar – 19 036 (92.5%) Ermənilər – 1 377 (6.7%) İşğal olunmuşdur – 1992-ci il, 8 may

DAĞLIQ QARABAĞIN ƏTRAFINDAKI RAYONLAR

Rayonlar	İşğal olunmuşdur	Əhalisi- 2015
Laçın rayonu	1992-ci il, 18 may	74 100
Kəlbəcər rayonu	1993-cü il, 2 aprel	88 300
Ağdam rayonu	1993-cü il, 23 iyul	191 700
Füzuli rayonu	1993-cü il, 23 avqust	125 400
Cəbrayıl rayonu	1993-cü il, 23 avqust	76 600
Qubadlı rayonu	1993-cü il, 31 avqust	38 900
Zəngilan rayonu	1993-cü il, 29 oktyabr	42 700

TƏCAVÜZÜN QURBANLARI

Həlak olmuşdur – 20 000	Əlil olmuşdur – 50 000	İtkin düşmüşdür (2015) – 4 011

Qeyd: Münaqişə müddətində 6000-dən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüşdür.

DAĞINTILAR VƏ ZİYANLAR (1988-1993-cü illər)

Yaşayış məntəqələri	900
Evlər	150 000
İctimai binalar	7 000
Məktəblər	693
Uşaq bağçaları	855
Tibb müəssisələri	695
Kitabxanalar	927
Məbədlər	44
Məscidlər	9
Tarixi abidələr, saraylar və muzeylər	473
Muzey eksponatları	40000
Sənaye və kənd təsərrüfatı müəssisələri	6000
Avtomobil yolları	2 670
Körpülər	160
Su kommunikasiyaları	2 300 km
Qaz kommunikasiyaları	2 000 km
Elektrik xətləri	15 000 km
Meşələr	280 000 ha
Kənd təsərrüfatı üçün yararlı torpaqlar	1 000 000 ha
İrriqasiya sistemləri	1 200 km

QAÇQIN, MƏCBURİ KÖÇKÜN VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏR (2015)

Ermənistandan qaçqınlar	350 000
Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər	789 000
Orta Asiyadan qaçqınlar (Axısxa türkləri)	60 000
Digər ölkələrdən olan qaçqın və sığınacaq axtaran şəxslər (2003-cü ilə qədər onların sayı 11 000 nəfər olmuşdur)	1 500
Cəmi:	1 200 500

İşğal edilmiş ərazilərdə olan Ermənistan hərbi qüvvələri (2015)

Tank – 350	Artilleriya – 425	ACV – 398	Şəxsi heyət – 45 000 nəfər

İşğal edilmiş ərazilərə qanunsuz köçürülən əhali (2015)

Dağlıq Qarabağ	8 500
Laçın	13 000
Kəlbəcər	700
Zəngilan	520
Cəbrayıl	280
Cəmi:	23 000 nəfər

Qeyd:

1. Qaçqın və məcburi köçkünlər müvəqqəti olaraq 62 şəhər və rayon ərazisində əsasən 1 600-dən çox obyektdə məskunlaşmışdır.

2. Ermənistanla və işğal olunmuş ərazilərlə həmsərhəd yaşayış məntəqələrindən olan məcburi köçkünlərin sayı (2015)-110 612 nəfərdir.

Sual və tapşırıqlar:

– Ermənilərin azərbaycanlılara qarşı törətdikləri deportasiyalar və azərbaycanlıların qovulduğu rayon və kəndlər hansılardır?

– Erməni terroru nəticəsində Azərbaycan xalqına dəyən ziyanın acı nəticələrini və ayrı-ayrı rayonlardan olan şəhidlərimiz haqqında danışın.

QARABAĞDA ERMƏNİ CİNAYƏTLƏRİNİN ÜMUMİ STATİSTİKASI

Kəlbəcər –1993-cü il, aprelin 2-si– 74000
Ağdam – 1993-cü il, iyulun 23-ü – 1656
Füzuli – 1993-cü il avqustun 23-ü – 146000
Cəbrayıl –1993 -cü il avqustun 23-ü – 66000
Qubadlı –1993-cü il avqustun 31-i – 37900
Zəngilan –1993-cü il oktyabrın 29-u – 39500

Təcavüzün qurbanları
Ölənlər – 20000
Əlil olanlar – 50000
İtkinlər – 4866

Dağıntılar və zərərlər
Yerləşim yerləri – 890
Evlər – 150000
İctimai binaları – 7000
Məktəblər – 693
Uşaq bağçaları – 855
Səhiyyə müəssisələri – 695
Kitabxanalar – 927
Məbədlər – 44
Məscidlər – 9
Tarixi yerlər – 9
Tarixi abidə və muzeylər – 464
Muzey – 40000
Sənaye və kənd təsərrüfatı müəssisələri – 6000
Avtomobil yolları – 8000 km
Körpülər – 160
Su kəmərləri – 2300 km
Qaz kəmərləri 2000 km
Elektrik xətləri – 15 000 km
Meşələr – 280000 ha

Əkin sahəsi – 1000000 ha
Suvarma sistemləri – 1200 km
Ümumi zərər 60 milyard ABŞ dolları qədər təxmin edilir.

1988-1993-cü illər ərzində ermənilər tərəfindən azərbaycanlılara qarşı 354 terror aktı törədilmişdir. Nəticədə 1427 nəfər azərbaycanlı həlak olmuşdur, 3137 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Həmin dövrdə törədilmiş terror hadisələrindən: 10 hadisə sərnişin avtobuslarında (68-132), 10-u dəmir yolu nəqliyyatlarında (74-125), 3-ü hava nəqliyyatında (34-104), 2-si Bakı metropolitenində (14-49), 1-i isə su nəqliyyatında (25-88) baş vermişdir (S.M., T.M.).

AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİK DÖVRÜNDƏ

Həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. 1993-cü il iyunun 24-dən etibarən H.Əliyev prezident səlahiyyətlərini icra etməyə başladı. 1993-cü ilin oktyabrın 3-də isə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Elə o dövrdən etibarən Azərbaycan yeni bir mərhələyə qədəm qoydu. Respublikada yaranmış nisbi sabitlik sayəsində ölkə həyatının demokratikləşməsi, hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. Ölkə iqtisadiyyatının liberallaşdırılması, bazar iqtisadiyyatına keçid sahəsində mühüm qanunlar qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası və yeni seçki qanunu qəbul edildi.

1994-cü ildə Qarabağ müharibəsində Füzuli istiqamətində Azərbaycan qoşunlarının müvəffəqiyyətli hücumu nəticəsində bir sıra yaşayış məntəqələri işğaldan azad edildi. Hücumların davam etdirilməsi və ölkə ərazilərinin işğalçılardan tam təmizlənməsi böyük resurslar tələb edirdi. Digər tərəfdən, Ermənistan həm diaspor vasitəsilə, həm də bölgədə gərginliyin saxlanmasında maraqlı olan xarici qüvvələr tərəfindən ciddi surətdə dəstəklənirdi. Ölkədəki ağır iqtisadi və sosial vəziyyət də məsələni xeyli çətinləşdirirdi. Belə bir vəziyyətdə ölkə rəhbərliyi cəbhə bölgələrində uzunmüddətli atəşkəsə nail olunması yönündə fəal iş apararaq, beynəlxalq qurumların və iri dövlətlərin diqqətini bu münaqişəyə cəlb edə bildi. Nəticədə cəbhə bölgələrində uzunmüddətli atəşkəsə nail olundu (1994-cü il mayın 12-də Bişkek protokoluna əsasən). Torpaqlarımızın işğaldan azad olunması, Qarabağ münaqişəsinin sülh və siyasi danışıqlar yolu ilə aradan qaldırılması istiqamətində addımlar atılmağa başlandı. Dağlıq Qarabağ problemi beynəlxalq qurumların gündəliyinə daha tez-tez daxil edilməyə başlandı. Dağlıq Qarabağ probleminin həlli yollarının axtarılması baxımından Azərbaycan üçün ən səmərəlisi ATƏT-in Budapeşt (1994-cü il 5-6 dekabr) və Lissabon (1996-cı il 2-3 dekabr) sammitlərini hesab etmək olar. Bu sammitlərdə Dağlıq

Qarabağ münaqişəsinin həllinin, Azərbaycan və Ermənistanın ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa ən yüksək statusun verilməsi və bütün Dağlıq Qarabağ sakinlərinin təhlükəsizliyinə zəmanət verilməsi kimi başlıca prinsipləri müəyyənləşdirildi.

2002-ci ilin sentyabrında Avropa Şurasının parlamentində müzakirə olunan Azərbaycan haqqında məruzədə ilk dəfə Azərbaycan torpaqlarının işğal olunduğu faktı vurğulanmışdı.

Bu illər ərzində doğma yurd-yuvasından didərgin düşmüş və ən adi yaşayış vasitələrindən məhrum olunmuş yüz minlərlə qaçqın və məcburi köçkünün sosial şəraitinin yaxşılaşdırılması yönündə də Azərbaycan dövləti mühüm işlər gördü. Təkcə Dövlət Neft Fondundan ayrılan vəsaitlər hesabına ölkədə mövcud olan bütün çadır düşərgələri ləğv edilərək, əvəzində mühüm infrastruktur ilə təmin edilmiş yeni qəsəbələr salındı (sonuncu çadır düşərgəsi 2007-ci ildə ləğv edilmişdir). Qeyd edək ki, 2001-2012-ci illər ərzində bu layihəyə ümumilikdə Dövlət Neft Fondundan 1 157,8 mln manat vəsait ayrılmışdır.

Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibə nəticəsində torpaqların 20 faizi işğal olunmuş, işğal altında qalan rayonlarda mövcud iqtisadi potensial talan edilmiş, texniki-istehsal və infrastruktur obyektləri dağıdılmış, Azərbaycan xalqı çoxsaylı insan tələfatına məruz qalmış, bir milyona yaxın vətəndaş yaşayış və iş yerini, var-dövlətini itirərək öz vətənində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Müstəqilliyimizin, milli dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı yolunda atılan ən mühüm addımlardan biri də Azərbaycanın yeni neft strategiyası ilə bağlı idi.

1990-cı illərin ortalarından etibarən Azərbaycanda bəzi xarici və daxili maneələr dəf edilərək yeni neft strategiyasının həyata keçirilməsinə başlandı. Bu işdə ölkə rəhbəri H.Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Məhz onun qətiyyətli fəaliyyəti nəticəsində Xəzər dənizinin statusu müəyyənləşdirilməmiş, Rusiya ilə İranın etiraz və maneçiliklərinə baxmayaraq, dünyanın ən böyük neft şirkətləri ilə müqavilələr bağlanıldı və bölgənin ən iri layihələri həyata keçirilməyə başlanıldı. Bu strategiyanın gerçəkləşməsində

ilk böyük addım 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə altı ölkənin 10 iri neft şirkətləri – "AMOKO", "Yunokal", "Penzoyl", "Makdermot" (ABŞ), "Britiş Petrolium" və "Remko" (Böyük Britaniya), "Statoyl" (Norveç), "Lukoyl" (Rusiya), "Türk petrolları" (Türkiyə), "Delta" (Səudiyyə Ərəbistanı) ilə Xəzər dənizinin "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissələrinin birgə işlənməsi, istismarı və pay bölgüsü haqqında "1+10" və sonralar isə tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş neft müqaviləsinin imzalanması idi. Bu müqaviləyə sonradan Yaponiyanın "İtoçu" və Amerikanın "Eksson" və "Amerada Hess" kimi şirkətləri də qoşuldu.

"Əsrin müqaviləsi" müstəqil Azərbaycanın tarixində mühüm hadisə idi. Bu müqavilənin imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev təbrik nitqində müqavilənin əhəmiyyəti haqqında demişdir: "Biz ötən dövrlərdə nə qədər neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çatdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrlərədək xalqımız heç vaxt öz təbii sərvətinin sahibi olmamışdır. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımız özü sərbəst surətdə müəyyənləşdirir".

Bu müqavilənin imzalanması iri həcmli xarici investisiya axını və neft-qaz sahəsində ən qabaqcıl texnologiyanın Azərbaycana gətirilməsi üçün böyük imkanlar yaratdı.

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"nin reallaşdırılması üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) təşkil olundu.

1997-ci il noyabrın 12-də "Çıraq-1" platformasında "Əsrin müqaviləsi" üzrə ilkin neft hasilatına başlandı.

Qeyd edək ki, iri maliyyə tutumuna malik "Əsrin müqaviləsi"nin həyata keçirilməsidə dünyanın müxtəlif ölkələrini təmsil edən 400-dən artıq şirkət iştirak etmişdi. Azərbaycanın tikinti və sənaye təşkilatları da (72 müəssisə) bu proqramın reallaşmasında fəal iştirak etmişdilər. Eyni zamanda "Əsrin müqaviləsi" çərçivəsində 3000 nəfərdən çox Azərbaycan vətəndaşı da işlə təmin olunmuşdur.

2010-cu ildə ilk dəfə olaraq neft hasilatı özünün maksimum həddinə – 51 milyon tona çatdı və Azərbaycanın mənfəət neftinin və qazının 1 illik gəlirləri – 16 mlrd manatı ötdü.

Ümumiyyətlə, Azərbaycan 2003-cü ilin iyuluna qədər bu sahədə 15 ölkədən olan 33 şirkətlə 22 müqavilə bağlayıb. Müqavilələr üzrə investisiyaların həcmi kontraktlar bağlanan an 60 mlrd dollar, kontrakt sahələrində proqnozlaşdırılan ehtiyatlar isə 4 mlrd ton şərti yanacaq hesab edilir.

1994-cü ildə Azərbaycanla ilk neft müqaviləsi imzalandıqdan sonra neftin nəqli marşrutunun müəyyənləşdirilməsi, həm Beynəlxalq neft konsorsiumunun, həm də Azərbaycanın qarşısında duran ən vacib məsələlərdən biri idi.

Əvvəlcə, "Əsrin müqaviləsi" sahəsində çıxarılan ilkin nefti nəql etmək üçün iki kiçik ölçülü kəmər tikildi. Bunlardan biri Bakı-Novorossiysk boru kəməri idi. Bu kəmər 1996-cı il fevralın 18-də "Transneft", ARDNŞ və ABƏŞ arasında nəqletmə sazişi və nəqletmə haqqında bağlanan himayədarlıq sazişi əsasında yenidən quruldu. 1411 kilometr məsafədən ibarət olan Bakı-Novorossiysk boru kəməri gündə 105 min barel (ildə 5 milyon ton) neftin nəqli üçün nəzərdə tutulmuşdu.

İkincisi, Bakı-Supsa neft boru kəməri idi ki, bu kəmərin tikintisi də 1996-cı ilin martında Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevarnadzenin ilkin neft ixracının Gürcüstan ərazisindən keçən qərb marşrutu haqqında Azərbaycan və Gürcüstan arasında imzalanan dövlətlərarası müqavilə əsasında müəyyənləşdirilirdi. Uzunluğu 926 km olan qərb marşrutunun da buraxılış gücü gündə 105 min barelə bərabər idi.

Bakı-Supsa və Bakı-Novorossiysk xətlərinin ilk üç ildə iş qabiliyyəti sonuncunun sabit və tam təhlükəsiz daşınmalara cavab vermədiyini göstərdi. Baxmayaraq ki, layihə Rusiya hökuməti tərəfindən aktiv şəkildə müdafiə olunurdu. Daşınmalarda tez-tez baş verən dayanmalar Bakı-Novorossiysk kəmərini əsas ixrac kəmərinə iddialılar sırasından tədricən çıxarırdı. Düzdür, sonradan Rusiya kəmərin təhlükəsiz fəaliyyətini təmin etdi. Lakin qərb istiqamətində əsas neftin ixracının iqtisadi aspektləri məsələyə nöqtə qoydu (məs. Novorossiyskdən neftin ixracı üçün təklif olunan tarifə (1 barel 4,2

dollar) nisbətən Bakı-Ceyhanda tarifin (1 barel 2,58 dollar) aşağı olması). Nəticədə Bakı-Tbilisi-Ceyhan kəmərinə üstünlük verildi. Xatırladaq ki, marşrutlarla bağlı müzakirələrdə əsas neftin İran (Bakı-Neka kəməri) və Ermənistan (Fransada erməni lobbisinin dəstəyi ilə ortaya atıldığı üçün bu variant "fransız variantı" adlandırılırdı) ərazisindən ötürülməsi variantlarının da adı hallanırdı. Lakin Bakı-Neka kəməri ideyası ABŞ-ın qəti etirazına və Amerika kapitalının bu müqavilələrdə mühüm paya sahib olduğuna görə ortadan götürüldü. Ermənistan variantı da Azərbaycanın qəti mövqeyi nəticəsində dərhal sıradan çıxarıldı.

"Bakı-Tbilisi-Ceyhan" ixrac boru kəmərinin tikintisi Azərbaycana bir sıra iqtisadi faydaları olmaqla yanaşı, onu eyni zamanda Avropanın enerji təhlükəsizliyi sisteminin ayrılmaz hissəsinə çevirir və coğrafi-siyasi əhəmiyyətini xeyli dərəcədə artırırdı.

Bu kəmərin istifadəyə verilməsinin bir sıra iqtisadi və siyasi əhəmiyyəti vardır.

İqtisadi sahədə:

Qərbdən ölkəmizə yeni investisiyalar və müasir texnologiyaların axını üçün geniş şərait yaradır;

Azərbaycan kəmərin istismarından 20 il mənfəət götürəcək. İmzalanmış sazişə əsasən ARDNŞ-nin də gəlirləri daxil olmaqla ölkəmizin gəlirləri 2,4-2,5 milyard dollar ətrafında olacaq;

Qazaxıstan neftinin bir hissəsinin də BTC ilə daşınacağını nəzərə alsaq, əldə olunan gəlirin daha da artacağını proqnozlaşdırmaq olar;

Ceyhandan Rotterdamadək neftin daşınması Qara dəniz yolu ilə nəzərdə tutulan alternativ variantlarla müqayisədə 2 dəfə ucuz başa gəlir və s.

Siyasi sahədə:

Azərbaycanın dünyaya inteqrasiyası dərinləşəcəkdir;

Regional inteqrasiya güclənəcək, həmin prosesə Mərkəzi Asiya ölkələri, ilk növbədə Qazaxıstan cəlb ediləcək;

Bölgədə, o cümlədən Azərbaycanda ABŞ və Avropanın strateji maraqlarının təmin edilməsi və bu əsaslarda Rusiya və İranın təsiri zəifləyəcək;

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsinə təsir göstərəcək;

Cənubi Qafqazın və Türkiyənin təhlükəsizliyinə kömək edəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi və istismarına dair sazişlər paketi 1999-cu il noyabrın 18-də İstanbulda ATƏT sammiti çərçivəsində Türkiyə, Qazaxıstan, Azərbaycan, Türkmənistan və ABŞ prezidentlərinin iştirakı ilə imzalandı. Sazişlər paketi ərazisindən neft kəmərinin çəkildiyi ölkələrin hüquq, maraq və öhdəliklərini tənzimləyirdi.

Bakı-Tbilisi-Ceyhan layihəsinin 10 səhmdarı dünyanın 8 ölkəsini təmsil edir.

BTC kəməri gələcəkdə Mərkəzi Asiya neftinin də dünya bazarlarına çıxarılmasına imkan verir.

Azərbaycanda iri qaz ehtiyatlarının olması və satışla bağlı yeni bazarlara çıxmaq istəyi, eləcə də bölgə ölkələrində və Avropada qaza artan tələbat qazın nəqli ilə bağlı yeni kəmərlərin çəkilməsini gündəmə gətirdi. Bölgənin enerji təminatında mühüm rol oynayan belə kəmərlərdən birini – Cənubi Qafqaz qaz kəmərinin tikintisini Azərbaycan 2006-cı ildə başa çatdırdı.

2007-ci ilin noyabrın 18-də Türkiyə-Yunanıstan qaz kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan qazının Cənubi Qafqaz qaz kəməri vasitəsilə Türkiyəyə, oradan da Yunanıstana ötürülməsinə başlanıldı.

Cənubi Qafqaz boru kəmərinin istismara verilməsi ilə Azərbaycan neft ixracatçısı olmaqla yanaşı, həm də qaz ixrac edən bir ölkəyə çevrildi. Azərbaycanın bölgə ölkələrinin və Avropanın enerji təhlükəsizliyində önəmi artdı.

Ümumiyyətlə, proqnozlara görə, neftin qiyməti bir barel üçün 70 dollarlıq həddən aşağı düşməsə, 2024-cü ilədək təkcə Azəri-Çıraq-Günəşli, Şahdəniz yataqlarından, BTC və Cənubi Qafqaz boru kəmərinin istifadəsindən dövlətin gəlirlərinin həcmi təxminən 350 milyard dollardan artıq olacaq.

Artan neft gəlirlərinin səmərəli idarə olunması və gələcək nəsillərə çatdırılması məqsədilə 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondu yaradıldı. Dövlət Neft Fondunun təsisi ilə bağlı 1999-cu il 29 dekabr tarixli prezident fərmanında deyilirdi: "Fond ölkənin neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlir-

lərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin qabaqcıl sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək" məqsədi ilə yaradılır. Sənəddə o da vurğulanır ki, "...gözlənilən gəlirlərin Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisinə istiqamətləndirilməsi dövlət siyasətinin başlıca məqsədidir".

Xatırladaq ki, 2014-cü ilin əvvəllərində Dövlət Neft Fondunun pul vəsaitlərinin həcmi 36 mlrd dollara bərabər olub. 1999-cu ilin sonundan 2011-ci ilin 1 aprelinədək Dövlət Neft Fondundan büdcəyə transferlərin və müxtəlif layihələrə ayırmaların miqdarı 20 mlrd 135.1 mln manat olub.

Müasir dövrdə iqtisadi inkişafın mühüm xüsusiyyətlərindən biri də iqtisadiyyatın neft pullarının asılılığından xilas olması və iqtisadiyyatın inkişafının şaxələndirilməsi ilə bağlı yürüdülən siyasətdir. Bu məsələlərə dəfələrlə toxunan ölkə Prezidenti İ.Əliyev çıxışlarının birində bildirmişdir ki, "Azərbaycanda yeni istehsallar yaranır, yəni biz idxaldan asılılığımızı azaldırıq və idxalı əvəzləyən yerli istehsalın yaranmasına çalışırıq. İndi Azərbaycanın bölgələrində iqtisadiyyatın qeyri-neft sektoru çox sürətlə inkişaf edir. Bizim məqsədimiz məhz bundan ibarətdir, qeyri-neft sektorunun inkişafı ilə çox ciddi məşğuluq və bu bizə imkan verəcək ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin, təkcə neft-qaz amilindən asılı olmasın".

Yeni neft strategiyası Azərbaycanda sosial-iqtisadi və mədəniyyət problemlərinin həlli üçün də əvəzsiz amil oldu. Məhz bu siyasət nəticəsində Azərbaycan dünya miqyasında tanınmış və nüfuzlu dövlətə çevrildi.

Müstəqillik illərində dövlətin prioritet hesab etdiyi və ən çox investisiya yatırdığı sahələrdən biri də nəqliyyat sektorudur. Bu illər ərzində ölkənin əsas (magistral) avtomobil və dəmir yollarının demək olar ki, hamısı yenilənmiş, yeni yol qovşaqları tikilmiş, onlarca körpü istifadəyə verilmişdir. Nəqliyyat sahəsində uğurlu layihələrdən biri də Avropa Birliyinin də dəstəklədiyi və Azərbaycanın da fəal iştirak etdiyi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRASEKA) və "Yeni İpək Yolu" proqramlarıdır. Bu proqramların əsas məqsədi Avropadan Cənubi Qafqaz, Mərkəzi Asiyaya oradan da Çinə keçməklə və əks istiqamətə yeni alternativ və ucuz nəqliyyat

dəhlizinin yaradılmasını, eləcə də bölgə ölkələrinin dünya bazarına çıxış qabiliyyətinin asanlaşdırılmasını nəzərdə tutur.

Bu işlərin məntiqi davamı olaraq 2010-cu ildən Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsinə başlanılmışdır və bu ilin sonlarında (2014) əsas işlərin yekunlaşdırılması planlaşdırılır. Bu tikinti həm respublikamız, həm qonşularımız, həm bölgə və həm də dünya üçün tarixi əhəmiyyətə malikdir.

Nəqliyyatın aviasiya və dəniz gəmiçiliyi kimi sahələrində də böyük işlər görülmüşdür. Son on il ərzində ölkədə yeddi yeni beynəlxalq standartlara cavab verən aeroportlar istifadəyə verilmiş, AZAL aviaşirkətinin təyyarə parkı tamamilə yenilənmiş, keyfiyyət və təhlükəsizlik baxımından dünyada nüfuzlu şirkətlərdən birinə çevrilmişdir. Ölkədə karqo aviasiya da sürətlə inkişaf etməkdədir. Aviayükdaşımaların həcmi ildən-ilə artmaqdadır.

Xəzər Gəmiçiliyi idarəsi yeni gəmilər almış (20-yə qədər), yükdaşımaların həcmi artmışdır. Azərbaycanda böyük gəmiqayırma zavodu tikilib istifadəyə verilmiş, Ələt qəsəbəsində isə Xəzər hövzəsində ən böyük beynəlxalq dəniz ticarət limanı tikilməkdədir.

Bu illər ərzində Azərbaycanda sosial-iqtisadi sahədə də sürətlə inkişafa nail olunmuşdur.

Həyata keçirilən siyasət çox qısa bir zaman ərzində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur: inflyasiya cilovlanmış, büdcə kəsiri ümumi daxili məhsulun 1-2 faizi səviyyəsinə endirilmiş, 1996-cı ildə makroiqtisadi sabitliyə nail olunmuş, 1997-ci ildən başlayaraq isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur. 1996-cı ildə ümumi daxili məhsulun artım sürəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-2003-cü illərdə isə orta hesabla 10,0 faiz təşkil etmişdir. Bu temp sonrakı illərdə də davam etmiş, 2004-cü ildə 19,3 faiz və 2005-ci ildə isə rekord səviyyəyə qalxaraq 44, 6 faiz olmuşdur. Qeyd edək ki, 2009-cu ildən davam edən dünya maliyyə və iqtisadi böhranı dövründə də Azərbaycanda iqtisadi inkişaf tempi aşağı düşməmişdir. 2011-ci ildə ümumi daxili məhsulun artım sürəti 8,3 faizə bərabər olmuşdur.

1995-ci ildən 2012-ci ilədək Azərbaycan iqtisadiyyatına nə az, nə çox düz 120 mlrd $ investisiya yatırılıb. 2011-ci ildə isə bu investisiyaların həcmi 20 mlrd $ həcmində olmuşdur.

Torpaqların və dövlət mülkiyyətinin özəlləşdirilməsi, eləcə də sahibkarlığı inkişaf etdirmək məqsədilə bir sıra qərarlar qəbul edildi. Belə ki, ölkədə artıq torpaq islahatları faktiki olaraq başa çatmış, 1,390 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmışdır. Hazırda kənd təsərrüfatı məhsulunun 99 faizi özəl bölmədə istehsal olunur.

İqtisadiyyatın digər sahələrində də dövlət mülkiyyətinin özəlləşdirilməsi uğurla həyata keçirilmişdir. Özəlləşdirmə prosesi başlayandan indiyə kimi 40 minə yaxın kiçik müəssisə və obyekt özəlləşdirilmişdir.

1995-ci ildə "Sahibkarlıq fəaliyyəti haqqında" qanun qəbul olundu. Sahibkarlara kömək məqsədilə milli fond təsis edildi. Bu fond vasitəsi ilə hər il on milyonlarla manat vəsait aşağı faizlərlə və uzun müddətə sahibkarlara verilir.

Ölkədə lisenziyalaşdırma sisteminin sadələşdirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü surətdə dəyişmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilmiş, lisenziyanın müddəti isə 2 ildən 5 ilə qədər uzadılmışdır. Yeni lisenziyalaşdırma sisteminin tətbiqi normal rəqabət mühitinin inkişafına, istehsal olunan məhsulun, göstərilən xidmətin keyfiyyətinin yüksəlməsinə az da olsa təsir göstərmişdir.

Hazırda hüquqi şəxslərin dövlət qeydiyyatına alınması prosedurları da xeyli sadələşdirilmiş, bu sahədə əvvəllər mövcud olmuş problemlər aradan qaldırılmışdır.

Əmək haqlarının, pensiyaların və müavinətlərin artırılması, əhalinin sosial müdafiəsi istiqamətində aparılan ardıcıl siyasət son illər ölkədə həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmişdir. 1995-2003-cü illərdə orta aylıq əmək haqqı və pensiyanın məbləği 6 dəfədən də çox artmışdır. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2011-ci ildə 5,6 faizə enmişdir.

2003-cü ildən bəri 30 minə yaxın yeni müəssisə yaradılmış, 1 milyona yaxın yeni iş yeri açılmışdır ki, onun da 600 mini daimi iş yeridir.

Müstəqillik illərində respublikamızın müdafiə qabiliyyətinin gücləndirilməsi sahəsində də önəmli addımlar atılmışdır. Ordunun

yeni, ən müasir silahlarla təchizatı qaydaya salınmış, şəxsi heyətin peşəkarlığının artırılması sahəsində də xeyli işlər görülmüşdür. Ölkədə hərbi-sənaye kompleksinin yaradılması sahəsində aparılan işlər mühüm əhəmiyyətə malikdir (Müdafiə Sənayesi Nazirliyinin yaradılması). İndi Milli Ordunun tələbatını ödəyən və müasir tələblərə cavab verən 650-yə yaxın hərbi-sursat və avadanlıq növü Azərbaycanın özündə istehsal olunur.

Qeyd edək ki, 2008-ci ildən başlayan dünya iqtisadiyyatının keçirdiyi dərin böhran şəraiti respublikamızda iqtisadiyyatın ümumi inkişaf səviyyəsini aşağı sala bilməmiş, əksinə ölkə iqtisadiyyatı öz dinamik inkişafını davam etdirmişdir. Ölkədə on minlərlə yeni iş yerləri açılmış, əhalinin pul gəlirləri artmışdır. Ölkə iqtisadiyyatının neft gəlirlərindən asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektorunda ciddi işlər görülmüş və bu sahədə irəliləyişlər baş vermişdir.

Qeyd edək ki, Azərbaycan cəmiyyətinin həyatında 2003-cü ildən yeni mərhələ başlayır ki, bu da həmin ildə ölkə prezidenti seçilən İlham Əliyevin adı ilə bağlıdır. Məhz onun səriştəli fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq nüfuzu xeyli artaraq, beynəlxalq və regional problemlərin həllində vacib oyunçulardan birinə çevrildi. Azərbaycan bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildi. "Ölkəmizin qərb ailəsinə inteqrasiyasının reallaşdırılması, bölgədə təhlükəsizliyin və regionun inkişafı naminə əməkdaşlıqda maraqlı olan dövlətlərlə daha geniş münasibətlərin yaranması sahəsində də önəmli addımlar atılmış, beynəlxalq terrorizmə və digər bu kimi elementlərə qarşı mübarizədə Azərbaycan fəal iştirak etmişdir. Azərbaycan dünyadakı müxtəlif beynəlxalq və regional təşkilatların işlərinə fəal qoşulmaqla böyük dünya siyasətində özünün lazımınca iştirakına nail ola bilmişdir. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bəzən Azərbaycana qarşı tətbiq edilən ikili standartları aradan qaldırmaq üçün qətiyyətli addımlar atılmışdır". Beynəlxalq miqyaslı iri siyasi və iqtisadi layihələrin iştirakçısına çevrilən ölkəmizin uğurları nüfuzlu Beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmağa başladı. Təsadüfi deyil ki, 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"-nda Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə, MDB ölkələri arasında isə 1-ci yerə yüksəlmişdir.

İlham Əliyevin prezidentliyi dövründə xarici siyasət sahəsində Azərbaycanın ən böyük uğurlarından biri, sözsüz Azərbaycanın 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ilə bağlıdır.

İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanda bir sıra iri infrastruktur layihələri həyata keçirildi. Ölkənin magistral yolları demək olar ki, yenidən quruldu. Bakı əhalisinin fasiləsiz və yüksək keyfiyyətli su ilə təmin edilməsi məqsədilə Oğuz-Qəbələ-Bakı su kəməri tikilib istifadəyə verildi (2006-2011-ci illər). Ölkənin enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olundu.

Ölkə iqtisadiyyatının, xüsusilə də qeyri neft sektorunun və bölgələrin inkişafı ilə bağlı bir sıra dövlət proqramları qəbul edildi. Bunlara misal olaraq "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və başqa proqramları göstərə bilərik.

Ümumiyyətlə, son on ildə ölkə prezidentinin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı işlər nəticəsində Azərbaycan iqtisadiyyatı üç dəfə artıb, yoxsulluğun səviyyəsi 49 faizdən 6 faizə, işsizlik isə 5 faizə enib. Azərbaycanın icmal büdcəsinin xərcləri 13 dəfə artaraq 1,5 milyard manatdan 20 milyard manata çatıb. 2014-cü ildə icmal büdcəsində isə gəlirlər 21 985, 9 mln manat, xərclər isə 24 444, 0 mln. manat nəzərdə tutulmuşdur. 2014-cü ildə ÜDM-nin tərkibində neft sektorunun payı əvvəlki illərə nisbətən aşağı düşərək 38,5% həddində proqnozlaşdırılır. 2003-cü ildə 800 milyon dollar təşkil edən strateji valyuta ehtiyatları artıq 50 milyard dolları ötüb. 1.2 milyon yeni iş yeri yaradılıb. 2500 məktəb, yüzlərlə səhiyyə müəssisəsi, mədəniyyət, idman obyektləri tikilib istifadəyə verilib. Azərbaycan iqtisadiyyatı keçid dövrünü başa vurub, ölkəmiz iqtisadiyyatın rəqabətə davamlılığına görə, dünyada 39-cu yeri tutur.

Bütün bunlara baxmayaraq, yəni təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması məsələ-

sinin həllinin beynəlxalq hüquq normaları çərçivəsində tənzimlənməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həmişə vurğulanırdı. Bununla yanaşı, o, tövsiyə edirdi ki, xalqın inkişaf etmiş sivil xalqlar səviyyəsində yaşaması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, yaxın və uzaq xalqlarla Azərbaycan xalqının dostluq və mədəni əlaqələrinin təbliği, insanpərvərlik və ictimai ədalət kimi əsrlər boyunca klassiklər tərəfindən təbliğ və tərənnüm olunan ümumbəşəri ideyalar yeni – qloballaşma şəraitində daha da inkişaf etdirilməlidir. Ədəbiyyatın və sənətin başlıca inkişaf meyilləri Qarabağın tərənnümü, gənc nəslin patriotik ruhda tərbiyəsi üzərində qurulmalıdır. Sadalananlar Azərbaycan xalqının yüksək humanizm və dostluq hisslərinin ifadəsidir. Qarabağı unutdurmaq, yaddan çıxarmaq, yaddaşlardan silmək mümkün deyildir! Qarabağ Azərbaycanın əzəli, əbədi torpağıdır, arterial qan damarıdır, onun tarixinin, ədəbiyyatının, mədəniyyətinin ayrılmaz bir tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti, məhz, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması və Azərbaycanın qətiyyətli mövqeyinin bəyan edilməsinə yönəlmişdir. Aşağıda qeyd edilən yarımfəsillərdə isə bu aydın şəkildə öz əksini tapmışdır.

Sual və tapşırıqlar:

– Neçənci ildə Ermənistanla Azərbaycan Respublikası arasında atəşkəs elan edilmişdir və həmin saziş harada bağlandı? Həmin atəşkəsi zəruri edən səbəblər nə ilə əlaqədardır?

– Azərbaycanın müstəqillik tarixində "Əsrin müqaviləsi" nə üçün mühüm əhəmiyyət kəsb edirdi və bu istiqamətdə ümummilli lider Heydər Əliyevin fəaliyyəti nədən ibarət idi?

– Müstəqillik illərində dövlətin prioritet hesab etdiyi, ən çox investisiya yatırdığı sahələr hansılardır?

– Həmin dövrdə Azərbaycanda iqtisadiyyatın inkişafı üçün həyata keçirilmiş tədbirləri öyrənin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "VALDAY" KLUBUNDA ÇIXIŞINDAN

2019-cu il oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçi səhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən qlobal və regional geosiyasətin ən aktual məsələlərinə toxunmuşdur. O, həmin çıxışında Rusiya-Azərbaycan münasibətlərinin strateji xarakterini, Ermənistan rəhbərliyinin son vaxtlar ifadə etdiyi məsuliyyətsiz bəyanatlarını, Azərbaycanın Qarabağ məsələsindəki konkret mövqeyini və dövlət quruculuğunda əldə edilən nailiyyətləri şərh etmişdir. İclasda Azərbaycan rəhbəri Rusiya ilə əməkdaşlığın müxtəlif aspektlərinə aydınlıq gətirərək bu prosesin artan sürətlə inkişaf etməsində maraqlı olduğunu deyib. Prezident İlham Əliyevin çıxışı zamanı Nikol Paşinyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı söylədiyi populist fikirlərə tutarlı cavab verməsi xüsusi marağa səbəb olub. İlham Əliyevin nitqində ifadə edilən vacib tezislər üzərində geniş dayanmağa böyük ehtiyac duyuruq.

İlham Əliyev nitqini dünya miqyasında müşahidə edilən başlıca trendlər və onların Avrasiya məkanına təsiri fonunda Rusiyanın dövlət olaraq fəaliyyətini qısa analizlə başlayıb. Keçən əsrin 90-cı illərinin ikinci yarısından Rusiyanın müxtəlif çətinlikləri dəf etdiyini vurğulayan İlham Əliyev bu prosesdə Prezident Vladimir Putinin başlıca rol oynadığını deyib. Azərbaycan Prezidenti Rusiya liderinin regional məsələlərin həllində yüksək rolunu vurğulamaqla onun etibarlı tərəfdaş olduğunu da diqqətə çatdırıb.

Bununla Azərbaycan Prezidenti nitqində qlobal geosiyasi trendlərin fonunda Rusiyanın geosiyasi güclənməsi faktını vurğulayaraq, Rusiya-Azərbaycan münasibətlərini də həmin kontekstdə qiymətləndirib. O deyib ki, Azərbaycan Rusiya kimi qüdrətli bir dövlətlə, dünyada söz sahibi olan ölkə ilə bərabərhüquqlu tərəfdaş statusunda əməkdaşlıq edir. Əlbəttə, bu, qürurvericidir və həmin məqam İlham Əliyevin nitqində olduqca yüksək səviyyədə təqdim edildi. Bu cür fikirləri Ermənistan-Rusiya münasibətləri haqqında demək

mümkün deyildir. Çünki Ermənistan həm forpostdur, həm də faktiki olaraq heç bir əməkdaşlıq təşəbbüsü və proqramı ilə çıxış etməyib.

İlham Əliyevin öz nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daha qətiyyətli danışıb. O, xatırladaraq söyləyib ki, Nikol Paşinyan bir qədər əvvəl Ermənistanın mövqeyi ilə bağlı "tezis" demişdi və guya ki, bunu Azərbaycan tərəfinə də ifadə edib, ancaq cavab almayıb. Onun dedikləri qısaca olaraq belə idi: "Dağlıq Qarabağ (onlar "Arsax" deməyə başlayıblar, lakin bunun nəyi dəyişdiyi aydın deyil) Ermənistandır və nöqtə. Bundan sonra elə qərar qəbul edilməlidir ki, Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ xalqlarını qane etsin". Təbii ki, "Arsax xalqı" ifadəsi altında Nikol Paşinyan əsrlərlə orada yaşamış, aborigen azərbaycanlıları (türkləri) deyil, Rusiya imperiyasının həmin əraziyə köçürdüyü erməniləri nəzərdə tutur.

Ermənistanın baş nazirinin gözlədiyi cavabı Azərbaycan Prezidenti yığcam şəkildə və dəqiq vermişdir. İlham Əliyev "Qarabağ Ermənistandır" ifadəsinin yalan olduğunu göstərib. Həmin ərazinin statusu 1921-ci ildə Qafqaz bürosunun qərarı ilə "Azərbaycanın tərkibində qalsın" kimi müəyyən edilib. Nikol Paşinyan da daxil olmaqla, bəzi ermənilər isə "Azərbaycana verilsin" kimi yazıldığını iddia edirlər. Bunlar konkret sənədi də təhrif etməyə utanmırlar. Çünki həqiqətdən ənənəvi olaraq qorxurlar.

Daha qədimlərə müraciət edən Azərbaycan Prezidenti qətiyyətlə bəyan edib ki, Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, siyasi, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olub və ora indi də Azərbaycandır. Və həmin fikri Prezident tarixə düşən dəqiq cavabla ifadə edib: "Qarabağ Azərbaycandır və nida işarəsi" Erməni mətbuatı bu fikrin Nikol Paşinyanın "nöqtəsini əzib keçdiyini" yazıb. Doğrudan da çox güclü, dəqiq, yığcam və eyni dərəcədə obyektiv cavabdır.

Bu, həm də "Valday" Klubunun toplantısında iştirak edənlərə bir diplomatik mesaj idi. Yəni Dağlıq Qarabağ işğal olunub! Bu işğal davam edir. Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur. Onun üç həmsədri vardır: ABŞ, Rusiya və Fransa! Həmsədrlər də uzun illərdir ki, Azərbaycanın haqqının bərpa olunmasına yar-

dım etmir, sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, ancaq işğalçının zəbt etdiyi ərazilərdən çıxması üçün heç bir real təzyiq göstərmirlər. Əksinə, məsələ üzərində öz maraqlarına uyğun "oynamaqda" davam edirlər.

Bu baxımdan Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin icra olunmadığını xüsusi vurğulaması olduqca vacib idi. Ölkə rəhbəri ifadə edib ki, BMT bir sıra qətnamələri cəmi bir neçə gündə yerinə yetirir, digərlərinə gəldikdə isə 10 illər belə hərəkətə keçmir. Dağlıq Qarabağla da bağlı vəziyyət eynidir: BMT faktiki olaraq dişsizdir! Həmin səbəbdən bu təşkilatın nüfuzu aşağı düşüb və onun yenilənməsinə böyük ehtiyac yaranıb. Dağlıq Qarabağla bağlı məsələdə isə qətnamələrin implementasiyası olmalıdır. Əks halda, BMT-nin nə üçün mövcud olduğu sualı meydana çıxır.

Münaqişənin həllinə gəldikdə isə o, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Helsinki Yekun Aktının prinsiplərinə uyğun həll edilməlidir. Azərbaycan tərəfi daim danışıqlar yoluna üstünlük verib və indi də həmin mövqedədir. Lakin bu proses sonsuza qədər davam edə bilməz – vasitəçilər mütləq münaqişəni beynəlxalq hüquq çərçivəsində həll etməyə nail olmalıdırlar.

– Ölkə rəhbəri nitqində Azərbaycanın əldə etdiyi nailiyyətlər üzərində də dayanıb. Ölkədə həyata keçirilən proqramların nəticələ-rindən bəhs edib. O cümlədən, Azərbaycanın 26 ildir ki, sabitlik içində yaşadığını ifadə edib. Azərbaycanın müstəqillik illərində beynəlxalq nüfuzu yüksəlib. Bunun göstəricilərindən biri Azərbaycanın BMT TŞ-nin qeyri-daimi üzvü seçilməsidir. Həmin nəticəyə Azərbaycan diplomatiyası ciddi fəaliyyət əsasında nail olub.

Beləliklə, Azərbaycan Prezidentinin "Valday" Klubundakı nitqi tarixi hadisədir. Xüsusilə Ermənistan rəhbərliyinə verilən cavab böyük maraq doğurub. Həmin çıxışı olduğu kimi təqdim edirik:

– Daimi diskussiyaların mövzularından biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsidir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. Onun vasitəçilik üçün mandatı var. Qeyd etməliyəm ki, Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu 25 ildən çoxdur erməni işğalı altındadır. Dağ-

lıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi var. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın, çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıb.

Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur. İşğal olunmuş ərazilərin böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, ictimai binalardır evlər, məktəblər, viran qoyulmuşdur. Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, həmçinin müasir Ermənistanın ərazisindəki öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir.

Burada biz mühüm məsələyə – qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Biz Azərbaycanlıları qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamə-lər kağız üzərində qalır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul

edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır.

Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur.

Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunda dinc sakin erməni snayperi tərəfindən açılan atəş nəticəsində qətlə yetirilib. Həmçinin deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakin, o cümlədən balaca qız qətlə yetirilib.

Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə".

Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, **Qarabağ Azərbaycandır və nida işarəsi!**

İşğala, 1990-cı illərin əvvəlində ölkəmizdə hər səkkiz nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və quruculuq yolu qət edib. Ölkədə oyuncaq, xalqa zidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illəri istisna olmaqla, 26 ildir Azərbaycan sabitlik şəraitində

yaşayır və burada əsas xidmət vətəndaş müharibəsinin qarşısını almış, işğalı dayandırmış, xaosun, dağıntının öhdəsindən gəlmiş və Azərbaycanı quruculuq yoluna çıxarmış Prezident Heydər Əliyevə məxsusdur. Beləliklə, 26 ildir ki, Azərbaycan xalqı sabitlik və inkişaf şəraitində yaşayır. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bunun göstəricilərindən biri bir neçə il əvvəl ölkəmizin 155 dövlətin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, o qədər də asan deyildi, bizim üçün 3 gün və 16 tur tələb olundu, lakin ədalət zəfər çaldı. Həmçinin qeyd etmək istərdim ki, Rusiya Federasiyası və digər 154 ölkə bizə böyük dəstək verdi.

Bizi sevindirir ki, Bakı artıq bir neçə ildir Rusiya və NATO-nun ali hərbi komandanlıqlarının görüş yeri seçilir. Bunu bizə göstərilən etimadın ifadəsi kimi qiymətləndiririk. Bu ayın sonunda Bakıda Qoşulmama Hərəkatının sammiti keçiriləcək. Azərbaycan 3 il müddətinə bu təşkilatın sədri olacaq.

3 oktyabr 2019-cu il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubundakı iclasın plenar sessiyasındakı çıxışının əhəmiyyətini necə şərh edərsiniz?

– Həmin çıxışın tarixiliyini və qarşı tərəfə (ermənilərə) vurduğu zərbənin mahiyyətini izah edə bilərsinizmi?

– BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunmuş qətnamələrin məzmununu açmaqla icra edilməməsinin səbəblərini təhlil edin və öyrənin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MDB DÖVLƏT BAŞÇILARININ AŞQABADDA KEÇİRİLƏN İCLASINDA ÇIXIŞINDAN

2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. Zirvə görüşündə Prezident İlham Əliyev Ermənistana çox ciddi diplomatik həmlə etdi. Bu addımlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyimizi bir daha gücləndirib. Bu tədbirdə Azərbaycanın dövlət başçısı Ermənistanda fasizmin əbədiləşdirilməsi ilə bağlı yürütdüyü siyasəti bütün dünyaya bəyan etdi.

O, Zirvə Görüşündə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətində bildirib ki, ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını

vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni, bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı.

Azərbaycan elminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan "Molotov kokteyli" kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi. Bu barədə çox adam bilmir, lakin bu, həqi-qətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur "Katyuşa" raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstərirdilər. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992-1993-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə vete-ranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun ilk qərarlarından biri 9 May – Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir.

Biz dövlət başçılarının faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin

məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən mühari-bəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhali-sinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur. Daha sonra Azərbaycanın dövlət başçısı Ermənistanın baş naziri Nikol Paşinyanın uğursuz və əsasız çıxışına cavab verib. O, deyib:

– Mən, sadəcə, şərh verməyə məcburam. Belə ki, Ermənistanın baş nazirinin çıxışında söhbət məndən gedib. Halbuki mənim çıxışımda söhbət Ermənistanın baş nazirindən, xüsusən də erməni xalqından getməyib. Hesab edirəm ki, Sovet İttifaqının digər xalq-

ları kimi, bizim ümumi qələbəmizə böyük töhfə verən erməni xalqı, ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir. Əgər baş nazir mənim çıxışıma diqqətlə qulaq asıbsa, onda yəqin ki, o da bunu tutub. Həmçinin hesab edirəm ki, nasist əlaltıları və cinayətkarları ilə QULAQ-ın və digər düşərgələrin repressiyaya məruz qalmış dustaqlarını müqayisə etmək qətiyyən yol verilməzdir. Mən öz çıxışımı təsadüfən sitatlarla möhkəmləndirmədim. Onları kitabxanada, internetdə tapmaq olar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 2019-cu ilin may sitatında və Rusiyanın Müdafiə naziri Şoyqunun redaksiyası altında 12 cildlik nəşrin sitatında kifayət qədər aydın deyilir ki, o, necə bir "xadim" olub. Həmçinin nə qədər iyrənc olsa da, onun sitatını mən bir daha təkrar edəcəyəm: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Bu, Böyük Vətən müharibəsi illərində deyilib. Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir. Mənim dövlət başçılarına hörmətsizlik göstərdiyimə gəlincə, düşünürəm ki, bizim iclasımız, yəqin ki, bundan daha absurd tezis eşitməyib.

11 oktyabr 2019-cu il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB Dövlət Başçılarının Aşqabadda keçirilən iclasında çıxışının tarixi əhəmiyyətini necə təhlil edə bilərsiniz?

– Həmin çıxışda Azərbaycan Respublikasının Prezidentinin Ermənistanın Baş Naziri Nikol Paşinyana ünvanladığı əsaslı arqumentlərin mahiyyətini necə şərh edə bilərsiniz?

– Zirvə görüşündə Prezident İlham Əliyevin məharətlə bütün dünyaya sübut etdiyi erməni faşizminin mahiyyətini dərindən öyrənin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DİNİ LİDERLƏRİN II SAMMİTİNDƏ ÇIXIŞINDAN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14-15 noyabr 2019-cu il tarixli Bakıda keçirilən Dini Liderlərin II sammitində çıxışı zamanı qeyd etmişdir ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə isə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bizim bütün tarixi

abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin bizim torpaqlarımızdan çıxarılması haqqında açıq-aydın müddəalar var, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar – Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir və bildirməliyəm ki, Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

14-15 noyabr 2019-cu il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda keçirilən Dini Liderlərin II Sammitində çıxışının əhəmiyyətini şərh edə bilərsinizmi?

– Qarabağ xanlığının yaranması tarixini və ermənilərin işğalçı siyasətini necə izah edərdiniz?

– Sammitdə iştirak etmiş dini liderlərin yekdil qərarlarının əsas müddəasını öyrənin.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ İLHAM ƏLİYEVİN BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ ÇIXIŞINDAN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yebileyində çıxış edərək qeyd etmişdir ki, "...Prezident Putinin dəvəti ilə mən "Valday" Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi 3 dövlət başçısı dəvət olunmuşdu, o cümlədən Azərbaycan. Bu, bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu Bakıda da, hansısa rayonda da deyə bilərdim. Onu kim eşidəcəkdi? Bizimkilər, yəni, biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin və orada canlı efirdə mən dedim: "Qarabağ Azərbaycandır, nida işarəsi". Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü.

Ondan sonra MDB Zirvə Görüşündə, – o, "Valday"dan bir neçə gün sonra baş verdi, – mən qeyd etdim ki, biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdur və həbsxanada da çürümüşdür. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı "СМЕРШ" idi. Bilməyənlər bilsinlər ki, bu, abreviaturdur, bunun adı "Смерть Шпионам", "Смерш", yəni, "Casuslara ölüm". Yəni, casus kimi həbs olundu, ona 25 il cəza verildi, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan getdi. İndi, görün, Ermənistanın baş nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni, bu adam Soljenitsını və söz azadlığına görə həbs edilən və sonra reabilitasiya olunan digər adamları faşist Njde ilə eyniləşdirir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu əvvəlki hakimiyyət ucaldıb.

İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistan üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün, bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni, onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət ab-havasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasi-bətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləş-dirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı

oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində, birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır, bu, bir. İkincisi, BMT-nin rəhbəri yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də, o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

26 noyabr 2019-cu il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidentinin Bakı Dövlət Universitetinin 100 illik yubileyində çıxışının əsas mahiyyətinin necə izah edərdiniz?

– Prezident İlham Əliyevin gənclərə gələcək nəsillərin vətənə bağlılığını, savadlı olmağını, daima öz üzərlərində çalışaraq xalqımıza vicdanla xidmət etmələri kimi tövsiyələrini öyrənin.

PREZİDENT İLHAM ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN DÖVLƏT BAŞÇILARI ŞURASININ VİDEOKONFRANS FORMATINDA KEÇİRİLƏN İCLASINDAKI ÇIXIŞI

Onlayn rejimdə bugünkü sammitimizin təşkilinə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

COVID ilə bağlı çətinlikləri hamımız başa düşürük. Ona görə, bu cür ünsiyyət forması bir növ ənənəyə çevrilir, lakin ümid edirəm ki, yaxın vaxtlarda ölkələrimizdə COVID ilə bağlı vəziyyət daha sabit olanda öz həmkarlarımı görəcəyəm.

Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dövlət başçıları, həmkarlar. Müharibənin başa çatmasından, Vətən müharibəsində Azərbaycanın Qələbəsindən bir il keçməsi ilə əlaqədar bizim regionda yaranmış vəziyyət barədə sizi məlumatlandırmaq istərdim. Bu bir il ərzində nələr baş verməsi, qarşımızda duran çağırışlar və regional inkişafın perspektivləri barədə informasiyanı sizə təqdim etmək istərdim.

Bütövlükdə postmünaqişə dövrü sakit keçir. Ona görə "postmünaqişə dövrü" deyirəm ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib. 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalandı. Bu Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Hərbi əməliyyatların dayandırılmasında Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin xüsusi rolu-nu bir daha qeyd etmək istərdim. Bu, hər iki tərəfdən minlərlə insa-nın ölümündən qaçmağa imkan verdi. Üçtərəfli Bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən

çıxardı. Bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhəri və kəndi döyüş meydanında azad etdi. Beləliklə, artıq qeyd etdiyim kimi, münaqişə hərbi-siyasi yolla həll edildi. Həmçinin üçtərəfli Bəyanata müvafiq olaraq Azərbaycanın Qarabağ regionuna Rusiya sülhməramlıları yerləşdirildi. Nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı məsələlərin həll edilməsi üçün Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə işçi qrup yaradıldı. Azərbaycanın Ağdam rayonunun ərazisində Azərbaycan tərəfi Rusiya-Türkiyə monitorinq mərkəzi yaratdı.

Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir. Azərbaycana verilmiş az sayda xəritələrin dəqiqliyi təqribən 25 faizdir. Azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün binalar və tarixi abidələr dağıdılıb. Azad edilmiş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qismən dağıdılmış qalan iki məsciddə işğalçılar donuz və inək saxlayır, müsəlmanların heysiyyətini qəsdən təhqir edirdilər. Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faiz dağıdılıb. Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşirdi. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. Şuşa şəhərində işğala qədər mövcud olan 17 məsciddən 16-sı Ermənistan tərəfindən dağıdılıb. Bir məscid "tolerantlıq" nümayiş etdirmək üçün saxlanılıb və İrandan olan qondarma mütəxəssislərin köməyi ilə onu fars məscidi kimi təqdim etməyə cəhd göstərilib. Evlər və ictimai binalar kərpic-kərpic, daş-daş sökülüb, Ermənistana və İrana satılıb. Azərbaycan ərazilərində vandalizmin izləri belədir. Təbiətə çox böyük ziyan vurulub, 60 min hektara yaxın meşə qırılıb, doğranıb,

Ermənistana və İrana satılıb. Qızıl yataqları və digər təbii ehtiyatlar qanunsuz istismar edilib. Transsərhəd Oxçuçay çayı bir Avropa şirkətinin iştirakı ilə sistematik olaraq çirkləndirilirdi, bu da artıq nüfuzlu beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş ekoloji fəlakətə gətirib çıxarıb. İşğal edilmiş ərazilərdə real mənzərə belədir. Azad edilmiş ərazilərdə bir ildən az müddətdə bir çox ölkələrdən olan minlərlə siyasətçi, diplomat və jurnalist, o cümlədən MDB ölkələrinin nümayəndələri bunları görüblər. Azərbaycan İranla dövlət sərhədinin təqribən 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş 130 kilometrlik hissəsində nəzarəti ötən bir ildə bərpa edib və beləliklə, İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb. Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu, o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib.

Mən işğal illərində dəfələrlə bəyan etmişdim ki, işğal olunmuş ərazilərdən narkotrafik məqsədilə və beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilir. Bu gün bu, sübut edilmiş faktdır. Belə adlandırılan "erməni hərbi əsirlər" məsələsinə də toxunmaq istərdim. Azərbaycan müharibə dövründə tutulub saxlanılmış bütün hərbi əsirləri Ermənistanın azərbaycanlı hərbi əsirləri bizə verməsindən daha əvvəl verib. Üçtərəfli Bəyanat imzalanandan iki həftədən çox sonra, keçən il noyabrın axırlarında 62 nəfərdən ibarət təxribat qrupu Ermənistanın Şirak regionundan Azərbaycan Silahlı Qüvvələrinin arxa hissəsinə, artıq işğaldan azad edilmiş ərazilərdə təxribatlar törətmək üçün göndərilmişdi. Azərbaycan hərbi qulluqçuları həmin qrupu tutaraq tərk-silah etdi. Beynəlxalq konvensiyalara müvafiq olaraq bu təxribatçılar hərbi əsir hesab edilə bilməz.

Müharibə və münaqişə tarixdə qaldı. Biz, ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırıq, həmçinin Ermənistan ilə sülh sazişinə dair danışıqlara başlamağa hazırıq. Azərbaycan qalib

ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır. Ümidvarıq ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək.

Diqqətinizə görə sağ olun.

15 oktyabr 2021-ci il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışının əsas mahiyyətini necə şərh edərsiniz?

– Prezident İlham Əliyevin videokonfrans iştirakçılarının nəzərinə çatdırdığı faktların tarixi əhəmiyyətini şərtləndirən amilləri və faktları təhlil edərək öyrənin.

TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏYƏ HƏSR OLUNMUŞ ZƏFƏR PARADINDAKI ÇIXIŞI
10 dekabr 2021-ci il

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı can qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram.

Bu Zəfər Gününüzdə sizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyuruq.

Qardaşım İlham Əliyevə bu yüksək dəvəti və qonaqpərvərliyi üçün təşəkkürümü bildirirəm.

Azərbaycanın 44 gün davam edən şanlı mübarizəsində şəhid olan igidlərə Uca Allahdan rəhmət, qazilərimizə tezliklə sağalmalarını arzulayıram. Şair Bəxtiyar Vahabzadənin dediyi kimi:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

* * *

İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm.

20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas

olan Xarıbülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir.

Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək.

Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tar-mar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tar-mar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır.

Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır.

Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq.

İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb yanan bir milyon qaçqın və məcburi köçkün qardaşımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq.

Əziz qardaşlarım, Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal atında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Erməni siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik.

Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovundurараq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır.

Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər faciəyə baxmayaraq, dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoymaqdadır. Cənab Prezidentin bu xoşniyyətli cəhdlərini biz də dəstəkləyir, həmsöhbətləri tərəfindən dəyərləndirilməsini arzu edirik.

Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay

artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır.

Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

Bu düşüncələrlə çıxışımı yekunlaşdırarkən bütün Azərbaycan xalqını, əziz qardaşım Prezident İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu, Türk Ordusunu ürəkdən təbrik edirəm. Əziz şəhidlərimizi bir daha rəhmətlə yad edir, qazilərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun, var olun, Allaha əmanət olun!

TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MİLLİ MƏCLİSDƏKİ ÇIXIŞI
16 iyun 2021-ci il

– Azərbaycan Milli Məclisinin hörmətli sədri!

Əziz millət vəkilləri, xanımlar və cənablar!

Sizləri – müzəffər ölkənin parlamentinin bütün üzvlərini Türkiyədəki 84 milyon qardaşınızın adından bir millət, iki dövlət anlayışı ilə sevgi və bəxtiyarlıqla salamlayıram. Xoşbəxtəm, çünki Can Azərbaycandayam. Xoşbəxtəm, çünki Qarabağı azad etmiş qardaş Azərbaycanın Milli Məclisində sizlərlə birlikdəyəm. Xoşbəxtəm, çünki müstəqilliyinin otuzuncu ilinə çatan Azərbaycandayam. Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir.

Bu Zəfərlə Qafqazda qanayan bir yara qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq.

Geridə qoyduğumuz otuz ildə – Qarabağda yaşanan böhranlı dövrdə kimlərin əlinə nə keçdiyi, kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin də itirdiyi çox yaxşı bilinir. Canı yananlar, qanı tökülənlər, acı çəkənlər, maddi və mənəvi olaraq itirənlər ancaq Qarabağda yaşayan insanlardır. Asan deyil, otuz il. Mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən, təəssüf ki, otuz ildir köçkün düşüblər. O torpaqlar işğal altında idi. İşğal altındakı həmin torpaqlar otuz il sonra, çox şükür, yenidən sahiblərinə qovuşdu.

Qarabağda otuz ildir davam edən münaqişənin həll olunmamasına müşahidəçi qalanlar, daha doğrusu, münaqişənin davam etməsi üçün səy göstərənlər daim qazananın tərəfində olublar. Davamlı sülhə gedən yolun bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimada əsaslanaraq inkişaf etdirəcəkləri əməkdaşlıqdan keçdiyinə inanırıq.

Böyük bir liderlik göstərərək bu Zəfəri və sülhü Azərbaycana qazandıran Azərbaycan Ordusunun Ali Baş Komandanı və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm. Liderlərinin arxası ilə Qarabağda Zəfər qazanmaq üçün tək yumruq, tək ürək olan, milli birlik və bərabərlik hisslərini ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan xalqını təbrik edirəm. Gözlərini qırpmadan Vətən üçün, Qarabağ üçün, Qarabağın azadlığı üçün qəhrəmancasına mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm.

Bu müqəddəs Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanında yer almışdır. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları – Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir.

Hörmətli qardaşlarım, Nuru Paşanın Qafqaza gəldiyi dövrdə ermənilər 12 mindən çox türkü, müsəlmanı qətlə yetirmişdilər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq bir qətliam yaşanmışdır. Türk millətinə hər cür iftira atanlar, əvvəlcə, buralara, Qafqaza, Azərbaycana baxmalıdırlar. Həm də təkcə yüz il əvvələ deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Sonra vicdanları imkan verərsə, bizə yönəltdikləri ittihamları oturub onlarla ayrıca danışarıq. Amma onların gözləri var, görməz, qulaqları var, eşitməz. Ürəkləri onsuz da duyğularını itirib. Qarabağı, Azərbaycanın işğal altındakı torpaqlarını otuz il ərzində yaxıb-yıxanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər azadlıq mübarizəsinə mane olmaq üçün

səfərbər oldular. İndi gəlsinlər, Füzulini görsünlər. Bu yerlərin hər tərəfi dağıdılmış, yandırılmış, tar-mar edilmişdir. Gəlsinlər, Qarabağı görsünlər. Hər şey ortadadır. Dünən yol boyunca buraların halını gördük. Oraları nə hala salıblar. Buraları necə bombalayıb, yandırıb gediblər. Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər.

Təkcə bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların Vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik.

Qardaşlarım, mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, İnşallah, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almaqda davam edəcəyik.

Əziz qardaşlarım, dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri adətən təbii bir İncəsənət Akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olmuşdur. Pənahəli xanın, xüsusilə şeirləri bu gün də sevilərək oxunan vəziri Molla Pənah Vaqifdən başlayaraq, Şuşa ədəbiyyatın mərkəzi xarakterini qorumuşdur. Qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub. Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə, – heç narahat olmayın, – dirçəlir.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və geridə qoyduğumuz günlərdə Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bu baxımdan dünyaya verilən açıq bir mesajdır. Vaqif poeziya festivalının da hazırlıqlarının davam etdiyini eşitməkdən məmnunam. Bu il Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq. Türk dünyasının hər tərəfindən gələcək mədəniyyət və incəsənət əhlinin bu gözəl şəhərdə görüşməsi, Şuşanın qədim tarixinə verilən ən gözəl salam olacaqdır.

Əlbəttə, təkcə Şuşa və ya Qarabağ deyil, Azərbaycanın və türk dünyasının hər yeri böyük şairlər və incəsənət xadimləri yetişdirmişdir. Məsələn, bu il Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümüdür. Əsrlər boyu şairlər onunla yarışmağa və ona çatmağa çalışıblar. "Avni" təxəllüsü ilə şeirlər yazan Fateh Sultan Mehmet xanın bu əsərində də eyni hissiyyata rast gəlinir:

Bu kelam ile Nizami işidürse sözüni
İlteler sana hased Sa'di vü Selman bu gice.

Bu il ayrıca Ahi Evranın anadan olmasının 850-ci, Əlişir Nəvainin anadan olmasının 580-ci, Hacı Bektaşi Vəlinin vəfatının 750-ci, Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Keçən il Fərabinin anadan olmasının 1300-cü ili idi. Dünyada bu qədər zəngin və yüksək mədəni dəyərləri olan millətlərin sayı çox azdır. Biz bu dəyərlərimizi həm yeni nəsillərimizə, həm də bütün dünyaya izah etməliyik. Hamısını da rəhmətlə yad edərək burada saydığım və saya bilmədiyim bütün şəxslər mədəniyyətimizin sütunları olduğu kimi, dünya mədəniyyətinin də dəyərləridir.

İnsanlıq onların əsərlərindəki hikmətlərin sirrinə vaqif olduqca dünyamızdakı məsələləri həll etmək asanlaşacaqdır. Keçmişdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək, layiq olduğu yerə çatdırmaq bizim əlimizdədir. Birliyimizi, bərabərliyimizi, dostluğumuzu, qardaşlığımızı nə qədər gücləndirsək, birbirimizə nə qədər möhkəm sarılsaq, bu hədəfə o qədər tez nail olarıq.

Qardaşlarım, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydalarının dəyəri zaman keçdikcə daha yaxşı

dərk ediləcək. Bu Zəfərdən heç kim narahat olmasın. Çünki bu, fəlakətin deyil, inşanın, zülmün deyil, ədalətin, kobudluğun deyil, zərifliyin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəfəridir. Həqiqətən bu Qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaratdığımız mənzərənin necə canlanacağı görünəcək. Hər şeydən əvvəl Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub. Evlərindən, yurdlarından otuz ildir ayrı düşən azərbaycanlı qardaşlarımıza evlərinə qayıtmaq yolu açılmışdır. İnşallah, sonrakı gəlişimizdə bu torpaqların insanlarının evlərinə yerləşdiyini görməyin sevincini yaşayacağıq. Onlara indidən bu müraciəti Azərbaycan parlamentindən mən də edirəm. Bir an əvvəl, İnşallah, evləriniz inşa edilir, ediləcək və oralara yerləşməyinizi biz də həsrətlə gözləyirik.

İşğalın səbəb olduğu davamlı münaqişə vəziyyətindən qaynaqlanan yorucu gərginlik ortadan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları bir tərəfdən qurulur, bir tərəfdən açılır. Bunları gözlərimlə gördüm, ona görə söyləyirəm. Bir tərəfdən infrastruktur obyektləri tikilir. Biz də, inşallah, TOKİ-mizlə bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox əsərləri inşa etməyə çalışacağıq.

Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəmizə gətirəcəyi rahatlığın və zənginliyin tərifi mümkün deyil. Bölgəmizdə və bütün dünyada zalımın zülmünün əbədi olmadığı, bir gün mütləq haqqın, ədalətin bərqərar olacağı hər kəsə məlumdur. Qarabağ, eyni zamanda, dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik, bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə özləri də özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Qardaşımla birlikdə təklifimizi etdik. Nə idi təklifimiz? Gəlin, altı ölkə bir platforma formalaşdıraq: Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər ortadan qalxsın. Burada demək olar ki, təkcə Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində cənab Baş nazirlə də bu

məsələləri bir daha müzakirə etdim. Dedim, bu, Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax, biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın narahatlıqlarının da aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək. "Çalışaram" dedi. "Yaxşı olar" dedik.

Çünki bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə sərhədlərinin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək qlobal səviyyədə də aparırıq.

Mən buraya NATO-nun Zirvə toplantısından gəldim. NATO-nun Zirvə toplantısında da məhz bu məsələləri müzakirə etdik, bunları dəyərləndirdik. Çox şükür, səmərəli görüşlərlə buraya gəldik. Amma dünyanın problemləri bitmir, dünyada həll ediləcək hələ çox problemlər var. Amma dik dursaq, möhkəm dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksək zirvəyə qaldıraraq, sülhü və ədaləti bölgəmizdə və dünyada hakim edəcəyimiz günlər yaxındır. Çıxışımı böyük şair Bəxtiyar Vahabzadənin bu misraları ilə bitirmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Hamınızı sevgi ilə, məhəbbətlə salamlayıram. Salamat qalın.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ŞUŞADA HƏRBÇİLƏR QARŞISINDA ÇIXIŞI
8 noyabr 2021-ci il

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilər qarşısında çıxış edib:

"Əziz hərbçilər, sizi, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm. İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzindəki bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq.

İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqlar heç bir nəticə vermədi. Nəticə sıfıra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər 30 ilə yaxın bizim torpağımızı işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər.

Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır. Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artdı. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcə artdı.

Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə iqtisadi müstəqillik təmin edilməli idi. Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azər-

baycan birinci sıralardadır. İqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi. Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi.

Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik və bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik.

Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi. Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güclü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

Bir daha demək istəyirəm, açıq-aydın görünürdü ki, düşmən öz xoşu ilə torpağımızdan çıxmaq istəmir, daha da azğınlaşır və Azərbaycan xalqının heysiyyətinə toxunmaq üçün qəbuledilməz addımlar atır və bəyanatlar verir. "Qarabağ Ermənistandır" deməklə Ermənistan təkcə danışıqlar prosesinə son qoymadı, eyni zamanda, bu, bizim üçün təhqir idi. Bizim üçün müqəddəs olan, Qarabağın tacı olan Şuşada saxta andiçmə mərasimi keçirmək bizim üçün təhqir idi. O şeytan yuvası, – harada ki, o tədbir keçirilmişdi qəhrəman Azərbaycan Ordusu tərəfindən müharibə dövründə darmadağın edildi. Şuşaya qondarma qurumun qondarma "parlamentinin" köçürülməsi bizə növbəti dəfə sataşmaq idi. Ermənistan bizi təkəbbürlə, yekəxanalıq göstərərək yeni işğalla hədələyirdi. Biz nə qədər dözməli idik? Kimsə onların dərsini verməli idi, ya yox? Bax, sizin simanızda minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək düşmənə öz yerini göstərdi, düşməni elə vəziyyətə saldı ki, o vəziyyətdən o, əbədi çıxa bilməyəcək. Artıq o, məğlub edilmiş xalq və dövlət damğası ilə əbədi yaşayacaq.

Hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il bax burada, Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik. Bütün beynəlxalq təzyiqlərə rəğmən, bütün hədə-qorxulara rəğmən, xalqımız yumruq kimi birləşdi, Ordunun arxasında dayandı və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Ermənistan işğal dövründə öz ordusu haqqında, guya döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: "yenilməz Ermənistan ordusu". Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar.

Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

Əziz dostlar, əziz Azərbaycan xalqı. Mən sizi bu şanlı bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni qələbələr, Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

HƏQİQƏTİN TƏNTƏNƏSİ

Vəsait çapa hazırlanarkən Azərbaycan xalqının, eləcə də türk dünyasının tarixində misilsiz hərbi-siyasi bir hadisə baş verdi: 30 il işğal altında qalmış Qarabağ erməni qəsbkarlarından azad edildi. Bu kitabda öz əksini tapmış elmi-tarixi təhlil və mülahizələrimizi, minilliklərlə dövlətçilik tarixi olan Azərbaycan xalqının parlaq zəfər çalacağı barədə məntiqi sonluğunu özündə ehtiva edən proqnozlarımızı aşağıdakı nəticələr şəklində ifadə edirik.

Son 100 ildən artıq dövrdə Azərbaycan xalqı "böyük Ermənistan" yaratmaq xülyasına düşmüş erməni şovinist dairələrinin etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin fəlakətli nəticələrini mütəmadi yaşamalı olmuşdur. Ermənilər tərəfindən mərhələ-mərhələ həyata keçirilən bu siyasət ötən əsrin əvvəllərində Cənubi Qafqazda yüz minlərlə azərbaycanlının və digər xalqların nümayəndələrinin etnik və dini mənsubiyyətinə görə qətlə yetiriməsinə gətirib çıxarmışdır.

Çar Rusiyasının süqutunun ardınca keçmiş İrəvan xanlığının (sonrakı İrəvan quberniyasının) ərazisində erməni dövləti yaradılmışdır. Bununla da ermənilərin Azərbaycanın qədim mahallarında

törətdikləri qırğınların bugünədək analoqu tapılmayıb. 1905-ci il hadisələrində indiki Ermənistan ərazisində 350 min nəfərdən artıq azəri türkü didərgin düşməklə, 150 min nəfər qətlə yetirilmişdirsə, 1918-1920-ci illərdə həmin bölgədə azərbaycanlıların soyqırımı nəticəsində 500 min azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 959 Azərbaycan kəndi talan edilmişdir. Həmin kəndlərdə 352 min azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə Bakıda başlanan qırğınlar İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazax mahalında, Lənkəranda, Şamaxıda, Qubada, Şuşada, demək olar ki, Azərbaycanın bütün ərazilərində davam etmişdir. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur, Dərələyəz mahalı, Qazax qəzasının dağlıq hissəsi və digər yerlər heç bir tarixi və siyasi əsas olmadan Ermənistana verilmiş, nəticədə onun ərazisi 9,8 min kvadrat kilometrdən 29,8 min kvadrat kilometrə çatdırılmışdır.

Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə 70 ildən artıq hökm sürən Sovet rejiminin ədalətsiz qərarı ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdir. Beləliklə, erməni şovinistlərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış, Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulmuşdur. 1948–1953-cü illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın soydaşımız qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

Ermənilərin azərbaycanlılara qarşı əsrlərlə törətdikləri qanlı faciələrdən, soyqırımlarından cəzasız qalmaları səbəbindən 1988-ci ildən başlayaraq keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində növbəti terror dalğasını başlamağa köklənmiş erməni faşizmi yenidən xalqımıza qarşı soyqırımı hadisələrini davam etdirmişlər. Onlara himayədarlıq etmiş Sovet imperiyasının başında duran məsuliyyətsiz liderlərin dəstəyi ilə növbəti qanlı mərhələyə başlamışlar. 1991-ci ildə Sovetlər Birliyinin süqutundan sonra geniş miqyas almış işğalçılıq müharibəsinin gedişində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayon –

Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, on minlərlə soydaşımız yaralanmış və əlil olmuşdur. Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmışdır.

İşğalçı erməni şovinistləri və Sovet imperiyasından miras qalmış Xankəndindəki (Stepanakert) 366 motoatıcı alayın hərbi texnikası və şəxsi heyəti, onların ardınca isə Ermənistan Respublikası silahlı qüvvələrinin qoşunları, muzdlu əsgərlər, özünü "Artsax xalq ordusu" adlandıran silahlı quldurlar (əksəriyyəti saqqallı) azərbaycanlı əhaliyə qarşı bir sıra soyqırımı cinayətləri törətmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində əsrin ən dəhşətli faciələrini törətmişlər. Soyqırımı aktı nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Ermənistan Respublikasının etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinə qarşı müqavimət cəbhəsi 1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra təşkil edilmişdir. Belə ki, uzaqgörən Ulu Öndər H.Əliyevin 26 mart 1998-ci il tarixində imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda azərbaycanlılara qarşı müxtəlif illərdə mütəmadi olaraq törədilmiş soyqırımı cinayətlərinə, o cümlədən Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verildi. Ordu quruculuğu və silahlı qüvvələrin möhkəmləndirilməsi sahəsində görülən düşünülmüş tədbirlər Ermənistan hərbi birləşmələrinə ağır zərbələr endirməyə və işğal altında olan bəzi əraziləri, o cümlədən Füzuli rayonunun strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsini azad etməyə imkan vermişdir. Azərbaycanla silah dili ilə danışmağın daha mümkün olmadığını görən Ermənistan Respublikası 1994-cü ilin mayında atəşkəs imzalamağa məcbur olmuşdur.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün mötəbər beynəlxalq

təşkilatların köməyi ilə aparılan danışıqlara əlverişli şərait yaranmış, həmin təşkilatların qəbul etdikləri sənədlər münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər mötəbər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri sənədlərdə də Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılması tələb edilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ haqlı olaraq təsdiq edilmişdir.

Münaqişənin nizama salınması üçün vasitəçilik səyləri göstərən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, yəni Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Həmsədrlərin irəli sürdüyü və Azərbaycan tərəfindən qəbul edilmiş Madrid prinsipləri də münaqişənin nizama salınmasına yönəlmişdir. Ümumiyyətlə, uzun illər boyu aparılan danışıqlarda Azərbaycan tərəfi daim təmkinli davranaraq, sülh prosesinə sadiqlik nümayiş etdirmiş, işğalın aradan qaldırılmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına, didərgin düşmüş soydaşlarımızın doğma yurdlarına qayıtmasına hər hansı şəkildə kömək göstərə biləcək bütün təkliflərə anlayışla yanaşmışdır.

Təəssüf ki, münaqişənin həll edilməsi üçün göstərilən beynəlxalq səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməmişdir. Bu dövlətin rəhbərliyi cəzasız qalmasından, bölgədə sülh və sabitlik yaradılmasında marağı olmayan xarici qüvvələrin dəstəyindən istifadə edərək, aparılan danışıqlar prosesini pozmaq və Azərbaycan torpaqlarının işğalını əbədiləşdirmək üçün müntəzəm cəhdlər göstərmişdir.

2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat sülh prosesinə ciddi zərbə vurmuşdur. Azərbaycanın ön mövqelərinin və cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrinin güclü artilleriya atəşinə tutulması nəticəsində 2 nəfər dinc sakin həlak olmuş, 10 nəfər yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri əhalinin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur olmuşlar. Dörd gün davam edən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmışdır.

Təəssüf ki, 2016-cı ilin aprel döyüşlərindən dərs almayan Ermənistan rəhbərliyi pozuculuq hərəkətlərindən əl çəkməmişdir. 2018-ci ilin aprelində Ermənistanda baş verən "məxməri" inqilabdan və hakimiyyət dəyişikliyindən sonra Azərbaycana qarşı təxribatlar daha geniş vüsət almışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. Dağlıq Qarabağda yaradılmış qondarma rejimin başçısının Şuşada "andiçmə" mərasiminin keçirilməsi, oyuncaq qurumun "parlamentinin" Şuşaya köçürülməsi, işğal olunmuş ərazilərə Ermənistandan yeni yol çəkilməsi, qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, danışıqları davam etdirmək üçün Azərbaycan qarşısında üzdəniraq "7 şərt" qoyulması, Ermənistanın dövlət başçısının irəli sürdüyü" Qarabağ Ermənistandır və nöqtə", Ermənistan müdafiə nazirinin səsləndirdiyi "yeni ərazilər üçün yeni müharibə" iddiaları işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır.

Bu məsuliyyətsiz davranış və bəyanatlara beynəlxalq təşkilatlar, eləcə də işğalçını sülhə sövq etməli olan Minsk Qrupunun həmsədr ölkələri tərəfindən heç bir münasibət bildirilməməsi Ermənistan Respublikasının daha çox əl-qol açmasına gətirib çıxarmışdır. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəsi kobudcasına pozaraq, cəbhə xəttindən uzaqlarda, dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini artilleriya atəşinə tutmağa başlamışlar.

İriçaplı toplardan, raket qurğularından, müxtəlif növ atıcı silahlardan və zirehli texnikadan istifadə edən Ermənistan silahlı qüv-

vələrinin həmlələri iyulun 16-dək davam etmişdir. Düşmənin silahlı təcavüzünün qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi cəza tədbirləri nəticəsində işğalçıların müxtəlif təyinatlı hərbi texnikası, döyüş vasitələri, komanda məntəqəsi, müdafiənin dərinliyindəki ehtiyatları və yüzlərcə canlı qüvvəsi məhv edilmişdir. Azərbaycanın yeni ərazilərini işğal etmək üçün düşmənin göstərdiyi bütün cəhdlərin qarşısı qətiyyətlə alınmışdır.

2020-ci ilin avqustun 23-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd etmişdir. Azərbaycan silahlı qüvvələrinin bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində təxribatın qarşısı alınmış, təxribat qrupunun başçısı yaxalanmışdır.

Son illərdə Azərbaycan Ordusundan aldığı qüvvətli zərbələrdən lazımi nəticələr çıxarmayan Ermənistan rəhbərliyi 2020-ci il sentyabrın 27-də növbəti planlaşdırılmış təxribata əl atmışdır. İşğalçı ölkənin silahlı qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutmuşlar. Mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar olmuşdur. Qeyd edilməlidir ki, Ermənistanın bu xaincəsinə hücumu işğalçı ölkənin hərbi və siyasi rəhbərliyinin beynəlxalq hüquqa saymazyana münasibətinin növbəti təzahürü, Azərbaycanla aparılan sülh danışıqlarını pozaraq münaqişəni öz xeyrinə birdəfəlik həll etmək niyyətinin yeni ifadəsi olmuşdur.

Düşmənin hücumunun cavabında Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinə uyğun özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək məqsədi ilə "Dəmir yumruq" əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən əməliyyat gedişində möhtəşəm qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışdır. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapmışdır.

Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri yarılmış, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılmışdır. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, ümumən 300-ə yaxın yaşayış məntəqəsi düşmən tapdağından azad edilmişdir.

Ali Baş Komandan cənab İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə başa çatmışdır. Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk edən düşmən məğlubiyyətini etiraf edərək diz çökmüşdür.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edilmişdir. 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılmışdır.

Laçın dəhlizi boyu 5 il müddətinə Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilir. Atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır və bu mərkəzdə Rusiya və Türkiyə hərbi qulluqçularının birgə fəaliyyəti həyata keçirilir. Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcəkdir.

Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Ofisinin nəzarəti altında qayıdır. Hərbi əsirlərin, girovların və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

Bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar

Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin edilir.

Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini təcəssüm etdirir. Tarixi ədalət öz yerini tutur, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunur.

Bu möhtəşəm qələbə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən siyasəti və rəhbərliyi ilə, müasir hərb nəzəriyyəsinin və praktikasının tələblərinə cavab verən güclü, rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin qurulması, Xalq – Dövlət – Prezident birliyi, Prezidentimizin dəmir iradəsi, sarsılmaz əzmi və liderlik qətiyyəti sayəsində həm döyüş meydanında, həm də danışıqlar masasında aparılan gərgin fəaliyyəti nəticəsində qazanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları və prinsipləri əsasında başa çatdırmaqda, tarixi düşmənə qarşı çoxəsrlik mübarizədə məğlubiyyət sindromunu aradan qaldırmaqda öz inamı, hörməti, məhəbbəti və dəstəyi ilə kömək etmiş Azərbaycan xalqı parlaq Qələbə əldə etmişdir.

Şübhəsiz, uzun illər ərzində ölkəmizin müstəqilliyi və təhlükəsizliyi üçün böyük təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli ilə Azərbaycan Respublikası daha yüksək sürətlə inkişaf edərək, qüdrətli dünya dövlətlərindən birinə çevriləcəkdir. Biz bu yolda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq.

Cənab Prezident möhtərəm İlham Əliyev ADA Universitetində xarici və yerli jurnalistlərlə görüşü, Bakıda Hərbi Qənimətlər Parkının açılışı zamanı, Şuşada Xarıbülbül Musiqi Festivalında, eləcə də bütün bəyanatlarında və çıxışlarında əzəli və əbədi Azərbaycan torpaqları olan Qarabağın mənfur düşməndən azad olunmasının Xalq-Ordu-Dövlət birliyinin təntənəsi, Azərbaycan xalqının tarixi

zəfəri adlandırmaqla, Azərbaycanımızın bu cənnət diyarını tezliklə dünyanın ən gözəl guşəsinə, mədəniyyət, turizm, əmin-amanlıq, tolerantlıq məkanına çevriləcəyini bildirmişdir.

Ölkəmizdə, eləcə də Cənubi Qafqaz ölkəsində siyasi və iqtisadi sabitliyi təmin etmək məqsədilə Zəngəzur dəhlizinin açılmasının vacibliyini vurğulayan cənab Prezident iqtisadi idarəetmənin çevikliyinin təmin olunmasını nəzərə alaraq, ölkəmizdə yeni iqtisadi rayonların yaradılması haqqında 7 iyul 2021-ci il tarixli fərman imzalamışdır. Fərmana əsasən daha 2 yeni iqtisadi rayon yaradılır: Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu.

Ümumiyyətlə, cənab Prezident bütün çıxışlarında "Dağlıq Qarabağ" söz birləşməsinin tarixin arxivinə verildiyini söyləməklə, məkan adı kimi yalnız "Qarabağ" sözündən istifadə olunmasını bəyan etmişdir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı quruculuq abadlıq işləri aparılır, irimiqyaslı infrastruktur layihələr həyata keçirilir, "Ağıllı kənd" layihəsinə start verilib, yollar çəkilir, hava limanları, elektrik stansiyaları və digər zəruri sənaye obyektləri tikilir.

Sual və tapşırıqlar:

– Ermənilərin doğma Azərbaycan torpaqlarında dövlət yaratmaları və sonradan azərbaycanlılara qarşı terror və deportasiya siyasəti haqqında nə deyə bilərsiniz?

– Üzdəniraq "Dağlıq Qarabağ Muxtar Vilayətinin" yaranmasının əsassız olduğunu nə ilə izah edə bilərsiniz?

– Ermənilərin işğalçı siyasəti və Xocalı soyqırımı haqqında hansı tarixi faktları bilirsiniz?

– 2016-cı il aprel döyüşlərinin əhəmiyyətini və 20% torpaqların işğal olunmasını şərtləndirən amilləri öyrənin.

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ İŞĞAL OLUNMUŞ VƏ 44 GÜNLÜK MÜHARİBƏ NƏTİCƏSİNDƏ AZAD OLUNMUŞ ƏRAZİLƏRİ HAQQINDA MƏLUMAT

Rayon	İşğal tarixi	Azad olunma tarixi
1. Xocavənd	1992-ci il, 2 oktyabr	2020-ci il, 2 oktyabr
2. Hadrut	1992-ci il, 2 oktyabr	2020-ci il, 9 oktyabr
3. Xocalı	1992-ci il, 26 fevral	2020-ci il, 10 noyabr
4. Şuşa	1992-ci il, 8 may	2020-ci il, 8 noyabr
5. Laçın rayonu	1992-ci il, 18 may	2020-ci il, 1 dekabr
6. Kəlbəcər rayonu	1993-cü il, 2 aprel	2020-ci il, 25 noyabr
7. Ağdam rayonu	1993-cü il, 23 iyul	2020-ci il, 20 noyabr
8. Füzuli rayonu	1993-cü il, 23 avqust	2020-ci il, 17 oktyabr
9. Cəbrayıl rayonu	1993-cü il, 23 avqust	2020-ci il, 4 oktyabr
10. Qubadlı rayonu	1993-cü il, 31 avqust	2020-ci il, 25 oktyabr
11. Zəngilan rayonu	1993-cü il, 29 oktyabr	2020-ci il, 20 oktyabr

NƏTİCƏ

ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla tənzimlənməsi prosesi müasir beynəlxalq münasibətlər elminin aktual problemlərindən biridir. Müəlliflər dərs vəsaitində ATƏT-in MQ-nin təkliflərini, vasitəçilik missiyasını, Rusiya Federasiyasının sabiq prezidenti D.Medvedyevin vasitəçilik fəaliyyətini işıqlandırmağa cəhd etmiş, ATƏT-in yüksək zirvə toplantılarında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təklif və tövsiyələrini şərh və təhlil etməyə çalışmışdır.

O, Azərbaycan-ATƏT münasibətlərinin müasir mərhələdə inkişaf perspektivlərini, Rusiyanın ATƏT-də mövqeyini nəzərdən keçirərkən bu münasibətlərin özündə kifayət qədər qeyri-müəyyənlik elementlərini əks etdirdiyini də sübut etmişdir. Buna baxmayaraq, müəlliflər ATƏT-in bir çox məsələlərdə, o cümlədən Rusiya-Qərb və bütövlükdə Rusiya-ABŞ münasibətlərində, ümumavropa təhlükəsizlik məkanının qurulmasında ən vacib halqalardan biri olduğunu əsaslandırmışdır. Əsərdə deyilir: "Məsələ burasındadır ki, Avropada fəaliyyət göstərən bütün beynəlxalq institutlar arasında ATƏT üzvdövlətlərinin tərkibinə görə ən rəngarəng, funksional təminat nöqteyi-nəzərindən isə ən universal təşkilatdır. ATƏT-in universal ümumavropa xarakteri onu "Yeni Avropa"da formalaşan təhlükəsizlik sisteminin mərkəzində yerləşdirərək, Rusiya dövlətinin NATO sentrizmə qarşı ciddi sipərinə çevirir, əhəmiyyətli bir beynəlxalq – hüquqi təşkilat kimi rolunu artırır".

Azərbaycan-ATƏT münasibətlərində mümkün inkişaf perspektivlərindən bəhs edən müəlliflər hər iki tərəfin qarşısında qarışılıqlı etimadı dərinləşdirmək vəzifəsinin durduğunu bildirir. O, müasir dünyada ATƏT-in konkret roluna gəldikdə isə, bu təşkilatın yeni çağırışlara uyğunlaşdırılmasını, bu məqsədlə rəqəmsal və şəbəkə diplomatiyası dövrü olan XXI əsrdə ATƏT-in sərəncamında olan beynəlxalq hüquqi alətlərdən daha effektiv istifadənin vacibliyini, beynəlxalq hüquq norma və prinsiplərini əldə rəhbər tutaraq problemlərin həllində çeviklik nümayiş etdirilməsini önəmli sayır. Tədqiqatda deyilir: "Münaqişələrin həllində rəsmi Kremlin mövqeyi də nəzərə alınmalı, ATƏT-in çevikliyi ona yeni, üçüncü minillikdə zamanın və

yeni geosiyasi reallıqların tələblərinə adekvat reaksiya vermək bacarığı aşılamalı, üzv dövlətlərin, həmçinin qardaş Türkiyə və digər dövlətlərin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bir sıra konstruktiv təkliflərini daha ciddi şəkildə diqqət mərkəzinə gətirməli, təşkilatın gündəliyi ümumiyyətlə, genişləndirilməli, ABŞ, Fransa və digər ölkələrin birtərəfli təzyiq imkanları məhdudlaşdırılmalı və bu proses inkişaf etdirilməlidir".

Kitabda Azərbaycanın iqtisadi gücünün artmasının, beynəlxalq nüfuzunun gündən-günə yüksəlməsinin ədalətin bərpasına yol açdığını inamla vurğulanır: "22 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Davos İqtisadi Forumunda nitqi bir daha bizləri bu beynəlxalq hüquqi və geosiyasi həqiqətlərin son məqamda gerçəkliyə çevriləcəyinə inanmağa səsləyir.

12 fevral 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Almaniyanın Münhen şəhərində keçirilən Beynəlxalq Təhlükəsizlik Sammitində çıxışında dünya birliyini bir daha Dağlıq Qarabağ münaqişəsinə obyektiv, tərəfsiz, istisnasız olaraq beynəlxalq hüquq norma və prinsiplərinin tələbləri rakursundan yanaşmağa çağırmışdır. İnanırıq ki, bu çağırışlar öz bəhrəsini verəcək".

Ümumiyyətlə, elmi-tədqiqat işinin sonunda yekun olaraq bir daha qeyd edilir ki, ATƏT-in Minsk Qrupu siyasi çəki və nüfuzundan asılı olmayaraq, bütün üzv dövlətlərin siyasi təklif və ideyalarını, postsovet ölkələrinin maraqlarını nəzərə almağı bacaran bir təşkilata çevrilməli, ATƏT – Azərbaycan dialoqu isə daha konkret, daha genişspektrli beynəlxalq-təhlükəsizlik və beynəlxalq hüquq elementlərini özündə birləşdirməyi bacarmalıdır.

Azərbaycan və Ermənistan prezidentlərinin 16 may 2016-cı il tarixli Vyana görüşü də ATƏT-in Minsk Qrupunun optimist bəyanatlarına baxmayaraq, nəticəsiz başa çatmışdır. Bu fakt bir daha münaqişənin Azərbaycanın milli maraqlarına uyğun həllinin Azərbaycanımızın şanlı ordusunun gələcək addımlarından asılı olduğunu sübuta yetirən amil kimi qəbul edilə bilər.

ƏLAVƏLƏR

Əlavə 1

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VƏ RUSİYA FEDERASİYASI PREZİDENTİNİN BƏYANATI
10 noyabr 2020-ci il

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxun-

mayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

10 noyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev
Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan
Rusiya Federasiyasının Prezidenti V.V.Putin

Sual və tapşırıqlar:

– 10 noyabr 2020-ci il bəyanatı neçə bənddən ibarətdir?

– 10 noyabr 2020-ci il tarixli bəyanatın əhəmiyyəti nə ilə səciyyələnir?

– 10 noyabr 2020-ci il tarixli bəyanatdakı təsbit olunmuş müddəaları diqqətlə öyrənin.

Əlavə 2

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN, ERMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN VƏ RUSİYA FEDERASİYASI PREZİDENTİNİN BƏYANATI
11 yanvar 2021-ci il

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H. Əliyev, Ermənistan Respublikasının Baş naziri N.V. Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V. Putin aşağıdakıları bəyan edirik:

1. 2020-ci il 9 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.

2. İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə Bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.

3. Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları işçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.

4. İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan

Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək.

Azərbaycan Respublikasının Prezidenti
İ.H.Əliyev

Ermənistan Respublikasının baş naziri
N.V.Paşinyan

Rusiya Federasiyasının Prezidenti
V.V.Putin

Sual və tapşırıqlar:

– 11 yanvar 2021-ci il tarixində imzalanmış bəyanatın əhəmiyyətini izah edə bilərsinizmi?

– 11 yanvar 2021-ci il bəyanatını hansı ölkə başçıları təsdiqləmişlər?

– 11 yanvar 2021-ci il bəyanatının bəndlərini diqqətlə nəzərdən keçirin və öyrənin.

Əlavə 3

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ HAQQINDA ŞUŞA BƏYANNAMƏSİ
15 iyun 2021-ci il

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq.

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal

və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək, siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-

siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin regional və qlobal təhlükəsizlik, sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə, Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə

layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kibertəhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər. Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar.

Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərini artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb-Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə

qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin, sadəcə, iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə, təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq, bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyatı qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna

əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyatı qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,
Türkiyə Respublikasının Prezidenti RəcəbTayyib Ərdoğan

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri hansı bəyannamədə öz əksini tapmışdır?

– Şuşa bəyannaməsi hansı tarixdə imzalanmış və neçə nüsxədən ibarətdir?

– Şuşa bəyannaməsində tərəflərin götürdükləri öhdəlikləri ətraflı öyrənin.

Əlavə 4

AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ RAYONLARIN YENİ BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
7 iyul 2021-ci il

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə–Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1.Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3.Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5.Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7.Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8.Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9.Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10.Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11.Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12.Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14.Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları);

2.Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 iyul 2021-ci il

Sual və tapşırıqlar:

– Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə iqtisadi rayonların yeni bölgüsünün əhəmiyyəti nə ilə səciyyələnir?

– Azərbaycan Respublikasının iqtisadi rayonları haqqında yeni bölgü hansı tarixdə qərara alınmışdır?

– Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünü nəzərdən keçirin.

Əlavə 5

AZƏRBAYCAN PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN ANIM GÜNÜ İLƏ ƏLAQƏDAR XALQA MÜRACİƏTİ
27 sentyabr 2021-ci il

– Əziz həmvətənlər.

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim Sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq. Eyni zamanda, bu gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulacaq. Bu da keçən ilin dekabrında mənim Sərəncamımla həll olunan məsələdir. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır. Onu da bildirməliyəm ki, bu gün saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükut elan ediləcəkdir.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik,

ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.

Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq.

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq – öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, – baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, – geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı

heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm – Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır!

44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün – Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi.

Bütün digər ölkələr ki, bizə siyasi dəstək göstərdilər, biz onlara da minnətdarıq. Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır.

44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir.

Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən

hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir. Buna başqa ad vermək olmaz və bütün dünya bunu görməlidir. Ermənistanın havadarları bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, biz hansı bəlanın dərsini verdik, biz bölgəmizi hansı bəladan xilas etdik. 30 il ərzində bizim bütün tarixi abidələrimizi, milli sərvətlərimizi, təbii resurslarımızı talayan, dağıdan düşmənə dərs verilməli idi, yoxsa yox?! Buna baxmayaraq, müharibədən əvvəl mən dəfələrlə demişdim ki, əgər Ermənistan rəhbərliyi öz xoşu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızdan çıxarsa, müharibə təbii ki, istisna ediləcəkdir. Müharibə dövründə də mən bunu dəfələrlə demişəm. Demişəm ki, Ermənistan rəhbərliyi bizə tarix versin, hansı gündə hansı torpağımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Ancaq bunu etmədilər. 44 gündən sonra – artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən

demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

27 SENTYABR 2020-Cİ İLİN BU GÜNÜ ƏSRƏ BƏRABƏR BİR GÜN OLDU

Sual və tapşırıqlar:

– Azərbaycanda 27 sentyabr tarixinin Anım Günü kimi təsis olunması nə vaxt və kim tərəfindən qərara alınmışdır?

– Ali Baş Komandan İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciətində hansı məsələlər öz əksini tapmışdır?

– 44 günlük müharibənin əhəmiyyətini ətraflı öyrənin.

Əlavə 6

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUATA BİRGƏ BƏYANATLARI
26 oktyabr 2021-ci il
Qarabağ, Zəngilan rayonu, Ağalı kəndi

Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident, Əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, Əziz qardaşım, Sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizin çox böyük önəmi var. Siz işğaldan azad edilmiş torpaqlara ikinci dəfədir ki, səfər edirsiniz. Dörd ay bundan əvvəl Sizinlə bərabər Şuşa şəhərində olmuşuq, bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur.

Eyni zamanda, bu gün Zəngilan rayonunda birinci özəl sərmayə layihəsinin də təməlini qoyduq. Bu sərmayə layihəsi də Türkiyə və Azərbaycanın birgə layihəsidir. Yəni, bu, bir daha onu göstərir ki, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik.

Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Adətən rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq biz rəsmi mərasimləri bütün görüşlər zamanı keçiririk. Həm Şuşada, həm

də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik.

Biz İkinci Qarabağ savaşının birinci ildönümünü yaşayırıq. Dünən Qubadlı şəhərinin azad olunmasının birinci ildönümünü qeyd edirdik. İki həftə bundan sonra Şuşanın azad olunmasını qeyd edəcəyik, böyük Zəfər bayramı kimi qeyd edəcəyik.

İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz.

Mən bilirəm ki, Sizin çox gərgin iş qrafikiniz var. Siz bu yaxınlarda Afrikanın dörd ölkəsində rəsmi ziyarətdə olmusunuz. Ondan sonra Türkiyədə bir önəmli tədbirdə olmusunuz. Ondan sonra vaxt tapıb buraya gəlmisiniz ki, bizimlə bərabər, Azərbaycan xalqı ilə bərabər bu gözəl gündə bir yerdə olasınız. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Bu, həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik, bizim birliyimiz sarsılmazdır və əbədidir.

Bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Əziz qardaşımın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Bu yaxınlarda Əziz qardaşım Türkiyənin daxili məsələlərinə müdaxilə etmək istəyənlərə elə cavab vermişdi ki, hesab edirəm bu, bütün siyasətçilər üçün örnəkdir. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün

buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir.

Onu da bildirməliyəm ki, gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək. Əminəm ki, Türkiyə Əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da güclənəcək, beləliklə, bütün Türk dünyası üçün yeni imkanlar açılacaq.

Bu gün burada, Zəngilanda olarkən təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

Bu gün Əziz qardaşımla və qonaqlarla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq.

Mən bu gün fürsətdən istifadə edərək Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onların yorulmaz səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür. Tam əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək. Beləliklə, Türkiyə ilə Azərbaycanın birgə gücü daha da təsirli olacaq.

Əziz qardaşım, Sizə bir daha "Azərbaycana xoş gəlmisiniz!" deyirəm, bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm. Sizə və qardaş Türkiyə xalqına daim tərəqqi, firavanlıq, xoşbəxtlik diləyirəm. Sağ olun.

Sonra Türkiyə dövlətinin başçısı bəyanatla çıxış etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

– Hörmətli Prezident, Əziz qardaşım!

Hörmətli nazirlər!

Hörmətli mətbuat nümayəndələri!

Əvvəlcə sizləri ən səmimi hisslərimlə salamlayıram.

İşğaldan azad edilən bu gözəl bölgəyə – Füzuliyə səfərimdən dörd ay yarımdan sonra bu dəfə Zəngilanda olmaqdan böyük məmnunluq duyuram.

Əziz qardaşım Prezident Əliyevə lütfkar dəvətə görə öz adımdan, heyətim və millətim adından bir daha təşəkkür edirəm.

Bugünkü səfərimiz zamanı Azərbaycanın işğaldan azad edilən bu bölgələrinin qısa müddət ərzində həqiqətən necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini gördük. Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır. Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir.

Buraya gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə, İnşallah, Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördük, işçi qardaşlarımızla görüşdük. Bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Füzulidə də bildirdiyim kimi, bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.

Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz, – bir az əvvəl cənab Prezidentin də dediyi kimi, – istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin sürətlə həyata keçirilməsi baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik

edirəm. Podratçı firmaları təbrik edirəm. Bütün texnika parkları ilə podratçı firmaların ürəkdən çalışması ən yüksək təqdirə layiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik.

Hörmətli mətbuat nümayəndələri, bu gün İlham qardaşımla keçirdiyimiz görüşlərdə ikitərəfli əlaqələrimizi və regional prosesləri ətraflı müzakirə etdik. İqtisadi və ticari sahələrdəki əməkdaşlığımızın genişləndirilməsi ilə enerji, nəqliyyat və Qarabağın inkişafı ilə bağlı layihələrdə mövcud durumu və gələcəklə bağlı planları da dəyərləndirmək imkanı əldə etdik. Ən önəmlisi, Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdığımız əlaqələrimizi daha necə inkişaf etdirə biləcəyimizi müzakirə etdik. Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik.

Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin olması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir. Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir.

Bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir manea qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək. Dünyanın

bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür. Türkiyənin də davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram.

Səfərim çərçivəsində mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə Prezident, qardaşım Əliyevə və qardaş Azərbaycan xalqına bir daha təşəkkürlərimi bildirirəm. Fürsətdən istifadə edərək öz adımdan və heyətim adından xüsusilə Qardaşım Əliyev və bütün nazirlərə də təşəkkürlərimizi bildiririk. Təşəkkür edirəm. Sağ olun, var olun.

Əlavə 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV, ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI

Soçi, 26 noyabr 2021-ci il

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2021-ci il noyabrın 26-da Soçi şəhərində görüşdük və Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tamamilə dayandırılması haqqında 2020-ci il 9 noyabr tarixli Bəyanatın, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişini müzakirə etdik.

Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduğumuzu təsdiq etdik. 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlardan irəli gələn, həllini gözləyən məsələlərin tezliklə həllinə yönəlmiş birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik.

Regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsinə Rusiya sülhməramlı kontingentinin mühüm töhfəsini qeyd etdik.

Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında

Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşdik.

2021-ci il 11 yanvar tarixli Bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdik. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladıq.

Rusiya Federasiyası Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması, Azərbaycan və erməni xalqları arasında etimad mühitinin formalaşması, habelə regionda mehriban qonşuluq münasibətlərinin bərqərar olması məqsədilə bundan sonra da zəruri olan hər cür köməyi göstərəcək.

Azərbaycan Respublikasının Prezidenti
İ.H.Əliyev

Ermənistan Respublikasının baş naziri
N.V.Paşinyan

Rusiya Federasiyasının Prezidenti
V.V.Putin

Əlavə 8

2021-ci il dekabrın 14-də Brüsseldə Avropa İttifaqı Şurası Prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli formatda görüş keçirilib.

"Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev və Ermənistanın baş naziri N.Paşinyan razılaşıblar ki, Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə planlaşdırılan danışıqların başlanması kontekstində yerlərdə gərginliyin azaldılması və əlverişli atmosferin yaradılması üçün əlavə ciddi addımlar atılmalıdır", – görüşdən sonra Avropa İttifaqı Şurası Prezidentinin yaydığı açıqlamada deyilir.

Sənədə əsasən, tərəflər arasında qarşılıqlılıq prinsipi əsasında dəmir yolu xətlərinin bərpasına dair işlərin davam etdirilməsi ilə bağlı razılıq əldə olunub.

Baş nazir Paşinyan və Prezident Əliyev 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanat çərçivəsində götürülmüş əsas öhdəliklərin yerinə yetiriləcəyini və noyabrın 26-da Soçidə əldə olunmuş razılaşmaların yerinə yetirilməli olduğunu təsdiqləyiblər.

Əlavə 9

AZƏRBAYCANIN TARİXİ XƏRİTƏLƏRİ

"Azərbaycanın tarixi xəritələri"nin hazırkı atlası e.ə. 3-2-ci minillikdən 1920-ci ilə qədərki dövrü əhatə edir və iyirmi bir tarixi, bir etnoqrafik və bir arxeoloji xəritədən ibarətdir. 1987-ci ildə nəşr olunmuş və ilk dəfə olaraq e.ə. III əsrdən XVIII əsrin yarısına qədərki dövrü əhatə etmiş "Azərbaycanın tarixi coğrafiyası" toplusundan sonra, indiki xəritələr atlası orta və ali məktəblər üçün ölkənin tarix xəritələrinin elmi nəşri yolunda əslində ilk cəhddir. Çünki bugünədək Moskvada yuva salmış şovinist baxışlı Rusiya, sonra isə sovet xəritəşünaslığı nümayəndələrinin tövsiyə etdikləri xəritələrdən istifadə etmişik. Sovet dövründə tarix xəritələrinin nəşri yuxarı partiya orqanlarının, Baş Xəritəşünaslıq İdarəsinin, xüsusilə də senzuranın ciddi nəzarəti altında olmasını nəzərə alsaq deyə bilərik ki, azərbaycanlı, həmçinin digər türkdilli məktəbli və tələbələr bilərəkdən təhrif olunmuş xəritələrdən istifadə etmişlər.

Azərbaycanın tarixi coğrafiyasına münasibət xüsusilə qərəzli idi. Alimlərimizin nəşrə hazırladığı hər hansı xəritə, hətta sxematik olsa belə, Moskva idarələrində yuva salmış ermənilər tərəfindən qısqanclıqla izlənilir, tarix xəritəsindəki hətta ən adi şərti işarə də "erməni ictimaiyyətinin" və onların Moskvadakı havadarlarının, kəskin etirazına səbəb olurdu. Nəticədə həmin xəritələrin nəşrinə əngəl törədilir, yaxud heç bir əsas olmadan çapı dayandırılırdı, çünki xəritə fabriklərinin demək olar hamısı ermənilərin əlində idi.

Xəritəşünaslıq sahəsində tarixi və coğrafi ənənələrin və elmi təsəvvürlərin yoxluğu həm öz xəritələrimizin yaradılmasında, həm də Qafqazda formalaşmış və sovet dövründə kanonizə edilmiş ənənələrin nümayəndələrinin mövqeyinin dəf edilməsində böyük çətinliklər törədirdi. Tarix xəritələrinin yaradılmasındakı çətinliklər həm də ondan irəli gəlir ki, hələlik bir dənə də olsun yerli coğrafi mənbəmiz yoxdur və bazamız olduqca zəifdir. Qədim və orta çağ Azərbaycanın tarixi coğrafiyasına dair yeganə müfəssəl mənbələr Movses Kalankatlının (VII-VIII əsrlər) "Alban tarixi" və VIII əsrə aid olan "Eranşəhr"dir. Bununla əlaqədar Azərbaycan tarixi xəritələrinin yaradılmasında orta çağ ərəb-fars coğrafiyaçı və tarixçilərinin əsərləri əhəmiyyət kəsb edir.

Atlasdakı xəritələrdə Azərbaycanın tarixi coğrafiyası və e.ə.VIII əsrdən başlayaraq onun ərazisində mövcud olmuş dövlətlər haqqında geniş məlumatlar verilir.

Atlasdakı üç xəritənin müəllifi Azərbaycan EA-nın müxbir üzvü İ.Əliyevdir: "Ön Asiya e.ə. I minilliyin birinci yarısında", "Ön Asiya

ərazisində (e.ə.III-II minilliklər) tayfa, tayfa ittifaqları və dövlətlər", "E.ə. VII əsrin son rübündə – e.ə.VII əsrin ortalarında Mada (Midiya) dövləti". Bu xəritələr müəllifin çoxsaylı yazılı antik mənbələrdəki materialların uzun illər və son dərəcə dəqiqliklə öyrənilməsinin məhsuludur.

Tarix elmləri namizədi S.Qaşqay Manna dövlətinin (e.ə.VIII-VII əsrlər) ilk xəritəsini təqdim etmişdir.

"Antik Qafqaz Albaniyası" xəritəsinin müəllifi tarix elmləri doktoru K.Əliyevdir. Onun xəritəsi çoxsaylı elmi əsərlərin materiallarına əsaslanaraq tərtib edilmişdir.

Tarix elmləri doktoru F.Məmmədova ermənilərlə kəskin polemika nəticəsində ilk dəfə olaraq min illik tarixi reallıqları əks etdirmişdir: "Albaniya e.ə.III əsrdə" və "Albaniya V-VII əsrin əvvəllərində" xəritələri.

Tarix elmləri doktoru S.Qasımova ilk dəfə olaraq Atropatenanın III-VII əsrlərə aid xəritəsini yaratmışdır.

"Arran və Azərbaycan Ərəb xilafəti (VIII-IX əsrlər) tərkibində" xəritəsinin müəllifi tarix elmləri doktoru N.Vəlixanova da qonşu respublikaların əldəqayırma xəritəşünaslarının iddialı iradlarını dəf etməli olmuşdur.

"Xürrəmilər hərəkatı (VIII əsrin sonu – IX əsrin birinci yarısı)" və "Eldənizlər dövləti (1136-1225-ci illər)" xəritələrinin müəllifi akademik Z.Bünyadovdur.

Mərhum tarix elmləri doktoru M.Şərifli iki xəritəsində IX əsrin ikinci yarısı – XII əsrin ortalarında Azərbaycanın feodal dövlətlərinin (Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər dövlətləri) siyasi sərhədlərini müəyyənləşdirmişdir.

Tarix elmləri doktoru V.Piriyev Azərbaycanın XIII-XIV əsrlərdəki xəritəsini yaratmaqla o dövrün qaranlıq siyasi durumunu aydınlaşdırmışdır.

Tarix elmləri doktoru O.Əfəndiyev "Azərbaycan XV əsrdə", "Azərbaycan XVI əsrdə", "Səfəvilər dövlətinin tərkibində" və "Azərbaycan XVII əsrdə" xəritələrində Azərbaycanın tarixi-coğrafi hüdudlarını olduqca aydın müəyyənləşdirmişdir.

XVIII əsrin ikinci yarısında xanlıqlar dövründə Azərbaycanın sərhədlərinin və inzibati bölgüsünün müəyyənləşdirilməsinə tarix elmləri doktoru F.Əliyev aydınlıq gətirmişdir. Azərbaycan EA-nın müxbir üzvü M.İsmayılov Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı prosesini əks etdirən ilk xəritəni yaratmışdır.

Cəmi 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikası (1918-1920) haqqında xəritənin müəllifləri tarix elmləri doktoru Y.Tokarjevski və tarix elmləri namizədi Ə.Rəhimovdur.

Tarix elmləri doktoru H.Quliyev respublika hüdudlarından kənarda azərbaycanlıların məskunlaşmasını əks etdirən ilk xəritənin müəllifidir.

Orta və ali məktəb tələbələri üçün gərəkli olan Azərbaycanın arxeoloji xəritəsinin müəllifi tarix elmləri namizədi F.Mahmudovdur. Nəzərə almaq

lazımdır ki, xəritələrdə istifadə edilən Azərbaycan anlayışını Şimali və Cənubi Azərbaycanın ərazisinə yalnız VI əsrdən başlayaraq şamil etmək olar. Məlum olduğu kimi, bu anlayış pəhləvi dilindəki Aturpatakanla bağlıdır. Bu isə öz növbəsində e.ə. IV-III əsrlərdə Atropatena ilə bağlı olmuşdur.

Eramızın VI əsrində Sasani hökmdarı Xosrov Ənuşirəvan Adurbadaqan, ərəb-fars ənənələrinə görə isə Azərbaycan adlanan Qafqaz kustunu ("kust" hərfi mənada "tərəf" deməkdir, inzibati bölgü vahidi kimi "canişinlik" anlamındadır) yaratdı, buraya başqa ölkələrlə yanaşı Şimali Azərbaycan – Albaniya, Arran, Şirvan və Cənubi Azərbaycan – bilavasitə Atrupatakan özü daxil idi. Ərəb və fars mənbələrinə görə Xilafət dövründə və sonra, yəni VIII əsrdən başlayaraq Azərbaycan anlayışı həm Şimali, həm də Cənubi Azərbaycanı ehtiva edirdi. Azərbaycan ya siyasi-inzibati, ya coğrafi, ya da siyasi anlayış kimi işlədilirdi. Məsələn, XII-XIII əsrlərdə Azərbaycan coğrafi anlayışdan əlavə, siyasi məfhum kimi də başa düşülürdü: Azərbaycan Atabəylər dövləti. XIV-XVI əsrlərdə Azərbaycan coğrafi anlayış idi və i.a [2].

21 oktyabr 2021-ci il tarixində Rusiya prezidenti Vladimir Putin "Valday Beynəlxalq Diskussiya" klubunda Ermənistan-Azərbaycan sərhədlərinin dəqiqləşdirilməsinin Rusiya silahlı qüvvələrinin Baş Qərargahındakı xəritələr əsasında aparılmalı olduğunu bildirmişdir. Bəs əslində söhbət hansı xəritələrdən gedir? 1923-cü ildən başlayaraq 1985-ci ilə qədər müxtəlif dövrlərə aid xəritələr və arxiv sənədləri hazırda Rusiya Elmi kitabxanalarının arxivlərində saxlanılır.

Həmin xəritələr və çoxsaylı arxiv sənədləri Ermənistan-Azərbaycan sərhədinin haradan keçməsini sübut edən dəyərli faktlardır. Təxminən 70 illik dövrü əhatə edən bu xəritələrdə Cənubi Qafqaz respublikalarının sərhəd və inzibati ərazi bölgüsü dəqiqliklə qeyd olunub. Azərbaycana aid olan xəritələrin yerləşdiyi əsas arxiv Rusiya Dövlət Kitabxanasının Paşkov evində yerləşən Kartoqrafiya bölməsidir. Burada Azərbaycana aid 9 xəritə mövcuddur, həmin xəritələrdən ən qədimi 1925-ci ildə çap olunan Zaqafqaziya Sosialist Sovet Federativ Respublikasının siyasi xəritəsidir. Bu xəritədə Azərbaycanın qonşu Ermənistan və Gürcüstanla sərhədləri, o cümlədən 15 mahalı, bir muxtar vilayəti və muxtar respublikası qeyd olunub. 1925-ci ildə çap olunmasına baxmayaraq, həmin xəritədə Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati mərkəzi, ermənilərin sonradan adlandırdığı Stepanakert kimi deyil, qədim adı olan Xankəndi şəhəri kimi göstərilib.

Bu arxivdə olan digər xəritələr isə, Yermakovun 1928-1931-ci illərdə tərtib etdiyi "Qafqaz" adlı xəritələri 1936-cı ildə çap olunmuş ağ kağız üzərində qara rəngli ştrixlərlə cızılan və sərhədlərin qeyd olunduğu Zaqafqaziya Sosialist Sovet Federativ Respublikası xəritəsi, 1938-ci ildə Ümumrusiya Geologiya Fondu tərəfindən nəşr olunan xəritə, 1975, 1984 və 1985-ci illərdə nəşr olunan SSR Nazirlər Sovetinin Geodeziya və Kartoqrafiya Baş İdarəsinin xəritələridir.

Rusiyalı tarixçi, siyasi ekspert Oleq Kuznetsov qeyd edir: "1924-cü ildə müxtəlif yaşayış məntəqələrinin Zaqafqaziya Federasiyasının inzibati ərazi vahidlərinə aid edilməsi baş verdi. Daha sonra yaşayış məntəqələri mahallar arasında bölündü, inzibati sərhədləri müəyyənləşdirən topoqrafik komissiyalar yaradıldı. Arxivdə olan 1925-ci ilin xəritəsi, eyni zamanda həmin dövrə aid kartoqrafik arxiv sənədlər toplusu və onların yazılı izahları Zaqafqaziya Sosialist Sovet Federativ Respublikasının dövlət suverenliyinin formalaşmasının həmin dövrdə təsdiqidir. Ona görə də hesab edirəm ki, 1925-ci ilin xəritəsi və Cənubi Qafqazda sərhədləri müəyyən edən yeganə sənəd olan və beynəlxalq hüquq tərəfindən tanınan 1921-ci ildə imzalanan "Qars" müqaviləsi Azərbaycanla Ermənistan arasında hazırda dövlət sərhədlərinin delimitasiyası üçün başlanğıc nöqtə ola bilər".

Rusiya arxivlərindəki sənədlərdə Ermənistan ərazisindəki Azərbaycan əsilli yer adlarının, toponimlərin sonradan necə ermənileşdirildiyini, Ermənistanın özünkü hesab etdiyi dini abidələrin əslində Qafqaz Albaniyasına məxsus dini abidələr olmasına dair çoxsaylı faktlara rast gəlinir.

Azərbaycana aid xəritə, sərhəd və inzibati ərazi bölgüsünə dair sənədlər toplusunun olduğu ikinci əsa elmi-tarixi mənbə - Rusiya İctimai Tarix Kitabxanasının arxividir. Burada Azərbaycanın qədim və orta əsrlər memarlıq abidələrinin xəritəsi, 1953-cü ildə SSR Daxili İşlər Nazirliyinin Geodeziya və Kartoqrafiya Baş İdarəsinin nəşri olan Azərbaycan SSR xəritəsi, eyni zamanda Ermənistan SSR coğrafi adlarının rus dilinə köçürülməsi haqqında təlimat, 1924, 1949 və 1980-cı illərə aid Sovet İttifaqının inzibati ərazi bölgüsünə dair arxiv saxlanılır.

Azərbaycanın qədim və orta əsrlər memarlıq abidələrinin xəritəsində ölkəmizin ərazisində olan xristian məbədləri qədim Qafqaz Albaniyası abidələri kimi qeyd olunub. 1924-cü ildə nəşr olunan Sovet İttifaqının inzibati ərazi bölgüsünə dair arxiv sənədlər toplusunda Azərbaycanın qədim şəhəri olan Xankəndinin 1923-cü ildə adının dəyişdirilərək, Stepanakert adlandırıldığı qeyd olunub. Həmin bu sənədlər toplusunda Xankəndinin əsasının 1752-ci ildə qoyulduğu, 1840-cı ildə rəsmi şəhər statusu aldığı qeyd olunub.

Cənubi Qafqaz Dövlətlərinin sərhəd məsələsinin beynəlxalq hüquq səviyyəsində yeganə həlli "Qars" müqaviləsinin əlavələrinə müvafiq olaraq müəyyən edilib.

Rusiyalı tarixçi, siyasi ekspert Oleq Kuznetsovun fikrincə, "İnzibati ərazi bölgüsünə dair sənədlərin isə beynəlxalq hüquqi əhəmiyyəti yoxdur, çünki o zaman Sovet İttifaqının istisnasız olaraq daxili məsələsi olub, hətta dövlətlərarası deyil, bəzən rayonlararası qərarlara aid olub. Rayon icraiyyə komitəsinin qərarı ilə bir kənd sovetinə aid ərazi qonşu respublikanın kənd sovetinin tərkibinə verilib. SSRİ tarixində belə məqamlar çox olub. Nəticədə Ermənistan Azərbaycan torpaqları hesabına öz ərazilərini geniş-

ləndirib. Azərbaycanın ərazisi isə azalıb. "Qars" müqaviləsinə daha yaxın xəritə məhz 1925-ci ilin xəritəsidir. Məhz bu xəritənin əsasında Cənubi Qafqaz Respublikasının inzibati ərazi bölgüsü aparılıb. Ona görə də hesab edirəm ki, Sovetlər İttifaqının ən gənc dövrünə aid olan 1925-ci ilin Zaqafqaziyanın siyasi xəritəsi əsasında hazırda Ermənistan Azərbaycan sərhədinin delimitasiyası aparılmalıdır. Bu ən münasib xəritədir" .

İndi aydın oldu ki, Ermənistan nə üçün sərhədlərin delimitasiyasını sovet dövründəki xəritələr, xüsusən 1920-ci illərin xəritələri əsasında aparılmasına qarşı çıxır.

Rusiyalı tarixçi, siyasi ekspert Oleq Kuznetsov: "Ona görə ki, 1936-cı ildə Zaqafqaziya SSFR ləğv olunandan sonra, Azərbaycanın ərazilərinin bir hissəsi Ermənistana verildi. Böyük Vətən Müharibəsindən sonra, eləcədə ötən əsrin ortalarında Ermənistan Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməyə nail olmuşdur. Ona görə də indi Zaqafqaziya SSFR xəritəsinə qayıtsaq, "Qars" müqaviləsinə müvafiq olaraq Ermənistan həmin əraziləri Azərbaycana qaytarmağa məcburdur. Zaqafqaziya Respublikasının xəritələrinə əsasən nə Azərbaycanın Ermənistanda eksplavı, nə də Ermənistanın Azərbaycanda eksplavı mövcud olur. Naxçıvanın Kərki, eləcədə Ermənistanla Azərbaycan sərhədində bir neçə yaşayış məntəqələri Azərbaycana məxsus olub. Ona görə də delimitasiya prosesində 1925-ci ilin Zaqafqaziya Respublikasının xəritəsi əsas götürülsə, Ermənistan həmin əraziləri Azərbaycana qaytarmağa məcbur olacaq".

Bu o deməkdir ki, Azərbaycanın əraziləri Ermənistanla sərhədlərin delimitasiyasından sonra az da olsa mütləq genişlənəcək. Çünki Azərbaycanın əlində həmin əraziləri geri qaytarmaq üçün kifayət qədər hüquqi əsası mövcuddur. Erməni tərəfi isə bununla mübahisə edəcək gücdə deyil.

Sual və tapşırıqlar:

– "Azərbaycanın tarixi xəritələri"nin hazırkı atlası hansı dövrü əhatə edir?

– Azərbaycanın tarixi coğrafiyasına münasibət nə üçün qərəzli idi?

– Zəngəzur ərazisinin qədim Azərbaycan torpağı olduğunu hansı faktlarla sübut edə bilərsiniz?

– Atlasdakı xəritələrdə Azərbaycanın tarixi coğrafiyası və e.ə. VIII əsrdən başlayaraq onun ərazisində mövcud olmuş dövlətləri sadalayın.

Ermənistan–Azərbaycan sərhədinin haradan keçməsini sübut edən dəyərli faktları dəqiqliklə öyrənin.

ÖN ASİYA ƏRAZİSİNDƏ TAYFALAR, TAYFA İTTİFAQLARI VƏ DÖVLƏTLƏR (E.Ə. 3–2-ci MİNİLLİKLƏRDƏ)

ŞƏRTİ İŞARƏLƏR

AŞŞUR Dövlətlər

KUTİLƏR Tayfalar və tayfa ittifaqları

ÖN ASİYA E.Ə. 1-ci MİNİLLİYİN BİRİNCİ YARISINDA

ŞƏRTİ İŞARƏLƏR

MANNA	Dövlətlər	*ALBANLAR*	Tayfalar
ANDİA	Vilayətlər	○	Şəhərlər
[*İBERLƏR*]	Daha erkən dövrlərə aid tarixi adlar		


MANNA DÖVLƏTİ (E.Ə. 9—7-ci ƏSRLƏR)
(Araz)
(Çaykənd)
(Kür)
(Araz)
(Kür)
(Xəzər dənizi)
SANGİBUTİ
(Qarasu)
(Əhər)
Libliuni
PULUADİ
Erugima
(Sarab)
Tarmakis
(Təbriz)
BARİ
SUBİ
GİLZAN
(Urmiya g.)
UİŞDİŞ
ZİKERTU
ANDİA
(Saatlı)
(Qızılüzən)
(Həsənli)
(Miandoab)
MANNA
MESSİ
GİZİLBUNDA
BUOŞTU
Sakkız
(QARA DƏNİZ)
(Xəzər dənizi)
(Kür)
(Araz)
Manna
ARALIQ DƏNİZİ)
Aşşur
(Fərat)
(Dəclə)
Babilistan
Elam
(İran körfəzi)
Şəhərlər
Qədim qalalar
MESSİ
Vilayətlər
(Təbriz)
Müasir adlar


MADA (MİDİYA) DÖVLƏTİ
(E.Ə. 7-ci ƏSRİN SON RÜBÜ —
E.Ə. 6-cı ƏSRİN ORTALARI)
(QARA DƏNİZ)
(XƏZƏR DƏNİZİ)
KOLXLAR
(Kür)
[İBERLƏR]
(Göyçə g.)
ALBANLAR
(Kür)
(Araz)
KASPİLƏR
DUSİLƏR
SİKERTU
MANNA
(Van g.)
(Urmiya g.)
(Dəclə)
(Fərat)
(Halis Qırmaq)
ARALIQ DƏNİZİ
EKBATAN
ELAM
(Karun)
(Dəclə)
(Fərat)
PARSA
(İran körfəzi)
ŞƏRTİ İŞARƏLƏR
Mada (Midiya)dövlətinin sərhədləri
AŞŞUR Dövlətlər
PARSA Vilayət
KOLXLAR Tayfalar
[İBERLƏR] Daha erkən dövrlərə aid tarixi adlar


ANTİK QAFQAZ ALBANİYASI
İBERİYA
ALBANİYA
KAMBİSENA
SAKASENA
OTENA
ORXİSBALİTENA
BASOROPEDA
ATROPATENA
KASPİANA
Armastika
(Xunan)
Göyçə g.
Artaksata
Kaspi keçidi
(Dərbənd)
KABALAKA
(QƏBƏLƏ)
(Samur)
Araz
Mil
LUPENLƏR
SILVLƏR
GELLƏR
LEQLƏR
MASSAQETLƏR
ALBAN DƏNİZİ
(XƏZƏR DƏNİZİ)
KASPİLƏR
QARQARLAR
UTİLƏR
ŞƏRTİ İŞARƏLƏR
Dövlətlərin təqribi sərhədləri
KAMBİSENA Vilayət
LEQLƏR Tayfalarlər
Pompey və Kanidinin yürüşü
Ticarət yolları
Cay ticarət yolu
Paytaxt
Şəhərlər

ALBANİYA E.Ə. 3-cü ƏSRDƏ
ÇİLBİR
DAĞLARI
QOQARENA
GELLƏR
LUPENLƏR
LEQLƏR
Qanix
Samur
KAMBİSENA
Xunan
Qabırrı (Ioni)
(Xunarakert)
Kür
QƏBƏLƏ
QƏBƏLƏ
SAKASENA
OTENA
ORXİSTENA
Göyçə g.
Tərtər
Kür
SİSAKAN – SÜNİK
ARAKS
Araz
KASPİANA
Kaspi keçidi
(Çola)
XƏZƏR DƏNİZİ
ŞƏRTİ İŞARƏLƏR
Albaniyanın sərhədləri
Paytaxt
Şəhərlər
ŞAKAŞENA
Əyalətlər
GELLƏR
Etnik qruplar
Təsir dairəsi


ATROPATENA
SASANİLƏR DÖVLƏTİNİN
TƏRKİBİNDƏ
(3—7-ci ƏSRLƏR)
Kür
Göyçə g.
ALBANİYA
Araz
Beyləqan
Varsan
Kür
XƏZƏR DƏNİZİ
SASANİLƏR
Araz
Qarasu
Xuvey
(Xoy)
Əhər
Salmas
Ərdəbil
TƏBRİZ
Urmiya g.
Dehxarqan
Urmiya
Marağa
Neriz
Qazaka
ATROPATENA DÖVLƏTİ
Zəncan
Qızılüzən
Səfidrud
Şiz
Təxt - i Süleyman
ŞƏRTİ İŞARƏLƏR
Paytaxt
Şəhərlər
Atropatenanın təqribi sərhədləri
Dövlətlərin təqribi sərhədləri


ALBANİYA
5–8-ci ƏSRİN ƏVVƏLİNDƏ
Xəzər Dənizi
Dərbənd Çola
Qanıx
Samur
Xram
Xunan
KAMBİSENA
Kiş
Şəki LPİNA
COLA
Kür
Qabırrı (Ioqa)
GİRDİMAN SAKASENA
ŞƏKİ
Qəbələ
Xalxal
QƏBƏLƏ
Şamaxı
PARTAV
Tərtər
ECƏRİ
Göyçə g.
ARSAXİ
Kür
Paytakaran
Araz
Aquen
Amaras
BALASAKAN (PAYTAKARAN) KASPİANA
Kür
SİSAKAN-SÜNİK
Naxçıvan
Tatev
Araz
ŞƏRTİ İŞARƏLƏR
Paytaxt
UTİ Əyalətlər
Şəhərlər
LPİNA Vilayətlər
Albaniyanın sərhədləri



ŞƏRTİ İŞARƏLƏR

- Azərbaycanın və Arranın sərhədləri
- SİSƏCAN Vilayət və mahalların adları
- Paytaxtlar
- Şəhərlər
- Qədim qalalar
- Keçidlər


XÜRRƏMİLƏR HƏRƏKATI
(8-ci ƏSRİN SONU—9-cu ƏSRİN BİRİNCİ YARISI)
GÜRCÜSTAN
Bab ül-Əbvab (Dərbənd)
Tiflis
Kür
Qəbələ
Gəncə
Bərdə
ŞİRVAN
Xəzər
Ani
Göyçə g.
Araz
ARSAFİ
Şamaxı
Beyləqan
Bakı
Dəbil
ŞÜNİK
Varsan
Naxçıvan
Bəzz
Van g.
Təbriz
Ərdəbil
AZƏRBAYCAN
Urmiya g.
CÜRCAN
Cürcan
DEYLƏM
Qızılüzən
Zəncan
TƏBƏRİSTAN
Qəzvin
Rey
Həmədan
Qum
CİBƏL
REY
XORASAN
Dəclə
Samirə
Bağdad
Karun
İRAQ
İsfahan
Vasit
Fərat
Əhvaz
XUZİSTAN
KERMAN
Bəsrə
Şiraz
İran körfəzi
FARS
ŞƏRTİ İŞARƏLƏR
Xürrəmilər hərəkatının yayıldığı ərazi
Ərəb xilafətinin təqribi sərhədləri
Əyalətlərin sərhədləri
Xürrəmilər hərəkatının başlandığı ərazi
Babəkin əsir alındığı yer
Xürrəmilərin ərəb qoşunları ilə vuruşma yerləri
Bəzz Xürrəmilər hərəkatının mərkəzi


AZƏRBAYCAN
9-CU ƏSRİN
İKİNCİ YARISI
—10-CU ƏSRDƏ
SƏNARİYYƏ
ERETİ
ŞƏKİ
QƏBƏLƏ
ŞİRVANŞAHLAR
DÖVLƏTİ
ŞƏDDADİLƏR
DÖVLƏTİ
(971-1088)
TAŞİR
GELAKUNİ
QARABAĞ
ŞÜNİK
NAXÇIVAN
QARADAĞ
ARAN
MUĞAN
QUŞTASFİR
TALIŞ
DEYLƏM
QİLAN
ƏRDƏBİL
MARAĞA
RƏVVADİLƏR DÖVLƏTİ
(813-980)
SACİLƏR DÖVLƏTİ
(879-941)
SALARİLƏR DÖVLƏTİ
(941-981)
SİSƏR
AZ
ƏL-CƏZİRƏ
XƏZƏR DƏNİZİ
Tiflis
Xunan
Lori
Qax
Şəki
Şabran
Şamaxı
Bakı
Gəncə
Göyçə g.
İrəvan
Beyləqan
Varsan
Bəcirəvan
Bərzənd
Lənkəran
Astara
Naxçıvan
Əlincə
Maku
Xoy
Salmas
Əhər
Təbriz
Urmiya
Zəncan
Qəzvin
Qazlıüzən
Həmədan
Kür
Araz
Qarasu
Əhər
Sefidrud
ŞƏRTİ İŞARƏLƏR
9 əsrin ikinci - 10 əsrin birinci yarısında Azərbaycanın sərhədləri
Paytaxt
Şəhərlər
Qalalar
Vassal ərazilərin sərhədləri
TALIŞ Vilayətlər

AZƏRBAYCAN
11-ci ƏSRDƏ–
12-ci ƏSRİN
ORTALARINDA
KAXETİ
Tiflis
Kür
Xunan
Şəmkür
Qabırrı
Şəki
Qəbələ
SƏNARİYƏ
Dərbənd
Dərbənd Şabran
Gülüstan
ŞİRVANŞAHLAR
DÖVLƏTİ
ARRAN
ŞƏDDADİLƏR
DÖVLƏTİ
GƏNCƏ
MƏZYƏDİLƏR
DÖVLƏTİ
SAMAXI
Bakı
Xəzər Dənizi
İrəvan
Dvin
Göyçə g.
Bərdə
Beyləqan
Araz
NAXÇIVANŞAHLIQ
NAXÇIVAN
Əlincə
Hakəri
Xudafərin
Kür
Bərzənd
MUĞAN
TALIŞ
QARABAĞ
Xoy
Mərənd
Əhər
Qarasu
Salmas
Ərdəbil
TƏBRİZ
Sarab
Urmiya g.
Urmiya
Marağa
Miyanə
GİLAN
RƏVVADİLƏR
DÖVLƏTİ
Uşnuh
Zəncan
Ruindej
Qəzvin
Qarasu
Qızılüzən
ŞƏRTİ İŞARƏLƏR
Dövlətlərin sərhədləri
Dövlətlərin paytaxtları
Qalalar
Şəhərlər
Keçid
Şirvanşahlar dövlətinə birləşdirilmiş ərazilər (917, 944, 945, 1072)
Vaxtaşırı Şirvanşahların və Şəddadilərin tabeliyinə keçən mübahisəli ərazilər
İşğalçılara qarşı müqavimət yerləri və illəri
1030 ildə rusların yürüşü
1025, 1032, 1033 illərdə alan və sərirlilərin yürüşləri
Oğuzların hücumları
1020 ildə
1038 ildə
1040 ildə
1054 ildə
Səlcuqların yürüşləri
1054 il - Toğrul bəy
1064–67 illər - Alp Arslan
1088 il - Buğa
Səlcuqların Şirvana hücumları
1066–67 illərdə
1071 ildə
1075 ildə
Gürcülərin yürüşləri və hücumları
1068 ildə
1121 ildə
1122–23 illərdə
1138 ildə
1153–54 illərdə

ELDƏNİZLƏR DÖVLƏTİ
(1136—1225 İLLƏR)
GÜRCÜSTAN
Dərbənd
ŞİRVAN
Şamaxı
Şəmkir
Gəncə
Ani
ARRAN
Naxçıvan
AYCAN
ELDƏNİZLƏR
Ərdəbil
Təbriz
Marağa
Urmiya
Qəzvin
TƏBƏRİSTAN
Curcan
DÖVLƏTİ
Bistam
Nişapur
QUMİS
XORASAN
XARƏZMŞAHLAR
İRAQİ
ƏCƏM
İSMAİLİLƏR DÖVLƏTİ
Qur
Həmədan
Kərkük
MOSUL ATABƏYLƏRİ
Kermanşah
DÖVLƏTİ
İsfahan
Bağdad
İRAQİ ƏRƏB
Dəclə
Fərat
XUZİSTAN
Əhvaz
Jəzd
FARS ATABƏYLƏRİ
KERMAN ATABƏYLƏRİ
Kerman
İstəxr
İran körfəzi
ŞƏRTİ İŞARƏLƏR
Hakimliklərin sərhədləri
Şəhərlər
GİLAN Əyalətlər (vilayətlər)
Vassal ərazilər

AZƏRBAYCAN 13—14 cü ƏSRLƏRDƏ
ŞİRVANŞAHLAR DÖVLƏTİ
ŞƏKİ VALİYİ
SÖYÜRQALIĞ QARABAĞ
QUŞTASFİ MUĞAN
QARADAĞ
İZİNƏDİ
Tiflis
Balakən
Qax
Xunan
Qazax
Şəmkur
Gəncə
Şəki
Dərbənd
Niyazabad
Şabran
Qəbələ
Şamaxı
Bakı
Dvin
Bərdə
Ağdam
Beyləqan
Mahmudabad
Naxçıvan
Əlincə
Culfa
Bərzənd
Lənkəran
Astara
Xoy
Mərənd
Əhər
Ərdəbil
Salmas
TƏBRİZ
Sarab
Ucan
Urmiya
Miana
MARAĞA
Uşnuya
Zəncan
Sainqala
Səfidrud
Elxanilər dövlətinin arazisi (1257-1359)
Cəlairilər dövlətinin arazisi (fasilələrlə) (1359-1410)
Hulakuxanın yürüşü
QARA DƏNİZ
Bukara
Maraga
Sultaniyya
Bağdad
ŞƏRTİ İŞARƏLƏR
Azərbaycanın sərhədləri
Azərbaycanın sərhədlərində dəyişikliklər
Elxanilər və Cəlairilər dövlətlərinin paytaxtları
Asılı dövlətlərin və vilayətlərin paytaxtları
Qalalar
Şəhərlər
MUĞAN Vilayətlər
Mühüm döyüş yerləri
Xalq hərəkatı
Şəki hakimliyi
Şirvan akimliyi
Monqolların birinci yürüşü (1220–1223)
Monqolların ikinci yürüşü (1231–1239)
Cəlaləddinin yürüşü (1225–1231)
Qızıl Orda xanlarının yürüşləri
Teymurun birinci yürüşü (1386-1388)
Teymurun ikinci yürüşü (1392–1396)
Teymurun üçüncü yürüşü (1399–1404)


AZƏRBAYCAN 15-ci ƏSRDƏ
KAXETİ
TABASARAN
Dərbənd
Niyazabad
Xaçmaz
Quba
Şabran
Tiflis
Lori
Qazax
Şəmkir
Gəncə
Ağdaş
Surxab
Bərdə
Çuxurs'əd
Dəbil
ÇUXURS'ƏD
ŞƏRUR
Ağdam
Beyləqan
Varsan
Salyan
Mahmudabad
Maku
Çaldıran
Naxçıvan
Qafan
(1410-1467)
Əlincə
Culfa
Ordubad
Zunuz
Mərənd
Xoy
Təsuc
Salmas
Urmiya
Dehxarqan
Marağa
Uşnu
Sainqala
(1468-1501)
Ucan
Sarab
Türkmankəndi
Miane
Kağızkunan
Zəncan
Sultaniyyə
Xalxal
Lənkəran
Astara
Xiov
Ərdəbil
Əhər
Bəcirəvan
Bərzənd
Şəki
Gələsən – Görəsən
Qax
Kiş
Şəki
Qəbələ
Lahıc
Qəleybuğurt
Gülüstan
Gürcivan
Şamaxı
Zərdab
Cavad
Bakı
Xəzər dənizi
Rəşt
Lahican
Qəzvin
Qarabağ
Muğan
Şirvan
Şirvanşahlar dövləti
Şəki hakimliyi
Qaraqoyunlu dövləti (1410-1467 il)
Ağqoyunlu dövləti (1468-1501 il)
QARA DƏNİZ
XƏZƏR DƏNİZİ
ƏDALIQ DƏNİZİ
İran körfəzi
ŞƏRTİ İŞARƏLƏR
Dövlətlərin paytaxtları
Kiçik şəhər və yaşayış məntəqələri
Qalalar
Keçidlər
Azərbaycanın sərhədləri
MUĞAN Vilayətlər
Şirvanşahlar dövləti
Şəki hakimliyi

AZƏRBAYCAN 16-cı ƏSRDƏ
OSMAN LI İMPERİYASI
KAXETİ
KARTLİ
DAĞISTAN
ŞİRVAN
ÇUXURS'ƏD
GƏNCƏ (QARABAĞ)
BƏYLƏRBƏYİLİYİ
BƏYLƏRBƏYİLİYİ
BƏYLƏRBƏYİLİYİ
BƏYLƏRBƏYİLİYİ
TƏBRİZ
Xəzər dənizi
Tiflis
Gələtən – Görəsən
Qax
Kiş
Şəki
Lahıc
Qələybuğurt
Quba
Xaçmaz
Niyazabad
Dərbənd
Sabran
Lori
Qazax
Şəmkir
Gəncə
Örəş
Qəbələ
Surxab
Gürcivan
Samaxı
Ağdaş
Bərdə
Zərdab
Ağdam
Cavad
Beyləqan
Varsan
Mahmudabad
Salyan
Bəcirəvan
Bərzənd
Lənkəran
Astara
Ərdəbil
Sarab
Xiov
Əhər
Mərənd
Xoy
Təsuc
Salmas
Çaldıran
Culfa
Ordubad
Zunuz
Naxçıvan
Maku
Əlincə
Qafan
Xudafərin
Urmiya
Dəhxarqan
Ucan
Türkmənkəndi
Miana
Xalxal
Marağa
Kağızkünan
Zəncan
Rəşt
Lahican
Uşnu
Sainqala
Bakı
İrəvan
Dəbil
Araz
Kür
Qarasu
Qarabağ
Şirvan
Qanıx
Alazan
Qabırrı
Gürcü R.
Şahrud
Qızılüzən
1578
1576
1514
1588
1504
1514
1538
1537-1538
1580-1581
1571-1575
1500
1578
1585
1578
Şəfəvilər dövlətinin sərhədi
Şəfəvilər dövləti yarandığı dövrdə onun ərazisi (1501-1502)
XVI əsrin birinci yarısında Şəfəvi-Osmanlı müharibələri dövründə Osmanlı imperiyasının işğal etdiyi ərazi
ŞƏRTİ İŞARƏLƏR
1555 ildəki Səfəvilər dövlətinin paytaxtı
Qalalar
Şəhərlər
Keçidlər
Vilayətlər
1555 ildə Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
Ən böyük inzibati vahidlərin-bəylərbəyiliklərin sərhədləri
1590 il İstambul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini sərhədi
İsmayılın qoşunlarının hərəkəti:
Ərdəbildən Ərzincana (1499–1500 illər)
Ərzincandan Təbrizə (1500–1501 illər)
Təhmasibin qoşunlarının Şirvana və Şəkiyə hərəkəti
1514, 1578, 1585 illərdə Osmanlı qoşunlarının Azərbaycana hərəkətinin istiqamətləri
Krım tatarlarının hərəkətinin ümumi istiqaməti (1578–1581illər)
Böyük xalq üsyanlarının yayıldığı ərazilər və illər
Vuruşmaların yerləri və illəri
QARA DƏNİZ
ARALIQ DƏNİZİ
Osmanlı
Şeybanilər dövləti
Azərbaycan Səfəvilər dövləti
Təbriz
SƏFƏVİLƏR DÖVLƏTİ
16-cı ƏSRDƏ


AZƏRBAYCAN 17-ci ƏSRDƏ
DAĞISTAN
KAXETİ
KARTLİ
CUXURS'ƏD
QARABAĞ
(GƏNCƏ)
BƏYLƏRBƏYİLİYİ
SİRVAN
ŞƏKİ
QƏBƏLƏ
ŞƏMKİR
GƏNCƏ
SURXAB
AĞDAŞ
GÜRCİYAN
QƏLEYBUĞURT
GÜLÜSTAN
ŞAMAXI
QUBA
XAÇMAZ
ŞABRAN
NİYAZABAD
DƏRBƏND
TİFLİS
LORİ
AĞSTAFA
QAZAX
GƏLƏSƏN – GÖRƏSƏN
QAX
KİŞ
LAHIC
BAKI
İRƏVAN
DƏBİL
BƏRDƏ
AĞDAM
ZƏRDAB
CAVAD
BEYLƏQAN
MAHMUDABAD
VARSAN
SALYAN
BƏCİRƏVAN
QAFAN
NAXÇIVAN
ƏLİNCƏ
XUDAFƏRİN
BƏRZƏND
MAKU
ÇALDIRAN
CULFA
ORDUBAD
LƏNKƏRAN
ZUNUZ
ƏHƏR
ASTARA
XOY
SALMAS
TASUC
MƏRƏND
XİOV
TƏBRİZ
ƏRDƏBİL
SARAB
UCAN
TÜRKMƏNKƏNDİ
DEHXƏRQAN
XALXAL
URMİYA
MİANƏ
MARAĞA
KAĞIZKUNAN
GİLAN
RƏŞT
ZƏNCAN
LAHİCAN
UŞNU
SAINQALA
ŞƏRTİ İŞARƏLƏR
Paytaxt
Qalalar
Kiçik şəhər və yaşayış məntəqələri
Keçidlər
Səfəvilər dövlətinin sərhədləri (vassal ərazilər daxil olmaqla)
Ən böyük inzibati vahidlərin-bəylərbəyiliklərin sərhədləri
1590 il İstambul sülhünə görə Osmanlı-Səfəvi torpaqlarının təxmini sərhədi
1603 Osmanlı imperiyasından ərazilərin Şah Abbas tərəfindən geri alındığı illər
Stepan Razinin yürüşü
Ticarət yolları

AZƏRBAYCAN XANLIQLARI 18-ci ƏSRİN İKİNCİ YARISINDA
GÜRCÜSTAN
OSMANLI İMPERİYASI
DAĞISTAN
TABASARAN
TIFLİS
Balakən
Car-Balakən camaatlığı
İlisu sultanlığı
İlisu
Gələsən
Görəsən
QUBA
Xudat
Niyazabad
Şabran
Rustov
ŞƏKİ XANLIĞI
QAZAX SULTANLIĞI
QAZAX
ŞƏMŞƏDİL SULTANLIĞI
Şəmkir
GƏNCƏ
Ağdaş
Güllüstan
İRƏVAN
İRƏVAN XANLIĞI
GƏNCƏ XANLIĞI
Bərdə
Ağsu
ŞAMAXI
ŞAMAXI XANLIĞI
BAKI
Eçmiədzin
QARABAĞ
Ağdam
CAVAD XANLIĞI
CAVAD
ŞALYAN SULTANLIĞI
SALYAN
Əsgəran
SUŞA
NAXÇIVAN XANLIĞI
NAXÇIVAN
MAKU XANLIĞI
MAKU
Əlincə
Culfa
Ordubad
QARADAĞ XANLIĞI
Xudafərin
TALIŞ XANLIĞI
Cəlilqışlaq
XOY XANLIĞI
XOY
Cəlx
LƏNKƏRAN
ƏHƏR
Əhər
Mişkin
Mərənd
Salmas
TƏBRİZ
TƏBRİZ
ORDUBAD
Astara
Dehxarqan
Sarab
Türkmənçay
Miana
URMİYA
URMİYA XANLIĞI
MARAĞA
ORDƏBİL XANLIĞI
Ənzəli
GİLAN XANLIĞI
RƏŞT
Soucbulaq
Zəncan
Xəzər Dənizi
ŞƏRTİ İŞARƏLƏR
18 əsrin ikinci yarısında Azərbaycanın sərhədləri
Xanlıqların və sultanlıqların sərhədləri
Xanlıqların mərkəzləri
Qalalar
Şəhərlər
Ticarət və karvan yolları
Dəniz ticarəti yolları
Keçidlər
Suraxanı atəşgədəsi
Qubalı Fətəli xanın (1758–1789) birləşdirdiyi ərazi
1751 ildə Məhəmməd Həsən xan Qacarın Qarabağa yürüşü
1752 ildə II İraklinin Gəncəyə yürüşü
1756 ildə Salyan sultanlığının Quba xanlığı tərəfindən zəbt edilməsi
1757 ildə Fətəli xan Əfşarın Şuşaya yürüşü
1759 ildə Qubalı Fətəli xanın Dərbəndə yürüşü
1767 ildə Qubalı Fətəli xanın Şamaxıya yürüşü
1767 ildə Şəkili Hüseyn xanın Şamaxıya yürüşü
18 əsrin 60 -cı illərində Kərim xan Zəndin yürüşü
1781 ildə Qubalı Fətəli xanın Qarabağa yürüşü
1784 ildə Qubalı Fətəli xanın Ərdəbilə yürüşü
18 əsrin 80-cı illərində Ağa Məhəmməd xan Qacarın yürüşü
1795 ildə Ağa Məhəmməd xan Qacarın I-ci yürüşü
1797 ildə Ağa Məhəmməd şah Qacarın II-ci yürüşü
1796 ildə V.A. Zubovun komandanlığı altında rus qoşunlarının yürüşü
1796 ildə rus qoşunlarının qayıtdıqları yol



ŞİMALİ AZƏRBAYCANIN ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI


AZƏRBAYCAN RESPUBLİKASI (1918—1920-ci İLLƏR)
ŞƏRTİ İŞARƏLƏR
TİFLİS
QUBERNİYASI
ZAQATALA DAİRƏSİ
DAĞISTAN VİLAYƏTİ
Qaxbaşı
Rutul
Axti
Qazax
Gəncə
Göyçə
Ağdaş
Cavad
Lənkəran
BAKI
28.IV.1920
28.VII.1920
Jeni Bəyazid
Kəlbəcər
Tərtər
Susa
Gorus
Qarabulaq
Cəbrayıl
Qafan
Zəngilan
Muğan Sovet Respublikasının ərazisi (IV-VII. 1919)
Azərbaycan Respublikası qoşunlarının Lənkərana hücumu (VII. 1919)
Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin təşkili (27.IV. 1920)
XI Qızıl Ordu hissələrinin hücumu (27-28.IV.1920)
Azərbaycan Sovet Sosialist Respublikasının elan edilməsi (28. IV. 1920)
Volqa-Xəzər donanması hərbi qəmilərinin hərəkatı (IV-V. 1920)
XI Qızıl Ordu hissələrinin hücumu (V-VII. 1920)
Qəza inqilab komitələri
Antisovet üsyanlarının yatırılması
Naxçıvanda Sovet hakimiyyətinin qurulması

Bakıda "Sentrokaspi Diktaturası" hökuməti (I.VIII — 14.IX. 1918)
İngilis qoşunu tərəfindən Bakının birinci işğalı (4.VIII — 14.IX. 1918)
İngilis qoşunu tərəfindən Bakının ikinci işğalı (17.XI. 1918 — VIII. 1919)
İngilis işğalçı qoşununun qarnizonları
İngilis müdaxiləçilərinin geri çəkilməsi
Azərbaycan Respublikası Parlamenti (7.XII. 1918 — 27.IV. 1920)
Qazax kəndli qurultayı (25-27. IX. 1919)
Bakı Universitetinin açılışı (XI. 1919)
Müsavat partiyasının MK
"Müsavat" partiyasının II qurultayı. 2-11. XII. 1919
Fəhlə ta'tilləri
Kəndlilərin aqrar çıxışları
Azərbaycan Kommunist (bolşeviklər) partiyasının I qurultayı. II — 12.II. 1920
AK(b)P MK


Kutaisi
Qori
Borjomi
Bakuriani
TİFLİS
Mtskheta
Telavi
Balakən
Dərbənd
Qasımkənd
Yalama
Xaçmaz
Qusar
Quba
Dəvəçi
Zaqatala
Qax
Axtı
Sıqnax
Qarayazı
Şulaveri
Axalkalaki
Ərdəhan
Nuxa
Ağstafa
Qazax
Tovuz
Dilican
Şamxor
Ağdaş
Göyçay
Şamaxı
Aleksandropol
Qars
Gəncə
Jevlax
Ucar
Kürdəmir
Sabunçu
Binəqədi
Yasamal
Puta
BAKI
Tərtər
Jani Bəyazid
Kağızman
YEREVAN
Basarkeçar
Hacıqabul
Çəvad
Ağdam
Alaşkert
Iğdır
Böyük Vedi
Şuşa
Qarabulaq
MUGAN
Salyan
Baş Norașen
Gorus
Çəbrayıl
Naxçıvan
Göytəpə
Culfa
Əylis
Mehri
Ordubad
Lənkəran
Astara
AZƏRBAYCAN RESPUBLİKASININ XƏRİTƏSİ
1920 İLDƏ
XARİCİ İŞLƏR NAZİRLİYİNİN
İNFORMASİYA SÖ'BƏSİNDƏ
"AZƏRBAYCAN RESPUBLİKASININ
ÜNVAN – TƏQVİMİ"
ÜÇÜN TƏRTİB EDİLMİŞDİR.
Tərtibçi: L.Qumiç
ŞƏRTİ İŞARƏLƏR
Sərhədlər
Azərbaycan respublikasının
Gürcüstan respublikasının
Türkiyə və İranın
Quberniya və vilayətlərin
Qəzaların
Ermənistanla mübahisəli ərazilər
Gürcüstanla mübahisəli ərazilər
Dəmir yolları
Çəkilməkdə olan d.y.-ları
Dəmiryol stansiyaları
Quberniya, qəza şəhərləri və kəndlər



AZƏRBAYCANDAN KƏNARDA YAŞAYAN AZƏRBAYCANLILAR (ZAQAFQAZİYADA VƏ İRANDA)

ŞƏRTİ İŞARƏLƏR

- Azərbaycan Respublikasının ərazisi
- Azərbaycanlıların sayca çox olduğu ərazi
- Başqa etnik qrup, yaxud xalqlarla qarışıq yaşayan azərbaycanlıların çox yayıldığı ərazi


ARXEOLOJİ XƏRİTƏ
ŞƏRTİ İŞARƏLƏR
Tarixi dövrlərə və arxeoloji mədəniyyətlərə abidələr
Paleolit
Mezolit
Neolit
Mis– Daş dövrü
Eneolit
Tunc dövrü
Kür-Araz mədəniyyəti (e.ə. 3-cü minillik)
Orta Tunc dövrü (e.ə. 2-ci minilliyin 1-ci yarısı)
Naxçıvan mədəniyyəti (e.ə.2-ci minillik)
Xocalı-Gədəbəy mədəniyyəti (e.ə. 13–7 əsrlər)
Talış-Muğan mədəniyyəti (e.ə. 14–7 əsrlər)
Dəmir dövrü (e.ə. 7–5 əsrlər)
Jaloylutəpə mədəniyyəti (e.ə. 4 əsr – eramızın 1 əsri)
Küp qəbirləri (e.ə.3 əsr-eramızın 2 əsri)
Şəhərlər və antik dövrün digər abidələri (e.ə. 3 əsr - eramızın 2 əsri)
Erkən orta əsr abidələri (eramızın 3-8 əsrləri)
Orta əsr şəhər xarabalıqları və qalalar (eramızın 9-15 əsrləri)
TBİLİSİ
GÜRCÜSTAN
RUSİYA
DAĞISTAN
ERMƏNİSTAN
İRAN
TÜRKİYƏ
XƏZƏR DƏNİZİ
BAKI
Balakən
Zaqatala
Qax
Şəki
Oğuz
Qəbələ
Göyçay
Ucar
Kürdəmir
Sumqayıt
Xaçmaz
Quba
Şabran
Dəvəçi
Siyəzən
Xırdalan
Mingəçevir su anb.
Ağdaş
Tərtər
Bərdə
Goranboy
Yevlax
Ağcabədi
Zərdab
Sabirabad
Bayramlı
İmişli
Beyləqan
Salyan
Neftçala
Biləsuvar
Bəhrəmtəpə
Bəhrəmtəpə
Bəhrəmtəpə

Xəritələrin adı	Miqyas	Müəllifi
Ön Asiya ərazisində tayfalar, tayfa ittifaqları və dövlətlər (e.ə.3—2-ci minilliklərdə)	1 : 5 000 000	Azərbaycan Respublikası EA-nın müxbir üzvü İ.H.ƏLİYEV
Ön Asiya e.ə. I-ci minilliyin birinci yarısında	1 : 5 000 000	
Manna dövləti (e.ə.9-7-ci əsrlər)	1 : 4 000 000	Tarix e.n. C.M.QAŞQAY
Mada (Midiya) dövləti (e.ə.7-ci əsrin son rübü — e.ə. 6-cı əsrin ortaları)	1 : 5 000 000	Azərbaycan Respublikası EA-nın müxbir üzvü İ.H.ƏLİYEV
Antik Qafqaz Albaniyası	1 : 5 000 000	Tarix e.d. K.H.ƏLİYEV
Albaniya e.ə.3-cü əsrdə	1 : 5 000 000	Tarix e.d. F.C.MƏMMƏDOVA
Atropatena Sasanilər dövlətinin tərkibində (3-7-ci əsrlər)	1 : 4 000 000	Tarix e.d. S.Y. QASIMOVA
Albaniya 5-8-ci əsrin əvvəlində	1 : 5 000 000	Tarix e.d. F.C.MƏMMƏDOVA
Arran və Azərbaycan Ərəb xilafətinin tərkibində	1 : 4 000 000	Tarix e.d. N.M.VƏLİXANLI
Xürrəmilər hərəkatı (8-ci əsrin sonu - 9-cu əsrin birinci yarısı)	1 : 5 000 000	Azərbaycan Respublikası EA-nın akademiki Z.M.BÜNYADOV
Azərbaycan 9-cu əsrin ikinci yarısı - 10-cu əsrdə	1 : 4 000 000	Tarix e.d. M.X.ŞƏRİFLİ
Azərbaycan II-ci əsrdə — 12-ci əsrin ortalarında	1 : 4 000 000	
Eldənizlər dövləti (1136-1225 illər)	1 : 5 000 000	Azərbaycan Respublikası EA-nın akademiki Z.M.BÜNYADOV
Azərbaycan 13-14-cü əsrlərdə	1 : 4 000 000	Tarix e.d. V.Z.PİRİYEV
Azərbaycan 15-ci əsrdə	1 : 4 000 000	Tarix e.d. O.Ə.ƏFƏNDİYEV
Azərbaycan 16-cı əsrdə	1 : 4 000 000	
Azərbaycan 17-ci əsrdə	1 : 4 000 000	
Azərbaycan xanlıqları 18-ci əsrin ikinci yarısında	1 : 4 000 000	Tarix e.d. F.M.ƏLİYEV
Şimali Azərbaycanın Car Rusiyası tərəfindən işğalı	1 : 2 500 000	Azərbaycan Respublikası EA-nın müxbir üzvü M.Ə.İSMAYILOV
Azərbaycan Respublikası (1918-1920-ci illər)	1 : 2 500 000	Tarix e.n. Ə.C.RƏHİMOV Tarix e.d. A.Y. TOKARJEVSKİ
Azərbaycan Respublikası (1920 ildə)	1 : 2 500 000	
Azərbaycandan kənarda yaşayan azərbaycanlılar (Zaqafqaziyada və İranda)	1 : 10 000 000	Tarix e.d. H.A.QULİYEV
Arxeoloji xəritə	1 : 2 500 000	Tarix e.n. F.P.MAHMUDOV

1928-1931-ci illərdə Yermakov tərəfindən tərtib edilən, 1936-cı ildə çap olunan ağ kağız üzərində qara rəngli ştrixlərlə cızılan və sərhədlərin qeyd olunduğu Zaqafqaziya Sosialist Sovet Federativ Respublikasının xəritəsi

Zaqafqaziya Sosialist Sovet Federativ Respublikasının siyasi xəritəsi

1975, 1984 və 1985-ci illərdə nəşr olunmuş SSRİ Nazirlər Sovetinin Geodeziya və Kartoqrafiya Baş İdarəsinin xəritəsi


АЗЕРБАЙДЖАНСКАЯ
ССР
Степь Карабах
Степь Ширак
Степь Ширван
Степь Мильская
Степь Муганская
Степь Ширинская
Степь Аразская
Степь Ордубадская
Степь Нахичеванская
Степь Ереванская
Степь Гокчайская
Степь Гарадагская
Степь Кура-Араксинская
Степь Ленкоранская
Степь Талышская
Степь Приморская
Степь Кызылагачская
Степь Сальянская
Степь Кура-Ленкоранская
Степь Кура-Мильская
Степь Кура-Ширванская
Степь Кура-Ширинская
Степь Кура-Аразская
Степь Кура-Муганская
Степь Кура-Приморская
Степь Кура-Сальянская
Степь Кура-Кызылагачская
Степь Кура-Талышская
Степь Кура-Ленкоранская
Степь Кура-Ордубадская
Степь Кура-Нахичеванская
Степь Кура-Ереванская
Степь Кура-Гокчайская
Степь Кура-Гарадагская
Степь Кура-Карабахская
Степь Кура-Ширак

1925-ci ildə çap olunmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisinin xəritəsi

P.S. Bir faktı da xüsusi olaraq qeyd etmək istərdik. Bizim üçün müharibə və müharibə mövzusu hələ də bitməyib: Sülh istəyirsənsə, müharibəyə hazır ol! Tarixilik aspektində izlədikdə, bu müharibə əslində 300 ildir davam edir. Qafqazda və bütün coğrafiyamızda kənardan təqdim olunmuş erməni-türk qarşıdurmasının gedişinə kimsə rəqabət deyə bilər, lakin bizə görə bu, müharibədir. Sadəcə zaman-zaman açıq və gizli şəkildə gedib. Bunun gedişinin daha bir təzahürünü – Qarabağ uğrunda açıq-aşkar gedən müharibəni biz çözdük, 32 il izlədik, uğurların da, uğursuzluqların da şahidi olduq. Bir də bu müharibənin yazılması, sənədləşdirilməsi məsələsi var: bəzən bir fərd, əlahiddə bir fakt, bir Vətən əsgərinin hekayəti böyük bir araşdırmaya istiqamət verir. Bu müharibənin konkret nə zaman bitəcəyini heç kim bilmirdi. Müharibə isə həyatımızın bütün sahələrində özünü büruzə verməklə dünyanın diqqət mərkəzində dayanmışdı. Biz hərbin nə olduğunu yaxşı bilirik və Qarabağ müharibəsi bizim şəxsi həyatımızda ilk açıq müharibədir ki, onun bütün ağrı-acılarını şəxsən yaşamışıq. Biz hərbin nə olduğunu bir tarixçi və hüquqşünas kimi yaxşı dərk edirik və döyüşçü, bilavasitə iştirakçı faktoruna xüsusi diqqət yetirilməsini hər zaman vacib bilmişik. Kabinetdə oturub nəsə yazmaq başqa, odun-alovun, təhlükələrin arasında olmaq, barıt qoxusuna doğmalaşmaq, hər an ölümün üzünə dik baxmaq başqadır. 1988-93-cü illərin xaosu onu yaşamış tarixin yaddaşına möhkəm həkk olunub. Fikrimizcə, oxucu biz müəlliflərlə həmrəy olacaqdır. Çünki həm birinci Qarabağ müharibəsi qazisi kimi, həm də hər an ölüm təhlükəsi, hədə-qorxular, təhdidlər, pusqular və bütün bunlara qarşı qorxu bilmədən, onları zərərsizləşdirmək əzmilə yaşamış zabit kimi deyə bilərik ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan Respublikasının baş nazirinin imzaladıqları üçtərəfli bəyanat xalqımızı sevindirdi. Tarixi əhəmiyyət kəsb edən bu bəyanat

çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının tarixi və şanlı Qələbəsini təcəssüm etdirdi. Haqq-ədalət öz yerini tutdu, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu.

Gənc bir türk xanımının söylədiyi kimi:

Qoca Şərqin övladıyam,
Azərbaycan obam mənim
Nənəm Tomris olub mənim,
Dədə Qorqud babam mənim.

Türkiyədir qan qardaşım,
Türkmənistan arkadaşım,
Uyğura bağlıdır başım,
Oğuz olub atam mənim.

Özbək ilə birdir sözüm,
Qazaxıstan iki gözüm,
Qırğız, qıpçaq düzüm-düzüm,
Şanlı yurdum-yuvam mənim

Halac, qaşqay, yakut, tatar,
Krım, çeçen, kıbrıs, avar,
Başqırdlarla, qaqauzlar,
Var gör hardan-haram mənim.

Türk elləri mənim elim,
Türkün dili mənim dilim,
Türklərə bağlıdır belim,
Yox bir özgə arxam mənim.

Bu Qələbə təkcə ərazi bütövlüyümüzün bərpası deyil, eyni zamanda Azərbaycan xalqının birliyini, milli ruhumuzun yüksəkliyini, Ordumuzun döyüş qüdrətini, fədakarlığını, qəhrəman şəhidlərimizin

vətənpərvərliyini, şücaətini, şəhid analarının xalqımıza bəxş etdiyi igidlərimizin yaşatdıqları Zəfərdir!

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Rəşadətli Azərbaycan ordusu!

Yaşasın Müzəffər Ali Baş Komandan!

Qarabağ Azərbaycandır!

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI Yeni Nəşrlər Evi, 2001 – 280 s.
2. Azərbaycanın tarixi xəritələri. Bakı: "Azərbaycan Ensiklopediyası" NRB, 1994, 25 s.
3. Azərbaycanlıların soyqırımı. Bakı: Azərbaycan, 2012. – 345 s.
4. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı // "Azərbaycan" qəzeti, 27 mart 1998-ci il.
5. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989. – 36 s.
6. Baharlı M.Q. Azərbaycan (etnik–fiziki, etnoqrafik və iqtisadi oçerk). Bakı, 1921. – 364 s.
7. Çingizoğlu Ə. Qarabağda sənət və sənətkarlar. Bakı: Elm və təhsil, 2011. – 242 s.
8. Dyakonov İ.M. Erməni dilinin tarixi barədə. Tarix-filoloji jurnal. Yerevan, 1983. – S. 28-36
9. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997 – 608 s.
10. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. http://files.preslib.az/projects/
11. Əmrahov M.İ., Çingizoğlu Ə., Həsənov H.İ. Qarabağ xanlığı. Bakı: Mütərcim, 2008. – 380 s.
12. Əsgər Əhməd. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı: Elm nəşriyyatı, 2012. – 274 s.
13. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: "Azərbaycan" nəşriyyatı, 2005. – 631 s.
14. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004. – 472 s.
15. "Xalq qəzeti", 3 dekabr 2009-cu il.
16. Xəlilov A.Ə. Qarabağ. Yaddaş kitabı. Bakı, 2010. -160 s.

17. Xorenasi M. Ermənistan tarixi, 3-cü kitab, Tiflis, 1913.

18. Kamal Abdulla. Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009. – 246 s.

19. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996. – 135 s.

20. Qətiyyətin təntənəsi (sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995. – 848 s.

21. Məmmədov Sadir, MəmmədovTural. Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq. Dərs vəsaiti. Bakı: Mütərcim, 2018. – 184 s.

22. Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Bakı, 2008. – 185 s.

23. Məmmədova H.İ. Qarabağ General Qubernatoru Xosrov Bəy Sultanov // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1999, №2, s. 54-59.

24. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, birinci kitab. Bakı, 1989, s. 56-102.

25. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Bakı,1847. – 188 s.

26. Mirzə Camal Qarabağı. Qarabağnamə. Bakı, 2013. – 248 s.

27. Mirzoyan Z. Azğın millətçilik, "Kommunist", Aşqabad, 1991.

28. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986. – 112 s.

29. Nağı Akif. Qarabağ müharibəsi. Qısa tarix. Bakı: 2014. – 123 s.

30. Pompeyev Y.A. Qarabağ qan içində. Tərcümə. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1996. – 160 s.

31. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, 2002. – 312 s.

32. Sədiyev Ş. "Qarabağ" sözünün mənası // Elm və həyat jurnalı, 1963 – S. 26-30.

33. Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir. IV elmi konfransın materialları. Bakı, 7 may 2004-cü il, 51 s.

34. Vaqifli A. Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi // Azərbaycan qəzeti, 7 mart 2013, s.3.

35. Yüzbaşov R. Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası // Azərb. SSR EA Xəbərləri. Yer haqqında elmlər ser., 1969. – № 2. – S.96-100.

36. Abdulhaluk Mehmet Çay, "Ermeni Meselesi Üzerine Bazı Notlar", Yeni Türkiye, Ermeni Sorunu Özel Sayısı I, Sayı: 37, 2001, s.16.

37. Cevdet Küçük. Osmanlı Diplomasisində Ermeni Meselesinin Ortaya Çıkışı 1878-1897, İstanbul UnivesitesiYAY, İstanbul, 1984, s.102-103.

38. Bilal N. Şimşir. Ermeni Propagandasının Amerika Boyutu Üzerine", Tarih Boyunca Türklerin Ermeni Toplumu ile İlişkileri Sem-pozyumu, Atatürk Üniversitesi Rektörlüğü Yay., Erzurum, 1984, s.124.

39. Cemal Anadol-Nazile Abbaslı, Gizli Belgelerde Ermeni Te-rörü ve Basın Yayın Organlarında 100 Soruda Ermeni Meselesi, Kuvayi Mllliye Yay, Istanbıul, 2000. – S. 106-107, 199-201.

40. Erdal İlter. Ermeni Meselesi'nin Doğuşunda ve Gelişmesinde İngiltere'nin Rolü", OTAM, Sayı: 6, Ankara, 1995, 162 s.

41. Ermeni Komitelerinin Amaçları ve İhtiläl Hareketleri (Meş-rutiyet'in İlanından Önce ve Sonra), Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Yayınları, Ankara, 2003, s.13.

42. Musa Şaşmaz, "Kumkapı Erməni Olayı" (1890), Tarih İnce-meleri Dergisi. Cilt: XIX, sayi:1, 2004, s.107.

43. Hamidiye Alayları hakkında detaylı bilgi icin bkz: Uras, Ta-rihte Ermeniler ve Ermeni Meselesi', C. Eraslan, "Hamidiye Alayları", Diyanet İslam Ansiklopedisi, Cilt: 14, Fas. 100, İstanbul, 1997, s.462-464;

44. Hasan Oktay. "Ermeni Komitacılarının Katlettiği Van Valisi Ali Rıza Paşa ve Türküsü", Yeni Türkiye, Ermeni Şorunu Özel Sayısı II, Sayı: 38, 2001, s. 837.

45. Hüseyin Nazim Paşa, Ermeni Olayları Tarihi II, Başbakan-lık Devlet Arşivleri Genel Müdürliiğü Yay., Ankara, 1998, s. 276.

46. Osmanlı Belçilerində Ermeni Rus İlişkileri (1841-1898) 1, Başbakanlık Dövlet Arşivleri Çenel Müdürlüğü Yay., Ankara, 2006, s.140.

47. Kocabaşoğlu. Majestelerinin Konsolosları: İngilis Belgeleriyle Osmanlı İmperatorluğundakı İngilis Konsoloslukları (1580-1900), 292s.

48. Meclis-i Mebusan ve Ayan Reis Ahmed Rıza Bey'in Anıları, Arba Yay., İstanbul, 1988, s.57-58

49. Mehmed Asaf, 1909 Adana Ermeni Olayları ve Anılarım, (Yayına Hazırlayan: İsmet Parmaksızoğlu), Türk Tarih Kurumu Basımevi, Ankara, 1982, s. 44, 72.

50. Mim Kemal Öke. Ermeni Şorunu 1914-1923, Türk Tarih Kurumu Basımevi, Ankara, 1991, s.8.

51. Musa Şaşmaz. Kumkapı Ermeni Olayı (1890) Tarihi İnceleme-ler Dergisi. Cilt: XIX, sayı:1, 2004, s.107.

52. Münir Süreyya Bey, Ermeni Meselesinin Siyasi Tarihçesi (1877-1914), Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Yay., Ankara, 2001, s. 23.

53. Nejla Günay, Maraş Ermenileri (XIX. Yüzyıl), Yayımlanma-mış Doktora Tezi, Ankara, 2007, s. 256.

54. Norman C.B.Ermenilerin Maskesi Düşüyor, (Yayına Hazırlayan: Yavuz Ercan), Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Yay., Ankara, 1983, s. 55.

55. Osmanlı Belgelerinde Ermeni-Rus İlişkileri (1841-1898) I, Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Yay., Ankara, 2006, s. 140.

56. Peradan Rusiyaya göndərilən 14 (26) Nisan 1905 tarih və 107 sayılı gizli bir teleqraf: РГВИА Фонд 450, Оп.1, Дело 142, л.л.22-24.

57. Seçil Akgün. Amerikalı misyonerlərin Anadoluya Bakışları, OTAM, sayı 3, Ankara, 1992, s.9.

58. Seyit Sertcelik, Rus Arşiv Belgeleri işığında Ermeni Soykırımı İddialarına Dair, Sosyal ve Beşeri Bilimler Araştırma Ortak Komitesi (TÜBİTAK, TÜBA, YÖK). Ankara, 2004, s.13.

59. Sonyel S.R. İngiliz Gizli Belgelerine Göre Adana'da Vuku Bulan Türk-Ermeni Olayları (Temmuz 1908-Aralık 1909), Türk Tarih Kurumu Basımevi, Ankara, 1988, s. 28-29.

60. Yusuf Halaçoğlu, Ermeni Tehciri ve Gerçekler (1914-1918), Türk Tarilı Kurumu Basımevi, Ankara, 2001, s.24.

61. Aghassi, Zeitoun-Depuis Les Orlgines Jusqu'a L'Insurrection de 1895, (French Translation by Archag Tchobanian), Paris, 1897, s.194, 197'den aktaran, Günay, a.g.d.t., s.256.

62. Bilal N. Şimşir, British Documents on Ottoman Armenians, Volume II, (1880-1890), Türk Tarih Kurumu Basimevi, Ankara, 1983, pp.612-623.

63. Cyrus Hamlin, "The Genesis and Evaluation of the Turkish Massacre of Armenian Subjects", The Journal of American Antiquarian Society, April, 1898-dən sitat gətirən: Seçil Akgün, "Amerikalı Misyonerlerin Anadolu'ya Bakışları", OTAM, Sayı: 3, Ankara, 1992, s.10.

64. Undeclared War, Communist Publishing House, 1991, p.2.

65. V.te R.Des Coursons, Les Rebellions Armeniennes. s. 71-76-dan iqtibas gətirən: Uras, a.g.e. s.475-477.

66. Абовян Хачатур // Большая Советская Энциклопедия. Т.1,М.:1984. – С.110-114.

67. АВПРИ, Фонд ПОЛИТ Архив, № 151, ОП.482, Дело 3484, л.135.

68. Агаян Ц.П. Великий Октябрь и борьба трудящихся Армении за победу советской власти. Ереван: Изд-во Академии наук Армянской ССР, 1962. – С.16.

69. Альберт Вандал, Армяне и Турецкие реформы, (Перевод с французского М.Я.Алавордянцъ), С.-Петербург: 1908. – 246 с.

70. Амфитеатров А.В. Армянскій вопросъ. С.-Петербург: Изд-во Пушкинская Скоропечатная, 1906. – 104 с.

71. Андриянов В.Н., Мираламов Г.Ф. Гейдар Алиев: из серии ЖЗЛ. Баку: Нурлан, 2008. – 623с.

72. Армянскій Вестникъ, № 1, 1916. – С.16-20.

73. Армянский вопрос. Энциклопедия, Ереван, 1991. – С. 344-356.

74. Армянский вопрос перед мирной конференцией, (Перевод с армянского А.Кечеджиева), Екатеринодар: Издание М.К. – Г., 1919. – 205 с.

75. Арутюнян Г.М. Реакционная Политика Английской Буржуазии в армянском вопросе в середине 90-х годов XIX века (Автореферат). Москва, 1954. – 78 с.

76. Архив Русского Географического Общества (АРГО), Разряд 93, Оп.1, Дело 7, л. 4.

77. Барановъ Е. Война съ Турціей и Армяне. Москва: Типографія Т-ва И.Д. Сытина, 1915. – С. 25.

78. Барсегов Ю.Г. Геноцид Армян – преступление по между-народному праву. М.: Согласие,2000. – С. 42-43.

79. Борьян Б.А. Армения. Международная дипломатия и СССР, Часть I, Государственное Издательство, Москва-Ленинград, 1929, 261 с.

80. Величко В.Л. Кафказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990. – 176 с.

81. Глинка С. Описание переселения армян азербайджанских в пределы России, с кратким предварительным изложением истори-ческих времен Армении. Баку: Элм, 1990. – 142 с.

82. Джилевегов К. Армения и Турция. Москва: Издательство Правда, 1946. – С.10.

83. Діевъ А. Армянскій вопросъ въ Турціи. Положеніе Армянъ въ Турціи до Вмешательства Дердавь въ 1895 Году. Москва: Типо-литографія Т-ва И.Н. Кушнеревъ, 1896. – С. 419.

84. Диллонъ Э. Положеніе Делъ въ Турецкой Арменіи", (Переводъ съ Англійскаго А.Л.М.), Положеніе Армянъ въ Турціи до Вмешательства Дердавъ въ 1895 году. Москва: Типолитографія Т-ва И. Н. Кушнеревъ. 1896. – С.332.

85. Исторические факты о деяниях армян на азербайджанской земле. НАН Азербайджана. Бишкек: Магамедиа, 2009. – 304 с.

86. Карамян К.Н. Положение западных армян, "Армянский вопрос", и международная дипломатия в последней четверти XIXвека и начале XXвека, Автореферат, Ереван, 1972, с. 59.

87. Каринян А.К характеристике армянских националистических течений // Большевик Закавказья, №: 7-8, Тифлис, 1928. – С. 65.

88. Качазнуни О. Дашнакцутюн больше нечего делать! (С предисловием С. Ханояна). Баку:Изд-во Элм, 1990. – 92 с.

89. Киракосян Дж.Западная Армения в годы первой мировой войны. Ереван: Изд-во Ереванского университета, 1971, с.112.

90. Кочар Мери. Армяно-турецкие общественно-политические отношения и армянский вопрос, Ереван: Изд-во Ереванского университета, 1988. – С. 21-22.

91. Лазарев Я.Д. Причины бедствий армян в Турции и ответственность за разорение Сасуна. Тифлись, 1895, 46 с.

92. Маевский В.Т. Армяно-Татарская Смута на Кавказе, какъ одинъ изъ Фазисовъ Армянскаго Вопроса. Тифлись: Типографія Штаб Кавказкаго Военного Округа, 1915. – 250 с.

93. Маевский В.Т. Военно-Статистическое Описание Ванского и Битлисского Вилаетовъ. Издание Штаба Кавказского Военного округа. Тифлис, 1904, 150 с.

94. Макколь. Ответственность Англии перед Арменией. 1980. 188с.

95. Маркс К.и Энгельс Ф., Сочинения. Т.39, с. 270-271.

96. Мнацаканянъ Г.Д. Разрешеніе Армянскаго Вопроса. Москва: Типографія Х.Бархударянцъ, 1914, с.15-17.

97. Нуриев С., Гусейнов Р. Несколько слов о фамилиях и именах армян // Истина, № 6 (24), 2006, с. 50-51.

98. Оганджанян Артём. 1915 год. Неоспоримые свидетельства: Австрийские документы о геноциде армян. Санкт-Петербург, 2005, 224 с.

99. Павлович М. Революционная Турция. Москва:Гос. Изд-во, 1921, 240 с.

100. Российский Государственный Архив Военно-Морского Флота, (РГАВМФ), Фонд 417, Оп.1, Дело 1516, л. 41б.

101. Российский Государственный Исторический Архив, (РГИА), Фонд 408, Op.1, Дело 270, л.1 ob.

102. Саркисян Е.К. Политика Османского правительства в Западной Армении и державы в последней четверти XIX и начале XX вв. Академия наук Армянской ССР, Ереван, 1972.

103. Сейит Сертчелик. Банковский сектор Османской империи в XIX-начале XX вв. Роль и интересы в нём европейских государств и России. Проблемы современной экономики: Евразийский Международный научно-аналитический журнал. № 4(24), 2007, 368 с.

104. Семенов В.И. Поездка въ Малую Азію въ 1901-1902 гг. С.-Петербургъ: Изданіе Военно-Статистическаго Отдела Главного Штаба. 1904, 207 с.

105. Тыркова Аріадна. Старая Турція и Младотурки. Годъ в Константинополе. Петроградъ: Типографія Б.М. Фольфа, 1916, с.69.

106. Фредерикъ Д. Гринэлджъ. Армянский кризисъ и владычество турокъ (Сасунская резня) (Перевод с английского), Положение Армянъ въ Турции до вмешательства Дердовъ въ 1895 году, Типо-литография т-ва И.Н.Кушнеревъ. Москва, 1896, 323с.

107. Хвостов В. Ближне-Восточный кризис 1895-1897 гг., Историк-Марксист. Т.13, Москва, 1929. – с.19-51.

108. Шаумян С. Статьи и речи // Бакинский рабочий, 1924.

109. Шавров Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа в Мугани инородцам. Баку, 1990, 156 с.

110. Akopyan A. URL:http://forum.hayastan.com

111. VoskanyanV.URL:http://forum.hayastan.com/index.phpshowtopic

MÜNDƏRİCAT

GİRİŞ 6
Qarabağ: ən qədim dövrlərdən günümüzədək 14
Qarabağın tarixi-coğrafi mövqeyi 19
Ermənilərin Qarabağda məskunlaşması 22
Ermənilərin türk torpaqlarında dövlət qurmaq səyləri 26
Rusiyanın dövlət maraqları və ermənilər 26
Erməni komitələri 32
Erməni üsyanlarına doğru 41
Musa bəy hadisəsi 43
Ərzurum hadisəsi 44
Qumqapı mitinqi 46
Erməni silahlı dəstələrinin Türkiyəyə hücumu 48
Rusiyanın Qafqaz ermənilərinə təsiri 52
Merzifon və Yozqat hadisələri 56
Sasun üsyanı 60
Babıali mitinqi və Anadoluda erməni hərəkatları 67
Zeytun üsyanı 72
Van üsyanı və İngiltərənin erməni siyasətinə təsiri 80
Osmanlı bankına basqın 87
Muş hadisələri və II Sasun üsyanı 90
II Əbdülhəmidə qarşı terror cəhdi 95
Ərzurum və Bitlis üsyanları 97
Adana hadisələri 99
Ermənilərin uydurma qırğın iddiaları 104

Erməni uydurmaları. Qədim erməni dili haqqında qeyri-real iddialar 116
Ermənilərin bəd əməlləri və məkrli niyyətləri tarixi mənbələrdə 119
Ermənistan-Azərbaycan münaqişəsi müasir mərhələdə 133
Erməni düşmənçiliyi: dünən və bu gün 133
Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi 160
Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım 170
Ermənistan-Azərbaycan qarşıdurmasının tarixi....179
Qarabağ münaqişəsinin siyasi həll yolları 205
Ermənistan tərəfindən işğal edilmişAzərbaycan ərazilərində törədilmiş cinayətlər 216
Cənubi Qafqazda Azərbaycanın geosiyasi mövqeyi....251
Avropa Birliyi və Azərbaycanda hüquqi dövlət quruculuğu....283
"Biz öz tarixi topraqlarımıza qayıdacağıq" 296
Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ulu öndər Heydər Əliyevin fəaliyyəti 303
Qarabağ atları....317
Qarabağ ədəbiyyatı 319
Azərbaycanın konservatoriyası və təsviri sənət beşiyi 322
Çaylar, bulaqlar və yaylaqlar 324
Qarabağın məşhur tayfaları....325
Azıx mağarası 326
Tarixi Azərbaycan torpağı Zəngəzur....325
Erməni cinayətləri və azərbaycanlıların deportasiyası 329

Qanlı cinayətlərin canlı şahidi 333
Tarixin qara səhifələri 336
Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri 335
Qarabağda erməni cinayətlərinin ümumi statistikası.....341
Azərbaycan Respublikası müstəqillik dövründə.....343
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
"Valday" klubunda çıxışından 355
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
MDB dövlət başçılarının Aşqabadda keçirilən iclasında
çıxışından.....361
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Dini Liderlərin II Sammitində çıxışından.....365
Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin
Bakı Dövlət Universitetində çıxışından.....367
Prezident İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin
Dövlət başçıları Şurasının videokonfrans formatında keçirilən
iclasındakı çıxışı 370
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Vətən
müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradındakı
çıxışı (10 dekabr 2021-ci il).....371
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Milli
Məclisdəki çıxışı (16 iyun 2021-ci il).....375
Azərbaycan Respublikasının Prezidenti, Silahli Qüvvələrin
Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında
çıxışı (8 noyabr 2021-ci il).....381
Həqiqətin təntənəsi 386

Azərbaycanın Qarabağ bölgəsində işğal olunmuş və 44 günlük müharibə nəticəsində azad olunmuş əraziləri haqqında məlumat.....398

NƏTİCƏ.....399

ƏLAVƏLƏR

Əlavə 1: Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin Bəyanatı (10 noyabr 2020-ci il).....401

Əlavə 2: Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş Nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı (11 yanvar 2021-ci il) 403

Əlavə 3: Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi (15 iyun 2021-ci il) 405

Əlavə 4: Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 iyul 2021-ci il).....413

Əlavə 5: Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti (27 sentyabr 2021-ci il).....416

Əlavə 6: Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatları (26 oktyabr 2021-ci il) 423

Əlavə 7: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bəyanatı (Soçi, 26 noyabr 2021-ci il) 429

Əlavə 8: 2021-ci il dekabrın 14-də Brüsseldə Avropa İttifaqı Şurası Prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli formatda görüş

Əlavə 9: Azərbaycanın tarixi xəritələri 432

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT 466

Sadir Məmmədov
Tural Məmmədov

QARABAĞ: MİF VƏ HƏQİQƏT
BAKI–2022

Nəşriyyat redaktoru
Mustafa Çəmənli
Əməkdar mədəniyyət işçisi

Dizayner
Təhmasib Mehdiyev

Korrektor
Pərvin Quliyeva

Çapa imzalanmışdır 27.12.2021.
Format 60x90 1/16. Fiziki çap vərəqi 30.
Sifariş 2. Tiraj 500.

"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin
mətbəəsində çap olunmuşdur

Bakı, AZ1052, F.Xoyski küç., 149
e-mail: tahsil_az@yahoo.com
Tel.: (+994 12) 567-81-28/29